
Vətəndaş cəmiyyətinə
yol açan ideyalar
RAMİZ MEHDİYEV
Bakı - 2006

***Azərbaycan özü qədər əbədi***

# Vətəndaş cəmiyyətinə yol açan ideyalar

Ramiz Mehdiyev

***"Azərbaycan***" qəzetinin "
***Azərbaycanın özü qədər əbədi***"
silsiləsindən nəşr etdirdiyi III KİTAB

*On sözün müəllifi:*

Rəbiyyət Aslanova,
professor, fəsəfə elmləri doktoru,
Milli Məclisin komissiya sədri

*Redaktor:*

Ziyad Samədzadə,
akademik,
Milli Məcilsin komissiya sədri

*Buraxılışa məsul və tərtibçi:*

Bəxtiyar Sadıqov,
Milli Məclisin deputatı

"Vətəndaş cəmiyyətinə yol açan ideyalar" kitabı fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin 2002-2006-cı illərdə "Azərbaycay" qəzetində çap edilən əsərlərinin və onlara həsr olunan rəylərin məcmusudur. Azərbaycanın müstəqillik dövrünün fundamental salnaməsi olan bu əsərlərdə ölkəmizdəki sosial-iqtisadi inkişaf, baş verən mütərəqqi siyasi dəyişikliklər, aparılan hüquqi, demokratik islahatlar konseptual şərh edilmiş, Heydər Əliyev irsinın milli inkişaf strategiyasına çevrilməsi və bu siyasi xəttin Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsi əsaslandırılmışdır. Görkəmli elm xadimlərinin, ziyalıların, mütəxəssislərin rəylərində isə Azərbaycanın son 13 illik dövrünü əhatə edən intibah mərhələsi məhz bu araşdırmalara kontekstində təhlil olunmuşdır.

"Azərbaycan" qəzetinin "Azərbaycanın özü qədər əbədi" silsiləsindən nəşr etdirdiyi bu növbəli kitab elmi ictimaiyyət, geniş oxucu kütləsi və Heydər Əliyev irsinin tədqiqatçıları üçün dəyərli töhfədir.

ISBNIO 9952-8056-0-6
ISBN10 978-9952-8056-0-3"

©"Azərbaycan" qəzeti 2006

# Kitabdakı əsərlər:


- XXT əsrdə milli dövlətçilik:
  demokratik inkişaf və müxalifət
- Əsl vətəndaş, böyük şəxsiyyət və
  qüdrətli lider haqqında bəzi düşüncələr
- Heydər Əliyev irsi dünya siyasi elminin
  qiymətli nailiyyətinə çevriləcək
- Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi
- Azərbaycan: qloballaşma dövrünün tələbləri
- 2005-ci il parlament seçkiləri; ilkin təhlil
  (mülahizələr, nəticələr və proqnozlar)
- Müasir Azarbavcan fəlsəfi fikrinin aktual problemi
- Heydər Əliyevin siyasi portretinin cizgiləri

## RAMİZ MEHDİYEV

Professor, fəlsəfə elmləri doktoru Ramiz Ənvər oğlu Mehdiyev 1938-ci il aprelin 17-də Bakı şəhərində anadan olmuşdur.

1957-ci ildə Bakı Dənizçilik Məktəbini bitirdikdən sonra 1961-ci ilədək "Xəzərdənizneftqazsənaye" Ümumittifaq İstehsalat Birliyinin Xəzərneftdonanma İdarəsində çalışmışdır. 1961-ci ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə daxil olmuşdur. 1965-ci ildə V kurs tələbəsi olarkən Azərbaycan LKGİ MK-nın tələbə şöbəsinin təlimatçısı vəzifəsinə irəli çəkilmiş, 1967-68-ci illərdə Naxçıvan Vilayət Komsomol Komitəsinin ikinci katibi işləmişdir. 1968-ci ildə M.V.Lomonosov adına MDU-nun fəlsəfə fakültəsinin aspiranturasına daxil olmuşdur. 1972-ci ilin mayında Moskva Dövlət Universitetinin fəlsəfə fakültəsinin Elmi Şurasının iclasında fəlsəfə elmləri namizədi alimlik dərəcəsi alraq üçün dissertasiya müdafiə etmişdir. 1972-ci ildən Azərbaycan Dövlət Universıtetində müəllim, sonra baş müəllim işləmişdir. 1974-cü ilin mayında Azərbaycan KP MK-nın Təbliğat və təşviqat şöbəsinin mühaziraçisi vəzifəsinə irəli çəkilmişdir. 1976-cı ilin iyununda Azərbaycan KP MK-nın Elm və təhsil şöbəsi müdirinin müavini vəzifəsinə təsdiq edilmişdir. 1978-ci ilin oktyabrında Azərbaycan KP 26 Bakı Komissarı adına Rayon Komitəsinin birinci katibi seçilmişdir. 1980-ci ilin iyununda Azərbaycan KP MK-nın Elm və təhsil şöbəsinin müdiri, 1981-ci ilin yanvarında isə Təşkilatpartiya işi şöbəsinin müdiri vəzifəsinə təsdiq olunmuşdur. 1983-cü ilin dekabr ayında Azərbaycan KP MKnın katibi seçilmişdir. 1988-ci ilin mayında MK plenumunda Ə.Vəzirovun təkidi ilə Azərbaycan KP MK-nın katibi vəzifəsindən azad edilmişdir. 1988-ci ilin iyununda Azərbaycan Elmlər Akademiyasının İctimaiSiyasi Tədqiqatlar və Informasiya İnstitutunun şöbə müdiri təyin olunmuşdur. 1993-cü ildə fəlsəfə əlaqələri doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir. 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Prezidenti tərəfindən Prezident Aparatının şöbə müdiri, 1995-ci ilin fevralında isə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri təyin olunmuşdur. 1980-1990-cı illərdə iki çağırış Azərbaycan Ali Sovetinin deputatı olmuş, 1995-ci ildə isə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. İki dəfə Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**Kitabları:** Millətlərarası münasibətlər: problemlərin təhlili və həllinin axtarışı (rus dilində). XX əsrin sonlarında millətlərarası münasibətlər (rus dilində). Azərbaycanlılara qarşı soyqırımı gerçəklikləri (Azərbaycan, ingilis, rus dillərində). Azərbaycanın inkişaf dialektikası. Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi. Azərbaycan: qloballaşmanın tələbləri (Azərbaycan, rus, türk dillərində). Fəlsəfə (rus dilində). 2005-ci il parlarament seckiləri: ilkin təhlil (Azərbaycan və rus dillərində) və s.

Kitab Azərbaycan xalqının
ümummilli lideri

**HEYDƏR ƏLİYEVİN**

əbədiyaşar xatirəsinə
ithaf edilir

*"Biz ölkəmizdə bütün imkanlardan istifadə etməliyik. İndi bizdə çox gözəl şərait var: iqtisadi artım, siyasi sabitlik, vətəndaş həmrəyliyi, iqtidarla xalq arasında vəhdət, birlik, vətəndaş cəmiyyətinin möhkəmlənməsi, demokratikləşmə prosesinin uğurla inkişaf etməsi, bölgədəki vəziyyətimizin möhkəmlənməsi, beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlığımız və regional müstəvidə lider mövqeyimiz. Budur bizim məramımız, budur bizim bugünkü həyatımız. Ən önəmlisi odur ki, biz gələcəyi də çox açıqaydın gorürük, bilirik ki, haraya gedirik, bizi nələr gözləyir. Bilirik ki, Azərbaycan qısa müddət ərzində dünyanın ən inkişaf etmiş ölkələri sırasında olmalıdır. Buna imkan var, siyasi iradə var, xalqın birliyi var, istedadı var və biz buna nail olacağıq".*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
***(Heydər Əliyev adına Ali Hərbi Məktəbin***
***növbəti buraxılışına həsr olunmuş***
***təntənəli mərasimdə çıxışından.***
***23 iyun, 2006)***

# ÖN SÖZ

İstər uzaq keçmişdə, istərsə də ən yaxın siyasi tarixdə dünya xəritəsində yer almış, real dövlətçilik taleyi yaşamış ölkələrin adı və tarixi ilə onları yaradan şəxsiyyətlərin adı və tarixi missiyası arasında əbədi vəhdət mövcud olmuşdur. Bu, yalnız tarixi yaddaşın təməlində uyuyan müqəddəs borc və minnətdarlıq hissi, yalnız obyektiv salnamə yaratmaq cəhdi də deyil, həm də cəmiyyət haqqında elmin əldə etdiyi nəzəri qənaət və qanunauyğunluqlardan biridir.

Bəşəriyyətin yaşadığı tarix belə bir qanunayğunluğu da təsdiqləyir ki, əsasən subyektiv təsəvvürlərə söykənən işğal və fəth fəlsəfəsini, cəng meydanlarında göstərilən məharəti, reallığın obyektiv axarına bələd olmaqla yaradılan dövlətin qurulması və idarə edilməsi missiyası ilə tamamlaya bilməyənlərin məramı nəticəsiz qalmış, ya da tam əks olan sonluğa gətirib çıxarınışdır; sabit dövlətçilik ənənələri formalaşa bilməmiş, həm konkret ölkənin, həm də bütövlükdə bəşəriyyətin faciələrə düçar olmasına səbəb olmuşdur.

Cəmiyyətşünaslıq elmi məhz yaradıcı, qurucu insanların irsini, təcrübəsini, dövlətçilik ənənələrinin öyrənilməsini öz tədqiqatlarının predmetinə çevirir. Bu fenomen şəxsiyyətlərin siyasi uğurunun sirləri, fövqəlmürəkkəb durumlardan çıxış yolu tapmaq məharəti heç vaxt köhnəlmir, ictimai elmin möhkəm nəzəri təməl və müddəaları kimi hər bir ölkədə, hər yeni gələn nəsil tərəfindən yenidən və yenidən öyrənilir.

Ümummilli lider Heydər Əliyev həm suveren Azərbaycan dövlətinin, həm də dövlət yaratmaq elminin banisi kimi bu müqəddəs şəxsiyyətlərin sırasındadır.

Çoxşaxəli fəaliyyətinin hər bir məqamına münasibətdə "ilk dəfə" sözünün tətbiq edilə bildiyi Heydər Əliyev fenomeninin Azərbaycan xalqı qarşısındakı xidmətlərinin bütün spektrini sadəcə sadalamaq belə çətin məsələdir və ayrıca bir kitaba da sığınayan mövzudur. Xalqımız bunları, belə demək mümkünsə, təbii təhtəlşüur səviyyəsində hiss edir, ulu öndər qarşısında əbədi minnətdarlıq duyğusunu əziz tutur.

Heydər Əliyev ideyalarının və əməlinin həqiqi dəyəri və sanbalı, bir tərəfdən, yaşanılan zamanın özəllikləri, XX əsrin ikinci yarısındakı qlobal durum, bütün dünya düzəninin sistemli böhranı və struktur transformasiyası fonunda daha aydın və qabarıq görünə bilər. Digər tərəfdən isə, Azərbaycanda müstəqil dövlətin yaradılmasının nəyin bahasına mümkün olması, sosialist düşərgəsinin çökdüyü bütün ölkələrlə müqayisədə burada mövcud olan çətin, fərqli şəraitin özəlliyi nəzərə alınmaqla dərk edilə bilər.

Bir çox ölkələrin "geriyə" İkinci dünya müharibəsinə qədərki duruma müstəqil olduqları dönəmə, kapitalizmə qayıtmaları ilə bərpa işlərinə başlanıldı və "dairə qapandı". Azərbaycanda isə bu mənada bərpadan söhbət gedə bilməzdi. XX əsrin əvvəllərində, yaradılmamış süquta uğradılan, cəmi iki il yaşı olan müstəqil cümhuriyyətdən nəinki bərpa olunası bir möhkəm təməl, sadəcə xronoloji olay və şüarlardan başqa heç bir siyasi, hüquqi, ideoloji, iqtisadi və s. irs qalmamışdı. Bu baxımdan müstəqilliyin bərpa olunması kimi fikirlər, əlbəttə ki, simvolik xarakter daşıyır. Çünki Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyini ağlagəlməz dərəcədə çətin geosiyasi məkanda, dünya güc mərkəzlərinin müdhiş maraqlarının çarpışmasının son həddə çatdığı, daxili xaosun kulminasiya məqamında bərpa etməmiş, özülündən, "ilk kərpicdən" başlayaraq yaratmışdır.

Bu gün qürurla vətəndaşı adını daşıdığımız Azərbaycanda "müstəqillik", "demokratik dövlət", "vətəndaş cəmiyyəti" və s. kimi anlayışların lakonik məzmununa vərdiş etmişik, onların arxasında duran möhtəşəm mənanı, titanik fədakarlığı bəzən tam dərk edə bilmirik.

Bütün dünyada qlobal konfiqurasiyanın sanki məhvərindən çıxdığı bir dönəmdə keçmişin "dəmirbeton" müddəalarından, indinin çevik,

təxirəsalınmaz, refleksiv qərarqəbuletmə metodlarına sövqtəbii fəhmlə keçid almaq zamanın çağırışına çevrildi. Məmləkəti təhdid edən qeyrimüəyyən inkişaf vektorlarının xaotik çulğaşdığı bir məqamda, əsrlərlə reallaşması arzu olaraq qalan suveren Azərbaycan dövlətinin var olmasına aparacaq yalnız bir, yeganə düzgün yolun seçimini etməyi bacaran, müstəqilliyə həyat verən, onu dönməz və əbədi edən qüvvənin sadəcə bir insanın Heydər Əliyevin simasında cəmləndiyinə heyrət etməyə bilmirsən.

İnsanlara sarsılmaz inamı müqabilində, onların etibar və dəstəyini qazanaraq siyasi müdrikliyi və fəhmi, ictimai erudisiyası, nəzəriyyəsi və praktiki peşəkarlığı, qətiyyət və təmkini bir araya gətirmək, qeyriadi problemlərin yeganə optimal həlli variantlarını sezmək tarixi şəxsiyyətin fərqli keyfiyyətidir. Azərbaycanın özünəməxsus inkişaf paradiqmasını müəyyənləşdirmək, bütün fəaliyyəti dövründə xalq məhəbbətinin gerçək nümayişini görə bilmək yalnız ulu öndərimizə nəsib olmuşdur.

Dövlətçilik yaşı əsrlərlə sayılan ölkələrlə müqayisədə, tarixin bir anı sayılan zaman müddətində Azərbaycanın strateji geosiyasi, ideoloji, sivilizasion vektorlarının seçilməsi, dövlət yaradıcılığının hansı institusional genezis formalarına önəm verilməsi, intellektual, siyasi, iqtisadi resursların səfərbər edilməsi, cəmiyyətin siyasi palitrasındakı ən müxtəlif mənbələrdən idarə olunan, ziddiyyətli siyasi maraq və oriyentasiyaları bir nüvədə cəmləməyə, bir hədəfə vurmağa nail olmaq siyasət dahisinin Heydər Əliyevin xidmətlərinin adi şüur prizmasından görünən natamam bir rakursudur.

XIX əsrdən Azərbaycanın taleyində baş verən miqyaslı tarixi olayların səbəbi, bu vaxtadək başqalarının nəsibi olan təbii sərvətin neftin strateji məhsul kimi ilk dəfə Azərbaycanın başlıca sərvəti olan insanların və qeyrineft sektorunun rifah və yüksəlişi vasitəsinə çevrilməsini, Azərbaycan üçün mövcud olmasını təmin etdi.

Qlobal güc mərkəzlərinin nisbəti və dinamikasına dərin bələd olmaqla Azərbaycanın geosiyasi mövqelərinin üstünlüklərindən istifadə etməyə, yalmz təbii sərvətlər hesabına deyil, siyasi sabitlik yaratmaqla

ölkənin investision reytinqinin artırılması, cəmiyyətin bütün sahələrində dövlət tənzimlənməsinin bərqərar olduğuna inandırmaq sayəsində ölkəmizi dünyaya tanıtdırmağa qadir oldu. Bütün bunların bəhrəsi kimi Azərbaycana, bir çox ölkələr üçün əlçatmaz arzu olan regional lider, demokratik dünyəvi dəyərlərə sadiq, fundamental ifratçılıqdan uzaq cəmiyyət kimi qlobal inkişaf layihələrinin ideal platsdarını statusunu qazandırdı.

Ölkə daxilində, dövlətcəmiyyət münasibətlərində populist, bayağı frazeologiya, subyektiv emosional radikalizmdən uzaq, real elmi əsaslara, həyat fəlsəfəsinə malik hakim elitanın formalaşdırılmasını, "elita" sözünün etimoloji mənasına uyğun olaraq onun "ən yaxşı siyasi idarəetmə keyfiyyətlərinə malik seçilmiş elita" olduğunu göz önündə baş verən uğurun təkamülü sübut edir. Yaratdığı hakim partiyanın siyasi konsolidasiyası, xalqla sarsılmaz alyansı, lider amalının milli dövlətçilik amalına çevrilməsi yaşadığımız tarixin reallığıdır. Azərbaycan dünyada gedən proseslərin passiv müşahidəçisindən fəal subyekti sırasına adladı.

Tarixə və dünya siyasi xəritəsinə suveren Azərbaycanın adını həkk etdi. Müstəqil dövlətin və dövlət yaratmaq haqda elmin əsaslarını yaratdı.

Postsovet məkanındakı başqa ölkələrlə müqayisədə Azərbaycanın fövqəlmürəkkəb start şərtləri, inkişafın reallaşdırılması istiqamətində onun əlqolunu bağlayan, "imkanlar koridoru"nu son dərəcə daraldan ErmənistanAzərbaycan, Dağlıq Qarabağ münaqişəsi kimi əlavə ağırlaşdırıcı təzyiq faktorunun mövcudluğu şəraitində baş verməsi ulu öndərin Azərbaycan qarşısındakı xidmətlərinin misilsiz olduğunu başa düşməyə kömək edir.

Müstəqillik azad siyasəti, yəni öz inkişafını suveren milli maraqlardan çıxış edərək qurmağı nəzərdə tutur. Ümummilli liderin siyasi uğurunun ana xəttini məhz milli maraqların prioritet hədəf kimi seçilməsi təşkil etmişdir. Hazırda bütün postsovet məkanında çoxçalarlı "demokratiya" anlayışmı bəsit mənada, kimlərinsə diktə etdiyi universal model kimi başa düşənlər, öz siyasi proqramlarını Qərbə ünvanlayan, hər bir məsələyə müxtəlif mənbələrdən bildirilən münasibətlər müqabilində

həmən güzəştə getməyi şüar tutan, buna ümid edən təqlidçi və təslimçi siyasi qüvvələr məğlubiyyətə uğramış, marginal qurumlara çevrilmişlər. Demokratik transferin, vətəndaş cəmiyyətinin hazır reseptlər və "ixrac modelləri" əsasında deyil, Azərbaycanın özünəməxsus tarixi, siyasi, mədəni spesifikasından irəli gələn milli maraq və təməllər üzərində qurulmasını üstün tutan Heydər Əliyev siyasi kursu davamlı qələbələrin rəhninə çevrilmişdir.

Yeni dünya düzənində lider-cəmiyyət qarşılıqlı münasibətlərində üzə çıxan yeni keyfiyyət dəyişikliklərindən biri budur ki, siyasi proseslərin yeni subyektləri xalq, cəmiyyət, insan qrupları dəyişikliklərin, vətəndaş cəmiyyətinin başlıca faktorları kimi siyasi fəallığın episentrini təşkil edirlər.

Belə dönəmlərdə siyasəti və siyasətçiləri, onların məram və missiyalarını insanlara çatdırmaq üçün lider ideyalarının trayektoriyasını davam etdirmək, geniş kütlələrə düzgün təhlil və təqdim etmək kimi çox mühüm vəzifə ortaya çıxır. Məhz belə məqamlarda milli liderin siyasətinin xalq üçün anlaşıqlı dilə, bütün cəmiyyətin həyat devizinə çevrilməsinə yardımçı olan məsləkdaşlar siyasi liderlə xalqın arasında ümumi ünsiyyət məkanının formalaşmasına, üfüqi və şaquli müstəvilərdə xalq-lider dialoq kanalının yaranmasına, qarşılıqlı təmas nöqtələrinin davamlılığının təşkil edilməsinə yardımçı olurlar.

Son illər bu sahədə aparılan araşdırmalar və əldə edilən nəticələrə gəldikdə, görkəmli dövlət xadimi, Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri, fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin məqsədyönlü fəaliyyəti xüsusi önəm kəsb edir.

Ulu öndərin rəhbərliyi altında Azərbaycanda vətəndaş cəmiyyətinin təşəkkülü və formalaşması kimi tarixi hadisənin baş verməsi, dövlətçiliyin institusional əsaslarını səciyyələndirən struktur dəyişiklikləri, cəmiyyəti təşkil edən sosial tip və stereotiplərin birbirini əvəzləməsi prosesi kimi mürəkkəb mövzunun siyasifəlsəfi təhlili də müəllifin tədqiqatlarında ilk dəfə təhlilə cəlb edilmişdir.

Vətəndaş cəmiyyətinin formalaşması XX əsrdə elmi-texniki inqilabla yanaşı, ikinci, yəni sosial inqilab hesab olunur. Ramiz Mehdiyev

vətəndaş cəmiyyəti nəzəriyyəsinin əsasən Qərb mənşəli konsepsiya olduğunu vurğulamaqla yanaşı, onun özünəməxsus Azərbaycan modelinin yaradıcısının məhz Heydər Əliyev olduğunu, bu nəzəriyyənin praktiki siyasi gerçəkliyə çevirməsini hərtərəfli təhlil edir. Vətəndaş cəmiyyətinin Azərbaycan modelinin fonnalaşması özəlliklərinə diqqəti cəlb edərək bu nümunədə həmin nəzəriyyəyə xas bəzi məhdudluqlardan azad olmağa cəhd edilməsini, onu həqiqi mənasına yaxınlaşdırmaq məramını önə çəkir. Azərbaycanda vətəndaş cəmiyyətinin qurulması prosesində qarşıya çıxan problemlərin, həm ikiqütblü dünyanın, həm də yeni və köhnə ideologiyaların kəskin mübarizəsi, bu məkanda toqquşan maraqların yüksək gərginliyi fonunda ardıcıl olaraq həll edildiyi üçün tarixi nailiyyət kimi daha dəyərli olduğu qeyd edilir. Vətəndaş cəmiyyətinin formalaşması istiqamətində prioritet hədəfləri müəyyən edən ümummilli liderin yeni münasibətlərin qurulacağı müstəqil siyasi, iqtisadi, hüquqi, mədəni, mənəvi məkanı təmin etməsi vurğulanır.

Heydər Əliyevin bünövrəsini qoyduğu vətəndaş cəmiyyətinin ən başlıca xüsusiyyəti kimi müəllif Azərbaycanda ilk növbədə insanlar arasında Vətəndaş Sülhünün bərqərar olmasını qeyd edir, bu münasibətlərə ümumi qarşıdumıa və vətəndaş müharibəsini aradan qaldırmaqla nail olmasını diqqət mərkəzinə gətirir. Yeni cəmiyyətin qurulması üçün zəruri olan siyasi sabitliyə təkamül pauzasına yalnız vətəndaş sülhünün imkan yarada biləcəyini fəhmlə sezməsini xatırladır.

Vətəndaş cəmiyyətinin Heydər Əliyev konsepsiyasında insanlararası münasibətlərin və mütərəqqi inkişafın başlıca qarantı kimi dövlətin rolunun möhkəmləndirilməsi xüsusi önəm kəsb etmişdir. Dövlətin vətəndaşların ən müxtəlif maraq və mövqeləri arasında anlaşma, humanitar ünsiyyət məkanını təşkil etmək kimi müqəddəm şərtləri təmin etməsinə böyük əhəmiyyət verilmişdir. Vətəndaş fəallığının ilk növbədə vətəndaş mədəniyyəti, demokratik və siyasi mədəniyyətdən ayrılmaz olduğu, azadlıq və məsuliyyətin kövrək balansının daim gözlənilməsi, fərdi fəallıqla milli maraqların, dövlətin qüdrəti və nüfuzunun artması arasında ahəngin saxlanılmasının vacib olduğu sübut edilmişdir.

Yeni vətəndaş cəmiyyəti təsisatlarının Qərb təcrübəsinə və Qərbin müxtəlif məzmunlu dəstəyinə əsaslanması təbii bir prosesdir. Lakin burada vətəndaş cəmiyyətinə süni imitasiya yaratmaq cəhdlərinin gərəksiz olduğu Ramiz Mehdiyevin tədqiqatlarında geniş təhlil edilmişdir. Əksinə, bu təsisatlar vətəndaş təşəbbüskarlığının, inkişaf strategiyasında gerçək altemativ variantlar varsa, onlara dair təkliflərin verilməsi, problemlərin müxtəlif baxış bucağmdan görüntüsü və konkret həlli yollarının tövsiyə edilməsini əlaqələndirən vətəndaş fəallığı mərkəzlərinə çevrilməsi, onların həqiqi təyinatları və məramının reallaşması demək olardı.

Vətəndaş cəmiyyəti hər bir dövlətdə sadəcə müəyyən hüquqi mexanizm və qurumların yaradılması deyil, hər şeydən əvvəl vətəndaş, dövlət münasibətlərinin özəl, ahəngdar bir durumudur. Ulu öndər təməlini qoyduğu Azərbaycan modelində sübut etdi ki, vətəndaş cəmiyyəti bir tərəfdən dünyanın demokratik, siyasihüquqi təşkilatlanmasının universal modelidirsə, digər tərəfdən sosial münasibət və strukturların möhtəşəm müxtəlifliyini, vətəndaşların fikir və təşkilatlarına plüralizmini, qarşılıqlı dialoq və tolerantlığı tələb edir. Bu gün Azərbaycanda gedən təkamül prosesi Ramiz Mehdiyevin belə bir fikrini təsdiq edir: "Əgər XX əsr Azərbaycan dövlətinin və xalqının tarixində müstəqilliyin qazanılması ilə yadda qalacaqsa, XIX əsrə və yeni minilliyə Azərbaycan hüquqi sivil dövlət, vətəndaş cəmiyyəti quran ölkə kimi daxil olmuşdur".

Siyasi liderin ideyalarını geniş xalq kütlələrinə, elmi ictimaiyyətə obyektiv, nəzərikonseptual şəkildə, ictimai şüurda, media məkanında təqdim etməklə, onun strategiyasını diskussiyaların başlıca mövzusuna, ana xəttinə çevirməklə, ideyaların maddi gücə və xalqın hər şeyə qadir enerjisinə transformasiyasını mümkün etməklə liderlə çiyin-çiyinə olan insanlar da müqəddəs yolun yolçuları olurlar.

Sirr deyil ki, dahi ideya və əməllər mövcud olduğu konkret zaman və məkanın fövqündə olur, onların dərk edilməsi, dünyagörüşə nüfuz etməsi də zaman keçdikcə əsl dəyərini alır.

Ulu öndərin müstəqil dövlətçilik, demokratik vətəndaş cəmiyyətinin qurulmasına dair ideyasiyasi irsi əbədi və aktual olduğu kimi, alim və tədqiqatçılar, siyasi analitik və ekspertlər üçün əvəzsiz nəzəri mənbədir. Heydər Əliyev dühasının möhtəşəm mənasının dərk edilməsi, Azərbaycanın uzunmüddətli inkişaf perspektivlərinin müəyyənləşdirilməsi baxımından bu irsdən bəhrələnmək sahəsində görülən işlər artıq bir neçə ildir ki, tarix, fəlsəfə, politologiya, hüquq, idarəetmə və s. ictimai elmlərin birləşmə nöqtəsində öz metodlarını, predmetini formalaşdırmaqdadır.

Azərbaycanın müasir tarixinin fəlsəfi siyasi problemlərinin peşəkar tədqiqatçısı olan Ramiz Mehdiyevin Heydər Əliyev irsinin öyrənilməsində, təbliğində, yazılı nümunələr kimi gələcək nəsillərə çatdırılmasında rolu çox böyükdür. Ömrünün 30 ildən artıq dövrünü Heydər Əliyevin idarəçilik komandasının üzvü kimi keçirən Ramiz Mehdiyev şəxsi həyat təcrübəsi və müşahidələrini elmi-metodiki prinsiplərlə uzlaşdıraraq Heydər Əliyev haqqında son illərin ən mükəmməl əsərlərini ərsəyə gətirmişdir. Bu fundamental əsərlər Azərbaycanın az qala yarını əsrlik tarixinin obyektiv, canlı salnaməsidir. Bizə bu qədər yaxın və əziz olan, lakin artıq heç vaxt geri dönməyəcək bir epoxanın ab-havasını, mürəkkəb şəraitini bəzən siyasi tutum və sanbala malik təfərrüatlar, başlıca olaraq isə fəlsəfisiyasi təhlil, bitkin nəzəri müddəalar və obyektiv şərh üslubu ilə tamamlayan nadir müəllifdir.

Heç kimə sirr deyil ki, istər bütün dünya, istərsə də Azərbaycanda baş verən kardinal transformasiyaların axarı və tempi o qədər sürətli idi ki, onlara nəinki siyasi analitiklər, hətta KİV belə vaxtında, adekvat münasibət bildirməyə macal tapmırdılar. Professor Ramiz Mehdiyev həm baş verən hadisələrin bilavasitə iştirakçısı, Heydər Əliyev komandasının sadiq üzvü və məsləkdaşı, həm də özündə ən azı fəlsəfə, tarix, politologiya və idarəetmə elmlərinin əsas təhlil metodlarını cəmləyən alimdir. Ulu öndərin ideyalarının gerçəkləşməsinin canlı müşahidəçisi kimi onların faktiki təsviri, obyektiv gedişatının hərtərəfli təhlil süzgəcindən keçirilməsi, bütün bunların müəllifin elmi marağı, liderə sədaqət və inamına, vətəndaşlıq mövqeyinə uyğun tərzdə tədqiqata

cəlb edilməsi bu gün əliyevşünaslığın təməli hesab oluna biləcək dəyərli əsərlərin ortaya çıxmasını mümkün etmişdir.

Baş verən yeni məzmunlu proseslərə elmdə tam fərqli yanaşmaların tətbiqini tələb edən keçid dövründə peşəkar tədqiqatçı nəslinin yeni formalaşdığı bir şəraitdə ümummilli liderin irsini müxtəlif aspektlərdən işıqlandıran əsərlərin birbirinin ardınca işıq üzü görməsi elmi ictimaiyyət üçün əlamətdar olan amilə çevrilmişdir.

Müəllifin əsərləri həm özü, həm də oxucu ilə dialoq təsirini bağışlayır. Onların başlıca xüsusiyyəti isə proseslərin dərin və sərrast təhlili, düzgün proqnozların verilməsi, hadisələr arasındakı məntiqi bağların sezilməsi, Heydər Əliyev kursunun siyasi kontekstinin genişləndirilərək fərdi dünyagörüşü və ictimai şüurun üfüqlərinədək gətirilməsi, Azərbaycan adlı suveren məmləkəti yaradan dahinin müasiri və məsləkdaşı olmaqdan duyulan dərin məsuliyyət, ülvi qürur, həyat kredosunu müəyyənləşdirən tarixi şans kimi əvəzsizliyi hissini duymamaq qeyri-mümkündür.

Elmi ədəbiyyatda Kanada haqqıda belə bir deyim mövcuddur: "Ərazi çox böyük, tarix isə çox kiçikdir". Onu Azərbaycana tətbiq etməyə cəhd etsək və burada əksinə, tariximizin çox böyük, keşməkeşli və mürəkkəb olduğunu desək, yanılmarıq. Bu, xüsusən də Heydər Əliyev fenomeninin yaratdığı tarixə aiddir. Ramiz Mehdiyevin tədqiqatları bu dönəmin hər bir Azərbaycan vətəndaşının tarixi yaddaş və təfəkkürünə əbədi həkk olunması baxımından əvəzsiz mənbədir. Müasir elmin "ictimai şüurun səviyyəsi yaradılmış və yaşanılan tarixin nə dərəcədə mənimsənilməsindən və təhlilindən asılı olur" qənaətini əsas tutsaq, müəllifin bu səviyyəni nə qədər zənginləşdirdiyi göz önündədir.

Heydər Əliyev irsinin, əliyevşünaslığın geniş tədqiqi və təhlili üçün elmi təşkilati imkanların kifayət qədər intensivləşməsinə ehtiyac vardır. Əliyevşünaslığın elmi tədqiqatları koordinasiya edən mərkəz kimi institusionallaşmasına, ulu öndərin misilsiz irsinə sahib çıxan, onu geniş yayan, dünya ictimaiyyətşünaslığının dəyərli tərkib hissəsinə çevirə bilən ən müasir beyin mərkəzi kimi statusda fəaliyyətinə elmi və sosial sifariş mövcuddur.

Professor Ramiz Mehdiyevin haqlı olaraq qeyd etdiyi kimi, Heydər Əliyevin ideya dünyasının, nəzəri və praktik irsinin öyrənilməsi müasir Azərbaycan ictimai elminin mühüm vəzifələrindən biridir. Bu istiqamətdəki fəaliyyətin əsas məqsədi Heydər Əliyevin həm çıxışlarının, həm də quruculuq fəaliyyətinin əsasında dayanan metodoloji prinsipləri müəyyən etmək, onun mahiyyətini üzə çıxarınaqdan ibarət olmalıdır.

Hələlik Azərbaycanda Heydər Əliyev irsini öyrənməklə yanaşı, bu sahədə tədqiqatları istiqamətləndirən əlahiddə elmi mərkəz yoxdur. Aparılan elmi prosesin vahid mərkəzdən idarə olunmaması müəyyən məqamlarda sistemsizliyə yol açdığından, güman edirik ki, artıq belə bir koordinasiya institutunun təşkili barədə düşünməyin vaxtı çatmışdır.

"Azərbaycan" qəzetinin "Azərbaycanın özü qədər əbədi" silsiləsindən oxucuların diqqətinə təqdim etdiyi "Vətəndaş cəmiyyətinə yol açan ideyalar" adlı bu kitab da xalqımızm ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin əbədiyaşar xatirəsinə həsr olunub. Kitab professor Ramiz Mehdiyevin 2003-2006-cı illər ərzində "Azərbaycan" qəzetində işıq üzü görmüş tədqiqat materiallarından, müsahibələrindən və onun elmi əsərləri ilə bağlı rəylərdən ibarətdir. Bu məqalələrdə Heydər Əliyev irsi fəlsəfi-tarixi kontekstdə şərh edilmişdir.

İnanırıq ki, "Vətəndaş cəmiyyətinə yol acan ideyalar" kitabı da oxucular tərəfindən böyük maraqla qarşılanacaq və əliyevşünaslığa mühüm töhfə olacaqdır.

**Rəbiyyət ASLANOVA,**
**professor, fəlsəfə elmləri doktoru,**
**Milli Məclisin komissiya sədri**

# I FƏSİL

# CANLI HƏYATDAN NƏZƏRİYYƏYƏ

**Ramiz MEHDİYEV,**
**fəlsəfə elmləri doktoru**

# XXI ƏSRDƏ MİLLİ DÖVLƏTÇİLİK: DEMOKRATİK İNKİŞAF VƏ MÜXALİFƏT

***İdeyalar dünyanı idarə edir və dəyişir... Müasir cəmiyyətin böyük siyasi və mənəvi böhranı əvvəl-axır zehni anarxiyadan asılıdır. Bizim ən qorxulu xəstəliyimiz həyatın bütün əsas məsələlərinə münasibətdə beyinlərdə dərin fikir ayrılığının olmasıdır, halbuki bu məsələlərə səbatlı münasibət həqiqi sosial qayda-qanunun birinci şərtidir.***

**Ogüst KONT,**
**fransız filosofu, pozitivizmin və**
**sosiologiyanın banilərindən biri**

Sovet İttifaqının dağılmasından sonra digər 14 respublika ilə birlikdə Azərbaycan da dövlət müstəqilliyi qazandı. Beləliklə, milli dövlətin bərpa edilməsi XX əsrin sonu XXI əsrin əvvəlində Azərbaycan cəmiyyətinin inkişaf yolunu müəyyənləşdirən başlıca amilə çevrildi.

Milli dövlət cəmiyyət haqqında təsəvvürləri dəyişdirməyə və dövləti yalnız tamın bir hissəsi kimi deyil, həm də daha artıq dərəcədə bəşər tarixinin dərk edilməsi üçün mühüm əhəmiyyət kəsb edən bütöv bir sistem tək dəyərləndirməyə imkan verdi. Kommunist rejiminin süqutundan və totalitar sistemin iflasından sonra formalaşan milli dövlətimiz təbiitarixi inkişaf yoluna çıxmaq üçün geniş imkan qazandı. Azərbaycanın son dövr tarixi göstərdi ki, iqtisadiyyatı və cəmiyyəti sosialist metodları ilə idarə etmək praktikasından imtina edərkən biz sərbəst bazar iqtisadiyyatına əsaslanan demokratik cəmiyyətə keçid prosesini çox sürətlə aparınağa başladıq. Bu isə, öz növbəsində, yaranan problemlərin optimal həlli yollarının tapılmasını xeyli çətinləşdirdi.

Milli dövlət quruculuğu ətrafımızda cərəyan edən hadisə və proseslərə yeni nəzərlə baxmağa və onları keyfiyyətcə başqa səviyyədə dəyərləndirməyə şərait yaratdı. İctimai şüurun yeniləşməsinə və müasir təfəkkür tərzinin formalaşmasına güclü təsir göstərən milli dövlətimiz bu gün həm ölkə daxilində, həm də onun hüdudlarından kənardakı milyonlarla azərbaycanlını birləşdirən ümummilli ideyaya və vacib həyati faktora çevrilmişdir.

Dünya tarixi ən qədim dövrlərdən bəri dövlətçiliyin müxtəlif formalarının şahididir. Üçüncü minilliyin ilk çağlarında keçmişi araşdırarkən asanlıqla başa düşmək olar ki, tarix totalitar keçmişi yeni nəslin səmərələşdirici potensialı ilə tez-tez əvəz edir. Bu potensial cəmiyyətin həyatında daxil edilir, köhnə stereotipləri və həyatın adət halını almış normalarını dəyişdirir, cəmiyyətin inkişafını zənginləşdirir və təkmilləşdirir, müəyyən çərçivələri qurur və yeni sosiumun yaranmasına təkan verir. Tarixi təcrübə sübut edir: milli dövlətçilik yalnız elə bir cəmiyyətdə sabit və möhkəm ola bilər ki, orada icmanı milli dövlət quruculuğu səviyyəsinə qaldıraraq bu icmanı millətə, onun nailiyyətlərini isə tarixi qələbələrə çevirməyə qadir güclü və istedadlı lider olsun.

Təbii ki, hər bir quruluş dövlətçilik formalarına öz düzəlişlərini verərək idarəetmənin prioritetlərini və tiplərini dəyişdirmişdir. Quldarlıq quruluşu dövründə yol verilənlər, bəlkə də zəruri olanlar feodalizm dövründə aktuallığı çox tezliklə itirmişdir, Avropada maarifçilik və reformasiya dövrü fərdin azadlıq və hüquqlarının yeni tərzdə başa duşülməsinə və tamamilə yeni tərzdə dərk olunmasına yol açmışdır. Bu gün qloballaşma dünya proseslərinin ümumi nizamına, iqtisadiyyata, siyasətə və sosialmədəni məkana yeni düzəlişlər edir. Politoloqların dövlətin funksiyaları adlandırdıqları metaforaların bəzən dəyişməsinə, dövlətçiliyin formalarının, xarakterinin, keyfiyyət və mənasının zaman-zaman təkmilləşməsinə baxmayaraq, bir məsələ şəksizdir: istənilən dövlətçiliyin əsasını onun milli mənafeyi və idealı, birbirini tamamlayan və millətin, dövlətin inkişaf və tərəqqisini əvvəlcədən müəyyənləşdirən iki amil təşkil edir.

Qloballaşma dövründə dövlətin forma və prioritetləri, mənafe və idealları tədricən dəyişir. İndi dövlətin əsas mənafe və idealları, əvvəllər olduğu kimi, istila və zülmə deyil, xilas və bərpaya yönəldilmişdir. Nəzəriyyə praktika ilə çulğaşır və biz vahid dünya nizamının Yer kürəsində

birliyin, təhlükəsizliyə və sabitliyə təminatın harın oniyasını təmin etməyə qadir olan nizamın yaranmasının şahidi oluruq.

XXI əsrin milli dövlətçiliyindən danışarkən dərk etmək lazımdır ki, bu, qarşılıqlı surətdə birbiri ilə bağlı olan bir neçə amilin milli mənafenin, insan hüquqlarının və ümumbəşəri humanist dəyərlərin təcəssümüdür. İndi bütün bunlar milli dövlətçiliyin vahid, konkret seqmentini, özü də vətəndaş hüquqları və azadlıqlarına xeyli dərəcədə yönəldilmiş seqmenti təşkil edir. Hələ XX əsrin 40-cı illərində qloballaşmanın gələcək ideoloqları fiziki, iqtisadi və mədəni sərhədlər tanımayan ideal açıq cəmiyyət arzusımda idilər. Hazırda bu arzunun təcəssümü Yer kürəsinin əksər hissəsinin ümumdünya inteqrasiyası proseslərində fərdin sosial simasını və dünya nizamının geostrategiyasını dəyişən proseslərdə öz əksini tapır. İstər qloballaşma, istərsə də milli dövlətçilik obyektiv proseslər olaraq çox vaxt bir-biri ilə ziddiyyətə girir. Bu ziddiyyətlərin həlli üçün dövlətdən elmi surətdə işlənib hazırlanmış strategiyanın və yoxlanılmış siyasi texnologiyaların tətbiq olunması tələb edilir.

Bu gün dəqiq müəyyənləşdirilmiş dövlət sərhədləri çərçivəsində milli dövlətçilik inkişafın əsas atributu sayılmır. Tam monoetnik və mədəni cəhətdən yekcins cəmiyyət yaratmaq utopiyadır. Etnomillətçilik ideyası, yəni əraziyə və dövlətçiliyə müəyyən etnik qrupun sahiblik etməli olması barədəki təsəvvür də vətəndaş cəmiyyəti yaratmağa kömək etmir, əksinə, münaqişələr törədir. Milli dövlətçilik müstəqil daxili və xarici siyasət aparınaq üçün təkcə aqremanın olması da demək deyildir. Milli dövlətçilik vahid məqsəd uğrunda dövləti möhkəmləndirmək, iqtisadiyyatı modernləşdirmək və gələcək nəsillər üçün daha mükəmməl şərait yaratmaq naminə bütün millətin, bütün cəmiyyətin birliyinin rəmzidir. Azərbaycanın ən yeni tarixini əsas götürsək, habelə dövlət quruculuğu sahəsində dünya təcrübəsini nəzərə alsaq, inamla təsdiq edə bilərik ki, Azərbaycanda milli dövlətçiliyin bünövrəsi 1993-cil ildə, yeni siyasi elitanın səmərələşdirici potensialı əvvəlki elitanın dövlətin mahiyyəti və dünya birliyində yeri barədəki anarxist təsəvvürlərini dəyişdirdiyi dövrdə qoyulmuşdur. Biz burada milli dövlətçilik anlayışını və onun atributlarını hərtərəfli araşdırmağı qarşımıza məqsəd qoymuruq. Bu, ayrıca və olduqca çoxşaxəli işdir. Lakin təqdim edilən məqalənin mövzusu milli dövlətçiliyin elə əsasları ilə sıx çulğasır ki, bu əsaslar məhz dövlətin formalaşmasında

və təşəkkülündə, onun ardıcıl, sabit inkişafında və tərəqqisində mühüm rol oynayır. XXI əsrdə Azərbaycanın milli dövlətçiliyi elə bir insanın həyat fəaliyyətinin bəhrəsidir ki, onun amalları azərbaycançılıq ideyasının zəfər çaldığı, fərdin hüquq və azadlıqlarının təmin edildiyi, iqtisadiyyatın ardıcıl surətdə yüksəldiyi və ictimai inkişafa nail olunduğu məkan qurulmasına yönəlmişdir.

Yaşadığımız dünyanın bütün qabaqcıl demokratik ölkələrində dövlətin qanunlarına və cəmiyyetin normalarına uyğun fəaliyyət göstərən müxalifət partiyalarının mövcudluğu normal hal kimi qəbul edilir. Sivil dövlətlərdə və cəmiyyətlərdə müxalifət hakim elitadan fərqli ideyalar, proqramlar və layihələr irəli sürür, hakimiyyətin siyasətini sağlam mövqedən və əsaslandırılmış dəlillərlə tənqid edir, ölkə və dövlət qarşısında duran problemlərin həllinə kömək göstərir. Müxalifət həm də sistemin dayamqlığı, konstitusiya quruluşunun mühafızəsi, siyasi proseslərin demokratik prinsiplərə uyğun şəkildə getməsi üçün hakimiyyətlə birlikdə məsuliyyət daşıyır.

Artıq müxalifətçi partiya və hərəkatlar müasir Azərbaycanın siyasi sisteminin bir hissəsinə çevrilmişlər. Bu, günün reallığıdır. İndi cəmiyyət həyatının bütün tərəflərini əhatə edən dəyişikliklər siyasi sahədə bəlkə də daha aydın və açıq şəkildə nəzərə çarpır. Siyasi həyat siyasi proseslərin rəngarəngliyi və dinamikası ilə fərqlənən yeni məzmunla dolğunlaşır.

Normal, konstruktiv müxalifətin mövcudluğu müasir cəmiyyət üçün müsbət faktordur. Çünki belə müxalifət vaxtı çatmış mühüm problemləri aşkara çıxarınağa, ictimaiyyətin diqqətini ona yönəltməyə, effektiv qərarlar hazırlanmasına və qəbuluna kömək göstərir. Əlbəttə, müstəqilliyinin ikinci onilliyini yaşayan və keçid dövrünün labüd çətinlikləri, üstəlik, xarici təcavüzlə üzləşən Azərbaycan Respublikasında belə bir müxalifətin olması ancaq cəmiyyətin güclənməsinə və dinamikliyinə xidmət edərdi. Bu məzmun Azərbaycan müxalifətinə müəyyən qədər xas olsaydı, yəqin ki, respublikanın qarşısında duran problemlərin bir çoxunun həlli sürətlənər, ölkə zaman baxımından inkişaf mərhələlərini daha tez keçə bilərdi. Təəssüflər olsun ki, bu, bir xoş arzu olaraq qalır. Müxalifətlə bağlı bir çox məsələlərə aydınlıq gətirmək üçün belə bir suala cavab veraıək zərurəti də yaranır: nə səbəbə Azərbaycan müxalifəti, əsasən də onun barışmaz hissəsi irrasional düşüncə və fəaliyyət fəlsəfəsi ilə yaşayır?

Yazıda Azərbaycan müxalifəti, onun siyasi xətti və fəaliyyəti ilə bağlı bütün problemləri araşdırmaq niyyətində deyilik. Bu, bizim filosofların, politoloqların və siyasi analitiklərin təxirəsalınmaz işidir. Azərbaycan ictimai elminin mühüm vəzifələrindən biri də ölkədə fəaliyyət göstərən müxalifətin anatomiyasını, hərəkətlərinin həqiqi səbəblərini açmaq, bu fenomenin mahiyyətini, davranış tərzinin tarixi, siyasi, psixoloji və sosial köklərini təhlil etmək, siyasi və praktiki cəhətdən cəmiyyət, onun inkişafı üçün nə kimi nəticələr verə biləcəyini açıb göstərməkdən ibarətdir. Güman edirəm ki, bu işin Azərbaycanda demokratik, konstruktiv müxalifətin formalaşmasına və vətəndaş cəmiyyətinin qurulmasına da əvəzsiz köməyi olar.

Demokratiyaya doğru keçilmiş yol nə qədər çətin olsa da, artıq onun böyük hissəsi arxada qalmışdır. İndi bu məsafənin yalnız kiçik bir hissəsi qalır ki, o da Azərbaycanın postindustrial dövr ölkələri sırasına maneəsiz daxil olmasını təmin edəcəkdir.

Vətəndaş hüquqlarının dolğun təminatına yönəlmiş mühüm sənəd və yaxud siyasi inkişafımızın yeni mərhələsi

Əgər XX əsr Azərbaycan dövlətinin və xalqının tarixində müstəqilliyin qazanılması ilə yaddaşlarda qalacaqsa, XXI əsr həmin müstəqilliyin möhkəmlənməsi, strukturlaşması və dönməz xarakter alması ilə əlamətdar olacaqdır. Nüfuzlu beynəlxalq ekspertlərin etiraf etdiyi əsl reallıq ondan ibarətdir ki, yeni minilliyə Azərbaycan hüquqi, sivil dövlət, vətəndaş cəmiyyəti quran ölkə kimi daxil olmuşdur. Bu gün Azərbaycan rəhbərliyi, ölkə vətəndaşlannm böyük əksəriyyəti bu prosesi yeni məzmunla tamamlamaq, yeni istiqamətlərdə və yeni keyfiyyətdə davam və inkişaf etdirmək əzmindədir.

2002-ci il avqustun 24-ü müstəqil Azərbaycanın tarixinə mühüm siyasi hadisə ilə daxil oldu. Həmin gün respublika vətəndaşları Prezident Heydər Əliyev tərəfindən təklif olunmuş Azərbaycan Respublikasın Konstitusiyasına dəyişikliklər edilməsi haqqında aktın layihəsinə ümumxalq səsverməsində fəal iştirak etdilər. Referenduma məsələlərin son dərəcə aktual olduğuna və Azərbaycanın dövlət quruculuğunun hüquqi əsasının təkmilləşdirilməsinə və möhkəmləndirilməsinə yönəldiyinə əmin olan Azərbaycan vətəndaşları vaxtında irəli sürülmüş bu təşəbbüsə öz müsbət münasibətlərini nümayiş etdirərək dövlətin siyasi xəttini müdafiə etdilər.

Əslində referendum müstəqil Azərbaycanın inkişafı yolunda, xüsusən insan hüquqlarının müdafiəsi və demokratik proseslərin genişlənməsində yeni mərhələnin təməlini qoydu. Təəssüflə qeyd etməliyəm ki, çoxları, o cümlədən də politoloqlar və təhlilçilər bu məqamı, onun hüquqisiyasi mənasını yetərincə dərk edə bilmədilər və yaxud, etiraf etmək istəmədilər. Barışmaz, ifrat radikal müxalifətin mövqeyini isə əvvəldən anlamaq mümkün idi. Çünki o, hakimiyyət tərəfindən həyata keçirilən bütün tədbirlərə, hətta xalqın və ölkənin rifahı və firavanlığı üçün böyük əhəmiyyətə malik olan taleyüklü siyasi və iqtisadi tədbirlərə daim mənfi münasibət bildirir. 24 avqust referendumu da bu baxımdan istisna olmadı.

Bir sıra ifrat radikal müxalifət partiyalarının rəhbərləri xalqı referendumu boykot etməyə çağırsa da, əksər beynəlxalq və daxili müşahidəçilərin etirafına görə, referendum baş tutdu və yüksək siyasi fəallıq şəraitində keçdi. Azərbaycan xalqı müstəqil dövlət və hüquqi vətəndaş cəmiyyəti quruculuğuna əngəl törədənlərin, iqtidarın bütün təşəbbüslərini hələ də şübhə altına almağa can atanların sözünə uymadı.

Ölkə və beynəlxalq hüquqşünasların konstitusiya üzrə mütəxəssislərin fikrincə, referenduma çıxarılmış məsələlər sivil, hüquqi dövlətin və demokratik cəmiyyətin tələblərinə tamamilə cavab verir. Yeddi il əvvəl qəbul olunmuş Konstitusiyamızı daha da təkmilləşdirmək zərurətini həyatın özü tələb edirdi. Ölkənin əsas qanunvericilik sənədində baş verən dəyişikliklər müstəqil Azərbaycanın ərazisində yaşayan hər bir insanın hüquq və azadlıqlarının qorunmasına əlavə təminatlarla, seçki sistemi, dövlət hakimiyyəti orqanlarının fəaliyyəti ilə bağlıdır.

Referendumda respublika vətəndaşlarının 83 faizi iştirak etdi və onların 96 faizi dəyişikliklərə səs verdi. Bu rəqəmlər Konstitusiyaya təklif olunmuş düzəlişlərin əhali tərəfindən qeydşərtsiz bəyənildiyini göstərir və xalqın monolitliyini, dövlətin siyasi xətti ətrafında sıx birləşdiyini nümayiş etdirir. Odur ki, bütün səylərinə baxmayaraq, pozucu qüvvələr və barışmaz müxalifət partiyaları hadisələrin gedişinə, vətəndaşların ümumxalq səsverməsində iştirak etmək qərarına heç bir təsir göstərə bilmədilər. Bu da əsasən onunla bağlıdır ki, genişmiqyaslı intensiv təbliğat və izahat işi nəticəsində ölkə əhalisi Azərbaycanın həyatındakı dəyişikliklərin vacibliyini və əhəmiyyətini dərk etdi və lazım bildi.

Ümumxalq səsverməsi yolu ilə Azərbaycan Konstitusiyasına edilmiş dəyişikliklər siyasi sistemin təkmilləşdirilməsinə, çoxpilləli ədalət mühakiməsinin həyata keçirilməsinə, respublika vətəndaşlarının hüquq və azadlıqlarının genişləndirilməsinə yönəldilmişdir və Azərbaycanın siyasi və hüquqi sistemini sovet və postsovet hüquq sisteminin özünü doğrultmayan siyasi və hüquqi normalarından, qalıqlarından azad edir. Siyasi opponentlərin iddialarının əksinə olaraq, Azərbaycan iqtidarının fəaliyyəti göstərir ki, o, Konstitusiyanı, qanunları və digər normative-hüquqi aktları ayrı-ayrı şəxslərin, hansısa hakimiyyət qruplarının siyasi mənafelərinə, hakimiyyət və cəmiyyətdə nüfuz uğrunda mübarizə aparanların maraq və məqsədlərinə uyğunlaşdırmaq fikrindən uzaqdır. Eyni zamanda, bu da əsas prinsipdir ki, mühüm siyasi qərarlar qəbul olunarkən və hüquq sistemi təkmilləşdirilərkən ayrı-ayrı siyasi partiyaların , siyasi və regional qruplaşmaların liderlərinin məhdud şəxsi və korporativ mənafeləri də əsas götürülə bilməz. Birmənalı şəkildə o da aydındır ki, demokratiyaya xidmət etməyən, ölkədə demokratik proseslərin pozulmasına, demokratiyanın ayrı-ayrı ambisiyalı adamların və qüvvələrin iradəsindən asılı vəziyyətə salınmasına xidmət edən təklif və layihələr qəbul edilə bilməz. Başlıcası, vətəndaşların hüquqlarının və əsas azadlıqlarının qorunması üçün səmərəli sistem yaradılması, siyasi və iqtisadi sistemin rəvan inkişafa, siyasi proseslərin ardıcıl, ağrısız getməsinə təminat verilməsidir.

Təbii ki, demokratikləşdirmə prosesi, hüquq normalarının və siyasi mədəniyyətin sivil dünyanın hamılıqla qəbul edilmiş standartlarına yaxınlaşdırılması özlüyündə mürəkkəb, uzun sürən prosesdir, təşkilati və tərbiyəvi xarakterli, ardıcıl, məntiqi tədbirlər görülməsini, yeni siyasi dəyərlərin siyasətin hər bir subyektinin, hər bir insanın həyat tərzinə çevrilməsini tələb edir. Ona görə də cəmiyyətimizin həyatı ilə bağlı bu taleyüklü məsələlərdə tələsmək, irəliyə qaçmaq olmaz! Ən mühümü budur ki, yeni qanunlar və siyasihüquqi normalar cəmiyyətin daha da sabitləşməsinə və sıx birləşməsinə, həqiqətən demokratikləşməyə xidmət etsin. Bu baxımdan 1995-ci ildə qəbul olunmuş Konstitusiyamızın bu mühüm dəyişikliklərə ehtiyacı var idi. Bunu idarəçilik sisteminin müasir tələblərə və beynəlxalq standartlara uyğun olaraq təkmilləşdirilməsi zərurəti də tələb edirdi. Dövlət quruculuğu prosesi qabaqcıl və həyatın sınağından çıxmış beynəlxalq təcrübədən istifadə olunmasını nəzərdə tutur. Bu, təbii prosesdir, çünki heç bir hüquq sistemi

sırf milli hadisə deyildir, heç bir müasir dövlət öz hüquq sistemini digər ölkələrin təcrübəsini nəzərə almadan yarada bilməz.

Yeni minillikdə öz tarixi inkişafının yeni mərhələsini yaşayan dövlətimiz və cəmiyyətimiz aşkarlıq və şəffaflıq tələb edən vətəndaş cəmiyyətinə transformasiya olunur. Bu isə, öz növbəsində, müasir dövlət quruculuğu və effektli dövlət idarəçiliyi yaradılması prosesində bir sıra demokratik məzmunlu dəyişikliklərin aparılmasını tələb edir. Bu faktor nəzərdən qaçmamalıdır. Məsələn, majoritar seçki sisteminin mahiyyəti ondadır ki, seçicilərin səslərinin müəyyən çoxluğunu toplamış namizəd seçkilərdə qalib gəlmiş hesab edilir. Respublika qanunvericiliyi seçkilərin növündən (prezident, parlament seçkiləri və ya yerli seçkilər) asılı olaraq səslərin məhz hansı çoxluğunu  nisbi və ya mütləq çoxluğunu toplamağın zəruriliyini müəyyənləşdirir. Buna uyğun olaraq, nisbi çoxluğun majoritar sistemini və mütləq çoxluğun majoritar sistemini fərqləndirirlər. Nisbi çoxluğun majoritar sistemində öz rəqiblərinin hamısından çox səs toplamış namizəd seçilmiş hesab edilir. Bu sistem sadədir, çünki hətta minimum üstünlük qazanmış bir namizədin qələbəsini təmin edir. Hazırda bu sistemdən ABŞ-da, Kanadada, Böyük Britaniyada, Yeni Zelandiyada və digər ölkələrdə istifadə olunur.

Mütləq çoxluğun majoritar sistemi nəzərdə tutur ki, səsvermədə iştirak etmiş seçicilərin səslərinin yarısından çoxunu (50 faiz üstəgəl bir səs) qazanmış namizəd seçilmiş hesab olunur. Fransada 5ci Respublikanın bütün prezidentləri bu sistem üzrə seçilmişlər və yalnız 1958-ci ildə Şarl de Qoll birinci dövrədə səslərin 78,5 faizini toplamağa müvəffəq olmuşdu, qalan prezident seçkilərinin hamısı iki dövrədə keçirilmişdir.

Həmin seçki sisteminin bir sıra müsbət cehətləri var: seçicilərlə deputatlığa namizədlər arasında bilavasitə əlaqənin olması partiyaların iriləşməsinə və sabit çoxpartiyalı sistemin yaranmasına kömək edir. Bu müsbət cəhətləri əsas götürərək ölkə Konstitusiyasına düzəliş etmək məqsədəuyğun hesab edildi və xalqın dəstəyi qazanıldı.

Belə bir vəziyyət öz mövqelərini itirməkdən ehtiyat edən partiya rəhbərlərini narahat edir. Lakin düşünürəm ki, Konstitusiyaya yeni dəyişikliklər ediləndən sonra partiyalararası və partiyadaxili proseslərdə yaxın zamanda əhəmiyyətli dəyişikliklər baş verməyəcəkdir. Bu cür dəyişikliklərin baş verməsini boyük ehtimalla prezident seçkilərindən sonra gözləmək

olar. Bu dəyişikliklərin partiyalara mənfi təsirindən danışmağa dəyməz. Əksinə, bu dəyişikliyə siyasi partiyaların sıralarının möhkəmlənməsinə və səfərbərliyinə impuls verən faktor kimi baxmaq lazımdır. Bu, ondan irəli gəlir ki, siyasi partiyalar siyasi mübarizənin ehtiyaclarından yaranır və qanuna uyğun olaraq fəaliyyət göstərirlər. Siyasi partiyaların sosial bazası, idarəçilik sistemi və fəaliyyəti seçki sislemlərindən asılı deyildir. Beləliklə, bu dəyişikliklər ancaq dəmək tipli partiyalara, başqalarının yedəyində gedən qurumlara mənfi təsir göstərə bilər. Öz ənənələri olan sabit partiyalar üçün isə yeni dəyişikliklər ancaq faydalı ola bilər. Sonuncu parlament seçkilərini xatırlasaq görərik ki, o zaman partiya siyahıları, bir qayda olaraq, partiya liderləri tərəfindən öz bildikləri kimi və ya ilkin seçkilər praymeriz əsasında tutulurdu. Onlar öz siyahılarına bu partiya qarşısında əslində heç bir xidməti olmayan, amma yalnız partiya başçıları üçün sərfəli olan şəxsləri daxil edirdilər. Bu da, öz növbəsində, partiyalarda güclü narazılığa, kütləvi istefalara, siyasi təşkilatların parçalanmasına gətirib çıxarırdı. AMİP-də, ADP-də, AXCP-də və digər partiyalarda bu hallar özünü daha açıq büruzə verirdi.

Majoritar sistem isə əksinə, yerlərdə partiya strukturlarının inkişafına, yerli müxalifət elitasının irəli çəkilməsinə, ayrı-ayrı şəxsiyyətlərin həqiqi nüfuz və siyasi potensialının üzə çıxmasına, partiyaların təkcə yuxarıdan deyil, həm də aşağıdan demokratikləşməsinə təkan verir. Əgər müxalif partiyalar həqiqi demokratiyanın tərəfdarlarıdırsa, onlar yeni seçki sisteminin və daxili siyasi proseslərin yeni mərhələyə daxil olmasının əleyhinə çıxmamalıdırlar.

## Müxalifətin mahiyyəti və sosialsiyasi kökləri məsələsinə dair

Müxalifətçilik çoxcəhətli, mürəkkəb təzahürdür və bir determinantla şərtləndirilmir. Ona çoxpilləli, kompleks və ziddiyyətli proses kimi yanaşmaq lazımdır. Bu mürəkkəb prosesdə ictimai, siyasi, əqidə və maliyyə faktorları müxtəlif şəkildə çulğaşır.

Müxalifətçiliyi təhlil etmək və ona qiymət vermək birinci dərəcəli iş olmasa da, buna ehtiyac var. Çünki siyasətdə və idarəçilikdə boşluq olmamalıdır. Müxalifətçiliyin səbəblərini araşdırmaq üçün emosional yanaşma nümayiş etdinnədən onun daxili strukturu və fəaliyyət mexanizmləri

ilə birlikdə elmi metodologiya əsasında təhlili tələb olunur. Nə qədər çətin görünsə də, tədqiqatçının əsas vəzifəsi müxalifətçiliyin hərəkətverici qüvvələrini, bu və digər mübarizə formalarını və metodlarını, onun qeyriadekvat davranış və hərəkət tərzini şərtləndirən səbəbləri aydınlaşdırmaqdan ibarətdir.

Etiraf etməliyik ki, müasir cəmiyyətin əsas siyasi institutlarından biri olan müxalifətçiliyin mürəkkəb təzahür formaları, həqiqi kökləri və yaranma səbəbləri elmi ictimaiyyətin və politoloqların nəzərindən kənarda qalıb. Halbuki burada biz ideoloji, siyasi, mənəvi, psixoloji, şəxsi və s. faktor və motivləri görə bilərik. Bu baxımdan Azərbaycanın bəzi müxalifət partiya və qurumlarının barışmaz mövqeyi də cəmiyyətin və siyasi ekspertlərin diqqətindən kənarda qalmamalıdır. Əsas məsələ bundadır ki, bu səbəblər sistemdən kənar səciyyə daşıyır.

Qeyd etdiyim kimi, müxalifət partiyaları və qrupları hüquqi dövlətin və demokratik, vətəndaş cəmiyyətinin ayrılmaz tərkib hissəsidir. Müxalifətin sadə bir anlayışı var: çoxluğun rəyinə qarşı və yaxud hakim rəyə qarşı çıxan partiya və qrup. Müxalifətin siyasi düşüncəsi, əqidəsi və fəaliyyətinin əsasını təşkil edən ideya və dəyərlər hakim qrupdan, iqtidardan fərqlidir. Lakin bu, o demək deyil ki, müxalifətin ideyaları və platforması daha mütərəqqidir, reallığa daha uyğundur, yaxud mövcud şəraitin tələblərinə daha dolğun cavab verir. Siyasi elmdə mötədil, radikal, loyal (hakimiyyetlə əməkdaşlığa və onu müdafiə etməyə hazır olan), konstruktiv (məzmunlu, işgüzar təkliflər verən), destruktiv (dağıdıcı) müxalifəti fərqləndirirlər. Çoxrəngli və çoxqütblü Azərbaycan müxalifətinin palitrasında müxalifətin bütün bu çalarları bu və ya başqa dərəcədə təmsil olunmuşdur. Cəmiyyətimiz üçün aktuallığı nəzərə alınaraq bu yazıda daha çox ifrat, radikal müxalifət, müasir siyasi proseslərdə onun yeri və rolu, taktika və strategiyası, onun içərisindən loyal, konstruktiv müxalifətin formalaşmasının təhlilinə ilk cəhd göstərilmişdir. Özü də emosiya, hisslərə qapılmamaq şərti ilə, faktlara və məntiqə əsaslanaraq.

Əgər desək ki, məntiq bütün elmlərin tacıdır, yəqin ki, səhv etmərik. Mövzunu həqiqətən bilmək üçün onun bütün cəhətlərini və əlaqələrini əhatə etmək, öyrənmək lazımdır. Məntiqin tələbi belədir. Məntiqin əsaslandığı anlayışlar və kateqoriyalar insanın da inkişaf qanunauyğunluğunun ifadəsidir. Bununla yanaşı, məntiqi anlayışlar və kateqoriyalar ancaq

əməli fəaliyyət əsasında, onun nəticəsi kimi yaranır, onların doğruluğu isə təcrübədə yoxlanılır. İctimai hadisə və proseslərin öyrənilməsinə məntiqi yanaşmanın, onun tərkib hissələrinin, tətbiqi siyasi həyatın bütün mənzərəsinin əhatə olunmasına imkan yaradır, subyektlərinin mahiyyətini, sosial qrupla hərəkətə gətirən səbəbləri daha dolğun şəkildə açmağa kömək edir. Fəlsəfi anlayış olan mahiyyət predmetləri, onların daha mühüm olan daxili cəhətini, əsasını, onlarda gedən dərin prosesləri səciyyələndirən başlıca amilləri ifadə edir. Müxalifətin mahiyyətinə məntiqi yanaşma, müxalifət hərəkatının nəticələrinin müşahidə edilməsi və təhlili, müxalifətin planları barədə kütləvi informasiya vasitələrindən və digər mənbələrdən alınan məlumatlar məntiqin köməyi ilə zəncir kimi düzülür və belə bir qənaətə gətirib çıxarır ki, Azərbaycanda müxalifət tərkibcə yekrəng deyil, müxtəlifdir, siyasi spektrin bütün çalarları ilə təmsil olunmuşdur. Lakin ümumi müxalifətin tərkibindən bütün əlamətləri və xüsusiyyətləri ilə seçilən pozucu, dağıdıcı (destruktiv) hissə ayrılaraq bütövlükdə müxalifət admdan danışmağa, onun funksiyasını təkbaşına mənimsəməyə çalışır. Ölkənin siyasi həyatının təhlili göstərir ki, müxalifətin pozucu, dağıdıcı hissəsinin cəmiyyətin real inkişaf qanunauyğunluqlarını, sosial qüvvələrin və mənafelərin nisbətini nəzərə almadan göstərdiyi siyasi fəaliyyət ciddi sosial itkilərə gətirib çıxarır, ölkənin və cəmiyyətin demokratik inkişaf proseslərinə mənfı təsir edir. Müxalifətin bu qolunun və onun aparıcı nümayəndələrinin əməli hərəkətlərinə dair faktlar bizə əsas verir söyləyək ki, Azərbaycanda pozucu, dağıdıcı (destruktiv) müxalifət fəallaşmışdır.

Praktikada bəzi müxalifət partiyaları hansısa taktiki məsələlərdə hətta vahid cəbhə halında çıxış edə bilərlər, qalan bütün məsələlərdə isə onların hamısı müxtəlifdir. Onlar özlərinin fəaliyyət taktikası və proqramı, ideologiyası, iqtidar partiyasına münasibəti və sairə ilə birbirindən fərqlənirlər. Onların hər biri öz həyatı ilə yaşayır, hər birinin fəaliyyət proqramı, öz siyasi məqsəd və vəzifələri var. Bu partiyaların bir qismi fəal, radikal, bəziləri isə konstruktiv və yaxud passiv müxalifətdədir. Lakin onların hamısı bu və ya digər dərəcədə və formada Yeni Azərbaycan Partiyasına qarşı müxalif mövqedədir. Onunla hətta əməkdaşlıq etsələr də, hər halda bu, onların müxalifətdə olmasını istisna etmir.

Təəssüf ki, Azərbaycan cəmiyyətinin siyasi strukturunun dərk olunmasına elmi yanaşma yoxdur, partiyaların siyasi və ideoloji yönümü baxımından onların dəqiq təsnifatı işlənib hazırlanmamışdır. Bu məsələyə kütləvi təbliğat da lazımi qədər diqqət yetirmir.

Müxalifət partiyalarının mahiyyətini, fəaliyyətlərini səciyyələndirən cəhətləri, onların bünövrəsini daxillərində baş verən köklü prosesləri nəzərə almadan bu partiyaların qiymətləndirilməsi yanlış nəticələrə gətirib çıxarır. Ona görə də çoxları belə hesab etməyə alışmışlar kı, yalnız "Dördlük", yaxud da "Onluq" və s. format çərçivəsində fəaliyyət göstərən partiyalar əsl müxalifət partiyalarıdır. Digər tərəfdən, bütün müxalifət partiyaları özlərini "demokratik partiyalar" kimi qələmə verirlər, halbuki onlar neobolşevik, ifrat millətçilik ideologiyası və digər qeyridemokratik ideologiyalardan geniş istifadə edirlər. Belə qarmaqarışıqlıq cəmiyyətin bu və ya digər partiyanın əsl niyyətlərindən baş çıxarınıasına mane olur, müstəqil fəaliyyət göstərən başqa partiyaların hüquq və mənafelərinə xeləl gətirir. Eyni zamanda, beynəlxalq strukturlarda da belə bir yanlış rəy yaranır ki, Azərbaycanda yalnız "Onluğ"a və ya "Dördlüy"ə daxil olan partiyalar müxalifət partiyalarıdır. Qalan 20-dən çox müxalifət partiyası diqqətdən kənarda qalır.

Müxalifət partiyalarını səciyyələndirən cəhətlərdən danışarkən siyasi həyatımızın anlaşılmaz təzahürlərindən birinə toxunmaya bilmərəm. Söhbət Xalq Cəbhəsi Partiyasının adından gedir. İş bundadır ki, Xalq Cəbhəsi Partiyasının başçıları "cəbhə" anlayışma möhkəm vurulublar və ona görə də köhnə əhvaliruhiyyədən əl çəkə bilmirlər.

Məlumdur ki, XX əsrin 80-ci illərinin sonunda Baltikyanı ölkələrdə və bəzi basqa sovet respublikalarında xalq kütlələri SSRİ rəhbərliyinin ədalətsiz siyasətinə qarşı etiraz aksiyaları keçirirdilər. Bu aksiyalar təşkilati baxımdan formalaşaraq Xalq Cəbhəsı adı ilə çıxış etməyə başladı. Lakin respublikalar müstəqilliklərini əldə edəndən sonra Xalq Cəbhəsi qurumlarının bır qismi başqa ad altında partiyaya çevrildi, bəziləri isə vəzifələrini bitmiş hesab edib fəaliyyətlərini dayandırdılar. Əslində, bundan sonra Azərbaycan Xalq Cəbhəsi öz missiyasını başa vurduğundan buraxılmalı idi. Çünki söhbət artıq imperiyaya və digər xarici düşmən qüvvələrə qarşı birləşməkdən deyıl, müstəqil Azərbaycan Respublikasında dövlət quruculuğunun məzmun, forma və metodlarından gedirdi.

Hakimiyyətə gəlmək uğrunda mübarizənin sivil forması müəyyən bir sosial təbəqənin və milli dövlət quruculuğu proqramının təmsilçisi kimi siyasi partiya yaratmaq və öz platformasından çıxış edərək tərəfdaşlar toplamaqdır. Lakin bu, çətin yol idi. Ən asanı isə, xalq kütlələrinin müstəqillik uğrunda mübarizə əhvaliruhiyyəsinə söykənərək artıq vaxtı keçmiş qurumu necə olursa-olsun yaşatmaq, yaxud heç olmazsa, elektoratın daha da mühafızəkar və inert hissəsini saxlamaq idi.

Cəbhə  düşmənə qarşı bütün xalqın mübarizə üsulu, ön cəbhə, arxa cəbhə müharibə dövrünə aid olan anlayışlardır. Buna baxmayaraq, üç qanada parçalanmış Azərbaycan Xalq Cəbhəsinin bugünkü başçıları 80-90-cı illərin ab-havası ilə yaşayaraq zamanın tələblərinə uyğun olmayan addan möhkəm yapışıblar. Bu da həmin partiyanın həqiqi mahiyyətini və onun rəhbərlərinin düşüncəsini açıq-aydın göstərir.

Pozucu müxalifətin fəaliyyətinin müşahidə edilməsi, bu fəaliyyətin nəticəsinin təhlili, həmin müxalifətin aparıcı nümayəndələrinin tərcümeyihalı ilə tanışlıq belə bir qənaətə gəlməyə əsas verir ki, bu sosial qrupun üzvlərinin psixologiyasının fərdi xüsusiyyətləri mövcuddur. O ki qaldı bu qrupun pozuculuğuna və davakarlığına, onun da izahı var. Psixika haqqında elm olan psixologiya təsdiq edir ki, şəxsiyyətin xarakterinə xas xüsusiyyet kimi davakarlığın formalaşması cəmiyyətin mənafelərinə zidd həyat təcrübəsi ilə bağlıdır. Nə əməli, nə də həyat təcrübəsi olan  biz hələ hansısa peşəkarlıq keyfiyyətlərini demirik  bir qrup şəxsin zorla hakimiyyəti ələ keçirdiyi 1992-1993-cü illərin hadisələrini təhlil etmək fikrində deyiləm. Təkcə bir misal çəkmək istərdim. Ölkə çox yüksək kadr potensialına malik olduğu halda, Pənah Hüseynovun Nazirlər Kabinetinə başçılıq etməsi faktı məgər Azərbaycan üçün paradoks deyildimi? Məlumdur ki, xarici dövlətlərin başçıları Azərbaycanın o zamankı rəhbərlərini, yumşaq desək, ciddi qəbul etmirdilər. Nə qədər acı olsa da, özümüzü aldatmamah və həqiqəti etiraf etməliyik. Biz hamımız müstəqil dövlətin necə səriştəsiz qurulmasının ağrı-acısını görmüşük. İndi iqtidara qarşı barışmaz müxalifətdə duranların hakimiyyəti dövründə Azərbaycanın bir dövlət kimi necə ağır və gülünç vəziyyətə düşdüyünə dair yüzlərlə misal çəkmək olar. Bu adamlar real surətdə ölkəni fəlakətə sürükləyirdilər. Amma bir dəfə hakimiyyətdən faydalanmış, necə deyərlər, onun ləzzətini dadınışlar yenidən iqtidara gəlməyə can atırlar. Həmin sosial

qrupdakı davakarlıq hissləri və niyyətləri də məhz bu psixoloji əhvali-ruhiyyədən doğur!

Deyilənlərə aydınlıq gətirmək üçün qeyd edim ki, davakarlıq (aqressivlik) konkret sosial və digər obyektlərə zərər vurmaq məqsədi güdən pozucu davranış tərzidir. Xatırlatmaq yerinə düşər ki, davakarlıq müxtəlif cür olur fıziki davakarlıq (haray-həşir, çığır-bağır salmaq, hədə-qorxu gəlmək, lənətləmək, söyüş söymək), bilavasitə subyektə, şəxsiyyətə yönəldilən birbaşa davakarlıq, dolayısı ilə davakarlıq (kinli dediqodular), impulsiv davakarlıq (intensiv emosional-ekspressiv hərəkətlərdə təzahür edən hiddət-qəzəbin coşması) və s.

Bütün bu keyfiyyətlər Azərbaycanda destruktiv müxalifətə xasdır. Qaraqışqırıq, hədəqorxular, lənətlər, söyüşlər, nifrət, dövlət başçısmın şəxl siyyətinin təhqir olunması onların tədbir və mitinqləri bütün bunlardan ibarətdir, nəşr etdikləri qəzetlərin səhifələri bütün bunlarla doludur! Beləliklə, barışmaz ifrat radikal müxalifət öz mahiyyətinə və mənəvi-psixoloji vəziyyətinə görə nəinki pozucudur, həm də davakardır!

Nifrətin və məkrli niyyətlərin gücü çox böyükdür. Nifrət və məkrli niyyətlər texnogen qüvvəni dağıtmağa və məhv etməyə yönəldiyindən, bəşəriyyətin özünüməhvinə gətirib çıxara bılər. İtalyan siyasi mütəfəkkiri Nikollo Makiavelli (o, özünün güman etdiyi kimi, siyasi parçalanmanın qarşısını ala biləcək dövlət nəzəriyyəsi yaratmışdır) deyirdi ki, heç vaxt nifrət, kin-küdurət təlqin etməyin. "Nifrət şəhvətdən, ehtirasdan, fanatizmdən doğan mənasız şərdir. Nifrət ağlın səslədiyi tərəfə getməyə mane olan iradə zəifliyinin nəticəsidir".

Biz xeyir və şərin təbiətini hələ yaxşı dərk etmirik, lakin bir şey şübhəsizdir ki, onların kökündə böyük yaradıcı və dağıdıcı qüvvə durur. Əbəs deyildir ki, xeyirə sitayiş inkişafa və tərəqqiyə, şərə sitayiş isə münaqişələr və sosial kataklizmlərə gətirib çıxarır. Odur ki, insan, cəmiyyətinin mənəvi inkişafı müsbət mənada prinsipial əhəmiyyətə malikdir və hətta onun maddi təcəssümü də var.

Bir sözlə, mənəvi başlanğıc cəmiyyət həyatında çox böyük rol oynayır. Yüksək mənəvi potensiala, eləcə də mərkəzəqaçma psixoloji enerjisinə (bu mənəvi-psixoloji kateqoriyalar isə qarşılıqlı əlaqədədir və birbirini tamamlayır) malik olan insan, yaxud sosial qruplar həmişə xeyir toxumu səpir, özlərinin bu keyfiyyətlərindən insanların və cəmiyyətin rifahı

naminə istifadə edirlər. Bu halda yaradıcı psixi enerjidən söhbət gedir. Bunun əksinə olaraq, mərkəzdənqaçma psixi enerji də mövcuddur ki, o da şər, nifrət, kinküdurət doğurur. O, yalnız dağıntıya və münaqişələrə gətirib çıxarır.

Bu mülahizələr ictimai-siyasi proseslərin mahiyyəti, eləcə də onların iştirakçılarının mənəvi-psixoloji keyfiyyətləri araşdırılarkən də eyni dərəcədə tətbiq oluna bilər. Azərbaycanın siyasi həyatma yuxarıda deyilənlər baxımmdan nəzər salsaq, o qədər də sevindirici olmayan bir halla üzləşərik: destruktiv müxalifətin bütün fəaliyyəti onda mərkəzdənqaçma psixi enerjisinin üstünlük təşkil etdiyini göstərir. Pozucu müxalifət yüksək mənəvi potensialı ilə də öyünə bilməz. Onun ölkə rəhbərliyinin həyata keçirdiyi müsbət nə varsa, hər şeyə nifrət bəsləməsi, kinküdurəti də bundan irəli gəlir. Hakimiyyətə gəlmək xəstəliyinə tutulmuş destruktiv müxalifət, ələlxüsus da onun rəhbərləri obıvatelin psixi enerjisini mərkəzdənqaçmaya, yəni qarşıdurmaya və dağıntıya yönəltməyə cəhd göstərir. Onlann öz tərəfdarlarını ideoloji cəhətdən hazırlaması da bu məqsədə qulluq edir. Belə bir faktı da inkar etmək olmaz ki, insanın öz daxili aləmini hər gün nəzərə çarpmadan təhlil etməsi və özünün narahat daxili aləminə qapılması böyük gücə malikdir. Əgər həmin qüvvə üzə çıxıb mərkəzdənqaçma xarakteri alsa, mütləq fəlakətə səbəb olacaqdır. Buna görə də cəmiyyətin inkişafınm indiki mərhələsində vətəndaşlarınıız ən çox məhz pozucu, dağıdıcı müxalifətdən ehtiyat etməlidirlər, çünki o, mənfi psixi enerjini toplamışdır və yeganə məqsədi hakimiyyətə gəlməkdir. Bunun üçün hansı üsullardan və vasitələrdən istifadə ediləcəyinin onun üçün heç bir əhəmiyyəti yoxdur. Əgər vətəndaşlarınıız dağıdıcı müxalifətin qeyrireal niyyətlərinə qarşı laqeyd, etinasız mövqe tutsalar, onun ardıcıllarının mərkəzdənqaçma psixi enerjisi getgedə təhlükəli xarakter alacaq, bu isə qarşıdurmaya, münaqişələrə və dağmtılara ğetirib çıxaracaqdır.

Destruktiv müxalifət demokratiyanı öz bildiyi kimi, yəni hərkihərkilik və məsuliyyətsizlik kimi yozaraq belə şəraitdə öz xudbin planlarını həyata keçirməyə ümid bəsləyir. O, həyat təcrübəsini, səriştəliliyi, idarəetmə elmini, əhalinin mənafelərini, əhvaliruhiyyəsini qulaqardına vurur, dərk etmək istəmir. Təbii ki, belə mövqe dövlət quruculuğu prinsiplərinə və dövlətçiliyin möhkəmləndirilməsinə kökündən ziddir. Azərbaycanın müasir inkişaf mərhələsi sabit dövlətdə vətəndaşlarımızın həyatını qurmağın

başqa bir konsepsiyasının işlənib hazırlanmasını nəzərdə tutur. Bu gün olduğu kimi, gələcəkdə də Azərbaycanda xarici və daxili amillər, ölkənin coğrafisiyasi mövqeyi nəzərə alınmaqla, güclü hakimiyyət və güclü ölkə başçısı olmalıdır. Dövlət başçısının mövqeyinin amorfluğu, zəifliyi və qeyrimüəyyənliyi, onda lazımi iradi keyfiyyetlərin, dövlətqoruyuculuğu, təşkilatçılıq və idarəçilik keyfiyyətlərinin, həyat təcrübəsinin olmaması ölkə üçün fəlakətdir və biz bu dövrü 90-cı illərin əvvəllərində artıq yaşamışıq və acı təcrübələrini görmüşük! Ona görə də demokratiyanı məqsəd kimi deyil, insanların həyatının yüksək standartlarına, vətəndaş cəmiyyətinin funksiyalarının artmasına və idarəetmə prinsiplərinin təkmilləşməsinə nail olmaq vasitəsi kimi başa düşmək lazımdır. Demokratiya birdəfəlik və həmişəlik verilmiş, dəyişməz kateqoriya deyil. Onun müxtəlif dövlətlərdə müxtəlif təzahür formaları, xüsusiyyətləri var. ABŞ-ı və Qərbi Avropanı götürək. Heç kim iddia etməz ki, bu ölkələrdə dövlətlərin həyatı vahid meyarla təşkil olunmuşdur. Bu ölkələrdə ictimai inkisaf da onların xüsusiyyətlərinə uyğun olaraq gedir. Bu demokratik ölkələrin hər biri demokratiyanı özünə görə zənginləşdirmiş, ona öz xüsusiyyətlərini əlavə etmiş, xalqın tarixini və mentalitetini nəzərə almışdır.

Azərbaycan şəraitində demokratiya özünün universal dəyərləri və ümumi prinsipləri ilə yanaşı, vətənpərvərlik, sabitlik, nüfuzlu rəhbərlik və s. bu kimi mühüm taleyüklü cəhətlərlə də zənginləşdirilməlidir. Vətəndaslarınıız unutmamalıdırlar ki, məhz dövlət başçısının zəkası, istedadı, uzaqgörənliyi və əzmi sayesində ölkədə sabitlik yaranmışdır. Heydər Əliyevin simasında tale Azərbaycana və millətimizə güclü siyasi lider, ölkə əhalisi arasında və dünya birliyində yüksək, inkaredilməz nüfüza malik beynəlxalq miqyaslı dövlət xadimi bəxş etmişdir.

Bir sözlə, əgər Azərbaycan şəraitində demokratiyanın ümumi prinsiplərinin gerçəkləşməsi uğurla gedirsə, müxalifətin pozucu fəaliyyəti ucbatından əhalinin vətənpərvərliyi ilə əlaqədar vəziyyət bir qədər mürəkkəbdir, hər halda, birmənah deyildir. Qəribə olsa da, məselənin mahiyyəti ondadır ki, pozucu müxalifət bu fenomeni də dövlət mövqeyindən və ya dövlətçiliyin maraqları baxımından deyil, özünün qeyriadekvat, iddialı planları baxımından dərk edir.

Məlumdur ki, demokratiya və etnomərkəzçilik bir araya sığınayan iki sosialsiyasi kateqoriyadır. Qərb tədqiqatçıları (T.Adorno və başqaları)

müəyyənləşdirmişlər ki, adətən, etnomərkəzçilik ehkamçılıqla, siyasi mühafızəkarlıqla və qəddarlıqla, habelə gizli antidemokratik ideologiya ilə bağlıdır. Sual olunur, bu kateqoriyaların bizim gerçəkliyimizlə əlaqəsi necədir? Təəssüf ki, birbaşa əlaqəsi var. Azərbaycanda yaşayan bütün aborigen entik qruplar (talışlar, tatlar, ləzgilər, avarlar və s.) azərbaycanlıdırlar. Bu, fündamental elmi və siyasi prinsipdir. Lakin təcrübə göstərir ki, Azərbaycan cəmiyyəti bu prinsipin əksi olan mənfi əhvaliruhiyyələrin təzyiqinə dəfələrlə məruz qalmışdır. Sözlərimizə misal olaraq insanlara etnik baxımdan yanaşılmasını göstərə bilərik. Müxalifət bunu canfəşanlıqla təbliğ edir. Onun destruktiv hissəsinin mətbuatı hesab edir ki, bu cür praktika hamı üçün faydalıdır və vətənpərvərliyə, ümumən, demokratiyaya zidd deyildir. Ölkə vətəndaşlarına etnik cəhətdən fərq qoyulmadan dövlət mənafelərinin həyata keçirilməsi, etnik əlamətə görə insanlara qarşı ayrıseçkiliklə mübarizə, ölkədə yaşayan bütün etnosların nümayəndələrinə dövlət strukturlarında işləmək üçün eyni hüquqlar verilməsi və şərait yaradılması kimi başa düşülən müasir dövlət quruculuğunu isə pozucu müxalifət əsas əhalini təşkil edən millətə qarşı xəyanət kimi qiymətləndirir.

Pozucu müxalifətin antivətənpərvərliyi öz ifadəsini bunda da tapır ki, o, Azərbaycanın xaricdəki bədxahlarının ölkə haqqında yalan, millətimiz üçün təhqiramiz xəbərlərini, fikirlərini və yazılarını öz mətbuatı vasitəsilə şövqlə və canfəşanlıqla yayır. Əgər erməni mətbuatıda Azərbaycan rəhbərliyinə böhtanlar yağdırılırsa, sadəlövhcəsinə düşünməyin ki, bizim destruktiv müxalifət bunu pisləyəcəkdir. Yəqin ki, əksinə olacaqdır. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi ilə bağlı hər hansı bir problem yaranırsa, müxalifət buna sevinir. Bir gəmi batıb, insanlar həlak olubsa, bu milli müsibətə xalqla birlikdə kədərlənmək və həmin faciə ilə əlaqədar dövlətə mənəvi həyanlıq göstərmək əvəzinə, müxalifət sevinir ki, dövlət rəhbərlərini ölkəni idarə etməyə qadir olmamaqda təqsirləndirmək üçün əllərinə girəvə düşübdür. Azərbaycanda destruktiv müxalifətin vətənpərvərliyi, bax, bundan ibarətdir! Müxalifətin pozucu rolunun müxtəlif xarici strukturlar tərəfindən maddi cəhətdən dəstəklənməsi onun üçün normal haldır və vətənpərvərliyinə zidd deyildir. Bunu dövlətin daxili işlərinə müdaxilə kimi pisləyənlər isə, sən demə, antivətənpərvərlərdir. Gördüyümüz kimi, burada anlayışlar və prinsiplər açıq-aşkar, şüurlu surətdə qarışdırılır.

Azərbaycanda destruktiv müxalifətin əsl mahiyyəti tək yuxarıda göstərdiyimiz elementlərdən ibarət deyil.

Siyasi ekspertlərin fikrincə, 2002-ci ilin ortaların dan başlayaraq müxalifət düşərgəsində yeni situasiya yaranıb: hər dəfə birlik nümayiş etdirməyə çalışan və bunu ölkə ictimaiyyətinə və beynəlxalq təşkilatlara cidd-cəhdlə təqdim edən müxalifət nəticədə daha çox parçalanır. Əvvəllər yaranmış bir sıra qurumlar ("Dəyirmi masa", SİDSUH, DUH, DUBB, Dem-Konqres və s.) özünü doğrultmayaraq artıq arxivə verilib. Bundan sonra müxalifətin birgə əməkdaşlıq məqsədilə təsis etdiyi Birləşmiş Müxalifət Hərəkatı (BINH) da parçalandı. 2002-ci ilin son ayların da isə ifrat radikal mövqedə duran və hakimiyyətə hədsiz iddialı olan Müsavat, AXCP, ADP, AMİP və onlara qoşulan daha altı partiya və qrup başçısı, özlərinin dedikləri kimi, "Onluq" formatını və Müxalifətin Koordinasiya Mərkəzi adlanan qurumu yaratdılar. Bu partiya başçılarının ambisiyalarını, birbirinə inamsızlığını, qısqanclığı və uzun tarixi olan kompromat savaşını nəzərə alsaq, destruktiv müxalifətin bu təşəbbüsünün də uğursuzluqla nəticələnəcəyini indidən söyləmək olar.

Çoxqütblü və çoxrəngli müxalifət spektri daxilindəki hadisələr göstərir ki, "Dördlük" (Müsavat, AXCP, ADP, AMİP) özünü əsas və aparıcı müxalifət adlandıraraq bütün səylərini ona yönəldib ki, tərəfdarlarının sayını artırsın, başqa partiyaları öz ssenarilərinə uyğun davranışa məcbur etsin və ona nail olsun ki, iqtidar ancaq bu qurama daxil olan partiyaların tələblərini nəzərə alsın. Bu dörd partiyanın fəaliyyətində davakarlıq və barışmazlıq notlarının güclənməsi, onların hakimiyyətə qarşı fasiləsiz ideoloji hücumları, mətbuat səhifələrində iqtidar haqqında yaydıqları şayiələr və böhtanlar, beynəlxalq qurumlara müraciət və s. də bununla bağlıdır. Ancaq bütün bunlar bir nəticə vermir. Onlar özlərinə müxtəlif cəlbedici adlar qoyaraq ifrat radikal, destruktiv mübarizə metodlarını və platformalarını əsaslandırmağa çalışırlar. Məsələn, müxalifət milli qüvvə adı ilə özlərini xalqın, millətin maraq və mənafelərinin yeganə və ardıcıl müdafiəçisi kimi göstərmək istəyir.

Hadisələrə fərqli mövqe bildirən partiyaları isə antimilli qüvvə kimi səciyyələndirirlər. Məsələn, Arif Hacıyevin bəzi partiyaları milli qüvvə olmamaqda günahlandırması ALP-nin sədr müavini Ə.Temirxanın hiddətinə səbəb olub: "Kimin qeyri-milli olmasını tarix müəyyənləşdirir, öz

üzərinə Azərbaycan Respublikasının müxalifət naziri postunu götürən A.Hacıyev yox. Kimin milli olmasını onun 9 dövlətin mənafeyinə deyil, milli mənafeyə xidmət etməsi müəyyənləşdirir" ("Ədalət", 12 noyabr 2002-ci il; "Mərkəz", 12 noyabr 2002-ci il).

Hamılıqla qəbul olunmuş belə bir məlum həqiqət mövcuddur ki, ayrı-ayrı adamlar və sosial qruplar özlərinə müxtəlif adlar qoya bilər. Lakin bu o demək deyil ki, bütün cəmiyyət bu insanları belə qəbul edir. İş bundadır ki, "milli qüvvə" ifadəsi özlüyündə qeyrimüəyyən, mücərrəd bir anlayışdır. Qeyd etməliyəm ki, bunun heç elmi tərifı də yoxdur. Onun yalnız konkret halda konkret məzmunu ola bilər. Fikrimcə, müasir Azərbaycan reallıqları şəraitində "milli qüvvə" ifadəsinin dərin konkret məzmunu və mənası var. "Milli qüvvə" deyəndə biz Azərbaycan dövlətini, milli dövlətçilik və azərbaycançılıq platformasında dayanan bütün siyasi və ictimai qurumların birliyini nəzərdə tutmalıyıq. Bu halda millilik bəhs edilən qüvvələrin konkret fəaliyyət proqramına, milli platformasına və atdıqları real praktiki addımlara söykənir. Yəni, bu siyasi qurumların fəaliyyətinin xalqın, millətin həqiqi mənafe və maraqlarına nə qədər cavab verməsi onların milli ad altında fəaliyyət göstərməsini şərtləndirir. Digər tərəfdən, "milli qüvvə" ifadəsi xalqın, millətin əsas, böyük bir bissəsini əhatə etməlidir. Beləliklə, Azərbaycanda milli ada millətin taleyüklü problemlərinin həllində hərtərəfli iştirak edən geniş sosial qruplar, xalq qüvvələrini səfərbər edə bilən təsisatlar, institutlar iddia edə bilər. Bu nöqteyinəzərdən "milli qüvvə" anlayışını ifrat radikal, destruktiv müxalifətə heç bir aidiyyəti yoxdur və onların milli ad altında çıxış etməsinin heç bir əsası yoxdur.

Barışmaz müxalifətin ayrı-ayrı nümayəndələri bəzi xarici dövlətlərin və qurumların ancaq onların partiyaları ilə özəl münasibət yaratması, əməkdaşlıq etməsi və dəstək verməsi haqqında həvəslə, özü də şişirdilmiş məlumatlar yayırlar. Bu, müəyyən siyasi maqsədlərə xidmət etsə də, illüziyadan başqa heç nə deyil. Bununla onlar çalışırlar cəmiyyətə işarə etsinlər ki, guya beynəlxalq aləmdə artıq iqtidarı yox, bizi qəbul edirlər. Bu fikri yayanlar əsas məsələni unudurlar. Əgər xalq istəmirsə, heç bir xarici qüvvə kimisə önə çəkə bilməz və çəksə də, onun nəticəsi olmayacaq. Hesab edirəm ki, bu məsələ ilə bağlı ALP sədri Lalə Şövkət Hacıyeva müxalifətçi həmkarlarına düzgün cavab verir: "...Qərbin kimisə dəstəkləməsi

haqda iddialar mediada geniş şəkildə vüsət alıb. Gəlin məntiqlə danışaq. Qərb Azərbaycanda əsl sabitliyin olmasını istəyir. Bu sabitlik nə vaxt olur? Əgər millətin böyük hissəsinin etimad göstərdiyi iqtidar dövləti idarə edirsə, doğrudan da, daimi sabitlik yarana bilər. Ancaq xarici dövlətlər kimisə hakimiyyətə gətirirsə və millətin böyük əksəriyyəti bunu qəbul etmirsə, hansı sabitlikdən söhbət gedə bilər? Heç kəs fikirləşməsin ki, ABŞ və ya Qərb kimisə önə çəkib millətimə sırıyacaq. Bu, qətiyyən olası məsələ deyil" ("Xalq Cəbhəsi", 26 sentyabr 2002-ci il).

Sabiq AMİP-çi Şadınan Hüseynin də bu məsələyə fərqli münasibəti var. O, açıq qeyd edir ki, bir çox müxalifət partiyaları xarici qurumlardan maliyyə yardımı alır. Öz fəaliyyətlərini tənzimləmək üçün onların xaricdən maliyyə yardımlarına ehtiyacları var və bunları da alırlar. Bunun müqabilində isə xarici qüvvələrin tapşırıqlarını yerinə yetirməlidirlər... Azərbaycanı istəməyən qüvvələr çalışır ki, istənilən formada bizə təzyiqlər olsun. Həmin qüvvələrin xaricdən ölkəmizə gücləri çatmırsa, buna daxildən nail olmağa cəhd edirlər. Daxildən həyata keçirmək üçünsə Azərbaycanda istənilən qədər siyasətlə məşğul olan adam və partiya var. Bunların vasitəsilə xarici qüvvələr Azərbaycanda qarşıdurma yaratmaq, ölkəmizin adına ləkə gətirmək imkanına malikdirlər ("Yeni Azərbaycan", 4 sentyabr 2002-ci il). Nə qədər acı olsa da, zənnimcə, bu dəyərləndirmə ilə razılaşmaq lazımdır.

Təəssüflər olsun ki, 15 ildən artıq siyasi səhnədə olmalarına baxmayaraq, siyasi mübarizənin sivil formaları bir çox müxalif liderlərin fəaliyyət prioritetinə çevrilməyib. Təsadüfi deyil ki, bir çox ekspertlər və bəzi beynəlxalq təşkilatların nümayəndələri Azərbaycanda demokratik, obyektiv, konstruktiv müxalifətin olmaması haqqında açıq fikir söyləyirlər. Müxalifətin hər şeyi inkar etmək siyasəti özünü onda göstərir ki, bir sıra müxalifət partiyalarının rəhbərləri hər şeyi qara rəngdə görür, "əgər mən hökumət olsaydım, bu işi görərdim, o işi görərdim" prinsipi ilə hərəkət edərək cəmiyyətdə baş verən müsbət dəyişiklikləri qəbul etmək istəmirlər.

Azərbaycanın barışmaz, destruktiv müxalifətinin mövqeyi və fəaliyyət prinsipləri Qərb müxalifətçiliyi prinsiplərindən ciddi surətdə fərqlənir. Təhlillər və araşdırmalar deməyə əsas verir ki, Azərbaycanda destruktiv müxalifətin davranışı və mahiyyəti, onun sosial tərkibi, sona qədər formalaşmayan

ideologiyası (sollar, sağlar, mərkəzçilər, millətçilər və s. bütün müxalif partiyaların fəaliyyətində öz əksini tapıb) partiya rəhbərlərinin həyat və idarəçilik təcrübəsinə, mənəvi-psixoloji durumuna, onların ümumi hazırlığına adekvat olmayan iddiaları ilə bağlıdır.

Faktlar sübut edir ki, destruktiv müxalifət partiyaları rəhbərlərinin millət, vətən, müstəqillik, azadlıq haqqında ifrat demaqogiyasına baxmayaraq, onları milli mənafelər az maraqlandırır. Hakimiyyət davası apararaq onlar yenə qisas almaq istəyirlər, ali münsif hüququnu mənimsəyərək iqtidara qarşı ancaq əsassız, pozuculuq məqsədi daşıyan tənqidlə məşğuldurlar. Mitinqlərin daimi şüarı isə istefadır. İqtidar ilə dialoqa da hazır deyillər, çünki arqumentləri yoxdur və ciddi, əsaslandırılmış tənqidə davam gətirmirlər. Üstəlik, konstruktiv dialoq müxaliflərin siyasi maraqlarına və niyyətlərinə daxil deyil. 2003-cü ildə keçiriləcək prezident seçkiləri və Seçkilər Məcəlləsi layihəsi ətrafında yaradılmış səs-küy də bunun bariz numünəsidir.

Məsələ bundadır ki, destruktiv müxalifət partiyaların da müasir dünya reallıqlarına və beynəlxalq standartlara uyğun heç bir müsbət dəyişiklik baş vermir. Onların sədrləri 80-ci illərin sonunda və 90-cı illərin əvvəlində olduğu kimi, yenə də uğursuz mitinq taktikasına və qarşıdurma ovqatı yaratmağa üstünlük verirlər. Şadınan Hüseynin fikrincə, bu ifrat radikal mübarizə forması bundan sonra Azərbaycanda heç bir müsbət nəticə verməyəcək. Artıq küçə, meydan mübarizəsindən keçib masa arxasında əyləşib ümummilli məsələləri müzakirə etmək lazımdır. Müxalifətdəkilər, təəssüflər olsun ki, hələ də 19881992-ci illərin abhavasından uzaqlaşa bilmirlər. Elə başa düşürlər ki, kütləvi aksiyalar keçirməklə nə isə əldə etmək mümkündür. Ancaq anlamırlar ki, Azərbaycan xalqı o zamankı xalq deyil. O vaxt Azərbaycan xalqı sovet imperiyasının tərkibindən çıxmaq üçün mübarizə aparırdı. Bu günsə bir qrup müxalif partiya başçısı şəxsi maraqları naminə insanları küçələrə çıxarınağa cəhd göstərir. ...Onlar yenə də xaos yaratmaq və Azərbaycan xalqının əziyyət çəkməsini istəmirlərsə, öz iddialarından əl götürməlidirlər. Yaxşı olar ki, əvvəlcə onlar öz partiyaları daxilindəki mənasız problemləri həll etsinlər. Hesab edirəm ki, adicə bir təşkilatı idarə edə bilməyən partiya başçısının 8 milyonluq xalqı idarə etmək üçün cəhd göstərməsi yersiz və gülüncdür ("Azərbaycan ", 29 oktyabr 2002-ci il).

Müxalifətin barışmaz başçılarına elə gəlir ki, hər şeyi nəyin yaxşı, nəyin pis olduğımu və vəziyyətin daha yaxşı olması üçün nə etmək lazım olduğunu həmişə bilirlər. Təəssüf ki, həyat onlara dərs olmayıb. Dağıdıcılıq psixologiyası ilə yaşayan indiki barışmaz müxalifət başçıları unudurlar ki, məhz onların hakimiyyətdə olduqları bir il müddətində Azərbaycan xalqı və dövləti güclü siyasi və iqtisadi sarsmtılar keçirib və zərbələr alıb! Yəqin ki, 1990-cı illərin əvvəlləri dərəbəylik və anarxiya hökm sürdüyü, özbaşınalığın cəmiyyət həyatmm bütün sahələrini bürüdüyü illər uzun zaman vətəndaşlarımızın xatirəsindən silinməyəcək. Azərbaycan tarixinin taleyüklü dövründə özlərinin acizliyini və səriştəsizliyini nümayiş etdirənlər bu gün iqtidarı bacarıqsızlıqda günahlandırırlar. Nə qədər haqsızlıq olsa da, həyatımızın reallığı bundan ibarətdir və belə düşüncəni, psixologiyanı anlamaq çətindir! Azərbaycanda dağıdıcı müxalifətin başçıları sivil, demokratik dünyada istifadə olunan mübarizə üsullarını qəbul etmək iqtidarın da deyillər!

Dünya dəyişib, beynəlxalq siyasi səhnədə də ciddi dəyişikliklər baş verib. Ancaq Azərbaycanda destruktiv müxalifət başçılarının düşüncəsində və fəaliyyətində dəyişiklik baş vermir. Bu da ondan irəli gəlir ki, bu yönümlü müxalifətçiliyin əsası əvvəldən düzgün qoyulmayıb. Çünki ilk gündən xalq hərəkatma rəhbərliyi ələ keçirənlərin əhvaliruhiyyəsi demokratik dəyərlərdən uzaq idi. Əlbəttə, bütövlükdə o dövrün mübarizə metod və foramalarına kölgə salmaq düzgün olmazdı. Kəskin radikallıq yaranmış vəziyyətin tələbi idi. Ancaq hər dövrün özünəməxsus fəaliyyət proqramı və metodları olmalıdır. Bu, aksiomdur. Mitinq, yürüş, daşkəsək, yalan, böhtan, təhqirlər və s. bu tipli mübarizə metodları keçmişdən xəbər verir və indi qətiyyən cəmiyyət tərəfindən qəbul olunmur.

Radikal müxalifət partiyalarının qəzetləri Azərbaycan dövlətinə və onun başçısı Heydər Əliyevə qarşı, sözün əsl mənasında, informasiya müharibəsi aparırlar. 2003-cü ilin prezident seçkiləri yaxınlaşdıqca bu qəzetlərin ölkədə olan pozitiv hər şeyə düşmən münasibəti, dövlət rəhbərinə, iqtidar nümayəndələrinə qarşı təhqir, böhtan və iftiraları daha da güclənir və intensiv xarakter alır. Məsələn, Türkiyənin Ədalət və İnkişaf Partiyasınm sədri Rəcəb Tayyib Ərdoğanın 2003-cü ilin yanvar ayında Azərbaycana səfərindən sonra destruktiv müxalifət partiyalarının başçıları ölkəmiz üçün hansı nəticə verə biləcəyinin fərqinə qətiyyən varınadan respublikamızda

hansısa xarakterli məlumatlar yaymağa başladılar. Bu məlumatların adi təhlili göstərirki ki, məqsəd ölkədə milli etimadsızlıq yaratrmaq və milli ədavəti qızışdırmaq, iki qardaş ölkənin münasibətlərini pozmaq, Türkiyyə rəhbərliyində Azərbaycana qarşı inamsızlıq təlqin etməkdən ibarətdir. Onlarin qəzetləri həmin günlər belə bir məlumat yaymışdır ki, guya Rəcəb Tayyıb Ərdoğan Əliyevlə görüş zamanı ona "PKK"-nin Azərbaycanda fəaliyyəti ilə bağlı detallarınadək açıqlamış dosye təqdim edib. Və guya həmin mühüm sənədlə indiyədək yazılan (_?) və deyilən (-?) faktlar da (-?) daxil olmaqla, xeyli ilginc fakt var imiş. Bu yalanı uyduran həmin gəzet hec nədən cəkinmədən və utanmadan hansısa məlumatlı mənbəyə belə istinad edir. Bax, budur əsl yalan, qərəz və təxribatçı böhtan.

Bir vəzifəli şəxs kimi məsuliyyətlə bildirirəm ki, bu məlumatın heç bir əsası yoxdur, tamamilə uydurulmuş və yalan məlumatdır. Heydər Əliyev Rəcəb Ərdoğanla tək-bətək, heç kimin iştirakı olmadan görüş keçirib. Ona görə də kiminsə dosye haqqında məlumatı olması ancaq xəstə düşüncəsinin məhsulu ola bilər. İki ölkənin çoxsaylı nümayəndələrinin görüşü zamanı isə belə fakt ümumiyyətlə olmayıb.

Hakimiyyət ambisiyasına dövlətin və xalqın mənsub olduğu hər şeyi qurban verməyə hazır olan həmin partiya rəhbərləri və onlara xidmət edən mətbuat orqanlarının səyi ilə Azərbaycanı terroru dəstəkləyən ölkə kimi təqdim etmək yalnız bir məqsəd güdür: nə qədər Azərbaycana pis olsa, onun iqtidarına da pis olacaq, deməli, müvafiq olaraq pozucu müxalifətə yaxşı olacaq. Bu, dövlətçilik üçün çox təhlükəli məntiqdir.

Müxalifət qəzetlərində hakimiyyətin bölüşdürüləcəyi, bəzi rəhbər vəzifəli şəxslərin istefaya göndərilməsi, iqtidarın daxilində qruplaşmalar və onların birbiri ilə kəskin mübarizə aparınası, rəhbər şəxslərin xaricə qaçması üçün xüsusi təyyarə saxlaması, guya Heydər Əliyevin istefaya getmək planları və s. haqqında uydurma və dezinformasiyaları da bu sıraya əlavə etmək olar. Belə təxribat niyyətli, açıqaşkar böhtan və saxtakarlıq üzərində qurulmuş yazıları azad sözün təzahürü kimi qiymətləndirmək qətiyyən mümkün deyil.

Ölkədə bugünədək 42 partiya dövlət qeydiyyatına alınmışdır. Özü də onların böyük əksəriyyəti iqtidara müxalifətdədir. Lakin bu partiyalar real

siyasi qüvvədən daha çox siyasi fəaliyyət imitasiyasıdır, əsasən, öz taleyindən narazı olan, qarşılarına qoyduqları məqsədə çatmayan, dəqiq ideya mövqeləri olmayan bir qrup adamdan ibarətdir. Daha dəqiq desək, müxtəlif sosial təbəqələrin və elementlərin konqlomeratından ibarətdir. Bütün bunlar belə deməyə əsas verir ki, bizdə konkret təbəqəyə, yaxud da elektorata istiqamətlənmiş, ciddi demokratik müxalifət partiyaları yoxdur!

Açıq-aşkar qəbul edilən liderin olmaması, partiya və bloklarda liderlik uğrunda gedən amansız mübarizə, ayrı-ayrı qruplaşmaların hegemonluq cəhdləri onları ziddiyyətlər və siyasi hikkələr burulğanına salmış partiyadaxili çekişmələrə sövq etmişdir. Ümumi əhalinin dəstəyini qazana bilməmələrinin səbəbi isə çox sadədir insanlar müxalif "siyasətçilər"dən hələ 19921993-cü illərdə ümidlərini üzüblər. İndi bu partiyaları siyasi təşkilatlar deyil, "Bakının mərkəzi hissəsi çərçivəsində daha çox şəxsi birliklər" hesab edənlər haqlıdırlar. Obrazlı desək, partiyalarda "liderlər" var, tərkibi və sosial bazası baxımından isə partiyaların özləri yoxdur. Bu tezisi 2002-ci il oktyabr ayının 5, 14 və 27-də, noyabrm 24-də Birləşmiş Müxalifət Hərəkatı adlı qurum tərəfindən təşkil olunmuş mitinqlər də təsdiq etdi. Bütün güclərini, təşkilati və maliyyə imkanlarını ortaya qoyan müxalifət partiyaları mitinqə birlikdə ən yaxşı halda 45 min adam cəlb edə bilirdilər. Onların da yarıdan çoxu müxtəlif vədlərlə şirniklendirilərək aksiyalara cəlb edilmiş təsadüfı şəxslər idi. Bu mitinq və yürüşlərə çoxlu sayda "muzdlu" adamların, şagirdlərin cəlb olunması müxalifətin sosial bazasından yox, ictimai rəylə manipulyasiya etmək, görüntü yaratmaq istəyindən xəbər verir.

Aqressiv müxalifət hakimiyyətə qarşı informasiya müharibəsi aparmaqdadır. İnformasiya müharibələri qarşı tərəfin mövqeyində, psixikasında, şüur və düşüncələrində müəyyən dəyişikliklərə nail olmaq məqsədi daşıyan ardıcıl və elaqəli tədbirlər kompleksi kimi başa düşülür. Ona görə də müxalifət ideoloqları tərəfindən hakimiyyət uğrunda siyasi mübarizəni psixoloji müharibə elementləri ilə tamamlamaq meyli özünü getdikcə daha artıq büruzə verməkdədir. Bu da təsadüfi deyil. Müxalifət başçıları dərk edirlər ki, seçkilər müxalifət partiyalarının hər biri və ya hamısı üçün katastrofik ola bilər. Bu gün Azərbaycan cəmiyyəti dərk edir ki, ölkədə müxalifətin destruktiv hissəsi artıq siyasi yararlılıq həddini keçibdir. Müxalifət başçılarının özləri anlayırlar və onu da bilirlər ki, 2003-cü

ildə Heydər Əliyevlə layiqli rəqabət aparmağa tək-tək və cəm halında heç bir şansları yoxdur.

Hesab edirlər ki, belə şəraitdə əhalinin narazı təbəqələrini müxtəlif yalan və böhtanlarla iqtidar üzərinə qaldırmaq, geniş ictimaiyyətdə Heydər Əliyev hakimiyyətinə inamsızlıq yaymaq, nəticədə "istefa" şüan ilə qarşıdurma ovqatını gücləndirmək yeganə çıxış yoludur. Azərbaycanda siyasi proseslərin informasiya müharibəsi mərhələsinə qədəm qoyması destruktiv müxalifətin ümid bəslədiyi yeganə yoldur!

Azərbaycanın müxalifətçi qruplarına istədikləri qədər mitinq keçirməyə hakimiyyət şərait yaradıbdır. Amma ardı-arası kəsilməyən mitinqlərin bir nəticəsi görünmür, çünki xalq onların fasiləsiz "yürüşlərindən" və aksiyalarından bezmişdir. İqtidarı tənqid etmək hər bir sivil ölkənin ictimai-siyasi həyatında qəbul olunmuş haldır. Sağlam müxalifət cəmiyyətə və iqtidara lazımdır. Lakin siyasi tarazlığı pozmağa çalışaraq konstitusiya quruluşunun əsaslarının təftiş olunmasını tələb edənləri heç bir iqtidar normal qəbul etmir.

Azərbaycanın ənənəvi müxalifət partiyalarının ideologiyasının, eməli fəaliyyətinin təhlil edilməsi bir sıra ümumiləşdirməler aparınağa imkan verir. Destruktiv, dağıdıcı müxalifət son 1015 ildə Azərbaycan xalqına və cəmiyyətinə inteqrasiya olunmayıb. Bu müxalifət xalqdan, müxtəlif əhali qrupların dan kənarda, onların ehtiyac və istəklərinə biganə qalaraq yalnız öz planları, korporativ, regional, qrup maraqları ilə yaşayıb və fəaliyyət göstərib. Müxalifətin xalqdan və vətəndaşların əksər hissəsindən fərqli ideyaları və dəyərlər sistemi yaranıb. YAP sədrinin birinci müavini, Milli Məclisin deputatı İlham Əliyevin təbirincə desək, onun mikroaləmi formalaşıb. Bu ideyaların, meyarların və dəyərlərin müasir standartlara və reallıqlara nə dərəcədə uyğun olması isə onun başçılarını və ideoloqlarını maraqlandırmayıb. İndiki müxalifət başçılarını və fünksionerlərini artıq bir dəfə hakimiyyətdə görmüş vətəndaşlar, geniş əhali qrupları beynəlxalq hüquqi və siyasi reallıqlara qətiyyən uyğun olmayan bu ideyalardan (ifrat millətçilik, turançıhq və s.) tezliklə üz döndərdilər. Bu ideya və şüarlar ətrafında spekulyasiyalar isə bır səmərə vermir. Heç bir elmi və sosial əsası olmayan bu ideyalar xalqın içərisinə nüfaz edə bilməyib. Ona görə də Azərbaycanın destruktiv müxalifət başçılarını tam haqlı olaraq mifik ideyalar və dəyərlər əsiri kimi xarakterizə edə bilərik.

Beləliklə, barışmaz destruktiv müxalifətin ideya və təbliğati imkanlarını heçə endirən, onu əhalidən və potensial seçicilərdən təcrid edən başqa bir səbəb ondan ibarətdir ki, uzun illər siyasi arenada fəaliyyət göstərən bu qüvvələr cəmiyyətdə "ideya istehsalçısı" ola bilməyib. Bunun da səbəbi var. O da ondan ibarətdir ki, bu müxalifət müasir dünyada gedən inkişaf prosesinin xüsusiyyətlərini qəbul etmir. Ona görə də köhnəlmiş, aktuallığmı itirmiş ideyalardan əl çəkmir, baxmayaraq ki, müxalifətin indiyə qədər irəli sürdüyü heç bir ideya həyatda sınaqdan keçməyib və özünü doğrultmayıb. Əslində, hər hansı real alternativ ideya, proqram və layihələrdən danışmağa da dəyməz. Təsadüfi deyildir ki, Müsavat Partiyasının sədri İsa Qəmbər 2002-ci ilin iyununda ABŞda səfərdə olan zaman "Hakimiyyətə gələcəyiniz halda Heydər Əliyevdən fərqli hansı daxili və xarici siyasət yeridəcəksiniz" sualına doğrudürüst cavab verə bilməmişdi. Ümumi ifadələrlə kifayətlənmişdi ki, "bəs biz daxili və xarici yaradıcı, müxalifət siyasəti sahəsində əsas istiqamətləri saxlamaqla daha effektli siyasət yeridəcəyik, Dağlıq Qarabağ məsələsində isə Ermənistanı daha konstruktiv olmağa (?! R.M.), vasitəçiləri daha obyektiv mövqe tutmağa dəvət edəcəyik". Ölkə daxilində işlətdikləri davakar ritorikadan isə əsərəlamət olmamışdı. ABŞ nümayəndələri elə oradaca İsa Qəmbərə xatırlatmışdılar ki, o, artıq bir dəfə hakimiyyətdə olub və dar ayaqda onu başlıbaşına buraxaraq çıxıb gedib.

Real, perspektivli, cəlbedici ideya və layihələr hakimiyyətə məxsusdur. Müxalifət ideoloqlarının təşəbbüsləri isə daha çox zay "idxal məhsulu" olaraq kompilyativ xarakter daşıyır. 90-cı illərin əvvəllərindən müxalifet ideoloqlarının cəmiyyətə qəbul etdirməyə çalışdıqları siyasi və ictimai təşkilatların "Dəyirmi masa" ideyası, indi mətbuata atılmış "Milli etimad hökuməti" təklifi və s. bu qəbildəndir. Beləliklə, obrazlı desək, müxalifətin ideya bazarına çıxarınağa əmtəəsi yoxdur. AXCP ("klassiklər") sədri Mirmahmud Fəttayev haqlı olaraq etiraf edir ki, müxalifətin fikirləri qocalıb. Real altemativ ideyaların yoxtuğu, ideya və mənəvi kasadlıq parlamentdənkənar müxalifəti bu vəziyyəti mifik və fantastik ideya və projelərlə kompensasiya etməyə vadar edir. Belə hallarda isə labüd olaraq ideoloji platformanı və təbliğatı siyasi lirika və "şifahi xalq yaradıcılığı"nın şayiə janrı əvəz edir. Müxalifət təbliğatı yalnız hakimiyyətin ideya və layihələrini əsassız tənqid etməklə məşğul olub, özünün isə

konstruktiv ideyaları yoxdur! Bu halı isə belə "əsaslandırıblar ki, bunlar hakimiyyətin qayğısı və vəzifəsidir. Məsələn, ADP Baş katibi Sərdar Cəlaloğlu "Niyə mitinqlərdə Qarabağ problemi ilə bağlı şüarlar irəli sürmürsünüz" sualına cavab vermişdi ki, bunlar hakimiyyətin isidir. Beləliklə, iqtidar yaradıcı, müxalifət isə dağıdıcı neqativ faktor kimi çıxış edir.

Xalq hərəkatı dövründə hədsiz romantizm müxalifət üçün gerçəkliyə nisbətən daha cəlbedici olmuşdu. Emosional hisslər, romantik idealizm bir çoxlarını indi də tərk etmir. Bu gün tam əsasla deyə bilərik ki, Azərbaycanda müxalifət xalqımızm milli ideyasına ciddi təsir edə bilməyib. Mən azad, müstəqil və demokratik Azərbaycan dövləti ideyasını nəzərdə tuturam. Bu ideyanın və azərbaycançılıq ideologiyasının formalaşması, həyata kecirilməsi də Heydər Əliyevin fəaliyyəti ilə bağlıdır.

Digər bir problem Azərbaycanda siyasi fəaliyyətlə məşgul olan insanlarda siyasi mədəniyyət və siyasi şüur səviyyəsi ilə bağlıdır. Məsələ burasındadır ki, 80-ci illərin sonunda xalq hərəkatı dalğasında siyasətlə, dövlət idareçiliyi ilə heç bir əlaqəsi olmayan, üstəlik, savadı və biliyi ilə seçilməyən çoxlu sayda təsadüfı adamlar, bəzən isə avantüristlər siyasi meydana atılmışdı. Bu adamlarda nə onların qısamüddətli hakimiyyəti dövründə, nə də müxalifətçi rolunda olduqlan uzun illərdə siyasi fəaliyyət, daha doğrusu, siyasi fəaliyyət imitasiyası siyasi şüurun yüksəlməsi və siyasi mədəniyyət tərbiyəsi ilə paralel gedib. Bir çox siyasətçi "ideoloq" və "flınksioner"də isə siyasi düşüncə tərzi deyil, bədii macəraçı şüur və düşüncə tərzi üstünlük təşkil edir.

Bununla sıx bağlı olan başqa bir məsələ də mövcuddur. O da müxalifətin üzdə olan şəxslərinin Azərbaycanın, xalqın və vətənin taleyi üçün məsuliyyətsizliyidir. Bir dəfə xalq hərəkatı dalğasında siyasi hakimiyyətin Olimpinə yüksəlmiş, məsul dövlət vəzifələri tutmuş indiki destruktiv müxalifət başçıları nə daşıdıqları vəzifənin məsuliyyətini, nə də dövlət, xalq qarşısında məsuliyyəti dərk edərək çətin ayaqda onlara etibar edilmiş postları buraxıb qaçdılar. Bu gün isə yorulmadan hakimiyyətə gəlmək arzusu və qətiyyətini təkrar edən həmin şəxslər yenə də hər hansı məsuliyyət hiss etmədən nəyin bahasına olursa-olsun istəklərini gerçəkləşdirməyə çalışırlar. Müsavat Partiyasının funksioneri Hikmət Hacızadə hətta 10 il keçdikdən sonra da bəyan edir ki, "vəzifədə xalq hərəkatının iştirakçıları olmalıdır" ("Yeni Müsavat", 24 dekabr 2002-ci il). Müsavat Partiyasının

sədr müavini və "Yeni Müsavat" qəzetinin redaktoru Rauf Arifoğlu isə daha qabağa gedərək yazır: "Azərbaycanın növbəti prezidenti seçilə bilmək üçün gərək, ən azı, səkkiz il Heydər Əliyev rejiminə qarşı mübarizə aparınış olasan" ("Yeni Müsavat", 26 dekabr 2002-ci il). Sanki bu şəxslərin və qrupların hakimiyyətə əzəli və əbədi bir monopoliyası varınış, Azərbaycan xalqı isə günahkar bir görkəmlə hakimiyyəti qızıl məcməyidə onlara təqdim etməliymiş.

Azərbaycanın əksər müxalifət başçılarının fəaliyyətinin acı nəticələri və fəsadları həm də onunla bağlıdır ki, onlar öz səhvlərini etiraf etmək gücündə deyillər; hər halda Azərbaycan ictimaiyyəti və siyasi dairələr bunun şahidi olmayıb. Onlar nə hakimiyyətdə olduqları dövrdə, nə də sonra lazım gələndə nizamintizama tabe olmağı, dövlətçilik düşüncəsi ilə yaşamağı və işləməyi öyrəndilər. Tarixdə nadir hadisələrdəndir ki, məğlub olan və hakimiyyəti biabırçılıqla başdı-başına qoyub qaçan qüvvələr az sonra bu qədər hakimiyyət ehtirası nümayiş etdirsinlər və xalqı hakimiyyəti onlarda əbədi saxlamadığına görə məzəmmət etsinlər, özünə borclu bilsinlər!

Destruktiv müxalifətin qrantla işləyən siyasiləşmiş qeyrihökumət təşkilatların dan asılılığı onu xarici qeyrihökumət qurumları ilə möhkəm bağlayıb. Buna görə də müxalifət başçıları çox zaman xarici dairələrin verdiyi tapşırıqlara uyğun hərəkət etməyə məcburdurlar. Belə təsəvvür etsək ki, onlar bir vaxt hakimiyyətə gələ bilərlər, ölkəni də hansı prinsiplərlə idarə edəcəkləri indidən bəlli olur.

Barışmaz müxalifət bütün cəhdlərinə baxmayaraq, cəmiyyətin strukturlarına (infrastrukturlarına) nüfuz edə bilməyib, əhalinin müxtəlif təbəqə və qruplarının ziyalıların, məcburi köçkünlərin, fermerlərin, iş adamlarının və s. etimadını qazanmayıb. Bu da təbiidir, çünki insanlar müstəqillik illərində çox dəyişilib, çətinliklə qazanılmış sabitliyi və ölkənin sosial-iqtisadi inkişafmı da yüksək qiymətləndirirlər. Onlar 1992-1993-cü illərin anarxiya, özbaşınalıq dövrünü təkrarən yaşamaq istəmirlər.

Belə bir vəziyyəti anlayaraq destruktiv müxalifət kortəbii narazılığa ümid edir. Onun təşkil etdiyi ardı kəsilməyən mitinqlərin sosial tərkibi bunun canlı şahididir. Bu müxalifət xalqdan inciklik, küskünlük, natamamlıq kompleksini gizlətmir və onları tezliklə hakimiyyətə dəvət etmədiyinə görə Azərbaycan xalqını daim məzəmmət edir.

Hakimiyyət opponentləri dərk edirlər ki, kadr, əqliintellektual, siyasi müstəvidə iqtidarla heç bir rəqabət aparınaq gücündə deyillər. Azərbaycanda müasir sivil hakim elita formalaşıb. Hakimiyyətin əzəmətli iqtisadi və sosial proqram və layihələri uğurla həyata keçirilir. Eyni zamanda, hələlik müəyyen obyektiv səbəblərə görə həll olunmamış problemlərin çözülməsini də xalq yalnız Heydər Əliyevdən, onım komandasından gözləyir. Belə halda destruktiv müxalifət başçıları xalqın dəstəyini qazanmağa və hakimiyyətə qayıtmağa son ümidlərini itirərək psixoloji uçurum qarşısında qalmışlar. Onların başçılarının aqressivliyini şərtləndirən səbəblərdən birini elə burada axtarınaq lazımdır. Aqressivlik onların tarix və siyasətdən birdəfəlik silinmək qorxusu ilə izah olunur.

Destruktiv müxalifət başçılarının və ideoloqlarının aqressivliyinin güclənməsi həm də 2003-cü il prezident seçkilərindən sonra partiyaların dağılmaq və siyasi arenadan silinmək perspektivi ilə baglıdır. Onlar başa düşürlər ki, egər müxalifətin namizədləri bu seçkilərdə qələbə çalmaq bir yana, hakimiyyətin namizədi ilə həqiqi döyüşə girə bilməsələr, olubqalan elektoratı da onlardan tam imtina edəcək. Əli Kərimovun etirafına görə, 2003-cü il seçkilərində müxalifətin məğlubiyyəti müxalifət düşərgəsində ciddi dəyişikliklərə gətirəcək. Seçkilərdə məğlubiyyət zəlzələ effekti yaradacaq. Bunu bütün müxalifət liderləri dərk edirlər ("Zerkalo", 26 dekabr 2002-ci ü). Müxalifət partiyaları daxilində narazılıq, rəhbərliyin istefa tələbləri sübut edir ki, 2003-cü il prezident seçkilərindən sonra bir çox partiyalar, əslində, mövcudluq uğrunda mübarizə aparacaq. Müxalifət başçıları siyasətlə vidalaşmağa məcbur olacaqlar. Elə ona görə də indidən prezident seçkilərinin nəticəsini pozmaq haqqında düşünürlər. Müsavata yaxın bir mənbə bildirir ki, fevral aymm əvvəlində Müsavat Partiyasının qərargahmda partiya Məclisinin bir üzvü narazılıqla qeyd edirdi ki, partiya rəhbərliyi üzvlərlə hazırda seçkilərə hazırlaşmaq əvəzinə onlara seçki günündən dərhal sonra keçiriləcək kütlevi aksiyalara hazırlaşmağı tövsiyə edir.

Destruktiv müxalifətin aparıcı simaları xarici dövlətləri və mərkəzləri müntəzəm olaraq Azərbaycanın daxili işlərinə qarışmağa, müxalifətə dəstək verməyə çağırırlar. Eyni zamanda, xarici dövlətlərin və ya beynəlxalq təşkilatların rəsmi təmsilçiləri bu müxalifətin maraqlarına toxunan, onun sxemlərinə uyğun olmayan fikir bildirirsə, mövqe nümayiş etdirirsə, müxalifət

başçılarının qəzəbinə tuş gəlir, tənqid və şantaj obyektinə çevrilir. ATƏT cəsarətsiz bir şəkildə olsa da, destruktiv müxalifətin mövqeyi ilə razılaşmırsa, dərhal arzuolunmaz şəxs elan edilir. Azərbaycanda ABŞ-nin səfiri işləmiş S.Eskudero haqqınnda qərəzli yazılara geniş yer verilir, çünki o, iqtidar haqqında müxalifətə sərf etməyən fikir söyləyir. Hətta Azərbaycan hakimiyyətinə sərt və qeyriobyektiv münasibətilə seçilən AŞ PAnm Azərbaycan üzrə məruzəçisi A.Qross referendumda səsvermənin normal və standartlara uyğun keçdiyini deyirsə, müxalifət mətbuatının qəzəbli yazıları ona qarşı çevrilir. Təsadüfı deyil ki, Avropa Şurası və ATƏT təmsilçiləri J.Bomel və J.Ştudman Azərbaycanda hakimiyyət opponentlərini qərəzli, ədalətsiz müxalifət kimi xarakterizə etmişdilər. Hələ 2000-ci ilin parlament seçkiləri ərəfəsində ATƏT DTİHB-in direktoru J.Ştudman radikal müxalifət başçılarına E.Məmmədova və İ.Qəmbərə xəbərdarlıq edirdi ki, siyasi qarşıdurmanı genişləndirmək xətti tutmağınız ciddi səhv olar və bütün məsuliyyət sizin üzərinizə düşmüş olardı" ("Azərbaycan", 27 iyul 2000-ci il). J.Bomel isə qeyd edirdi ki, Azərbaycanda sərt müxalifət var və onlar Heydər Əliyevə qarşı çox zaman sərt rəftar edirlər ("Yeni Müsavat", 29 iyun 2000-ci il). Lakin barışmaz müxalifət başçıları beynəlxalq təşkilatların bu qəbildən olan tövsiyələrini qəbul etməyiblər və hər hansı konstruktivlik nümunəsi göstərməyə hazır deyillər.

Dərin təhlil aparınadan belə üzdə olan faktları və təzahürləri nəzərə alsaq, görərik ki, Azərbaycanın barışmaz müxalifətinin sosial bazasının yoxluğu, minimal vəzifələri reallaşdıra bilməməsi, cəmiyyət tərəfindən ciddi qəbul olunmaması və başqa səbəblər onun kəskin radikallığmı doğurur. Müxalifət partiyaları xalq arasında olanqalan nüfuz və tərəfdarlarını itirdikcə, mehdud sosial bazası daraldıqca daha da aqressivləşir, yolverilməz, sivil dünyariın rədd etdiyi üsul və vasitələrdən getdikcə daha artıq dərəcədə istifadə etməyə meyil göstərir, çirkin siyasi texnologiyalardan, "qara piar"dan, təxribat xarakterli tədbirlərdən istifadə edərək ictimai rəyə təsir göstərməyə çalışırlar. Bu, nəticə veraıədiyi halda müxalifət başçıları təmkinlərini daha çox itirir, əsəbiləşirlər. Bu da təbii və anlaşılandır: bütün dünyada cəmiyyətdə yerini itirmək vəziyyətinə düşən siyasiictimai qüvvələr tarixdən silinmək təhlükəsi qarşısında mövcudluqlarını qorumaq üçün ifrat metodlara əl atmağa, təxribat, avantürist hərəkətlər etməklə özlərini siyasi səhnədə saxlamağa çalışırlar!

Barışmaz müxalifət başçıları üçün hakimiyyətin və siyasətin konfliktli şərhi səciyyəvidir. Bu isə son dərəcə təhlükəlidir. Məhz belə bir vəziyyət həm ölkə daxilində, həm də onun hüdudların dan kənarda daim mənasız, üzücü mübarizə üçün ideya əsası yaradır, insan və maddi resursların itkisinə getirib çıxarır. Müxalifətdaxili qeyrisabitlik vəziyyəti müəyyən şəraitdə müxalifətin özü üçün idarəolunmaz problemə gətirib çıxarar, cəmiyyətdəki proseslərə də mənfı təsir göstərə bilər.

Beləliklə, Azərbaycanda müxalifətin fəaliyyətini qiymətləndirərkən onu hədsiz iddialı, parçalanmış və daxili ziddiyyətlər nəticəsində dağılan, buna oxşar başqa ifadəlerdən istifadə etsək, səhv etmərik.

Biz artıq yuxarıda qeyd etmişdik ki, öz niyyətini həyata keçirmək məqsədilə destruktiv müxalifət müxtəlif çirkin metodlardan istifadəyə cəhd göstərir. Meselən, onun başçıları sosial problemlər adı altında xalqı hakimiyyətə qarşı qaldırmağa, hətta xırda, xüsusi xarakterli narazılıq təzahürlərini də şişirtməyə, qızışdırmağa və genişləndirməyə çalışırlar. Cəmiyyətdə marginal, antisistem qruplaşmaların qanunsuz tələblərinin qeydşərtsiz müdafiə edilməsi, onlarla məntiqsiz həmreylik nümayiş etdirilməsi partiya başçılarının və ideoloqlarının bəyan etdikləri platformadan və ideologiyadan praktiki məqsədlər naminə imtina etdiklərini sübut edir. Ümumiyyətlə, onlar hesab edirlər ki, hakimiyyət uğrunda mübarizədə bütün metod və vasitələr məqbuldur.

Siyasi radikalizmin və siyasi makiavelizmin xalis nümunəsi olan bu taktikanm və siyasi mübarizə "metodları"nın ideya əsasları müxalifətin mitinq taktikası, "AXCP-nin iqtidara qarşı təbliğat mübarizəsi" adlı bədnam sənədlərdə əksini tapıbdır. Bu sənədlərdə partiyalara və onların ideoloji strukturlarına təlimat verilir ki, hakimiyyətə qarşı mübarizədə bütün metod və vasitələrdən, hətta yalan, böhtan və təhqirdən istifadə olunması məqbuldur. Tövsiyə olunur: 1. Cəmiyyətdə siyasi qütbləşməni dərinləşdirmək; 2. İqtidarın ən adi səhvlərini şişirdərək cəmiyyətə faciə kimi təqdim etmək; 3. Heydər Əliyev şəxsiyyətini birbaşa hədəfə götürmək və onun "ifşasını" ardıcıl şəkildə davam etdirmək; 4. Sabitliyi pozmaq və sosial partlayış təşkil etmək; 5. İqtidarcəmiyyət qarşıdurmasına nail olmaq; 6. İdarəetmə sisteminin fəaliyyətinə mane olmaq, qərarların sabotajı, qeyriadekvat qərarların qəbuluna sövqetmə, vətəndaş itaətsizliyi aksiyaları,

iqtidar nümayəndələrinə qarşı ifşa yə şantaj, dezinfomıasiyalann yayılması, iqtidar nümayəndələrinin ələ alınması; 7. Aclıq və piket, küçə yürüşlərinin təşkili, kütləvi çaşqmlıq yaradan şayiələrin yayılması, narazılıqların qızışdırılması; 8. Beynəlxalq təşkilatların dəstəyinin təmin olunması; 9. İctimai rəy formalaşdırmaq üçün daxildə müdafiə komitələrinin yaradılması, qeyrihökumət təşkilatlarının gücünün səfərbər edilməsi; 10. Bütün bunların müxalifətyönümlü mətbuatda işıqlandırılması və əhaliyə çatdırılmasının təmin olunması.

Faktlar onu göstərir ki, bütün bu çirkin mübarizə metodları və vasitələri indi xüsusilə qüvvədədir və heç bir məhdudiyyət qoyulmadan destruktiv müxalifət tərəfindən tətbiq olunur.

Barışmaz müxalifətin siyasi və vətəndaşlıq mövqeyini normal və sivil mövqe hesab etmək olmaz. Bu fikrin düzgünlüyünə əmin olmaq üçün radikal müxalifət partiyalarının ölkənin mühüm problemlərinə olan münasibətini, ümumiyyətlə, fəaliyyətini təhlil etmək kifayətdir. Onların bütun məsələlərə kəskin mənfi münasibətini ölkə əhalisi də pis qarşılayır. Azərbaycanın ictimai fikri konkret siyasi mənsubiyyətindən asılı olmayaraq, müxalifət partiyalarından hadisələrə sağlam, dözümlü münasibət olmasını tələb edir.

Əlbəttə, iqtidarla müxalifət arasında vicdanlı, normal, sivil münasibətlər bütün cəmiyyət üçün nümunədir, siyasi sabitliyə, əhalinin müxtəlif qrupları arasında siyasi mədəniyyət, tolerantlıq tərbiyə olunmasına kömək edir. Bu da millətin intellektual və mənəvi qüvvələrini təxirəsalınmaz ümummilli vəzifələrin həllinə, xalqın daxilində inteqrativ meyillərin güclənməsinə səfərbər etməyə yardım göstərir.

Yeri gəlmişkən, Prezident Heydər Əliyevin simasında Azərbaycanın hakim komandası iqtidarla müxalifət arasında münasibətlərin normallaşmasına yönəldilmiş təşəbbüslərlə dəfələrlə çıxış etmişdir. Belə çağırışlar Yeni Azərbaycan Partiyasının birinci və ikinci qurultayların da, Dağlıq Qarabağ probleminin Milli Məclisdə müzakirəsi zamanı, Respublika Günü münasibətilə keçirilən toplantılarda və digər dövlət tədbirlərində səslənmişdir. Hətta bəzən elə görünürdü ki, siyasi opponentlər mühüm ümummilli məsələlərdə, xarici və daxili siyasət problemlərində konsensusa gəlməyə yaxındırlar. Amma son anda gözlənilmədən müxalifət partiyalarının

barışmaz başçıları mümkün dialoqdan geri çəkilirdilər. Görünür, siyasətdə qalmaq üçün onlara qarşıdurma daha məqbuldur.

Radikal müxalifət partiyaları başçılarının dialoqa və sivil siyasi mübarizəyə hazır olmamasını Seçki Məcəlləsinin müzakirəsi ilə baglı hadisələr də göstərdi. "Dəyirmi masa" ilə bağlı, demək olar ki, bütün şərtlərin qəbul olunmasına baxmayaraq, müxalifət partiyalarının başçıları müzakirələrdə iştirakdan imtina etdilər. Digər müxalifət partiyalan və siyasiləşmiş qeyrihökumət təşkilatları isə radikal müxalifət başçılarının qınağından çəkinərək və prinsipsiz həmrəylik nümayiş etdirərək müzakirələrə qoşulmadılar. Lakin dünya praktikasından da məlum olduğu kimi, kompromis o demək deyil ki, sənin bütün tələblərin qeydşərtsiz qəbul olunmalıdır, sənsə heç bir məsələdə güzəştə getməməlisən. Güzəşt qarşılıqlı olmalıdır! Ümumiyyətlə, dialoq haqqında danışarkən belə bir fakta diqqət yetirmək lazımdır: necə olur ki, bütün sahələrdə, daxili və xarici siyasətin bütün məsələləri üzrə dialoq və kompromis tərəfdarı olan, azərbaycanlıların ümummilli həmrəyliyinə çalışan Heydər Əliyev iqtidarı dialoq tərəfdarı olmur, daxili və xarici siyasətin bütün məsələlərində konflikt və ziddiyyət axtaran, birbiri ilə vuruşan, cəmiyyəti qarşıdurmaya sövq edən müxalifət başçıları isə dialoq və kompromis tərəfdarı olurlar? Məntiq haradadır?

Seçki Məcəlləsi ilə bağlı radikal müxalifət ideoloqlarının və başçılarının cığallığını və qeyrikonstruktivliyini göstərən başqa bir fakt budur ki, beynəlxalq hüquq və təcrübədən danışmağı sevən müxalifət başçıları öz hakimiyyət maraqlarını təmin etmək üçün dünya praktikasında və beynəlxalq hüquqda analoqu olmayan formatları Azərbaycana tətbiq etməyə çalışırlar. Buna misal olaraq seçki komissiyalarının iqtidar və müxalifət partiyalarının namizədlərindən paritet əsasında təşkil edilməsi təklifini göstərmək olar. "Azadlıq" qəzeti hələ 2000-ci il parlament seçkiləri ərəfəsində seçki komissiyalarının formalaşması prinsiplərindən danışaraq haqlı olaraq qeyd edirdi ki, "müxalifətin paritet tələbləri 1991-ci ildə yaradılmış milli şuranın yeni variantıdır. Bu yolla dövləti iflic etmək və hakimiyyəti ələ keçirmək istəyirlər ("Azadlıq"; 2 iyun 2000-ci il).

Müxalifət partiyaları başçılarının mövqeləri, əslində, ölkə əhalisinin böyük əksəriyyətini təşkil edən bitərəf, siyasi mənsubiyyəti olmayan insanların bir vətəndaş kimi hüquqlarını pozmaqdır. Bitərəflərdən prezidentliyə

namizəd olsa (praktika göstərir ki, belə hallar prezident seçkilərində tez-tez baş verir), komissiyalarda onların maraqlarını kim qoruyacaq? Müxalifət başçıları və ideoloqları uzun zaman belə bir fikri cəmiyyətə aşılamaga çalışırlar ki, siyasət, siyasi proseslər partiya mənsublarının monopoliyasında olmalıdır, onların hakimiyyətdə və siyasi həyatda iştiraka müstəsna hüquqları olmalıdır. Demokratik düşüncə tərzinin və davranış normalarının tezliklə bərqərar olmasını istəyiriksə, bu kimi illüziyalardan, əlbəttə, tezliklə azad olmaq lazımdır. Çünki demokratiya bütün vətəndaşların , əhali qruplarının hüquq bərabərliyinin və maraqlarının bərabər əsaslarla təmin olunmasını nəzərdə tutur.

Referendum zamanı "dialoq" imitasiyasının acı təcrübəsi də müxalifət liderlərinə dərs oldu. Onlar ATƏT-in Bakı ofisinin təşkil etdiyi dəyirmi masada hakimiyyət nümayəndələrinin arqumentlərinə qarşı heç bir ciddi dəlilsübut qoya bilmədilər, ayrılan vaxtdan isə özünüreklam və siyasi bəyanatlar məqsədilə istifadə etdilər. Nəticədə, onların mövqeyinin əsassızlığı, siyasi və elmiməntiqi cəhətdən qeyriciddiliyi bütün çılpaqlığı ilə aşkara çıxdı. Müxalifət liderlərinin çağırışlarının əksinə olaraq, vətəndaşlar referendumda yüksək fəallıq və vətəndaş mövqeyi göstərdilər.

Siyasi proseslər və faktların araşdırılması göstərir ki, destruktiv müxalifət fəalları məhdud saydadır. Demək olar ki, bu müxalifət illər boyu dəyişən, siyasi cəhətdən köhnə, çoxdandır ki, insanlarda müsbət hiss doğurmayan sifətlərdən ibarətdir. Əsasən köhnəlmiş düşüncə sahiblərindən və böyük iddiada olan adamlardan təşkil olunmuş bu müxalifət partiyalan uğursuz özfəaliyyət dəməyini xatırladır. Burada toplaşanların çoxu xalqın müxtəlif problemleri haqqında uzımuzadı fikir söyləsə də, onun üçün heç nə etməyiblər. Bu o şəxslərdir ki, eyni fikirləri illər boyu mətbuatda təkrar edirlər. Bu təkrardan oxucular yorulsa da, özləri yorulmur!

Cəsarətlə demək olar ki, destruktiv müxalifət millilikdən, daha dəqiq desek, milli maraqların düzgün anlanmasından, dövlətə və xalqa xidmətdən uzaqdır. Milli maraqları şəxsi maraqlarla əvəz edən bu qrupların əsas qayəsi şübhəli maliyyə təşkilatlarının və müxtəlif xarici qüvvələrin dəstəyi ilə Azərbaycanın milli maraqlarına qarşı yönəlmiş fəaliyyəti həyata keçirməkdir. Öz maraqlarını dövlət və xalq maraqlarından üstün tutan bu qruplar Azərbaycan dövlətinin problemlərini, onun gerçək vəziyyətini nə

bugünədək tez-tez ziyarət etdikləri hansısa bir xarici dövlətin xarici siyasət idarəsində, nə beynəlxalq təşkilatlarda, nə də ki, şəxsi görüşlər zamanı müzakirə obyektinə çeviriblər! Məhz şəxsi ambisiyalarının reallaşması uğrunda ölkədə və ölkə xaricində mübarizə aparan bu şəxslər bir amala xidmət edir və onun reallaşması üçün əllərindən gələni edirlərazərbaycanda hakimiyyətin dəyişdirilməsi və onların hakimiyyətə gəlməsi!

Təbii ki, heç kəs azad seçim və azad seçki prinsipinə zidd çıxmaq niyyətində deyil! Lakin xalqın problemini yalnız iqtidar yox, həmçinin müxalifət və adi xalq kütlələri də həll etməlidir. Və bunun üçün hər kəs əlindən gələni əsirgəməməlidir. Hər bir Azərbaycan vətəndaşı bu gün ölkənin problemlərinin həlli üçün özünü məsuliyyətli hiss etməli, ölkədə və ələlxüsus ölkə xaricində bunun üçün var qüvvəsi ilə çahşmalıdır. Burada Con Kennedinin məşhur kəlamından istifadə etmək yerinə düşərdi. Çünki Azərbaycan müxalifəti bugünədək "Mən dövlət üçün nə etmişəm" sualını cavabsız qoyub.

Yaranan vaxtdan bugünədək daha çox populist və mitinq abhavası ilə yaşayan müxalifət yeni mübarizə metodlarını özü üçün arayıb tapa bilmir, ölkənin daim inkişafda, tərəqqiyə doğru irəlilədiyi bir zamanda, sabitlik və demokratik şəraitin yaradıldığı bir məqamda müxalifət yığım, dəstə səviyyəsini aşa bilmir. Bunun səbəbini müxalifətin yeni fikir, yeni ideya irəli sürmək qabiliyyətinin yoxluğu ilə izah etmək olar. Çünki yeni dünya düzümü artıq ölkələrin daxili siyasətinə öz təsirini göstərərək siyasi mübarizə metodlarını daha da təkmilləşdirir və yeni məcraya keçirir. Lakin reallıq onu göstərir ki, Azərbaycanda destruktiv müxalifət hələ də köhnə siyasi təcrübə ilə yaşayır və ümumi düşüncə potensialının zəifliyi ucbatından yeni siyasi mübarizəyə transformasiya edə bilmir.

Müxalifətin münaqişə cəhdləri, qarşıqoyma siyasəti o qədər dərin kök salıbdır ki, artıq o, heç zaman milləti və cəmiyyəti bir yerə yığınaq, birləşdirmək funksiyasını həyata keçirə bilməyəcəkdir! Bütün fəaliyyəti ilə destruktiv müxalifət təsdiq edir ki, onun mahiyyəti ifrat millətçilikdir! Bu, özünü ölkədə yaşayan etnik qruplara olan münasibətdə aydın surətdə göstərir. Əgər bu siyasi qruplar müxalifətdə olduqları dövrdə milli azlıqlara belə dözülməz münasibətdədirlərsə, onda onların hakimiyyət ambisiyalarının gerçəkləşdiyi təqdirdə ölkədəki qarşıdurmanın və münaqişənin həcmini

təsəvvür etmək çətin deyil! Bu isə, öz növbəsində, təhlilimizin yenə də bir əsas tezisini təsdiqləyir: Azərbaycan müxalifəti, təəssüflər olsun ki, milli maraqların nə olduğunu bugünədək dərk etməyib. Onun aparıcı simalarının şəxsi maraqları milli maraqlardan və dövlət maraqlarından üstün tutulur.

Dünya inkişafının qloballaşma mərhələsində siyasətin əsas qayəsini anlamaq və siyasətlə məşğul olanların dövlət maraqlarını müdafiə etməsi olduqca vacib məsələdir. Lakin müxalifət partiyalarının rəhbərləri əvvəlki illərdə buraxdıqları kobud siyasi səhvlərdən özləri üçün nəticə çıxarmayıblar və yenə də yanlış yolla gedirlər. Bu, Nardaran qəsəbəsində (iyun, 2002  fevral 2003-cü il) baş vermiş hadisələrdə də özünü açıqaydın göstərdi. Destruktiv müxalifət, onun mətbuatı və bəzi hüquq müdafiə qurumlarının bu proseslərin təşkilatçılarını dəstəkləməsi, qanunazidd əməllər törədənləri müdafiə etməsi, hadisələrin başqa bölgələrə yayılmasına cəhd göstərməsi onların ölkədə sabitliyin pozulmasında, kəskin qarşıdurmanın yaranmasında maraqlı olduqların dan ciddi xəbər verir.

Müxalifət ideoloqlarından biri sayılan Rasım Ağayev hesab edir ki, müxalifət partiyaları Nardaran məsələsini istifadə edərək etiraz aksiyalarının çərçivəsini genişləndirə, sosial gərginliyi daha da artıra bilərdilər. Ancaq bu, baş vermədi. O, hem də etiraf edir ki, əgər müxalifət buna cəhd etseydi də, heç nə almmayacaqdı xalqda müxalifətə inam və onun nüfuzu yoxdur. Azərbaycanda xalqa rəhbərlik edib onu arxasınca apara biləcək müxalifət partiyası yoxdur. Gecə və gündüz xalqın problemləri haqqında fikiriəşən müxalifət barədə mif növbəti dəfə puç oldu ("Novoye vremya", 13 fevral 2003-cü il). Bu etiraf bir daha onu təsdiq edir ki, hətta radikal müxalifət partiyaları da ölkədə ictimai-siyasi proseslərə güclü təsir göstərmək iqtidarında deyillər.

Beləliklə, destruktiv müxalifətin fəaliyyətində dövlət quruculuğu, demokratik cəmiyyət quruculuğu istəyiyox, hədsiz hakimiyyət iddiaları göz qabağmdadır. Lakin inanırıq ki, siyasi mədəniyyətin səviyyəsi yüksəldikcə, demokratik müxalifət formalaşdıqca iqtidarla müxalifətin münasibətləri normal məcraya düşəcək, dialoqa, ümummilli problemlərə ağılla yanaşma nümımələri yaranacaqdır. Bunu cəmiyyətin inkişaf maraqları təkidlə tələb edir!

## Müxalifətin inteqrasiya cəhdləri və yaxud vahid namizəd problemi

Kəskin radikal müxalifət dairələrində 2003-cü il prezident seçkilərində vahid namizəd məsələsi ətrafında qızğın müzakirələr aparılır. 24 avqust referendumundan sonra bu müzakirələr intensivləşərək daha tez-tez mətbuat səhifələrinə çıxarılır. Sual olunur: bu ideya kimə və hansı məqsədlərə xidmət edir? Vahid namizədin müəyyənləşdirilməsi fikrini müxalifət daxilində kimlər qəbul edir? Kimlər qəbul etmir? Vahid namizəd anlayışının məzmununu, onun müəyyənləşdirilməsi mexanizmini destruktiv müxalifət dairələrində necə təsəvvür edirlər? Bu, nə qədər realdır? Vahid namizəd qismində müxalifət partiyaların da kimi görürlər? Vahid namizəd və müxalifət dairələrində vaxtaşırı müzakirə mövzusu olan koalisyon hökumət ideyaları arasında nə kimi əlaqə var? Bu suallar siyasi dairələri və siyasi proseslərlə maraqlanan vətəndaşları bu və ya digər dərəcədə düşündürməkdədir.

On ildən artıqdır ki, müxalifətdə ayrı-ayrı qruplar inteqrasiya uğrunda axtarışlar aparır. Müşahidələr göstərir ki, bu axtarışlar həm də iddialı partiya rəhbərlərinin özünü güc mərkəzi kimi təsdiq etməsinə, başqa partiyaların potensial tərəfdarlarını cəlb etməyə xidmət edir. Bu müddət ərzində müxtəlif bloklar, hərəkatlar və s. yaradılıb, ancaq qısa bir vaxtdan sonra onlar parçalamb dağılıblar. Məsələn, belə aqibəti "Dəyirmi masa", SİDSUH, Demokratiya Uğrunda Böyük Birlik, Demokratiya Uğrunda Hərəkat, Birləşmiş Müxalifət Hərəkatı, Dem-Konqres yaşayıbdır. 2002-ci ilin son aylarında isə "Dördlük", "Onluq" qurumları, Müxalifətin Koordinasiya Mərkəzi yaradılıb. Bütün bunlar bir məqsəd daşıyır: hakimiyyətə gəlmək üçün səyləri səfərbər etmək. Lakin obyektiv və subyektiv səbəblərə görə müxalif qüvvələrin birləşməsi xeyli maneələr və ziddiyyətlərlə üzləşdiyindən bu səylər bir nəticə vermir.

Bunu müxalif qurumların özüdə etiraf edir. AXCP ("klassiklər") Rəyasət Heyəti partiyanm "Onluq" formatmda keçirildiyi görüşlərə qatılmayacagı barədə hətta xüsusi qərar verib. "Bu format müxalifətin daha da parçalanmasına səbəb olub. Biz hesab edirik ki, hansısa ekstremal situasiyada bürokratik qurumların yaradılması ənənəsi özünü doğrultmur. "Onluq" formatı yalnız siyasi reabilitasiyaya çalışan, cəmiyyətdə heç bir nüfuzu

olmayan partiyalara sərfəlidir" ("Bizim əsr", 26 noyabr 2002-ci il).

Yuxarıda deyildiyi kimi, müxalifətdaxili çəkişmələr, qarşıdurmalar, intriqalar, dərin kök salmış ziddiyyətlər, hakimiyyət hərisliyi müxalif partiyaların inteqrasiyasının əleyhinə işləyən faktordur. Belə bir vəziyyətin əsas səbəblərindən biri də müxalifətin daxilində çoxsaylı qeyri-sağlam, intellekti, ümumi dünyagörüşü və mədəniyyəti aşağı olan, məsuliyyətsiz adamların fəaliyyət göstərməsidir. Azərbaycan Liberal Partiyasının sədri Lalə Şövkət Hacıyeva bu məsələyə münasibətini bildirərək qeyd edir: "Çəkişmələr insanların tərbiyəsindən, dünyagörüşündən, səviyyəsindən irəli gəlir. Əgər hər hansı liderin özünün mədəniyyət səviyyəsi yüksək deyilsə, sözsüz ki, intriqalar da, qeyrietik münasibətlər də olacaq. Mədəniyyətsiz insan özünə demokrat deyəndə onun fikri məndə gülüş doğurur və qeyriciddi səslənir" ("Xalq Cəbhəsi", 26 sentyabr 2002-ci il).

Heç şübhə yoxdur ki, müxalifət başçılarının vahid namizəd cəhdləri Heydər Əliyev şəxsiyyəti, onun miqyası, böyüklüyü qarşısında, xalq arasında nüfuzu və hörməti önündə hakimiyyət opponentlərinin gücsüzlüyünün və zəifliyinin etirafının göstəricisidir.

Müxalifətin vahid namizədi məsələsi ilk dəfə qaldırılmır. Hələ 1998-ci ildə prezident seçkiləri ərəfəsində mərhum Ə.Elçibəy müxalifətdən prezidentliyə yeganə namizəd olmağa çalışırdı. Lakin o vaxt bir çox partiya liderləri onun namizədliyini dəstəkləmədi, sonra da öz namizədliklərinin real olmadığını görərək prezident seçkilərində iştirakdan, ümumiyyətlə, imtina etdilər. Müxalifətin pərakəndə qüvvələrini bir bayraq altında birləşdirməyə sonralar da dəfələrlə cəhd göstərilir və bu məqsədlə müxtəlif model və formatlar irəli sürülürdü.

2000-ci il parlament seçkilərində də Müsavat Partiyasının başçıları müxalif partiyalarının səylərini birləşdirmək, seçkilərdə vahid siyahı ilə iştirak etmək haqqında təkliflər irəli sürmüşdülər. Lakin bu cəhdlər də elə başlanğıcdan uğursuzluğa düçar oldu, onları dəstakləyən tapılmadı.

Son vaxtlar köhnə müxalifət tərəfindən yaradılmış blokların daxilində gedən proseslər bir daha sübut edir ki, bu qurumlarda təmsil olunan partiyaların əməkdaşlığı möhkəm özül və ideya üzərində qurulmayıb. Dayaqlar indidən sarsılmağa başlayıb. Buna baxmayaraq, vahid namizəd ideyasının müəllifləri vuruşmalarını və axtarışlarını davam etdirirlər. Xüsusən də Müsavat Partiyasının sədri İsa Qəmbər bu məsələni daim aktuallaşdırır və

hətta onun "reallaşma mexanizmi"ni də təklif edir: "Dəfələrlə bəyan etmişik ki, biz bımun (vahid namizədin R.M.) tərəfdanyıq. Bunun müəyyənləşməsi mexanizmi kimi ilkin seçkini görürük. Hesab edirik ki, bu, ən düzgün, ədalətli və ən demokratik üsuldur" ("Azadlıq", 8 noyabr 2002-ci il).

Maraqlıdır ki, Müsavat başçıları, bir tərəfdən, guya vahid namizədin müəyyən edilməsinin özləri üçün əsas məsələ olmadığını bildirir, bu halda təşəbbüsün başqa partiyalardan gəlməli olduğunu deyirlərsə, digər tərəfdən, öz funksionerlərinin dilindən bu məsələnin həll olunması vacibliyini qeyd edir, mətbuatda onu daha çox müzakirə edir və tezliklə müəyyənləşdirilməsinin zəruriliyini vurğulayırlar.

Müsavat Partiyasının sədr müavini Arif Hacıyev hesab edır ki, "bu gün Azərbaycanda ilk dəfə olaraq prezident seçkilərində müxalifətin aparıcı partiyalarının vahid siyasi platforma və vahid namizədlə seçkilərdə iştirak etməsi ehtimah yaranıb". Onun iddiasına görə, "ictimai fıkrə təsir etmək imkanı olan partiyalardan AMİP, AXCP və ya Dempartiya Müsavata qoşulsa, bizi müdafiə edən klassiklərlə birlikdə bu, kifayətdir ki, müxalifətin vahid namizədini baş tutmuş hesab edək. Təkbaşına çıxış edən başqa partiyaların heç bir şansı olmayacaq" ("Exo", 29 noyabr 2002-ci ü). Bu fikrin özü onu göstərir ki, vahid namizəd ideyası başqa partiyalara, birinci növbədə, AMİP və ADP-yə qarşı çevrilmişdir.

Müsavat Partiyası sədrinin birinci müavini Vurğun Əyyub da, öz növbəsində, bəyan edir ki, "Müsavatm namizədi şanslı namizədlərdən biri deyil, birincisi olacaq. Müsavatın namizədinin vahid namizəd olması üçün ciddi fəaliyyət göstərəcəyik" ("Mərkəz", 26 oktyabr 2002-ci il).

Bu məsələdə Xalq Partiyasının sədri, əslində, İsa Qəmbərin sözçüsü kimi tanınan Pənah Hüseynov heç də Müsavat Partiyasının sədrindən fərqli düşünmür: "Hər birimiz başa düşməliyik ki, bizə mütləq birləşmək lazımdır. Yeni şəraitə uyğun fəaliyyət göstərmək lazımdır. Köhnə formatlardan yapışmaqla özümüz də köhnələ bilərik" (Azadlıq, 911 noyabr 2002-ci il). Pənah Hüseynova görə, bir sıra siyasi blokların yaranması, onların seçkidə birgə iştirakı bunun konkret ifadəsi kimi vahid namizəd mövzusunun aktuallığını artıracaq ("Şərq", 25 noyabr 2002-ci il).

Pənah Hüseynov öz ampluasına sadiq qalaraq müxalifət üçün bloklaşma strategiyasını müəyyən edir: "Müxalifətin daxilində müəyyənləşmə, aydınlaşma, konkretləşmə getməlidir. Bu, müxalifətin strukturlaşmasının

indiki səviyyəsindən siyasi bloklar mərhələsindən prezidentliyə namizədlər ətrafında yaradılan seçki blokları mərhələsinə keçid şəklində aparıla bilər". P.Hüseynova görə, müxalifətin ümumi mənafeləri naminə onun fəaliyyətini koordinasiya edən əməkdaşlıq mexanizminin olması zəruridir: "8-9 siyasi təşkilatın, bir o qədər də siyasi liderin yarısının birləşməsi müxalifətin birləşməsi kimi qəbul edilə bilər. *Bu yarının vahid namizədi müxalifətin vahid namizədi olar. Bu yarı istənilən tərkibi yox, geosiyasi, ideoloji, regional və s. mənafelərin işarəsi olan namizədləri ehtiva etməlidir* (seçdirmə bizimdir R.M.) *Vahid namizəd* ideyası müxalifətin elektoratının təmərküzləşməsinə xidmət edir və bu təmərküzləşmə prosesinin başa çatması konkret vahid namizədin müəyyən olunmasını mümkün edən mühüm şərtlərdən biridir" ("Yeni Müsavat", 29 noyabr 2002-ci il).

2002-ci ilin ortaların dan başlayaraq Müsavat Partiyası ilə sıx əlaqə yaradan, AXCPni ("klassiklər") dağıdandan sonra onun üzvlərini Müsavat və AXCP ("islahatçılar") arasında bölüşdürməyə razılığa gələn Əli Kərimov vahid namizəd məsələsinə bir qədər fərqli yanaşır. O bildirir ki, müxalifət əvvəlcə müxalifətdaxili əməkdaşlıq məsələsini müttəfiqlik səviyyəsinə qaldırmalıdır. Əgər buna nail olmasaq, onda heç olmazsa, müxalifət partiyalarının xeyli hissəsini birləşdirmək və müxalifətin bu spektrindən vahid namizəd məsələsini müzakirə etmək lazımdır ("Zerkalo", 14 sentyabr 2002-ci il). O, Müsavatı nəzərdə tutaraq deyir ki, əgər vahid namizədi müəyyən etməyə bizi tələsdirsələr, "kim kimi müdafiə edəcək" tipli diskussiyalar aparılsa, prezident seçkiləri ayırıcı faktora çevriləcək. "İndidən başlanan söhbət yüzdəyüz uğursuzluğa məhkumdur və müxalifətin parçalanmasına gətirib çıxaracaq" ("Politika ", 26 oktyabr 2002-ci il).

Vahid namizədin müəyyən edilməsi mexanizminə də münasibət fərqlidir. Müsavat Partiyasında bunun əsas yolunu ilkin seçkilərdə görürlərsə, Əli Kərimov başqa cür düşünür. O, hesab edir ki, bunu ölkə miqyasında keçirilən ilkin seçki, müxalifətin sifarişi ilə beynəlxalq təşkilatlar, özünü təsdiq etmiş sosioloji araşdırma mərkəzləri tərəfindən keçirilən sosioloji sorğular müəyyən etməlidir ("Yeni Müsavat", 1 dekabr 2002-ci il). Əli Kərimov qeyd edir ki, "söhbət müəyyən meyarlar əsasında bəzi yarış qaydalarının razılaşdırılmasından gedə bilər ki, bu və ya başqa liderin bu meyarlara uyğunluğu da tam şəffaflıq şəraitində, geniş ictimaiyyətin müşahidəçiliyi ilə aşkar oluna bilər" ("Zerkalo", 26 dekabr 2002-ci il). Bu sözlərdən

Əli Kərimovun Müsavata qarşı manevrləri aydın görünür. Ehtimal ki, o, AXCP-nin beynəlxalq təşkilatlarla daha yaxşı əlaqələri olduğunu əsas götürərək digər namizədlər üçün bu yolla sürprizlər edəcəyini düşünür.

Bir neçə il əvvəl ABŞ təmsilçilərindən Maykl Oksun Əli Kərimovun gələcək prezidentlik imkanları haqqında dediyi sözlərin necə effekt yaratdığını və mətbuatda necə müzakirələr doğurduğunu siyasi dairələrdə yaxşı xatırlayırlar. AMİP sədri E.Məmmədov hesab edir ki, vahid namizəd məsələsini həyata keçirmək üçün geniş müzakirələr olmalıdır və bu zaman bir çox problemlər baş verə bilər. "Əsas bir neçə aparıcı partiyanın bir namizəd çıxarınası real görünür. Bunu cəmiyyət yox, namizədlər özləri müəyyən edə bilər. Bunun üçün prinsipial siyasi qərarlar verilməlidir. Artıq AMİP, AXCP və Tərəqqi Partiyasının vahid namizədlə getmək haqqında sənədi var" ("Azadlıq", 17 oktyabr 2002-ci il). AMİP fımksioneri Əli Əliyev vahid namizədin müəyyənləşdirilməsi məsələsində digər müxalifət partiyalarının arqumentləri ilə razılaşmayaraq bildirir: "Bizim vahid namizəd məsələmiz müəyyənləşdirilən zaman nə beynəlxalq dəstək, nə də mitinq iştirakçılarının sayı prioritet götürüləcək. Vahid namizəd yetərincə ciddi arqumentlərlə bəlirlənəcək" (Xatırladaq ki, AMİP müxalifətin birgə mitinqlərinə az adam çıxarırdı).

AMİP Siyasi Şurasının üzvü, keçmiş millət vəkili Nazim İmanova görə, aparıcı Qərb dövlətlərinin Azərbaycanın daxili siyasi proseslərinin inkişafı ilə bağlı mövqeləri bir neçə tezisdə ifadə oluna bilər. Birinci yerdə ölkədəki siyasi sabitliyin saxlanması durur ("Olaylar", 8 oktyabr 2002-ci il). N.İmanov müxalifət başçılarının birbirinə birincilik məsələsində güzəştə gedə bilməsi perspektivləri haqqında maraqlı mülahizələr söyləyir. "Liderlərdən biri digərinə güzəşt edəndə təkcə prezidentliyə namizədliyi güzəşt etmir. Həmin adam müəyyən mənada öz siyasi gələcəyini, gələcəkdəki birinciliyini də qismən güzəştə gedir. Partiyanın rəhbərliyinə daxil olanlar və üzvlər, xüsusən başqa partiyanın sədrini bəyənməyənlər (uzun illər aparılan əks-təbliğatın nəticəsi olaraq R.M.) öz sədrlərinin yaxasından yapışıb soruşmağa başlayırlar ki, biz başqa bir partiyanın sədrini müdafiə edəcəkdiksə, illər uzunu niyə sənin təşkilatının arxasınca düşməliydik? Təbii ki, o partiyanın içərisində ciddi çaxnaşmalar ola bilər. Başqa bir mürəkkəblik ondadır ki, söhbət təkcə ikiüç namizəddən yox, ən azı 67 namizədin və onların partiyalarının mənafelərinin uzlaşdırılmasından gedir" *("Cümhuriiyyət", 1 dekabr 2002-ci il).*

Göründüyü kimi, vahid namizəd məsələsinin absurd olduğunu müxalifətin aparıcı adamları gözəl başa düşür və ona görə də heç vəchlə qəbul etmək istəmirlər. Həqiqətən də bu, həlli olmayan bir məsələdir, onun da kökündə İsa Qəmbər problemi durur. Çünki müxalifətin əksər başçıları onu qəbul etmir və müxalif partiyaların birbiri ilə səngimədən ideoloji və kompromat müharibəsinin də əsasında bu problem dayanır. Nazim İmanov belə bir acı vəziyyətin mövcud olduğunu gizlətmir: "Böyük bir qisminin AMİP-dən, onun sədrindən, rəhbərlərindən, bir qisını AMİP-çilərin Müsavat rəhbərliyindən xoşu gəlmir. Partiya rəhbərliyindəki şəxslərin bunu qəbul etmələri isə, ümumiyyətlə, çətindir. Məsələ təkcə liderin mənəmmənəmliyində deyil. Bütövlükdə daha dərin məsələlər var və bu istiqamətdə düşünmək lazımdır" ("Yeni Müsavat", 5 yanvar 2003-cü il).

Digər bir AMİP funksioneri Əli Əliyevin açıqlamasına görə, "müxalifət düşərgəsində daha böyük blokların yaranmasına ehtiyac var. Təbii ki, vahid namizəd məsələsi razılaşdırılarkən müəyyən sənədlər də tərtib olunmalıdır. Vahid namizədin təmsil etdiyi qüvvələrdə seçkidən sonrakı dövr üçün atılacaq addımlar, keçiriləcək siyasi tədbirlər haqqında arxaymhq olmalıdır" ("Şərq", 23 oktyabr 2002-ci il). AMİP rəhbərliyinin ilk baxışdan reallaşdırılması inandırıcı görünməyən başqa bir proqnozu da var: birdən müxalifətdəki əksəriyyət Etibar Məmmədovun vahid namizədliyi ilə razılaşdı. "Əli Kərimovu razı salmaq bizə o qədər də çətin olmayacaq". Etibar Məmmədov bütün müxalifətin deyil, müxalifətin bir qanadının seçkilərə vahid namizədlə getməsinə daha çox ümid bəsləyir.

AMİP funksionerlərinin fikrincə, son proseslər AMİP-in ziyanına işləyir: "Çünki Müsavat günbəgün AXCP islahatçılarını ələ keçirməyə doğru yaxınlaşır. E.Məmmədovun vahid namizədliyi Ə.Kərimlinin mövqeyindən asılıdır. Əgər Ə.Kərimli İsa Qəmbəri tutsa, onda AMİP seçkilərə müstəqil getmək məcburiyyətində qalacaq" ("Palitra", 29 noyabr 2002-ci il).

Azərbaycan Demokrat Partiyasının təmsilçiləri isə, ümumiyyətlə, vahid namizədin müəyyənləşdirilməsinin əleyhinə çıxır, onun müəyyənləşəcəyi halda isə vahid namizədin yalnız Rəsul Quliyev olmasını tələb edirlər. Hələ 2000ci ilin sonunda Rəsul Quliyev bəyan edirdi ki, özünün birinciliyini başqalarına qəbul etdirmək niyyətində olan şəxs psixi cəhətdən qeyrinormal adamdır. Belə şeyin əvvəlcədən mümkün olmadığını görə-görə bu istiqamətdə iş aparınaq, buna cəhd etmək Don Kixotluqdur. Vahid lider,

vahid komanda ideyaları müxalifətin birliyinin qayçısıdır. İqtidara qarşı mübarizədə yalnız Rəsul Quliyev və ADP müxalifətin daxilində birləşdirici, təmərküzləşdirici rol oynaya bilər ("Millət", 19 dekabr 2000-ci il).

S.Cəlaloğlu, N.Məmmədli israrla bildirirlər ki, hazırda müxalifətdə R.Quliyev qədər prezidentliyə şansı olan ikinci şəxs yoxdur. Əgər seçkilərə vahid namizədlə getmək məsləhətdirsə, onda niyə İ.Qəmbər, E.Məmmədov, İ.İsmayılov və başqaları R.Quliyevə güzəştə getməsin? Rəsul Quliyevin kiminsə xeyrinə öz namizədliyindən imtina etməsi fikri tamamilə absurddur. N.Məmmədli müxalifət başçılarını da hədələyir ki, əgər hər hansı səbəbdən R.Quliyev və ya A.Mütəllibov seçkilərdə iştirak etməsə, həmin seçkilərin nəticələri legitim hesab edilməyəcək. ADP R.Quliyevin iştirak etmədiyi seçkilərdə qələbə çalmış namizədin legitimliyini tanımayacaq ("525-ci qəzet", 24 oktyabr 2002-ci il).

Vahid namizəd məsələsi ilə bagli daha bir diqqətçəkən məqam. Müxalifətin yaxın ətrafından sızan məlumata görə, ADP tərəfindən müxalifət partiyalarına təklif edilmişdir ki, prezident seçkilərində ikinci tura keçən müxalifət namizədini digər partiyaların üzvləri dəstəkləsin və onlara qarşı əkstəbliğat aparılmasının. Bu fikir İ.Qəmbəri qane etməyib və o, yaxınlarına bildirib ki, təklif mahiyyətcə R.Quliyevin şəxsi maraqlarına xidmət etdiyindən məqbul sayıla bilməz. Odur ki, o öz nəzarətində saxladığı qəzetlərə bu təklifin yalnız R.Quliyevin maraqlarının təmininə yönəldiyi barədə yazıların dərci haqda göstəriş verib. Göründüyü kimi, seçkilər ərəfəsində müxalifəti inteqrasiyaya səsləyən başçılar şəxsi maraqlarının həll olunduğu prinsipial məqamda birbirlərinə zidd mövqe tutur, güzəştə getmək barədə düşünmək belə istəmirlər.

Müxalifət başçıları son vaxtlarda Qərb dövlətlərinin, müxtəlif beynəlxalq təşkilatların admdan sui-istifadə edərək onların guya hakimiyyət opponentlərini müdafiə etməsi haqqında məlumatları cidd-cəhdlə dövriyyəyə buraxırlar. Nurəddin Məmmədli həmçinin bildirir ki, "nə ABŞ, nə digər xarici ölkələr, nə də ölkənin daxilindəki ciddi siyasi qüvvələrdən hər hansı biri ADP-nin mövqeyini nəzərə almadan hakimiyyət məsələsini reallaşdıra bilər. Heç bir partiyanın Amerika ilə münasibətləri ADP-ninkindən yaxşı ola bilməz" ("Şərq", 2 noyabr 2002-ci il).

Gördüyümüz kimi, xarici siyasi dairələrə özünü daha yaxın göstərmək uğrunda Azərbaycan müxalifət başçıları arasında, sözün əsl mənasında, yarış

gedir. AXCP ("islahatçılar") sədri Əli Kərimov müxalifətin birləşməsinin Qərbin sifarişi olduğunu vurğulamağa çalışır: müxbirin "Bəziləri hesab edirlər ki, bu format ("Dördlük") Qərbin maraqlarına cavab verir və o, əvvəlcədən gələcək koalisiyanm ştrixlərini cızır" sualma cavab olaraq deyir ki, "aparıcı demokratik dövlətlər Azərbaycanın gələcəyinə təsir göstərə bilərlər. Beynəlxalq birlik bu partiyaların əməkdaşlığına müsbət baxır".

Vahid namizəd problemi ilə sıx bağlı şəkildə müzakirə edilən başqa bir məsələ müxalifət başçılarının və funksionerlərinin öz xülyalarında yaratdıqları "koalisyon hökumət", "Milli etimad hökuməti" ideyalarıdır. Bu da bəri başdan aydındır ki, bu müddəalar ətrafında müzakirələr aparanlar, əslində "koalisyon, milli etimad" hökumətlərinin harada, nə kimi şəraitdə yaradıldığından, onun mahiyyətindən xəbərsiz adamlardır. İkinci tərəfdən, "Milli etimad hökuməti" ideyası 1992-ci ildə Azərbaycanı fəlakətə gətirmiş "Milli Şura" təcrübəsinin, 1995-ci ilin mart dövlət çevrilişi cəhdi zamanı müxalifət dairələrində müzakirə edilən "müxalifət konsorsiumu" ideyasının yenidən reanimasiya edilməsi təşəbbüsündən başqa bir şey deyil.

Müsavat funksioneri Arif Hacıyevə görə, koalisyon hökumət məsələsində hər şey bəri başdan şərtləndirilməli və partiyalar üzərlərinə öhdəlik götürməlidirlər: "Hakimiyyət düşərgəsində hər qrupun öz bayrağı altında fəaliyyət göstərməsini "Milli etimad hökuməti" kimi qələmə vermək düzgün olmaz və bu, dövlətin mənafelərinə ziyandan başqa bir şey deyil. "Milli etimad hökuməti" seçkidən sonra fonnalaşacaq komanda kimi qəbul olunmamalıdır. Ölkədə belə bir hökumətin yaranmasını istəyənlər indidən öz seçimlərini edərək konkret namizədi dəstəkləməli və həmin namizədin seçkidə qalib gəlməsi ilə ümumi bir komanda formalaşmahdır" ("Şərq", 29 noyabr 2002-ci il).

Müsavat Partiyasının sədr müavini və "Yeni Müsavat" qəzetinin redaktoru Rauf Arifoğlunun fikrincə, ölkədə yeni siyasi situasiya yaradılmalıdır və həmin situasiya "Heydər Əliyevin hakimiyyətdən danışıqlar yolu ilə vaxtından əvvəl çəkilməsinə, hakimiyyəti milli qüvvələrdən təşkil olunmuş koalisiyanın dinc yolla nəzarətə götürməsinə əsas ola bilər" ("Yeni Müsavat, 21 oktyabr 2002-ci il).

Bütün bunlar onu göstərir ki, müxalifət ideoloqları və funksionerlərinin 1990-1992-ci illərdə tətbiq etdikləri "dinc" yolla hakimiyyət çevrilişi ssenariləri yenə də qüvvədədir və yaşarılığını itirməyib. Pənah Hüseynovun

fikrincə, əgər partiyalar seçki zamanı qüvvələrini, səylərini birləşdirəcəklərsə, güc mərkəzinin vahid namizədinin qalib gələcəyi halda ona dəstək vermiş qüvvələr də adekvat olaraq verdiyi dəstəyə uyğun hakimiyyətdə təmsil olunmalıdırlar. Onun iddiasına görə, bu partiyaların əksəriyyətinin seçkilərdə vahid namizədlə iştirak edən və seçkilərdə qələbə çalaraq ölkə problemlərini çözməyə qadir dayanıqlı hökumət yarada biləcək siyasi komandaya çevrilməsi potensialı vardır.

İlyas İsmayılovu və onun sədri olduğu Ədalət Partiyasını təbliğ edən "Politika" qəzeti bir tərəfdən müxalifət partiyalarının öz qüvvələrini birləşdirməsinin zəruriliyini vurğulayır, digər tərəfdən belə bir namizədin məhz İlyas İsmayılov ola biləcəyini sübut etməyə çalışır. Bununla yanaşı, müxalifətin daxilindən ortaya çıxan yeni bir motiv də səsləndirilir: "Hansısa partiya hakimiyyətə gəlsə, təkbaşına ölkəni idarə etməyə qadirdirmi? Problemləri yoluna qoymağa qadir olan güclü komanda yarada biləcəkmi? Ayrı-ayrılıqda müxalifət partiyalarının üzdə olan simalarının idarəçilik fəaliyyətini analiz etsək, ayrılıqda müxalifətin kadr potensialının zəifliyini aydın şəkildə görə bilərik. İlk növbədə, cəmiyyətə peşəkar kadrlardan təşkil olunmuş monolit komanda təqdim olunmalıdır. Müxalifətin çıxış yolların dan biri seçkilərə vahid namizədlə gedib qələbədən sonra koalisyon hökumət şəklində fəaliyyət göstərməkdir" ("Politika", 2 oktyabr 2002-ci il). Əli Kərimov koalisyon hökumət fikrini dəstəkləyərək qeyd edir ki, protest elektoratının səsləri hazırda müxtəlif müxalifət partiyaları arasında o dərəcədə bölünüb ki, onların heç biri müstəqil şəkildə hakimiyyətə gəlməyə qadir deyil. İndi koalisiya yaranmasına ehtiyac var ("Zerkalo", 26 dekabr 2002-ci il).

Müxalifət partiyalarının birləşməsi və prezident seçkilərində vahid namizədlə çıxış etməsi ideyasını təbliğ edənlərdən biri də özünü "üçüncü qüvvələr"in təmsilçisi kimi qələmə verən Eldar Namazovdur. Onun qənaətinə görə, "hətta üç partiyanın birlikdə hakimiyyəti Azərbaycanda mövcud olan problemləri həll edə bilməz. Biz bütün partiyalarla əməkdaşlığa hazırıq" ("Reytinq", 27 oktyabr 2002-ci il). E.Namazov "Milli etimad hökuməti"nin yaradılması ideyasının müəlliflərindən biri kimi çıxış edir: "Mən yeni hakimiyyəti milli barış, "Milli etimad hökuməti" qurulmasında görürəm. O hökuməti gərək indiki iqtidar, müxalifət və digər qüvvələr birlikdə yaratsınlar" (Bu konqlomerat hökumət Azərbaycanı nə günə salacaq? Təsəvvür

etmək çətin deyil R.M.). Azərbaycanı idarə edəcək gələcək hakimiyyət heç bir partiyanın təsiri altında olmamalıdır. E.Namazovun ssenarisinə görə, bunun ən uğurlu yolu məhz demokratik seçkilər nəticəsində formalaşan "Milli etimad hökuməti"dir ("525ci qəzet", 8 oktyabr 2002-ci il).

Mütəllibovun mövqeyini ifadə edən Vətəndaş Birliyi Partiyası adlanan qurumun Baş katibi Sabir Hacıyev müxalifət partiyalarının hakimiyyətdə birgə təmsil olunmasını mümkün sayır: "Əgər biz müxalifət olaraq mübarizə dövründə birgə əməkdaşlıq ediriksə, istisna deyil ki, bu əməkdaşlıq müxalifət qüvvələrinin hakimiyyətdə birlikdə təmsil olunması üçün zəmin yarada bilər. Əgər bu gün əməkdaşlığın bəhrəsini görsək, arada anlaşılmazlıq baş verməsə, əlbəttə, koalisiya hakimiyyəti qurmaq mümkündür" ("Politika", 18 oktyabr 2002-ci il).

Lakin vahid namizəd ideyasının əleyhinə çıxan və bunun mümkünlüyünü ümumiyyətlə inkar edənlər kifayət qədərdir, hətta daha çoxdur. Liberal Partiyasının sədri Lalə Şövkət hesab edir ki, vahid namizəd söhbətlərini yığışdırmaq lazımdır. "Heç kim heç kimə səlahiyyət verməyib ki, hansısa partiya bütün müxalifətə rəhbərlik etsin. Heç kim müxalifətdən özünə rəhbər seçməyib. Heç kim də özünü rəhbər göstərməsin" ("Şərq", 25 oktyabr 2002-ci il).

Lalə Şövkətin fikrincə, "Onluğ"a sədrlik edən insan vahid namizədliyə iddialı olacaq. Ancaq o iddianm reallaşması mümkün deyil. "Vahid namizəd məsələsi inteqrasiya prosesinin qarşısmı ala bilər. Dəfələrlə şahidi olmuşuq ki, vahid namizəd məsələsi ortaya atılanda müxalifət arasında çəkişmələr, ziddiyyətlər baş qaldırır və bununla da inteqrasiyaya yönələn cəhdlər boşa çıxır". Lalə Şövkət "Onluğ"a sədr seçilməsinə digər partiyaların razılıq verəcəyi təqdirdə belə ALP-nin bu məsələyə müsbət yanaşmayacağını vurğulayır: "Əgər belə olarsa, biz "Onluq"da təmsil olunmayacağıq. Bu təkliflərin mahiyyətində vahid namizəd məsələsi dayanır" ("525ci qəzet", 30 oktyabr 2002-ci il). Lalə Şövkətə görə, bu gün bəzi müxalifətçilər arasında məntiqsiz oyun gedir: "Vahid namizədliyini qəbul edib mənimlə olsanız, onda siz aparıcı qüvvə, çox böyük adam olursunuz. Vahid namizəd məsələsini məntiqsiz şey kimi qəbul edirəm. Sivil dünyada belə şey yoxdur. Müxalifət rəngarəngdir, müxtəlif ideologiyalar, səviyyələr, müxtəlif dəyərlər sistemi, müxtəlif konsepsiyalar var. Necə olur ki, kommunistlərin, demokratların və liberalların hamısından bir nəfər namizəd çıxır?" ("Ekspress", 4 dekabr 2002-ci il).

Müxalifətin aparıcı üzvlərinin vahid namizəd məsələsinə fərqli münasibəti göstərir ki, bu ideyanı ortaya atan Müsavat başçıları ancaq öz maraqlarını əsas tuturlar və bu maraqların reallaşması üçün istənilən şəxsi və ya qurumu ayaq altına tullamağa hazırdırlar. Müsavatın Elçibəyin ölümündən sonra AXCP-nin fəallarını öz tərəfinə çəkmək cəhdi və bunun üçün də bu partiya daxilində "parçala və hökm sür" siyasəti, sonra AXCP-nin sədri kimi gah Əli Kərimovu, gah da Mirmahmud Fəttayevi tanıması oyunları, özü də bu mövqeyini bir neçə dəfə dəyişməsi onun müxalifətin daxilində qeyri-səmimi fəaliyyətindən və dağıdıcı missiyasından xəbər verir. Bunu partiya rəhbərlərindən Lalə Şövkət, Sabir Rüstəmxanlı, İlyas İsmayılov, Etibar Məmmədov və çox güman ki, Əli Kərimov və Mirmahmud Fəttayev yaxşı başa düşürlər.

Heç də təsadüfi deyil ki, Sabir Rüstəmxanlı müxalifətin vahid namizəd ideyasını real saymır, hesab edir ki, ortaya atılmış bu məsələ müxalifətin diqqətini yayındırır. O bu problemlə bağlı fikrini belə ifadə edir: "Vahid namizəd məsələsinin baş tutacagı real deyil. Bütün müxalifət partiyalarının iddiaları var. Ona görə də real olmayan məsələ haqqında düşünməyə dəyməz. Əslinde, vahid namizəd məsələsi bir buxova çevrilib. Bunun ətrafında baş sındıra-sındıra qalmışıq" ("525ci qəzet", 8 noyabr 2002-ci il).

Sərdar Cəlaloğlu vahid namizəd ideyasınm əleyhinə sərt çıxış edərək bildirir ki, müxalifət seçkilərdə vahid namizədlə iştirak edəcəksə, xalqın seçimi məlum olmayacaq. "Biz seçkilərə vahid namizədlə gediriksə, xalq nəyi seçməlidir? Bu gün vahid namizəd ideyasını irəli sürənlər istəyirlər ki, xalqdan qabaq özümüz kimisə seçək, sonra isə xalqı həmin namizədi müdafiə etməyə məcbur edək. Vahid namizəd ortalığa atılan kimi birləşmək mümkün olmayacaq". Başqa müxalifət partiyalarının vahid namizəd iddialarına qarşı çıxan S.Cəlaloğlu bəyan edir ki, heç bir namizəd Azərbaycan xalqını elliklə belə bir seçkiyə cəlb edə bilməz. "Bir neçə real altemativ olmalıdır ki, geniş xalq kütlələrini, müxtəlif elektoratları, regionları, etnik qrupları maraqlandıra və seçkiyə cəlb edə bilsin" ("Hürriyyət", 17 noyabr 2002-ci il).

Öz destruktivliyi ilə seçilən, desfruktiv qüvvələrin fəal tərəfdarı kimi çıxış edən Milli Məclisin deputatı İqbal Ağazadə bu sahədəki vəziyyəti belə səciyyələndirir: "Azərbaycanda müxalifətin elektoratı vahid elektoratdır. Partiyaçılıq prinsipi Azərbaycanda heç nəyi həll etmir. Ümumi qələbə

naminə Rəsul Quliyevin İsa Qəmbərə və ya Lalə Şövkətin İlyas İsmayılova güzəştə gedəcəyinə inanmıram. Əslində, müxalifətin yığışıb müzakirələr aparınası onlara aydınlıq gətirir ki, onlar bir yerdə ola bilməzlər" ("Üç nöqtə", 23 oktyabr 2002-ci il).

AXCP-nin ("klassiklər") qurucularından olan Zəlimxan Məmmədli hesabl edir ki, vahid namizəd ideyası o qədər də uğurlu ideya deyil və bu ideyanın məqsədi müxalifəti parçalamaq, dağıtmaqdır. "Demokratik mühit olsa, demokratik düşərgədən on-on beş nəfər də namizəd iştirak edə bilər. Bu, əksinə, insanların daha çox siyasi proseslərə cəlb olunması və saxtakarlıq elementlərinin aradan qaldırılması üçün münbit şərait yaradır" ("Şərq", 221 oktyabr 2002-ci il). "Əgər bu dörd partiya müttəfiqləşirsə, ən azı, onlardan kənarda kifayət qədər özünü ciddi qüvvə hesab edən, proseslərə ciddi təsirl etmək imkanında olan qüvvələr var. Belə halda ən azından "Dördlər"ə alternativ formalaşır. Faktiki, bu qurumun mövcudluğu dezinteqrasiyaya yol açır!" Gördüyümüz kimi, bu fikirlər "Dördlər"in diktatlığına qarşı çevrilib.

Müşahidələr maraqlı bir məsələni də ortaya çıxarır: müxalifətin öz içində vahid namizəd ideyasının reallaşmasını və ümumiyyətlə, "Onluğ"un fəaliyyətinin hər hansı nəticə verəcəyini güman edənlər çox azdır. Buna skeptik yanaşanlardan biri də AXCP-nin üçüncü qanadının sədri Qüdrət Həsənquliyevdir. Onun fikrincə, "Onluğ"a daxil olanlar vaxtilə birbirini hakimiyyətdən salmış və Azərbaycanı fəlakətlə üzüzə qoyan qüvvələrdir: "Sabah əgər bunlar birgə hakimiyyətə gəlsələr, yenə onların arasında qanlı dava başlanacaq. Və "Onluq"da toplaşanlar, demək olar ki, tamamilə başqa dövlətlərdən asılıdırlar". Bunu da sübut etmək çox asandır. "Azərbaycanda Vergilər Nazirliyi, Maliyyə Nazirliyi və başqa əlaqədar orqanlar var. Onlar müvafiq araşdırmalar aparmalıdırlar: hər partiyada nə qədər adam çalışır, nə qədər maaş alır, nə qədər vergi verir, hansı tədbirə nə qədər vəsait xərclənib, yaxud adını qeyri-dövlət təşkilatı qoyub əsllində kimlərə işləyirlər. Yəni bütün bunların hesabı aparılandan sonra qaranlıq heç nə qalmayacaq. Onda aydın olacaq, kim hara və necə işləyir. Onların hələlik bir arada olması da xaricdəki ağalarının istəyi ilə ortaya çıxan nəticədir" ("Azad Azərbaycan ", 20 noyabr 2002-ci il).

Müxalifətin nəinki sıralarında vahid namizəd ideyasını qəbul etməyənlər mövcuddur, ümumiyyətlə, müxalifətdə ölkənin birinci şəxsi olmaq səviyyəsində adam olmadığın hesab edənlər də var. Məsələn, ASDP həm-

sədri Zərdüşt Əlizadə vahid namizəd ideyasını və müxaliflərin prezidentlik iddialarının qeyri-mümkün və əsassız olduğunu söyləyir: "Mən əksər müxalifət liderlərinin iddiasını sabun köpüyünə bənzədirəm. Onların nə savadı, nə iradəsi, nə mənəvi xüsusiyyətləri və təcrübələri imkan verəcək ki, gəlib ölkədə birinci şəxs olsunlar" ("Mərkəz", 3 oktyabr 2002-ci il).

ASDP-nin başqa həmsədri Araz Əlizadə isə müxalifət başçılarını dəfələrlə xalqa yalan deməkdə günahlandırır: "Müxalifətdə xalqı aldatmış şəxslər var... Bu vahid namizəd anlayışı çox gülünc və mənasız məsələdir. Məsələn, sosial-demokratlarla milli demokratlar necə vahid namizəd irəli sürə bilər? Bizdə əqidə ayrılığı var" ("Politika", 4 yanvar 2003-cü il).

Müxalifət başçılarını yaxşı tanıyan Nemət Pənahlı Əlizadə qardaşlarının fikrini dəstəkləyərək vahid namizəd məsələsinin ortaya atılmasını təxribat sayır: "İnanmıram ki, İsa Qəmbər Etibar Məmmədovun, Etibar Məmmədov da İsa Qəmbərin vahid namizədliyini qəbul etsin. Demokratiyadan dəm vuranlar hansı haqla vahid namizəd məsələsini ortaya atırlar?" ("Xalq Cəbhəsi", 3 oktyabr 2002-ci il).

Demək olmaz ki, Müsavatın bütün funksionerləri vahid namizəd ideyasını qəbul edir, əksinə, elələri var ki, bu məsələyə mənfı yanaşırlar. Partiyanın sədr müavini Qabil Hüseynli bu ideyanı müxalifəti birləşdirən yox, ayıran faktor hesab edir: "Ən ideal variant siyasi müxalifətin bir namizədlə seçkilərə getməsidir, amma indiki şəraitdə bunu mümkün hesab eləmirəm. Bu gün bir çox siyasilər öz iddialarını ortaya qoyaraq əvvəlcədən də elan ediblər ki, heç bir güzəştə getməyəcəklər" ("Ekspress", 27 dekabr 2002-ci il). Rəsul Quliyevin və İsa Qəmbərin müxtəlif vaxtlarda bir-biri haqqında dedikləri də bu qənaəti möhkəmləndirir. Rəsul Quliyev nə İsa Qəmbərin, nə də Etibar Məmmədovun komandasında işləməyi mümkün hesab edir ("Azadlıq", 27 yanvar 1999-cu il). İsa Qəmbər də öz növbəsində bildirir ki, Müsavat başqanı heç bir partiya sədrinin yanında ikinci adam ola bilməz.

Xüsusi qeyd edilməlidir ki, nəzərdə tutulan bu "birliklər" hər hansı mənəvi və etik əsasdan da məhrumdurlar. "Birləşənlər" hələ bu yaxın vaxtlaradək bir-birini hər cür günahlarda, xəyanətkarlıqda, satqınlıqda, dövləti cinayətlərdə təqsirləndirən adamlardır. Hər bir bu cür "birlik" kompromatlar müharibəsini yenidən qızışdırır, müxalifət partiyaları arasında parçalanmanı daha da dərinləşdirir. Qüdrət Həsənquliyev bu məsələ

ilə bağlı fikrini belə açıqlayır: "Mən inanmıram ki, R.Quliyev vaxtilə dolayıb ələ saldığı İ.Qəmbərin namizədliyini müdafiə edəcək, yaxud "əlin qana batıb" deyən E.Məmmədov İsa Qəmbərin namizədliyinə səs verəcək. Yaxud, İ.Qəmbər onu hakimiyyətdən salan E.Məmmədovu dəstəkləyəcək və ya istefa ərizəsi yazdırdığı Mütəllibovun namizədliyini müdafiə edəcək. Gördüyünüz kimi, bütün bunlar absurd bir şeydir" ("Azad Azərbaycan", 20 noyabr 2002-ci il).

Aydındır ki, müxalifətin vahid namizədi heç olmasa müxalifət dairələrinin lider kimi qəbul etdiyi şəxs olmalıdır. Bu səxs müəyyən xarizmaya malik olmalı və xalq arasında nüfuzu ilə seçilməli, başqa müxalifət başçılarından özünün intellektinə, təşkilatcılıgma və digər keyfiyyətlerinə görə əsaslı şəkildə fərqlənməlidir. Müxalifət başçıları arasında isə bu keyfiyyətlərə cavab verən və dövlət idarəçiliyində özünü təsdiq etmiş sima yoxdur. Həm də vahid namizəd məsələsi elədir ki, liderlərdən başqa, partiyaların daxili strukturu da buna uyğunlaşmalı və hazır olmalı, ideoloji prinsiplərdə oxşar cəhətlər üstünlük təşkil etməli, siyasi maraqlar uzlaşmalı, xarici prioritetlər eyni olmalı, tərəfdarların əksəriyyəti partiya liderinin atdığı addımı dəstəkləməli, hətta müəyyən şəxsi maraqlar da qorunmalıdır. Gördüyümüz kimi, süni, obyektiv əsası olmayan məsələ çoxsaylı, həlli praktiki olaraq qeyri-mümkün problemlər doğurur.

Bir neçə partiyanın birləşib vahid namizədlə çıxış etməsi o deməkdir ki, onlar koalisyon hökumət qurmağın tərəfdarıdır. Tarixi təcrübə göstərir ki, ən çox problem yaradan, cəmiyyəti inkişafdan saxlayan, daxili sabitliyi qoruya bilməyən hökumətlər koalisyon hökumətlərdir. Müasir dövrdə belə hökumətlərin tez-tez dəyişilməsi adi hal olan İtaliyanı, Latın Amerikası ölkələrini və s. buna misal göstərmək olar.

Müxalifət başçılarının qarşıdakı prezident seçkilərində heç bir şansının olmadığını bir çox xarici müşahidəçilər və kütləvi informasiya vasitələri, o cümlədən Azərbaycana və Azərbaycan iqtidarına o qədər də müsbət münasibəti olmayan xarici KİV və sorğu mərkəzləri də təsdiq edir. Xarici sosioloji proqnozlar sübut edir ki, indi vətəndaşların böyük əksəriyyəti Heydər Əliyevə səs verərdi. Elektoratm seçimi bu halda iki amillə müəyyən olunur: müxalifət düşərgəsində tanınmış və hamının qəbul etdiyi liderin olmaması, digər tərəfdən, hakimiyyətin dəyişəcəyi halda mümkün social-iqtisadi sarsıntılar təhlükəsi ("Nezavisimaya qazeta", 18 noyabr 2002-ci il).

Bugünkü pozucu müxalifəti səciyyələndirən və vahid namizəd ideyasın heçə endirən cəhətlərdən biri də onun başında duranların bir-birinə paxıllıq, qısqanclıq hissləridir. Prezident seçkiləri ilində bu hisslər daha da güclənibdir. Müxalifətin mətbuatında zahiri birlikdən fərqli olaraq, partiyaların daxilində bu münasibətlər heç də gizlədilmir.

Məsələn, müxalifət mənbələrinin verdiyi məlumata görə, 2003-cü il yanvar ayının 22-də Müsavat Partiyası İdarə Heyətinin üzvlərindən, Müsavatın aparıcı simalarından biri yaxın ətrafına bildirir ki, AXCP ilə bağlı son vaxtlar yaranmış vəziyyət (Ədliyyə Nazirliyinin qərarının ləğvi nəzərdə tutulur) yalnız Əli Kərimovun nüflızunun artmasına xidmət edir. M.Fəttayevin Ə.Kərimovla birləşməsi və sonuncunun partiyaya sədr seçilməsi istiqamətində nümayəndələr vasitəsilə müzakirələr aparınası, AXCP-nin böyük qüvvəyə çevrilməsi mümkünlüyü prezident seçkiləri ərəfəsində bütövlükdə Ə.Kərimovun daha çox şanslı olmasına imkanlar yaradır.

Onun sözlərinə görə, Müsavat M.Fəttayevin rəhbərlik etdiyi AXCP-dəki Müsavatyönümlü şəxslər vasitəsilə bu danışıqların qarşısının alınması istiqamətində fəal iş aparır. O bildirir ki, yaranmış vəziyyət Müsavatın nəzarətindən çıxacağı təqdirdə M.Fəttayevin DemKonqresə sədr seçilmə məsələsinə baxılacaq, bu yolla onun AXCP-nin sədri kimi liderliyi qorunub saxlanılacaqdır.

Beləliklə, vahid namizəd ideyasını ortaya atan Müsavat Partiyası başçılarının məqsəd və niyyətlərinin indidən iflasa uğraması şübhə doğurmur. Məsələ burasındadır ki, bu, tamamilə əks ideoloji məramnamələri olan ən müxtəlif siyasi qruplaşmaları prinsipsizcəsinə birləşdirmək cəhdləridir. Bu qruplaşmalara başçılıq edən şəxslər isə, bir qayda olaraq, son dərəcə iddialı adamlardır və heç bir nüfıız sahibini tanımırlar. Təsadüfı deyil ki, onların bir çoxu L.Şövkət, İ.İsmayılov, R.Quliyev, E.Məmmədov, S.Rüstəmxanlı və digərləri qarşıdakı seçkilərdə öz namizədliklərini irəli sürmək niyyətində olduqlarını qətiyyetlə bəyan edirlər. Bımdan əlavə, bu adamların dünyagörüşü, mənəvi keyfiyyətləri, təfəkkür tərzi və iqtidara olan münasibəti fərqlidir. Ona görə də müxalifətdən vahid namizəd məsələsinin reallaşması mümkün olmayan xülyadır. Destruktiv müxalifətin vahid namizəd ideyası bəşəriyyətin ümumi qardaşlıq xam xəyalını xatırladır.

Daha bir məsələni qeyd edək. Nəzəri cəhətdən təsəvvürə gətirək ki, müxalifətçilər birləşdilər və Heydər Əliyevə qarsı belə vəziyyət də heç

nəyi dəyişdirmir. Müxalifət partiyaları başçılarının istər qısamüddətli hakimiyyətdə olduqları dövrdə, istərsə də müxalifətdə olduqları uzun illərin reallıqları göstərdi ki, onlar qrup, korporativ maraqlar əsasında qruplaşma liderləri, ən yaxşı halda isə partiya başçıları səviyyəsindən yuxarı qalxa bilməyiblər, yalnız nüfuz dairəsi üstündə, müxalifət statusu uğrunda birbiri ilə çarpışma aparan qurumların, Pənah Hüseynovım ifadəsini işlətsək, müəyyən geosiyasi, ideoloji, regional və s. maraqların təmsilçisi roluna iddia edə biliblər. Xalqın hamılıqla qəbul edilmiş rəhbəri, ümummilli lider olan Heydər Əliyev şəxsiyyəti qarşısında müxalifət başçılarının siyasi, idarəçilik, intellektual, mənəvi kasadlığı, cılızlığı heç kəsdə şübhə dogurmur.

Bir məsələ də aydındır ki, 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra müxalifət partiyalanndan və liderlərindən heç kəs onunla ciddi dialoqa girə bilməyib. Xalq arasında müxalifətin apancı liderləri Heydər Əliyev tərəfindən məğlub edilmiş siyasətçi imici qazanıblar.

"Zerkalo" qəzetindəki analitik yazıda getmiş mülahizələr maraqlıdır: "Əgər seçkilər indi keçirilsəydi, prezidentliyə çoxlu namizədlər olacağı halda, hətta nisbətən ədalətli seçkilər keçirilsə belə, müxalifətin heç bir şansı olmazdı.

Müxalifətdən olan digər namizədlərin ikinci turda İsa Qəmbərə səs verəcəkleri şansı çox müəmmalıdır. Azərbaycan elektoratmm böyük hissəsi "regionçu" imici qazanmış İsa Qəmbərə səs verməyəcək" ("Zerkalo", 20 noyabr 2002-ci il).

Mühüm əhəmiyyət kəsb edən məsələ budur ki, Qərb dövlətləri, o cümlədən ABŞ Azərbaycanda siyasi xaos yaranmasında maraqlı deyillər. Qərb hesab edir ki, müxalif siyasətçilərdən heç kəs ölkəde sabitliyi təmin etmək iqtidarın da deyil. Qərb ölkələrində müxalifət başçılarına dəfələrlə açıqca bildirilib ki, Qərb xaos və ya sabitlik dilemması qarşısında qalacağı təqdirdə qətiyyən heç bir tərəddüd göstərməyərək heç bir halda müxalifətə istinad etməyəcək.

Beləliklə, yuxarıda qeyd olunanlar onu göstərir ki, destruktiv müxalifətin başçıları birbirinə güzəştə gedə bilməyəcəklər, psixoloji cəhətdən də onların heç biri özünü başqaları qarşısında məğlub hesab edə bilməz. Aydın olur ki, vahid namizədin müəyyənləşdirilməsi də, onun olmaması da müxalifətə həlli mümkün olmayan problemlər yaradacaq. Bütün hallarda pozucu müxalifətin ağır itkiləri qaçılmazdır.

Müşahidələr, təhlillər və xarici sorğu qurumlarının araşdırmaları belə bir möhkəm qənaətə gəlməyə əsas verir ki, ölkə vətəndaşlarının böyük əksəriyyəti Azərbaycan Prezidenti Heydər Əliyevin siyasətinə real alternativi təsəvvürünə gətirmir. Respublikada mövcud ictimai-siyasi durum, sabit inkişaf perspektivleri və tendensiyaları göstərir ki, Azərbaycanın siyasi gələcəyi Heydər Əliyevin komandası, onun fəal tərəfdarları və ardıcılları, bu siyasəti birmenalı şəkildə dəstəkləyən adamlarla bağlıdır.

## "Yeni müxalifət"in formalaşması

Məlumdur ki, hər bir siyasi partiya hakimiyyətə gəlməyi qarşısına məqsəd qoyur. Bu o vaxt normal bir hal olar ki, belə məqsəd demokratik prinsiplərə əsaslansm. Ancaq Azərbaycanda destruktiv müxalifətin mahiyyəti buna imkan vermir. Ona görə ki, bu müxalifətin rəhbərləri vərdiş etdikləri zorakılıq fəlsəfəsindən əl çəkə bilmirlər. Məsələ ondadır ki, hakimiyyətdə olduqları dövrdə də zorakılıq üsulları, meydan psixologiyası və konfliktli, davakar davranış ifrat radikal müxalifətin fəaliyyətinin əsas prinsiplərini təşkil edirdi. Odur ki, iqtidarda olduğu bir il müddətində AXC-Müsavat cütlüyü dövləti məhvolma həddinə çatdırdı, özünün yaratdığı xaos və özbaşınalığın öhdəsindən gələ bilmədi. Qeyd etdiyimiz kimi, təəssüf doğuran hal budur ki, radikal müxalifətin başında duranlar köhnəlmiş təfəkkürlə yaşayaraq və aqressiv mövqedən çıxış edərək yenə də dağıdıcılıq flınksiyasını yerinə yetirirlər.

Bu gün bu müxalifətdə təmsil olunanlar o insanlardır ki, nə hakimiyyətdə olduqları bir ildə, nə də ki 1993-cü ildən bu günə qədər Azərbaycanın maraqları naminə kiçik də olsa bir iş görüblər. Fikirləşmək olardı ki, heç olmazsa ümummilli problem olan Daglıq Qarabağ münaqişəsinin həlli məsələsində Müsavat, ADP, AMİP və AXCP ("klassiklər") hakimiyyətlə həmrəy olacaq. Lakin bu da arzu olaraq qalır. Əksinə, Dağlıq Qarabağ probleminin belə mürəkkəb düyünə düşməsinin səbəbkarların dan biri də Azərbaycanın destruktiv müxalifətidir desək, səhv etmərik. Azərbaycan vətəndaşlarının əksəriyyətinə, sağlam düşüncəli insanlara qətiyyən sirr deyil ki, Qarabağ faciəsi, torpaqlarımızın itirilməsi xeyli dərəcədə hakimiyyət uğrunda çirkin vasitələrdən istifadə etməklə mübarizə aparan destruktiv müxalifətin hərbi-siyasi qruplaşmalarının intriqalarının və oyunlarının nəticəsi idi. Bütün

mümkün vasitələrdən istifadə etməklə problemin ədalətli həllinə çalışan Azərbaycan iqtidarına dəstək vermək əvəzinə, hakimiyyət ambisiyasına hər şeyi qurban verməyə hazır olan radikal partiya rəhbərləri bu faktordan hakimiyyətə təzyiq vasitəsi kimi istifadə edir, insanları inandırmağa çalışırlar ki, ancaq onlar Dağlıq Qarabağ məsələsini həll edə bilərlər; bunu reallaşdırmağın da bir yolu var, o da destruktiv müxalifət başçılarının hakimiyyətə gəlməsidir. Vətənin taleyi ətrafında bu cür oyunların aparılması çox acınacaqlı hal olsa da, bu, faktdır. Çətin inanmaq olar ki, hansısa ölkədə müxalifətin belə mövqeyi ilə rastlaşmaq mümkündür.

Əgər Azərbaycan Qərbə, Avropaya inteqrasiya yolunu tutubsa, Azərbaycan müxalifəti bu ölkələrin müxalifətindən nümunə götürməlidir. Artıq biz bilirik ki, bu ölkələrdə parlament və prezident seçkiləri ərəfəsində tənqidlər, siyasi dialoq və diskussiyalar çox qızğın olur, seçkilərə həsr olunmuş geniş kütləvi tədbirlər keçirilir. Lakin seçilmiş deputat və ya ölkə başçısı artıq barışmaz rəqib deyil. Seçilməyən namizəd seçilənə, dövlətçiliyə, milli maraqlara qarşı mübarizə aparınır və s. Cəmiyyət prezidentə dövlətin rəmzi kimi hörmət və ehtiram göstərir. Bizə qardaş olan Türkiyədə də vəziyyət belədir.

Ölkə Prezidenti Heydər Əliyev müxalifəti köhnəlmiş mübarizə üsullanndan əl çəkməyə, müasirləşməyə çağıraraq qeyd edir ki, bu gün müasirləşmək üçün çox böyük imkanlar var. Çünki dünyada indi demokratiya daha geniş inkişaf edir və dünyanın əksər ölkəlerini əhatə edir. İnkişaf etmiş ölkələrdə müxalifətin iş metodları, taktikası, proqramlan, strategiyası dövlətin və cəmiyyətin magistral inkişafı ilə ziddiyyət təşkil etmir. Əgər Azərbaycan müxalifəti onlara daha çox istinad etsə, onun özü üçün də faydalı olar.

Lakin Azərbaycanda siyasi proseslərin gedişi göstərir ki, son on ildə qeyridemokratik, davakar əhvali-ruhiyyəli müxalifətin liderləri və ənənəvi tərəfdarları dəyişməz qalıblar. Əsasən də bu, partiya başçılarına aiddir. Partiyalarda sədr seçkiləri avtoritar, qeyridemokratik prinsiplər əsasında keçirildiyindən, bir qayda olaraq, alternativsiz olub və onlar ciddi demokratik siyasi partiya kimi formalaşa bilməyiblər. Bu illər ərzində müxalifətin sıralarına hakimiyyət sıralarından və bitərəflərdən çox az adam, əsasən dövlət qulluğundan uzaqlaşdırılmış adamların kiçik bir hissəsi, yaxud da hakimiyyət iddiaları ödənilməmiş şəxslər qoşulmuşdur. Bununla yanaşı, müxalifət partiyalarının sosial bazası dağılmaqda davam etmişdir ki, bu

da nəticə etibarilə onların əksəriyyətinin, əslində, sekta tipli təşkilatlara, korporativ maraqlar əsasında birləşmiş insanların dəməklərinə çevrilməsinə gətirib çıxarmışdır. Demək olar ki, köhnə müxalifətin sıralan bitərəflərin sayı hesabına artmamışdır, əksinə, azalmaqda davam edir.

Araşdırmalar göstərir ki, müxalifət partiyalarının bu vəziyyətdə qalmasının bir neçə səbəbi var.

Birinci səbəb ondan ibarətdir ki, xalq hərəkatı başlayanda onun aparıcı şəxsləri qarşılarına partiya yaratmağı məqsəd qoymamışdılar. Əsas məqsəd Dağlıq Qarabağ problemi, torpaqlarımızın erməni qəsbkarlarından təmizlənməsi idi. Bu partiyaların ortaya çıxması xalq hərəkatının son dövrünü əhatə edir. Yəni partiyaların yaranma dövrü xalq hərəkatının milli azadlıq mübarizəsinə transformasiya dövrü ilə sıx bağlıdır. Aydındır ki, bu dövrdə tələmtələsik elan olunan partiyalar amorf xarakter daşıyırdı, populist çağırışlar və şüarlar onların proqramlarının özəyini təşkil edirdi. Təbii ki, bu siyasi qurumların sosial dayaqları da rəngarəng idi.

Məqsəd mümkün qədər çox tərəfdar yığınaq, hakimiyyətdən pay almaq idi. Belə bir vəziyyətdə daha çevik və iddialı şəxslər öz ətrafındakıların köməyinə arxalanaraq partiya rəhbərliyini ələ keçirib öz maraqlarına uyğun idarə strukturunu yaratdılar. Ekspertlərin və partiyaları tərk edən funksionerlərin fikrincə, bu partiyalarda idarəçilik avtoritar, hətta diktatura üsulları əsasında qurulub. Gündəliyə çıxarılan məsələnin müzakirəsində və yaxud qarşıda duran problemin həllində kollektiv seçkili idarə orqanlarının fikri, rəyi, təklifləri əksər hallarda nəzərə alınmır.

İkinci səbəb  partiyaların dağılmaq təhlükəsi. Çünki onların sosial dayaqları çox məhduddur, bəzi partiyalar isə tək sədrdən və ətrafından ibarətdir. Ona görə də partiya adı ilə siyasətdə qalmaq və görüntü yaratmaq daha sərfəlidir.

Üçüncü səbəb  ölkə və cəmiyyətin keçid dövründə yaşaması ilə bağlıdır. Cəmiyyətdə iqtisadi islahatların tam başa çatmaması, orta təbəqənin fonnalaşması prosesinin davam etməsi siyasi partiyaların xeyli hissəsinin ideoloji və taktiki cəhətdən amorf vəziyyətdə olmasına, ziddiyyətli taktiki və strateji kurs yeritməsinə səbəb olur. Müxalifət düşərgəsində ciddi dəyişiklik üçün zaman keçməli və cəmiyyət özü bunu sifariş etməlidir.

Dördüncü səbəb  müxalifətin daxilində ümummilli səviyyədə liderin olmaması. Bütün partiyaların başçıları böyük iddialarla yaşayırlar, böyük

potensiala və çoxsaylı tərəfdarlara malik olduqlarını iddia edirlər. Bu əsassız iddialar da ondan irəli gəlir ki, onlar həyat təcrübəsi, idarəçilik bacarığı, intellekti, dünyagörüşü ilə bir-birindən, demək olar ki, fərqlənmirlər.

Azərbaycanın siyasi palitrasının bir hissəsi belə zəif halqalardan ibarətdir. Və bu halqalarla, obrazlı desək, möhkəm zəncir toxumaq müşkül işdir. Hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğunda iştirak ölkənin bütün insanlarının vətəndaşlıq borcudur. Buna tək iqtidar deyil, müxalifət də məsuliyyət daşıyır. Bu partiyaların əqliintellektual, kadr potensialı buna imkan verirmi?! Keçmiş AMİP-çi Şadman Hüseyn bu suala mənfi cavab verir: "Mən təəssüf edirəm ki, həmin partiya sədrləri Azərbaycana rəhbərlik etmək iddiasındadırlar. Başçılıq etdiyi partiyaları bugünədək lazımi səviyyədə idarə edə bilməyən, proqramları həyata keçirməyən şəxslərin bu iddiada çıxış etməyə əsasları varmı? Əgər bu partiyalar qurultay keçirsələr, hesabat versələr, sözsüz ki, onlar istefaya göndəriləcəklər" ("Yeni Azərbaycan", 4 sentyabr 2002-ci il).

Demokratik, plüralist cəmiyyətdə müxalifət partiyalarının siyasi həyatdakı rolunu nəzərə alsaq, birmənalı deməliyik ki, destruktiv müxalifət partiyaları daxilində yeniləşmə zəruridir. Birinci növbədə bu, cəmiyyətin inkişafı üçün lazımdır. Müsavat Partiyasının nümayəndəsi Rəhman Bədəlovun fikrincə, müxalifət partiyalarının başında on ildir ki, eyni sifətlər görünür.

Bu, partiyalarda seçkilərin saxtalaşdırılmasının nəticəsidir: "Biz durğunluq dövründə yaşayırıq və başa düşmürük ki, bu, nə qədər təhlükəlidir. Siyasi meydanda dəyişilmə çox vacibdir, biz başqa sifətler görməliyik, biz müxalifət liderlərinin başqa plastikasını görməliyik" ("Exo", 7 noyabr 2002-ci il).

Gördüyümüz kimi, destruktiv müxalifətin köhnə başçılarının dəyişilməsi müxalifətin öz daxilindən tələb olunur. Partiyalarda sıravi üzvlər və obyektiv mövqeli insanlar başa düşürlər ki, dağıdıcı təfəkkür və köhnə mübarizə üsulları ilə nəyəsə nail olmaq mümkün deyil. Əksinə, belə mövqe müxalifət partiyalarının sosial bazasının tamamilə itirilməsinə gətirə bilər. Bunun qarşısını almaq üçün siyasi meydana yeni, demokratik müxalifət qüvvələri gəlməlidir. Qeyd etməliyəm ki, artıq bu proses başlayıb. Faktlar belə bir fikri təsdiqləyir ki, yeni müxalifətin formalaşması prosesi elə müxalifət mühitinin öz daxilində gedir. Bu nəticə indiki çoxpartiyalı sistemin təşəkkül tarixi ilə də təsdiqlənir. Əgər yaxın tariximizə nəzər

salsaq, görərik ki, indiki bir çox müxalifət partiyaları ayrı-ayrı qrupların Xalq Cəbhəsindən qopub ayrılması nəticəsində meydana gəlmişdir.

Destruktiv müxalifət partiyalarının başçıları konstruktiv qrup tərəfindən ciddi müqavimət və narazılıqla qarşılaşır. Bu partiyalardakı konstruktiv qrup öz başçılarının demokratik prinsiplərə uyğun hərəkət etmələrinə inamlarını itirdiklərindən onların dəyişdirilməsi təşəbbüsü ilə çıxış edirlər. Hadisələr göstərir ki, partiyaların yuxarı dairələrinin qeyrikonstruktivliyi, davakar radikalizmi, hakimiyyət uğrunda qeyrisivil mübarizə metodları, 1990-1992-ci illərin meydan əhvaliruhiyyəsi, heç nə verməyən mütəmadi mitinqlər, yürüşlər gənclər, sağlam mövqeli partiya üzvləri tərəfindən qəbul olunmur. Onlar hesab edirlər ki, mitinqlər dövrü çoxdan keçib, zaman bu gün yeni, sivil mübarizə üsullarını və formalarını tələb edir.

Müşahidələr onu deməyə əsas verir ki, radikal müxalifət partiyaları daxilində ziddiyyətlər bundan sonra da dərinləşəcək və kəskinləşəcəkdir. Artıq partiyalar daxilində cərəyan edən proseslər bunu təsdiqləyir. Sağlam mövqeli partiya üzvləri və onları dəstəkləyən gənclər donuq təfəkkürlü, dünyada və ölkədə baş verən dəyişikliklərdən xəbərsiz olan ortodoksal rəhbərləri qəbul etməyərək yeni iş üsulunu, yeni ab-havanı, konstruktivliyi və pozitiv fəaliyyətə keçməyi tələb edirlər.

Müsavat Partiyasından daxil olan məlumat göstərir ki, onun bir qrup üzvü tələb edir ki, Məmməd Əmin Rəsulzadənin ideyalan partiyada bərpa olunsun və onlar müasir dövrün tələblərinə uyğunlaşdırılsm. Görünur, bu çağırışlar təsadüfı deyil. İş bundadır ki, Müsavat Partiyasının fəaliyyəti müsavatçılıq ideologiyası ilə üstüstə düşmür. Məlumdur ki, müsavatçılıq ideologiyası cəmiyyətdə tarazlığın olması, edalətin bərqərar edilməsi əsasında yaranıb və daha çox sosialyönümlü partiya ideologiyası kimi çıxış edirdi. Bugünkü Müsavat Partiyası isə, əslində, Xalq Cəbhəsinin parçalanmasından sonra İsa Qəmbərin öz tərəfdarları ilə yaratdığı bir qurumdur. Daha dəqiq desək, bu partiya 1990-cı ilin 20 Yanvar faciəsindən sonra İsa Qəmbərin Şimali Azərbaycan Demokratik Partiyası yaratmağa çalışdığı qurumun sonradan Müsavat Partiyası adı altında fəaliyyətidir.

İsa Qəmbərin yaratdığı Müsavat Partiyasının siyasi platforması eklektik bir platformadır. Yeni müxtəlif ideya cərəyanlarının, baxışların, nəzəriyyələrin prinsipsiz birləşməsidir. Konyunktur maraqlara əsaslanaraq bu partiyanın

funksionerləri praktiki fəaliyyətlərində solçu, islamçı, ifrat millətçi, sağçı və s. siyasi baxışların şüar və çağırışlarından geniş istifadə edirlər.

Siyasi ekspertlərin və təhlilçilərin fikrincə, Müsavat Partiyası məhz ona görə yaradıldı ki, onun başında duran şəxslər sovet rejiminə qarşı aparılmış mübarizənin 20 Yanvar faciəvi nəticəsindən qorxuya düşmüşdülər. Gələcəkdə məsuliyyətdən yayınmaq üçün onlar özlərinin Xalq Cəbhəsi rəhbərliyində guya liberal qanad olduqlarını nümayiş etdirmək istəyirdilər. Təhlilçilər hesab edirlər ki, bugünkü Müsavatın gələcəyi çox dumanlıdır və fəaliyyətini demokratiyanın prinsiplərinə uygunlaşdıra bilməsə, Azərbaycanın siyasi səhnəsini tərk etmək məcburiyyətində qalacaq.

Bununla yanaşı, barışmaz müxalifət partiyalarının regional stukturları arasında da böyük narazılıq olduğunu müşahidə edirik. Görünür, onlar partiya rəhbərliyinin perspektivi olmayan oyununda iştirak etmək istəmirlər. Bu partiyaların bir çox sıravi üzvləri cemiyyətdə gedən müsbət dəyişiklikləri, quruculuq proseslərini, iqtisadi və sosial layihələrin uğurla həyata keçirildiyini görərək özlərinin "partiya bosları"na bütün inamlarını itirirlər. Onlar öz "liderlərinin" siyasi xəttinin, hansısa müəmmalı səbəblərdən tez-tez dəyişən taktika və strategiyasının uğursuzluğunu tədricən başa düşür və belə bir qənaətə gəlirlər ki, Prezident Heydər Əliyevin siyasətinin alternativi yoxdur. Görünür, ADP-nin, Müsavatın, AMİP-in, AXCP-nin (istər islahatçılar, istərsə də "klassiklər" adlananların ) yerli strukturların da baş verən kütləvi tərketmə prosesini bununla izah etmək lazımdır. 2002-ci ilin avqustunda referendumdan sonra bu proses xüsusilə sürətləndi, yüzlərlə insan radikal müxalifət partiyalarını tərk edərək öz siyasi taleyini və gələcəyini Yeni Azərbaycan Partiyası ilə bağladı.

Siyasi ekspertlər partiya "liderlərinin" amirliyini, onların aqressiv, davakar, yanlış siyasətini, dövlət mənafelərinə zidd olan əməllərini müxalifətin özünün zərərinə olan hərəkət kimi qiymətləndirirlər. Hesab edirlər ki, partiya liderləri tərəfdarlarının, sosial bazasının intellektual və təşkilati potensialının tükəndiyini yaxşı başa düşürlər və özlərini siyasi səhnədə saxlamaq üçün təhlükəli yola qədəm qoymuşlar.

İndi yetkin düşüncələr və hərəkətlər zamanı, keçmişdən nəticə çıxarmaq, müsbət təcrübə zərrəciklərinin toplanması və demokratik cəmiyyətin ayrılmaz tərkib hissəsi kimi öz ruhuna və məzmununa görə həqiqətən demokratik

müxalifət məkanının yaradılması mərhələsi başlanmışdır; burada vətəndaş konsensusu çiçəklənmənin və sabitliyin qarantı kimi çıxış edir.

Müxalifət partiyalarının sıravi üzvlərinin hakimiyyət strukturlarına, Yeni Azərbaycan Partiyasına getdikcə daha çox nəzərdiqqət yetirmələri, partiyalardan onların yaradıcısı olan adamların da uzaqlaşması rasional düşüncənin təzahürü kimi qiymətləndirilə bilər. Bu, həmin siyasi qurumlar daxilində gedən mövqelərin aydınlaşması, siyasi prosesləri dərketmə, konkretləşmə, gələcək fəaliyyət yollarının və metodlarının müəyyənləşməsi ilə bağlıdır. Lakin illüziyalara qapılmaq da lazım deyil. Bu da aydındır ki, konstruktiv, sivil müxalifətin təşəkkülü heç də sadə proses deyil və bu proses illərlə və ziddiyyətli bir şəkildə davam edəcəkdir. İstənilən halda bu prosesin baş verməsi və uğurla nəticələnməsi Azərbaycan dövləti, cəmiyyəti, onun demokratik inkişaf mənafeləri üçün zəruridir.

## Ülvi məqsədə aparan yeni tarix

Hər millətin və dövlətin həyatında elə bir tarixi məqam olur ki, həlledici, taleyüklü anda liderin söylədiyi sözlər dövlətin və millətin inkişafının həyat aksiomuna çevrilə bilir. Bu millətin və dövlətin hansı dövrdə dinc dövrdə, yaxud müharibə dövründə yaşamasının, eləcə də bu döyüşün necə adlanmasının fərqi yoxdur. Həm də vacib deyil ki, hər cür mübarizə qan tökülməsi ilə müşayiət edilsin. Axı, məsələn, islamda dövlətin və millətin inkişafına təminat verən şəraitin yaradılmasına yönəldilmiş müqəddəs mübarizə kimi anlayış mövcuddur. Vacib olan budur ki, bu mübarizə dövlətin və milli mənliyin qorunub saxlanmasına yönəldilmiş olsun. Aşağıda misal gətirəcəyim sözlər hər zaman aktualdır, çünki onlar hər bir millət üçün məqsədyönlülüyün əyani sübutu ola bilər.

Hitler Almaniyasının hücumu nəticəsində Fransanın təslim olmasından az sonra, 1940-cı il iyunun 18-də görkəmli siyasətçi Uinston Çörçill İcmalar Palatasında çıxış etdi. Parlament üzvlərinin çoxu əmin idi ki, Britaniyanı da eyni aqibət gözləyir. Britaniyanın yaşadığı dövrün bütün mürəkkəbliyinə baxmayaraq, "onun amansız təhlükə və böyük şöhrət çağında" Çörçill Böyük Britaniya xalqını "İngiltərə uğrunda döyüş"də qalib gəlmək üçün özünün bütün qüvvələrini cəmləşdirməyə çağırdı. Uinston Çörçill millətə müraciət edərək demişdir: "Gəlin bütün qüvvələrimizi müqəddəs

borcumuzun yerinə yetirilməsi üçün səfərbər edək və özümüzü böyük millətə layiq aparaq və əgər Britaniya imperiyası və Millətlər Birliyi hətta min il də mövcud olarsa, gələcək nəsillərimiz qürurla deyə bilsinlər: "Bəli, bu, onların səadət anı idi".

Bir neçə ildən sonra siyasi fikrin başqa bir nəhəngi müharibənin və aclığın viran qoyduğu Almaniyanın federal kansleri Konrad Adenauer almanların keçmiş qüdrətini və məğrurluğunu qaytarınağa çalışaraq müharibələrinköməyi ilə deyil, məhz gərgin əməyin köməyi ilə böyük millət olmağın əzəmətindən və buna çalışmaqdan danışmışdır. Uinston Çörçill Böyük Britaniyanın Baş naziri seçildikdən üç gün sonra İngiltərə parlamentinin Aşağı Palatası qarşısında və Nazirlər Kabinetində elə bu cür çıxış edərək demişdir: "...Sizə təklif edə biləcəyim ancaq bunlardır qan, ağır zəhmət, göz yaşları və tər".

XX əsrin bu görkəmli siyasətçilərinin, parlaq natiqlərin və doğrudan da hərtərəfli təfəkkür sahiblərinin sözlərində böyük həqiqət var. Tarixin gedişini dəyişdirməyə və milləti, dövləti dirçəltməyə yalnız ağır zəhmət, inkişaf etmiş millətlərin səviyyəsinədək yüksəlmək niyyəti və istedadlı lider qadirdir. Tarix şahiddir ki, həmişə belə olmuşdur. Sübut edilmişdir ki, hər yarım əsrdən bir dünya tarixinin səhnəsində elə insanlar meydana gəlir ki, öz istedadları, bacarıqları və görünməmiş işgüzarlıqları sayəsində onların adları və əməlləri bəşəriyyətin xeyli hissəsinin pərəstiş obyektinə çevrilir. Məhz belə insanlar faydasızı faydalıya, itirilmişi məna kəsb edənə, irrasional olanı rasionala çevirərək tarixin gedişini deyişdirmiş və dəyişdirirlər. Tarix dövlətləri və xalqları öz girdabında əridərək, imperiyaları məhv edərək, müstəbidləri taxttacdan salaraq, gələcək nəsillərə ancaq o kəslərin adlarını saxlayır ki, bu adamlar haqqında inamla demək olar: onların "səadət anı" olmuşdur.

Bu mənada Azərbaycanın tarixi heç də istisna deyildir. Azərbaycanın ən yeni tarixini elə bir insan yaradır ki, onun səmərələşdirici potensialı dövləti və milləti dirçəltmişdir, gələcəyə itirilmiş inamı qaytarmışdır. Yaxın keçmişə, ölkənin vətəndaş müharibəsi və qiyamçı komandirlərin iğtişaşlan həddinə gəlib çatdığı dövrə nəzər salsaq, milli tarixin dövlətin və millətin dilemma müstəqil dövlətçiliyi və milli identikliyi ya qoruyub saxlamaq, ya da itirmək dilemması qarşısında qaldığı vaxtlardakı dövrünün bütün mürəkkəbliyini

və dolaşıqlığını başa düşmək olar. Ona görə də ötən illər güclü və sabit dövlətçiliyin qurulmasına sərf edilmişdir. Elə bir dövlət ki, burada, ən başlıcası, fərdin hüquq və azadlıqlandır, ardıcıl yeridilən iqtisadi siyasət sabit inkişaf üçün şərait yaradılmasına yönəldilmişdir, siyasət isə səmərəli olub milli həmrəyliyə təminat verir və vətəndaş cəmiyyətini formalaşdırır.

On il sürən tufanlı və bəzen də çox ağrılıacılı siyasi və sosial-iqtisadi təbəddülatlardan sonra ölkəmiz sıx birlik, iqtisadi yüksəliş, hüquqi dövlətin və demokratik cəmiyyətin əsaslarının möhkemləndirilməsi dövrünə qədəm qoydu. Daxili dəyişikliklərin uğurla başa çatdırılması və ölkənin dinamik inkişaf yoluna çıxması üçün real zəmin yarandı. Aristotelin belə bir kəlammı xatırlamaq yerinə düşerdi: "Dövlət ancaq yaşamaq naminə deyil, esasən, xoşbəxt yaşamaq üçün yaradılır", çünki bizim keçmişimiz müxtəlif anarxist qruplaşmaların dövlətdən nə kimi məqsədlərlə ifadə edilməsinə canlı sübutdur. Son illər ərzində ölkəmiz totalitar və posttotalitar, ənənəçilik təfəkkürlü və həyat tərzli cəmiyyətdən obyektiv olaraq posttransformasiyalı era adlandırıla bilən yeni eraya kəskin sıçrayış etmişdir. Kütləvi şüurun istiqamətləri tədricən dəyişir və fərdin dövlətdə, cəmiyyətdə yeri və rolu yeni tərzdə dərk olunur. Rasional təfəkkür vaxtı gəlib çatmışdır və indi dövlətin hər bir vətəndaşı öz hüquqlarını və vəzifələrini aydın dərk etməyə və digər adamm hüquqlarının başlandığı yerdə öz hüquqlarının məhdudlaşdığını başa düşməyə qadirdir. Fikir, öz iradəsini ifadə etmək, vicdan və söz azadlığı əsla anarxiya azadlığı demək deyildir. Azadlıq mütləq anlayış deyildir. Hər bir azadlığın öz çərçivəsi var və vətəndaşın borcu onun hüquqlarını təmin edən qanunlara əməl etməkdir. Heç bir siyasi qüvvə və ya təşkilat dövlətə qarşı müxalifətdə ola bilməz. Müxalifətçilik anlayışı özünü dövlətə qarşı deyil, hakimiyyətə qarşı qoymağı qəbul edir. Dövlətin və cəmiyyətin tərəqqisini və inkişafını məhz həmin konstruksiyanın dərk olunması təmin edə bilər. Təəssüf ki, nəzəriyyə ilə praktika heç də həmişə uyğun gəlmir və Azərbaycanın siyasi qüvvələrinin əksəriyyəti müxalifətçiliyi təkcə hakimiyyətə qarşı deyil, həm də dövlətə qarşı opponentlik etmək kimi başa düşür. Demokratik cəmiyyətdə milli müxalifətin yeri və rolu probleminə bir daha qayıtmaq istəməzdim. Lakin siyasi hikkəli şəxslərin müəyyən bir qrupunun dövlətin və millətin tərəqqisini əsas tutmaq istəməməsi milli siyasi məkanı

daha da qeyrimüəyyən edir, müxalifətçi qüvvələrə isə konstruktiv fəaliyyətə hazır olmağa imkan vermir. Milli müxalifətdə siyasi mədəniyyətin olmaması milli siyasi məkanın inkişafmı çətinləşdirən amilə çevrilir.

Bütün bunlara baxmayaraq, ölkənin siyasi mühitinin sabit xarakter alması, onun iqtisadiyyatının nə kimi nəticələr verəcəyinin irəlicədən bilinməsi, sosialmədəni məkanın isə dayanıqlı olması və kor-koranə qərbləşməyə məruz qalmadan milli ssenari üzrə inkişaf etməsi üçün artıq çox iş görülmüşdür. Təbii ki, ister siyasətə, istərsə də iqtisadiyyata aid olan bu bəndlərdən hər birini dövlət həyatın ayrıca götürülmüş sahələri kimi nəzərdən keçirmək olar. Biz isə onlara vahid kontekstdə nəzər salmağa çalışacağıq, çünki güclü iqtisadiyyat möhkəm dövlətçiliyin və sabit siyasi quruluşun rəhnidir.

Son illər ölkənin iqtisadi inkişafının əsas göstəricilərinə inflyasiyamn səviyyəsinin aşağı salmmasına və əhalinin ödəmə qabiliyyətinin yüksəlməsinə qısa müddətdə nail olmuşuq. İndi inflyasiyanm səviyyəsi 22,5 faizdir, əməkhaqqı isə daim artır. 2002-ci ildə orta əməkhaqqı və pensiyalar 20 faiz artırılmışdır. Ola bilsin həmin rəqəm özlüyündə çox da böyük deyil, amma bu həyati əhəmiyyətli məsələdə daim irəliləyişin olması və durğunluğım, "Broun hərəkəti"nin (qarınaqanşıqlığın) olmaması Azərbaycanın ardıcıl templə inkişafmı və iqtisadiyyatm modernləşdirilməsini sübut edir. Bu fikri əsaslandırmaq üçün bildirək ki, artıq 2002-ci ildə ÜDM (ümumi daxili məhsul) 10,5 faiz, kənd təsərrüfatı məhsulu istehsalı 6 faiz, sənaye istehsalı 3,5 faiz çoxalmışdır. Təkcə 2002-ci ildə sərmayələrin həcmi 2 milyard dollara çatmışdır ki, bunun da 1 milyard 700 milyon dolları xarici sərmayələrdir. Müqayisə üçün qeyd edim ki, sərmayələrin belə yüksək göstəricisi yalnız 1997-ci və 1998-ci illərdə (müvafiq surətdə 1,3 milyard və 1,5 milyard ABŞ dolları), əsas neft müqavilələrinin imzalandığı və dünya bazarların da enerji daşıyıcılarının qiymətlərinin yüksək olduğu dövrdə olmuşdur.

Hazırda milli büdcənin xeyli hissə&ini neft sənayesinin gəlirləri təşkil edir. Buna baxmayaraq, sənayenin digər sahələri və kənd təsərrüfatı canlandığına görə, dövlət büdcəsində neft sektorunun paymm səviyyəsi tədricən azalır. Xəzər şelfindəki neft yataqlarının işlənilməsinə dair 1994cü ildən bəri imzalanmış müqavilələr milli iqtisadiyyatın müxtəlif sahələrinə böyük məbləğdə sərmayə qoyulmasını təmin edir.

2002-ci ilin sentyabrında Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisinə başlanması imzalanmış müqavilələrin nəticəsidir. Azərbaycan nefti, gələcəkdə isə Qazaxıstan nefti bu boru kəməri vasitəsilə dünya bazarlarına göndəriləcəkdir. Bununla yanaşı, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilməsi perspektivləri də ölkə iqtisadiyyatının inkişafı üçün çox böyük əhəmiyyətə malikdir. O, Azərbaycan qazının və ola bilsin, Türkmənistan qazının da Türkiyə və dünya bazarlarına göndərilməsi imkanını artıracaqdır.

Neft sənayesi sahəsində aparılan məqsədyönlü siyasət sayəsində Azərbaycanın neft ixracmdan mənfəəti 2006-cı ildə 1,5 milyard, 2007-ci ildə 2,2 milyard, 2008-ci ildə 3,4 milyard, 2011-ci ildə 5,8 milyard ABŞ dolları təşkil edəcəkdir. Bu göstəricilər respublika vətəndaşlarının rifahını yaxşılaşdırılması və həyat səviyyəsinin yüksəldilməsi məqsədilə həyata keçirilən iqtisadi proqramın səmərəliliyinə parlaq misaldır. İqtisadiyyat sahəsində plana-uyğun siyasət nəticəsində ölkə büdcəsi 1994cü ildəkinə nisbətən 17 dəfə artmış və 2003-cü ildə 1 milyard 200 milyon dollar təşkil etmişdir.

Son illər ərzində iqtisadiyyatm güclənməsi Azərbaycanın siyasi inkişafını sabitləşdirməyə imkan vermişdir. Eyni zamanda, ölkədə vəziyyətin sabitləşməsi onun dünya birliyində vəziyyətinə müsbət təsir göstərməyə bilməzdi. Azərbaycan XXI əsrə öz milli mənafelərini və dünya meydanında rolunu aydın dərk edərək, özünün yaxın və uzunmüddətli xarici siyasi vəzifələrini dəqiq görərək qədəm qoymuşdur. Ölkəmizin beynəlxalq mövqeləri möhkəmlənmiş, dünyada onun dostlarının və həmfikirlərinin dairəsi genişlənmişdir. Beynəlxalq işlərdə məsuliyyətli, müstəqil və müəmmasız xətt yeridən etibarlı tərəfdaş kimi onun nüfuzu yüksəlmişdir.

Azərbaycan Prezidenti Heydər Əliyevin 2001-ci ilin sentyabr hadisələrinə dərhal reaksiya verərək beynəlxalq antiterror koalisiyası çərçivəsində Amerika Birləşmiş Ştatlarının planlarına kömək etməyə hazır olduğu barədə bəyanatı Qərbdə yüksək qiymətləndirilmiş və bu, ölkəmizin beynəlxalq aləmdə imicinin yüksəlməsinə getirib çıxarınışdır. Bütünlükdə 2002-ci il bir neçə amillə şərtləndirilən yüksək xarici siyasi fəallıq əlaməti altında keçmişdir. Əvvəla, bu fəallıq öz təcəssümünü beynəlxalq antiterror koalisiyası çərçivəsində birgə tədbirlərdə tapmışdır. Azərbaycan, Gürcüstan və Türkiyə prezidentlərinin Trabzon görüşünə də bu kontekstdən yanaşmaq

lazımdır. İkincisi, bu, ABŞ ilə qarşılıqlı strateji münasibətlərin yeni mərhələsinin başlanğıcıdır və o, "Azadlığa dəstək aktı"na ədalətsiz, ayrıseçkilik xarakteri daşıyan 907-ci düzəlişin qüvvəsinin dayandırılması sayəsində mümkün olmuşdur. İndi ABŞ ilə müxtəlif sahələrdə, o cümlədən hərbi sahədə də tərəfdaşlıq həyata keçirilir ki, bu da daha təhlükəsiz və sabit dünya nizamı yaradılmasına yönəldilmişdir.

Bundan əlavə, 2002-ci il Rusiya ilə qarşılıqlı münasibətlərin möhkəmlənməsi əlaməti altında keçmişdir. Bu münasibətlərin əsası hələ 2001-ci ildə, Rusiya Federasiyasının Prezidenti V.V.Putinin Bakıya rəsmi səfəri zamanı qoyulmuşdur. 2002-ci ildə isə SanktPeterburqda dahi Azərbaycan şairi Nizaminin abidəsinin açılması və Heydər Əliyevin Rusiyaya dövlət səfəri möhkəmlənən münasibətlərin daha bir təcəssümü olmuşdur. Rusiya ilə qarşılıqlı münasibətlərin Azərbaycan üçün öncül əhəmiyyəti var. Bu, həm xalqlarınıızı birləşdirən tarixi və mənəvi tellərlə, həm də daim inkişaf edən və təkmilləşən strateji tərəfdaşlığın artan səviyyəsi ilə müəyyənləşmişdir.

Ötən il Azərbaycanın beynəlxalq strukturlarda fəaliyyəti baxımından da çox səmərəli olmuşdur. Təhlükəsizlik Şurasından sonra BINT strukturunda əhəmiyyətinə görə ikinci olan İqtisadi və Sosial Şurada EKOSOS-da Azərbaycan Şərqi Avropanı təmsil edir. Azərbaycan nümayəndə heyəti Avropa Şurasında son dərəcə fəal işləyir və bu işin bəhrələri göz qabağındadır.

İlham Əliyevin Avropa Şurası Parlament Assambleyasının sədr müavini və büro üzvü seçilməsi ölkəmizdə insan hüquq və azadlıqlarının təmin edilməsi sahəsində olan irəliləyişin, tərəqqinin, Azərbaycanda demokratik dəyərlərin bərqərar olmasının və vətəndaş cəmiyyətinin əsaslarının qurulmasının bariz təzahürüdür. Son on ildə Azərbaycan bu sahələr üzrə diqqətəçarpacaq tərəqqiyə nail olmuşdur. İlham Əliyevin bu yüksək vəzifəyə seçilməsi Azərbaycanın xarici siyasətində, onun Avropa məkanmda mövqelərinin möhkəmlənməsinə daha bir parlaq sübutdur.

Bu hadisə, eyni zamanda, əsası hələ 30 il öncə qoyulmuş siyasətin məntiqi davamıdır. Çünki məhz 30 il öncə Azərbaycanın bugününü öncədən görən, onun müstəqil və güclü dövlət olması arzusu ilə yaşayan Heydər Əliyev azərbaycanlı tələbələri Moskvaya, Kiyevə və Sovet İttifaqının

digər şəhərlərinə təhsil almağa göndərirdi. İlham Əliyev bu şəxslər arasında idi. Və məhz o zaman bugünkü müstəqil dövlətin yeni siyasətçilər və yeni ruhlu diplomatlar, ölkəni qloballaşan dünya nizamı çərçivəsində beynəlxalq miqyasda tanıdacaq şəxslər "kasta"sı formalaşırdı. Şübhə yoxdur ki, məhz bu yeni nəsil ölkəmizi XXI əsrdə inkişafa, tərəqqiyə doğru aparacaq, dövlətçiliyi möhkəmləndirəcək və Azərbaycanın siyasi və iqtisadi mövqelərini regional və beynəlxalq miqyasda daim qoruyacaq, gücləndirəcəkdir.

Qloballaşmaqda olan yeni dünya yeni siyasət tələb edir. Bu siyasət dövlətlərin daxili siyasətindən və onun xarici siyasətə təsirindən formalaşır. Daxili siyasətin sabit olması ölkeni qlobal proseslərə daha tez qoşur və onu qloballaşmanın müsbət təsiri altma salır. Bu isə, öz növbəsində, ölkənin siyasi və iqtisadi inkişafmı təmin edir. Azərbaycanda formalaşan yeni siyasətçilər nəsli ölkənin müasir prioritetlərini dərk edir və dövlətin yüksələn xətt üzrə inkişafı və tərəqqisi naminə daim çalışır.

Lakin təəssüflər olsun ki, destruktiv siyasi qruplaşmalar və onların başında duran şəxslər Azərbaycanın Avropa məkanındakı nailiyyət və qələbələrinə öz cılız təfəkkürləri çərçivəsindən yanaşırlar. Milli maraqların əhəmiyyətini dərk etməyən bu şəxslər ölkənin xarici siyasətində qazanılmış nailiyyətlərə qısqanırlar. Əslində bu, çox təəccüblü haldır. Adətən, sivil dövlətlərdə müxalifət daxili siyasətin həyata keçirilməsində iqtidarla mübarizə aparsa da, xarici siyasət məsələlərində əksər hallarda hakimiyyətə dəstək verir. Çünki burada milli maraqlar mövcuddur. Heç bir həqiqi vətəndaş öz ölkəsinin xarici siyasət sahəsindəki nailiyyətinə qarşı çıxış etməz! Qəribə görünsə də, destruktiv, ifrat müxalifət Azərbaycanın xarici siyasətində də iqtidarla mübarizə üçün müxtəlif amillər axtarır. Bu müxalifət uğurlara sevinməyə, qürur hissi keçirməyə öyrəşməyib. Daim şəxsi maraqlara üstünlük verərək dövlətin nailiyyətlərini heçə endirməyə cəhd edib. Xatırlatdığımız faktlar müxalifətin konstruktiv dialoqa və dövlətin inkişafı məsələlərinə məsuliyyətli yanaşmaya hazır olmadığmı bir daha göstərir.

2002-ci ildə Azərbaycan NATO Parlament Assambleyasına assosiativ üzv qəbul edilmişdir. Azərbaycan GUÖAM çərçivəsində Gürcüstan və Ukrayna ilə, Moldova və Özbəkistanla strateji tərəfdaşlığı daha da genişləndirmişdir. Dünya inkişafının müasir meyilləri fonunda bu proseslərin

əhəmiyyəti xüsusilə böyükdür. İnsan fəaliyyətinin bütün sahələrinin qloballaşması keyfiyyətcə yeni mərhələyə keçir. Onun coğrafi və geosiyasi dairəsi genişlənir, müasir sivilizasiyaya təsirinin səviyyəsi artır. Beynəlxalq münasibətlərin, maliyyənin, ticarətin, elmin, informasiya sahəsinin qloballaşması hər bir dövlətin mənafelərini əhatə edir və müasir dünya siyasətinin xarakterini müəyyənləşdirən əsas amilə çevrilir. Bu proseslər ölçülüb-biçilmiş və ətraflı düşünülmüş siyasət əvvəla, dövlətlərin dünya birliyinə inteqratoru, ikincisi isə milli məkanın birtərəfli qaydada Qərbləşdirilməsi proseslərinin tənzimləyicisi rolunu oynayacaq siyasət yeridilməsini tələb edir.

Qloballaşma proseslərinin tədricən təsiri və dövlətin dinamik iqtisadi modernləşdirilməsi bu modernləşdirmənin siyasi cəhətdən təzələnməsini, yəni cəmiyyətdə liberal-demokratik dəyərlərin üstünlük təşkil etməsini şərtləndirir ki, bu da, öz növbəsində, Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşmasına müsbət təsir göstərir.

Dünyada qloballaşma bütün proseslərin əsas inteqratorudur. İnformasiyalı cəmiyyətin və informasiya-kommunikasiya texnologiyalarının (İKT) rolu daim artır. Kapitalm sürətlə yerdəyişməsi və informasiyadan istifadə imkanı öncül əhəmiyyətə malik dəyərdir. Azərbaycan bu proseslərdən kənarda qalmır. Dünya birliyinin bir hissəsi kimi son illər ərzində istər cəmiyyətin, istərsə də aynlıqda hər bir fərdin həyatmda İKT-nin tətbiqinin genişlənməsi sahəsində ölkəmizin eldə etdiyi nailiyyətlər göz qabağındadır.

Məhz bu nailiyyətlərin nəticəsidir ki, 2002-ci ilin noyabrında ölkəmiz BINT-nin Avropa İqtisadi Komissiyasının üzvü olan dövlətlərin Buxarest Bəyannaməsinə qoşulmuşdur. Azərbaycanın informasiyalı cəmiyyətə çevrilməsi sahəsində ardıcıl surətdə atılan addımlar qloballaşma dövründə dövlətin sabit inkişafına təminat verir.

Dövlət hakimiyyəti orqanlarında islahatların ardıcıl surətdə aparılması, qərarların qəbulu mexanizminin təkmilləşdirilməsi, siyasi yönümündən və meylindən asılı olmayaraq, kütləvi informasiya vasitələrinin fəaliyyəti üçün şəraitin yaxşılaşması, habelə cəmiyyət həyatında üçüncü sektorun (qeyrihökumət təşkilatları) rolunun güclənməsi ölkədə vətəndaş cəmiyyətinin tədricən formalaşmasına əyani sübutdur. Bütün bunlar son bir neçə ildə ölkədə həyata keçirilən işlərin yalnız kiçik bir siyahısıdır.

Ümumiyyətlə, fərdin hüquq və azadlıqlarının prioritet olduğu, dövlətin bu hüquq və azadlıqlara hönnət göstərməyi, onların həyata keçirilməsi üçün şərait yaratmağı öhdəsinə götürdüyü vətəndaş cəmiyyəti qurmaq prosesi sürəkli, uzunmüddətli, həm də dönməz prosesdir. Azərbaycanda vətəndaş cəmiyyəti artıq utopiya deyil, tamamilə hiss edilən gerçəklikdir.

Posttransformasiya dövrünün yeni cəmiyyətinin dövlətin əsasını vətəndaşın azad siyasi və iqtisadi təşəbbüsünün təşkil etdiyi cəmiyyətin və formalaşmaqda olan ictimai şüurun ilkin şərtlərinin bünövrəsi müstəqil Azərbaycan qurmaq layihəsini həyata keçirmiş olan istedadlı və görkəmli siyasətçi Heydər Əliyev tərəfindən qoyulmuşdur.

Mənim fikirlərim bəlkə də qeyriadidir, lakin Heydər Əliyev haqqında yazmaq olduqca çətindir. Bunım səbəbi ondadır ki, hər hansı bir nailiyyəti və ya problemi ehatə edən bu və ya digər tarixi zaman kəsiyinin təsvirinə cəsarət edib girişən müəllif Heydər Əliyevin işlədiyi fəalhqla, sadəcə olaraq, ayaqlaşa bilmir. Çünki bir nailiyyət ardıcıl surətdə digəri ilə əvəzlənir, bir iş o birisini üstələyir, bu da tədqiqatçmı, tarixçini, filosofu çox vaxt çaşdırır. Bəzən hər hansı bir işdən yazmağa çalışanda görürsən ki, artıq olduqca çox başqa işlər həyata keçirilmiş, yeni nailiyyətlər əldə edilmişdir. Bir nailiyyəti təsvir etməyə macal tapmamış, gözlənilmədən yeni bir faktla bu görkəmli siyasətçinin artıq gerçəkləşmiş olan yeni tarixi nailiyyətlərinə dair faktla üzləşirsən. Bu son dərəcə istedadlı insanın və qüdrətli siyasətçinin təxminən 30 il ərzində silahdaşı olan, onunla çiyinçiyinə işləyən bir adam kimi qətiyyətlə deyə bilərəm ki, Heydər Əliyev Azərbaycan xalqının milli sərvətidir. O, dünya miqyaslı tarixi sima və şəxsiyyətdir.

1993-cü ilin ortaların da Heydər Əliyevin Bakıya qayıtması və milli dövlətçilik yaradılmasına yönəldilmiş islahatçılıq tədbirlərinə başlanması gənc nəsil üçün milli tarixdir. Gələcək nəsillər bu barədə tarixə dair oçerklərdən və kitablardan məlumat alacaq, oxuyacaq və öyrənəcəklər. Lakin bu tarixin bir çox şahidləri ölkənin Ermənistanla qanlı müharibə şəraitində olduğu, məmləkəti vətəndaş müharibəsinə cəlb etmiş müxtəlif qraplaşmaların daxili qarşıdurmasının yaxınlaşdığı, iqtisadiyyatın sovet dövründəki durğunluq səviyyəsindən başdan-başa viranəlik vəziyyətinə düşdüyü günləri yaxşı xatırlayırlar. Ölkədə, xüsusən də paytaxtda qətiyyən

idarə olunmayan qeyri-formal silahlı qruplaşmalar azğınlıq edirdilər. "Parçala və hökm sür" prinsipi Azərbaycanın hakim dairələrinin əsas tezisinə çevrilmişdi. Adlarını "demokrat" qoyanlar xalq və gələcək nəsillər qarşısında heç bir məsuliyyət hiss etmədən ölkəni parçalanmağa, dağılmağa, viranəliyə doğru sürükləyirdilər!

O vaxtdan ötən 10 ildən sonra milli siyasətdən danışarkən biz hər yerdə, bütün bölgələrdə sabit inkişafı nəzərdə tuturuq. İndi biz əsası Heydər Əliyev tərəfindən qoyulan azərbaycançılıq ideyasından danışırıq. Lakin çoxlarının yadındadır ki, hələ 10 il öncə "demokratlar"ın yeritdikləri milli siyasətin səhvləri və uğursuzluqları, qəbul etdikləri qərar və qanunlar, etnomillətçiliyə can atmalan Azərbaycanın bölgələri arasında qarşılıqlı münasibətlərin mürəkkəbləşməsinə zəmin yaratmış və nəticə etibarilə buna gətirib çıxannışdı.

Bütün bunlar Azərbaycan xalqının qarşılaşdığı və 1993-cü il iyunun 15-dən sonra Heydər Əliyevin həll etməli olduğu istər daxili, istərsə də xarici siyasət problemlərinin ancaq kiçik bir siyahısıdır. Ona görə də 10 il əvvəlki hadisələrin iştirakçısı, şahidi və müşahidəçisi olmuş adam kimi mən bir il ərzində hakimiyyətin sükanı arxasında durmuş, saysızhesabsız siyasi səhvlər buraxmış və özlərinin iqtidarsızlığmı, fərsizliyini göstərmiş indiki müxalifət "liderləri"nin hədsiz siyasi hikkələrini başa düşməkdə çətinlik çəkirəm. Azərbaycanın vətəndaşları kimi mənə də bunu dərk etmək çətindir ki, bu adamlar niyə yenidən hakimiyyətə gəlməyə can atırlar. Əsla başa düşmək olmur ki, onlar 1990-cı ilin yanvarına və bir çox fəlakətlərə görə indiki və gələcək nəsillər qarşısında vicdan əzabı çəkmədən ölkəni necə idarə ede bilərlər! Bu adamları "demokratiyanın təminatçıları" hesab edərək onların siyasi gələcəyi sarıdan tez-tez canıyananlıq edənləri də anlamaq olmur. Qərbin hər hansı bir dövlətində ölkəni və xalqı müsibətlərə düçar etmiş hökumət siyasət səhnəsindən gedir və bir daha qayıtmır! Amma indi pozucu müxalifət liderləri bu praktikanı qəbul etmirlər.

Heydər Əliyevin və önun komandasının böyük səyləri nəticəsində bu gün Azərbaycanda ümumi siyasi, iqtisadi və sosial inkişafı təmin edən sabitlik yaranıb. Buna görə gələcək inkişafı yalnız və yalnız siyasi kursun varisliyi təmin edə bilər. Siyasi kursun varisliyi isə bu gün düzgün anlanmalı və başa düşülməlidir. Çünki kurs varisliyi hakimiyyət varisliyi kimi

yox, aparılan siyasi və iqtisadi islahatlara varislik kimi qiymətləndirilməlidir! Bu, həm milli birliyin, vətəndaş konsensusunun yaradılmasına, həm də ölkənin inkişafına xidmət edən amildir. Təcrübə isə göstərir ki, milli birliyin möhkəmlənməsini bundan sonra da ancaq indiki iqtidar təmin edə bilər. Destruktiv müxalifət qüvvələrinin hakimiyyətə gəlməsi milli birliyə güclü zərbə vurar. 90-cı illərin əvvəlindəki səhvlərin həyata keçirilməsinə yol vermək olmaz! Gələcək nəsillərə sivil, demokratik və qüdrətli Azərbaycan lazımdır!

Ona görə də 10 ildə özünü doğrultmuş siyasi kurs bundan sonra da davam etməlidir. Siyasi kursun davamı o deməkdir ki, qarşımıza gələn beş ildə ölkədə heç bir fəlakət baş verməyəcək, qisasçılıq, radikal kadr dəyişiklikləri və s. olmayacaq. Ölkə sivil qaydada inkişaf edəcək, siyasi plüralizm, iqtisadi modernləşmə və sosial inkişaf təmin olunacaq. Halbuki müxalifət hakimiyyətə gəlmək ambisiyasını reallaşdırsa, qarşıdurmaya təkan verəcək və nəticədə Azərbaycanda idarəolunmaz hadisələr baş verəcək. Çünki ölkə rəhbərliyinin və onun siyasi kursunun dəyişilməsi millətlərarası və konfessiyalararası münasibətlərin kəskinləşməsinə səbəb olar, qarşıdurmanın, separatçıhğın və mərkəzdənqaçma meyillərinin əmələ gəlməsinə və güclənməsinə gətirər. Halbuki bu gün ölkə əhalisinin əksər hissəsi öz statusuna milli mənsubiyyətə görə yox, vətəndaşlıq nöqteyinəzərindən yanaşır. Bütün etnik qrupları ümumvətən, azərbaycançılıq duyumu, hissi birləşdirir. Hamı özünü azərbaycanlı hesab edir. Bu proses milli birliyin tərkib hissəsi olaraq bugünkü iqtidarın səyi nəticəsində gələcəkdə daha da güclənəcək və vahid azərbaycançılıq ideyası daim siyasi kursun əsas qayəsi olaraq qalacaqdır.

Azərbaycanda aparılan siyasi, iqtisadi, sosial məhkəmə və s. islahatlar onu deməyə əsas verir ki, qarşımıza gələn illərdə də demokratik proseslər inkişaf edəcək və onun səviyyəsi Avropa standartlarına daha da uyğunlaşacaqdır. Destruktiv müxalifətdən bunu gözləməyə dəyməz, çünki onun fəaliyyəti avtoritar prinsiplər üzərində qurulub.

On illik ağır və gərgin işdən sonra biz inamla bəyan edə bilərik ki, Azərbaycan tədricən öz inkişafının yeni dövrünə qədəm qoyur. Transformasiya tədricən posttransformasiya dövrü ilə əvəz olunur ki, bu da dövlətin və cəmiyyətin inkişafının sabitləşdiyinə sübutdur. Yeni dövrün əsas aspektləri

heç də təkcə müstəqilliyi qoruyub saxlamaqdan və möhkəmlətməkdən, milli həmrəyliyə nail olmaqdan və vətəndaş cəmiyyətinin əsaslarını yaratmaqdan ibarət deyil. Azərbaycanın ən yeni tarixinin yeni dövrü ölkənin informasiyalı cəmiyyətə dogru ardıcıl surətdə irəliləməsi dövrüdür.

On il əvvəl təsəvvürə gətirmək çətin və bəlkə də kimlər üçünsə həm də ağlasığınaz idi ki, biz iqtisadiyyatm istiqamətini dəyişdirib lazımi məcraya yönəltməyə, ölkəni qarınaqarışıqlıqdan və dağıntılardan çıxarmağa, durğunlugu aradan qaldırmağa, ictimai inkişaf üçün əlverişli şərait yaratmağa, Azərbaycanın regional səviyyədə və dünya səviyyəsində siyasi və iqtisadi mövqelərini gücləndirməyə belə tezliklə müvəffəq olacağıq. Lakin Heydər Əliyev Bakıya qayıdarkən qarşıya məhz bu məqsədləri qoymuşdu, son on il ərzində məhz bu məqsədləri gerçəkləşdirir, gələcək nəsillər ücün güclü və müstəqil Azərbaycan yaratmaq onun həyat amalıdır.

Bugünkü Azərbaycan Heydər Əliyevin çoxillik gərgin və uzaqgörən fəaliyyətinin məhsuludur. Məhz onun yaratdığı siyasi, iqtisadi, mədəni və informasiya məkanında ölkə XXI əsrə qədəm qoyub və öz milli dövlətçiliyini inkişaf etdirir. Bu gün Azərbaycan xalqının Heydər Əliyevə 1993-cü ildəkindən daha çox ehtiyacı var. Çünki qarşıda keyfiyyətcə yeni vəzifələrin həlli durur. Ölkə daim inkişafdadır və vətəndaşlarınıız gələcəkdə yeni islahatları, yeni nailiyyətləri və yeni tarixi qələbələri gözləyir. Bu proses inqilabi səciyyə daşımır və gələcəkdə də daşımamalıdır. Çünki hər bir proses rasional tərəqqi yolu ilə inkişaf etməlidir. Dövlət quraculuğu, ələlxüsus, son on il ərzində yaşadığımız tarix bu aksiomu bir daha sübut etdi. Məhz Heydər Əliyev zəkası və müdrikliyi tarixi varisliyi qoruyub saxlaya bildi, ölkəni yeni demokratik inkişafa doğru apardı və Azərbaycanı sivil ölkələr siyahısına yazdırdı.

Demokratiyanın dərinləşməsinin fəal təkanvericisi və təşkilatçısı olmasına baxmayaraq, ölkə əhalisinin əksəriyyəti Heydər Əliyevi müdrikliyinə, dərin zəkasma, güclü idarəçilik keyfiyyətlərinə, dəmir iradəsinə və mənfı, pozucu hallara qarşı ardıcıl, güzəştsiz mübarizəsinə görə sevir. Həqiqət isə ondan ibarətdir ki, güclü Azərbaycan dövləti qurmaq üçün bugünümüz və sabahımız naminə bizə iradəcə güclü, böyük siyasi və idarəçilik bacarığına və təcrübəsinə malik, vətənini sevən prezident gərəkdir.

Sağlam düşüncəli və praqmatik siyasətçi olaraq Heydər Əliyev mürəkkəb dövlət problemlərində öz zəngin siyasi təcrübəsindən həmişə bacarıqla istifadə edir. Onun təbiətinin çoxcəhətliliyi zamanın sınağından çıxmış müdrikliyə, uzaqgörənliyə və yenilməz iradəyə dəqiq şəkildə tabe olur. Vaxtilə Hegel görkəmli adamlar barədə belə yazmışdı: "Onlara elə ümumi məqamlar baxımından yanaşmaq lazımdır ki, bunlar fərdlərin maraqlarını və beləliklə də ehtiraslarını təşkil edir. Onlar məhz ona görə dahi adamlardır ki, böyük işlər, özü də xəyali və uydurma işlər deyil, məhz ədalətli və gərəkli işlər arzulamış və həyata keçirmişlər" (Mir filosofii. M., 1991, c. 2, səh. 242). Bu sözlər dahi və qadir siyasətçinin ədatətli və gərəkli bir işi  müstəqil, sabit və güclü Azərbaycan yaratmaq işini həyata keçirmək niyyətini gözəl təcəssüm etdirir.

Cəmiyyətimiz sürətlə qlobal dünyanın bir hissəsinə çevrilir. Bu, sovet dövrünün totalitarizmindən inkişafın demokratik, açıq modelinə keçidin qanunauyğun nəticəsidir. Vətəndaşın hüquq və azadlıqlarının dərəcəsi və səviyyəsi dinamik şəkildə yüksəlir, çünki insan hüquqları sahəsində fəaliyyət iqtisadi, siyasi və digər islahatları demokratikləşdirmək prosesinin, ictimai inkişafın keyfiyyətcə daha yüksək pilləsinə doğru irəliləyişin mühüm tərkib hissəsidir. Şəxsiyyətin hüquq və azadlıqları konsepsiyası təsərrüfat münasibətlərində, sosial və hüquq təsisatlarını demokratikləşdirmək proseslərinin dərinləşdirilməsində, cəmiyyətdə özünüidarənin və özünütənzimləmənin genişləndirilməsində, cəmiyyətin əxlaqimənəvi mühitinin təzələnməsində, siyasi mədəniyyətin və hüquq mədəniyyətinin yüksəldilməsində yeni prinsiplərin bərqərar olmasının geniş perspektivləri nəzərə alınmaqla inkişaf edir. Tədricən hakimiyyətin və dövlət idarəçiliyinin varisliyi prioriteti yaranır. Qərb demokratiyası ölkələrinin təcrübəsi sübut edir ki, dövlətçiliyin yeni demokratiya dövlətləri üçün ən məqbul və səmərəli forması hakimiyyətin və dövlət idarəçiliyinin varisliyindədir. Azərbaycanın tərəqqisini və inkişafını yalnız səmərəli dövlətçilik quruluşunun müasir xəttinə varislik təmin edə bilər.

Fikrimizi tamamlayarkən Çin incəsənətində mövcud olan gözəl bir obraz yada düşür. Çoxsaylı, gözəl, müdrik və ənənəvi Çin obrazları arasında belə bir obraz da var: şam ağacı ilə bambuk yan-yana bitir. Onlar müxtəlif, birbirinə bənzəməyən bitkilərdir, buna baxmayaraq, kökləri sarmaşaraq

bir-birinə dayaq olur və harmonik, canlı sistem yaradır. Zənnimcə bu, milli ənənənin və posttransformasiya dövrünün mühitimizə gətirdiyi yeni epoxanı təcəssüm etdirən gözəl obrazdı. Əvvəlki və müasir nailiyyətlər doğulmaqda olan yeni ideyalar biri birinin dəstəkləyərək və tamamlayaraq industrial erada postindustrial eraya keçməyi təmin etməyə qadir olan nəsillərin dəyişməsinin və varisliyin rəmzinə çevilir. Lakin bu keçid nə qədər çətin olsa da, onun əsasları və ilkin şərtləri artıq yaradılmışdır və hətta sabah "ülvi məqsədin doğum əzabları" (U.Çörçill) ağır və çətin dəfedilən olsa da, qarşıya qoyulmuş məqsədə çatmağa inam həmişə olacaqdır. Çünki getdiyimiz yol ən düzgün və doğru yoldur!

*18-19-20 fevral, 2003*

# RƏYLƏR

# DEMOKRATİK DÖVLƏT QURUCULUĞU VƏ SİYASİ PLÜRALİZM

***Hər bir demokratik cəmiyyətdə, şübhəsiz ki, müxalifət olmalıdır... Kim müxalifətdə durursa-dursun, ancaq vətəninə, xalqına, mənəviyyatına, məsləyinə müxalifətdə durmasın.***

**Heydər ƏLİYEV**

Yeni əsrin başlanğıcında, beynəlxalq miqyasda baş verən böyük siyasi, iqtisadi və kulturoloji proseslər kontekstində, ikiqütblü dünya sisteminin dağıldığı və dünyanın yeni coğrafisiyasi mənzərəsinin formalaşdığı bir dövrdə nəinki yeni yaranmış dövlətlər, hətta böyük tarixi ənənələrə malik dövlətlər də öz ictimai-siyasi statuslarını yenidən nəzərdən keçirmək məcburiyyətindədirlər. Qloballaşma, iqtisadi inteqrasiya, ekoloji böhranın dərinləşməsi, "sivilizasiyaların toqquşması", beynəlxalq terror və antiterror koalisiyası və s. bu kimi planetar miqyaslı hadisələr bütün ölkələr və xalqlar qarşısında müəyyən vəzifələr qoyur. Azərbaycanın qarşısında isə bunlardan əlavə, yeni yaranmış və keçid dövründə olan bir ölkə kimi bütün yuxarıda sadalananlara əlavə olaraq bir sıra lokal və daxili problemləri də həll etmək vezifəsi durur. Kommunist ideologiyasının zehinlərdə və sosial gerçəklikdəki yaşantılarını aradan qaldırmaq, yeni iqtisadi münasibətlərə keçmək, ictimai həyatın bütün sahələrində demokratiyanı inkişaf etdirmək, yeni quruluşun mahiyyətinə uyğun yeni hüquqi baza yaratmaq və s. bu kimi önəmli vəzifələrlə yanaşı, Dağlıq Qarabağ münaqişəsi və qaçqınlar problemi Azərbaycanın üzləşdiyi situasiyanı daha da mürəkkəbləşdirir. Belə çətin və mürəkkəb bir şəraitdə bütün daxili qüvvələrin səfərbər olunması və tarazlı siyasət yeritmək iqtidarın  da olan vahid liderin ətrafında sıx surətdə birləşməsi çox vacibdir. Son on il ərzində Azərbaycanın yeritdiyi xarici və daxili siyasət, çətin situasiyalarda yeganə düzgün siyasi qərarlar qəbul edilməsi keçid dövründə təcrübəli

və uzaqgörən liderin və elmi əsaslara söykənən ardıcıl siyasi kursun böyük əhəmiyyətini bir daha sübut edir.

Əlbəttə, dövlətin siyasi kursu, həyata keçirdiyi social-iqtisadi proqramla bağlı alternativ mövqelərin olması da istisna edilmir. Fikir plüralizmi və siyasi müxalifətin mövcudluğu Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən demokratik dövlət quruculuğunun mahiyyətindən irəli gəlir. "Azərbaycanda söz azadlığı, fikir azadlığı, siyasi plüralizm geniş yer almalıdır", "siyasi plüralizm varsa, deməki, siyasi müxalifət də olmalıdır" deyən Heydər Əliyev rəhbərlik etdiyi dövrdə ölkəmizdə bütün bu demokratik dəyərlər sisteminin formalaşması üçün real zəmin hazırlamışdır. Lakin təəssüf ki, yaradılmış bu şəraitdən heç də həmişe səmərəli istifadə olunmur və bəzən sui-istifadə hallarına yol verilir. Elmi araşdırmalar aparmaq, gerçək ictimai-siyasi reallığı əks etdirən tədqiqatlardan çıxış etmək və dövrün tələbləri səviyyəsində siyasi mövqe nümayiş etdirmək əvəzinə bəzən diletantlıq və qaragüruhçuluq, heç nə ilə əsaslandırılmayan hakimiyyət iddiaları alternativ mövqe və siyasi mübarizə kimi qələmə verilir. Müasir ictimai-siyasi elmin nailiyyətlərinə əsaslanmaq səviyyəsində olmayan, dövlət quruculuğu, xarici siyasət, sosial-iqtisadi və mədəni-mənəvi quruculuq aspektlərində mükəmməl konsepsiyası və fəaliyyət proqramları olmayan müəyyən ictimai qüvvələr siyasi müxalifət görüntüsü yaratmaq fursətini əldən qaçırmırlar. Halbuki məşhur fransız politoloqu Pyer Burdyenin göstərdiyi kimi, "siyasət tərəflərin rəqabət mübarizəsinə cəlb olunduğu elə bir meydandır ki, burada siyasi məhsul əldə edilir... Siyasi istehsal səhnəsindən uzaq olan "istehlakçı" vətəndaşların seçimi məhz bu siyasi məhsula problemlər, proqramlar, konsepsiyalar, təhlillər və şərhlərə əsasən həyata keçirilir" (P.Burdye. Sosioloqiya politiki. M., 1993, s.182). Azərbaycanda isə destruktiv müxalifət seçkilərə heç bir "siyasi məhsul" təqdim etmədən mübarizəni qarşı tərəfin "siyasi məhsuluna" hücumlar üzərində qurur.

Hadisələrin sürətli inkişaf dövründə, ictimai həyatda dəyişkənliyin invariantlığı üstələdiyi bir şəraitdə sosialsiyasi elmi fikrin gerçək ictimai prosesləri əks etdirmək və onları proqnozlaşdırmaq imkanı xeyli məhdud olur. Belə bir şəraitdə fəlsəfənin və sosialsiyasi elmlərin üzərinə çox ağır bir yük düşür; bir tərəfdən beynəlxalq miqyasda bu elmlərin əldə etdiyi

nailiyyətlərə söykənərək elmi ümumbəşərilik statusunu qoruyub saxlamaq, digər tərəfdən regional ictimai gerçəkliyin xüsusiyyətlərini də nəzərə almaqla bu sahədə milli elmi konsepsiya hazırlamaq. Bu, olduqca çətin bir işdir. Xüsusən fəlsəfənin və ictimai elmlərin inkişafmda varisliyin pozulduğu bir şəraitdə və keçid dövründə bu elm sahələrində müəyyən durğunluq meyillərinin müşahidə olunduğu bir vaxtda elmifəlsəfi fikrin belə çətin bir vəzifəni həyata keçirmə imkanları xeyli məhdud görünür.

Lakin yaşadığımız cəmiyyətin, iştirakçısı olduğumuz ictimai-siyasi proseslərin öyrənilməsi və praktik fəaliyyətdə elmi dəyərlərə söykənmək zərurəti bu sahədəki tədqiqatçıların qüvvələrini səfərbər etmək zərurətini yaratmışdır. İki il bundan öncə Azərbaycan Fəlsəfə və SosialSiyasi Elmlər Assosiasiyasının (AFSSA) yaradılması da bu zərurətdən doğmuşdur. Bu günlərdə AFSSA-nın prezidenti, fəlsəfə elmləri doktoru Ramiz Mehdiyevin "Azərbaycan" qəzetində dərc olunan "XXI əsrdə milli dövlətçilik: demokratik inkişaf və müxalifət" adlı irihəcmli əsəri cəmiyyətimizdə gedən ictimai proseslərin elmi tədqiqi sahəsində ictimai-siyasi fikrimizdə olan boşluqları doldurmaq və bir sıra önəmli məsələləri elmi tədqiqatın predmetinə çevirmək baxımından böyük dəyərə malikdir.

Məqalədə demokratik dövlət quruculuğunun əsas prinsipləri və Azərbaycan şəraitində onların həyata keçirilməsi xüsusiyyətləri ilə yanaşı, mövcud siyasi mühitin strukturu və komponentləri araşdırılır, siyasi plüralizmin gerçəkləşməsi ilə bağlı problemlərin elmi təhlili verilir. Siyasi müxalifətin məqsədi, məzmunu və funksiyaları təhlil edilir və çağdaş Azərbaycan cəmiyyətində mahiyyətcə siyasi müxalifət statusuna uyğun gəlməsə də, bu ada iddialı olan bir sıra qüvvələrin real statusunu müəyyənləşdirmək və onların yaranmasının tarixi, qnoseoloji və sosial köklərini açmaq, həqiqətən, demokratiyanın inkişafına xidmət edən, dövlətçiliyin, vətəndaş cəmiyyətinin formalaşmasında pozitiv rol oynayan, ölkənin siyasi həyatında mütərəqqi bir hadisə kimi çıxış edən və siyasi plüralizmin təzahürü olan müxalifətin formalaşması üçün vacib olan şərtləri müəyyənləşdirmək təşəbbüsü göstərir. Müəllifin özünün də qeyd etdiyi kimi, təəssüf ki, hələ indiyə qədər "müasir cəmiyyətin əsas siyasi institutlarından biri olan müxalifətçiliyin mürəkkəb təzahür formaları, həqiqi kökləri və yaranma səbəbləri elmi ictimaiyyətin və politoloqların nəzərindən

kənarda qalıb" ("Azərbaycan" qəzeti, 18 fevral 2003-cü il). Ramiz Mehdiyevin bu məqaləsi bir sıra aktual problemlərlə yanaşı, müxalifətçilik institutunun da elmi-tədqiqat obyektinə çevrilməsinə gözəl nümunədir. Məqalədə müxalifətçiliyin mahiyyəti, ideoloji, siyasi, sosial, mənəvi, psixoloji və s. motivləri ilə yanaşı, Azərbaycan gerçəkliyində onun konkret təzahürləri də tədqiq edilir. Müasir Azərbaycan cəmiyyətinin siyasi strukturunda aparıcı rol oynayan siyasi qüvvələrlə yanaşı, psevdosiyasi elementlərin, destruktiv müxalifətin, qaragüruhun da yer alması və bu halm demokratiyanın inkişafına göstərdiyi mənfı təsir geniş təhlil olunur.

Müəllif haqlı olaraq göstərir ki, ancaq inkar yolu ilə müstəqil siyasi mövqe formalaşa bilməz. Hər hansı bir siyasi partiyanın mövqeyi ilk növbədə onun nəyi inkar etməsi ilə yox, nəyi təsdiq etməsi ilə müəyyən olunur. Hər bir partiya dövlət quruculuğunun, social-iqtisadi inkişafın müəyyən bir konsepsiyasına, özünəməxsus quruculuq planlarına malik olmalıdır. Bir partiyanı başqalarından fərqləndirən ideya, məqsəd və bu məqsədə çatmağın yollarını əks etdirən fəaliyyət proqramı aydın şəkildə xalqa çatdırılmalıdır və xalq öz seçimini ayrı-ayrı adamlara deyil, məhz bu ideyaya, proqrama münasibət əsasında etməlidir. İqtidarda olan Yeni Azərbaycan Partiyası öz məqsəd və məramnaməsini hələ 1992-ci ildən xalqa bəyan etmiş və o vaxtdan bəri partiyanm sədri, Prezident Heydər Əliyevin çıxışlarında konkret quruculuq sahələri üzrə inkişaf etdirilmişdir. Heydər Əliyevin dövlət quruculuğu, xarici siyasət, sosial-iqtisadi və mədəni-mənəvi quruculuq sahələrinə aid ideyaları onun silahdaşları olan bir çox elm adamları və siyasi xadimlər tərəfindən tədqiq, təhlil və təbliğ edilmiş, geniş xalq kütlələrinin diqqətinə çatdırılmışdır. Heydər Əliyevin bütün sahələr üzrə mövqeyi aydın və şəffafdır. Bu mövqeyin qətiyyətli, dayanıqlı və məqsədyönlü olmasına heç kim şübhə edə bilməz. Digər tərəfdən, neçə illər ərzində biz bu mövqeyin praktik olaraq necə həyata keçirildiyinin, əldə edilmiş əməli nailiyyətlərin və uğurların şahidi oluruq. Müxalifət partiyalarının isə hakimiyyət iddialarından və Heydər Əliyevin rəhbərliyi ilə görülən işləri tənqid etmək və onlara qara yaxınaqdan başqa hansı işə konkret mövqe nümayiş etdirmələrinin, təəssüf ki, şahidi olmuruq. Nəticədə, siyasi mübarizə öz əsas amalından kənara çıxaraq şəxsiyyətə qarşı mübarizə forması alır. Və bu yolda bütün məqbul və qeyri-məqbul vasitələrdən

istifadə edilir. Bəzi partiyalar ictimai birlik statusu ilə yaradılsa da, bütün fəaliyyəti Azərbaycan dövlətinə və dövlətçiliyinə qarşı yönəldilmiş olan qeyrihökumet təşkilatları öz əməlləri ilə əslində demokratikləşdirmə prosesinə nece böyük zərbə vurduqlarının fərqinə varınırlar. Qeyrihökumət təşkilatlarının yaranması ölkəmizdə vətəndaş cəmiyyəti qurulmasının mühüm şərtlərindən biridir. Lakin bu forma altında tamamilə başqa bir məzmunun gizlədilməsi, "insan hüquqları", "siyasi məhbuslar" və s. bu kimi mövzularda manipulyasıyalar, olmayan etnik problemlərin dəbərdilməsi, bunların arxasında siyasi, yoxsa iqtisadi maraqların dayanmasından asılı olmayaraq, məqbul mübarizə üsulu sayıla bilməz. Bezən milli maraqların satılması o dərəcədə aşkar şəkildə görünür ki, siyasi müxalifətdə dayanan partiyaların və müxalifətyönlü mətbuatm da bir qismi bunları etiraf etmək məcburiyyətində qalır. Burada Heydər Əliyevin müxalifətçilərе bir tövsiyəsini yada salmaq yerinə düşərdi: "Kim müxalifətdə durursa-dursun, ancaq vətəninə, xalqına, mənəviyyatına, məsləkinə müxalifətdə durmasın" (Heydər Əliyev. Müstəqillik yolu. B., 1997, s. 8).

Prezident seçkiləri ərəfəsində müxalifət partiyalarının kimisə prezidentliyə namizəd göstərməsi, kiminsə namizədliyini müdafiə etməsi ilə əlaqədar hansı arqumentlərdən çıxış etdiklərinə nəzər salsaq, bu partiyaların mahiyyəti də xeyli dərəcədə aydınlaşa bilər. Ən başlıcası odur ki, müxalifətyönlü mətbuatda tez-tez müzakirəyə çıxarılan "vahid namizəd" təklifinin arxasında bu vəhdətin yeganə meyarı olmalı olan "vahid ideya", "vahid mövqe", "vahid fəaliyyət proqramı" heç yada da düşmür. Hər bir partiya sədri ancaq özünü lider görnıək arzusu ilə vəhdətdən danışır. Hamının lider olmaq istediyi, siyasi hakimiyyətin ancaq bir nəfərin prezidentlik postuna yiyələnməsi kimi başa düşüldüyü bir şəraitdə birləşmək, təbii ki, mümkün deyildir. Professor Ramiz Mehdiyev diqqəti müxalifətin siyasi mübarizədə birləşmək cəhdlərini puça çıxaran daha bir neçə amilə yönəldir: "Müxalifətdaxili çəkişmələr, qarşıdurmalar, intriqalar, dərin kök salmış ziddiyyətlər, hakimiyyət hərisliyi müxalif partiyaların inteqrasiyasının əleyhinə işləyən faktordur. Belə bir vəziyyətin əsas səbəblərindən biri də müxalifətin daxilində çoxsaylı qeyri-sağlam, intellekti, ümumi dünyagörüşü və mədəıiyyəti aşağı olan, məsuliyyətsiz adamların fəaliyyət göstərməsidir" ("Azərbaycan", 19 fevral 2003-cü il).

Birləşdirici amil, kompromis, konsensus ancaq mövqelərin, fəaliyyət proqramlarının ortaq məxrəcə gətirilməsi, yaxınlaşması, qarşılıqlı güzəştlər sayəsində mümkün ola bilər. Siyasi mövqe, dövlət quruculuğu konsepsiyası, sosial-iqtisadi inkişaf strategiyası geniş məzmuna, mürəkkəb quruluşa malik olduğundan burada kompromislər üçün meydan geniş olur. Özü də söhbət yalnız qarşılıqlı güzəştdən getməyə də bilər. Müxtəlif proqramların ortaq məxrəcə gətirilməsi daha mükəmməl bir sənədin, daha mükəmməl bir mövqeyin formalaşmasına səbəb ola bilər. Bele olduqda təkcə müxtəlif müxalifət partiyalarının deyil, həm də iqtidar və müxalifət partiyalarının arasında ümumi işin xeyrinə kompromislər ola bilər. Lakin mövqesizlik şəraitində, geniş məzmunlu, təfərrüatlı siyasi platformaların yoxluğu şəraitində kompromisin, dialoqun predmeti nə ola bilər? Ancaq kimin ətrafında birləşmək məsələsimi? Lakin bir siyasi liderin başqa birisinin liderliyini qəbul etməsi kompromis sayıla bilərmi? Bu, ümumiyyətlə, mümkündürmü? Şübhəsiz ki yox! Birləşmə ətrafında söhbətlərin yeganə bir faydası var ki, bu da həmin partiyaların iç üzünün ortaya çıxmasıdır. Məlum olur ki, yeganə hərəkətverici qüvvə hakimiyyət iddiasıdır. Hakimiyyət isə ancaq prezidentlik postu kimi və ancaq birinci adamm hakimiyyəti kimi başa düşülür. Lakin bu nə deməkdir? Bu o deməkdir ki, bu partiyalar siyasi hakimiyyəti, dövləti ancaq avtoritar rejim kimi qavraya bilirlər. Onların nə aşkar şüur, nə də şüuraltı qatda təhtəlşüur səviyyəsində demokratik dövlət quruculuğu haqqında təsəvvürləri var. Sən demə, bütün çıxışların da və yazılarında Heydər Əliyev hakimiyyətini avtoritar rejim kimi dəyərləndirən bu insanların qafasında və ürəyində avtoritarlıqdan başqa heç nə yox imiş!

Hələ ki, müxalifət partiyalarını birləşməyə sövq edən yeganə bir amil var. Bu da Heydər Əliyevi hakimiyyətdən devirib onun yerinə keçmək istəyidir. Bu istəyə çatmaq naminə onlar bir partiya olaraq hansı siyasi vəziyyətdə, hansı məqsədlə və hansı şüur ətrafında yarandıqlarını və hələ yaranışdan birbirinə köklü surətdə əks mövqedə durduqlarını da unutmağa hazırdırlar. Bu istək mübarizənin də üsul və vasitələrini müəyyən edir: ancaq tənqid etmək, ancaq qara yaxınaq, ancaq nöqsanları axtarıb tapmaq, uğurlara, nailiyyətlərə isə göz yummaq. Lakin tutaq ki, xalqın siyasi şüur səviyyəsi aşağı olan təbəqələrini, korrupsiyaya qurşanmış və öz işində səriştəsizlik

göstərən bəzi dövlət məmurlarına görə bütövlükdə hakimiyyətdən incik olan adamları, onların qohum-əqrəbalarını iqtidara qarşı yönəltmək mümkün oldu. Bəs Heydər Əliyev kimi bir liderlə mübarizə aparmağa, onunla müqayisə olunmağa, ona alternativ olmağa elə bir namizəd vardımı ki, heç olmazsa, bu incik təbəqəni və siyasi səbatsız qüvvələri öz ətrafında toplaya bilsin? Bax, hətta bu səviyyədə də müxalifəti dəstəkləyən qüvvələr bölünür. Həm də iki yerə, üç yerə deyil, onlarca yerə bölünür ki, bu da siyasi mübarizə görüntüsü yaratmaq istəyən müxalifət partiyalarının ən böyük problemlərindən biridir. Bütün bu cəhətləri təhlil edən professor Ramiz Mehdiyev haqlı olaraq yazır: **"Heç şübhə yoxdur ki, müxalifət başçılarının vahid namizəd cəhdi Heydər Əliyev şəxsiyyəti, onun miqyası, böyüklüyü qarşısında, xalq arasında nüfuzu və hörməti önündə hakimiyyət opponentlərinin gücsüzlüyünün və zəifliyin etirafının göstəricisidir"** ("Azərbaycan", 19 fevral 2003-cü il).

Azərbaycanda keçirilən hər bir seçki kampaniyası, heç şübhəsiz, demokratiyanın inkişafı istiqamətində daha bir addım olmaqla, cəmiyyətin siyasi fəallığının yüksəlməsinə, ictimai şüurun strukturunda siyasi və hüquqi şüur komponentinin xüsusi çəkisinin artmasına səbəb olur. Bu inkişaf, bizim fikrimizcə, qütbləşmənin, ifrat qarşıdurmanın da tədricən aradan qalxmasına və siyasi proseslərin normal siyasi mübarizə məcrasına keçməsinə gətirib çıxaracaqdır. Belə ki, destruktiv mövqe, ifratçılıq siyasi mədəniyyətin aşağı olmasının təzahürüdür. Rus filosofu V.M.Mejuyevin yazdığı kimi, "yetkin olmayan sosial zəmində meydana çıxan demokratiya asanlıqla öz əksliyinə çevrilə bilər" (Voprosı filosofii. 1990, N 6, səh. 9). Doğrudan da, demokratiya ancaq ictimai inkişafın qanunauyğun nəticəsi kimi ortaya çıxmalıdır. Heyder Əliyevin dediyi kimi: **"Demokratiyanı bir-iki gündə əldə etmək mümkün deyil. Demokratiya insanların şüurunda dəyişiklik deməkdir. Bu dəyişiklik inqilabla olmur, təkamül yolu ilə, tədricən gedir"** (Heydər Əliyev. Müstdqillik yolu. B., 1997, səh. 21). Ölkədə həqiqi siyasi plüralizmin bərqərar olması üçün dövlət quruculuğunda bir sıra zəruri şərtlərin həyata keçirilməsi, hüquqi islahatların aparılması vacib olduğu kimi, siyasi müxalifətin də destruktiv elementlərdən təmizlənərək tədricən konstruktiv məzmun kəsb etməsi demokratikləşmə prosesinin zəruri tələbidir. Biz əminik ki, bütün hay-küyə

və qaragüruha baxmayaraq, növbəti seçki kampaniyası yenə də uğurla başa çatdıqdan sonra ifratçılığın və destruktivliyin nə dərəcədə səmərəsiz olduğu heç kimdə şübhə doğurmayacaq və sonrakı proseslər bu qəbildən olan elementlərin siyasi səhnədən silinməsi ilə əlamətdar olacaqdır.

***Səlahəddin XƏLİLOV,***
***fəlsəfə elmləri doktoru,***
***professor***

*28 mart, 2003*

# XXI ƏSRDƏ MİLLİ DÖVLƏTÇİLİK VƏ DEMOKRATİK İNKİŞAF

***Bu mövzuda "Azərbaycan" qəzeti Fəlsəfə və Sosial Siyasi Elmlər Assosiasiyası ilə birlikdə "Dəyirmi masa" keçirmişdir***

***Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin "Azərbaycan" qəzetində dərc olunmuş "XXI əsrdə milli dövlətçilik: demokratik inkişaf və müxalifət" əsəri yalnız siyasi dairələrdə deyil, elmi ictitnaiyyətdə də böyük rezonans doğurub. "Azərbaycan" qəzetinin Fəlsəfə və Sosial Siyasi Elmlər Assosiasiyası (AFSSEA) ilə birgə təşkil etdiyi "XXI əsrdə milli dövlətçilik və demokratik inkişaf' mövzusunda "Dəyirmi masa"nın əsas məqsədi əsərdə qaldırılan və çağdaş dövrümüzdə mövcud olan problemləri elm və siyasət adamlarının iştirakı ilə araşdırmaqdan ibarət idi. Tədbirdə AFSSEAnın İdarə Heyətinin sədri, professor, Milli Məclisin deputatı Səlahəddin Xəlilov, falsəfə elmləri namizədi, deputat Rəbiyyət Aslanova, siyasi elmlər namizədi, deputat Aydın Mirzəzadə, fəlsəfə elmləri doktorları Yusif Rüstəmli, Rəfiqə Əzimova, Vəli Həbiboğlu, Əlisa Əhmədov, professor Etibar Nəcəfov və fdlsəfə elmləri namizədi Vüqar Səlimov iştirak edirdilər.***

***Bəxtiyar Sadıqov "Azərbaycan" qəzetinin Baş redaktoru, Milli Məclisin deputatı:***

"Azərbaycan" qəzetinin Azərbaycan Fəlsəfə və Sosial Siyasi Elmlər Assosiasiyası ilə birgə keçirdiyi bu tədbir"XXI əsrdə milli dövlətçilik və demokratik inkişaf' adlanır. "Dəyirmi masa"da müzakirəyə çıxarılan mövzu fəlsəfə elmləri doktoru, görkəmli alimtədqiqatçı, professor Ramiz Mehdiyevin "XXI əsrdə milli dövlətçilik: demokratik inkişaf və müxalifət" əsərindən qaynaqlanır. Ölkəmizdə genişmiqyaslı demokratik proseslər gedir. XX əsrin sonu, XXI əsrin əvvəllərində ikinci dəfə dövlət müstəqilliyi

qazanmaq səadəti Azərbaycan xalqına nəsib olmuşdur. Ancaq bu müstəqilliyin də ömrü çox qısa ola bilərdi. Xoşbəxtlikdən tale Azərbaycan xalqına möhtərəm Prezidentimiz Heydər Əliyev kimi böyük bir dühanı, həm nəzəri, həm də praktik cəhətdən çox böyük quruculuq məharəti, böyük zəka potensialı olan bir simanı bəxş etmişdir. Azərbaycan xalqının arzu və tələbi ilə Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması xalqımızın əsrlər boyu ürəyində bəslədiyi arzunu gerçəkliyə çevirdi. Müstəqilliyimiz, cənab Prezidentin təbirincə desək, daimi, əbədi və dönməz oldu. 1995-ci ildə baş müəllifi ümummilli liderimiz Heydər Əliyev olan Konstitusiya qəbul edildi və ölkəmizin Əsas Qanununa uyğun olaraq aparılan bütün islahatların möhkəm və demokratik qanunvericilik bazası yaradıldı. Uğurlarımızın nəticəsi o oldu ki, Azərbaycan AŞ-yə qəbul edildi, söz, mətbuat, vicdan azadlığı, çoxpartiyalı sistem, fikir plüralizmi, bir sözlə, demokratik cəmiyyətin bütün təməl prinsipləri tam bərqərar oldu. Azərbaycanda insan hüquqlarının qorunması üçün həm qanunvericilik bazası baxımından, həm də əməli şəkildə bütün tədbirlər görülmüşdür. Biz daim irəli gedirik islahatlar davam edir, beynəlxalq standartlara cavab verən qanunlar qəbul olunur. İndi Azərbaycanın müstəqil demokratik dövlət modeli formalaşmışdır.

Demokratik cəmiyyətin ən mühüm prinsiplərindən biri müxalifətin mövcudluğudur. Müstəqillik qazandığımız dövrün fərdi xüsusiyyətləri, SSRİ kimi fövqəldövlətin tərkibindən qeyriadi şəkildə qopmağımız, zorla müharibəyə sürüklənməyimiz elə vəziyyət yaratdı ki, nəticə etibarilə ölkəmizdəki müxalifət digər demokratik dövlətlərdəki müxalifətə bənzəmədi, onun mahiyyəti, mübarizə üsulları demokratik prinsip və normalardan uzaq oldu. Hazırda Azərbaycanda iki cür müxalifət var: konstruktiv və destruktiv müxalifət. Destruktiv müxalifətin fəaliyyəti bir çox məqamlarda Azərbaycan dövlətçiliyinə, milli maraqlarımıza qarşı yönəlmişdir. Bu müxalifət hər vəchlə mövcud iqtidarın apardığı milli inkişaf prosesinə mane olmağa çalışır, bu baxımdan da cəmiyyətdə gedən quruculuq prosesi gərgin mübarizə şəraitində həyata keçir. Azərbaycanı istəməyən xarici qüvvələrlə həmin müxalifətin maraqları üstüstə düşür. Bu məsələləri konseptual şəkildə araşdırmaq və destruktiv müxalifətin antimilli fəaliyyətinin qaranlıq məqamlarını ictimaiyyətə çatdırmaq həm də alimlərin, tədqiqatçıların vəzifəsidir. İstərdik ki, bugünkü "Dəyirmi masa"da iştirak edən alimlərimiz də məhz bu məsələlərə toxunsunlar və fəlsəfə elmləri doktoru, professor Ramiz

Mehdiyevin siyasi səhnədən getməsinin labüdlüyü, demokratik cəmiyyətdə əsl müxalifətin necə olması və digər məsələlər barədə danışsınlar.

***Səlahəddin Xəlilov:***

- Həqiqətən milli dövlətçilik və demokratik inkişaf mövzusunun nəzəri cəhətdən işlənməsinə, alimler tərəfindən tedqiq və təhlil edilməsinə çox böyük ehtiyac var. Əslində müstəqil olmayan dövlətin nə milliliyindən, nə də demokratikliyindən danışmaq olar. Sovet dövründə nisbi dövlətçiliyə malik olaraq tarixi dövlətçiliyimizi davam etdirmişik. 1991-ci ildən SSRİ-nin dağılması ilə yaranmış imkan hər bir müttəfiq respublikanın öz müstəqil dövlətini qurması ilə reallaşdı. İlk illərdə müəyyən uğursuzluqlar olmasına baxmayaraq, 1993-cü ildən başlayaraq müntəzəm surətdə Azərbaycanda milli dövlət quruculuğu davam edir və təkmilləşir. Qısa dövr ərzində böyük uğurlar əldə olunubdur.

Azərbaycanda təkcə praktiki cəhətdən yox, dövlət quruculuğu nəzəriyyəsinin, ideyasının irəli sürülməsi baxımından möhtərəm Prezidentimiz Heydər Əliyevin xüsusi rolunu qeyd etmək istəyirəm. Onun çıxışlarında dövlət quruculuğu problemləri praktiki cəhətdən öz əksini tapır, eyni zamanda nəzəri məsələlərə toxunulur. AFSSEA-nın prezidenti, fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin milli dövlətçilik və demokratik inkişaf mövzusunda genişhəcmli məqaləsi də nəzəri və konkret praktik problemləri məhz Heydər Əliyev ideyaları işığında əks etdirmək baxımından maraqlıdır.

Dövlət və milli dövlət anlayışları barədə bəzən Milli Məclisdə də müəyyən mübahisələr olur. Azərbaycanda dövlət quruculuğu, milli dövlət quruculuğu, demokratik dövlət quruculuğu nə vaxtdan başlayır? Bunları bəzən eyniləşdirirlər, ta qədimdən olan dövlətçilik nümunələrini milli dövlətlə, demokratik dövlətlə qarışıq salırlar. Əlbəttə, müasir dövrdə gedən prosesləri qədimdən gələn böyük dövlətçilik proseslərindən tam ayırmaq tərəfdarı deyilik. Lakin demokratik, hüquqi dövlət qurulmasında Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən prosesləri yeni keyfiyyətli mərhələ kimi qeyd edərək 1993-cü ildən başlayan prosesləri məhz hüquqi, demokratik dövlət quruculuğu kimi qiymətləndiririk. Milli dövlət dedikdə ölkəyə rəhbərlik edən şəxsin siyasi iradəsinin bütövlükdə millətin

siyasi iradəsini ifadə etməsi nəzərdə tutulur. Bu proses Qərbi Avropa ölkələrində XVI-XVII əsrlərdə başlayıb. Azərbaycanda milli dövlət quculuğu fikir, ideya səviyyəsində XIX əsrin sonu, XX əsrin əvvəlk yaranıb. Praktiki şəraitdə milli dövlət quruculuğunun həyata keçiri başa çatdırılması üçün imkan olmayıb. Yeni dövrdə yaranmış şəraitdən də əvvəlki hakimiyyət istifadə edə bilməyib. Bu baxımdan biz deyirik kı, milli, demokratik, hüquqi dövlətin yaranması prosesi çağdaş problemdir, müasir siyasi gerçəkliyin problemidir. Artıq hər bir xalq, millət öz problemləri üçün məsuliyyət daşıyan yeganə subyekt deyil. Bütün dünyada gedən proseslər demokratikləşmə, qloballaşma, beynəlxalq siyasi və hüquqi dəyərlərin formalaşması prosesləri vadar edir ki, hər bir ölkə və xalq bu dəyərlər sisteminin prizmasından öz perspektivini görsün, özüni lət quruculuğuna bu baxımdan yanaşsın. Ona görə Azərbaycanda gedən proseslər dünyada gedən proseslərin tərkib hissəsidir. Azərbaycan yalnız özü üçün məqbul olan dövlət quruculuğu modeli hazırlamayıb, eyni zamanda beynəlxalq miqyasda olan və inkişaf etmiş dövlətlərin modeli də kor-koranə təqlid etmək yolu seçməyib. Möhtərəm Heydər Əliyevin dəfələtlə qeyd etdiyi kimi, biz bu məsələrdə sintez, vəhdət möngeyindən çıxış edirik. Azərbaycan həm dünya təcrübəsini nəzərə alır, özünu dünyanın böyük qüvvələrinə qarşı qoymur, həm də milli maraqları çıxış edir.

***Yusif Rüstəmov:***

Fəlsəfə elmləri doktoru Ramiz Mehdiyevin "Azərbaycan" qəzetində silsilə şəklində dərc edilən əsəri fövqəladə dərəcədə əhəmiyyətli bir məsələyə XXI əsrdə Azərbaycanda milli dövlətçilik şəraitində demokratik inkişaf və müxalifətin yeri məsələsinə həsr edilib. Əsərin əhəmiyyəti ondan ibarətdir ki, inkişaf etmiş Qərb ölkələrindən fərqli olaraq, Azərbaycanda milli dövlətçiliyin demokratik yolla daha da inkişaf etdirilməsi zərurəti elmi cəhətdən sübut edilir, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin rəhbərliyi altında dövlət quruculuğu sahəsində aparılan siyasət ətraflı şərh olunur. Müəllif haqlı olaraq yazır: "Milli dövlətçilik vahid məqsəd uğrunda - dövləti möhkəmləndirmək, iqtisadiyyatı modernləşdirmək və gələcək nəsillər üçün daha mükəmməl şərait yaratmaq naminə bütün millətin, bütün cəmiyyətin birliyinin rəmzidir". Professor

Ramiz Mehdiyev bu əsərində demokratik cəmiyyət üçün konstruktiv müxalifətin vacibliyini elmi-nəzəri və Azərbaycan gerçəkliyindən gətirdiyi konkret misallarla xüsusi qeyd edir, onun çox mürəkkəb bir hadisə olduğunu əsaslandırır. Burada diqqətəlayiq bir cəhət də müxalifətin mahiyyəti və sosial köklərinin təhlil edilməsidir. Müəllif inanır ki, Azərbaycanın postindustrial cəmiyyətə çevrilməsinin təməli artıq qoyulmaqdadır.

Müxalifətin mötədil, radikal, loyal, konstruktiv, destruktiv növləri bu və ya başqa şəkildə Azərbaycan müxalifətində də təmsil olunmuşdur. Müəllif qeyd edir ki, ölkədə fəaliyyət göstərən müxalifət partiyaları müxtəlif olsalar da, onları bir cəhət birləşdirir: hakim Yeni Azərbaycan Partiyasına qarşı olmaları. Əsərdə doğru olaraq göstərilir ki, bu partiyaların dəqiq təsnifatı hələ işlənib hazırlanmamışdır. Bu baxımdan professor Ramiz Mehdiyevin bu əsəri irəliyə doğru ciddi bir addımdır. Ölkədə indiyə qədər 42 partiya qeydə alınsa da, müəllif belə bir nəticəyə gəlir ki, "bizdə konkret təbəqəyə, yaxud elektorata istiqamətlənmiş ciddi demokratik müxalifət partiyası yoxdur!" Onun fikrincə, barışmaz müxalifət Qarabağ münaqişəsinin həll edilməsinə, ölkədə ciddi sosialsiyasi və iqtisadi islahatların həyata keçirilməsinə mane olur.

Müxalifət partiyaları arasında birliyin olmaması, onların uğursuz inteqrasiya cəhdləri əsərdə ətraflı təhlil edilir, növbəti prezident seçkisində "vahid namizəd" probleminin həlledilməzliyi xüsusi qeyd edilir, müxalifət liderləri xarakterizə olunur. Diqqəti cəlb edən bir məsələ də müxalifət partiyaların da son illərdə baş verən parçalanmaların səbəbləri, "yeni müxalifət"in formalaşması haqqında ətraflı məlumat verilməsidir. R.Mehdiyev müxalifətin tənqidi ilə kifayətlənmir. O, gələcəyə nikbin əhvaliruhiyyə ilə baxır, son on ildə əldə edilən nailiyyətlərdən bəhs edir, milli dövlətçiliyin demokratik inkişaf yolunda və qloballaşma şəraitində daha da möhkəmlənəcəyini göstərir.

***Rəbiyyət Aslanova:***

Bu gün Azərbaycan fəlsəfi, ictimai və siyasi fikrində yaşadığımız dövrün və cəmiyyətin xarakterini, baş verən hadisələrin mahiyyətini əks etdirən yazılara çox böyük ehtiyac duyulmaqdadır. Müstəqillik əldə edildikdən sonra qazandığımız uğurların hansı çətinliklər hesabına başa gəldiyini, müstəqilliyimizin qorunması və möhkəmləndirilməsi uğrunda möhtərəm

Prezidentimiz Heydər Əliyevin necə böyük fədakarlıqla çalışdığını dərk etmək, siyasi, iqtisadi, mədəni proseslərin yüksələn xətt üzrə inkişafını anlamaq, həmin proseslərin Azərbaycanın gələcəyi naminə nə qədər möhkəm, davamlı təməl olduğunu obyektiv reallıq əsasında tədqiq etmək tarixi zərurətdir.

Bu baxımdan fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin "XXI əsrdə milli dövlətçilik: demokratik inkişaf və müxalifət" adlı sanballı tədqiqat əsəri elminəzəri fikirdə irəliyə doğru atılan mühüm addım kimi qiymətləndirilməlidir. Müstəqilliyimizin birinci onilliyi ərzində hadisələrin sürət tempini, cərəyan edən proseslərin məlum qanunauyğunluqlara tabe olmamasını, dağıdıcı, destruktiv qüvvələrin qurucu tendensiyalara güclü müqavimətini nəzərə alsaq, dövrün elmi təhlilinin nə qədər çətin olduğunu təsdiq edərik.

Zaman proseslərin obyektiv qiymətini vermək imkanını genişləndirir. Bu tədqiqat əsərində Azərbaycanda baş verən proseslər qlobal hadisələr müstəvisində öyrənilir, milli dövlətçilik fəlsəfəsinin əsas inkişaf perspektivləri müəyyən olunur. Dünyada baş verən real hadisə və prosesləri təhlil edərkən belə bir qənaətlə razılaşmalı oluruq: vaxtilə ekzistensiolistlərin söylədikləri "bəşəriyyət öz həddinə çatıb, gələcək isə verilmir" kəlamı bu gün daha aktual səslənir. Üçüncü minilliyə qədəm qoymuş bəşəriyyət bütün texnikitexnoloji, elmi və iqtisadi nailiyyətlərə baxmayaraq, ciddi mədənimənəvi deqradasiya təhlükəsi ilə üzləşmişdir. Müasir insanların qlobal problemləri doğura biləcək fəlakətləri tərk edərək səmərəli, optimal çıxış yolu axtarınası bir zərurətdir. Ölkədaxili və beynəlxalq miqyasda ictimai həyatın müxtəlif sahələrində yaranan problemlərin mürəkkəbliyi, bəzən də dramatikliyi qloballaşma və universallaşma proseslərinin sürətlənməsi şəraitində bu zərurət daha qabarıq şəkildə hiss olunmaqdadır.

Dünyanın klassik modelinin dəyişdiyi və dünya sisteminin çoxtərəfli transformasiyaya uğradığı şəraitdə milli dövlətçilik ideyası, onun gələcək inkişaf perspektivləri yeni baxış tələb edir. Qlobalizmlə regionalizm arasında qarşıdurma nəticə etibarilə milli dövlətçilik ideyasına öz təsirini göstərəcəkmi, demokratik rejimləri, milli suverenliyi qorumaq əzmində olan dövlətlərin varlığı təhlükəyə məruz qalacaqmı?

Dünyanın restrukturizasiyası heç bir regiondan yan keçmir, ölkələri, siyasi təşkilatları, iqtisadi qurumları, ictimai hərəkatları əhatə edərək proseslərə

öz təsirini göstərir. Əslində, bəşəriyyətin tarixi müəyyən tarixi situasiyada siyasi, ideoloji, iqtisadi, hərbi maraqların təsiri və təzyiqi altında sərhədlərin pozulması, müəyyən dövlətlərin məhv olması, yenilərin yaranması tarixidir.

Postkommunist məkanında yaranmış milli dövlətlər içərisində Azərbaycan özünəməxsus inkişaf perspektivlərinə malik bir dövlətdir. Minilliklərlə ölçülən dövlətçilik ənənələrinə malik olan bu məmləkət tarixi nailiyyetləri qorumaqla yanaşı, beynəlxalq təcrübədən lazımi qədər bəhrələnməyi bacararaq siyasi, iqtisadi, mədəni varlığını təmin edir, suverenliyini qoruyub saxlayır.

Bünövrəsi 1993-cü ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən qoyulmuş dövlətçiliyimizin iqtisadi, siyasi, sosial, mədəni tərəqqisi yolunda qazanılan uğurlar bu böyük şəxsiyyətin titanik əməyinin nəticəsidir.

Xalqının milli mənəviyyat tarixində yaranmış dönüş dövründə çaşqmlığı dəf etmək iqtidarın  da olan, millətinə milli özünütəsdiq hissi yaşadan, respublikada baş verən prosesləri təcrid olunmuş formada deyil, dünya siyasətinin tələbləri səviyyəsində görərək həll edən ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanı nəinki qlobal təhlükələrdən qoruyur, milli dövlətçiliyin tərəqqisi üçün perspektivler, strateji proqramlar hazırlayır, Azərbaycan dövlətinin müstəqilliyinin, suverenliyinin əbədi, dönməz olmasını təmin edən möhkəm zəmin formalaşdırır.

Şərqlə Qərbin qovuşuğunda yerləşən, böyük dövlətlərin siyasi maraqlarının kəsişdiyi ərazidə hər cür təsirlərə davam gətirmək üçün Azərbaycan dövlətçiliyinin əsaslarının möhkəmləndirilməsi Prezident Heyder Əliyevin gərgin, möhtəşəm əməyi hesabına başa gəlir və bu prosesə lokal baxımdan yox, qlobal miqyasda qiymət verməк lazımdır.

Azərbaycan xalqının tarixi düşüncə tərzinə əsaslanan fəlsəfəni, psixologiyanı, azərbaycançılıq ideyasını əsas götürən Azərbaycan dövlətçiliyi milliliyi ümumbəşəri dəyərlərlə birləşdirməyi bacaran bir sistemdir. Bu dövlətin ali məqsədi insan hüquqlarına təminat vermək imkanının genişliyidir. Ərazi toxunulmazlığından başlamış mədəni, tarixi bütövlüyün, milli özünəməxsusluğun, vətəndaşların hüquq və azadlığının təmin olunması, tarixi sərvətlərin qorunaraq varislik prinsipi əsasında gələcəyə ötürülməsi bu təminatın başlıca cəhətidir.

Dövlət həm də xalqa başqa xalqlarla əməkdaşlıq və rəqabət şəraitində öz tarixini yaratmaq imkanı verən güclü bir sistemdir. XXI əsrdə bu mükəmməl sistemin, Azərbaycan milli dövlətçiliyinin möhkəm təməlini yaradan qüdrətli şəxsiyyət isə Prezidentimiz möhtərəm Heydər Əliyevdir.

Yalnız o, buna qadirdir və bu baxımdan Azərbaycan müxalifətinin hər hansı iddiası, çığırbağırı kifayət qədər cılız, mənasız görünür. Hesab edirəm ki, bu gün Azərbaycanda ictimai-siyasi prosesləri dərindən anlayan, analitik izah verə bilən, ölkəmizin gələcəyi üçün proqramlar və proqnozlar hazırlamağı bacaran müxalifət yoxdur. Hətta mən bir məsələni də deyim ki, müxalifət partiyalarının nizamnamələrinə baxanda görürsən ki, onlar demokratiyanın, demokratik rejimin nə demək olduğunu sona qədər dərk etməyiblər. Bu nizamnamələrin heç birində dərin analitik təhlillər nəzərə çarpmır. Mən hesab edirəm ki, Azərbaycanın milli müstəqilliyinin fəlsəfəsi ayrıca işlənilməlidir və bu fəlsəfənin yaranmasında müstəsna rolu olan Heydər Əliyevin titanik əməyi qiymətləndirilməlidir. Müstəqilliyimizin əldə olunmasından keçən 10-12 il vaxt bəlkə də zaman etibarilə çox qısadır. Ancaq bu dövrün hər günü, hər anı nə qədər ölkəmiz üçün dəyərlidir, vətəndaşlarımızın rifahı üçün vacibdir. Bunu anlamaq üçün əsərlər yazılıb ortaya qoyulmalıdır və şübhəsiz ki, gələcəkdə bu istiqamətdə tədqiqatlar davam etdirilməlidir.

***Aydın Mirzəzadə:***

İlk növbədə maraqlı mövzu ətrafında "Dəyirmi masa" təşkil etdiyinə görə, "Azərbaycan" qəzetinin yaradıcı heyətinə minnətdarlığımı bildirirəm. Belə müzakirələrə cəmiyyətimizin doğrudan da ciddi ehtiyacı var və müzakirə predmetinin milli dövlətçiliyimizlə bağlı olması təqdirəlayiq haldır. Milli dövlətçilik Azərbaycan xalqı üçün yeni anlayış deyil. Min illərlə Azərbaycan xalqınm çox qüdrətli dövlətləri olubdur və onların mənəviəxlaqi davamı, mənə elə gəlir ki, müasir dövlətçiliyimizdə öz əksini tapmaqdadır. XIX əsrin əvvəlində Azərbaycan tarixi səbəblər ucbatından öz milli dövlətçiliyindən məhrum oldu. Xalqımızda olan potensial özünü XX əsrdə üç dəfə milli dövlətin yaranması faktında göstərdi. Mən istərdim ki, biz bu faktı xüsusi vurğulayaq: 1991-ci ildə yaranmış dövlətimiz tarixi şəraitin diktəsi ilə ortaya çıxmışdı və biz bu tarixi fürsətdən uğurla istifadə etməli idik. Çox təəssüf ki, həmin dövrdə dövlətin taleyini

Azərbaycan xalqı yox, əsrlərlə onu və Azərbaycan torpaqlarını əsarət altında saxlamaq istəyən böyük ölkələr həll edirdilər. Onlar yarımmüstəqil dövlət yaratmaqla, hakimiyyətə qeyripeşəkarların gəlməsinə çalışmaqla Azərbaycana nəzarət imkanlarını qorumağa cəhd göstərirdilər. Belə bir fəlsəfi fikir var ki, hər bir xalq layiq olduğu hökmdara malikdir. Mən bunu bir qədər başqa cür deyərdim ki, hər bir xalq layiq olduğu liderə malikdir. Və bu gün Azərbaycan dövlətçiliyinin Heydər Əliyevin adı ilə bağlanması heç də təsadüfı deyil. Heydər Əliyev yalnız Azərbaycanın növbəti prezidenti deyil, xalqın yetişdirdiyi tarixi şəxsiyyətdir, ümummilli liderdir. İndi olduğu kimi, yüzillər bımdan sonra da Azərbaycan dövlətçiliyi onun qoyduğu siyasi kurs əsasında inkişaf edərək uğurlarını qazanacaq. Azərbaycan xalqımn malik olduğu zəngin potensial özünü Heydər Əliyevin şəxsiyyətində təcəssüm etdirib. Elə bir zəngin potensial ki, cəmiyyətin müxtəlif sahələrdə inkişafına gətirib çıxarır, ayrı-ayrı sahələrdə görkəmli alimlərin, mütəxəssislərin yetişməsinə səbəb olur. Məhz cənab Heydər Əliyevin uğurlu siyasəti Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi və təkmilləşməsi ilə nəticələnmişdir.

İndi tarixin elə bir mərhələsindəyik ki, müəyyən beynəlxalq qüvvələr və dövlətlər heç də ənənəvi formada xalqların istismarı ilə məşğul olmurlar və tamamilə yeni formalar meydana çıxıb. Biznesin, transmilli korporasiyaların meydana gəlməsi, formal müstəqil dövlətlərdə oyuncaq rejimlərin qurulması, həmin dövlətlər üçün müəyyən problemləri yaratmaq yolu ilə onların dövlətçiliyinin formalaşmasına mane olmaq istəyən qüvvələr var. Eyni zamanda, yeni yaranan dövlətlərdə həmin qüvvələr onların siyasətinin həyata keçməsinə yardımçı ola bilən siyasi partiyaların , təsisatların yaradılmasına da xüsusi qayğı göstərirlər. Azərbaycan 1991-ci ildə müstəqillik qazandıqdan sonra dövlətçiliyin formalaşmasının ilk etapını keçdi. Atributların yaranması, idarəetmə strukturlarının qurulması, dövlətin ümumi modelinin formalaşması prosesi baş verdi. Amma burada bir məsələ var ki, korkoranə modellərin Azərbaycanda tətbiqi mümkün deyildi. Çünki bir dövlətdə məqbul olan variant digərində özünü doğrultmaya bilər. Bu prinsip bizim ölkəmizdə də mütərəqqi qüvvələr tərəfindən müstəqil dövlət quruculuğunun əsas devizi kimi qəbul olunur. Azərbaycan qısa vaxtda digər dövlətlərin yüzillərlə keçdiyi mərhələni keçməlidir.

Bu gün inkişaf etmiş dövlətlərin yüksəlişini təmin edən amillərdən biri də demokratik cəmiyyətin qurulmasıdır. Demokratiya, hüquqi dövlət, insan hüquqları prinsipləri respublikamız üçün əsas istiqamətlərdir və ölkəmiz onların inkişafına çalışır. Lakin bu gün demokratiya bizim üçün məqsəd deyil, milli dövlətçiliyimizin möhkəmləndirilməsi vasitəsidir. Məqsədimiz isə, cənab Prezidentimizin dediyi kimi, müstəqilliyimizin əbədi və dönməz xarakter almasıdır, Azərbaycanın dünya birliyində öz layiqli yerini tutmasıdır. Bunun üçünsə daxili və xarici siyasətin formalaşması vacib şərtdir. Daxildə iqtisadisiyasi sabitlik və inkişaf, dövlət quruculuğunun möhkəmləndirilməsi, sosial ədalət prinsipinin yüksək səviyyədə qorunması xarici siyasətin də güclü olmasına gətirib çıxarır. Xarici siyasətdə isə istiqamətlərin, prioritetlərin və müttəfiqlərin düzgün müəyyənləşdirilməsi, bu mürekkəb dünyada düzgün qərar qəbul edilməsi Azərbaycan dövlətçiliyinə kömək edən vacib şərtlərdir.

Aydın məsələdir ki, demokratiya olan yerdə müxalifət də var, daha doğrusu, fərqli fikir də var və bu, demokratik cəmiyyətlərdə çox vacibdir. Biz müxalifətin mövcudluğuna həmişə tərəfdar çıxırıq. Lakin hazırda respublikada demokratiyanın mövcudluğu şəraitində normal müxalifətin yoxluğu faktı ilə üzüzəyik. İş burasındadır ki, biz bu qüvvələrdən Avropada mövcud olan müxalifətçiliyi gözləyə bilmərik. Avropada şərait fərqlidir. Orada iqtidar da, müxalifət də eyni istiqamət uğrunda çalışırlar və söhbət yalnız taktiki fərqlərdən gedə bilər. Bizdə isə müxalifət strategiyada fərqli mövqe tutur.

Buna görə də Azərbaycanda müxalifətin fəaliyyəti dövlətçiliyin təməlini dağıtmağa yönəlib. Müxtəlif situasiyalarda onların beynəlxalq təşkilatların ayırdığı qrantlar hesabına fəaliyyət göstərməsi bunu təsdiqləyir.

Axı biz bu beynəlxalq təşkilatların haradan maliyyələşdiyini bilmirik. Bu barədə çox şübhəli məlumatlar ortaya çıxır və həmin vəsaitlər heç də təmənnasız verilmir. Bunun nəticəsini gözləyirlər. Azərbaycan demokratik, hüquqi dövlət qurmaq istəyir və bunun altenativi sovet rejimi kimi totalitar cəmiyyətlərdir. Müxalifət bunu istəyirsə, öz məqsədini açıq deməlidir. Bir məsələni də qeyd edin ki, eyni cəmiyyətdə güclü iqtidar və güclü müxalifət ola bilməz. İndiki iqtidarın siyasi kursunun praqmatikliyi, obyektivliyi, düzgünlüyü müxalifətin fəaliyyəti üçün meydan vermir. Çox qəribə olsa da, bu gün bizdə iqtidar müxalifətin də missiyasını yerinə yetirir.

Avropada iqtidar gündəlik icra məsələləri ilə, müxalifət isə yeni ideyaların verilməsi ilə məşğul olur. Bizdə isə bunların hər ikisini iqtidar təkbaşına həyata keçirir. Müxalifet isə ancaq "şərhçi" rolunu oynayır və proseslərin arxasında sürünür. 1995ci ildə Konstitusiyanın qəbulu, 1998ci ildə ölüm hökmünün ləğvi, 2000-ci ildə Avropa Şurasına qəbul olunmaq üçün Azərbaycanda həmin dövr üçün cəsarətli görünən addımların atılması müxalifət bunlara hazır deyildi. İndinin özündə müxalifət 2003-cü il prezident seçkilərinə hazır deyildir.

Hesab edirəm ki, indiki müxalifət öz yerində sayır: sosial bazasızlığı ilə, xarici qüvvələrə xidmət etməsiylə, seçkilərdə qarşılaşdığı məğlubiyyətlərlə. Bu cür şərait çox davam edə bilməz və buna görə də müxalifətin içərisində yeni proseslər başlayıb. Həmin proseslərin nəticəsində sözügedən düşərgədə realist baxışlı müəyyən qruplar yaranmaqdadır. Bu, iqtidarın, yaxud cəmiyyətin vəzifəsi deyildi, məhz müxalifətin öz daxilində formalaşmalıydı. 2003-cü il prezident seçkilərində dağıdıcı müxalifət fəaliyyətinə son qoyacaq bir mərhələni yaşayacağıq.

On il bundan əvvəl bele bir "Dəyirmi masa"nı təsəvvür etmək qeyri-mümkün idi. Onda dövlətin "olum, ya ölüm" sualına cavab axtarırdıq. Lakin indi Azərbaycan dövləti möhkəmlənib və onun quruculuğu haqqında elmi-nəzəri araşdırmalara ehtiyac vardır.

***Rəfiqə Əzimova:***

Aydın müəllim dedi ki, on il bundan əvvəl belə "Dəyirmi masa"nı təsəvvür etmək çətin idi. Mən isə deyərdim ki, hətta beş il əvvəl də bu cür ciddi bir elmi araşdırmanm meydana çıxması mümkün deyildi. Çünki cəmiyyətdə gedən prosesləri ümumiləşdirmək üçün zaman faktoru tələb olunur. On ildən sonra belə bir əsərin meydana çıxması ötən dövrün müvafiq proseslərinin nəticəsi ola bilərdi. Hesab edirəm ki, professor Ramiz Mehdiyev filosof kimi çox mükəmməl bir elmi araşdırma aparınağa müvəffəq olub. Bu elmi araşdınna daha geniş, daha əhatəli müzakirələr tələb edir.

Müxalifət də cəmiyyətin özü kimi təkamül yolu keçməli, təkmilləşməli, müasirləşməlidir, çünki o, cəmiyyətin tərkib hissəsidir. On ildən sonra biz başqa bir müxalifətlə rastlaşa bilərik. Amma indiki halda mövcud müxalifət savadsız görünür. Demokratikləşmə ilk növbədə demokratik təfəkkür

tərzini tələb edir və bizim müxalifətdə bu, yoxdur! Cəmiyyətdə də bu sahədə çatışmazlıqlar var. Yəni bu problemi bütövlükdə müxalifətə aid etmək doğru olmaz. Keçid mərhələsini yaşayırıq və bu dövrün problemləri, demək olar ki, bütün sahələri əhatə edir, o cümlədən bizim təfəkkürümüzə, davranışımıza və hissiyyatımıza da toxunub.

Əgər əsərin təhlilinə məsuliyyətlə yanaşsaq və onun sonuncu paraqrafında gələcək strategiyaya dair məqamlara fikir versək, orada yalnız müxalifətə deyil, bütün cəmiyyətə aid olan məsələlərə toxunulub. Keçid mərhələsini uğurla başa vurmaq üçün hər birimizdə məsuliyyət hissi olmalıdır. İnsan faktoru, şəxsiyyət amili burada müstəsna əhəmiyyət kəsb edir. Mən müxalifət nümayəndələrinin iştirak etdiyi diskussiyalarda da bu məsələləri çatdırmışam. Çünki indiki iqtidarın üxalifət münasibətlərində daha çox şəxsiyyət faktoruna diqqət yetirmək lazımdır. Fəlsəfə elmləri doktoru R.Mehdiyevin əsərində bu məsələ araşdırılıb və hesab edirəm ki, məhz Heydər Əliyevin müsbət şəxsi keyfiyyətləri, müdrikliyi, uzaqgörənliyi bizi təhlükələrdən qurtardı. Şəxsiyyət sağlam olmayanda o, iqtidarda da olsa dağıdacaq, müxalifətdə də. Müzakirələrdə yeni, sağlam müxalifət amilinə toxunuldu və mən demək istərdim ki, görünür, bu düşərgədə qurucu adamlar, sağlam təfəkkürlü insanlar səhv yolda olduqlarını başa düşüblər. Amma gəlin etiraf edək ki, bəzən iqtidarda olan insanlarda da məsuliyyət hissi çatışmır. Şəxsiyyət faktorunun ön plana çəkilməsi çox vacibdir və bu, həm də təhsilimizlə bağlıdır. Təhsildə olan natamamlıq bizi çox geriyə çəkir. İslahatlar adı altında bəzən olduqca böyük nöqsanlar buraxılır və biz bunu daimi nəzarətdə saxlamalıyıq. İndi uşaqlara milli dövlətçiliyin mahiyyətini başa salmaq və bunun sintezini yaratmaq lazımdır. Əlbəttə, Qərbdən nizam-intizam, əməyə münasibət ənənələrini götürməyin tərəfdarıyam, amma öz millimənəvi dəyərlərimizi qoruyub saxlamaq şərtilə!

***Əlisa Əhmədov:***

- Ramiz Mehdiyev bu əsərində dövlət strukturunda çalışan bir şəxs kimi deyil, filosof kimi çıxış edib və bütün məsələləri əhatəli şəkildə tədqiq və təhlil etməyə müvəffəq olub. Həcminin böyük olmasına baxmayaraq, burada artıq heç nə yoxdur.

Birinci növbədə milli dövlətçiliyin qorunmasına, onun dönməz prosesə çevrilməsinə çalışmaq lazımdır. Bunun üçün müəyyən şərtlər var, amma

bu şərtlər çox çətin şəraitdə yerinə yetirilir. Biz müharibə vəziyyətində yaşayırıq, torpaqlarımızın 20 faizi işğal edilib, bir milyona yaxın qaçqınımız var, informasiya blokadasından bir neçə ildir ki, qurtulmuşuq. Hörmətli Prezidentimiz hər dəfə xaricə gedəndə Azərbaycanın xəritəsini də özüylə aparırdı. Çox böyük çətinliklər bahasına informasiya blokadasını dağıda bilmişik. Dövlət quruculuğu prosesində milli mənafe, şübhəsiz ki, vacib amildir. Amma, eyni zamanda, dünyada gedən prosesləri də nəzərə almaq və digər dövlətlərin maraqları ilə də hesablaşmaq lazımdır. Rəfiqə xanımm da dediyi kimi, dövlətin qorunması həm də insanların mənəviyyatı ilə bağlı məsələdir. Vaxtilə Mirzə Kazım bəy deyərdi ki, Roma imperiyasını süqutu iqtisadi səbəblərlə bağlı deyildi, müxtəlif siyasi qüvvələr arasındakı mübarizənin və mənəviyyatların pozulmasının nəticəsiydi. Keçid dövrü bu sahədə bəzi problemləri ortaya çıxarıb. Bu bizim hamımızın gözünün qarşısında baş verir. Ona görə də mənəvi dəyərləri diqqətdə saxlamaq çox vacibdir və Prezidentimiz bu məsələni daim nəzərə alır. Mənəvi dəyərlərimizin təhlükə altında qaldığını görən ümummilli lider Heydər Əliyev 2001-ci ilin 13 avqustunda xüsusi bəyanatla çıxış etdi.

Ramiz müəllim əsərində iki məsələni xüsusi diqqət mərkəzində saxlayır: birincisi, destruktiv müxalifətin mahiyyətini, anatomiyasını, fəaliyyətinin istiqamətini, məqsədlərini, müxalifət liderlərini fəaliyyətə sövq edən amilləri aşkarlayır və bunu elm adamlarının qarşısında bir vəzifə kimi qoyur. Əsərdə bu məsələlər çox geniş şəkildə araşdırılıb. İkincisi, Ramiz müəllim qeyd edir ki, müasir Azərbaycan cəmiyyətinin siyasi sisteminin və partiyalarının təsnifatı verilməyib. Doğrudan da belədir. Politologiya fənni Azərbaycanda, demək olar ki, bütün ali tədris ocaqların da tədris olunur, amma ölkəmizin siyasi sistemi haqqında heç bir elmi nəzəriyyə yoxdur.

Müxalifət hökmən lazımdır, bu, bütün cəmiyyətlər üçün zəruridir. Amma söhbət o müxalifətdən gedir ki, ümumi dövlətçiliyin inkişafına kömək etsin, cəmiyyətə mütərəqqi ideyalar versin. Milli dövlətçiliyimizin və müstəqilliyimizin qorunması məsələsində iqtidar-müxalifət ola bilməz! Hesab edirəm ki, yeni müxalifətin formalaşması məsələsi ilə bağlı burada deyilənlər tamamilə əsaslı fikirlərdir. Ən çətin problemlərdən biri demokratiyanın inkişafı ilə bağlıdır. Demokratiya çətin mərhələlərdən keçib

və keçməlidir də. Demokratiyanın beşiyi sayılan ABŞ bu mərhələni 200 ilə keçib, amma orada da hələ hər şey ideal deyil.

Fikrimi yekunlaşdıraraq demək istəyirəm ki, R.Mehdiyevin əsəri çox vaxtında yazılmış bir tədqiqat əsəridir. Çox yüksək dəyərləndirilməlidir ki, Ramiz müəllim heç bir emosiyaya qapılmadan sakit və təmkinli şəkildə, məntiqi və faktlara əsaslanan fikirlər söyləyib.

***Vəli Həbiboğlu:***

Azərbaycanda milli dövlətçiliyin qorunub saxlanması və möhkəmləndirilməsi dünya şöhrətli siyasətçi, qüdrətli dövlət rəhbəri cənab Heydər Əliyevin böyük uzaqgörənliklə, məqsədyönlü şəkildə həyata keçirdiyi müdrik siyasətin sayəsində mümkün olmuşdur. Məhz onun rəhberliyi və yorulmaz fəaliyyəti nəticəsində müstəqil Azərbaycan Respublikası bu gün beynəlxalq aləmdə böyük nüfuz qazanmış, sivil dövlətlər sırasına çıxaraq ölkədə demokratik, hüquqi və dünyəvi dövlət qurmaq, vətəndaş cəmiyyəti yaratmaq yolunda mühüm uğurlar əldə etmişdir. Xüsusilə XXI əsrin başlanğıcında Azərbaycan Respublikasının Avropa Şurasına daxil olması, ölkəmizin parlament nümayəndə heyətinin rəhbəri İlham Əliyevin AŞPA sədrinin müavini və büro üzvü seçilməsi xalqımızın, milli dövlətçiliyimizin, müvəffəqiyyətlə həyata keçirilən xarici siyasətimizin böyük tarixi qələbəsi, nailiyyətidir.

Qeyd edək ki, bütün bu nailiyyətlər müxalifət dairələrinin haqsız narazılığı, əsassız iradları, qərəzli mövqeləri və pozuculuq fəaliyyətinə qarşı mübarizə şəraitində mümkün olmuşdur. Müxalifətin milli dövlətçiliyimizə zidd fəaliyyəti dəfələrlə ölkə başçısının çıxışlarında tənqid olunsa da, son vaxtlara qədər bu fəaliyyətin mahiyyəti və sosialsiyasi kökləri ayrıca olaraq geniş tədqiqat obyektinə çevrilməmiş, müstəqillik tariximizin inkişafı lazımınca tədqiq edilməmişdir.

Görkəmli filosof Ramiz Mehdiyevin "XXI əsrdə milli dövlətçilik: demokratik inkişaf və müxalifət" əsəri bu sahədə öz aktuallığı, dövrün siyasi mənzərəsini müxalifət dairələrinin fəaliyyəti fonunda tədqiq etməsi və milli dövləötçiliyimizə qarşı çevrilmiş bu pozucu, destruktiv fəaliyyəti konkret faktlar, misallarla obyektiv işıqlandırması ilə diqqəti cəlb edir.

Yüksək elminəzəri səviyyədə yazılmış bu əsərdə respublikamızda gedən geniş demokratik dövlət quruculuğu prosesi, demokratik inkişaf sahəsində vətəndaş cəmiyyətinə yol açan ideyalar sahəsində

qazanılmış böyük uğurlar həm dünyanın ümumi siyasi mənzərəsi fonunda nəzərdən keçirilir, həm də milli dövlətçiliyimizin möhkəmlənməsi nəticəsində həyata keçirilən vətəndaş hüquqlarının dolğun təminatı, siyasi inkişafımızın yeni mərhələsi kimi qiymətləndirilir.

Müasir Azərbaycan siyasi fikir tarixində ilk dəfə olaraq fəlsəfə elmləri doktoru Ramiz Mehdiyev müxalifətin fəaliyyətini məhz dövlətçilik mövqeyindən geniş təhlil edir, müxalifətin sosialsiyasi mahiyyətini bugünkü ictimai həyatımızın reallığı baxımından zəngin faktlar və misallar əsasında araşdırır, onun milli dövlətçiliyimizin qarşısında duran başlıca və ümdə mənafelərdən xəbərsiz olduğunu, dağıdıcılıq, cəmiyyətə zidd fəaliyyət mövqeyində dayandığmı açıq göstərir.

Müxalifətdaxili çəkişmələr, qarşıdurmalar, intriqalar, davakarlıq, pozuculuq psixologiyasının gündəlik fəaliyyət normasına, həyat tərzinə çevrilməsi müxalifətin siyasi meydanda, cəmiyyətin siyasi həyatında mövqeyi haqqında aydın təsəvvür yaradır. Fikrimcə, müxalifətin fəaliyyəti onu təmsil edən şəxslərin fərdi psixologiyasından, səriştəsizliyindən, ölkənin, milli dövlətin mənafeyini, gələcəyini düşünmək əvəzinə şəxsi maraqlarını, siyasi ambisiyalarını təmin etmək məqsədilə atdığı səhv addımlardan irəli gəlir. Kütləvi tədbirlər keçirmək, əsassız qarşıdurmalar yaratmaq, iqtidarın ünvanına təhqiramiz fikirlər söyləmək Azərbaycan müxalifətinin pozuculuq fəaliyyətindən irəli gəlir və bu, xalqın, dövlətin mənafeyini ifadə edən əməllərə qarşı yönəlmişdir. Müxalifətin bu fəaliyyəti təkcə destruktiv mahiyyət daşımır, o həm də cəmiyyətdə təxribatçılıq məqsədi güdür. Bu mənada onım fəaliyyətini sivil dövlətlərdə mövcud olan müxalifətin fəaliyyəti ilə müqayisə etmək mümkün deyil. Xalqımız artıq müxalifətin mövqeyini düzgün dərk edir. Ona görə də müstəqil dövlətimizin mənafeyini düşünən insanlar müxalifətə inanmır, onun arxasmca getmir, bugünkü iqtidarın , dövlət başçısının ətrafında getdikcə daha sıx birləşir. Azərbaycan xalqı yaxşı bilir ki, bu müxalifət heç vaxt onun problemlərini həll etmək iqtidarında deyil, dövləti saxlamaq, inkişaf etdirmək və möhkəmləndirmək üçün bu müxalifətin səriştəsi, təcrübəsi, uzaqgörən siyasəti, sınanmış lideri, hamının mənafeyini təmin edən məqsədyönlü fəaliyyəti yoxdur! Ötən əsrin 90-cı illərinin əvvəlində xalqın vətənpərvərliyi, baş verən hadisələrin, milli faciələrin təsiri altında hakimiyyət başına gələn indiki müxalifətin ölkəni idarə edə bilməməsi, müstəqilliyimizi

məhv olmaq təhlükəsi qarşısında qoyması, torpaqlarımızın işğalı, həmin iqtidarın cəmiyyətə, dövlətə zidd fəaliyyəti heç də xalqın yaddaşından silinməmişdir. Bu gün yeni seçki kampaniyasının başlanması ərəfəsində müxalifətin pozuculuq fəaliyyətini köhnə şəkildə davam etdirməsi çox gülünc görünür. Onun əməli bütün vətəndaşlara, hətta xarici ölkələrdə Azərbaycanda gedən prosesləri izləyən müəyyən siyasi qüvvələrə də yaxşı tanışdır.

Azərbaycan dövlətinin keçdiyi tarixi inkişaf yolunu müxalifətin mövqeyi, pozucu fəaliyyəti ilə müqayisəli şəkildə təhlil edən professor Ramiz Mehdiyev çox zəngin materiallara, faktlara istinad edərək müxalifətin ayrı-ayrı rəhbərlərinin fəaliyyətini yüksək elmi-nəzəri ümumiləşdirmələr aparınaqla gözümüz önündə bütün dolğunluğu ilə canlandırır, Azərbaycanın sivil dünyaya qovuşmasını düşünən həmvətənlərimizin arzusunu ifadə edir.

Tecrübə göstərir ki, sağlam müxalifət ölkənin qarşısında duran problemlərin həllində iqtidarda olan qüvvələrlə eyni mövqedən çıxış edir. Çünki hər ikisini dövlətçilik maraqları düşündürür. Təəssüf ki, Azərbaycan müxalifəti bu mövqedən çox uzaqdır. Müxalifətin başçıları çox vaxt hətta düşmən qüvvələrlə bir cəbhədən çıxış edir, Azərbaycanın dövlətçilik maraqlarına qarşı dayanırlar. Öz ətrafında ayrı-ayrı narazı qüvvələri, vəzifədən çıxarılmış şəxsləri, düşmən dəyirmanına su tökən dairələri birləşdirən müxalifətin bugünkü aqressiv mövqeyi xalqımızı təmin edə bilməz.

Xalqımız bundan sonra da Heydər Əliyev kimi güclü siyasi liderin ətrafında sıx birləşəcəkdir.

***Etibar Nəcəfov:***

Tamamilə doğru deyildi ki, Ramiz Mehdiyevin əsəri sanballı elmitədqiqat araşdırmasıdır. Milli dövlətçilik .və demokratik inkişaf arasında münasibətlər problemini biz müəyyən cəhətdən mədəniyyət və sivilizasiya arasında münasibətlə müqayisə edə bilərik. Yəni milli dövlətçilik dedikdə milli mədəniyyətimizin dəyərlərinin saxlanmasından, inkişafından söhbət açılır. Demokratik inkişaf dedikdə yeni dəyərlərdən, ilk növbədə ölkəmizdə əsasən 1993-cü ildən sonra mütəmadi və sistemli, şekildə formalaşan dəyərlərdən danışırıq. Sovet ideologiyasında hakim olan "Xalqların

tarixi siniflər arasında mübarizə tarixidir" ideyası özünü doğrultmadı. Xalqların tarixinə siniflərin mübarizəsi kimi yox, onların milli azadlıq uğranda mübarizə tarixi kimi baxılmalıdır. Xalqımız əsrlər boyu əsarətdə olmuşdur. Ona görə Azərbaycan xalqının tarixinə milli azadlıq uğrunda mübarizə tarixi kimi yanaşmalıyıq.

Milli dövlətçilik anlayışı milli azadlıq uğrunda mübarizədən bəhrələnir. İnkişaf etmiş Qərb dövlətləri səviyyəsinə çatmaq problemi müsəlman dövlətlərində tarixən mövcud olmuşdur. Ramiz Mehdiyevin əsəri də həmin problemin indiki durumumuzda vacibliyini göstərir. Professor Ramiz Mehdiyev abstrakt fəlsəfi fikir yeritmir, öz fikirlərini, Heydər Əliyevin yenidən hakimiyyətə gəlişindən sonra tarixi inkişaf yolunu təhlil edərək dolğun şəkildə açır. Nailiyyətlərimiz nəinki müxalifət tərəfindən, hətta bəzən bizi istəməyən Qərb politoloqları tərəfindən də inkar edilir. Bəzi Qərb alimləri ermənipərəst mövqe tutaraq Azərbaycan cəmiyyətinin demokratiya uğrunda addımlarını, nailiyyətlərini inkar etməyə çalışır, demokratik cəmiyyətin qurulmasında böyük problemlər olduğunu qeyd edirlər. Mən ilk növbədə Amerika politoloqu Samuel Hantinqtonu misal çəkmək istəyirəm. O, sivilizasiyaların toqquşması və yeni dünya qaydalarının qurulması haqqında məşhur kitabında postkommunist ölkələrinin sosial-iqtisadi inkişafını proqnozlaşdırarkən qeyd edir ki, Qərbi Avropa ölkələri demokratiya əldə edə biləcəklər, onların sosial-iqtisadi inkişafmda elə bir problem olmayacaq. Lakin islam ölkələrində bu, mümkün olmayacaq. Alim fikrini onunla əsaslandırır ki, islamda din və dövlət birbiriylə sıx bağlıdır. Din siyasi işlərə bilavasitə müdaxilə edir və mədəniyyətin tərkib hissəsidir. Mədəniyyət çox konservativ bir hadisədir, onun dəyişmesi qeyri-mümkündür. Ona görə də müsəlman ölkələrində demokratiyanın perspektivi çox mürəkkəbdir. O bu fikrini digər əsərində inkişaf etdirərək söyləyir ki, Qərbi Avropa dövlətləri, ilk növbədə ABŞ yeni müstəqillik əldə etmiş ölkələrə demokratiya sahəsində kömək etməməlidir.

Fikrimcə, filosofların məqsədi təkcə müxalifətin mövqeyini inkar etməkdən ibarət olmamalıdır, çünki müxalifətin fəaliyyətinin nezəri əsasları yoxdur. Müxalifət əsasən öz fikrini qeyrikonstruktiv yolla qəbul etdirməyə çalışır. Amma Hantinqton kimi Qərb tədqiqatçılarının fikirlərinə ciddi yanaşmaq lazımdır. Biz Hantinqtonun fikirlərini demokratiya sahəsində qazandığımız nailiyyətlərlə tamamilə təkzib edərək sübut edirik ki,

Azərbaycan mədəniyyətcə müsəlman ölkəsi olsa da, demokratiyaya çox uğurla qədəm qoymuşdur və burada demokratiya inkişaf etməkdədir. Ramiz Mehdiyevin əsəri bu baxımdan da çox aktualdır.

**Vüqar Səlimov:**

Azərbaycanın milli dövlətçiliyini formalaşdırmaq, bu yolda qarşıya çıxan problemlərin səmərəli həlli yollarını axtarıb tapmaq siyasi hakimiyyətin ümdə vəzifələrindən biridir. Ötən dövr ərzində bu istiqamətdə xalqımızın ümummilli lideri Prezident Heydər Əliyevin apardığı müdrik siyasət nəticəsində böyük tarixi nailiyyətlər əldə edilmişdir. Azərbaycanda demokratik prinsiplərə və dəyərlərə əsaslanan milli dövlətçilik bərqərar olunmuşdur. Sözsüz ki, bu cür tarixi uğurlara aparan yolların araşdırılaraq ictimai fikrə çatdırılması, dövlətin apardığı siyasi kursun mahiyyətinin vətəndaşlar tərəfindən dərk olunmasında alimlərimizin üzərinə mühüm vəzifələr düşür. Bu baxımdan fəlsəfə elmləri doktoru Ramiz Mehdiyevin yeni əsəri Azərbaycanın ictimai-siyasi gerçəkliyinə, milli dövlətçiliyimizin yaradılması məsələsinə alim, ziyalı münasibətinin göstəricisidir.

Əsərdə Azərbaycanın milli dövlətçiliyi, onun formalaşması və inkişafı ilə bağlı irəli sürülən elmi mülahizələrin dəyərini artıran cəhətlərdən biri milli dövlətçilik məsələsinə müasir dünyada gedən qloballaşma prosesi kontekstindən yanaşılmasıdır. Qloballaşma və milli dövlətçilik kimi proseslərin bəzən ziddiyyətlə qarşılaşması barədə söhbət açan R.Mehdiyev müasir dünyanın reallıqların dan çıxış , edərək dəqiq müəyyənləşdirilmiş dövlət sərhədləri çərçivəsində milli dövlətçiliyin inkişafını əsas atribut sayılmadığını göstərir. Müəllif milli dövlətçiliyin vahid məqsəd uğrunda dövləti möhkəmləndirmək, iqtisadiyyatı modernləşdirmək və gələcək nəsillər üçün daha mükəmməl şərait yaratmaq naminə bütün millətin, cəmiyyətin, hər bir fərdin çalışmalı olduğunu bildirir.

Milli dövlətçiliyin fundamental əsaslarının müəyyənləşməsi cəmiyyətin sosial strukturunun xarakteri ilə üzvi şəkildə bağlıdır. Bu amil milli dövlətçiliyin formalaşmasında həlledici rol oynayır. Cəmiyyətin "açıq" və yaxud "qapalı" xarakter daşıması bütövlükdə ictimai-siyasi, iqtisadi münasibətlərin, idarəetmə metodlarının müəyyən dəyərlər əsasında formalaş

masına mühüm təsir göstərir. Qloballaşma prosesinin, onun milli dövlətçiliyinin siyasi, iqtisadi, sosial, mənəvi əsaslarının müəyyənləşməsinin özülündə "açıq cəmiyyət" ideyası dayanır. Bu ideya iqtisadiyyatda, siyasətdə, mədəniyyətdə plüralizmin mövcud olması, vətəndaş cəmiyyətinin və hüquqi dövlətin inkişaf etmiş strukturlarının təşəkkül tapması ilə səciyyələnən demokratik cəmiyyəti ifadə edir. Son nəticədə ən yaxşı ictimai quruluşun yaradılmasını və sosial ədalətin bərqərar olunmasını nəzərdə tutan "açıq cəmiyyətin" müəllifliyi görkəmli ingilis alimi Karl Popperə məxsus olan eqalitar yolu və fransız filosofu Anri Berqsonun adı ilə bağlı olan elitar istiqamət qloballaşma prosesinin və demokratik milli dövlətçiliyin təməl prinsiplərini təşkil edir. Fəlsəfə elmləri doktoru Ramiz Mehdiyev XXI əsrin 40-cı illərində qloballaşmanm gələcək ideoloqlarının "açıq cəmiyyət" ideyalarının müasir dövrdə reallaşaraq ümumdünya inteqrasiya proseslərində fərdin sosial simasının dünya nizamının geostrategiyasını dəyişən proseslərdə öz əksini tapdığını bildirir. Professor Ramiz Mehdiyevin əsərində bugünkü Azərbaycan müxalifətinin anatomiyası, onun ictimai şüuru informasion-psixoloji manipulyasiyalara məruz qoymaq cəhdləri sistemli şəkildə təhlil olunur. Müəllif hazırkı müxalifətin xalqdan ayrı düşdüyünü bildirməklə Azərbaycan cəmiyyətinin normal, ölkədə gedən ictimai-siyasi proseslərə konstruktiv mövqedən yanaşan müxalifətə ehtiyacı olduğunu qeyd edir.

Azərbaycan gəncliyinin üzərinə xalqımızın ümummilli lideri Heydər Əliyevin milli dövlətçiliyimizin möhkəmləndirilməsi istiqamətində apardığı siyasətin dərk olunaraq təbliğ edilməsində və onların siyasi şüurunda əsaslı yer tutmasında mühüm vəzifələr düşür. Düşünürəm ki, gənclərimiz Azərbaycanın müstəqil dövlətçiliyinə, onun demokratik inkişafına həsr olunan bu dəyərli əsəri öyrənməklə Azərbaycanın ictimai-siyasi gerçəkliyi milli dövlətçiliyimizin formalaşması yolları barədə dolğun təsəvvürə və biliklərə yiyələnəcəklər.

***Səlahəddin Xəlilov:***

Müzakirənin əhəmiyyəti onda oldu ki, burada elmi mövqe ilə siyasi mövqeyin uzlaşmasını gördük. Fəlsəfi araşdırmaların mövqeyindən dövlətçiliyə və Azərbaycanda müasir ictimai-siyasi proseslərə obyektiv münasibət bildirmək istədik. Bu zaman bizim mövqeyimiz əsasən iqtidarın

mövqeyi ilə üstüstə düşdü və biz burada Heydər Əliyevin ideyalarını və Ramiz Mehdiyevin əsərini dəstəklədik. Elmi yanaşma məhz buradadır. Sadəcə, hakimiyyət iddiasının ortaya qoyulması, onun arxasında heç bir elmi araşdırmanın olmaması müxalifət dairələrinin mövqeyindəki destruktivliyi şərtləndirən əsas göstəricidir. Çox vacib məqamdır ki, biz dövlətçilikdən danışarkən etnik milli anlayışdan milli siyasi anlayışı fərqləndiririk. Çünki biz milli dövlətçilik deyəndə heç də etnik millətçiliyi nəzərdə tutmuruq və ya hansısa monomillətdən, etnik qrupların, çoxluqla azlığın münasibətindən danışmırıq. Millilik deyəndə biz millisiyasi mənafedən çıxış edirik. Milli dövlət deyəndə məhz dövlət anlayışının sinonimini nəzərdə tuturuq. Bu mənada milli maraqla dövlət marağı adekvat anlayışdır. Doğrudan da qloballaşma prosesi ilə milli dövlətin maraqları arasında müəyyən fərqlər var və bu, qaçılmazdır.

Müxalifətin tərkibində çox müxtəlif və tam fərqli mövqedən çıxış edən simalar var. Onların bir qismi məhz etnik şüarlar zəminində siyasi arenaya daxil olublar və dövlətçiliklə bağlı çıxışların da da çox vaxt milli siyasi mövqedən yox, məhz etnik milli mövqedən çıxış edirlər. İndinin özündə də onların arqumentləri etnik milli məqamlara söykənir və Ramiz Mehdiyevin bu məsələnin şərhində terminlərin aydınlaşmasına gətirdiyi xidmət o mənada da dəyərlidir ki, biz siyasətdə ideyaların bilərəkdən, ya bilməyərəkdən qarışıq salmmasına, onlarla manipulyasiya edilməsinə yol verməməliyik. Yeri gəlmişkən, etnik milli müstəvidə təkcə müxtəlif siyasi partiyalar yox, qeyrihökumət təşkilatları da çox fəal rol oynayır və onların xaricdə olan siyasi düşmənlərimizin dəyirmanına su tökməsi halları vardır. Xaricdə erməni mövqeli, antiislam və ya antiazərbaycan mövqeli qüvvələr var ki, onların da elmipolitoloji mövqeləri formalaşıb, hətta mövqelərini psevdoelmi səviyyədə strukturlaşdırıblar. Onların maliyyə imkanları olduğu üçün beynəlxalq maliyyə fondları yaradıblar, milli dövlətlərdə onların maraqlarına xidmət edən qüvvələrə maliyyə dəstəyi verirlər, qrantlar ayırırlar.

Alimlərin, politoloqların üzərinə belə bir məsuliyyət düşür ki, təkcə Azərbaycanda müxalifətyönlü mətbuatda və başqa yerlərdə səslənən fikirlərə qarşı yox, onların ideya qaynaqları olan və xaricdən gələn məxəzlərə də öz münasibətimizi bildirməliyik və bu sahədə tədqiqatlar apararaq həmin ideyaları elə yuvasındaca təkzib edə bilərik. Bu mənada da nümunəni

Ramiz Mehdiyev göstərir və biz filosoflar hamımız bu sahədə tədqiqatlar aparmalıyıq. Sevinirəm ki, söhbətimiz məhz elmi zəmində getdi. Biz alimlərin üzərinə düşən vəzifələrdən biri həm Qərbdə olan müasir ideyaların tədqiqat obyektinə çevrilməsini, həm də onların Azərbaycan reallıqları ilə əlaqələndirilməsini təmin etməkdir. Bunu biz özümüz etməsək, insanlar professional şəkildə edə bilməzlər, onlar çox vaxt səhvə yol verə bilərlər. Onda sadə şəkildə deyilmiş şüarlar kütləni daha çox öz arxasınca apara bilər, nəinki kütləvi şüurda çətin həzm edilən sxolastik fikirlərdən ibarət dərsliklər. Dərsliklərin də, elmi kütləvi ədəbiyyatın da qarşısında belə bir vəzifə durur ki, biz ictimai şüurun, siyasi təfəkkürün, siyasi mədəniyyətin inkişafı istiqamətində hərtərəfli işlər aparaq. Onda biz dediyimiz konstruktiv müxalifət öz-özünə yaranacaq, iqtidarın da məqsədyönlü və şüurlu surətdə dəstəklənməsi və onların həqiqi elmi mövqedən çıxış etdiyi göz qabağında olacaq. Destruktiv müxalifətin sosial bazası, Ramiz müəllimin də məqaləsində deyildiyi kimi, hakimiyyət iddiasmda olan bəzi adamlar və onun qohuməqrəbasından, başqa tərəfdən, özləri korrupsiyaya uyduğuna görə vəzifədən uzaqlaşdırılmış şəxslər, digər tərəfdən, indi iqtidarda olan bəzi məmurların nöqsanları nəticəsində yaranan narazılıq halları sayəsində formalaşan narazı qüvvələrdir. İş orasındadır ki, heç bir hakimiyyət tam qüsursuz işləyə bilməz və qüsurların olması təbiidir. Onların vaxtıda aradan qaldırılması və ortaya çıxma səbəblərinin izah olunması da bilavasitə bizim vəzifəmizdir. Çünki bu olmasa, həmin qüsurlar bütövlükdə iqtidarın mövqeyi kimi təqdim oluna bilər. Digər tərəfdən, ictimai şüurun yüksəldilməsi istiqamətində müəyyən işlər görülməlidir ki, sağlam müxalifətin formalaşması prosesi baş versin. Biz alimlər öz tədqiqatlarımızla, müzakirələrimizlə qarşımıza iqtidara xidmət etmək məqsədi qoymuruq, məhz sağlam müxalifətin yaranması üçün zəmin hazırlayırıq.

***Bəxtiyar Sadıqov:***

Müzakirələrdə fəal iştirakınıza, bu əsərin konseptual və ideoloji kontekstdə təhlilinə görə "Dəyirmi masa"da iştirak edən alimlərə təşəkkür edirəm. Jurnalistlər adətən cəmiyyətdə, həyatda baş verən hadisələrin təsvirini verirlər. Bu da qəzetin, kütləvi informasiya vasitəsinin qarşısında duran əsas vəzifədən insanların informasiyaya olan ehtiyacını ödəmək

vəzifəsindən irəli gəlir. Amma bugünkü "Dəyirmi masa"mız bir daha sübut etdi ki, yalnız təsvirlərə yox, ciddi təhlillərə, geniş elmi araşdırmalara da böyük ehtiyac var. Burada çox qiymətli fikirlər söylənildi və söylənilən hər bir fikir yeni bir "Dəyirmi masa"nın mövzusu ola bilər. Çünki cəmiyyətin özünün daxilində o qədər cavablandırılası suallar var ki, onların hər biri ətrafında geniş diskussiyalar aparmaq vacibdir. Hesab edirəm ki, bu cür müzakirələrin davam etdirilməsi zəruridir. Mənə elə gəlir ki, bu əsər kitab şəklində çap edildikdən sonra növbəti dəfədə belə maraqlı diskussiya təşkil edə biləcəyik.

**"AZƏRBAYCAN"**
*3 aprel, 2003*

# AZƏRBAYCAN MÜXALİFƏTİNİN KEYFİYYƏTCƏ YENİLƏŞMƏSİNƏ BÖYÜK EHTİYAC VAR

***Sağlam müxalifət, əslində, milli dövlətçiliyin möhkəmlənməsinə, demokratik inkişafa xidmət edir***

XX əsrdə Azərbaycan xalqının əldə etdiyi ən böyük nailiyyətlərdən biri müstəqilliyin qazanılması, suveren dövlətin yaradılması olmuşdur. Müxtəlif vaxtlarda bu istiqamətdə aparılmış azadlıq mübarizəsi tam uğurla başa çatmasa da, xalqın başına xeyli müsibət və faciə gətirilsə də, qədim və zəngin tarixə, mədəniyyətə malik Azərbaycanımızda insanların qəlbində azadlıq şöləsi heç vaxt sönməmişdir. Məhz bu şölə bütün xalqımızm qəlbində azadlıq eşqini daha da alovlandırmış, ona dayaq olmuş, qurub-yaratmağa sövq etmiş, yaxın gələcəkdə müstəqil dövlətin yaradılacağına dərin inam hissini möhkəmləndirmişdir.

Keçən əsrin 80-ci illərinin axırların da Ermənistandan azərbaycanlıların zorla, vəhşicəsinə qovulması ilə əlaqədar Azərbaycanda milli-azadlıq hərəkatının başlaması və bütün xalqın bu hərəkatda haqsızlığa, başımıza açılmış faciələrə görə mütəşəkkil bir qüvvəyə çevrilməsi hamımızda belə bir fikir yaratmışdı ki, müstəqil dövlətin yaradılması istiqamətində mühüm addımların atılması üçün zəruri şərait yetişmişdir. Xalqın uzun illər boyu formalaşmış və yaddaşında möhkəmlənmiş bu arzusunu, müstəqil dövlət yaratmaq idealını həyata keçirməkdən ötrü mövcud vəziyyətdən, şəraitdən ustalıqla, səmərəli istifadə etmək lazım idi. 1990-cı ilin Yanvar faciəsi bu istəyi daha da gücləndirdi.

Bir tərəfdən Ermənistan Respublikasının Azərbaycana qarşı təcavüzkarlıq siyasətini yeritməsi, torpaqlarımızın işğalı, soydaşlarımızın qaçqına çevrilməsi, ölkədə yaranmış ağır sosial-iqtisadi vəziyyət, digər tərəfdən isə sovet dövlətinin çürüyərək məhv olması, dağılması müstəqil respublikaların xaotik şəkildə yaradılmasına səbəb oldu. Belə bir şəraitdə yaranan Azərbaycan Respublikasında siyasətdə təsadüfı sayılan şəxslər hakimiyyətə gələrək milli dövlətçiliyimizi nəinki möhkəmləndirə bilmədilər,

onun varlığını təhlükə altında qoydular, öz səriştəsizlikləri nəticəsində respublikanı elə bir vəziyyətə saldılar ki, sonralar ölkənin sosial-iqtisadi vəziyyətini düzəltmək, yaxşılaşdırmaq üçün xeyli vaxt tələb olundu. Özlərini "demokrat" adlandıran bir qrup şəxsin hakimiyyət başına gələrək ölkədə görünməmiş xaos vəziyyəti yaratması milli dövlətçiliyimizi "olum, ya ölüm" sualı qarşısında qoymuşdu. Xalq çaşqın vəziyyətə düşmüşdü, hara, kimin arxasınca gedəcəyini bilmirdi. AXC-Müsavat cütlüyü ölkəni idarə edə bilmirdi. Torpaqlarımızın işğala məruz qaldığı, qaçqınların sayının durmadan artdığı, ölkədə sosial-iqtisadi vəziyyətin getdikcə daha da dözülməz olduğu, qarşıdurma, vətəndaş müharibəsi təhlükəsinin yarandığı bir şəraitdə Azərbaycan xalqı böyük dövlətçilik təcrübəsinə malik, qüdrətli siyasətçi cənab Heydər Əliyevi ikinci dəfə hakimiyyətə gətirdi, müstəqilliyin, vətənin taleyini ona həvalə etdi. Bu gün keçilmiş yola dövlətçilik sahəsində qazandığımız zirvədən baxdıqda həm müstəqilliyimizin ilk dövründə hakimiyyət başında olan AXC-Müsavat cütlüyünün yarıtmaz fəaliyyəti, xalqın, ölkənin başına gətirdikləri müsibətlər, faciələr, həm də onların bu yarıtmaz fəaliyyəti nəticəsində ölkənin ağır sosial-iqtisadi vəziyyətini, dövrün ortaya atdığı bir çox problemləri öz müdrik və meqsədyönlü siyasəti ilə həll edən, dövlətçiliyimizi məhv olmaqdan xilas edərək onu möhkəmləndirən, beynəlxalq aləmdə nüfuzunu artıran, müstəqilliyimizi dönməz edən, xalqın sosial vəziyyətini yaxşılaşdırmaq siyasətini uğurla həyata keçirən, ən başlıcası, insanlarda dövlətə, onun rəhbərinə inam hissini artıran, beynəlxalq aləmdə sülhün, tərəqqinin, təhlükəsizliyin carçısı kimi tanınan möhtərəm Prezidentimizin gördüyü bütün işlər gözümüz önündə canlanır. Çox vaxt bu haqda düşündükdə adama elə gəlir ki, müstəqilliyimizin ilk dövründə hakimiyyətdə olan bu şəxslər ölkədə yaratdıqları bu yarıtmaz vəziyyətə, müstəqilliyimizi məhv olmaq təhlükəsi qarşısında qoyduqlarına, dövləti idarə edə bilmədiklərinə, ölkənin ən ağır vaxtında belə tutduqları vəzifəni qoyub qaçdıqlarına görə peşmançılıq keçirəcəklər.

Çox təəssüf ki, özlərini müxalifət adlandıran bu hakimiyyət hərisləri öz səhvlərini görmədilər, müstəqilliyimizin, dövlətin, xalqın başına açdıqları oyunlardan xəcalət çəkmədilər, yenidən hakimiyyətə gəlmək uğrunda "siyasi mübarizəyə" qoşuldular. Əslində, onların bu mübarizəsi heç də

mütərəqqi, demokratiyanın qarşıya qoyduğu tələblər səviyyəsində həyata keçirilən mübarizə deyil! Bu mübarizə ölkədə sabitliyin pozulmasına, müstəqilliyin möhkəmlənməsi prosesinin zəifləməsinə xidmət edən dağıdıcı, pozucu məqsəd daşıyan bir hərəkətdir. Belə mübarizə dövlətin inkişafına xidmət etmir, ayrı-ayrı məhdud qüvvələrin mənafeyini, fəaliyyətini əks etdirir. Fəlsəfə elmləri doktoru Ramiz Mehdiyev "XXI əsrdə milli dövlətçilik: demokratik inkişaf və müxalifət" əsərində məhz bu mühüm məsələləri dərin elminəzəri səviyyədə təhlil edir, destruktiv müxalifət qüvvələrinin bugünkü real həyatımızda mövqelərini, rolunu açıb göstərir. Özlərini "milli dövlətçilik uğrunda mübariz" adlandıran müxalifət qüvvələrinə onun aşağıdakı fikrini xatırlatmaq yerinə düşər. Professor Ramiz Mehdiyev yazır: "Milli dövlətçilik vahid məqsəd uğrunda dövləti möhkəmləndirmək, iqtisadiyyatı modernləşdiraıək və gələcək nəsillər üçün daha mükəmməl şərait yaratmaq naminə bütün millətin, bütün cəmiyyətin birliyinin rəmzidir".

Bu birlik olmasa, milli dövlətçiliyimizi möhkəmləndirmək, ölkənin qarşısında duran mühüm problemləri yekdil həll etmək sahəsində hər bir xalq, dövlət bir sıra çətinliklərlə qarşılaşa bilər. Tarixi təcrübə sübut edir ki, dövlət o zaman qüdrətli, güclü olur ki, ölkədə yaşayan bütün xalqlar, millətlər, siyasi qüvvələr dövlətin inkişafına xidmət etsinlər, dövlətin mənafeyi naminə siyasi mütəşəkkillik göstərsinlər.

Bugünkü Azərbaycan reallığmda biz, çox təəssüf ki, başqa bir mənzərə ilə qarşılaşırıq. Müxalifət milli dövlətçiliyin inkişafına və möhkəmlənməsinə xidmət edən fəaliyyəti belə bəyənmir, ağına-bozuna baxmadan bu istiqamətdə görülmüş işləri tənqid hədəfinə tutur, səriştəsiz, təcrübəsiz insanlarda yanlış təsəvvür yaradır.

Müxalifətin bu mövqeyi bizi heç də təəccübləndirmir, çünki özlərini müxalifət adlandıranların sosial tərkibi, qarşılarına qoyduqları məqsədin mahiyyəti tam aydındır. Onları milli dövlətçiliyin inkişafıdan və möhkəmlənməsindən daha çox nəyin bahasına olursa-olsun yenidən hakimiyyətə gəlmək maraqlandırır. Ona görə də müxalifət sağlam, dövlətin inkişafına, mənafeyinə xidmət edən prinsiplər əvəzinə dağıdıcılıq fəaliyyəti ilə məşğul olur, cəmiyyətdə pozuculuq işinə üstünlük verir. Bir dəfə hakimiyyətdə olub milli dövlətçiliyi uçuruma yuvarladan, xalqı görünməmiş

faciələr, problemlər qarşısında qoyan, yaranmış ağır siyasi və sosial-iqtisadi vəziyyəti həll etmək iqtidarın da olmayan indiki müxalifət qüvvələri törətdikləri cinayətlərdən, xalqın, milli dövlətin başına gətirdikləri müsibətlərdən dərs almayaraq, nəticə çıxarınayaraq yenidən siyasət meydanında "fəallıq" göstərməyə çalışırlar.

Müxalifətin sosial tərkibinə nəzər salsaq, burada hakimiyyətdən uzaqlaşdırılmış, yarıtmaz fəaliyyətlərinə görə müxtəlif vəzifələrdən çıxarılmış, təcrübəsiz, səriştəsiz, siyasətdən, dövləti idarə etmək prinsiplərindən başı çıxmayan, yalnız şəxsi siyasi ambisiyalarına xidmət etməyi qarşısına məqsəd qoyan, bu və ya digər səbəblərə görə cəmiyyətdən, ayrı-ayrı vəzifəli şəxslərdən narazı olan insanlara rast gəlmək mümkündür. Özlərini müxalifət adlandıran bu qüvvələr, çox teəssüf ki, ölkədə dövlətçiliyin möhkəmləndirilməsi istiqamətində aparılan böyük işi görməyərək, qiymətləndirməyərək daxili və xarici siyasətdə qazanılmış uğurların daha da genişlənməsində iştirak etməyərək siyasi kampaniyalarda xal toplamaq ümidi ilə yenidən siyasi meydanda öz "fəallıqlarını" artırır, xalqa müxtəlif vədlər verir, iqtidarın həyata keçirdiyi hər nə varsa, ağına-bozuna baxmadan onu təftiş etməyə, özlərinin siyasi ambisiyalarına sərf edən qeyriobyektiv mülahizələr yürütməyə başlayırlar. Müxalifətin bu mövqeyini Ramiz Mehdiyev əsərdə çox düzgün qiymətləndirərək yazır: "Barışmaz, ifrat radikal müxalifətin mövqeyini əvvəldən anlamaq mümkün idi. Çünki o, hakimiyyət tərəfindən həyata keçirilən bütün tədbirlərə, hətta xalqın və ölkənin rifahı və firavanlığı üçün böyük əhəmiyyətə malik olan taleyüklü siyasi və iqtisadi tədbirlərə daim mənfi təsir bildirir".

Müxalifətin bu fəaliyyətini, aqressiv mövqeyini xalq 24 avqust referendumunda görmüşdür. Prezident seçkiləri qabağı müxalifət yenidən öz "fəallığını" artırmış, ifrat radikal mövqeyini gücləndirmişdir.

Hakimiyyətə sivil yol ilə gəlmək əvəzinə aqressiv mövqedə çıxış edən, cəmiyyətdə destruktiv fəaliyyəti ilə çaxnaşma, qarışıqlıq salmağa, sabitliyi pozmağa çalışan müxalifət qüvvələri bir mühüm cəhəti, sınaqlardan çıxmış başlıca amili unudurlar ki, xalq onların ardınca getmir, hər şeyi görüb aydın dərk edir, nəticə çıxarır, milli dövlətçiliyimizin mənafeyini hər şeydən uca tutur. Xalq kimin kim olduğunu, nə ilə nəfəs aldığını yaxşı bilir. İndiki müxalifət başçılarının ölkənin başına açdıqları oyunları,

qarşılaşdıqları faciələri xalq hələ unutmayıb. Özlərini "bəy" adlandıran bu başabəla siyasətçilər bir vətəndaş kimi dövlətin ali məqsədlərinə xidmət etmək, müxtəlif problemlərin həllində sağlam mövqedən iştirak etmək əvəzinə, bəzən düşmənlərimiz, əleyhdarlarımızla bir mövqedən çıxış edirlər, onların dəyirmanına su tökərək milli dövlətçiliyimizdə aparılan geniş quruculuq işlərinin üzərinə kölgə salmağa çalışırlar. Şübhəsiz ki, bu fəaliyyət müxalifətin ifrat radikal mövqeyindən irəli gəlir, onlar cəmiyyətdə, dövlət quruculuğu işində həyata keçirilən heç bir müsbət iş görməyərək cüzi, çox vaxt nəzərə çarpmayan qüsurları belə şişirtməyə, onlara siyasi don geydirməyə, hətta ölkənin taleyüklü problemləri ilə əlaqələndirməyə çalışırlar. Belə mövqe cəmiyyətimizdə həmişə narazılıqla qarşılanmış və bundan sonra da narazılıqla qarşılanacaqdır. Xalq artıq müxalifətin 90-cı illərin əvvəllərində siyasi oyunlara cəlb edilən xalq deyil, ağı qaradan, pisi yaxşıdan seçməyi, şəxsi mənafeyinin, siyasi ambisiyaların arxasında gizlənərək guya ictimai mənafe uğrunda mübarizə aparan qüvvələrin simasını düzgün görməyi və qiymətləndirməyi bacarır. Elə buna görə də müxalifətin təmsil olunduğu partiyaların, başqa qurumların mütəşəkkil qaydada ardınca getmir.

Xalq milli dövlətçiliyimizin inkişafı və möhkəmləndirilməsi istiqamətində ardıcıl, məqsədyönlü iş aparan, demokratik, hüquqi dövlət quruculuğu prosesində mühüm nailiyyətlerin qazanılmasında xüsusi rolu olan indiki iqtidarın qüdrətli siyasi liderini, zəmanəmizin ən böyük siyasət adamı hesab olunan cənab Heydər Əliyevin fəaliyyətini layiqincə qiymətləndirir və xalqımızı, müstəqilliyimizi, milli dövlətçiliyimizi məhv olmaq təhlükəsindən xilas edən böyük öndərin ardınca gedir.

Məgər müxalifət bunu görmür? Əlbəttə, yaxşı görür və layiqincə dərk edir. Amma çox təəssüf ki, öz köhnə vərdişindən, ağa qara ləkə salmaq ambisiyasından əl çəkmir. Müxalifətin bugünkü fəaliyyəti üzərində azçox fikirləşən hər bir ölkə vətəndaşına tam aydın olur ki, o, siyasi düşüncə, əqidə və pozuculuq fəaliyyəti etibarilə dövlətə, onun fəal məqsədinə xidmət etməyi qarşısına məqsəd qoymayıb. O, dövlətçilikdən başı çıxmayan müxtəlif peşə adamlarını yenidən hakimiyyətə gətirmək uğrunda mübarizə aparır. Bu niyyət davakarlıqla, cəmiyyətdə pozuculuq meylini artırmaqla həyata keçirilir ki, buna da yol vermək olmaz. Fəlsəfə elmləri doktoru

Ramiz Mehdiyevin haqqında danışdığımız əsərində müxalifətin bu xüsusiyyətləri çox gözəl təhlil olunmuş, xüsusilə davakar müxalifətin mövqeyi obyektivcəsinə göstərilmişdir. Həmin əsərdə oxuyuruq: "Qaraqışqırıq, hədəqorxular, lənətlər, söyüşlər, nifrət, dövlət başçısının şəxsiyyətinin təhqir olunması onların tədbir və mitinqləri bütün bunlardan ibarətdir, nəşr etdikləri qəzetlərin səhifələri bütün bunlarla doludur! Beləliklə, barışmaz ifrat radikal müxalifət öz mahiyyətinə və mənəvi-psixoloji vəziyyətinə görə nəinki pozucudur, həm də davakardır".

Xalq arasında hakimiyyətdə olan qüvvələrə, ölkə rəhbərinə qarşı nifrət hissini yaratmağa və artırmağa çalışan, mövcud sosial-iqtisadi vəziyyətdən düzgün nəticə çıxarmağı bacarmayan, hər şeyə ağlının gözü ilə yox, qaramın tələbatı ilə yanaşan insanların narazılıqlarından, kinküdurətindən öz məqsədlərini həyata keçirmək üçün istifadə edən ifrat radikalçılar qazanılmış uğurları, sabitliyi, demokratik dövlət quruculuğu prosesini, nəhayət, milli dövlətçiliyimizi yenidən məhv edə bilərlər. Düşmən həmişə bunun intizarındadır. Sadəcə olaraq, əlverişli şəraitin yaranmasını səbirsizliklə gözləyir.

Ölkədə prezident seçkilərinə hazırlıq ərəfəsində, İraqda koalisiya qüvvələrinin əməliyyatı və qələbəsi gedişində bəzi müxalifət qəzetlərində indiki iqtidara, xalqımızın qüdrətli oğlu Heydər Əliyevə qarşı irəli sürülən ittihamlar, kinküdurət əhvaliruhiyyəsinin yaradılması cəhdi onların bir daha mövqeyini, davakarlıq mənəviyyatı və psixologiyası ilə yaşamasım, pozuculuq fəaliyyətini nümayiş etdirir, xalqın, mütərəqqi qüvvələrin belələrinə qarşı qəzəb hissini gücləndirir.

Azərbaycanın dövlətçilik tarixində çox böyük yeri və rolu olan, dünyanın ən böyük dövlət rəhbərlərinin hesablaşdığı və fəaliyyətini yüksək qiymətləndirdiyi Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevə qarşı təhqiramiz fikirlərin ireli sürülməsi müxalifət qəzetlərinə, ayrı-ayrı jurnalistlərə heç də başucalığı gətimiır. Onların qərəzli mövqeyi, hərəkətləri insanları hiddətləndirir, yaramaz fəaliyyətləri, müstəqil dövlətçiliyimizə münasibətləri barədə təsəvvür yaradır.

Müxalifət qüvvələri çox vaxt belə fəaliyyətlərinə demokratiyanın nəticəsi kimi baxırlar. Ölkədə yaradılmış demokratik inkişafdan şəxsi məqsədləri üçün istifadə edən destruktiv müxalifət bəzən vətəndaşların müəyyən

təbəqələrini, xüsusilə gəncləri öz toruna salır, düz yoldan çıxarır, həyata keçirdikləri müxtəlif tədbirlərdə böyük məsuliyyətsizlik və itaətsizlik göstərərək demokratik dövlət quruculuğu prosesinə, ümumən dövlətçiliyimizin inkişafına ağır zərbələr vururlar. Əsərdə qeyd olunduğu kimi, müxalifət demokratiyanı hərcmerclik, məsuliyyətsizlik, xudbin planları həyata keçirməyə qadir olan bir qüvvə kimi derk edir. Onların məsuliyyətsizliyi həyat təcrübəsizliyinə, səriştəsizliyinə əsaslansa da, qarşılarına qoyduqları məqsəd, iştaha çox böyükdür və təhlükəlidir. İdarəetmə elmini bilməyən, dövlətin mənafeyinə yox, öz fərdi ambisiyalarına xidmət etməyə üstünlük verən, xalqın ümumi əhvaliruhiyyəsini nəzərə almayan, qulaq-ardına vuran, öz destruktiv fəaliyyətləri ilə dövlət quruculuğu prinsiplərinə və dövlətçiliyin möhkəmləndirilmesinə pozucu təsir göstərən bugünkü müxalifətin başlıca qayəsi hakimiyyətə zorla gəlməkdir. Ona görə də ölkə rəhbərliyinin həyata keçirdiyi bütün müsbət tədbirlərin mahiyyətində müxalifət nəsə dövlətəzidd, xalqazidd meyillər axtarır, çox vaxt siyasi səbatsızlığını nümayiş etdirir.

Demokratiya hərcmərclik deyil, böyük mədəniyyətdir. Onun öz inkişaf qanunauyğunluqları var. Bu qanunauyğunluqlardan kənara çıxdıqda demokratiya insanların, dövlətin inkişafına yox, demokratik ideallarıń, prinsiplərin buxovlanmasına, məhvinə gətirib çıxara bilər. Müstəqilliyimizin möhkəmləndiyi bir şəraitdə ölkədə çox ağır çətinliklər hesabına yaradılmış demokratik inkişafdan düzgün və səmərəli istifadə etmək hər bir vətəndaşm müqəddəs borcudur. Dövlətin menafeyinə laqeyd, etinasız münasibət, demokratik dövlət quruculuğu prosesində fəal iştirak etməmək, müxalifətin mövqeyinə münasibət bildirməmək, çox vaxt seyrçi mövqedə durmaq Azərbaycan vətəndaşlarına xas olan xüsusiyyət deyil. Çox təəssüf ki, cəmiyyətimizdə bele hallarla hələ də qarşılaşırıq. Bu ondan irəli gəlir ki, müxalifet öz pozucıluq fəaliyyəti ilə vətəndaşlar arasında daha geniş iş aparır, boş vədlər verir. Xalqa boğazdan yuxarı vədlər vermək, həyat səviyyəsini daha yaxşı təmin etməyə nail olacaqları barədə fikir söyləmək nağıl danışmağa bənzəyir. Ölkə əhalisi belə nağıllara çox qulaq asıb. Ötən əsrin 90-cı illərinin əvvəllərində bu gün özlərini "demokrat" adlandıranların bir qismi xalqın qarşısında çıxış edərkən boş, mənasız vədlər verərək onları belə bir fikirlə şirnikdirirdilər ki, guya Azərbaycan

müstəqillik qazandıqdan sonra onun ərazisi bir neçə santimetr qızıl təbəqəsi ilə örtülə bilər. Bu yalançı dil pəhləvanları bir cəhəti unudurdular ki, müstəqilliyi qazanmaqla iş bitmir. Onu qoruyub saxlamaq, inkişaf etdirmək, möhkəmləndirmək lazımdır. İqtisadiyyatı dağılmış, siyasi əlaqələri kəsilmiş, sosial-iqtisadi vəziyyəti ağır olan bir ölkəni müstəqillik yoluna qədəm qoymuş gənc bir dövləti qurmaq heç də asan məsələ deyil. Bu sahədə böyük təcrübə, sərişte, siyasi uzaqgörənlik, yüksək ağıllı diplomatiyaya esaslanan düzgün fəaliyyət göstərmək, tnətin iradə, xalqın, dövlətin gələcəyinə görə məsuliyyət hissini dərk etmək, inkişafa mane olan qüvvələrə qarşı barışmaz münasibət, aydın mövqe olmahdır. Azadlığa çıxmış hər hansı bir dövlətin başında bu mühüm amilləri özündə cəmləşdirən lider olmadıqda, ölkədə anarxiya baş alıb gedir, belə dövlət məhvə məhkum olur. Müstəqilliyimizin ilk dövründə Azərbaycan xalqı məhz belə bir dövrü yaşayıb. Bugünkü müxalifət qüvvələrinin başçıları həmin dövrdə hakimiyyətdə olduqları vaxt gənc, müstəqil dövləti, xalqı elə bir vəziyyətə saldılar ki, axırda bu dövləti qoruyub saxlamaq, vəziyyəti sabitləşdirmək məqsədilə böyük dövlətçilik təcrübəsi olan cənab Heydər Əliyevi təcili olaraq Bakıya, dövlətə başçılıq etməyə çağırdılar. Həmin dövrdən heç də çox keçməyib. Amma bu qısa müddətdə öz siyasi təcrübəsi, fərdi iradi keyfiyyətləri, dövlətçilik mövqeyi, doğına torpağa, vətənə, xalqa bağlılıq hissinin yüksək səviyyedə olması, qətiyyətli dövlətçilik mövqeyi sayəsində cənab Heydər Əliyev uçurum kənarında qalmış gənc, müstəqil dövlətçiliyimizi xilas etdi, ölkədə demokratiyanın inkişafı üçün hər cür şərait yaratdı, dövlətçiliyimizin möhkəmlənməsi istiqamətində gecə-gündüz rahatlıq bilmədən çalışdı, Azərbaycanı bütün dünyaya tanıtdı, nüfuzunu artırdı, dünya dövlətləri ilə lazımi səviyyədə münasibətlər qurdu, xalqın həyat səviyyəsində, ümumi inkişafında mühüm dəyişikliklərə nail oldu.

Bütün bunlar heç də görülmüş işləri bütövlükdə əks etdimir. Onların hamısını burada sadalamağa ehtiyac da yoxdur. Çünki bu illəri birgə yaşamışıq. Görülmüş bütün işlərin, baş vermiş bütün hadisələrin canlı şahidləriyik.

Bu gün Azərbaycanın zəfər lokomotivi möhkəm dayaqlara bərkidilmiş relslər üzərində uğurla irəliləyir. Onun qarşısını heç bir qüvvə almağa qadir deyil. Gələcəyə doğru, sivil dünya qurmaq uğrunda bu yürüşdə müxalifət sağlam mənəvi əsaslara söykənməsə, tezliklə sıradan çıxacaq. Bugünkü dağıdıcılıq, pozuculuq fəaliyyəti müxalifətə qarşı kəskin mübarizə metodlarına gətirib çıxarır. Demokratik inkişaf yolunu tutmuş Azərbaycan dövlətçiliyi, onun smanmış rəhbəri bu mübarizə metodlarına əl atmır. Halbuki müxalifətin fəaliyyətində müxtəlif cinayətkarlıq ünsürləri, dövlətə zidd fəaliyyət prinsipləri az deyil.

Sağlam müxalifət hər bir sivil dövlətdə, demokratik inkişaf yolu ilə irəliləyən cəmiyyətdə mövcuddur. Belə müxalifət hakimiyyətə düşmənçilik hissi bəsləmir, dövləti mənafelərdə ona dayaq olur, eyni mövqedən çıxış edir, beynəlxalq aləmdə

bu və ya digər məsələdə fikir ayrılığına yol vermir. Belə müxalifət başçılarının xalq arasında nüfuzu da yüksək olur. Çünki xalq aydın dərk edir ki, bu cür müxalifətin fəaliyyəti arxasında ölkəni inkişaf etdirmək, dövləti möhkəmləndirmək prinsipləri durur. Belə müxalifət sivil yol ilə, yəni demokratik qaydada öz mübarizəsini apardıqda iqtidarda olan qüvvələr arasında müəyyən bir fikir aydınlığı da yaranır. Heç kimdə birbirinə qarşı kin-küdurət, nifrət əhvaliruhiyyəsi formalaşmır. Azərbaycana da belə sağlam müxalifət lazımdır.

Müxalifətin sağlam mənəvi əsaslar üzərində öz fəaliyyətini qurması ölkə vətəndaşlarının mənəvi-psixoloji tərbiyəsində çox mühüm rol oynayar. Xüsusilə gənclərin bu ruhda tərbiyə olunmasına böyük ehtiyac duyulur. Cəmiyyətimizin gələcəyi olan gənclərin davakarlıq, pozuculuq fəaliyyətinə sürüklənməsi dövlətçiliyimizin gələcək inkişafına böyük xəyanət sayılmalıdır. Bu ruhda inkişaf edən gənclik siyasət meydanmda aldığı tərbiyə üsullarını, yəni pozuculuq psixologiyasını da davam etdirəcək, öz fəaliyyəti ilə dövlətə kömək etmək əvəzinə onım inkişafına mənfı təsir göstərəcəkdir.

Fəlsəfə elmləri doktoru Ramiz Mehdiyevin zəngin material əsasında və dərin elmi-nəzəri səviyyədə yazdığı "XXI əsrdə milli dövlətçilik: demokratik inkişaf və müxalifət" əsərinin təsiri nəticəsində oxuculara çatdırdığım bu fikirləri daha da genişləndirmək olardı. Çünki həmin əsərdə müxalifətin mövqeyi o dərəcədə geniş və əhatəli təhlil olunur ki, dövlətçiliyimizin bugünü və sabahı üçün narahatlıq keçirən hər bir ziyalı taleyüklü problemlərin həllinə münasibətini bildirməli, gözləmə mövqeyi tutmamalıdır.

Xüsusilə ölkə, xalq prezident seçkilərinə hazırlaşdığı bir zamanda öz fəallığını yenidən destruktiv məcrada artırmağa çalışan müxalifət qüvvələrinə münasibət birmənalı olmalıdır. Ramiz Mehdiyev həmin əsərdə bütün xalqımızın müxalifətə qarşı mövqeyini çox gözəl ümumiləşdirib: "Azərbaycan tarixinin taleyüklü dövründə özlərinin acizliyi və səriştəsizliyini nümayiş etdirənlər bu gün iqtidarı bacarıqsızlıqda günahlandırırlar. Nə qədər haqsızlıq olsa da, həyatımızın reallığı bundan ibarətdir və belə düşüncəli psixologiyanı anlamaq çətindir! Azərbaycanda dağıdıcı müxalifətin başçıları sivil, demokratik dünyada istifadə olunan mübarizə üsullarını qəbul etmək iqtidarın  da deyillər".

**Vəli HƏBİBOĞLU,**
**Azərbaycan Respublikasının**
**Prezidenti yanında Dövlət**
**İdarəçilik Akademiyasının**
**Geostrateji Araşdırmalar**
**Mərkəzinin direktor müavini,**
**fəlsəfə elmləri doktoru**

*17 aprel, 2003*

# MİLLİ İNTİBAHIN KONSEPTUAL İSTİQAMƏTİ

***"XXI əsrdə milli dövlətçilik" kitabı Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyasının müfəssəl elmi-siyasi şərhini verir***

***Azərbaycanın müstəqillik tarixi 12-ci ilinə qədəm qoysa da, əsl müstəqillik salnaməmiz cəmi 10 ili əhatə edir. İlk iki il isə tariximizə məmləkətimizin xaos, iflas dövrü kimi yazılıb və həmin müddət yaddaşımıza da formal müstəqilliyin itirilmə riskinin artdığı dönəm kimi həkk olunub. Sovet məkanında baş verən tarixisiyasi dəyişikliklər nəticəsində suverenliyini elan etmək hüququnu qazanan Azərbaycanda 1991-1993-cü illərdə baş verən məlum proseslər ölkənin iqtisadisiyasihərbi sferalarında böhranın dərinləşməsi ilə yanaşı, ümumiyyətlə, dövlətin mövcudluğunu təhlükə altına qoymuşdu. Məhz taleyinin belə ağır dövründə məhsuliyyəti üzərinə götürən xalq dövlətini xaosdan qurtarmaq üçün özündə qüvvə və xilaskar tapa bildi. Beləliklə də 1993-cü ilin iyun ayından etibarən Azərbaycanın müstəqilliyinin əsl tarixi  milli intibah və dövlət quruculuğu prosesi başlandı.***

## Azərbaycançılıq ideyası – mövcudluq və milli inkişaf modeli

Ötən 10 ildə Azərbaycan başqa postsovet və Şərqi Avropa dövlətlərinin nail ola bilmədiyi inkişafa, iqtisadi tərəqqiyə, ictimai-siyasi islahatların mükəmməl hüquqi qanunvericilik bazası ilə möhkəmlənməsinə və digər mühüm nailiyyətlərə imza atıb. Qısa müddət ərzində nəzəri cəhətdən mümkün olmayanı praktik baxımdan mümkün etməyi bacaran hakimiyyətin fəaliyyəti, apardığı islahatlar heç də həmişə rəvan getməyib, digər tərəfdən isə indi ölkədə ictimai-siyasi sabitlik əldə edilsə də, milli

dövlət quruculuğu prosesinin davamlı axarına hələ də ciddi maneələr mövcuddur. Bu baxımdan, keçilən yolun smaqlarını əsas götürərək sabahkı inkişafı şərtləndirəcək istiqaməti müəyyənləşdirmək, eləcə də dövlət quruculuğu prosesinin və milli intibahm nəzərdə tutulduğu kimi müvəffəqiyyətlə gedişinin konseptual nəzəriyyəsini hazırlamaq ölkənin elmi potensialının vacib vəzifəsidir.

Əslində, qeyd edilen istiqamət və konseptual nəzəriyyə artıq təşəkkül tapıb: cənab Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyası xalqın və dövlətin əsrlər boyu bərqərar olan ənənələrini, həmçinin ötən əsrin 70-80-ci illərində foraıalaşması başa çatan milli-mənəvi dəyərlərin həm də iqtisadisiyasi ahəngini tam ehtiva etməklə yanaşı, nail olduğumuz tərəqqinin perspektiv yönümünü də əks etdirir. Bir sözlə, Heydər Əliyevin azərbaycançılıq ideologiyası artıq milli inkişafın nəzəri modeli kimi qəbul olunaraq dövlətçilik konsepsiyasına çevrilmişdir.

Ancaq indi bütün sahələr üzrə qazandığı nailiyyətlərlə sivil və modern dünyaya daha inamla inteqrasiya olunan məmləkətimizdə ictimaiyyət arasında "yolumuz haradır və hansı potensialla irelilәyirik" sualının daha geniş müzakirə predmetinə çevrildiyi məqamda azərbaycançılıq idelogiyasının nəzəri məzmunu və mahiyyəti barədə, onun hansı məziyyətləri əks etdirməsi haqqında şərhlərə və elmisiyasi əsərlərə böyük ehtiyac yaranıb. Bu baxımdan fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin bu günlərdə çapdan çıxan "XXI əsrdə milli dövlətçilik" kitabı qeyd edilən ehtiyacı ödəmək imkanına malik elmisiyasi külliyyat kimi ictimaiyyət tərəfindən qəbul olunub.

Əslinde, qeyd edilən kitab Ramiz Mehdiyevin bu mövzuda növbəti araşdırma məcmusudur. İndiyədək çoxsaylı tədqiqatları, məqalələri, müsahibələri ilə milli dövlətçilik və demokratik inkişaf məsələlərinə elmikonseptual baxışları ilə yanaşan filosof "Azərbaycanın inkişaf dialektikası" və "Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi" kitabların da da mövzunu geniş təhlil etmiş və bu ənənəni "XXI əsrdə milli dövlətçilik" kitabında da uğurla davam etdirmişdir. Sonuncu kitabın əlamətdar cəhəti isə odur ki, bu əsərdə Azərbaycanın perspektiv inkişaf yolları, ölkənin siyasi gələcəyinin istiqamətverici qüvvəsi, həmçinin yeni dünya nizamında respublikamızın yerinin və rolunun müəyyənləşməsi, qloballaşma prosesində

milli ideyaların mövcudluğu kimi mühüm məsəlelərə xüsusi diqqət ayrılmışdır. Bir sözlə, "XXI əsrdə milli dövlətçilik" kitabı ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanın sabahı ilə bağlı fəaliyyet proqramının elminəzəri şərhidir.

Ramiz Mehdiyev kitabında azərbaycançılıq ideyasının geniş təsnifatın vermiş və onun müxtəlif sahələr üzrə əhəmiyyətini açıqlamışdır. Filosof bu ideologiyanın əsas məğzini belə ifadə edir: "Milli dövlət ideologiyası olan azərbaycançıhq bu gün bizim qarşımızda dəqiq ifadə edilmiş ideya kimi durur. Bu ideyanın tarixə və onlarca xalqın qədimdən bəri bir ərazidə yaşaması, onların ümumi mentalitetə və tələbat strukturuna söykənən ümumi psixologiya ilə şərtlənən öz bölgüsü var... Azərbaycançüıq xalqımızın çox əzabəziyyətle nail olduğu tarixi sərvətdir. O, real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir... O, Azərbaycan xalqının dövlətyaradıcı mənafelərinin ümumiliyi və demokratiyanın, sərbəst iqtisadiyyatın, sosial həyat şəraitinin inkişafı uğrunda mübarizənin məqsədidir".

Müəllif bu ideyanı həm də müxtəlif xalqların, mədəniyyətlərin, ənənələrin, konfessiyaların vəhdəti kimi səciyyələndirir. Doğrudan da, xalqın milli-mənəvi dəyərlərini həm müdafiə etməyi, həm də qoruyub saxlamağı bacaran dövlətlə insanların fərdi social-mədəni meyillərini üzvi şəkildə birləşdirən azərbaycançılıq ideyası ölkədə vətəndaş birliyi, vahid sosium yaradır. Yeni dünya düzənində milli ənənələrlə yanaşı sivilizasiyaların da önəminin artdığı bir məqamda bu ideologiyanın mahiyyətində əks olunan müddəalarda da müəyyən aydınlaşdırmalar və dəqiqləşdirmələr aparılır. Qərb və Şərq sivilizasiyasının qovuşuğunda yerləşən Azərbaycanda dövlət ideologiyasının əsasında sivil Avrasiya birliyinin bir hissəsi özünəxas milli dəyərə, ənənəyə, eyniyyətə və mentalitetə malik Azərbaycan haqqında təsəvvür və konsepsiya dayanır. Ramiz Mehdiyevin yekun qənaəti belədir: millətin potensialın və ölkəni tərəqiyyə, firavanlığa doğru aparmağa qadir olan siyasi elitanın mövcudluğu onu göstərir ki, azərbaycançılıq milli ideyanın əsası kimi tam formalaşıb və Azərbaycan dövlətinin tarixi boyu da əsası olaraq qalacaq.

## Demokratik inkişaf köhnə təfəkkürlü müxalifətin yerini sağlam qüvvələrə verməsini zəruri edir

Fəlsəfə elmləri doktoru Ramiz Mehdiyevin araşdırmalarında aparıcı mövzulardan biri də milli dövlətçiliyin mahiyyətinin ümdə məziyyətləridir. "XXI əsrin milli dövlətçiliyi milli mənafenin, insan hüquqlarının və ümumbəşəri hımanist dəyərlərin qarşılıqlı təcəssümüdür" deyən müəllif bunu həm də vahid məqsəd uğrunda dövləti möhkəmləndirmək, iqtisadiyyatı modernləşdirmək və gələcək nəsillər üçün daha mükemməl şərait yaratmaq naminə millətin, cəmiyyətin birliyinin rəmzi kimi xarakterizə edir.

Bu gün Azərbaycanda milli dövlətçiliyin vacib atributlarının bərqərar olduğunu, siyasi, qanunverici, iqtisadi, sosial sahələrdə əldə edilən tərəqqinin dövlətin daha da möhkəmlənməsinə şərait yaratdığını qeyd edən filosof bildirir ki, bütün bunlar böyük nailiyyətdir və bu uğurların şəriksiz müəllifi məhz cənab Prezidentdir. Ramiz Mehdiyev dövlət quruculuğu, ümumiyyətlə, milli dövlətçiliyin möhkəmlənməsi prosesində xalqın etimad göstərdiyi hakimiyyətlə yanaşı, azlığın təmsilçisi olan müxalifətin də mühüm vəzifələrinin olduğu qənaətindədir: "Sivil dövlətlərdə və cəmiyyətlərdə müxalifət hakim elitadan fərqli ideyalar, proqramlar və layihələr irəli sürür, hakimiyyətin siyasetini sağlam mövqedən və əsaslandırılmış dəlillərlə tənqid edir, ölkə və dövlət qarşısında duran problemlərin həllinə kömək göstərir. Müxalifət həm də sistemin dayanıqlığı, konstitusiya quruluşunun mühafizəsi, siyasi proseslərin demokratik prinsiplərə uyğun şəkildə getməsi üçün hakimiyyətlə birlikdə məsuliyyət daşıyır".

Ancaq Azərbaycanın siyasi sisteminin bir hissəsinə çevrilmiş müxalifətin bugünkü durumu, fəaliyyəti, mübarizə prinsipləri, ideya istiqamətləri, elektoratla iş metodları, üzvləri və təəssübkeşləri arasında apardıqları siyasi maarifçilik işi nəinki sivil dövlətlərdəki müxalifətin eyni xüsusiyyetləri ilə uyğun gəlmir, hətta bizim müxalifətin mübarizəsi bir çox hallarda antimilli, antidövlət fəaliyyəti xarakteri alır. Ölkədə gedən demokratikləşmə və müasirləşmə prosesindən özünü kənar saxlayan müxalifətin malik olduğu köhnə, primitiv təfəkkür, eləcə də 1993-cü ildə Azərbaycanı uçurum qarşısında qoyan fəaliyyətinin bu gün də eyni ampluada davam etdirilməsi, şübhəsiz ki, məmləkətin siyasi palitrasında izsiz qalmır. Ramiz Mehdiyev çox doğru olaraq qeyd edir ki, müasir cəmiyyətin əsas siyasi institutlarından

olan müxalifətçiliyin mürəkkəb təzahür formaları, həqiqi kökləri və yaranma səbəbləri elmi ictimaiyyətin və politoloqların nəzərindən kənarda qalıb, halbuki burada ideoloji, siyasi, mənəvi, psixoloji, şəxsi və s. faktor və motivlər var. Məhz elə bu baxımdan da, yəni qeyd edilən sahədə elmisiyasi araşdırmaların olmadığı "boşluq" məqamında "XXI əsrdə milli dövlətçilik" kitabı ölkə müxalifətinin mahiyyətini öyrənmək, onu tanımaq üçün gərəkli elmi vəsait, siyasi tədqiqat əsəri kimi qəbul edilir.

Ramiz Mehdiyevin qənaətincə, Azərbaycanda müxalifət tərkibcə yekcins deyil, müxtəlifdir, siyasi spektrin bütün çalarları ilə təmsil olunmuşdur. Lakin ümumi müxalifətin tərkibindən bütün əlamətləri və xüsusiyyətləri ilə seçilən pozucu, dağıdıcı, destruktiv qüvvə ayrılaraq bütövlükdə müxalifətin admdan danışmağa, onım funksiyasını təkbaşına mənimsəməyə çalışır. "Qaraqışqırıq, hədəqorxular, lənətlər, söyüşlər, nifrət, dövlət başçısının şəxsiyyətinin təhqir olunması onların tədbir və mitinqləri bütün bunlardan ibarətdir, nəşr etdikləri qəzetlərin səhifələri bütün bunlarla doludur! Beləliklə, barışmaz ifrat radikal müxalifət öz mahiyyətinə və mənəvi-psixoloji vəziyyətinə görə nəinki pozucudur, həm də davakardır!" Filosof destruktiv müxalifətin demokratiyanı öz bildiyi kimi, yəni məsuliyyətsizlik anlamında yozmasını və həyat təcrübəsini, səriştəliliyi, idarəetmə elmini, əhalinin mənafelərini, əhvaliruhiyyəsini qulaqardma vurmasını dövlət quruculuğu prinsiplərinə və dövlətçiliyin möhkəmləndirilməsinə kökündən zidd sayır.

Müəllif daha sonra qeyd edir: "Destruktiv müxalifət millilikdən, daha dəqiq desək, milli maraqların düzgün anlanmasından, dövlətə və xalqa xidmətdən uzaqdır. Milli maraqları şəxsi maraqlarla əvəz edən bu qrupların əsas qayəsi şübhəli maliyyə təşkilatlarının və müxtəlif xarici qüvvələrin dəstəyi ilə Azərbaycanın milli maraqlarına qarşı yönəlmiş fealiyyəti həyata keçirməkdir. Öz maraqlarını dövlət və xalq maraqların dan üstün tutan bu qruplar Azərbaycan dövlətinin problemlərini, onun gerçək vəziyyətini nə bugünədək tez-tez ziyarət etdikləri hansısa bir xarici siyasət idarəsində, nə beynəlxalq təşkilatlarda, nə də ki, şəxsi görüşləri zamanı müzakirə obyektinə çeviriblər! Məhz şəxsi ambisiyalarının reallaşması uğrunda ölkədə və ölkə xaricində mübarizə aparan bu şəxslər bir amala xidmət edir və onun reallaşması üçün əllərindən gələni edirlərazərbaycanda hakimiyyətin dəyişdirilməsi və onların hakimiyyətə gəlməsi!"

Bu fikirlər destruktiv müxalifətin son 10 il ərzindəki fəaliyyətinə, mübarizə metodlarına verilən müfəssəl qiymət konkret münasibətdir. "Mən Azərbaycan üçün nə etmişəm" sualına yalnız "ancaq dövlətə və xalqa əlavə problemlər gətirmişəm" cavabını verməyə haqqı çatan müxalifətin antimilli əməlləri həqiqətən də məmləkətimizə baha başa gəlir. Onlar böyük fədakarlıqlar və zəhmət hesabına əldə edilən iqtisadi dirçelişə qara yaxınaq, ölkəmizin yeni dünya düzənində mütərəqqi dövlətlərlə yanaşı addımlamasına şərait yaradan uğurlu xarici siyasətin müsbət imicini korlamaq, daim demokratik və sivil dəyərlərlə möhkəmlənən qanunverıci bazanın mükəmməlliyinə şübhə yaratmaq, milli dövlətçiliyimizə təhlükə axtarınaq, ölkədə təreqqinin stimulverici qüvvəsi olan ictimai-siyasi sabitliyi pozmaq, ərazi bütövlüyümüzün təmin edilməsi məqsədilə həyata keçirilən siyasəti puç etmək üçün sanki antiazərbaycançı şəbəkənin qarşısmda yarışa çıxıblar. Dövlətimizə düşmən münasibət bəsləyən xarici tesisatların girovuna çevrilən bu müxalifət dəstələri Ermənistan müxalifətinin öz ölkələrində törətdiyi iğtişaşı Azərbaycanda da təkrarlamaq üçün işğalçı rejimlə əməliideoloji əməkdaşlığa can atırlar.

Bu işbirliyi Ermənistanın təcavüzkarlıq siyasətinin buyuruq qulları olan, belə demək mümkünsə, vətəndaşlarınıza Eduard Eldar Zeynalova, Leyla Yunusa və Arzu Abdullayevaya Azərbaycanın destruktiv müxalifətinin açıq dəstəyi ilə davam edir. Adlarını qeyd etdiyimiz hüquq alverçiləri beynəlxalq miqyasda Azərbaycanın imicini korlayan, ona yeni problemlər gətirən fealiyyət göstərir, hətta dünya ictimaiyyətinin də "nəzarətsiz zona" kimi tanıdığı Qarabağ ərazisindəki separatçı rejimlə çəkinmədən əməkdaşlıq edir, onları "qanuni hökumət" elan edir, ölkə müxalifəti isə bu xeyanətkarların Azərbaycanda sərbəst fəaliyyəti üçün münbit şərait yaradır. Qarşılıqlı yardımların özəyi, şübhəsiz ki, qrant və digər formalarda ödənən maliyyə vəsaiti, əslində isə "çirkli pullar"dır. Məhz bu səbəbdən də həmin hüquq alverçiləri və destruktiv müxalifət qüvvələri separatçı rejimdə "əsl vətəndaş cəmiyyəti qurulduğunu" bəyan edir, ancaq bütün xarici təsisatların, fövqəldövlətlərin Azərbaycanda yüksək qiymətləndirdikləri demokratik şəraiti etiraf etməkdən isə çəkinirlər.

Bütün bu məqamları "XXI əsrdə milli dövlətçilik" kitabında dərc edilən əsərlərində geniş təhlil edən fəlsəfə elmleri doktoru Ramiz Mehdiyev qeyd edir ki, bu vəziyyət artıq destruktiv müxalifət partiyalarının tam iflas

olması ilə nəticələnə bilər. Bunun qarşısmı almaq, ölkədə normal və sağlam müxalifət formalaşdırmaq üçün artıq müxalifətin öz daxilindən başlayan fəaliyyət cəhdlərini nəzərə alaraq müəllif yazır: "Destruktiv müxalifət partiyalarının başçıları konstruktiv qrup tərəfindən ciddi müqavimət və narazılıqla qarşılanır. Bu partiyalardakı konstruktiv qrup öz başçılarının demokratik prinsiplərə uyğun hərəkət etmələrinə inamlarını itirdiklərindən onların dəyişdirilməsi təşəbbüsü ilə çıxış edirlər. Hadisələr göstərir ki, partiyaların yuxarı dairələrinin qeyri-konstruktivliyi, davakar radikalizmi, hakimiyyət uğrunda qeyri-sivil mübarizə metodları, 1990-1992-ci illərin meydan əhvali-ruhiyyəsi, heç ne verməyən mütəmadi mitinqlər, yürüşlər gənclər, sağlam mövqeli partiya üzvləri tərəfindən qəbul olunmur. Onlar hesab edirlər ki, mitinqlər dövrü çoxdan keçib, zaman bu gün yeni, sivil mübarizə üsullarını və formalarını tələb edir".

Müəllif qeyd edir ki, konstruktiv, sivil müxalifətin təşəkkülü heç də sadə proses deyil və bu proses illərlə və ziddiyyətli bir şəkildə davam edəcəkdir. Ancaq onu da nəzərə almaq lazımdır ki, bu prosesin baş verməsi və uğurla nəticələnməsi Azərbaycan dövləti, cəmiyyəti, onun demokratik inkişaf mənafeləri üçün zəruridir.

**Azərbaycana qurtuluş bəxş edən siyasi qüvvə onun sabahı üçün də məsuliyyət daşıyır**

Destruktiv müxalifət partiyalarının, eləcə də antiazərbaycançı şəbəkənin yaratdıqları maneələrə, problemlərə baxmayaraq, dövlətimiz inkişaf edir və müstəqilliyini daim möhkəmləndirir. Artıq müstəqil dövlətin mövcudluğu üçün tələb edilən zəruri şərtlər ictimai, siyasi, qanunverici, iqtisadi, sosial sahələr üzrə tam bərqərar olub. Bir sözlə, son 10 il ərzində xaosdan qurtuluşa keçidi az ağrı ilə və səhvsiz apara bilən cənab Heydər Əliyevin qurduğu Yeni Azərbaycan millətimizin əsrlər boyu həsrətini çəkdiyi müstəqil dövlət arzusunu tam reallaşdırıb.

Qeyd etdiyimiz kimi, inkişaf bütün sahələr üzrə gedir və xalq bu tərəqqini sabit və təhlükəsiz həyatında, günü-gündən artan rifahında indi daha aydın dərk edir. Dövlətin parçalanmasını və məhvini şərtləndirən xaosla xalqımızın üz-üzə qalmasından ötən 10 il heç də uzaq tarix deyil və bu baxımdan da ictimaiyyət arasında "gələcəkdə bizi nə gözləyir" sualının

tez-tez səslənməsini təbii qarşılamaq lazımdır. Heydər Əliyevə alternativ hansısa bir qüvvəni, siyasətçini bu xalq hələ tanımır. Ancaq ölkədə bərqərar olan demokratik prinsiplər və seçki tələbləri 5 ildən sonra iqtidarın yeni bir sima üzərində qərarlaşmasını tələb edir. Artıq indidən məlumdur ki, seçicilərin əksəriyyəti Heydər Əliyev siyasi platformasından hər hansı seçkiyə qatılacaq namizədə etimad göstərəcək və hələ neçəneçə onilliklər boyu Heydər Əliyevin qurduğu Azərbaycanda Heydər Əliyevin yaratdığı siyasi irs hakim mövqeyini qoruyacaq.

Bu məsələləri "XXI əsrdə milli dövlətçilik" kitabındakı əsərlərində müfəssəl şərh edən fəlsəfə elmləri doktoru Ramiz Mehdiyevin də qeyd etdiyi kimi, bugünkü Azərbaycan Heydər Əliyevin çoxillik gərgin və uzaqgörən fəaliyyətinin məhsuludur: "Bu son dərəcə istedadlı insanın və qüdrətli siyasətçinin təxminən 30 il ərzində silahdaşı olan, onunla çiyinçiyinə işləyən bir adam kimi deyə bilərəm ki, Heydər Əliyev Azərbaycan xalqının milli sərvətidir. O, dünya miqyaslı tarixi sima və şəxsiyyetdir". Müəllif bu möhtəşəm siyasətçinin yaratdığı dövlətdə perspektiv inkişafa və müstəqilliyin təminatına zəmanət verəcək qüvvənin yalnız Heydər Əliyev siyasi xəttinə varislik edən iqtidarın olduğunu elmi və təcrübi dəlillər vasitəsilə esaslandırır.

Ramiz Mehdiyev iqtidarın malik olduğu kadr potensialmm ölkədə analoqu olmadığmı qeyd etməklə yanaşı, xatırladır ki, xalqın əsas intellektual, kadr, idarəetmə potensialı hakim komandada, Yeni Azərbaycan Partiyasında cəmləşmişdir. Məhz bu partiya Heydər Əliyev siyasi xəttinin nüvəsini təşkil edərək varislik prinsipinin təminatında mühüm ideoloji-praktik rol oynayacaq. Müəllif apardığı araşdırmalara və tədqiqatlar zamanı ortaya çıxan elmiməntiqi nəticələrə əsaslanaraq bildirir ki, siyasi həyatda müxtəlif maraqlarla birləşmiş çoxsaylı qruplar AŞPA sədrinin müavini, ARDNŞ-in birinci vitseprezidenti, YAP sədrinin birinci müavini İlham Əliyevin ətrafında sıx birləşə bilər və əslinda, birləşmək istəyirlər.

Müəllif yazır: "İlham Əliyevin siyasi, iqtisadi və mənəvi görüşlərinin formalaşmasında heç də təkcə ailə tərbiyəsi təsir göstərməmişdir. Görünür, burada onun şəxsi keyfiyyətləri, intellekti, ümumi mədəniyyəti, təvazökarlığı, şüurlu həyatı boyu topladığı bütün qiymətli və müsbət nə varsa hamısını faydalı şəkildə sintezləşdirmək bacarığı mühüm rol oynamışdır. Təsadüfi deyil ki, Prezident Heydər Əliyevdən savayı, başqa heç bir

siyasətçinin qısa müddət ərzində İlham Əliyevin nail olduğu qedər belə geniş, kütləvi sosial bazası yoxdur. Onım sosial bazasının coğrafı və yaş həddi yoxdur, o, bütün yaşlardan və ölkənin bütün bölgələrindən olan nümayəndələri öz ətrafında birləşdirən nadir bir siyasətçidir".

Ramiz Mehdiyev İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti kimi milli idmanımızın tarixində ən böyük nailliyyətlərə imza atmasını, AŞ PA sədrinin müavini olaraq bu qurumda Azərbaycanın haqlarını tanıtmasını, Dövlət Neft Şirkətinin birinci vitseprezidenti kimi bu sektoru daim inkişaf etdirməsini və onu ölkənin böyük gəlir mənbəyinə çevirməsini, YAP sedrinin birinci müavini kimi siyasi proseslərdə aparıcı rola malik olmasını xüsusilə qeyd edir. Müəllif yeni dövrün ən görkəmli siyasətçilərindən biri kimi səciyyələndirdiyi İlham Əliyevin tarixinin mürəkkəb dövrü hələ tezliklə başa çatmayacaq ölkəyə rəhbərlik etmək üçün bütün lazımi keyfiyyətlərə malik olduğunu bildirir.

Ramiz Mehdiyev İlham Əliyevin dövlətin inkişafı ilə bağlı baxışlarını şərh edərək yazır: "Onun bütün başlıca arzu və istəkləri Azərbaycan dövlətini modernləşdirmək və ölkəni dünya miqyaslı mühüm qərarlar qəbul edən sayşeçmə ölkələr birliyinə daxil etməkdir. O, fəaliyyətində ardıcıl və praqmatikdir, rasional və səmimidir. Onu fərqləndirən cəhət budur ki, o, fəaliyyət dairəsi məhdud olan məmur deyil, əksinə, geniş baxışlara malik siyasətçidir. Onun üstünlüyü bımdadır. Azərbaycana məhz belə siyasətçi gərəkdir, çünki alman dəqiqliyi və məsuliyyətini azərbaycanlıların açıqlığı, səmimiliyi və dini dözümlülüyü ilə birləşdirməyə Azərbaycanın ehtiyacı var. "Güclü dövlət" və "dövlətin modernləşdirilməsi" İlham Əliyevin dəyərlər sisteminin iki tərkib hissəsi bunlardır. Bunlara, məsələn, Prezident Heydər Əliyevin xəttinə güclü dövlət, sabit ictimai inkişaf və yeni təfəkkür tərzinin formalaşdırılmasına sadiqlik kimi daha bir mühüm ideyanı da əlavə etmək olar".

Müəllif bu mövzuda araşdırmasının yekunu olaraq qeyd edir ki, Heydər Əliyevin və onun komandasının böyük səyləri nəticəsində bu gün Azərbaycanda ümumi siyasi, iqtisadi və sosial inkişafı təmin edən sabitlik yaranıb. Buna görə gələcək inkişafı yalnız və yalnız siyasi kursun varisliyi təmin edə bilər. "Azərbaycanın siyasi gələcəyi Heydər Əliyevin fəal tərəfdarları və ardıcılları ilə bağlıdır" deyən Ramiz Mehdiyev qənaətini həm də xalqın dövlət başçısına və onun siyasətinə bəslədiyi etimadla da əsaslandırır.

Fəlsəfə elmləri doktoru Ramiz Mehdiyevin "XXI əsrdə milli dövlətçilik" kitabı bu gün ölkəmizdə aparılan uğurlu islahatların, hər gün daha aydın dərk edilən milli inkişafın, dövlət müstəqilliyinin sağlam təməllərlə möhkəmlənməsinin, sosial-iqtisadi tərəqqinin mükəmməl izahmı verir. Bu nəşr həm də ötən esrin 70-80-ci illərində başlayan və son 10 il ərzində daha geniş miqyas alan Azərbaycan quruculuğu prosesinin təməl prinsiplərini, fəaliyyət yönümlərini, perspektiv istiqamətlərini geniş şərh edir. Və bir daha sübut edir ki, bu ölkənin inkişaf modeli Azərbaycançılıq ideyası, istinad etdiyi siyasi xett Heydər Əliyev irsidir. Sabaha olan ümidlərin doğrulması isə məhz bu irsin varisliyinin təmin olunmasından keçir.

**İxtiyar HÜSEYNLİ,**
**"Azərbaycan"**
**1 may, 2003**

## SİYASİ LİDER: HAKİMİYYƏT VƏ İDARƏÇİLİK POTENSİALI

Heydər Əliyev şəxsiyyəti çoxdandır ki, müxtəlif ölkələrin politoloqlarının, dövlət xadimlərinin diqqət mərkəzindədir. Politoloqlar, şəxsiyyət nəzəriyyəçiləri müasir siyasi elmin yeni tələbləri baxımından siyasi liderlikdə Heydər Əliyev fenomenini müntəzəm surətdə təhlil edirlər.

Siyasi elmdə liderləri xarizmatik, rasional-leqal və ənənəvi liderlər kimi tiplərə ayırırlar. Xarizmatik lider insanlara təsiretmə qabiliyyətinə görə, ətrafdakılarda sosial fəaliyyətə yönəlmiş enerji doğurmaq bacarığına görə seçilir. O, həmçinin yaxşı natiqlik qabiliyyətinə, insanlarda simpatiya doğuran xarici görünüşə malik olmalı, ünsiyyət qurmağı bacarmalı, öz çıxışları ilə çoxlu sayda insanı özünə cəlb etmək məharəti nümayiş etdirməli, güclü siyasətçi imici formalaşdırmalıdır. Rasional (leqal) tip liderlik müasir demokratik dövlətlərdə siyasi lider və dövlət başçısı kimi təsdiqlənmənin əsas yoludur. Bir qayda olaraq onlar ümumi seçkilər əsasında siyasi hakimiyyəti əldə edir və hakimiyyət olimpində özlərini təsdiqləyirlər. Ənənəvi liderlik siyasi hakimiyyətin bu və ya digər ölkədə bərqərar olmuş ənənələr əsasında ötürülməsini nəzərdə tutur.

Heydər Əliyevin siyasi fəaliyyəti o qədər geniş və çoxcəhətlidir ki, o, ənənəvi düsturlara sığmır. Azərbaycan Prezidenti müasir dünya siyasətçiləri arasında nadir şəxsiyyətlərdəndir ki, hər üç liderlik tipinin xüsusiyyətlərini təcəssüm etdirir.

Siyasətdə xarakterinə və fəaliyyətinin miqyasına görə üç səviyyədə liderləri fərqləndirirlər: kiçik qrupun lideri. Bu səviyyəli lider birlik daxilində ən böyük təsirə malik olur. İctimai hərəkat lideri (təşkilat, partiya) elə bir şəxsdir ki, konkret sosial təbəqələr öz maraqlarının ödənmə perspektivini onunla bağlayırlar. O, müəyyən qədər inam və ictimai dəstək kreditinə malik olur. Üçüncü səviyyə lider isə hakimiyyət münasibətləri sistemində fəaliyyət göstərir. Burada siyasi liderlik sosial institut kimi çıxış edir. Birinci iki halda mühüm prinsipial əhəmiyyət kəsb edən şəxsi xarakteristikalar bu halda liderin siyasi davranışına təsir göstərmir.

Azərbaycan siyasətində üzdə olan şəxslərin əksəriyyətini birmənalı şəkildə qrup liderlərinə aid etmək olar. Onların az qismini müəyyən qeyd-şərtlə partiya, ictimai-siyasi hərəkat liderləri kimi qəbul etmək mümkündür. Hətta bir çoxları vaxtilə mühüm dövlət vəzifələri tutsa da, qrup liderləri səviyyəsindən yüksəyə qalxa bilməmişlər. Azərbaycanın müasir siyasi xadimlərindən yalnız Heydər Əliyev xalqın bütün təbəqələrinin və zümrələrinin qəbul etdiyi ümummilli lider səviyyəsinə qalxmışdır. Həm də Heydər Əliyev indiki müxalifətin qrup-partiya liderlərindən fərqli olaraq heç zaman qruppartiya lideri səviyyəsində siyasətçi olmamışdır. Hətta dövlət vəzifəsində olmadığı dövrdə, Yeni Azərbaycan Partiyasını yaratdığı zaman o, insanların, sadə azərbaycanlıların gözündə ümummilli lider idi.

Heydər Əliyev Azərbaycan siyasi palitrasında hamınm qəbul etdiyi, əhalinin bütün təbəqələrinin və zümrələrinin, dini konfessiyaların , azsaylı xalqlar, milli azlıqların , daxili və xarici siyasiiqtisadi dairələrin, hətta ölkədəki bir çox müxalif qüvvələrin optimal variant kimi qəbut etdiyi inteqrativ şəxsiyyətdir. Müxalifət daxilində isə belə şəriksiz avtoritetə malik, əksəriyyətin azçox dərəcedə qəbul etdiyi şəxsiyyətlər, sadəcə, yoxdur.

Dövlət və cəmiyyət həyatınm ən müxtəlif məsələlərinə həsr olunmuş tədbirlərdə Heydər Əliyevin çıxışları, qəbul etdiyi qərarlar, səsləndirdiyi müddəalar geniş rezonans doğurur, yeni təşəbbüslərə, ideya və layihələrə təkan verir. Heydər Əliyev böhranlı məqamlarda, məsuliyyət anların da heç bir tərəddüdə yol vermədən dövlətçiliyin, Konstitusiyanm müdafiəsi üçün misilsiz qətiyyət və dəyanət göstərməsi, siyasət həvəskarlarına dövlətçilik dərsi verməsi hamı tərəfindən tarixi nümunələr kimi qiymətləndirilmiş və etiraf olunmuşdur. Bu şəxsiyyətin böyüklüyünü, onun ümummilli lider olduğunu siyasi opponentləri də etiraf etməyə məcbur olurlar.

Şəxsiyyətlərə qiymət verən zaman onların özləri haqqında nə düşündüyünü deyil, Azərbaycan cəmiyyətinin və nüflızlu xarici qurumların rəhbərlərinin münasibətini əsas götürmək lazımdır. Həm də bu baxımdan dünya miqyaslı siyasətçilərin, qlobal siyasəti müəyyən edən şəxslərin rəylərini əsas götürmək hər cəhətdən daha məntiqi olardı. Azərbaycan Prezidenti, onun dövlət başçısı və siyasətçi kimi nüfuzlu, bütöv bir təlimin və idarəçilik universitetinin əsasını qoyması haqqında dünya səviyyəli liderlər, dövlət başçıları tərəfindən çox dəyərli fikirlər deyilib. Bunları təkrar etməyə lüzum gömıürük. Azərbaycan müxalif siyasətçilərinin vəziyyəti bu mənada qibtəediləcək halda deyil.

Azərbaycan Prezidentinin şəxsiyyətini, onun dövlət idarəçiliyi universitetinin dərslərini tədqiq edən zaman bir neçə məqama diqqət yetirmək gərəkdir. Heydər Əliyevin fəaliyyətinin bütün dövrləri üzvi vəhdət təşkil edir. Bu baxımdan onun müxtəlif məsələlərə münasibətini araşdıran zaman bunları dialektik inkişafda, dövrün və zamanın tələblərini nəzərə almaqla qiymətləndirmək lazımdır. Əyalət təfəkkürlü bir çox siyasət həvəskarlarından qatqat yüksəkdə duran Heydər Əliyev milli çərçivəyə, hətta sistem çərçivəsinə sığınayan siyasətçidir. Rusiyanm Effektiv Siyasət Fondunun rəhbəri Qleb Pavlovskinin fikrincə, Heydər Əliyev sovet siyasət məktəbi ilə demokratik siyasət məktəbinin sintezindən doğulmuş yeni model siyasətçinin qabarıq nümunəsidir.

Heydər Əliyevin şit, bəlağətli təriflərə ehtiyacı yoxdur, yalnız görülən işləri bütün miqyası və əhəmiyyəti ilə populyar formada təqdim etmek lazımdır. Bu istiqamətdə isə biz hələ lazımi derəcədə fəaliyyət göstərməmişik, bu sahədə üzərimizə böyük vəzifələr düşür.

Əyalət təfəkkürlü bir çox siyasət həvəskarların dan qatqat yüksəkdə duran Heydər Əliyev milli çərçivəyə, hətta sistem çərçivəsinə sığınayan siyasətçidir.

Siyasi lider, sadəcə, siyasi proseslərə rəhbərlik edən, cəmiyyətin, siyasi təşkilatm və ya hərəkatın idare olunması funksiyalarını həyata keçirən şəxs deyildir. Siyasi lider həm də hadisələrin gedişini və siyasi proseslərin istiqamətini idarə etmək, dəyişdirmək qabiliyyətinə malik olmalıdır. Görkəmli şəxsiyyətlər özləri situasiyaları idarə edirlər, hətta özləri situasiya yaradırlar. Bacarıqsızlar isə bu situasiyanın əsiri olurlar, hadisələrin axarına düşüb üzürlər (1993-cü ildə indiki müxalifət başçılarının situasiyanın necə əsiri olduğunu xatırlamaq kifayətdir).

XIX əsrdə ingilis filosofu T.Karleyl şəxsiyyətin keyfiyyətləri nəzəriyyəsini irəli sürmüşdü. Bu doktrinaya görə, siyasi lider müəyyən aristokratik keyfiyyətlərin daşıyıcısı rolunda çıxış edir ki, bu da onu digər insanlarla müqayisədə daha yüksəkliyə qaldırır və hakimiyyət sistemində müvafiq yer tutmağa imkan verir. Karleylin nəzəriyyəsi çoxsaylı şəxsiyyət (volyuntarist) konsepsiyalarının ən parlaq nümunəsi idi: bu konsepsiyalar dövlətin siyasətini liderin keyfiyyətlərindən və niyyətlərindən asılı olaraq qiymətləndirirdi.

Belə bir sual meydana gələ bilər: liderləri təbiətmi yaradır, yoxsa onları mühit və şərait formalaşdırır? Görkəmli alim L.Qumilyovun konsepsiyasına görə, "insanlar lider olaraq doğulurlar. Bu insanlara təbiət izafı biokimyəvi enerji bəxş etmişdir. Belə insanlar əhalinin ümumi sayınm 5 faizindən çoxunu təşkil etmirlər". Lakin lider olaraq doğulmuşlar hökmən liderə çevrilmirler. Bunun üçün böyük təcrübə lazımdır.

Tarix göstərir kı, irimiqyaslı parlaq siyasi liderlər, bir qayda olaraq, ictimai inkişafm böhranlı, dönüş dövrlərində meydana çıxırlar. Onlar cəmiyyətdə çox böyük çətinlikləri dəf etməyə kömək edən siyasi və iqtisadi proqramların təşəbbüsçüləri və təşkilatçıları olurlar. Belə miqyaslı liderlərə misal olaraq tarixdə Mustafa Kamal Atatürkü, Franklin Ruzvelti, Şarl de Qollu, Konrad Adenaueri göstərmək olar. Bu qeyriadi şəxsiyyətlər öz ölkələrinin və xalqlarının tarixində, taleyüklü məqamlarda meydana çıxaraq həyati əhəmiyyətli məsələləri həll etmiş, dövləti və xalqı geniş inkişaf yoluna çıxarınışlar.

Siyasi liderliyin ən yüksək səviyyesi olmaqla hakimiyyətin yüksək strukturların da siyasi prosesləri və münasibətleri əks etdirir, siyasi piramidanın zirvəsində dayanaraq hakimiyyətin subyektləri və obyektləri arasında real münasibətlər qurur, tənzimləyir və idarə edir.

Lider öz nüfüzunu qorumaq və gücləndirmək üçün bir sıra mühüm vəzifələri yerinə yetirməlidir: əhali qruplarını, vətəndaşları müəyyən siyasi məqsədlər əldə etməyə səfərbər etməli, sosial təşəbbüslərlə çıxış etməli, cəmiyyətin inteqrasiyasına çalışmalıdır. Dövlət başçısı, ümummilli lider bütün cəmiyyət miqyasında milli birliyi təmin etməlidir. Liderin hakimiyyət və idarəetmə strukturunda yüksək mövqeyi həm bütövlükdə cəmiyyətin inteqrasiyası istiqamətində məqsədyönlü seylər göstərməsini, həm də onun siyasi dairələrlə, dövlət strukturları ilə həmrəyliyin gücləndirilməsi üçün çahşmasını tələb edir. Lider mövcud siyasi elitanm ən yüksək nümayəndəsi kimi, həmçinin hakim elitanı sıx birləşdirmək, onun daxili bütövlüyünü möhkəmlətmək, müxalif qruplaşmalarla mübarizədə rəqabət qabiliyyətini yüksəltmək qayğısına qalmalıdır. Bu fikirlər qeydşərtsiz tamamilə Azərbaycan Prezidentinə aid edilə bilər.

XX əsrdə bəşəriyyətin inkişafında baş verən böyük dəyişikliklər, elmi-texniki tərəqqi, qloballaşma prosesləri siyasi liderlərə yeni, yüksək tələblər irəli sürmüşdür. İnsanların taleyi üçün, xalqların və dövlətlərin gələcəyi

üçün onların məsuliyyəti kəskin şəkildə artmışdır. Bu, geniş müşahidə olunan ümumi tendensiyadır. Belə ki, müasir siyasi liderlər artıq bəşəriyyətin qlobal problemlərini hesaba almadan öz dövlətlərinin inkişaf modellərini müəyyənləşdirə, inkişaf proqramlarını irəli sürə və onları reallaşdıra bilməzlər. Onlar öz daxili siyasətlərini ümumdünya, qlobal proseslərin tərkib hissəsi kimi nəzərdən keçirməlidirlər. Müasir şəraitdə milli qəhrəman səviyyəsinə qalxmış siyasi liderlərin meydana gəlməsi ehtimalı getdikcə azalmaqdadır. Bunun səbəbləri sırasında siyasi liderliyin hüdudlarının məhdud olması, hakimiyyətlərin bölünməsi, hakimiyyətdə olmaq müddətlərinin qısalığmı və s. göstərmək olar. Bugünkü şəraitdə müasirlik üçün daha çox "qəhrəman" liderlər deyil, öz ölkələri üçün üç ən yüksək neməti milli təhlükəsizliyi, xalqın rifahını və insan hüquqlarını təmin edən rasional tipli siyasi liderlər daha məqbuldur.

Azərbaycan Prezidentinin fəaliyyətinin bütün istiqamətlərini araşdırmağa cəhd etmədən onun bəzi prinsipial məsələlərə münasibətini izləmək maraqlıdır. Belə ki, bu yanaşmalar konseptual səciyyə daşıyır və fəlsəfimetodoloji baxımdan əhəmiyyətlidir. Heydər Əliyevin ziyalılara münasibəti və ziyalılar haqqında fikirləri müasir dövlət xadimləri üçün klassik nümunədir. Onun fikrincə, ziyalını səciyyələndirən ən əvvəl onun ali təhsil haqqında diplomu və ya alimlik dərəcəsi deyildir. Ziyalının başlıca keyfiyyəti cəmiyyətə fədakarlıqla xidmət etməkdir. Prezidentin fikrincə, ziyalının vətənpərvərliyi seyrçi xarakter daşımamalı, aktiv həyat mövqeyi ilə seçilməlidir.

Azərbaycan Prezidentinin ziyalılıq haqqında daim aktual səslənən nəzəri-konseptual müddəaları çox maraqlıdır: "Xalqın içindən çıxan bu ziyalılar təktəkdir. Ziyalı kütləvi ola bilməz. Alimdir, şairdir, bəstəkardır, rəssamdır, yazıçıdır, artistdir bunlar fıtri istedada malik olan nadir adamlardır və öz mədəniyyəti, yaradıcılığı, fəaliyyəti ilə bizim cəmiyyətin mədəni səviyyəsini qaldırırlar". Bu fikirlər ziyalı adından möhtəkirlik edən, siyasi kombinasiyalarının oyunçusuna çevrilən şəxslərə necə tutarlı cavabdır!

Beləliklə, Heydər Əliyevin ziyalılara münasibəti hər zaman konseptual səciyyə daşımışdır.

Heydər Əliyev siyasi fəaliyyətinin bütün dövrlərində ziyalıların yaradıcılıq azadlığını müdafiə etmişdir. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə ən cəsarətli, dövrün standartlarından kənara çıxan əsərlərin, sənət nümunələrinin işıq üzü görməsi üçün hər cür şərait yaradılmışdı.

Mühüm faktdır ki, Azərbaycan sovet dövründə fəxri ad alanların sayına görə SSRİ-də qabaqcıl yerlərdən birini tutmuşdu.

Heydər Əliyevin tariximizə, ümumən humanitar elmlərə münasibəti də həm alimlər, həm də dövlət idarəçiliyində olan şəxslər üçün nümunəvidir. İndi biz elmsiz keçinə bilmərik. Km idarəetmə ilə məşğul olursa, elmlərin, xüsusilə ictimai elmlərin əsaslarına yiyələnməlidir. Üstəlik, öz əməli fəaliyyəti ilə elmə töhfə verməli, cəmiyyətdə cərəyan edən hadisələri təhlil etməli və bir anlıq qərarlar deyil, dərin qərarlar qəbul etməyi bacarınalıdırlar. Beləliklə, Azərbaycan Prezidenti klassik Şərq siyasi ənənələrinə uyğun "alimhökmdar" obrazma da tamamilə uyğun gelir.

Heydər Əliyevin fəaliyyətini səciyyələndirən başqa bir mühüm cəhət: keçmiş SSRİ-nin 135 ali məktəbində bütövlükdə 70-80ci illərdə 15 mindən artıq azərbaycanlı mütəxəssis hazırlanmışdı. Azərbaycanlılar SSRİnin 105 ali hərbi məktəbində oxumuşdular, 250 nadir ixtisasa yiyələnmişdilər! ("Azərbaycan", 02.09.98). İdarəçilikdə, təsərrüfatda, elmdə, ədəbiyyat və incəsənətdə Azərbaycanı ləyaqətlə təmsil edən və gələcəkdə müstəqil Azərbaycanı idarə edə biləcək milli, vətənpərvər elita formalaşırdı. Buna görə də bu gün tam əsasla deyə bilərik ki, milli Azərbaycan elitasının formalaşmasında ən parlaq mərhələ Heydər Əliyevin adı ilə bağlıdır, daha doğrusu, Heydər Əliyev Azərbaycanın müasir milli elitasının yaradıcısıdır.

İndiki radikal müxalifət başçılarının ziyalılara münasibəti isə bunun tam əksini təşkil edir. 19881992-ci illərdə xalq hərəkatı genişləndiyi zaman millətin elitası, onun düşünən və idarə edən hissəsi taleyüklü məsələlərimizin həllinə yaxın buraxılmadı.

Nəticədə xalqımızm azadlıq mübarizəsi çoxlu ağır itkilərə məruz qaldı, torpaqlarınıız itirildi, prinsipsiz hakimiyyət mübarizəsi nəticəsində xalqımız amansız maddi və mənəvi fəlaketlərlə qarşılaşdı.

1992-1993-cü illərdə, AXC-Müsavat cütlüyünün hakimiyyəti dövründə antielitizm təzahürləri daha geniş yayıldı və ictimai-siyasi və dövlət həyatının bütün sahələrini əhatə etdi. Dövlət idarəçiliyində, təsərrüfatda, elm, təhsil və mədəniyyət məsələlərinə rəhbərlikdə tecrübəsi və səriştəsi olan kadrların əksəriyyəti rəhbərlikdən uzaqlaşdırıldı, bir çox hallarda kriminal keçmişə malik və marginal ünsürlər, anarxist-lümpen psixologiyasının daşıyıcıları məsul dövlət vəzifələrinə irəli çəkildi, sovet dövründə yaradılmış bütün maddi və mənəvi sərvətlərdən, böyük potensialdan

imtina etmək xətti götürüldü. Neçə onillik ərzində ağır zəhmət bahasına əldə edilmiş mədəni-mənəvi mühit qısa müddət ərzində tənəzzülə uğradı. Qurmağın, yaratmağın nə olduğunu bilməyənlər əllərinə fürsət düşən kimi dağıdıcılıq sahəsində çox böyük məharət nümayiş etdirdilər.

Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası isə ilk vaxtdan ziyalıların partiyası kimi meydana çıxdı, onun sağlam, en yaxşı qüvvələrini birləşdirən elitar qüvvə kimi çıxış etdi. YAP Azərbaycanda yeganə partiya idi ki, həm güclü lider şəxsiyyət, həm də güclü ideya azərbaycançılıq ideyası ətrafında formalaşmışdı.

Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə 1992-1993-cü illərdə ölkənin düşdüyü ağır ictimai-siyasi böhran və hərbi məğlubiyyətlər nəticəsində vətəndaşlarda yaranmış milli natamamlıq kompleksi tədricən insanlarda özünə inam, quruculuq və vətənpərvərlik hissləri ilə əvəz olundu. İnsan hüquq və azadlıqlarının təmin edilməsi, Azərbaycanın dünya birliyinə inteqrasiyası, dünya azərbaycanlılarının birliyinin və həmrəyliyinin təmin edilməsi üçün ardıcıl siyasət həyata keçirildi. Azərbaycanlıların elitar gücə, mütəşəkkil topluma çevrilməsi xətti reallaşdırılmağa başlandı.

Yeni tarixi şəraitdə Heydər Əliyevin xalqımız qarşısında mühüm xidmətlərindən biri məqsədyönlü şəkildə idarəçi kadrlar, gənc siyasətçilər yetişdirməsi, onun idarəçilik məktəbinin formalaşmasıdır.

Bu gün biz tam əsasla deyə bilərik ki, Azərbaycanda beynəlxalq standartlara cavab verən keyfiyyətcə yeni milli elita formalaşmışdır. Bu elitanın yaranması və formalaşmasında ümummilli liderimiz Heydər Əliyev həlledici rol oynamışdır. 2003-cü ildə prezident seçkiləri hakim elitanm və kontrelitanm xalqın etimadını qazanmaq uğrunda mübarizəsi olacaqdır.

Hakim Yeni Azərbaycan Partiyası bu gün böyük intellektual potensiala, təşkilati gücə malik sıx birləşmiş elitar siyasi qüvvədir. Yeni Azərbaycan Partiyası cəmiyyətin qarşısında duran təxirəsalınmaz, zəruri vəzifələrin həll edilməsi üçün onun sağlam qüvvələrini özündə birləşdirən kütləvi siyasi təşkilata və parlaq siyasi liderə ehtiyacdan yarandı. Azərbaycan Prezidentinin qürurla qeyd etdiyi kimi, "bizim patiyanızda əsasən çox yüksək səviyyəli insanlar vardır. Alimlər, professorlar, akademiklər, sadəcə, çox ağıllı adamlar, mütəxəssislər vardır. Ona görə, ümumiyyətlə, bizim partiyamn say tərkibi, ümumi tərkibi intellektual nöqteyinəzərdən çox yüksəkdir və heç bir partiya bununla müqayisəyə gələ bilməz".

Yeni Azərbaycan Partiyasının və ayrı-ayrı elm, təhsil müəssisələrinin təşəbbüsü ilə Heydər Əliyevin dövlətçilik təcrübəsini sistemli şəkildə öyrənmək, ondan bəhrələnmək və gələcək nəsillərə çatdırmaq üçün rayon və şəhərlərdə, ali məktəblərdə mütəmadi olaraq elmi sessiyalar, elmipraktik konfranslar, dəyirmi masa ətrafında müzakirələr keçirilir. Respublikamızın bütün şəhər və rayonların da, elm, təhsil müəssisələrində, hakimiyyət və idarəetmə orqanlarında fəaliyyət göstərən "Dövlət idareçiliyi universitetləri" vasitəsilə Heydər Əliyevin zəngin idarəçilik təcrübəsi, rəhbərlik metodları əsasında müstəqillik və azərbaycançılıq ideyalan dayanan əliyevçilik təlimi bütün vətəndaşlar, əhalinin bütün təbəqələri və zümrələri tərəfindən böyük maraq və həvəslə təbliğ edilir, öyrənilir, həyat prinsiplərinə çevrilir. Ümummilli liderimiz Yeni Azərbaycan Partiyasımn qurultaylarındakı nitqlərində, digər çıxışların  da bizim hər birimizi ideoloji sahədə aktiv mövqe tutmağa, dövlət kursunu, partiyamızın siyasətini və ideya prinsiplərini fəal, arqumentləşdirilmiş şəkildə müdafiə etməyə, təbliğ etməyə, populyarlaşdırmağa çağırmış, bunun hər bir partiya üzvünün birinci dərəcəli vəzifəsi olduğunu qeyd etmişdir. Düşünürük ki, hər bir partiya üzvü, Prezidentimizin siyasətini reallaşdırmaq istəyən hər kəs, harada işləməsindən, dövlət qulluğunda, özəl sektorda çalışmasından, tutduğu vezifədən asılı olmayaraq həm öz sahəsini, görülən işləri peşəkarlıqla təbliğ etməli, həm də Prezidentin kursunu, dövlət siyasətini yüksək səviyyədə müdafiə etmeyi bacarmalıdır. Dediklərimiz, əlbəttə, dövlət  strukturlarında rəhbər vəzifə tutan şəxslərə, kütləvi informasiya vasitələri ilə işə məsul olan şəxslərə xüsusilə aiddir.

Müxalifət ideoloqları Rəsulzadə məktəbinin, Elçibəy məktəbinin mövcud olması haqqında fikri ictimaiyyətə təlqin etmək istəyir, özlərini isə bu məktəbin ardıcılları kimi təqdim edirlər. Lakin bu məktəbin idareçilik, dövlət nizamı və ənənələri baxımmdan nə kimi resurslara malik olması və gənclərə, siyasətçilərə nəyi öyrətdiyi haqqında müxalifət fünksionerlerinin və ideoloqlannm hələlik hər hansı şərhə və məntiqi açıqlamaya rast gelməmişik. Bu idarəçilik felsəfəsinə, həmçinin avantürizm, məsuliyyətsizlik, populizm, reallıqdan uzaq şüarçılıq xasdır. Hətta müxalifətdə olduğu müddətdə də bu düşüncə tərzinin ardıcılları mövcud siyasi reallıqlara, beynəlxalq hüquq normalarına uyğun olmayan şüarlarla, ideya və təkliflərlə çıxışlar edirlər. Siyasəti, dövlət idarəçiliyini dəməkçilik, özfəaliyyət

kimi təsəvvür edirlər. Hakimiyyət ehtiraslarını ödəmək və məkrli ssenariləri reallaşdırmaq üçün hətta heç bir ölkədə analoqu və heç bir hüquqi əsası olmayan, konstitusion siyasi prosesləri pozmağa yönəlmiş təkliflərlə çıxış edirlər.

Bu gün də belə hesab edirik ki, bizim müxalifətdə qabiliyyətli, istedadlı, dövləti, xalqı, vətəni sevən, onun xoşbəxtliyinə çalışan insanlar yox deyil. Hər bir sivil ölkədə sistem daxilində fəaliyyət göstərən konstruktiv müxalifətin olması tamamilə normal haldır. İnkişaf etmiş demokratiyalarda isə müxalifətçilik mədəniyyəti artıq ayrılmaz siyasi dəyərlərdən birinə çevrilmişdir. Heydər Əliyevin dövlət idarəçiliyi universitetinin dərslərini qəbul etmiş, əxz etmiş adamlar indiki müxalifət liderləri ilə müqayisədə dövlət idarəçiliyi, sabitliyin təmin edilməsi, daxili və xarici siyasət, böhranlı, qeyri-standart vəziyyətlərdə ölkənin idarə olunması məsələlərində hədsiz üstünlüklərə malikdirlər. Bu yeni siyasətçilər nəsli, Azərbaycanın müasir elitası pozitiv istiqamətdə, quruculuq yönündə fəaliyyət göstərir, dövlət nizamına, komanda iş prinsiplərinə üstünlük verir, öz səriştəliliyi, dünya görüşünün genişliyi, vətənpərvərliyi ilə seçilir. Müasir siyasi elita dövlət sükanını möhkəm tutmağa, Azərbaycanın müstəqilliyi, sabitlik, davamlı inkişaf kimi prioritet dəyərləri təmin etməyə və həyata keçirilən iqtisadi, hüquqisiyasi islahatları başa çatdırmağa qadirdir. İqtisadi, hüquqisiyasi və idarəetmə sistemində islahatlar dərinləşdikcə, nəhəng enerji-iqtisadi layihələr bəhrəsini verdikcə gənclərin, yeni tipli siyasətçilərin siyasi fəallığı, təşəbbüskarlığı daha da artacaq, onlar ölkənin ictimai-siyasi həyatında, dövlət quruculuğunda daha yaxından iştirak edəcəklər.

Müasir dövlət idarəçiliyi və siyasi liderlik bütün dünyada tamamilə yeni meyarlarla müəyyənləşir. Dünya siyasət aləmi yeni rəhbərlər, liderlər qarşısında tamamilə fərqli tələblər qoyur. Bu gün dünyada baş verən qloballaşma və inteqrasiya prosesləri, informasiya axmı şəraitində dövlətin idarə olunması tamamilə yeni keyfiyyətlər, inkişaf variantlarını modelləşdirmək, fərqli situasiyalarda idarəetmə vərdişləri, operativ və əsaslandınlmış qərarlar qəbul etmək bacarığı tələb edir. Siyasətdə bu gün məhz realistcəsinə düşünməyi bacaran vətənpərvər intellektuallara, praqmatiklərə, inkişafın çoxvariantlılığını nəzərdə tutan alternativ proqramlara və layihələrə ehtiyac vardır.

Azərbaycan kontrelitası isə özünün perspektivsizliyini və sabit, səmərəli idarəetmə potensialına malik olmadığını nümayiş etdirir. Azərbaycanın

ifrat radikal müxalifəti on ildən çox müddət ərzində, demək olar, heç deyişməyib və döylətçilik, konstruktivlik mənasında heç nəyi öyrenməyib. Özlərini müxalifətin əsas partiyaları hesab edən qurumlar indiyə qədər xalq üçün, sıravi vətəndaşlar üçün cəlbedici, elmi cəhetdən əsaslandırılmış, reallaşma dərəcəsi yüksək olan heç bir layihə və proqram təqdim edə bilməmiş, ictimaiyyətin müzakirəsinə çıxarınağı bacarınamışlar. Müxalifət başçıları hətta nəzəri şəkildə belə sübut edə bilməyiblər ki, hər hansı problemi onlar Heydər Əliyevdən daha yaxşı həll edə bilərlər. Müxalifət sıralarında olan azçox realist düşüncəli insanlar və bir çox xarici ekspertlər kədər və təəssüf hissi ilə qeyd edirlər ki, partiya rəhbərlərinin və funksionerlərinin çoxu onon iki il ərzində siyasi mədeniyyət, siyasi şüur səviyyəsi baxımından bir addım da qabağa getməyib. Məsələn, AMİP şədri Etibar Məmmədov və Müsavat sədri İsa Qəmbər ötən ilin may-iyun ayların da ABŞ-a səfər zamanı amerikalı ekspert və jurnalistlərin "Hakimiyyətə gələcəyiniz halda Heydər Əliyevdən fərqli hansı siyasəti yeridəcəksiniz" sualına heç bir tutarlı və fərqli cavab verə bilməmişdilər.

Bunu başa düşdüklərinə görə Azərbaycanda indiki müxalifət adına iddia edən qüvvələr hakimiyyətə gəlmək üçün öz istəklərinə və xəyallarına uyğun müxtəlif analitik mərkəzlərdə quraşdırılmış ssenarilər düşünürlər. Uyğun ideoloji prinsiplərə əsaslanmayan çoxsaylı bloklaşmalar bir nəticə vermir. Sosial bazanın son dərəcə məhdudluğu, onun tədricən əriməsi destruktiv müxalifəti qanunazidd, avantürist hərəkətlərə sövq edir. Fəlsəfə elmləri doktoru Ramiz Mehdiyevin "XXI əsrdə milli dövlətçilik: demokratik inkişaf və müxalifət" kitabında qeyd etdiyi kimi, müxalifət ideoloqları başa düşürlər ki, növbəti prezident seçkilərindən sonra onlar hakimiyyət uğrunda mübarizə aparınaq bir yana qalsın, sadəcə, müxalifətdə qalmaq, bir partiya kimi mövcudluğunu saxlamaq uğrunda mübarizə aparınalı olacaqlar.

Müasir destruktiv müxalifət mənfi enerji ilə yüklənmişdir. Nəzərə alaq ki, enerji istər mənfi, istərsə müsbət yüklü olsun, itmir, yalnız transformasiya oluna bilir. Bu enerji müxalifət və ümumilikdə cəmiyyət üçün dağıdıcı rol oynayır, müxtəlif xaotik və anarxist hərəkətlər üçün pis bir nümunə mahiyyəti daşıyır. Anarxiya və xaos, dağıdıcılıq stixiyası yüksək yaşam qabiliyyətinə malikdir, tez sirayət edir, düşüncəni kütləşdirir, ictimai şüur və davranışda onun residivləri çox təhlükəlidir.

Maraqlı olan başqa bir cəhət ondan ibarətdir ki, müxalifət hətta müstəqil dövlətçilik şəraitində xalqımızın güclü rəhbərinin olmasını, ümummilli lider səviyyəsinə yüksəlməsini mənfi hal kimi qiymətləndirir. Qəribə də olsa, müxalifət zəif, "demokratik", partiyaqrup səviyyəli "liderləri" təbliğ edir. Məqsəd aydındır: müxalifət funksionerlərini və fəallarını hakimiyyətsizlik, anarxiya, xaos mühiti daha çox cəlb edir. Dövlətçilik təfəkkürünün olmamasının hansı fəsadlar doğurduğunu təsəvvür etmək üçün bundan daha əyani nümunə göstərmək çətindir.

Bu gün Azərbaycan cəmiyyəti, YAP milli elitanm parlaq nümayəndəsi İlham Əliyevi gələcək lider kimi görür, ölkənin perspektivini belə siyasətçilər komandası ilə bağlayır. İlham Əliyevin şəxsiyyəti və xidmətləri haqqında çox danışılmışdır, buna görə də onun müxtəlif məsələlərə münasibətini əks etdirən fikirləri ilə kifayətlənməyi məqbul hesab edirik.

Yeni Azərbaycan Partiyasının II qurultaymdakı çıxışında İlham Əliyev müxalifət mövqelərində dayanan destruktiv, dağıdıcı qüvvələrdən fərqli olaraq, hakim elitanın konstruktivliyini, vətənpərvərliyini xüsusi vurğulamışdır: "1993-cü ilə qədər müxalifətdə olarken biz indiki müxalifətdən fərqli olaraq, heç vaxt Azərbaycan dövlətçiliyinə qarşı yönəldilən, ölkəmizə zərər vura biləcək heç bir şey etməmişik. Bugünkü müxalifətdən fərqli olaraq, biz heç vaxt xaricdəki ermənipərəst qüvvələr qarşısında özümüzü alçaltmamışıq. Bugünkü müxalifətdən fərqli olaraq, biz heç vaxt "ölkəde vəziyyət nə qədər pis olsa, bizim üçün bir o qədər yaxşıdır" prinsipi ilə yaşamamışıq" ("Azərbaycan", 23.11.01). Onun yüksək savadı, Azərbaycan ənənələri və mentaliteti şəraitinde az əhəmiyyətə malik olmayan əsilnəcabəti, bilavasitə Heydər Əliyeydən əxz edilmiş siyasi təcrübəsi, müasir düşüncə terzi, sivil siyasi mübarizə tərəfdarı olması və işdə bunu sübut etməsi bu imkanları artıran amillərdir.

İlham Əliyevin siyasetə münasibəti müasirləri üçün dəyərli nümunə sayıla bilər: "Siyasət sözlərə deyil, şüarlara deyil, məhz real işlərə əsaslanmalıdır. Mən yaradıcı siyasətçilərə hörmət bəsləyirəm. Ona görə də siyasətdə ilk növbədə praqmatizmi qəbul edirəm, yəni gördüyün iş xalqın mənafeyinə və səni istər deputat, istərsə də hər hansı bir vəzifəyə seçmiş adamların mənafelərinə cavab versin ("Azərbaycan", 01.05.03).

İlham Əliyev siyasətdə varislik haqqında: "Qəti əminəm ki, Azərbaycanda hakimiyyətin varisliyi mövcud olmalıdır. Azərbaycan rəhbərliyinin

apardığı siyasət yeganə düzgün siyasətdir. Hazırda yeridilən xətt davam etdirilməlidir. İndiki siyasət bir çox onilliklər üçün nəzərdə tutulmuş siyasət olmalıdır. Əks halda Azərbaycan yenə də hansısa hərcmərcliyə məruz qala bilər" ("İzvestiya", 19.05.01).

İlham Əliyevin müxalifətin siyasi düşüncəsi və yeni siyasətçilər nəsli haqqında fikirləri də maraqlıdır: "Bu adamlar özlərinin yaratdığı xırdaca siyasi mikromühitdə yaşayırlar. Respublikanın real siyasi həyatı tamam başqa miqyaslarda cərəyan edir və elmin, istehsalm, incəsənətin, biznesin müxtəlif sahələrində özlərini göstərən istedadlı adamlar ön mövqelerə çıxırlar". Avropa Şurası Parlament Assambleyasında onun rəhbərliyi altında hakimiyyəti, bitərəfləri və müxalifəti təmsil edən deputatların koordinasiyalı şəkildə işleməsi, vahid komanda kimi özünü göstərməsi, Azərbaycanın aktual problemlərinə diqqəti cəlb etməsi müasir tariximizdə diqqətəlayiq hadisədir. İlham Əliyev yaradıcı, barışdırıcı, inteqrativ siyasətçilər nəslinin parlaq nümayəndəsidir. Yaxın onilliklər üçün Azərbaycanın elitası, onun idarəçilik, intellektual, siyasi potensialı məhz Heydər Əliyev, onun siyasi kursunun ardıcılları ilə təmsil olunacaq.

Məşhur Amerika politoloqu Z.Bjezinski vaxtilə belə bir fikir irəli sürmüşdü ki, əksər postsovet respublikalarında iqtisadiyyatda, siyasi sahədə, demokratik təsisatların inkişafı baxımından keçid dövrü üçün 1520 il vaxt tələb olunur. Azərbaycan Prezidentinin rəhbərliyi altında ölkəmizdə görülmüş işlər bunu deməyə tam əsas verir ki, bizim üçün bu müddət daha qısa olacaqdır.

Möhtərəm Prezidentimizin 80 illiyi ilə əlaqədar keçirilən tedbirlərdə, ayrı-ayrı kollektivlərin, şəhər və rayon sakinlərinin, əhalinin en müxtəlif təbəqələrini və qruplarını təmsil edən şəxslərin müraciətlərində ümummilli liderə böyük xalq məhəbbətinin canlı şahidi oluruq. Xalqımız öz rəhbərini hərarətlə sevir, ona özünün inamını, etibarını səmimiyyətlə ifadə edir. Ümummilli liderimizə məhz xalqın bu inamı və etibarı ən böyük siyasi kapitaldır.

**Nazim İSAYEV,**
**tarix elmləri namizədi**
*10 may, 2003*

# ÇƏTİN VƏ UGURLU QURUCULUQ İLLƏRİ

Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin "XXI əsrdə milli dövlətçilik: demokratik inkişaf və müxalifət" (Bakı, 2003) monoqrafiyası çapdan çıxmışdır. Kitab elm adamları, ali məktəb müellimləri və eləcə də geniş oxucu kütləsi tərəfindən maraqla qarşılanmışdır. Burada söhbət milli dövlətçilik ənənələrimizdən, onun formalaşması, təkamülü, inkişaf problemləri və perspektivlərindən gedir.

Azərbaycan olduqca qədim və zəngin dövlətçilik ənənələrinə malik ölkələrdən biridir.

Əsər "XX əsrin sonu və XXI əsrin əvvəlində yeni dünya nizamı və milli ideya" və "XXI əsrdə milli dövlətçilik: demokratik inkişaf və müxalifət" fəsillərindən və iki əlavədən ibarətdir. Kitabın əsas ana xətti dövlətçilik ənənələrimiz və onların inkişaf meyillərinin təhlilindən ibarətdir.

İlk səhifələrində gətirilən tezis onun leytmotivini təşkil edir: "İctimaitarixi prosesdən yalnız o zaman danışmaq mümkündür ki, iki başlanğıc bir tərəfdən inkişaf və yeninin yaradılması, diger tərəfdən isə keçmişlə varisliyin qorunub saxlanmasının qarşılıqlı əlaqəsi və çulğalaşması olsun".

Müəllifm fikrincə, bu inkişafm əsasında:

- yeni dövlətçiliyin yaradılması;
- dövlətçilikdə varisliyin qorunub saxlanması;
- yeni dövlət quruculuğu ilə varisliyin qarşılıqlı əlaqəsinin təmin edilməsi durur.

Bu, bir tərəfdən özünüinkişafa daxili stimullar yaradılması, bəşəriyyətin, cəmiyyətin, dövlətçiliyin aşağıdan yuxarıya, ibtidaidən aliyə, sadədən mürəkkəbə doğru inkişaf prosesidir. Yəni həyatın özüdür. Cəmiyyətin və dövlətin yeniləşməsi və inkişaf prosesidir, deməli, reallıqdır.

Digər tərəfdən isə bu inkişaf prosesində əvvəlki irsin üstündən xətt çəkmək deyil, ölkənin sosial-iqtisadi inkişafına dinamizm gətirmək üçün əvvəlki dövrlərdə müsbət nə varsa, onların yeni keyfiyyət halmda istifadə edilməsidir. Müəllif bu iki istiqamətin təhlilini müxalifətin destruktiv ünsürlərinin tənqidi fonunda verir.

Azərbaycan xalqının ikinci dəfə müstəqil dövlətini yaratması və inkişafı gərgin şəraitdə baş vermişdir. 1991-ci il oktyabrm 18-də ölkə parlamentində "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul olundu. Yeninin yaranması və varislik ənənəsinə riayət onun məzmununu təşkil etdi.

Azərbaycan dövlətçiliyinin keçdiyi inkişaf yolunu iki mərhələyə ayırmaq olar.

Birinci mərhələ 1991-ci il oktyabr ayının 18-dən 1993-cü il iyun ayınnın 15-nə qədərki dövrdür.

İkinci mərhələ isə 1993-cü ildən bugünə kimi ümummilli liderimiz Heydər Əliyevin başçılığı ilə dövlətçiliyimizin keçdiyi inkişaf yoludur.

Birinci mərhələdə 50 nəfər deputatdan ibarət Milli Şura yaradıldı. Sonra onun adı dəyişdirilərək Milli Məclis edildi. Dövlət atributları dövlət himni, bayrağı, gərbi haqqında qanunlar və bir sıra digər qanunvericilik aktları qəbul olundu. Lakin ölkədəki qeyrisabit vəziyyət, Azərbaycan dövlətinin və parlamentinin başında duranların siyasi naşılığı, Əbdürrəhman Vəzirovun, daha sonra Ayaz Mütəllibovun "buyuruq qulu" olması, hakimiyyət başına gələn Əbülfəz Əliyevin və parlamentin sədri İsa Qəmbərin ambisiyalı çıxışları, düşünülməmiş bəyanatları, 25 nəfəri iqtidardan, 25 nəfəri isə müxalifətdən olan deputatların müxtəlif siyasi oyunlara cəlb edilməsi hakimiyyət böhranmı günbəgün dərinləşdirirdi. Doğrudur, bu illərdə parlamentdə reallığı dərk edən deputatlarınıız da var idi. Lakin onlar azlıq təşkil edirdilər.

AXC-Müsavat cütlüyünün hakimiyyəti dövründə torpaqlarınıız birbirinin ardınca işğal olunurdu. 1992-ci il fevral aymm 26-da Xocalı soyqırımı törədildi. Bəşər tarixində görünməmiş cinayət baş verdi. Uşaqlar, qocalar, qadınlar erməni qəsbkarları və onların havadarları tərəfindən vəhşicəsinə qətlə yetirildilər. Bunun ardınca 1992-ci il may ayının 8-də Şuşa, 18-də Laçın, 1993-cü il aprel ayının 2-də isə Kəlbəcər işğal olundu.

Ölkəmizin tarixinin bu dövrünü tədqiq edən müəllif aşağıdakı qənaətə gəlir: "Azərbaycanın ən yeni tarixi bizim gözümüz qarşısında keçmişdir. Biz onun şahidləri, bilavasitə iştirakçılarıyıq və ona görə də deyirik: müasir milli "əkselita"dan az-az adam tapılar ki, yeni zəmanənin tələblərinə cavab verə bilsin".

Hadisələrin gedişi həmin vaxtlarda respublikaya rəhbərlik edənlərin iç üzünü açdı, onların buqələmun kimi tez-tez qiyafələrini dəyişdirdiklərini aşkar etdi. Kitabda belə "siyasət adamlarının" siyasi simasızlıqları açılır və ünvanı göstərilir. Onlardan biri "respublika üçün çətin vaxtda ölkəni taleyin hökmünə buraxmış və hərbi təyyarəyə minərək məsuliyyətdən və öz xalqının qəzəbindən qurtarınaq üçün Moskvaya qaçmış Ayaz Mütəllibovdur? Yaxud, 70 milyon dollardan çox pulu mənimsədiyinə görə istintaq orqanlarının haqqında cinayət işi qaldırdığı və məsuliyyətdən yaymaraq ABŞ-da gizlənən Rəsul Quliyevdir? ...Əyalət siyasətçisi səviyyəsindən yuxarı qalxa bilməyən Əli Kərimovdur?.. Hələ də kiçik elmi işçi "libas"nın göründüyü və müxalifət üzrə "məsləkdaşlar"ının üz döndərdikləri İsa Qəmbər, yaxud öz sosial bazasını və partiya silalaodaşlarını itirən Etibar Məmmədovdur?"

Kitabda bu adamların siyasi dönüklüyü haqqında gətirilən konkret fakt "...tarixin həlledici anların da... kor adam kimi aciz qaldıqlarını" sübut edir. Bu adamlar həlledici anlarda xalqın, vətənini kreslolarına qurban verməyə hazır olanlardır. Bu keyfiyyətlərə malik olduqları barədə onların "siyasi fəaliyyətinin özü cəmiyyətə təkzibolunmaz sübutlar vermişdir".

Vəziyyət elə idi ki, o dövrdə hadisələri Azərbaycan rəhbərliyinin iradəsi deyil, erməni separatçıları idarə edirdilər. Elə vəziyyət yaranmışdı ki, Azərbaycanı "idarə edənlər" hadisələr gerçəkləşdikdən sonra tədbirlər haqqında fikirləşməyə başlayırdılar.

Tarixi təcrübənin göstərdiyi kimi, belələri daim uduzur.

AXC-Müsavat cütlüyünün respublikada yaratdığı ictimai-siyasi xaos, anarxiya, "dövlət reketçiliyi" nəticə etibarilə milli və vətəndaş qarşıdurmasının kəskinləşməsinə və hakimiyyətin tam iflasına səbəb oldu. Xarici siyasət ölkənin regionda və dünyada təklənməsinə, respublika ətrafında faktiki olaraq antiazərbaycan koalisiyasının fomıalaşmasına gətirib çıxarınışdı. 1993-cü ilin ortalarında Azərbaycanı dərin siyasi və ictimai böhran bürümüşdü. Azərbaycan "olum, ya ölüm" dilemması qarşısında qalmışdı.

Xalq başa düşürdü ki, Azərbaycanı bütün bu bəlalardan, müsibətlərdən, faciələrdən yalnız Heydər Əliyev dühası qurtara bilər. Yüzlərlə əmək kollektivi o vaxtlar Naxçıvan Ali Məclisinin Sədri vəzifəsində çalışan Heydər Əliyevin hakimiyyətə qayıdışını təkidlə tələb edirdi. Ölkəni idarə etmək səriştəsinə malik olmadıqlan açıqaşkar görünən AXC-Müsavat cütlüyünün Heydər Əliyevi Bakıya dəvət etməkdən başqa çıxış yolu qalmamışdı.

Bu tarixi qayıdış öz bəhrəsini verdi. Möhtərəm Heydər Əliyev iyun ayının 15-də respublka Ali Sovetinin Sədri seçildi.

Bu, elə bir vaxt idi ki, Gəncədə 4 iyun hadisələri baş vermiş, qan tökülmüşdü. Bu, elə bir vaxt idi ki, Əlikram Hümbətov kimi separatçılar qondarma Talış-Muğan respublikası yaratmağa, Azərbaycanın əyalətlərə, quberniyalara parçalanmasının əsasını qoymağa çalışırdılar. Elə bir vaxt idi ki, hələ də cəbhədə qan tökülür, torpaqlarımız düşmən tərəfindən zəbt edilirdi.

Belə bir ağır şəraitdə Heydər Əliyev çalışdı ki, xalq ölkədə baş verən bütün proseslərdən xəbərdar olsun. Milli Məclisin iclasları, mətbuat konfransları, brifinqlər, müşavirələr birbaşa yayımla televiziya ekranlarında göstərilirdi. Xalq hər şeydən xəbərdar oldu.

Problemlərin həlli istiqamətində konstruktiv tədbirlər həyata keçirilməyə başlandı.

İqtisadiyyatda və həyatm başqa sahələrində irəliləyiş, inkişaf yarandı. Dövlətə və onun rəhbərlərinə itirilmiş inam xalqın özünə qaytarıldı. AXC-Müsavat cütlüyünün hakimiyyəti dövründə nüfüzlu dövlətlərlə pozulmuş münasibətlər bərpa edildi. Ölkədə siyasi sabitlik yarandı. İnsanlar qorxub-çəkinmədən küçəyə çıxa bildilər. Bütün bunlar Heydər Əliyev idarəçiliyinin, Heydər Əliyevin müdrik siyasətinin uğurlu nəticəsi idi.

Müəllif dövlət müstəqilliyi dövründə Azərbaycan parlamentinin keçdiyi yola nəzər salaraq 1995-ci ildə Azərbaycanın yeni Konstitusiyasının qəbulunun və demokratik əsaslarla seçilmiş ilk parlamentinin həm birinci çağırışdakı, həm də indiki mərhələdəki fəaliyyətini xüsusi qeyd edir. Kitabda göstərilir ki, beynəlxalq hüquq təcrübəsində smaqdan çıxmış hakimiyyətin bölünməsi prinsipi əsasında fəaliyyət göstərən Azərbaycan Respublikasının Milli Məclisi qarşısında duran vəzifələrin öhdəsindən layiqincə gələrək Konstitusiya ilə müəyyən edilmiş səlahiyyətlərini həyata keçirir. 1997-ci il iyun aymm 27-də Milli Məclis xalqımızın müxtəlif zümrələrinin, minlərlə seçicinin müraciətlərini, arzu və istəklərini nəzərə alaraq görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin respublikada hakimiyyətə qayıtdığı 15 iyun gününün Azərbaycan xalqının Milli Qurtuluş Günü elan edilməsi barədə xüsusi qərar qəbul etdi. Bu qərar Azərbaycanın böyük oğlu, görkəmli siyasi xadim Heydər Əliyevə ümumxalq məhəbbətinin parlaq təzahürü idi.

Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan parlamenti ölkədə siyasi, iqtisadi, sosial islahatların həyata keçirilməsinə hüquqi baza yaradılması sahəsində gərgin fəaliyyət göstərmiş, 1500-dən çox qanun, qanunlara dəyişikliklər və əlavələr qəbul etmişdir.

Müəllif qeyd edir ki, bunlar bir tərəfdən Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğunun təmin edilməsi, çoxpartiyalılığa əsaslanan siyasi sistemin yaradılması, insan və vətəndaş hüquqlarının qorunmasına xidmət edən təsisatların formalaşmasıdırsa, digər tərəfdən, ölkəmizdə azad rəqabətə əsaslanan iqtisadiyyatm qurulması məqsədini güdən qanunvericilik tədbirlərini əhatə edir.

Möhtərəm Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən hüquq islahatları hüquq-mühafizə orqanları sisteminin yenidən formalaşmasını tələb edirdi. 1998-ci ildə respublika Prezidenti möhtərəm Heydər Əliyevin təşəbbüsü ilə Şərqdə ilk dəfə olaraq ölkəmizdə ölüm cəzası ləğv edilmiş və bu barədə Milli Məclisdə müvafiq qərar qəbul olunmuşdur. Bu addım dövlətin cəza siyasətinin humanistləşməsinin mühüm bir göstəricisi oldu.

Əsərdə qeyd olunur ki, keçən dövr ərzində insanpərvərlik və humanizm prinsiplərinə əsaslanan dövlət başçısı möhtərəm Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclis tərəfindən 7 dəfə amnistiya qərarları qəbul edilmiş və bunlar nəticə etibarilə 80 mindən çox məhbusa tətbiq edilmişdir. Kitabda göstərilir ki, respublikamız bu gün təkcə regional deyil, həm də qlobal layihələrin həyata keçirilməsinin təşəbbüsçülərindən və fəal iştirakçıların dan biridir.

Qədim, tarixi İpək yolunun bərpası istiqamətində mühüm işlər görülmüşdür. Bu sahədə qəbul olunan mühüm qanunvericilik sənədləri sırasında "Tarixi İpək yolunun bərpası üzrə beynəlxalq konfransda imzalanmış Bakı Bəyannaməsinin təsdiq edilməsi barədə", "Tarixi İpək yolunun bərpası üzrə beynəlxalq konfransda imzalanmış AvropaQafqazAsiya dəhlizinin inkişafına dair beynəlxalq nəqliyyat haqqında əsas çoxtərəfli sazişin təsdiq edilməsi barədə" qanunları misal göstərmək olar.

Kitabda ölkə Prezidenti Heydər Əliyevin rəhbərliyilə Azərbaycanda bazar münasibətlərinə xas olan iqtisadi islahatların həyata keçirilməsi, ölkədə hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu işlərinin aparılması araşdırılır, görülən tədbirlərin bazar iqtisadiyyatı prinsipləri əsasında ölkənin sosial-iqtisadi inkişafının sürətlənməsinə şərait yaratdığı qeyd olunur.

Milli Məclis kənd təsərrüfatı sahəsində də köklü islahatların həyata keçirilməsinə dair çox vacib qanunlar qəbul etmişdir. "Torpaq islahatı haqqında" qanun MDB məkanmda kend təsərrüfatı islahatlarının aparılması sahəsində atılmış ən cəsarətli addımlardan biridir.

Bu gün bizim ən böyük problemimiz ErmənistanAzərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. 2001-ci il fevral ayının 23-də və 24-də Prezidentimizin təşəbbüsü ilə Milli Məclisdə keçirilən iclaslar, möhtərəm Heydər Əliyevin dərin məzmunlu nitqləri, aparılan müzakirələr bir daha təsdiq edir ki, bu problemin həlli yolunda bir sıra mühüm tədbirlər görülmüşdür. Həmin yığıncaqda möhtərəm Heydər Əliyev demişdir: "Onu bilin, bu gün də, sabah da Heydər Əliyev Azərbaycan xalqının mənafeyinə zidd olan heç bir şeyi qəbul etməz".

Heydər Əliyevin bu qətiyyəti xalqımızda Ermənistan-Azərbaycan, Dağlıq-Qarabağ münaqişəsinin ümummilli liderimizin rəhbərliyi ilə həll olunacağına inamı gücləndirir.

Azərbaycanın Milli Məclisi möhtərəm Prezidentimizin həyata keçirdiyi daxili və xarici siyasəti dəstəkləyərək dövlətçiliyin möhkəmləndirilməsinə yönəlmiş mühüm qanunvericilik aktlarının qəbul edilməsi istiqamətində məqsədyönlü fəaliyyət göstərir.

1970-ci illərdə və 1980ci illərin əvvəllərində Heydər Əliyev Azərbaycanın suveren hüquqlarının pozulmasına yönələn bütün cəhdlərin qarşısını vaxtında, qətiyyətlə alırdı. Həmin illərdə Azərbaycan parlamenti respublikada həyata keçirilən böyük quruculuq işlərinə hüquqi baza yaradırdı. Qanunvericilik hakimiyyətinin işində mühüm irəliləmələr Heydər Əliyev şəxsiyyəti, onun çoxcəhətli idarəçilik istedadı, müdrik siyasi dövlətçilik fəaliyyəti ile sıx bağlı idi. Təəssüf ki, o, 1982-ci ilin sonlarında Moskvada SSRİ-nin yüksək partiya və dövlət vəzifələrinə irəli çəkildikden sonra bu işləri davam etdirmək üçün respublikanın yeni rəhbərliyində, habelə parlament üzvlərində lazımi güc, iradə olmadı.

SSRİ-nin süqutu ilə bağlı dünyada baş verən prosesləri vaxtında və düzgün qiymətləndirib nəzərə almaq, xalqı gözləyən təhlükələri əvvəldən duymaq və qabaqlayıcı tədbirlər gönnək, vahid milli platforma yaratmaq vacib olduğu halda, təəssüf ki, Azərbaycanın o vaxtkı rəhbərliyi və parlamenti bağışlanmaz passivlik, laqeydlik göstərdi.

O zaman müxtəlif siyasi ambisiyalarını, hakimiyyəti ələ keçirmək niyyətlərini populist çıxışlarla pərdələyə bilən, siyasi təcrübəsi olmayan səbatsız qüvvələr qabağa çıxdı və xalqı öz ardınca aparınağa çalışdı. SSRİ-nin süqutu nəticəsində müstəqilləşmə paradını labüdlüyünün aydın olduğu bir vaxtda başlanmış bu prosesin Azərbaycanda böyük qurbanlar, itkilər hesabına getməsi bir tərəfdən respublika rəhbərliyinin, parlamentin, digər tərəfdən meydana çıxan yeni siyasi qüvvələrin naşılığı üzündən baş vermişdi.

İmperiya dağıldıqdan sonra müstəqil dövlət olmuş Qazaxıstanın, Özbəkistanın, Qırğızıstanın, Moldovanın, Ukraynanın, Baltikyanı ölkələrin təcrübəsi göstərir ki, böyük qurbanlar vermədən hakimiyyətin, siyasi və iqtisadi sistemin təzadsız dəyişilməsini təmin etmək mümkün idi.

1990-cı ilin sentyabrında fövqəladə vəziyyət şəraitində parlament seçkilərinin keçirilməsi siyasiləşmiş cəmiyyətdə bu orqanın səmərəli işləməsini qeyri-mümkün etmişdi. Burada demokratik qüvvələr azlıq təşkil edirdi. Onların təklifləri keçmirdi. Parlament artıq süqut etməkdə olan SSRİ-ni saxlamağa çalışan qüvvələrin əlində oyuncaq idi.

Bu vaxt Naxçıvandan Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan MR Ali Sovetinə deputat seçilmiş Heydər Əliyevin dövlətçilik fəaliyyətində yeni bir dövr başlandı. O, xalqı azadlıq uğrunda sonacan mübariz olmağa çağırırdı.

1991-ci il avqustun axırların da keçirilmiş parlament sessiyasında Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa olunması haqqında bəyanat qəbul olundu. Lakin parlamentin bu qərarının legitimləşdirilməsi üçün referendum keçirilməsi tələbi ilə çıxış edən deputat Heydər Əliyevə qarşı yeni hücumlar başlandı. Hələ də gözləmə mövqeyi tutan respublika rəhbərliyinin təzyiqi ilə parlament dövlət müstəqilliyinin bərpa olunması haqqında Konstitusiya Aktmı xeyli gec oktyabrın 18-də qəbul etdi. Referendum isə SSRİ artıq bir hüquqi subyekt kimi mövcudluğunu dayandırdıqdan (8 dekabr) sonra dekabrın 29-da keçirildi.

O zaman yanlış addımlar atılması parlamenti xalqın dəstəyindən məhrum etmişdi. Müxalifət qüvvələri malik olduqlan silahlı hərbi dəstələrə döyüş meydanların da vəziyyəti hər an pisləşdimrəyə qadir idilər. Xalq kütləsi sessiyanın keçirildiyi binanı mühasirəyə alsa da, parlament öz siyasi iradəsini ona zorla qəbul etdirən iqtidarın əsirinə, oyuncağına çevrilmişdi.

Gənc Azərbaycan dövləti qarşısında duran təxirəsalınmaz tədbirlər görmək zərurətə çevrildiyi şəraitdə AXC-Müsavat cütlüyü öz fəaliyyətini

Heydər Əliyevin hüquqlarının pozulmasına, onun siyasi fəaliyyətinin məhdudlaşdırılmasına istiqamətlənmiş qərarlar qəbul olunmasına yönəltmişdir.

Naxçıvan Muxtar Respublikası parlamentinin sədri həmişə Azərbaycan parlamentində sədrin müavini olurdu. Bu, qanunla müəyyən edilmişdi. Heydər Əliyevə görə qanunda dəyişiklik edildi və illər boyu mövcud olan bu qayda ləğv edildi.

Heydər Əliyevin dövlət rəhbərliyinə gəlməsinə imkan verməmək məqsədilə prezident üçün maksimum yaş senzi müəyyənləşdirildi və s.

Azərbaycan parlamenti AXC-Müsavat cütlüyünün hakimiyyəti dövründə də öz funksiyasını layiqincə yerinə yetirə bilmədi. Sabitlik, qayda-qanun yaradılmadı. Ölkədə ümumi böhran daha da dərinləşdi. Keçmiş cəbhəçilər arasında hakimiyyət uğrunda mübarizə getdikcə dərinləşdi. Hərbi müxalifət Gəncədə qiyam qaldırdı. Vətəndaş müharibəsi başlandı, qardaş qanı töküldü. Separatçılıq artdı. Ölkənin müstəqilliyi və dövlətçiliyi böyük təhlükə qarşısında qaldı.

AXC-Müsavat cütlüyü özlərinin yaratdıqları vəziyyətin girovuna çevrildilər. Onlar, nəhayət ki, ölkəni idarə etməyə qadir olmadıqlarını anladılar. Ölkənin uçuruma yuvarlanmaqda olduğu göz qabağmda idi. Onlar boğazlarını Gəncədən irəliləyib Bakıya çatmaqda olan polkovnikin kəndirindən xilas etmək üçün Heydər Əliyevin hakimiyyətə qayıtması haqqında Azərbaycan xalqının təkidli tələbinə qoşulmağa məcbur oldular.

Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın müstəqil dövlətçiliyini, siyasi varlığmı məhv olmaq təhlükəsindən xilas etməklə bərabər, Azərbaycan parlamentinin tarixində yeni bir döVrün başlanğıcmı qoydu. Bu siyasi xətt öz müsbət nəticələrini verməkdədir.

Kitabda hazırkı siyasi kursun perspektivi ilə bağlı vacib fikirlər irəli sürülür. Əslində, bu ideyalar kitabın başlıca istiqamətlərindən birini təşkil edir. Hazırkı siyasi kursun perspektivi ziyalıları, iş adamlarını, hər bir Azərbaycan vətəndaşını, bir sözlə, hamını düşündürür. Bu, təbiidir. Çünki ölkənin perspektivi də, sosial-iqtisadi vəziyyəti də, xalqın rifahı da ondan çox asılı olacaqdır.

Müəllif göstərir ki, Azərbaycanda formalaşmış iqtisadi siyasət strategiyası sivil dünya ölkələrinin tarixi təcrübəsində sınaqdan çıxmış və müsbət nəticələri sübut olunmuş kursa əsaslanır. Bu kursun təməlində hüquqi,

demokratik, dünyəvi dövlət qurmaq, öz səlahiyyətləri çərçivəsində müstəqil olan hakimiyyətin bölünməsi prinsipinə əsaslanmaq, bazar iqtisadiyyatını formalaşması üçün radikal islahatlar aparınaq, mülkiyyət formasını tədricən dəyişdirmək, özəlləşdirməni həyata keçirmək, sahibkarlıq fəaliyyətinə, iqtisadi fəallığa, təşəbbüskarlığa, sağlam rəqabətə meydan açmaq, xalqın rifahını yüksəltmək və s. durur.

Müəllif siyasətdə varisliyin ölkənin sosial-iqtisadi inkişafında sistemliliyi təmin etməyin, iqtisadiyyata dinamizm gətirməyin, xalqın rifahını yüksəltməyin vacib şərt olduğunu qeyd edir. Elə sistemlilik ki, əsası dünyanın ən məşhur siyasətçilərindən olan cənab Heydər Əliyev tərəfindən qoyulmuşdur.

Müəllif yazır: "Faktlardan qaçmaq olmaz və onlar sübut edir ki, İlham Əliyev yeni dövrün siyasətçisidir və tarixin mürəkkəb dövrü hələ tezliklə başa çatmayacaq ölkəyə gələcəkdə rəhbərlik etmək üçün bütün lazımi keyfiyyətlərə malikdir". İlham Əliyevin malik olduğu siyasi, dövlət idarəçiliyi keyfiyyətlərindən bəhs olunarkən qeyd edilir ki, onun "dövlətdə, dövlətin inkişafı ilə bağlı baxışları məlumdur. Onun bütün başlıca arzu və istəkləri Azərbaycan dövlətini modernləşdirmək və ölkəni dünya miqyaslı mühüm qərarlar qəbul edən sayseçmə ölkələr birliyinə daxil etməkdir. O, fəaliyyətində ardıcıl və praqmatikdir, rasional və səmimidir. Onu fərqləndirən cəhət budur ki, o, fəaliyyət dairəsi məhdud olan məmur deyil, əksinə, geniş baxışlara malik siyasətçidir. Onun üstünlüyü bundadır".

Siyasətçi kimi İlham Əliyevin mövqeyi ölkə Prezidentinin əməli fəaliyyətindən irəli gələn məntiqi nəticələrə əsaslanır. Bu, hazırda yeridilən siyasətin, sadəcə olaraq, təkrarı deyildir. İlham Əliyevə formalaşmış siyasətdə varisliklə, ona dinamizm gətirən yeni keyfiyyət halı səciyyəvidir.

Kitabda yazılır: "İlham Əliyevin dəyərlər sistemində dövlət birinci yerdədir və bu, şəxsiyyət dəyərini istisna etmir. Bizim zəmanəmizdə bu, götür-qoy edilmiş yoldur. Zəif cəmiyyətə malik güclü demokratik dövlət ola bilməz. Dövlət maşınını ətalətdən, dövlət aparatını durğunluqdan, şəxsiyyəti isə hakimiyyətin qanunsuz hərəkətlərindən ancaq cəmiyyətin mükəmməl həyatı qoruya bilər".

İlham Əliyevin iqtisadi baxışları belə deməyə əsas verir ki, o, modernləşməni iqtisadi islahatlarla məhdudlaşdırılan proses hesab etmir. Kitabda göstərilir ki, İlham Əliyev üçün "kiçik və orta biznesin inkişafı ilə

paralel gedən demokratikləşdirmə ideyası önəmlidir. O, iqtisadiyyat işlərində əsla təzə adam deyildir. Dövlət Neft Şirkətinin birinci vitseprezidenti vəzifəsində işləmək onun üçün dövlətin iqtisadi maraqlarını öyrənməkdə və həyata keçirməkdə yaxşı məktəbdir".

İlham Əliyevin Qərbin iqtisadi strukturları ilə yaranmış səmimi münasibətləri, ölkədə sosialsiyasi sabitliyin qorunub saxlanıldığı və daha da möhkəmləndirildiyi şəraitdə Azərbaycana gələcəkdə də sərmayələrin fəal cəlb olunacağına ümid etməyə əsas verdiyini bildirən müəllif Çin Xalq Respublikasında aparılan iqtisadi islahatların baş arxitektoru Den Syaopindən misal gətirir: "Den Syaopin bir vaxtlar yazırdı: "Çayı keçərkən ayaqlarının altındakı daşları əllərinlə yoxlamalısan". Ona görə də bizim hər birimiz  istər Azərbaycanın siyasi elitası, istərsə də, ola bilsin, "əkselita"sı bu suala cavab verməli olacaq: "Biz hakimiyyətin Konstitusiya yolu ilə güclü siyasətçiyə verilməsinin mümkünlüyünün taleyin hədiyyəsi olduğunu və demokratik cəmiyyət qurulması, vətəndaş konsensusu formalaşdırılması yolu ilə gedən ölkənin xəttinin varisliyini təmin etməyə çalışarkən o hədiyyəni "əlimizlə yoxladığımızı" nə dərəcədə dərk etmişik?" Müəllifm "biz hakimiyyətin Konstitusiya yolu ilə güclü siyasətçiyə verilməsinin mümkünlüyünü... demokratik cəmiyyət qurulması və vətəndaş konsensusu formalaşdırılması yolu ilə gedən ölkənin xəttinin varisliyini təmin etməyə çalışarkən" fikrində işletdiyi incə konstruksiyanın, mətləbi məharətlə tutmasının özünün də nə dərəcədə dərin elmi-nəzəri potensiala malik olduğuna dəlalət edir.

İlham Əliyevlə bağlı mətbuatda çoxsaylı yazılar olmuşdur və yəqin ki, yenə də olacaqdır. Onların təşəbbüsçüsü İlham Əliyev olmamışdır. Bu, həqiqətdir. Bəziləri "patoloji" qısqanclıqdan, digərləri sevincdən yazmışlar. "Varislik problemi" bu yazıların leytmotivini təşkil edir. "Hakimiyyət məsələsi hər bir inqilabın başlıca məsələsidir" ifadəsində olduğu kimi.

İlham Əliyev həm biliyinə, həm iqtisadi təfəkkürünə, həm təcrübəsinə, həm də bacarığına, bir sözlə, özünün malik olduğu bütün insani keyfiyyətlərinə görə Azərbaycanın siyasi səhnəsində öz yerini tutmuşdur. Burada müxalifətin əkseffekt yaratmaq cəhdi effektin xeyrinə işləyir. Bu, reallıqdır.

İlham Əliyev heç kimi vəkil tutmayıb ki, onım varislik məsələsi ilə məşğul olsun. Bu da həqiqətdir. Hər şeyin öz vaxtı var. Vaxtı çatanda siyasi

kursun davamçısının kim olacağını seçmək hüququ olan Azərbaycan vətəndaşları həll edəcək.

İlham Əliyev həmişə böyük siyasətdə olmuşdur. Onu bu siyasətə gətirən öncə doğmaları, dünyaya göz açdığı ailə mühiti olmuşdur. İlham Əliyev dünyanın ən görkəmli siyasətçilərindən və dövlət xadimlərindən biri Heydər Əliyev və el anası, akademik Zərifə xanım Əliyeva məktəbinin məzunu olmuşdur. O, görkəmli dövlət xadimləri və böyük siyasətçilər Əziz Əliyev, Həsən Əliyev ailəsində siyasi dərs almışdır siyasətdə müdriklik, həyatda praqmatizm, özünə qarşı ciddi münasibət və tələbkarlıq dərsi. İlham Əliyev gənclik illərini xatırlayarkən deyir: "Əlbəttə, Heydər Əliyevin oğlu olmaq böyük xoşbəxtlikdir, eyni zamanda böyük məsuliyyətdir. Fəxr edirəm ki, mənim Əziz Əliyev kimi babam olub. Əlbəttə, bu, əlavə məsuliyyət istəyir. Məndə bu məsuliyyət uşaqlıqdan var idi. Mən hər dəfə, hər hansı bir uşaq dövründə, yəni yeniyetmə yaşımda hər hansı bir addımı atmamışdan qabaq fikirləşirdim ki, mənim ailəmə, mənim atama ziyanlı ola bilər. Ona görə özümü çox hallarda pis hərəkətlərdən qoruya bilmişəm. Və bu məsuliyyəti indi, bəlkə də, daha da çox hiss edirəm".

Siyasətdə varislik ölkənin sosial-iqtisadi inkişafında sistemliliyi təmin etməyin, iqtisadiyyata dinamizm gətirməyin, xalqın rifahını yüksəltməyin vacib şərtidir. Elə sistemlilik ki, əsası dünyanın ən məşhur siyasətçilərindən olan cənab Heydər Əliyev tərəfindən qoyulmuşdur. Bu, ümumölkə əhəmiyyətli hər bir işə sistemlə yanaşmaq, prioritetləri hamıdan qabaq görmək, son nəticəyə nail olmaq üçün ara mərhələləri dürüst müəyyən etmək, heç nədən çəkinmədən, təmkinlə, prinsipiallıqla, cəsarət və qətiyyətlə, Azərbaycanın maraqlarına cavab verən radikal qerarlar qəbul etməklə və onların reallaşmasına nail olmaqla xalqın rifahını yüksəltməkdir. Budur siyasətdə müdriklik, həyatda praqmatizm məktəbi, dövlət idarəçiliyində ustalıq!

Müəllifin fikrincə, bu siyasətin ən layiqli davamçısı, mübaliğəsiz, İlham Əliyev ola bilər. Kitabda İlham Əliyevin Azərbaycan xalqının bugünkü və sabahkı həyatında özünəməxsus rol oynayacağına əminlik ifadə olunur.

Cənab Heydər Əliyevin rəhbərliyi altında uzun illər dövlət idarəçiliyi strukturlarında rəhbər vəzifələrdə işləmiş, dövlət siyasətinin formalaşması və reallaşmasında ən fəal iştirak edənlərdən biri olan Ramiz Mehdiyevin topladığı zəngin təcrübə, müasir dövlətçilik texnologiyaları ilə dərindən

tanışlıq, bu sahədə fəlsəfi təhlillər və ümumiləşdirmələr aparmaq bacarığı ona ölkəmizin sosial-iqtisadi , siyasi və mənəvi inkişafı üçün son dərəcə əhəmiyyətli olan "XXI əsrdə milli dövlətçilik" kitabını yazmağa ımkan vermişdir. Kitabın yeni düşüncələr, mülahizələr, diskussiyalar tələb edən fikirlərlə zəngin olması elmi ictimaiyyətin marağını cəlb edəcəyindən xəbər verir.

***Səttar SƏFƏROV,***
***iqtisad elmləri doktoru,***
***professor***

*22 may, 2003*

# MÜSTƏQİL DÖVLƏT QURUCULUĞU PROSESİNİ TARİXİN YADDAŞINA OLDUĞU KİMİ YAZAQ

***Tarix və şəxsiyyət! Bəzən füosoflar üçün mübahisə predmetinə çevrilən bu iki məfhum bir-biri ilə qarşılıqlı əlaqədə inkişaf edir. Xoşbəxt o xalqdır ki, öz varlığının müxtəlif dövrlərində böyük şəxsiyyətlər yetirə bilir! Həm də xalqın o zaman bəxti gətirmiş sayılır ki, keşməkeşli dövrdə, taleyüklü məqamlarda, yaxud ölüm-dirim məsələsi həll olunduğu vaxtda siyasət və döyüş meydanında böyük oğlu və məğlubedilməz sərkərdəsi fəaliyyət göstərir! Məhz bu halda millət tarixi inkişafında irəliyə doğru sıçrayış edir, ya da dala qalır. Tarix heç zaman xilaskarları, qurucu və yaradıcı insanlan unutmur!***

## Tarix və vicdan qarşısında borc

Azərbaycan xalqı öz inkişafının müxtəlif mərhələlərində böyük çətinliklərlə üzləşib, ağır sınaqlara məruz qalıb. Və tarixin yaratdığı imtahanların heç də hamısından uğurla çıxa bilməyib. Xalqın əzəli və əbədi arzusu isə azadlıq və müstəqillik olub. XX əsrin əvvəllərində həmin arzunu gerçəkləşdirmək imkanı da yaranmışdı. Lakin ilk demokratik cümhuriyyətin ömrü cəmi 23 ay çəkdi. Bir tərəfdən ölkə daxilində hakimiyyət uğrunda mübarizə və aramsız çəkişmələr, digər tərəfdən xarici dövlətlərin göstərdiyi təsirlər və təzyiqlər, ən nəhayət, belə bir taleyüklü məqamda ümummilli liderin yoxluğu faciə və fəlakətlə nəticələndi. Minlərlə övladım faciəli şəkildə qurban verən Azərbaycan müstəqilliyini itirdi. Bu, çox da uzaq olmayan tariximizdir. Əfsus ki, müxtəlif məqamları, hətta bir sıra insanların yaddaşında yaşayan yaxın tariximiz də olduğu kimi yazılmayıb. Bu barədə dəfələrlə söhbət açan zatialiləri Heydər Əliyev 31 yanvar 1997-ci ildə Elmlər Akademiyasının üzvləri ilə görüşü zamanı onların qarşısında "XX əsrin tarixi necə var, elə də yazılsm" tələbini də qoymuşdu. Əlbəttə, sovet ideologiyasının prinsiplərindən uzaq, hadisələri olduğu kimi və düzgün əks etdirən tarixin yazılması son dərəcə vacibdir. Bir cəhəti də unutmayaq: tarixi təkcə tarixçilər yox, həm də jurnalistlər qələmə alır! Özü də

hər gün gördüklərini, şahidi olduqlarını yazmaqla, sonradan tarixçilər üçün qiymətli materiala çevriləcək, arxivlərdə saxlanılacaq qəzet səhifələrinə köçürməklə! Gələcəkdə tariximizin doğrudüzgün olması üçün bu gün hər bir qələm əhli vicdanlı olmalı, yazdıqlarına məsuliyyətlə yanaşmalıdır!

Tarix biz nəsil juraalistləri müəyyən sınaqlara məruz qoymaqla yanaşı, çoxlarına müyəssər olmayan xoş imkan da vermişdir. Biz xaos və anarxiya dövründən keçərək Azərbaycanın bir dövlət kimi məhvolma ərəfəsini və vətəndaş müharibəsinin qığılcımlarını görmüş, eyni zamanda onun ikinci dəfə qazandığı dövlət müstəqilliyini yaşadaraq əbədiliyə çevirməsinin də şahidləriyik. Hərdən ölkə vətəndaşlarını qorxudub kədərləndirən, hərdən isə sevindirib fərəhləndirən çoxsaylı hadisələri canlı surətdə müşahidə etmişik. Hər biri tarixin işıqlı səhifələrinə çevriləcək günlərdə yaşamışıq. Dövrümüzün mürəkkəb və şərəfli anları fəlsəfə elmləri doktoru Ramiz Mehdiyevin "XXI əsrdə milli dövlətçilik: demokratik inkişaf və müxalifət" əserində doğru və obyektiv əksini tapmışdır: "Tarixin gedişini dəyişdirməyə və milləti, dövləti dirçəltməyə yalnız ağır zəhmət, inkişaf etmiş millətlərin səviyyəsinədək yüksəltmək niyyəti və istedadlı lider qadirdir. Tarix şahiddir ki, həmişə belə olmuşdur. Sübut edilmişdir ki, hər yarını əsrdən bir dünya tarixinin səhnəsində elə insanlar meydana gəlir ki, öz istedadları, bacarıqları və görünməmiş işgüzarlıqları sayəsində onların adları və əməlləri bəşəriyyətin xeyli hissəsinin pərəstiş obyektinə çevrilir. Məhz belə insanlar faydasızı faydalıya, itirilmişi məna kəsb edənə, irrasional olanı rasionala çevirərək tarixin gedişini dəyişdirmiş və dəyişdirirlər. Tarix dövlətləri və xalqları öz girdabında əridərək, imperiyaları məhv edərək, müstəbidləri taxt-tacdan salaraq gələcək nəsillərə ancaq o kəslərin adlarını saxlayır ki, bu adamlar haqqında inamla demək olar: onların "səadət anı" olmuşdur.

Bu mənada Azərbaycanın tarixi heç də istisna deyildir. Azərbaycanın ən yeni tarixini elə bir insan yaradır ki, onun səmərələşdirici potensialı dövləti və milləti dirçəltmişdir, gələcəyə itirilmiş inamı qaytarmışdır. Yaxın keçmişə, ölkənin vətəndaş müharibəsi və qiyamçı komandirlərin iğtişaşları həddinə gəlib çatdığı dövrə nəzər salsaq, milli tarixin dövlətin və millətin dilemma müstəqil dövlətçiliyi və milli identikliyi ya qoruyub saxlamaq, ya da itirmək dilemması qarşısında qaldığı vaxtlardakı dövrünün bütün mürəkkəbliyini və dolaşıqlığını başa düşmək olar. Ona görə də ötən illər güclü və sabit dövlətçiliyin qurulmasına sərf edilmişdir. Elə bir dövlət ki, burada ən başlıcası

fərdin hüquq və azadlıqlandır, ardıcıl yeridilən iqtisadi siyasət sabit inkişaf üçün şərait yaradılmasına yönəldilmişdir, siyasət isə səmərəli olub milli həmrəyliyə təminat verir və vətəndaş cəmiyyətini formalaşdırır".

## Tarix heç zaman yaradıcı və qurucu insanları unutmur

Uca dağların möhtəşəmliyi uzaqdan daha aydın görünür. Böyük şəxsiyyətlər və hadisələr də belədir. Müəyyən zaman məsafəsindən sonra xalqın tarixində müstəsna rol oynamış şəxsiyyətlərin və onların gördükləri işlərin miqyası və faydası daha yaxşı bilinir. Bu da təbiidir. Əvvəla, atılan addımın nəticəsi sonralar görünür. Digər tərəfdən isə, tarix ən ədalətli hakim sayıldığından baş verən hadisələri saf-çürük edib obyektiv qiymətləndirməyi bacarır. Lap yaxın dövrə nəzər salaq. Ötən əsrin doxsanıncı illərinin başlanğıcı xaos, öz-başınalıq və qanunsuzluğun baş alıb getdiyi zaman idi. İnsanlar qorxu və təlaş içərisində yaşayırdılar. Nəinki gecələr, hətta bəzən gündüzlər də bayıra çıxmaq qorxulu idi. Müxtəlif şəxslərə və siyasi partiyalara xidmət göstərən qanunsuz silahlı dəstələr, cinayətkar elementlər respublikada at oynadırdılar. "Qanunların yanından ötüb keçməyi" təbliğ edən AXC-Müsavat cütlüyü kütləvi itaətsizlik və zorakılıq yolu ilə hakimiyyətə gəldiyindən öz fəaliyyətində həmin prinsipi rəhbər tuturdu. İdarəetmədə heç bir təcrübə və səriştəsi olmayan iqtidar nə etdiyini anlamırdı. Əslində "bəy"lərin başı dövlət əmlakını satıb sovurmağa, xaricə daşıyaraq pula çevirməyə qarışmışdı. Özlerinin yaratdığı xaos və anarxiyanın əsirinə çevrilənlər dövləti çox qısa bir müddətdə məhvolma həddinə çatdırdılar. Acizliklərini və fərsizliklərini dərk etdiklərindən vəzifələrini "donduraraq" aradan çıxdılar. Xalqın ümidsiz və acınacaqlı vəziyyəti zərrə qədər də onları narahat etmirdi. Xalq isə özünün və yenicə müstəqillik əldə etmiş dövlətinin qədrini bildiyindən sınanmış oğlunu, dünya şöhrətli siyasətçi və müdrik dövlət rəhbəri Heydər Əliyevi yenidən ölkə rəhbərliyinə qaytardı. Lakin dövləti fəlakətdən xilas etmək və müstəqilliyi qoruyub saxlamaq üçün çox çalışmaq, başqalarının görə bilməyəcəyi işləri görmək lazım idi. Ən əsası ölkə daxilində sabitlik və əmin-amanlıq yaradılması idi. Zati-aliləri Heydər Əliyev özünəməxsus enerji və qətiyyətlə işə başladı. Əvvəlcə müharibədə atəşkəsə nail olundu, yeni qurbanlar verilməsinin

və torpaqların işğalının qarşısı alındı. Bundan sonra qanunsuz silahlı dəstələr zərərsizləşdirildi, əhalidəki silah-sursat toplanıldı. Çox qısa bir müddətdə vətəndaş müharibəsinin alovları söndürüldü, qardaş qırğını dayandırıldı. Azərbaycanın müstəqilliyini istəməyən xaricdəki qüvvələr və onların əlaltıları sapı özümüzdən olan baltaların köməyi ilə dəfələrlə terror və təxribat əməlləri, sui-qəsdlər törətdilər, 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında dövlət çevrilişinə cəhdlər göstərildi. Xalqın inam və dəstəyinə arxalanan zati-aliləri Heydər Əliyev bütün bu mənfur əməllərin qarşısını qətiyyətlə aldı. Beləliklə, Azərbaycana uzanan xain əllər kəsildi, ölkə daxilində möhkəm və dönməz sabitlik yaradıldı. Həmin dövrü yaşayanlar çox gözəl bilirlər. Ölkə elə idarəolunmaz vəziyyətə düşmüş, dövlət və hüquq-mühafizə orqanları iflic halına gətirilmişdi ki, zorakılıq və özbaşınalıq əməllərinin qarşısının belə tezliklə və məharətlə alınacağını kimsə güman etmirdi. Amma müdrik və uzaqgörən dövlət xadimi cənab Heydər Əliyev zəngin təcrübəsi və qətiyyəti sayəsində mümkün olmayanı gerçəkliyə çevirdi. Təəssüf ki, respublikada yaranmış sakitlik və əmin-amanlıq, asudəlik şəraiti bir çoxlarını arxayınlaşdırmış, ölkənin ağır günlərini yaddan çıxarmışdır. Halbuki görülmüş işlərin ən çətini və digərləri üçün təmələ çevriləni məhz sabitliyin yaradılması idi. Şübhəsiz, bütün bunlar vaxtmda qələmə almmalı, təhlil edilməli, əsl qiyməti verilərək tarixin yaddaşına həkk olunmalıdır. Yalnız bu halda hər bir qələm əhli tarix və vicdanı qarşısında mənəvi borcunu yerinə yetirmiş olar.

## "Deyilən söz yadigardır"

Xalq şairi Səməd Vurğunun bu müdrik kəlamı bu gün də əhəmiyyətini saxlamaqdadır. Söz insanlar arasında ünsiyyət vasitəsidir. Biz düşündüklərimizi və arzuladıqlanmızı birbirimizə söz vasitəsilə çatdırınq. Söz həm də nəsillər arasında əlaqə yaratmağa, insanlann uzun ilLər və əsrlər boyu qazandığı bilikləri gələcək nəsillərə çatdırmağa xidmət edən ən etibarlı vasitədir. Əgər söz və onu "yenidən canlandırma" forması sayılan hərflər olmasaydı, yəqin ki, bəşəriyyət belə sürətlə inkişaf etməz və hər yeni nəsil hər şeyi təzədən kəşf etməli olardı. Baş verən hadisələrin dərhal qələmə almaraq tarix üçün "yadigar" saxlanılması həm də tarixi və insanları təhriflərdən və yanlışlıqlardan, bəzən isə səhvlərin təkrarından qoruyaraq hifz edir. Tarixi təcrübə

həm də insanları öyrədir, inamla irəli getmələrinə dayaq durur.

Yaşadığımız dövrdə birbirindən gözəl və möhtəşəm işlər görülür, əsrlər boyu xalqımızın ən ülvi arzusu olan müstəqil və azad dövlət quruculuğu prosesi gedir. Özü də ən mürəkkəb, ağır və çətin şəraitdə! Uzun sürən və dağıdıcı müharibəyə cəlb olunmağımız, ərazimizin iyirmi faizinin işğalı, bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə salınması quruculuq sahəsində böyük problemlər yaradır. Xoşbəxtlikdən belə ağır və gərgin məqamda ölkəyə Heydər Əliyev kimi qeyri-adi şəxsiyyət və zəka sahibi rəhbərlik edir. Məhz onun müdrikliyi və uzaqgörənliyi, işgüzarlığı və fədakarlığı, ən nəhayət, nüfüzu və qətiyyəti hadisələri daim nəzarətdə saxlamağa, hər cür maneə və əngəlləri ustalıqla dəf edərək irəliləməyə imkan yaradır. Şübhəsiz, bütün bunlar tarixin yaddaşına köçürülərək nəsillərdən-nəsillərə ötürülmüşdür. Burada daha bir vacib məqamı vurğulamaq istərdik. Azərbaycanda söz və mətbuat azadlığının inkişafı, azad sözün söylənməsi yönündə bütün maneələrin aradan qaldırılması jurnalistlər üçün böyük imkanlar və sərbəstlik yaratmışdır. Bundan istifadə edərək tarixin anlamını olduğu kimi qələmə almaq və tarix üçün saxlamaq son dərəcə vacibdir!

Neft xalqımızın ən böyük sərvətidir. Amma nefti olmaq hələ xoşbəxtliyə çatmaq demək deyil. Əvvəla, onu yerin təkindən çıxarmaq, sonra isə dünya bazarına çatdırmaq lazımdır.

Bütün bunlar son dərəcə düzgün və ağıllı siyasət hazırlayıb həyata keçirməyi, bir sıra texniki, maliyyə və digər problemlərin həllini tələb edir. Ümummilli lider Heydər Əliyevin müdriklik və uzaqgörənliklə hazırladığı yeni neft strategiyası böyük bir siyasətin tərkib hissəsinə çevrildi. Heydər Əliyev zəkasının əsas üstünlüklərindən biri də budur ki, o, təkcə məsələni nəzəri şəkildə həll etmir, həm də istədiklərini praktiki şəkildə və ustalıqla yerinə yetirməyi bacarır.

Xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıdan zatialiləri Heydər Əliyev eyni vaxtda bir neçə məsələ ilə məşğul olmaq, çoxsaylı problemləri təxirəsalınmadan həll etmək məcburiyyətində idi. Ölkə iqtisadiyyatı dağılmış, fabric-zavod, kolxoz-sovxozların fəaliyyəti dayanmış, varidatı talan edilmiş, inflyasiya idarəolunmaz həddə çatmış, çörək qıtlığı yaranmış, xalqın güzəranı olduqca pisləşmişdi. Vəziyyəti düzəltməkdən ötrü nədən başlamağı kəsdirən yox idi. Böyük təcrübə və səriştəyə, dövlətçilik və idarəetmə məharətinə arxalanan cənab Heydər Əliyev nəyi necə

etməyin klassik nümunəsini göstərdi. Sənaye sahəsində islahatlara yeni neft strategiyasının hazırlanmasından başladı. İqtisadiyyatın digər sahələri üçün lokomotiv rolunu oynayacaq neft sənayesinin dirçəldilməsindən ötrü tarixən çox qısa müddətdə əvvəlki iqtidarların və kimsənin görə bilməyəcəyi qədər işlər görüldü. Hər cür təzyiq və maneələrə, təxribatterror əməllərinə baxmayaraq, 20 sentyabr 1994-cü ildə "Əsrin müqaviləsi" adını almış ilk neft kontraktını imzalamaq mümkün oldu.

12 noyabr 1997-ci ildə isə ilkin neft çıxanlaraq Bakı-Supsa boru kəməri vasitəsilə dünya bazarına axıdıldı. Müqavilənin imzalanmasından neft hasilatma qədər olan uzun, çətin və mürəkkəb məsafənin 38 aya qət edilməsi, əslində, fantastika idi. Lakin bu möcüzəni cənab Heydər Əliyev özünün müdrikliyi və uzaqgörənliyi ilə yaratmışdı. Hələ SSRİ adlı superdövlətin mövcudluğu dövründə sanki cənab Heydər Əliyev Azərbaycanın müstəqillik qazanacağını duymuşdu və irəlicədən buna hazırlaşmışdı. Həmin dövrdə SSRİ məkanındakı şəxsi nüfüz və hörmətindən istifadə edərək dəyəri 400 milyon dollardan çox olan dərin dəniz qazma qurğulan zavodunun Bakıda inşasına nail olmuşdu. Bununla da Xəzərin dərin qatların dan neft çıxarılmasının təməlini qoymuşdu. Həmin illərdə zavodda on iki ədəd "Şelf' tipli dərin qazma qurğulan hazırlanmışdı. Bunlar isə əvvəlcə su qatınm qalmlığı 70 metrədək, daha sonralar isə 200 metrədək olan yerlərdə qazma işləri aparılmasına imkan verirdi. "Azəri", "Çıraq", "Günəşli" yataqları isə daha çox dərinlikdə yerləşir. Əgər həmin yerlərdə qazıntı aparınaq üçün xaricdən dərin dəniz qazma qurğuları gətirilsəydi, Xəzərdəki yeni yataqların istismarı illərlə yubanardı. Həmin qurğuları yenidən qurularaq uyğunlaşdırılması "Çıraq", "İstiqlal" və "Dədə Qorqud" platformalarının yaranmasına, nəticədə ilk böyük layihənin sürətlə gerçəkliyə çevrilməsinə imkan yaratdı. Məsələ təkcə dərin dəniz qazma qurğulannın hazırlanması ilə bitməmişdi. "Süleyman Vəzirov", "İsrafıl Hüseynov" kimi boruçəkən gəmilər, 2500 ton yük qaldıra bilən "Azərbaycan" kran gəmisi, bütövlükdə Xəzər Dəniz Donanmasını zənginləşdirən 400 müxtəlif gəmi həmin dövrlərin yadigarıdır.

Zatialiləri Heydər Əliyev neftin hasilatı ilə yanaşı emalı məsələsini də daim diqqətdə saxlamışdır. Məhz cənab Heydər Əliyevin təşəbbüsü və əməli fəaliyyəti nəticəsində Azərbaycan neft emalı sənayesi yeni texnika və texnologiya əsasında yenidən qurulmuşdur. Belə ki, 1976-cı ildə ELOU-AVT, 1980-ci ildə katalitik riforminq, 1986-cı ildə neftin kokslaşdırılması,

1993-cü ildə katalitik krekinq qurğuları alınıb respublikaya gətirilərək neft emalı müəssisələrində qurulmuşdur. Yüksək məhsuldarlığa malik bu qurğular həm də ekoloji cəhətdən son dərəcə zərərsiz və təmizdir. Məhz onlar quraşdırıldıqdan sonra Qaraşəhərin havası tamamilə dəyişmiş, bu ərazi qara qurum və rənglərdən qurtulmuş, paytaxtımızın bu hissəsinin ağ günləri başlanmışdır. Bu sahədə həyata keçirdiyi tədbirlər zatialiləri Heydər Əliyevi Azərbaycanın neft emalı sənayesinin yenidən qurulmasının banisi və təşkilatçısı adlandırmağa da əsas verir.

Xəzərdəki karbohidrogen ehtiyatlarını dünya üçün yenidən kəşf edən cənab Heydər Əliyev neftin hasilatı, emalı ilə yanaşı, ixracı məsələləri ilə də dərindən və yaxından məşğul olmuş, bu sahədə qeyriadi uğurlar qazanmışdır. Yeni neft strategiyasının tərkib hissələrindən biri də bu strateji məhsulım təhlükəsiz şəkildə, özü də bir neçə marşrutla dünya bazarına axıdılmasıdır. Bu vəzifəni yerinə yetirməkdən ötrü cənab Heydər Əliyev bir neçə il yorulmadan və gərgin mübarizə aparmalı olmuşdur. Bakı-Novorossiysk marşrutu yoluna qoyulduqdan sonra BakıSupsa boru kəməri çəkilmiş və əsas ixrac boru kəmərinin çəkilməsi üçün ardıcıl və inadlı iş görülmüşdür. Cənab Heydər Əliyev bu marşrutun Gürcüstan və Türkiyə ərazisindən keçməklə Ceyhan limanına çıxmasını təklif edirdi. Bu ideya ortaya atılanda onun əleyhdarları tərəfdarların dan çox idi. Üstəlik, Azərbaycan neftinin müstəqil kəmər vasitəsilə, bir neçə istiqamətdə dünya bazarına axıdılmasını istəməyən bədxahlarımız da vardı. Əsl niyyətlərini gizlətməklə Bakı-Tbilisi-Ceyhanın çəkilişinə mane olmaq istəyənlərin "əsas arqumenti" kəmərin iqtisadi cəhətdən baha başa gəlməsi idi. Zati-aliləri Heydər Əliyev əzmkar mübarizəsi, polad iradəsi, tutarlı faktları ilə bütün opponentlərinin geri çəkilməsinə, əsas ixrac boru kəmərinin məhz bu marşrutla aparılmasına nail oldu. Görkəmli ekspertlərin rəyi, ABŞın dəstəyi nəticəsində Bakı-Tbilisi-Ceyhan reallığa çevrildi, 18 sentyabr 2002-ci ildə onun inşasının təməli qoyuldu. Üstəlik, həmin marşrutla Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin də çəkilişi qərarlaşdırıldı. Təkcə iqtisadi faydası yox, həm də böyük siyasi önəmi olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin əfsanədən gerçəkliyə çevrilməsi Heydər Əliyev zəkasının, onun müdrikliklə hazırlayıb mərhələlərlə həyata keçirdiyi yeni neft strategiyasının çox böyük qələbəsidir. Azərbaycan neftinin və təbii qazının faydasından bəhrələnən gələcək nəsillər bu gün böyük əziyyətlər bahasına

görülən işlərin əhəmiyyətini daha yaxşı biləcəklər. Çətin keçən mübarizənin xronoloji tarixini yazmaq isə biz jurnalistlərin borcudur!

## İslahatlar uğurlu oldu

Bir ictimai-iqtisadi formasiyadan digərinə keçid daim çətin və ağrılı olur. Keçid dövrünün "qısaldılması" iqtisadi islahatların sürətlə və uğurlu aparılmasından xeyli dərəcədə asılıdır. Azərbaycan əsasən aqrar respublika olduğundan torpaq islahatlarının tez aparılması xüsusilə vacib sayılırdı. Ancaq belə bir addımın atılması böyük məsuliyyət və cəsarət tələb edirdi. Məhz möhtərəm Heydər Əliyevin islahatçılıq qətiyyəti və zəngin təcrübəsi torpaqların qısa bir müddətdə özəlləşdirilərək xüsusi mülkiyyətə verilməsinə imkan yaratdı. Qeyd edək ki, keçmiş SSRİ məkanında torpaq islahatı ilk dəfə məhz Azərbaycanda həyata keçirilmiş və uğurlu nəticə vermişdir. Bir neçə məqama diqqət çəkirik. Bir vaxtlar talonla ət-yağ alan Azərbaycan vətəndaşı bu gün istənilən miqdarda və növdə ət və ət məhsulları, yağ almaq imkanına malikdir. Hər il ölkə üzrə iki milyon tondan çox taxıl istehsal olunur. Artıq nəinki respublika əhalisinin kənd təsərrüfatı məhsullarına tələbatı ödənilmişdir, üstəlik, xaricə məhsul ixracına da başlanmışdır. Budur torpaq islahatının əsas bəhrəsi!

1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıdan zatialiləri Heydər Əliyev milli dövlət quruculuğu, hüquqi islahatlar keçirilməsini daim gündəlik fəaliyyətinin mərkəzində saxlamışdır. Baş müəllifi Heydər Əliyev olan yeni Konstitusiyanın qəbulu bu prosesin təməl daşı oldu. Tarixən qısa bir müddətdə hakimiyyətin qollara bölünməsi prinsipi həyata keçirildi, hüquqidemokratik dövlətin əsasları yaradıldı, beynəlxalq tələblərə cavab verən qanunlar qəbul edildi. Bütövlükdə cəmiyyətin demokratikləşdirilməsi prosesi sürətlə getdi: çoxpartiyalı sistem, plüralizm, söz və mətbuat azadlığı bərqərar olundu, demokratik qaydalar əsasında iki dəfə prezident və parlament, bələdiyyə seçkiləri keçirildi. Ölkənin demokratikləşdirilməsi görülən işlərin məntiqi nəticəsi kimi Azərbaycanın 2001ci ildə Avropa Şurasına qəbulu, həm də bu istiqamətdəki fəaliyyətə verilən yüksək qiymət oldu. ARDNŞ-in birinci vitseprezidenti, Milli Olimpiya Komitəsinin prezidenti, Milli Məclisin deputatı İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan parlamentinin deputat qrupu ilk günlərdən bu ali qurumda

çox fəal və səmərəli iş aparmağa başladı. Ölkəmizdə gedən demokratikləşdirmə prosesləri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə əsl həqiqətlərin konkret faktlar və sənədlər əsasında AŞ PA-nın tribunasından səsləndirilməsi Azərbaycanın nüflızunun yüksəlməsində əhəmiyyətli rol oynayır. Deputat nümayəndə heyətinin və onun rəhbərinin yüksək və səmərəli fəaliyyəti layiqincə qiymətləndirilmiş və cənab İlham Əliyev AŞ PA-nın sədr müavini və büro üzvü seçilmişdir. Ölkəmiz Avropa Şurası ilə əməkdaşlığı müvəffəqiyyətlə davam etdirir.

## Mənəviyyatımızm müdafiəçisi və qoruyucusu

Əgər Azərbaycanı açıq səma altında yaradılmış muzeyə bənzətsək, o zaman onun, demək olar ki, bütün eksponatlarının (tarixi abidələr istisna olmaqla) cənab Heydər Əliyevə məxsus olduğunu görərik. Azərbaycanın elə bir kənd və qəsəbəsi, şəhər və guşəsi tapılmaz ki, orada möhtərəm Heydər Əliyevin əli və iştirakı ilə yaradılmış bina və qurğu, fabrik və zavod, körpü və ya abidə olmasm. Metrodan tutmuş çoxsaylı yaşayış massivlərinədək parklar, xiyabanlar, ictimai binalar neçəneçə əsrlər xalqın xidmətində duracaq, baş memarını və yaradıcısmı daim xatırladacaqdır. Necə deyərlər, bunlar Heydər Əliyev tərəfindən yaradılan, gözlə görünən abidələrdir. Eyni zamanda, xalqın tarixi keçmişi, mənəviyyatı və bütövlükdə varlığı ilə bağlı qəbul edilən qərarlar və görülən işlər maddi abidələrdən heç də geri qalmır. Əksinə, dünənə və sabahımıza xidmət etməklə daha böyük önəm kəsb edir. Cənab Heydər Əliyev tərəfindən imzalanmış bir neçə belə sənədi xatırlatmaq istəyirik. Xalqımız əsrlər boyu erməni məkrinə və təcavüzünə məruz qalıb. Maraqlı dövlətlərin dəstəyi ilə ermənilər Qafqazda yerləşdirilmiş, bizdən qopardıqlan torpaqlar hesabına özlərinə dövlət yaratmış, zaman-zaman hiylə və zorakılıqla yeni ərazilərimizi ələ keçirmiş, xalqımıza qarşı soyqırımı törətmiş, sonra isə hadisələri saxtalaşdıraraq bizi borclu çıxarınağa çalışmışlar. Hətta yetmiş il davam edən sosializm dövründə də emıənilər öz əməllərindən qalmamış, havadarlarının köməyi ilə istəklərini yerinə yetirmişlər. Zaman-zaman məqsədyönlü və planlı şəkildə ermənilərin başımıza açdıqlan oyunlar xalqdan gizlədilmiş, ört-basdır edilmiş, tarixi gerçəklik təhrif olunmuş şəkildə yeni nəslə çatdırılmışdır. Bu isə daha ağır faciələrə,

unutqanlığa, ən nəhayət, ərazilərimizin 20 faizinin itirilməsinə səbəb olmuşdur. Bu təhrif və qəsdin qarşısmı almaq, əsl həqiqəti xalqa olduğu kimi çatdınnaq və tarixin yenidən, ağ ləkələrsiz yazılmasına şərait yaratmaq üçün zatialiləri Heydər Əliyev 26 mart 1998-ci ildə "Azərbaycanlıların soyqırımı haqqında" fərman imzaladı. Bu fərman, əslində, həqiqi tariximizin özümüzə qaytanlması, milli mənlik və ləyaqət hissinin bərpası, keçmişimizin düzgün öyrənilərək real qiymətləndirilməsi və gələcəyə ayıq nəzərlərlə baxışın təmin edilməsi yolunda çox cəsarətli addım oldu. Bütövlükdə isə az qala bir əsr ərzində qadağa edilərək gizlədilmiş faktlan işıq üzünə çıxardı!

Az qala respublikamızda belə sıxışdınlan ana dilimizin özümüzə qaytanlmasında isə cənab Heydər Əliyev tərəfindən 18 iyun 2001ci ildə imzalanan "Dövlət dilinin tətbiqinin təkmilləşdirilməsi haqqında" fərman da möhtəşəmliyi ilə diqqəti cəlb edir. Doğına dilimizi sevməyə, qorumağa və inkişaf etdirməyə sövq edən bu fərman hər il ölkədə bayram kimi qeyd olunacaq Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi ilə tamamlandı.

Qırmızı imperiyanın çürüyərək dağılması, uzun müddət ölkədə xaos və qarınaqarışıqlığın baş alıb getməsi, AXC-Müsavat cütlüyünün iqtidarı dövründəki özbaşınalıq və qanunsuzluqlar, keçid dövrünün bir sıra ağrılı məqamları insanların mənəviyyatına pis təsir göstərmiş, cəmiyyətdə müəyyən neqativ halların yaranmasına səbəb olmuşdu. Bütün bunlar isə millimənəvi dəyərlərin az qala unudulması, xalqımızın adətənənəsi və mentaliteti ilə bir araya sığınayan halların artması ilə nəticələnmişdi. Ən qorxulu cəhət bəzi gənclərin mənəviyyatında yaranan pozuntular idi. Zatialiləri Heydər Əliyevin 2001-ci ilin avqustunda verdiyi bəyanat elə bil hammı silkələyib oyatdı, itirilməkdə olan millimənəvi dəyərlərə diqqəti yönəltdi, insanları maddi məsələlərlə yanaşı, mənəvi amillər barədə də düşünməyə vadar etdi. Bəli, Azərbaycan xalqı mərdliyi, vətənə, torpağa bağlılığı, etibar və sədaqəti, düzlüyü və təmizliyi, böyükkiçik yeri bilməsi ilə seçilib, tanınıb. Əsrlər boyu formalaşaraq zamanın smaqlarından çıxan, bugünümüzə gəlib çatan milli-mənəvi dəyərləri keçid dövrünün mürəkkəb və ağır məqamların da itimıək olmaz! Zatialiləri Heydər Əliyevin məşhur bəyanatı mənəviyyat sahəsindəki aşmmaların qarşısını almağa, cəmiyyətdə saflaşma prosesinin başlanmasına təkan verdi. Vaxtmda verilmiş bu bəyanat xalqın mənəvi gücünü və qüdrətini də artırdı.

Bu gün Azərbaycanda nəhəng quruculuq işləri gedir. Özü də görülən işlər bütün sahələri həm maddi, həm də mənəvi sferanı əhatə edir. Və onların hamısının həm baş müəllifi, həm də baş icraçısı zatialiləri Heydər Əliyevdir. Çağdaş Azərbaycan tarixinin obyektiv, olduğu kimi qələmə alınması ilə bağlı qeydlərimizi möhtərəm Heydər Əliyevin sözləri ilə bitiririk: ***"Bilirsiniz ki, mənim həyatım gecə-gündüz işləməkdir, başqa bir şey yoxdur. İşləyirəm nə üçün xalqımızı daha da yaxşı günlərə çıxarınaq üçün. Əmin olun ki, xalqımız daha da yaxşı günlərə çıxacaqdır. Bizint apardığımız iqtisadi siyasət, dünyanın böyük neft şirkətləri ilə imzaladığımız müqavilələr və ümumiyyətlə, dünya və iqtisadiyyatı ilə sıx inteqrasiya olmağımız, insanlara sərbəstlik verilməsi, sahibkarlığın, şəxsi mülkiyyətin yaranması respublikanın iqtisadi həyatını tamamilə dəyişdirir. Bunu özünüz görürsünüz. Ona görə də mən tam ümidvaram ki, bir neçə il keçəcək, Azərbaycanın iqtisadi, sosial vəziyyəti çox yaxşılaşacaqdır. Mənim də məqsədim ondan ibarətdir ki, birinci, buna nail olum, bunu təmin edim, ikinci də o günləri özümüz görək. Güman edirəm ki, sizinlə birlikdə biz o günləri görəcəyik".***

**Bəxtiyar SADIQOV,**
**"Azərbaycan"**

*15 avqust, 2003*

# II FƏSİL

# İKİ ƏSRİN DAHİSİ

***Ramiz MEHDİYEV,***
***fəlsəfə elmləri doktoru***

# ƏSL VƏTƏNDAŞ, BÖYÜK ŞƏXSİYYƏT VƏ QÜDRƏTLİ LİDER HAQQINDA BƏZİ DÜŞÜNCƏLƏR

***Həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm.***

**Heydər ƏLİYEV**

Bu günlərdə mən "Azərbaycan-İRS" jurnalının növbəti nömrəsi ilə tanış oldum. O, bütünlüklə Azərbaycan Prezidenti Heydər Əliyevə həsr edilmiş xüsusi buraxılışdır. Ona heyran qaldığımı gizlətməyəcəyəm: jurnal həqiqətən də çox gözəl tərtib olunub, Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif mərhələlərini əks etdirən nadir fotoşəkillər verilmişdir. Buradakı məqalələr də belə yüksək səviyyədədir. Zəngin faktiki material və gözəl ifadə tərzi birbirini son dərəcə ahəngdar şəkildə tamamlayır. "Həyat dərsi" məqaləsi diqqətimi xüsusilə cəlb etdi. Juraalm bu nömrəsi də elə həmin məqalə ilə açılır.

Həcmcə çox da böyük olmayan bu məqalədə bütün varlığını doğma xalqına xidmətə həsr edən müdrik siyasətçi və dövlət rəhbəri Heydər Əliyevin fəaliyyətinin geniş mənzərəsi dolğun və dəqiq ifadələrlə canlandırılır. Müəllif Mehriban Əliyeva yazır ki, onun həm yaşıdları Heydər Əliyevin həyat dərslərinin mahiyyətini bu gün də öyrənirlər. Onun hər bir dərsi insan ruhunun qüdrətinə, iradənin yenilməzliyinə, xarakterin gücünə inama parlaq nümunədir, İnsanm məğlubedilməzliyinə inam dərsidir. Müəllif yazır: "XX əsr Azərbaycan tarixinin önəmli, əlamətdar bir

mərhələsi var: 60-cı illərin sonundan başlanan və XXI əsrə adlayan tarixi zaman. İlk baxışda quru statistika və faktlarla dolu, möhtəşəm, ziddiyyətli, enişliyoxuşlu bir dövrün mənzərəsi yaranacaq. Lakin ikicə kəlmə söz tarix səhifələrini canlandırıb uğurları, itkiləri, tərəqqi və inkişafı onlarca müfəssəl cədvəldən, araşdırmalardan qatqat tutumlu əks etdirə bilər. Heydər Əliyev. Tarix salnaməsinin XX əsr üçün taleyüklü səhifələrinin iştirakçısı, yaradıcısı, aparıcısı. 30 ildən artıq Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşıyan, onu bir dövlət və millət kimi tarixin sınaqların dan çıxaran Vətəndaş, Şəxsiyyət, Lider.

Tərəqqisi üçün çalışdığı, mədəniyyəti, keçmişi ilə fəxr etdiyi, nəsillərinin gələcəyi üçün düşündüyü Vətənazərbaycan taleyi onun adi insan taleyi ilə əbədi olaraq bağlandı". Məqalənin müəllifi ilə razılaşaq: Heydər Əliyevin Azərbaycan üçün varlığı "taleyin Tanrı payıdır".

Franklin Ruzvelt, Uinston Çörçill, Şarl de Qoll kimi, Heydər Əliyev də hələ sağlığmda canlı əfsanəyə çevrilmişdir. Onun qeyriadi şəxsiyyəti, siyasətçi və dövlət xadiminə xas böyük istedadı bizim hamımıza, onun müasirlərinə və həmvətənlərinə dərin təsir bağışlayır və siyasətçilərin, tədqiqatçıların və jumalistlərin diqqətini ona cəlb edir. Heydər Əliyev fenomeninə maraq illər ötdükcə azalmır, əksinə, getdikcə daha da artır. Ölkəmizdə və xaricdə çap edilən bir çox yazılarda, tədqiqatçıların əsərlərində biz Heydər Əliyevin həyat və fəaliyyətinin, siyasətinin və mahir idarəçilik bacarığının yeni-yeni cəhətlərini görürük. Bir çox jurnalistlər onu hakimiyyət ustadı adlandırmağı xoşlayır və təsdiqləyirlər ki, ondakı hakimiyyət duyumu digər bütün duyumlarla üzvi şəkildə çulğaşmışdır və onun təbiətinin ayrılmaz tərkib hissəsini təşkil edir. Bir çox tədqiqatçıların fikrincə, məhz bu hakimiyyət magiyası ona artıq otuz ildən çoxdur ki, sadəcə hakimiyyətin zirvəsində qalmağa deyil, həm də milyonlarla insanın sevimlisi, idealı kimi qalmağa imkan verir.

Belə böyük tarixi simanın öyrənilməsinə müxtəlif cür onun şəxsiyyət və dövlət xadimi kimi öyrənilməsi baxımından, yaxud da siyasi lider kimi formalaşdığı və təşəkkül tapdığı mühitin son dərəcə dəqiq və hərtərəfli təhlili baxımından yanaşmaq olar. Onun dövlətçilik fəaliyyətinin müxtəlif mərhələlərinin təsviri kimi çox geniş yayılmış yanaşma da haqlı ola bilər. Bütün bu yazılarda onun gördüyü işlərin çox böyük əhəmiyyətini hiss edirik. Bir çox müəlliflər qeyd edirlər ki, onun gördüyü bütün

işlər və söylədiyi sözlər heyrət doğurur, eləcə də bu şəxsiyyəti başa düşməyə çalışan hər bir kəs onun yaratdıqlarına ürəkdən valeh olmaq üçün səbəb axtarıb tapır.

Deyirlər ki, ölkələr də insanlar kimidir. Tale bəzən onları sevinc və səadətdən məhrum edir, sərt sınaqlara çəkir. Ölkələr məzlum vəziyyətə düşür, xalqlar təhqir və həqarətin acısını dadır, məhv-edici parçalanma mərhələsinə daxil olur, hansı səmtə gedəcəyini bilmir. Bu deyilənlər sanki Azərbaycanın ən yeni tarixinin səhifələrindən köçürülmüşdür.

1993-cü ilin iyununda Azərbaycan xalqı müstəqilliyə qovuşmuş dövlətin idarə olunmasını Heydər Əliyevə etibar etdikdə bu dövlətin taleyi Tanrının ümidinə qalmışdı. Ölkədə hakimiyyətsizlik, qarma-qarışıqlıq və hərc-mərclik baş alıb gedirdi: manatın məzənnəsi sürətlə aşağı düşür, sənaye və kənd təsərrüfatı istehsalının səviyyəsi günbəgün azalır, çörək və digər ən zəruri ərzaq məhsulları üçün alçaldıcı növbələr düzülür, bir sıra bölgələrdə separatçılıq əhvaliruhiyyəsi güclənir, cinayətkar ünsürlər meydan sulayır, insanlar etnik zəmində təqiblərə məruz qalır, şəhər və rayonlarda qətlqarətlər törədilir, ziyalılar baş götürüb ölkədən qaçır, hakimiyyət iddiasında olan qruplaşmalar arasında silahlı toqquşmalar baş verir, Ermənistan silahlı birləşmələri ilə bəsit özünümüdafiə səviyyəsində müharibə aparıhrdı, Xalq Cəbhəsi hökumətinin və ayrı-ayrı şəxslərin yaratdığı silahlı dəstələr arasında cəbhə xəttində adicə hərbi nizam-intizam və tabeçilik yox idi.

Bütün bunların nəticəsi olaraq Azərbaycanın yaşayış məntəqələri və rayon mərkəzləri birbirinin ardınca düşmənə təhvil verilir, Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağı və ona bitişik rayonları işğal edirdilər və sair. Adama elə gəlirdi ki, bu ümumi fəlakətdən, hakimiyyəti zor gücünə ələ keçirən, lakin bu yükün bütün ağırlığmı və məsuliyyətini dərk etməyən adamların cinayətkarcasına məsuliyyətsizliyi nəticəsində ölkənin düşdüyü çox ağır vəziyyətdən çıxış yölu yoxdur.

Heydər Əliyev heyrətamiz iradə və məqsədyönlülüklə ölköni bu şəksiz fəlakətdən xilas etməyə girişdi. O, belə bir sadə və eyni zamanda böyük həqiqəti rəhbər tuturdu: nə qədər ki insanlar özlərinin həyatı və yaşamaq hüququ uğrunda, müstəqillik və milli dövlətçilik uğrunda mübarizə aparmağa qadirdirlər, onlar üçün nə ictimai əmin-amanlığın və barışığın bərqərar olmasında, nə də yaranmış siyasi, sosial və iqtisadi

böhrandan çıxış yollarının tapılmasında dəfedilməz maneələr yoxdur və ola da bilməz.

Azərbaycan vətəndaşları bu taleyüklü dövrdə də Heydər Əliyevin sadiq müttəfiqləri oldular, ilk növbədə, özlərinə hörməti bərpa etmək üçün bütün iradələrini və həyat enerjilərini səfərbər edə bildilər. Məhz Heydər Əliyevin qayıdışı sayəsində Azərbaycan xalqında ruh yüksəkliyi yarandı, xalq sanki ümidsiz olan bir vəziyyətdə perspektivləri gördü, onda öz gələcəyinə inam oyandı. Ölkə dərin ictimai, siyasi və iqtisadi böhranı aradan qaldıra bildi. Azərbaycan təcrid vəziyyətindən çıxdı və dünya birliyinin üzvü oldu, mötəbər beynəlxalq təşkilatlara qəbul edildi. Dağlıq Qarabağ üstündə ErmənistanAzərbaycan qanlı münaqişəsi məhz Heydər Əliyevin dövründə beynəlxalq hüquq prinsipləri əsasında həlli üçün sülh danışıqları mərhələsinə keçdi. Məhz onun dövründə ölkə quruculuq, demokratik cəmiyyət və hüquqi dövlət yaradılması yoluna qədəm qoydu. Məhz onun dövründə Azərbaycan özünün coğrafısiyasi vəziyyətinin nadir imkanların dan istifadə edə bildi. Bu yol nə qədər enişliyoxuşlu olsa da, Azərbaycan xalqı öz gələcək inkişafının üfiiqlərini məhz Heydər Əliyevin həyata keçirdiyi sistemli fundamental dəyişikliklər çərçivəsində görür.

Şübhəsiz ki, Heydər Əliyev öz xalqınm psixologiyasının xüsusiyyətlərini, mentalitetini çox gözəl bilən xarizmatik liderdir. Onun həyatında hadisələrin sanki öncədən müəyyənləşdirilmiş gedişini təkcə sözün gücü ilə dəyişdirə bildiyi hallar çox olmuşdur.

Heydər Əliyevin şəxsi nümunəsi bizim hamımızı, onun həmvətənlərini ruhlandırır və qurub-yaratmağa həvəsləndirir. O, Azərbaycana otuz ildən çox rəhbərlik edərək sözü və əməli ilə yeni gerçəklik yaradır, Azərbaycan üçün dünyaya yol açır, onu ən sivilizasiyalı və çiçəklənən ölkələrdən birinə çevirnıəyə çalışır. Buna görə də xalq öz millətinə təmənnasız xidmət etməyin misilsiz nümunəsinə heyran olmaqla yanaşı, həm də başa düşür ki, indi Azərbaycana məhz belə lider lazımdır.

Heydər Əliyev iki əsrin ayrıcmda öz ölkəsinin dövlət adlı gəmisini qlobal sarsıntılar dövrünün fırtınalarından sağ-salamat və uğurla keçirərək ölkənin milli dəyərlərinin, insanların mənəvi sağlamlığının, özlərinə inamının qorunub saxlanmasına müvəffəq olmuşdur. Siyasətin ön səhnəsində olduğu otuz dörd il ərzində o, XX və XXI əsrlərin görkəmli siyasətçilərindən biri kimi, müasir dövrün böyük siyasi lideri kimi bütün dünyada

tanınmışdır. Görkəmli siyasi xadim, ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə sabiq köməkçisi Zbiqnev Bjezinski dövlətimizin başçısı haqqında bu fikirdədir: "Heydər Əliyev siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istədiyini tez çatdıran şəxsiyyət bir sözlə, şəksiz liderdir".

Yeni minilliyin astanasında biz dönüb hadisələrlə zəngin olan yaşadığımız əsrə nəzər salır, bu hadisələrdən bir çoxunun həqiqi əhəmiyyətini dərk edir və ictimai inkişafın hərəkətverici qüvvəsinə çevrilə bilmiş siyasi xadimlərin tarixə verdikləri töhfəni sanki yenidən qiymətləndiririk. Müasir dövrün görkəmli siyasətçilərindən biri kimi Heydər Əliyev, şübhəsiz ki, həmin tarixi simalar sırasında xüsusilə seçilir.

Öz tənqidçilərindən və siyasi opponentlərindən fərqli olaraq, Heydər Əliyev ölkənin bir çox problemlərinin siyasətin, iqtisadiyyatını və ictimai həyatın məğzini və mahiyyətini müəyyənləşdirən problemlərin həllinin açarını tapmışdır. Yalnız həmin problemlərin həllindən sonra Azərbaycan üçün gələcək inkişafın perspektivləri açılmış və bu perspektivlər bizdən ötrü nikbinlik və daha yaxşı gələcək üçün ümidlər mənbəyi olmuşdur. Onun şəxsiyyətinin və fəaliyyətinin mahiyyətinin dərk olunması on illərlə Azərbaycan ətrafında cərəyan etmiş hadisələrin təbiətinə, son dərəcə mürəkkəb ümummilli problemlərin həlli yollarına işıq salır. Dövlətimizin tarixində o, iki dəfə siyasətdə və dövlət idarəçiliyində səviyyəsizliyə, səriştəsizliyə və bəsitliyə qətiyyətlə son qoya bilmişdir. O, işdə sübuta yetirmişdir ki, dünyam təkcə böyük dövlətlər idarə etmir, kiçik xalqlar da var və onların reyi ilə hesablaşmaq lazımdır. O, azərbaycanlıların necə güclü iradəyə və ruha malik olduqlarını, onun xalqının necə böyük enerji potensialına və intellektual potensiala sahib olduğunu öz timsalında bütün dünyaya nümayiş etdirmişdir.

Heydər Əliyev birinci dəfə də, ikinci dəfə də eyni şəraitdə ictimai münasibətlərin kəskin şəkildə gərginləşdiyi, dövlət idarəçiliyinin fundamental əsaslarının dağıldığı, cəmiyyətin zehnində dolaşıqlıq və mənəvi dayaqlarında hərcmərclik yarandığı dövrlərdə ölkəyə rəhbərlik etməyə başlamışdır. 1993-cü ilin iyununda Azərbaycan dünyanın siyasi xəritəsindən silinmək həddinə çatmışdı. Zaman və hadisələr, həyatın özü tələb edirdi ki, kimsə öz xalqına inamı qoruya, ölkəni viranedici fəlakətlərdən xilas edə bilsin. O, ölkəyə həqiqi milli dövlətçilik yaratmağın mümkün olması barədə yeni inam verdi və bununla da Azərbaycan tarixində öz misilsiz

yerini bəri başdan müəyyənləşdirdi. Həmin taleyüklü günlərdə onun tükənməz enerjisi, nikbinliyi və milli amallara sadiqliyi  bütün bu şəxsi keyfiyyətləri, əslində, milli dirçəliş konsepsiyasının həyata keçirilməsi üçün tam səfərbər olunmuşdu.

Ankaradakı Bilkənd Universitetinin banisi, dünya şöhrətli alim İhsan Doğramacı Heydər Əliyev şəxsiyyətini qiymətləndirərkən demişdir: "Heydər Əliyev zəmanəmizin nadir yetişdirdiyi dövlət xadimlərindəndir. Heydər Əliyev yaşadığı fırtınalı həyatı boyu hər zaman xalqını, Vətənini düşünmüşdür. Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi və öz xalqının xoşbəxtliyi üçün çırpınmışdır. Azərbaycanın ən çətin anların  da Vətəni xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmişdir... O, ölkəsini bəlalardan qurtaran dövlət başçısıdır".

Heydər Əliyevin dövründə Azərbaycanı onun hüdudlarından çox-çox uzaqlarda tanıdılar. Mübaliğəsiz deyə bilərik ki, o, ölkəni siyasi təcriddən çıxararaq  xarici siyasətdə çox böyük irəliləyiş yaratdı. Azərbaycanın səsi mötəbər beynəlxalq təşkilatların və dövlət başçıları sammitlərinin tribunalarından getdikcə daha tez-tez  və gur eşidilməyə başladı, Azərbaycan beynəlxalq strukturlara üzv qəbul edildi.

Heydər Əliyev həmvətənlərinə sabahkı günə olan inamsızlığı, vahiməni və ümidsizliyə qapılmaq hissini aradan qaldırmağa kömək etdi. Şəkkakların əksinə olaraq, o bəyan etdi ki, biz bu tənəzzüldən çıxacağıq, ümumi böhrana son qoyacağıq, milli müstəqilliyi və dövlət müstəqilliyini qoruyub saxlayacaq və möhkəmləndirəcəyik, ölkə iqtisadiyyatını qaldıracağıq, insanların maddi vəziyyətini yaxşılaşdıracağıq, hüquqi dövlət və demokratik cəmiyyət quracağıq. Azərbaycanın sivilizasiyalı və çiçəklənən ölkə olacağına onun bəslədiyi sarsılmaz inama indi dövlətimizin bütün layiqli vətəndaşları şərikdirlər.

Heydər Əliyev Azərbaycana elə xidmət edir ki, bizlərdən hər biri də ölkəmizə onun kimi öz ağılzəkasının tam gücü ilə, xalqın milli tarixinə və mənəvi dəyərlərinə qayğıkeş münasibətlə, Azərbaycanın milli sərvətlərini artırmaq və hər bir vətəndaşa layiqli yaşayış təmin etmək istəyi və əzmi ilə xidmət etməlidir. O, ümumxalq məhəbbəti və hörmətini ancaq belə qazana bilmişdir. Onun bütün həyatı milli tarixin salnaməsinə düşməyə layiq olan seçmə nümunədir.

O, sözə münasibətdə çox həssasdır, sözün həm yerini, həm də gücünü bilir, öz zəmanəsinin ən yaxşı natiqlərindən biri kimi tanınmışdır, öz xalqının xarakterini dərindən öyrənmişdir, bilir ki, ümummilli vəzifələrin həyata keçirilməsi üçün onun çox böyük qüvvəsini necə səfərbərliyə almaq lazımdır. Belə demək ədalətli olardı ki, o, bir çox həmvətənlərindən, eləcə də cilov bilməyən hikkələri ilə hakimiyyət iddiasında olanlardan həmişə daha bəsirətli, uzaqgörən olmuşdur. O, Dağlıq Qarabağ üstündə gedən ErmənistanAzərbaycan müharibəsinin Azərbaycan üçün perspektivsizliyini lap əvvəldən başa düşmüşdü: ölkə müharibəyə hazır deyildi, təpədən-dırnağadək silahlanmış və əvvəlcə sovet, sonra da Rusiya qoşunlarından kömək alan erməni birləşmələrinin hücumlarına tab gətirə bilmirdi. O, Azərbaycana zor gücünə qəbul etdirilmiş münaqişənin dincliklə həllinin labüdlüyünü hamıdan əvvəl başa düşərək dərk etmişdi ki, Cənubi Qafqaz regionunda sülhə və sabitliyə tərəfdar olan dünyanın aparıcı ölkələri problemin hərbi yolla həllinin əleyhinədirlər. Öz ərazi bütövlüyünün bərpası baxımından bu müharibə Azərbaycan üçün ədalətli sayılardı, lakin hər bir müharibə kimi, o da inkişafa doğru yolda dəfedilməz maneə olardı. Heydər Əliyev son dərəcə mürəkkəb və çətin bir şəraitdə ölkəyə sosial sülh verə bildi, əvvəlki nəsillərin nail olduqları yaxşı nə varsa, hamısını qoruyub saxlayaraq ölkəni yeniləşdirdi.

Həyat sübut edir ki, sınaqlara tab gətirməyənlər iflasa uğrayır, özünü dəf edə bilənlər isə xalqın rəğbətini qazanır. Heydər Əliyev istər fıziki, istərsə də ictimai baxımdan ciddi sınaqlardan keçmişdir. Bu sınaqlar ona cəsarət və səbirlə yanaşı, dəyişiklikləri həssaslıqla hiss etmək, iti tarixi duyum kimi keyfiyyətlər də aşılamışdır. O, dönüş məqamının başlandığını əvvəlcədən duymaq və qarşıdakı işlərin zəruriliyini buna uyğun olaraq əsaslandırmaq üçün kifayət qədər uzaqgörəndir. Öz liderinin dövlətçilik istedadına və müdrikliyinə güvənən xalq həmişə bilir ki, o, sabitliyi qoruyub saxlamaq, ölkəni dəyişmək, zamanın tələblərinə layiqli cavab vermək üçün nə kimi tədbirlər görəcəkdir. Məhz buna görə də insanlar indiki çətinliklərə dözməyə hazırdır, çünki inanırlar ki, onlar dönmədən daha gözəl həyata doğru aparan prosesin iştirakçılarıdır.

Təbiət Heydər Əliyevə nadir keyfiyyətlər  iş qabiliyyəti, qətiyyət, özünün haqlı olduğuna əminlik, ətrafındakı adamların məziyyətlərini və imkanlarını müəyyənləşdirmək bacarığı kimi keyfiyyətlər bəxş etmişdir.

Onun fenomenal yaddaşı barədə rəvayətlər söylənir: neçə illər əvvəl olmuş və çoxları üçün əhəmiyyətsiz görünmüş faktları və hadisələri bütün təfərrüatı ilə xatırlaya bilir. Çoxdan və ötəri görüşdüyü adamların adları da yadmdadır.

Bir şəxsiyyət kimi Heydər Əliyev nə qədər açıq olsa da, müasirləri üçün sirr olaraq qalır. Bu gün Heydər Əliyev fenomenindən çox yazırlar. Bu məqalə, kitabça və əsərlərin müəllifləri onun ölkəmizin tarixində bütöv bir dövrü təcəssüm etdirən əsl Vətəndaşın, böyük Şəxsiyyətin və qüdrətli Liderin, İnsanın müxtəlif cəhətlərini açıqlayırlar. Lakin onların hamısının yekdil rəyi belədir ki, Heydər Əliyev Azərbaycan xalqının milli sərvəti, onun bəxtinə düşmüş Tanrı payıdır.

Bununla belə, hesab edirəm ki, bu məqalə və kitablarda müəlliflər Heydər Əliyevin səciyyəvi keyfiyyətlərini tam açmağa, onun istedadını və parlaq şəxsiyyətini bütünlüklə göstərməyə müvəffəq olmamışlar. Ən əvvəl ona görə ki, bu, olduqca çətindir. Heydər Əliyevin siyasi portretini tam dolğunluğu ilə yaratmaq müşkül işdir. Çünki bu, bütöv bir dövrü təsvir etməyə cəhd göstərmək demək olardı. Bütöv bir dövrü təsvir etmək isə son dərəcə çətin bir vəzifədir. Bu məqalədə biz onım çoxşaxəli fəaliyyətinin ancaq bir cəhətindən, yəni azərbaycançılıq ideologiyasında öz təcəssümünü tapan milli ideyanı gerçəkləşdirməsindən danışmağa çalışacağıq.

Heydər Əliyev dövrünə müraciət edən istənilən tədqiqatçı belə bir suala cavab tapmalıdır ki, dövlətçiliyimizin çoxəsrlik tarixində nə üçün məhz Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev müstəsna yer tutur. Axı indi onun adı da, elə özü də bu dövlətçiliyi təcəssüm etdirir. Əlbəttə ki, öz əhəmiyyətinə görə Heydər Əliyevin fəaliyyətinin Azərbaycanın hüdudlarından çox-çox uzaqlara çıxdığını deyən siyasətçi və politoloqlarla razılaşmaq lazımdır. Bu da doğrudur ki, müasir dövrdə Azərbaycanda da, bütün postsovet məkanında da, hətta deyərdik, bütün dünyada da gedən prosesləri Heydər Əliyevin fəaliyyət dairəsindən kənarda təsəvvür etmək mümkün deyildir. Lakin bu, hansısa bir fenomenin, olsaolsa, nəzərə çarpdırılmasıdır, bizim məqsədimiz isə bu fenomenin mahiyyətinə varmaqdır.

Əgər Heydər Əliyevin həyat və fəaliyyəti haqqında son onilliklər ərzində yazılanların hamısını nəzərdən keçirsək, onda ən əvvəl demək lazımdır ki, müxtəlif ölkələrdə, bir çox dillərdə Azərbaycan Prezidentinin

şəxsiyyətindən, həyat yolundan, siyasi baxışlarından bəhs edilən kitab və məqalələr nəşr olunur. Bütün bu nəşrlərdə əsas diqqət Heydər Əliyevin siyasi fəaliyyətinin konkret cəhətlərinin təhlilinə yetirilir. Bu baxımdan qeyd etmək yerinə düşərdi ki, nadir istedada, ensiklopedik biliyə, genişmiqyaslı dünyagörüşünə malik olan bu tarixi şəxsiyyətin fəaliyyətini yalnız əməli fəaliyyətlə, gerçəkləşdirdiyi konkret layihələrlə məhdudlaşdırmaq olmaz.

Müasir Azərbaycanda dövlət quruculuğunun, iqtisadi dirçəlişin, ictimai-siyasi və sosial həyatda tərəqqinin otuz ildən arüq dövrünü əhatə edən bütöv bir epoxa Heydər Əliyevin adı ilə bağlıdır. Bütün bunlar onun həm əməli fəaliyyətində, həm də inkişafımızın paradiqmasının fəlsəfi anlamında öz əksini tapmışdır. Onun yaratdığı fəlsəfi konsepsiya Azərbaycanın müasir dünyada özünəməxsus yerini müəyyənləşdirmiş, milli dövlətçiliyimizin bünövrəsini təşkil etmiş və dünya azərbaycanlılarının həmrəyliyi prosesinin ideya əsasını yaratmışdır. Lakin çox vaxt bütün bunlar Heydər Əliyevin konkret fəaliyyətinin kölgəsində qalır. Buna görə də Heydər Əliyev fenomeninin mahiyyətini başa düşmək üçün göstərilən cəhdlər diqqətimizi onun dünyagörüşünün tərkib hissəsini təşkil edən fəlsəfi cəhətlərə yönəldir.

Hamıya məlumdur ki, Heydər Əliyev son dərəcə savadlı və yüksək erudisiyaya malik insandır. Bu savadlılıq akademik xarakter, hansısa cərəyan və konsepsiyaların həyatdan təcrid olunmuş halda dərk edilməsi xarakteri daşımır, onda ümumbəşəri dəyərlər Azərbaycan ziyalılarının bir çox nəsillərinin yaratdıqları milli ideallar sistemi ilə ahəngdarlıq təşkil edir. Məhz buna görə də o, dövlət quruculuğunun elə bir konsepsiyasını işləyib hazırlaya bilmişdir ki, burada sosiologiya və fəlsəfənin bır çox mücərrəd problemləri ideyalar və elm sahəsindən əməli siyasət müstəvisinə keçmişdir. Mirzə Fətəli Axundovdan başlayaraq Hüseyn Cavidə və Səməd Vurğunadək Azərbaycan xalqının görkəmli nümayəndələrinin yaradıcılığında ümummilli dəyərlər və ən müqəddəs cəhətlər haqqında təsəvvürlərin mahiyyətini təşkil etmiş hər şey Heydər Əliyevin fəlsəfi görümündə dövlət quruculuğunun konkret konsepsiyasında öz ifadəsini tapmışdır. Heydər Əliyevin siyasi taleyinin mahiyyətini dərk etmək üçün müxtəlif hadisələrin fəlsəfi məğzini araşdırmaq və onun həyata keçirdiyi möhtəşəm planların izahı üçün açar olan ideyaları başa düşmək lazımdır.

Heydər Əliyev həm özünün nadir siyasi istedadı sayəsində, həm də milli dirçəlişin mükəmməl fəlsəfi konsepsiyasına əsaslanaraq müasir Azərbaycan adlandırdığımız bir məmləkəti, onun bugünkü həqiqətini, sabahkı gününün etibarlı bünövrəsini yarada bilmişdir. Formal səbəblərə görə deyil, ilk növbədə məhz buna görə Azərbaycan tarixinin 1969-cu ildən bəri bütün dövrü Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan xalqı üçüncü minilliyə də məhz Heydər Əliyevin adı ilə qədəm qoymuşdur. Azərbaycanın gələcək taleyi baxımından bu tarixi dövrün başlıca məzmunu isə milli dirçəliş fəlsəfəsinin gerçəkləşdirilməsindən ibarət olmuşdur. Onun fəlsəfəsi sırf ehkamlaşdırılmış əsərlərdə təsvir edilən hər hansı təlim olmaqdan və ya buna çevrilməkdən uzaqdır. Əslində, bu fəlsəfə bizim hamımızın gözləri qarşısında yaradılmışdır və onun mahiyyəti Heydər Əliyevin əksər halda bədahətən söylədiyi bir çox nitq və çıxışlarında son dərəcə aydın ifadə olunmuşdur. Məhz natiqlik istedadı ona ilk baxışdan qeyri-mümkün görünən məsələni reallaşdırmağa öz fəlsəfi və siyasi əqidəsini böyük auditoriyalar qarşısında şifahi çıxışlar çərçivəsində formalaşdırmağa imkan vermişdir.

Gerçəkliyin özünün obyektiv qanunlarını əks etdirən elmi metodologiyaya uyğun olaraq Heydər Əliyev XX əsr Azərbaycan tarixini özünəxas peşəkar tarixçi dəqiqliyi ilə dörd mərhələyə bölür. Birinci mərhələ ötən əsrin əvvəlindən oktyabr inqilabınadək olan tariximizdir. İkinci tarixi mərhələ 1918-1920-ci və 1920-1922-ci illəriazərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu və Azərbaycan Sovet Respublikası SSRİ-nin tərkibinə daxil olanadək dövrü əhatə edir. Üçüncü mərhələ 1922-ci ildən Azerbaycanın öz milli müstəqilliyini bərpa etdiyi 1991-ci ilədək olan dövrdür. Dördüncü mərhələ isə 1991-ci ildən bu günədək olan dövrü əhatə edir. Əgər diqqət yetirsək görərik ki, son mərhələlər üçüncü və onun bilavasitə nəticəsi olaraq, dördüncü mərhələlər Heydər Əliyevin adı ilə birbaşa bağlıdır. Həqiqətən də Azərbaycanı müstəqil dövlət qurmağa doğru aparan yol, əslində, 1969-cu ildən məhz onun hakimiyyətə gəlişindən sonra başlanır.

Heydər Əliyevin respublikanın rəhbəri vəzifəsində fəaliyyətinin ilk günlərindən aydın oldu ki, onun simasında Azərbaycan xalqı əsl milli liderini tapmışdır. Bir tərəfdən, o, keçmiş SSRİ-də, sovet və partiya həyatında hakim olan bütün normalara son dərəcə dəqiq və nəzakətlə əməl

edirdi. O dövrdəki nitqləri ilə tanış olarkən başa düşürsən ki, onun özü də kommunizm amallarına ürəkdən inanırdı. Lakin bununla yanaşı, o, sovet mədəniyyətinin ənənəvi formuluna formaca milli və məzmunca sosialist mədəniyyəti formuluna tamamilə yeni bir məna verə bilmişdir. Onun gördüyü bütün işlər foraıal surətdə marksizm-leninizm ideologiyasının tələblərinə uyğun gəlirdi. Buna baxmayaraq, o, əvvəlki, standart stereotipləri qırır, hansısa yeniliklər daxil edə bilirdi ki, bunları da o illərdə başa düşmək və dəqiq formalaşdırmaq çətin idi. Əslində isə bunlar olduqca aydın nəticələrə gətirib çıxarırdı. O, milli ruhun dirçəldilməsinə, öz zamanəsinin Azərbaycan mədəniyyətinin inkişafına və çiçəklənməsinə nail olmaqla yanaşı, həm də bütün ziyalıların, bütün Azərbaycan xalqının diqqətini tarixi və mədəni qaynaqlara yönəltmişdir. O illərdə biz Azərbaycan dilini, Azərbaycan ədəbiyyatını, Azərbaycan tarixini, Azərbaycan musiqisini nadir milli mədəniyyətimizin bütün qatlarını özümüz üçün sanki təzədən açır və yenidən qiymətləndirirdik.

Məhz bu baxımdan Heydər Əliyevin respublikaya rəhbərliyinin birinci dövrünü milli özünüdərkin oyanmasının, öz kökümüzə qayıdışın və müraciətin yeni mərhələsinə doğru aparan proseslərin başlanğıcı kimi qəbul etmək lazımdır. Məsələ bundadır ki, Heydər Əliyevin bütün fəlsəfi konstruksiyası xalqın milli dirçəlişi, milli qürur hisslərinin oyanması ideyasına əsaslanırdı. Qalan hər şey, o cümlədən də iqtisadi inkişafın sürətli strategiyasının həyata keçirilməsi milli şüurun yüksəlməsinə təkan verməli, milli dirçəlişin təməlinə çevrilməli idi.

Heydər Əliyev öz fəlsəfi konsepsiyasını əməli siyasət məcrasında gerçəkləşdirmək üçün olduqca mürəkkəb mexanizmdən istifadə etmişdir. Lakin onun atdığı ilk addımlar son dərəcə sadə idi o, Azərbaycanın görkəmli şəxsiyyətlərinin yubileylərini müntəzəm qeyd etmək ənənəsinin bünövrəsini qoydu. Bu, formal bir hadisə deyildi. Bu, Azərbaycan mədəniyyəti klassiklərinin yaradıcılığınm tarixinə və mahiyyətinə həqiqi müraciət idi, milli düşüncənin dərin qatlarını üzə çıxarınaq idi.

İlk baxışdan adama elə gəlir ki, Cəfər Cabbarlı qədər ikinci bir sovetpərəst dramaturq təsəvvür etmək çətindir. Təsadüfi deyil ki, o, sovet ədəbiyyatınm bütün dərsliklərinə Azərbaycan sovet dramaturgiyasının banisi kimi daxil olmuşdur. Lakin Heydər Əliyev dövründə respublikamızda keçirilmiş ilk yubileylərdən birinin necə məna kəsb etdiyini yada salaq. Zahirən

hər şey o dövrün qaydalarına uyğun idi 1969-cu il oktyabrın 10-da görkəmli Azərbaycan dramaturqu Cəfər Cabbarlının anadan olmasının 70 illiyinə həsr edilmiş təntənəli yığıncaq keçirildi. Cəmi on gün sonra isə müasir dramaturgiyamızın banilərindən biri olan bu ustadın yubileyi Ümumittifaq səviyyəsində, Azərbaycan incəsənət xadimləri nümayəndələrinin iştirakı ilə Moskvada İttifaqlar Evinin Sütunlu salonunda keçirildi.

Lakin ona diqqət yetirək ki, bir tərəfdən, Azərbaycan sovet dramaturgiyasının banisi Cəfər Cabbarlının yubileyi ənənəvi sovet qanunqaydalarına uyğun olaraq keçirildi, digər tərəfdən isə, burada tamamilə "qeyriənənəvi cəhətlər" vardı. Sovet ədəbiyyatşünaslığının adətən fikir verməditi əsərlər ictimaiyyətin diqqət mərkəzinə çıxarılırdı. Yeni nəsil özü üçün tamamilə yeni bir Cabbarlmı kəşf etdi, o Cabbarlmı ki, rəsmi ideologiya çərçivəsində bəzən ezop dili ilə elə məsələlərə toxunurdu ki, bu, Azərbaycanın keçdiyi tarixi yolun nadirliyi barədə hamını düşünməyə vadar edirdi. Dərk edirdik ki, biz hamımız olduqca böyük tarixi sərvətlərin, çox yüksək tolerantlıq, dini və etnik dözümlülük şəraitini qoruyub saxlamış və zəmanəmizə, bizə gətirib çatdırmış əcdadlarımızın yaratdıqları misilsiz mənəvi xəzinənin varisləriyik. Bu yubiley tədbirlərinin bütün iştirakçıları fikrən Azərbaycan tarixinin zərdüştilik və atəşpərəstlik dövrünə qayıdır, XX yüzilliyin başlanğıcındakı mürəkkəb sosial prosesləri gözlərinin qarşısına gətirir, milli teatrın, dünyəvi təhsil sisteminin təşəkkülünün təfərrüatma vaqif olurdular.

Bakınm mərkəzində Cəfər Cabbarlıya abidə ucaldılanda, Azərbaycan kinostudiyasında onun büstü açılanda, əsərləri yenidən səhnəyə qoyulanda aydın oldu ki, Cabbarlı dramaturgiyası və poeziyası bədii obrazlar sistemi vasitəsilə məhz Heydər Əliyev siyasətinin öncül qayəsi olan ümummilli dəyərlərin bərqərar edilməsinə yönəlmişdir. Məhz bu baxımdan həmin yubileyin son dərəcə rəmzi mənası oldu.

Azərbaycan mədəniyyətinin yubileyləri təntənə ilə qeyd edilən bir çox nümayəndələrinin xalqın taleyüklü problemləri, keçmişi və gələcəyi ilə bağlı olan mühüm konseptual fikirləri bu və ya digər formada şərh edilir, araşdırılır və sistem halma salınır, nəticədə isə böyüməkdə olan nəslin sərvətinə çevrilir, onların dünyagörüşünün əsasını formalaşdırırdı.

Daha bir misal. 1969-cu ildə bəziləri Azərbaycan tarixini saxtalaşdıraraq Bakı Dövlət Universitetinin açılmasını respublikamızda sovet hakimiyyətinin

qurulmasının nəticəsi kimi qələmə verməyə çalışır, müxtəlif bəhanələr gətirərək universitetin 50 illik yubileyini 1970-ci ildə, yəni Azərbaycanda sovet hakimiyyəti qurulmasının yubileyi ilə bir vaxtda qeyd etmək istəyirdilər. Heydər Əliyev çıxışlarından birində bu barədə deyir: "Bu, dözülməz bir hal idi. Elə həmin 1969-cu il noyabrın 1-də biz universitetin 50 illiyini qeyd etdik. Mən özüm bu mərasimdə çıxış etdim. Bakı Dövlət Universitetinin sonrakı yubileylərində dəfələrlə qeyd olunmuşdur ki, bu çıxışın universitetdə böyük əks-sədası oldu. Çünki bu çıxış Azərbaycan dilində idi və universitetin qarşısında qoyulan məsələlər bizim ümummilli problemlərimizlə sıx bağlı idi".

O yubiley günlərində çoxları, ümumiyyətlə, bəlkə də ilk dəfə düşünürdü ki, görəsən, əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətini yaradanların məqsəd və məramları nə idi? Axı sovet elmində Azərbaycan Xalq Cümhuriyyətinin həmin nümayəndələrinə ancaq rüsvayçılıq damğası vurulurdu, əslində isə Bakıda universiteti məhz onlar açmışdılar və respublikada ali təhsilin bünövrəsini də məhz bu universitet qoymuşdur.

Sovet dövrünün ehkamları respublika rəhbərindən bütün rəsmi tədbirlərdə yalnız rus dilində danışmağı tələb edirdi. Heydər Əliyev bu qaydanı formal olaraq pozmurdu, həqiqətən də, bütün qurultaylarda, plenumlarda məhz rus dilində çıxış edirdi. Lakin rəsmiyyətçilikdən kənara çıxmaq üçün azacıq imkan düşən kimi o, Azərbaycan dilinə müraciət edirdi. Özü də, demək olar, heç vaxt əvvəlcədən hazırlanmış mətnlərdən istifadə etmir, sözlərini sinədən deyirdi. Bu da heyrət qarışıq bir heyranlıq və bu üslubu təqlid etmək arzusu doğururdu. 1972-ci illərin ortalarında yazıçılardan biri ona "Yoldaş Əliyev, Siz azərbaycanca nə gözəl danışırsınız!" deyəndə Heydər Əliyev gülümsəyərək belə cavab vermişdi: "Sən niyə mənim rusca gözəl danışmağıma deyil, azərbaycanca danışmağıma təəccüb edirsən? Bu dil mənim ana dilimdir, mən bu dili bilməliyəm! Eləcə də hamımız". Bunlar adi sözlər deyildi. Bu sözlərin Azərbaycan ziyalılarının milli tərbiyəsinə təsirinin gücü ana dilinə uzun müddətdən bəri davam edən çox soyuq münasibətə son qoya bildi.

Heydər Əliyevin ana dilinə müraciət etməsi müəyyən mənada sanki gözlənilmədən, bədahətən idi. Bunun dəqiq ifadə edilməsi sonralar olmuşdur. Artıq müstəqillik illərində Heydər Əliyev ana dilinə münasibətini, televiziya və informasiya texnologiyaları da daxil olmaqla, həyatımızın

bütün sahələrində Azərbaycan dilinin mövqeyinin möhkəmləndirilməsinə dair xüsusi fərmanların da və tədbirlərində son dərəcə aydın ifadə edəcək, eyni zamanda öz çıxışlarında da bu mövzuya müraciət edəcəkdir. Onun bu mövzuda çoxsaylı fikirlərindən birini xatırlatmaq istərdik: "Millətin milliliyini saxlayan onun dilidir. Şübhəsiz ki, musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Əgər Azərbaycan dili olmasa, Azərbaycan dilində ədəbiyyat da olmaz. Azərbaycan dili olmasa, Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunların hamısı birbirinə bağhdır. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, həm də azərbaycançılıq məsələsidir".

Elə görünür ki, öz milli müstəqilliyimizi bəyan etdikdən sonra biz ilk növbədə gələcək inkişafımızın bəzi, heç olmasa, əsas istiqamətlərini müəyyənləşdirməli idik. Lakin 1991-93-cü illərdə Azərbaycanda keçmişə nihilist münasibət və tarixi tamamilə yenidən yazmaq istəyi hökm sürürdü. Yeni dalğanın gətirdiyi bir çox "demokrat"ların platfomasını bəzi tədqiqatçılar "neobolşevizm" adlandırırlar. Ölkənin o vaxtadək yaradılmış iqtisadi potensialına həmin illərdə çox böyük ziyan vuruldu, milli dəyərlərin hansısa bir yoxlanılmış sisteminə əsaslanmayan ideyasız inkişaf pərəstiş obyekti səviyyəsinə qaldırıldı. Hamıya məlumdur ki, təkcə təbiət deyil, cəmiyyətin inkişafı da boşluğa dözmür. Bu ideya boşluğu dərhal mentalitetimizə yad ideologiya ilə dolduruldu və çox tez bir zamanda cəmiyyətə nifaq saldı.

Azərbaycan xalqı Heydər Əliyevin 1969-82-ci illərdə Azərbaycana rəhbərliyi dövründə həyata keçirdiyi işlərin əhəmiyyətini yalnız iki ildən sonra səhvlərin və yanılmaların, mənfi təcrübənin acı dərslərini görəndən və yaxınlaşan fəlakəti hiss edəndən sonra dərk etdi. Aydın oldu ki, Heydər Əliyev, ilk növbədə, milli özünüdərki sovet ideoloji sisteminin buxovlarından xilas edə bilmişdir. Hamının və har şeyin elliklə inkar edildiyi hərcmərclik dövründə Heydər Əliyevin adını belə xalqın tarix və yaddaşından silməyə can atanlar da qəlbinin dərinliyində gözəl başa düşürdülər ki, onun siyasi və dövlətçilik fəaliyyəti xalqın milli dövlətçilik barədə çoxəsrlik arzu və istəklərinin həyata keçməsi üçün əlverişli zəmin yaratmışdır. 1993-cü ildə ölkəyə yenidən başçılıq edən Heydər Əliyevi, ilk növbədə, bütövlükdə respublikaya vurulan ziyanın miqyası dəhşətə gətirdi. Çox

şeyə boş yerdən başlamaq lazım gəldi. Heydər Əliyev ötən əsrin 70-ci illərində Azərbaycanda necə böyük quruculuq işlərinin həyata keçirildiyini sonralar öz çıxışlarında dəfələrlə xatırlayacaqdır. Artıq 80-ci ilin ortalarında Azərbaycan həm formal cəhətdən, həm də faktiki olaraq keçmiş SSRİ-nin ən dinamik inkişaf edən respublikalarından birinə çevrilmişdi.

Bu vəziyyət Heydər Əliyevin 1969cu ildə Azərbaycana rəhbərlik etməyə başladığı dövrdəkindən kəskin surətdə fərqlənirdi. SSRİ-nin perspektivsiz əyalətlərindən biri kimi respublikamız barəsində formalaşmış fikrin nəticəsi idi ki, 1960-cı ilin sonlarına yaxın Azərbaycan social iqtisadi həyatın bütün sahələrində geridə qalırdı. Sovet hökumətinin rəsmi dairələri səviyyəsində belə bir fikir vardı ki, məşhur neft yataqları öz keçmiş əhəmiyyətini itirmişdir və respublikanın neftə yönəldilmiş iqtisadiyyatı elə beləcə sürünməyə məhkumdur. Bunun, demək olar, alternativi yox idi. Vəziyyətdən çıxmaq üçün yeni yollar axtarınaq əvəzinə respublikada mənfi meyillərin tədricən güclənərək daha dərin kök atması ilə barışmışdılar, hakimiyyət uğrunda gizli mübarizə getdikcə daha eybəcər şəkil alırdı. Belə bir vəziyyətdə, ilk növbədə, respublika iqtisadiyyatının getdikcə güclənən tənəzzülünün qarşısını almaq, ictimai-siyasi həyatdakı mənfı halları aradan qaldırmaq lazım idi. Buna ən əvvəl respublikanın siyasi rəhbərliyindəki intriqalar, dövlət və əmək intizamının, tələbkarlığın olmaması, hakimiyyət orqanlarındakı qohumbazlıq və rüşvətxorluq mane olur və bütün bunlar da cəmiyyətə son dərəcə mənfi təsir göstərir, cəzasızlıq və hərki-hərkilik şəraiti yaradırdı.

Xalqın etibarından və dəstəyindən məhrum olan, habelə başı daxili çəkişmələrə qarışan ölkə rəhbərliyi məqsədyönlü dövlət siyasətini həyata keçirə bilmirdi. Ona görə də milli dilin inkişafı və işlədilməsi, dövlət idarəçiliyi strukturlarının yerli əhali sırasından olan kadrlarla möhkəmləndirilməsi sahəsində ciddi tədbirlər görülmürdü. Üstəlik, ölkə rəhbərliyi saxta beynəlmiləlçilik adı altında həmin istiqamətdə bütün mümkün təşəbbüslərin qarşısını alırdı ki, bu da, heç şübhəsiz, milli şüurlu, milli kateqoriyalarla düşünən və milli mentalitetin daşıyıcısı sayılan kadrların irəli çəkilməsinə çox ciddi maneələr törədirdi.

İqtisadiyyatını bütövlükdə dərin və uzun sürən böhran bürümüş respublikanı bu ağır vəziyyətdən çıxarmağın yollarını axtarıb tapmaq, prinsipcə yeni konseptual səviyyədə yanaşma əsasında ölkənin inkişaf planlarını işləyib

hazırlamaq, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparmaq, təsərrüfatçılıqda və iqtisadi həvəsləndirmədə yeni metodlar tətbiq etmək lazım idi. Heydər Əliyev başa düşürdü ki, millətin siyasi müstəqilliyinin əsasını onun iqtisadi azadlığı şərtləndirir.

Həm iqtisadi, həm də mədəni tənəzzülə doğru aparan mənfı hallarla fəal mübarizə məhz Heydər Əliyev hakimiyyətə gəldikdən sonra başlandı. 1969-cu il Azərbaycanın ən yeni tarixində dönüş ili oldu. Respublikanın dinamik inkişafının təmin edilməsinə dair kompleks proqramlar işlənib hazırlandı. Bu yorulmaz fəaliyyət sayəsində 1970-1985-ci illər baş vermiş dəyişikliklərin vüsəti, ictimai və iqtisadi sahədə aparılmış köklü islahatların xarakteri və xalqın maddi rifahının keyfiyyətcə yeni səviyyəyə yüksəlməsi baxımından, sözün tam mənasında, müstəqil Azərbaycanın yaranması salnaməsində ən parlaq səhifələrdir. Həmin illərdə Heydər Əliyevin təşəbbüsü ilə SSRİ hökuməti respublika iqtisadiyyatının hərtərəfli tərəqqisini və intensiv inkişafını nəzərdə tutan beş xüsusi qərar qəbul etmişdi. Sosial-iqtisadi inkişafın başlıca istiqamətlərini müəyyən edən həmin qərarların xalqımızın mənafeləri baxımından tarixi əhəmiyyəti vardı.

Tam inamla demək lazımdır ki, indiki mərhələdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, onun xarici iqtisadi əlaqələrinin müntəzəm surətdə genişlənməsi və dünya iqtisadiyyatına daha dərin inteqrasiyası prosesi hələ 1970-ci illərdə 1980-ci illərin əvvəllərində təməli qoyulmuş potensiala əsaslanır.

Əlbəttə, milli dirçəliş ideyalarının, azərbaycançıhq ideologiyasının əməli surətdə həyata keçirilməsini yalnız təsərrüfat və sənaye sahələrində qazanılmış uğurlar fonunda, onların əsasında inkişaf etdirmək olardı. Heydər Əliyevin strateji proqramında diqqəti çəkən cəhət məhz odur ki, burada mənəvi, bədii və estetik təkamül iqtisadiyyatda parlaq nailiyyətlərlə və insanların rifahının keyfiyyətcə yaxşılaşması ilə birləşərək vahid məcrada reallaşdırılmışdır. Yeri gəlmişkən, Heydər Əliyev müstəqillik dövründə çıxışlarından birində "Dədə Qorqud" qazma qurğusunu nəzərdə tutaraq deyir: "...Adını da "Dədə Qorqud" qoyduq, əvvəl "Şelf-2" adlanırdı. Amma biz ona "Dədə Qorqud" adı verdik, çünki bu, bizim babamızdır". Gördüyümüz kimi, Prezident Heydər Əliyev hətta iqtisadiyyatla bağlı məsələlərdə də mənəviyyat problemlərini heç vaxt diqqətdən kənarda

qoymur, çünki o öz ölkəsinin iqtisadi inkişafını hər zaman mənəvi mədəniyyət problemləri ilə sıx bağlılıqda, vahid axarda görür.

70-ci illərdən başlayaraq Azərbaycan sürətli iqtisadi inkişafla və iqtisadi potensialm gücləndirilməsi ilə yanaşı, demək olar, daxilən, tədricən öz təkamülünün növbəti mərhələsi kimi tarixən şərtləndirilmiş suverenliyə və müstəqilliyə hazırlaşırdı. 80-ci illərin axırları 90-cı illərin əvvəllərində ərazi bütövlüyü uğrunda xalq hərəkatının geniş vüsət alması Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə təmin edilmiş iqtisadi inkişaf, milli ruhun və milli özünüdərkin dirçəlməsi sayəsində mümkün olmuşdur. Bu, Azərbaycanda milli özünüdərk prosesinin xüsusilə gücləndiyi həmin 70-ci illərdir. Bu, həmin 70-ci illərin əvvəlləri idi ki, Heydər Əliyev Novruz bayramının keçirilməsi barədə ziyalılara cavab verərək demişdir: "Mənim tapşırığımla deyil, ...qoy ürəkləri istədikləri şəkildə keçirsinlər". Hər bir azərbaycanlı ümummilli dəyərlər sisteminə məhz beləcə, özünün istədiyi kimi qoşulurdu. Bu, həmin 70-ci illərdir ki, onda Heydər Əliyev cəmiyyətin həyatındakı çoxsaylı dəyişiklikləri dahi Nizaminin bu ölməz sözlərini sitat gətirərək həyata keçirirdi: "Qoy ədalət zəfər çalsın!" Bu haqqədalətin daşıyıcısı, carçısı və bayraqdarı, ilk növbədə, onun özü ölkədə danılmaz nüfuza malik olan ümummilli lider idi.

Totalitar sistemin elm və mədəniyyət xadimlərinə, ziyalılara qarşı ağır təzyiqləri, təqib və təhdidləri Sovet İttifaqının bir çox respublikaların da aşkar şəkildə hiss olunduğu bir vaxtda, Heydər Əliyev Azərbaycanda yaradıcı adamlar üçün elə bir şərait yaratmışdı ki, bu, sərbəst düşünməyə və cəmiyyətdə, mədəniyyətdə, ədəbiyyatda gedən prosesləri necə başa düşdüyünü açıq ifadə etməyə, əslində isə, milli-mənəvi ideralların bərqərar edilməsinə doğru aparan yolları axtarmağa imkan verirdi.

Məhz o illərdə respublikada şəhərsalma və şəhərlərin, rayon mərkəzlərinin abadlaşdırılması sahəsində böyük işlər görülürdü. Bakıda bir sıra memarlıq ansamblları, inzibati mərkəzlər, saraylar, institutlar, nəşriyyatlar, tədris korpusları, komplekslər tikilib istifadəyə verilmişdir ki, bunlar da müasir Azərbaycan memarlığmın əsərləri xəzinəsinə daxil olmuşdur. Bir çox memarlıq abidələri məhz Heydər Əliyevin təşəbbüsü sayəsində bərpa edilmişdir. Onun sayəsində Bakının ən gözəl guşələrində xalqımızın milli ruhunun ifadəçiləri olan görkəmli xadimlərə əzəmətli abidələr ucaldılmış, məşhur tarixi şəxsiyyətlərin ev-muzeyləri yaradılmış və bunlar mədəniyyət

mərkəzlərinə çevrilmişdir. Məhz o dövrdə Kirovabadda şəhərin təzə yaşayış massivlərindən birinə "Yeni Gəncə" adı verilmiş və bununla da dolayısı ilə bildirilmişdir ki, bu şəhərin tarixi və əsl adı Gəncədir.

Heydər Əliyev Azərbaycanı dirçəltməklə və yeni Azərbaycan yaratmaqla yanaşı, həm də onun gələcəyini düşünürdü. O, gənclərə çox böyük diqqət yetirirdi. Kadr korpusunun istedadlı gənclər hesabına təzələnməsi əvvəllər görünməmiş sürətlə gedirdi. Gənclər respublikanın elmi-texniki və mədəni potensialının yüksəldilməsindən ötrü son dərəcə gərəkli ixtisaslara yiyələnmək üçün Sovet İttifaqının qabaqcıl ali məktəblərinə göndərilirdi. Azərbaycanın elmi və kadr potensialı möhkəmlənir, xalqımızın milli-mənəvi, əxlaqi dəyərlərinin təbliği üçün imkanlar genişlənirdi. Bu işlərin sırasında gənclərdə elmi dünya görüşünü, məntiqli düşüncə qabiliyyətini artırmaq məqsədilə, demək olar ki, bütün şəhərlərdə və rayon mərkəzlərində şahmat məktəblərinin inşa olunması və fəaliyyəti mühüm işlərdən biri hesab oluna bilər.

Bununla bərabər, Heydər Əliyev hesab edirdi ki, Azərbaycanra milli ruhunun yüksəlişinə təkan verən şərtlərdən biri ana dilində təhsil almaqdır. Bu prosesin inkişaf etdirilməsi məqsədilə 1969-1982-ci illərdə respublikanın şəhərlərində, kənd və qəsəbələrində yüzlərlə uşaq bağçası və məktəb tikilib istifadəyə verildi, ali məktəblərin şəbəkəsi genişləndirildi. 1980-ci illərin əvvəllərində respublikada ali məktəblərin sayı 12-dən 17-yə, bunlarda təhsil alan tələbələrin sayı isə 70 min nəfərdən 100 min nəfərə çatmışdı.

Heydər Əliyev həmişə bu fikirdə olmuşdur ki, konkret işlər nəzəri mülahizələrdən qat-qat vacibdir. O deyirdi ki, müasir milli hərbçi kadrlar olmadan, sözün əsl mənasında, milli dirçəlişə ümid bəsləmək mümkün deyildir. 1969-cu ildə rəhbərliyə gəldiyi elə ilk aylardan o, milli hərbçi kadrlar hazırlanması sahəsində bir sıra addımlar atdı. Heydər Əliyev özünün yaratdığı hərbi liseyin 30 illik yubileyində iftixarla demişdir: "Mən Cəmşid Naxçıvanski adına məktəbi yaradarkən həsrətində olduğum arzuma çatmışam, ona görə də özümü çox xoşbəxt hesab edirəm". Heydər Əliyev ona görə xoşbəxtdir ki, onun öncədən gördükləri həyata keçdi: Azərbaycan müstəqillik əldə etdi, bu hərbçi kadrlar isə müstəqilliyin qorunması üçün çox gərəkli oldular.

70-80ci illərdə Bakıda İttifaq və beynəlxalq əhəmiyyətli tədbirlər keçirilməsi ənənəyə çevrilmişdi. Bununla bərabər, SSRİ respublikalarında

da, sosializm düşərgəsi ölkələrində, habelə bir sıra xarici dövlətlərdə də Azərbaycan mədəniyyəti və incəsənəti günləri keçirilirdi. Bunlar Azərbaycanın xarici ölkələrlə əlaqələr qurmasına imkan yaradır, özünəməxsus tariximizin, milli mədəniyyətimizin nailiyyətlərinin tanıdılmasını təmin edirdi. Paytaxtımız Bakı şəhəri isə sürətlə dünya şöhrətli elm və mədəniyyət mərkəzinə çevrilirdi.

Bu, elə bir vaxt idi ki, fəal vətəndaşlıq nümunəsi sayılan və hətta Moskva və Leninqrad jurnalların da çap etdinnək mümkün olmayan "dissident" materialları Bakı mətbuatında işıq üzü görürdü. Heydər Əliyev bu yazıların müəlliflərini hər cür hücumlardan və qəsdlərdən qoruyurdu. Təsadüfı deyil ki, Azərbaycanda həmin dövrdə "sandıqda yatıb qalmış dissident ədəbiyyatı" yoxdur. Ədiblərin heç bir qadağa olmadan istər tarixi keçmişimizə, istərsə də bugünümüzə həsr etdikləri milli ruhlu əsərlər yarada bilməsi üçün əlverişli şəraitin təmin edilməsi heç də asan iş deyildi. Bunu həm gənc şair və yazıçılara xüsusi qayğı və diqqətin təzahürü kimi, həm də, ilk növbədə, Heydər Əliyevin fəlsəfi və siyasi amalının konkret işlərdə öz əksini tapması kimi qiymətləndirmək olar. Eyni sözləri mədəniyyət və incəsənətin digər sahələrində kino, rəssamlıq, musiqi sahəsindəki milli ruhlu əsərlər barəsində də demək olar. Bu baxımdan kino sənətinin "İstintaq", "Bir cənub şəhərində", "Ulduzlar sönmür" kimi nümunələri səciyyəvidir.

Görkəmli siyasi xadim Nəriman Nərimanovun bütün əzəməti ilə Azərbaycan xalqına və mədəniyyətinə qaytarılmasında Heydər Əliyevin müstəsna xidmətləri var. Nərimanov 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti devrildikdən sonra son dərəcə mürəkkəb bir dövrdə Azərbaycan dövlətçiliyini qoruyub saxlayan qeyriadi siyasi şəxsiyyət kimi Heydər Əliyevi cəlb etmişdi. Əlamətdar haldır ki, taleyin hökmü ilə Heydər Əliyev də 1993-cü ildə dağılıb parçalanmaq təhlükəsi qarşısında qalmış Azərbaycanı xilas etmək missiyasını öz üzərinə götürməli olacaqdı.

Xalqımızın böyük oğlu Nəriman Nərimanovun şanlı adını bərpa etmək üçün Heydər Əliyevin atdığı cəsarətli addım, həqiqətən, Azərbaycan dövlətinin mənafeləri naminə qazanılmış mühüm qələbə idi. Bu addımı atmaq heç də asan iş deyildi, belə ki, buna görə Heydər Əliyev öz siyasi karyerasını itirə bilərdi. Azərbaycanın düşmənlərinin iradəsi ilə Nəriman Nərimanov siyasi unutqanlığa məruz qalmışdı, davakar millətçi kimi qələmə

verilirdi. 1972-ci ilin yazında Nərimanovun 100 illik yubileyi keçirildi, Bakıda isə ona əzəmətli abidə ucaldıldı. Heydər Əliyev abidənin təntənəli açılış mərasimində çıxış edərək demişdi: "Nəriman Nərimanov... öz zəkası və iradəsi ilə xalqına xidmət edirdi... Nəriman Nərimanov bu gün də bizimlədir. Bu gün o özünün nəhəng qaməti ilə burada qocaman Xəzərin dalğaları üzərində ucalmaqdadır". Bir müddət sonra "Pravda" qəzetində Heydər Əliyevin N.Nərimanovun həyat və fəaliyyəti haqqında məqaləsi dərc edildi. O, bununla kifayətlənməyərək Nərimanov haqqında çəkilən filmin ekranlara çıxarılmasına da nail olur. Az sonra, 1977-ci ildə məhz onun səyləri ilə Ulyanovsk şəhərində Nərimanova abidə ucaldıldı, 1982-ci ildə isə Moskvada xatirə lövhəsinin açılışı oldu.

Sovet rəhbərliyinin bəzi dairələrində Azərbaycanın SSRİ-nin geridə qalmış ucqar əyaləti olması barədə yaranmış təsəvvürü Heydər Əliyev özünün yorulmaz təşkilatçılıq və siyasi fəaliyyəti ilə qısa müddətdə aradan qaldıra bildi. O, hətta Sovet Azərbaycanının 50 illik yubileyinə həsr edilmiş tədbirləri də elə səviyyədə keçirdi ki, onlar milli mədəniyyətimizin və tariximizin parlaq bayramına çevrildi. Bir çox yazıçılara, mədəniyyət və incəsənət xadimlərinə Dövlət mükafatları verildi. Həmin il keçirilmiş böyük rəssamlıq sərgisi isə mədəniyyətimizin nailiyyətlərinin görünməmiş nümayişinə çevrildi.

Heydər Əliyevi narahat edən bir məsələ də bütün sənaye potensialının, elm və mədəniyyət müəssisələrinin, təhsil ocaqlarının Bakıda cəmlənməsi, rayonların isə inkişaf prosesindən, bir növ, kənarda qalması idi. Bu mənfı meyilləri aradan qaldırmaq lazım idi, bununla bağlı problemlər Gəncədə, Naxçıvanda, digər şəhər və rayonlarda ictimaiyyətlə görüşlərdə müzakirə olunurdu. Xatırladaq ki, bu sahədə vəziyyət tezliklə kökündən dəyişdi.

Azərbaycanın inkişafı yolunda Heydər Əliyevi xüsusi qayğılandıran digər məsələ milli ədəbiyyatın, dramaturgiyanın və incəsənətin dünyada tanıdılması idi. Bu məqsədlə 1972-ci ildə 50 illiyi təntənə ilə qeyd olunmuş S.Vurğun adına Rus Dram Teatrından səmərəli şəkildə istifadə edilirdi.

Əgər fıkrən o illərə qayıtmağa çalışsaq, əhəmiyyəti və mənası bütün dolğunluğu ilə yalnız indi dərk edilən nailiyyətlərin heyrətamiz mənzərəsi gözlərimiz qarşısında canlanar. Bu salnamənin yalnız bəzi hadisələrini yada salaq. 1972-ci ilin aprelində Heydər Əliyev görkəmli humanist şair İmadəddin Nəsiminin anadan olmasının 600 illiyinə hazırlıqla bağlı qərar

qəbul edilməsinə nail olur, bir il sonra isə müttəfiq respublikaların çoxsaylı nümayəndələrinin iştirakı ilə klassikimizin şanlı yubileyi Bakıda və Moskvada qeyd edilir.

1972-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının yarıməsrlik yubileyi keçirilir. Həm dahi Üzeyir bəyin adını daşıyan konservatoriya, həm də professor və müəllimlər təltif olunur. Bir sözlə, yubiley bütün mədəniyyətimizin bayramına çevrilir. Üç il sonra Üzeyir Hacıbəyovun 90 illik yubileyi Bakıda və Moskvada böyük təntənə ilə qeyd olunur. Elə həmin il "Koroğlu" operası yeni quruluşda tamaşaya qoyulur. İctimaiyyətin diqqəti Üzeyir bəyin irsinə, bəstəkarın bənzərsiz musiqi yaradıcılığına, ədəbi fəaliyyətinə bir daha cəlb edilir. Hacıbəyovun publisistikası araşdırılarkən XX əsrin əvvəllərində onu düşündürən milli oyanış problemləri Heydər Əliyevin fəlsəfi konsepsiyasının həyata keçirilməsinə bu və ya digər formada təkan verən problemlər xüsusilə vurğulanırdı.

Milli özgürlüyün atributu olan xalçaçılıq tarixən mədəniyyətimizdə son dərəcə mühüm yer tutmuşdur. Lakin o dövrdə xalq sənətinin bu növünə ögey münasibət bəslənildiyindən Azərbaycanda bir dənə də xalça muzeyi yox idi. Bu hal Heydər Əliyevin vəzifə səlahiyyətləri çərçivəsindən kənarda olsa da, onu çox narahat edirdi. Bu narahatlığa tezliklə son qoyuldu, 1972-ci il aprelin 25-də Bakıda təntənəli şəraitdə Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Muzeyi açıldı.

Bundan bir ay sonra Moskvada, İttifaqlar Evinin Sütunlu salonunda Aşıq Ələsgərin anadan olmasının 150 illiyi münasibətilə təntənəli yığmcaq keçirildi. Bu, həmin dövrdə görünməmiş bir hadisə idi. Vətəni Göyçə mahalı sovet dövründə Ermənistan SSR-in tərkibinə daxil edilən Aşıq Ələsgərin belə bir yubileyinin keçirilməsindən məqsəd böyük el sənətkarını Azərbaycan xalqına qaytarmaqla yanaşı, həm də tarixən Azərbaycanın real sərhədlərinin necə olduğu, ulu ata-babalarımızın bu yerlərdə əzəldən yaşadıqları fikrini yeni nəslə çatdırmaq idi.

1974-cü il. Azərbaycan teatrının 100 illik yubileyi qeyd edilir. Heydər Əliyev yubiley mərasimində çıxış edərək Şərqdə ilk professional teatrın inkişaf yollarından, ictimai fikrin formalaşmasına onun göstərdiyi təsirdən danışır. Azərbaycan teatrının görkəmli nümayəndələrinə yüksək dövlət mükafatları verilir. Tanınmış səhnə ustaları Mehdi Məmmədov, İsmayıl Dağıstanlı və İsmayıl Osmanlı SSRİ xalq artisti fəxri adına layiq görülürlər.

Moskvada Azərbaycan Akademik Dövlət Dram Teatrınm yubiley qastrolları böyük uğurla keçir.

Azərbaycan dilinin tədqiqi sahəsində araşdırmalara görə həmin il respublikanın bir qrup dilçi alimi də Dövlət mükafatına layiq görülür. Həmin dövrdə respublikamızda ilk dəfə olaraq müstəqil Dilçilik İnstitutu yaradılır ki, bu da ana dilinin ictimai-siyasi nüftızunun möhkəmlənməsinə kömək edir və dilin tarixinə, dialektologiyaya və bir çox digər problemlərə dair fundamental tədqiqatlar aparılmasına imkan verir. Millətlərarası ünsiyyət vasitəsi kimi rus dilinin fəal təbliğ olunduğu o illərdə Heydər Əliyev respublikada tam qoşadillilik mühitinin bərqərar edilməsinə çalışırdı. Sonrakı illərdə 80-90-cı illərdə respublika rəhbərinin istər rəsmi, istərsə də qeyrirəsmi tədbirlərdə Azərbaycan dilində danışmaqdan çəkinməməsi, əslində, ana dilimizin nüfuzunu təsdiqləyirdi.

1975-ci il. Bakıda xalqımızın görkəmli şairi Səməd Vurğunun ev-muzeyi açılır. Dekabrda isə Səməd Vurğunun anadan olmasının 70 illiyi münasibətilə yaradılmış Ümumittifaq yubiley komissiyasının Moskvada birinci iclası keçirilir. 1976-cı ildə Moskvanın Böyük Teatrında Səməd Vurğunun yubileyi qeyd edilir. Elə həmin il İttifaqlar Evinin Sütunlu salonunda Müslüm Maqomayevin 90 illik yubileyi keçirilir. Dekabrın 12-də isə Azərbaycan memarı Əcəmi Naxçıvaninin anadan olmasınm 850 illiyi münasibətilə, onun yaratdığı Mömünə xatın türbəsinin qarşısında bu dahi sənətkarın abidəsinin təməli qoyulur.

1977-ci il iyunun 20-də Azərbaycanda görkəmli opera müğənnisi Şövkət Məmmədovanın 80 illik yubileyi qeyd edilir. Həmin ilin oktyabrında Yaponiyada Azərbaycanın tarixi, elmi, millimədəni ənənələrinə həsr olunmuş sərgi açılır, İtaliyanın Neapol şəhərində isə Azərbaycan mədəniyyəti günləri keçirilir.

1978-ci il. Fevralın 3-də Qara Qarayevin anadan olmasının 60 illiyi münasibətilə təntənəli yığmcaq keçirilir. Elə həmin gün böyük bəstəkara Sosialist Əməyi Qəhrəmanı adı verilir. Fevralm 15-də isə Moskva Konservatoriyasının Böyük salonunda ustadın yubileyi qeyd olunur.

Həmin ilin ən böyük hadisəsi isə, çoxlarının müqavimətinə baxmayaraq, Azərbaycan dilinə dövlət dili statusu verilməsi oldu. Heydər Əliyevin respublikaya rəhbərliyi dövründəki fəaliyyətinin nəticəsi olaraq 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili statusu təsbit edildi.

Dövr baxımından, sözün əsl mənasında, qəhrəmanlığa bərabər olan bu addım gələcəyin müstəqil, yeni Azərbaycanı naminə atılmışdı.

1978-ci ilin sentyabr və oktyabr ayların da Ukraynada və Böyük Britaniyada mədəniyyət və incəsənət xadimlərimizin böyük bir qrupunun iştirakı ilə Azərbaycan mədəniyyəti günləri keçirilir.

1979-cu ilin yanvarın da dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsi, nəşri və təbliği ilə bağlı xüsusi qərar qəbul edilir və geniş tədbirlər planı təsdiq olunur. Rəşid Behbudov başda olmaqla Azərbaycan incəsənət ustalarının İsveçdə konsertləri böyük uğurla keçir.

1980-ci ilin fevralında isə böyük Azərbaycan şairi Nəsiminin abidəsinin təntənəli açılışı olur. İndi Nəsimini nəinki təkcə Azərbaycanda tanıyırlar, artıq o, bütün dünyaya tanıdılır və o məşhurlaşdıqca, bütün planetdə yaşayan insanlar Azərbaycanı da tanıyacaqlar.

1980-ci ilin noyabrında bir qrup Azərbaycan alimi və mədəniyyət xadimi SSRİ Dövlət mükafatına layiq görülür. Dekabrın sonların da Azərbaycanın xalq artisti Qurban Pirimovun anadan olmasının 100 illiyi münasibətilə təntənəli yığıncaq keçirilir. Bir neçə ay sonra 1981-ci ilin martında görkəmli aktyor və rejissor Hüseynqulu Sarabskinin anadan olmasının 100 illiyi qeyd olunur. Həmin il iyunun 11-də Mirzə Şəfi Vazehin yaradıcılıq irsinin öyrənilməsi, iyulun 21-də isə Hüseyn Cavidin 100 illiyi barədə qərarlar qəbul edilir. Avqustda isə Bakının mərkəzindəki ən gözəl binalardan biri milli-mənəvi sərvətlərimizin qorunub saxlandığı respublika Əlyazmalar Fonduna verilir.

Elə onda, avqustda dahi Nizami Gəncəvinin 840 illik yubileyinin, görkəmli astronom və filosof Nəsirəddin Tusinin anadan olmasının 780 illiyinin və Aşıq Almın 180 illiyinin bayram edilməsi haqqında qərarlar imzalanır.

Bir neçə ay sonra tanmmış yazıçı Mirzə İbrahimovun 70 illiyi münasibətilə təntənəli yığmcaq olur. Moskvada, İttifaqlar Evinin Sütunlu salonunda Nizami Gəncəvinin yubiley gecəsi keçirilir. Noyabrda N.Tusinin 780 illiyinin, dekabrda isə görkəmli maarifçi və ədib Abdulla Şaiqin 100 illiyinin qeyd edilməsi respublikanm o vaxtkı mədəni həyatmda yaddaqalan hadisələr olur.

O illərdə Heydər Əliyevin Azərbaycan mədəniyyəti qarşısında ən misilsiz xidmətlərindən biri Sibir düşərgələrində həlak olan filosof şair Hüseyn

Cavidin cənazəsinin qalıqlarının 1982-ci ildə Bakıya gətirilməsi və Naxçıvanda doğma torpağa tapşırılması olmuşdur. Sonralar onun məzarı üzərində məqbərə ucaldılmışdır. Bu addım təkcə xalqımızın mədəniyyət salnaməsinə düşmüş bir hadisə deyil, həm də sovet gerçəkliyində görünməmiş və mümkün ola bilməyən hadisələrdəndir. Təsadüfı deyil ki, xarici müəlliflərin bir çoxunun geniş mənbələrə əsaslanan kitablarında bu fakt son dərəcə müfəssəl şərh olunur, o cümlədən Azərbaycanın müstəqilliyə can atmasının məhz başlanğıcı kimi vurğulanır.

Görülən bütün bu işlər Azərbaycan xalqına öz ədəbiyyatı və mədəniyyətinin klassiklərini, böyük tarixi şəxsiyyətlərini daha yaxşı tanımağa, mədəni sərvətlərini və dəyərlərini qoruyub saxlamağa imkan vermişdir. XX yüzilliyin 1969-1982-ci illərində Azərbaycan müəyyən mənada milli hisslərin əsl intibah dövrünü yaşamışdır. Azərbaycan dilinin Konstitusiyada dövlət dili kimi təsbit edilməsi və idarəçilikdə geniş işlədilməsi, demək olar, bütün böyük klassiklərin yubileylərinin Ümumittifaq miqyasında keçirilməsi, Nəsimiyə, Cabbarlıya, Nərimanova abidələr ucaldılması, Azərbaycan mədəniyyətinin Sovet İttifaqında ön mövqelərə çıxması, elmi, ədəbi, mədəni abidələrin planlı şəkildə tədqiqi, nəşri və s. bütün bunlar Heydər Əliyevin siyasətinin əməli nəticələridir. Böyük Vətəndaş bu fəaliyyəti son dərəcə yüksək siyasi məharət və peşəkarlıq səviyyəsində həyata keçirirdi.

1982-ci ilin dekabrı. Mübaliğəsiz demək olar ki, bütün xalq öz şanlı oğlunu SSRİ paytaxtına iftixar və qürur hissi ilə yola salırdı. Beş il ərzində o, Azərbaycanda gedən ictimai-siyasi və mədəni prosesləri uzaq Moskvadan müşahidə etməli olacaqdır. Buna baxmayaraq, heç olmasa, ildə bir dəfə vətənə gələrək insanlarla görüşəcək, respublika haqqında daha səhih məlumat almağa çalışacaqdır. 1982-ci ildən etibarən o, dünyanın ən nəhəng dövlətinin aparıcı rəhbərlərindən biri olur. SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi onun rəhbərlik etdiyi sahələr son dərəcə genişmiqyaslı və çoxşaxəli idi elm, təhsil, mədəniyyətdən tutmuş nəqliyyata, hətta o dövrün ən iri layihələrindən biri hesab olunan BAM-ın tikintisinə qədər. Heydər Əliyevin qarşısında öz geniş erudisiyasını, böyük idarəçilik və təşkilatçılıq qabiliyyətini tətbiq etmək üçün hədsiz imkanlar açılır. Yüksək tələbkarlığı, tükənməz enerjisi ilə fərqlənən Heydər Əliyev bu imkanlardan mahir rəhbər kimi istifadə

edərək nə kimi potensiala malik olduğunu qısa müddətdə əyani şəkildə nümayiş etdirdi.

O, yeni tipli siyasi lider kimi təkcə İttifaq miqyasında deyil, həm də dünya miqyasında tanındı. Moskvada Heydər Əliyevin rəhbərliyi altında çalışmış idarə, təşkilat və müəssisələrin rəhbərlərinin və sadə işçilərinin onun şəxsiyyəti, iş üslubu, rəhbər keyfiyyətləri barədə bugünədək söylədikləri yüksək rəy və fikirlər buna əyani sübutdur.

Heydər Əliyevə xas olan istedadlı rəhbər, görkəmli dövlət xadimi və mahir diplomat keyfiyyətləri Moskvada işlədiyi müddətdə tezliklə ona çox böyük nüfuz və şöhrət qazandırdı. Onun iş üslubunun bir çox xüsusiyyətləri Kremldəkilərə qeyriadi görünürdü. O, Kremlin ciddi riayət etdiyi qaydalar çərçivəsindən kənara çıxmadan öz xəttini yürüdür, çəkinmədən sözünü deyir, fikirlərini sərbəst açıqlayırdı. Onun fəaliyyətini Azərbaycanda hamı böyük diqqətlə və iftixar hissi ilə izləyirdi. Bu da tamamilə təbii idi.

Axı o vaxta qədər heç bir azərbaycanlı SSRİ-də belə yüksək vəzifə tuta bilməmişdi. Onun Kremldə atdığı elə ilk addımlar təkcə Kremlətrafı mühitdə deyil, hətta uzaq xaricdə geniş əkssəda doğururdu. Qərb mətbuatı bütün sovet stereotiplərini altüst edən, Siyasi Büronun heç bir üzvünə bənzəməyən, gülərüz, cavan və hətta incə zövqlə geyinən yeni tipli bir siyasi xadimdən yazırdı. Ərəb ölkələrinin qəzetlərində o, "sovetlərin dəmir xarakterli müsəlman rəhbəri" kimi, türk mətbuatmda isə "Kremldəki türk" kimi səciyyələndirilirdi. İndi, keçmiş Sovet İttifaqının bir çox rəhbərlərinin xatirələri və məmuarlarının çap edildiyi bir vaxtda onunla birlikdə işləmiş insanların rəyi ilə tanış olmaq mümkündür. Onun xarakterinin və iş üslubunun bir çox qeyriadi xüsusiyyətləri həmin kitabların səhifələrində də öz əksini tapmışdır.

Heydər Əliyev Moskvada işləyərkən son dərəcə gərgin iş rejiminə baxmayaraq, Azərbaycan haqqında məlumatlarla daim maraqlanırdı. O, imkan taparaq Moskvada yaşayıb işləyən azərbaycanlılarla, o cümlədən vaxtilə şəxsən özünün buraya ali məktəblərdə təhsil almağa göndərdiyi azərbaycanlı gənclərlə görüşür, onların həyatı ilə maraqlanır, üzləşdikləri problemlərin həllinə kömək edirdi. Heydər Əliyevin Moskvada yaşayan azərbaycanlılara diqqət və qayğısı, mənəvi dayaq olması orada Azərbaycan diasporunun formalaşmasına və fəaliyyətinə güclü təsir göstərirdi.

Keçmiş sovet rəhbərliyinin Heydər Əliyevi "səhhətinə görə" istefaya göndərmək qərarı Mərkəzin Azərbaycana qarşı yönəldilmiş riyakar siyasətinin həyata keçirilməsi yolunda ilk addım oldu. Heydər Əliyev kimi dövlət xadiminin SSRİ rəhbərliyinin yüksək dairələrindən çıxarılması erməni millətçilərinin və onların Kremldəki havadarlarının əlqolunu açdı. Azərbaycanın o vaxtkı rəhbərliyinin Mərkəzə yarınınaq üçün yeritdiyi xalqa zidd siyasət respublikada ictimai-siyasi veziyyəti son dərəcə kəskinləşdirdi. 1990-cı ilin qanlı yanvar hadisələri bütün dünyaya nümayiş etdirdi ki, sovet rəhbərliyi və onun yerlərdəki əlaltıları Azərbaycan xalqına qarşı ən ağır cinayətlər törətməkdən çəkinmirlər.

Pensiyaya göndərilən, "ev dustağı" şeraitində yaşamağa məcbur edilən Heydər Əliyev Azərbaycan xalqına qarşı törədilmiş qanlı faciə ilə əlaqədar yaranmış vəziyyətdə daha susa bilməzdi. O, faciənin səhərisi günü Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək bəyanatla çıxış etdi: "Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan daimi nümayəndəliyində, böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanın Moskvadakı nümayəndəsindən xahiş edirəm ki, mənim sözlərimi, kədərimi, başsağlığımı Azərbaycan xalqına çatdırsın. Hazırda başqa imkanım olmadığı üçün təəssüf hissi keçirirəm".

Heydər Əliyevin həmin bəyanatda səslənən "Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmahdır" tələbi onun bu məsəle ilə əlaqədar sonralar etdiyi bütün çıxışlarının, bəyanatlarının, imzaladığı sənədlərin əsas leytmotivi olmuşdur. Azərbaycan xalqına qarşı cinayət törətmiş şəxslərin ciddi şəkildə cəzalandırılması məsələsi onun fəaliyyətinin bütün sonrakı mərhələlərində də öz aktuallığmı saxlamışdır. O, həmişə belə bir mövqedən çıxış etmişdir ki, "xalqa qarşı cinayət cəzasız qalmamalıdır". Çünki xalq onun üçün həmişə onda da, sonralar da ən ülvi dəyər olmuşdur.

1990-cı ilin qanlı 20 Yanvar hadisələri Heydər Əliyevi siyasi fəaliyyətə qaytardı. Lakin artıq bu fəaliyyət sovet sisteminin məcrasından kənara çıxırdı. Siyasi vəzifəsi olmayan insan keçmiş SSRİdə siyasi fəaliyyətlə məşğul ola bilməzdi. Buna, sadəcə olaraq, yol verilmirdi, buna əzəldən sərt qadağa qoyulmuşdu. 20 Yanvar faciəsi ilə əlaqədar onun siyasi bə-

yanatı təkcə Azərbaycanda deyil, həm də bütün keçmiş SSRİdə yeni siyasi eranın başlanğıcı oldu.

Heydər Əliyev bu siyasi eraya sıravi vətəndaş kimi qədəm qoydu. Onun rəsmi statusu İttifaq əhəmiyyətli fərdi pensiyaçı idi. Buna baxmayaraq, Heydər Əliyevin adı sovet rəhbərliyində elə bir xof, vahimə yaratmışdı ki, onu siyasi fəaliyyətdən təcrid etmək, susdurmaq üçün hər cür vasitələrə, o cümlədən ən çirkin üsullara əl atılırdı. Heydər Əliyevin əleyhinə İttifaq və respublika mətbuatında genişmiqyaslı kampaniya başlandı. Onunla bağlı olan bütün hadisələr saxtalaşdırılır, yalan və böhtanlar yayılırdı. Onu Kunayevin və Rəşidovun vəziyyətinə salmaq üçün ən iyrənc vasitələrə əl atılırdı. SSRİ-nin o vaxtkı rəhbərlərinin sonralar etdikləri etiraflara görə, "onun ayağının altını möhkəm qazırdılar". Lakin onlar öz məqsədlərinə çatmaq üçün lazımi faktları yalnız bir səbəbə görə əldə edə bilmədilər belə faktlar, sadəcə olaraq, yox idi. Əliyev əleyhinə kampaniyanın şişirdilməsi çərçivəsində SSRİ Dövlət Təhlükəsizliyi Komitəsindən tutmuş SSRİ Prokurorluğunun xüsusi qruplarına qədər saysız-hesabsız strukturlar səfərbər olunmuşdu. Sonrakı hadisələr göstərdi ki, Heyder Əliyevin hücumlar üçün hədəf kimi seçilməsindən məqsəd nəticə etibarilə bütün Azərbaycana zərbə endirmək idi. Heydər Əliyevi cismani divan tutmaqla hədələyərək, vətənə qayıtmağa qoymur, ona hansısa şəkildə həyanlıq göstərənlərin hamısını təcrid edirdilər. Heydər Əliyevə qarşı təqibləri dövlət terror siyasəti səviyyəsinə qaldırmışdılar. Əjdər Xanbabayev kimi gözəl bir insanın qətlə yetirilməsi, əslində, Heydər Əliyevə qarşı yönəldilmiş aksiyaların gücünə əyani sübutdur. Lakin onu heç nə qorxutmadı və o, bütün maneələri dəf edərək vətənə dönməyə imkan tapdı.

1990-cı ildə Azərbaycan Ali Sovetinə seçkilər zamanı Heydər Əliyev deputat seçildi. 1991ci il ərzində onun Ali Sovetin sessiyaların da etdiyi çıxışlarda istər SSRİ-də, istərsə də respublikada yaranmış böhranlı vəziyyətin dəqiq təhlili verilirdi. Gələcək inkişaf baxımından kommunist sisteminə məhz Heydər Əliyev qətiyyətlə "yox" dedi.

Əslində, bu çıxışlar yeni siyasi gerçəkliklərin, yeni siyasi ideologiyanın inikası idi. Heydər Əliyevin 1991ci il fevralm 5-də parlamentin sessiyasındakı çıxışından bəzi xarakterik məqamları yada salaq:

"Sovet İttifaqında və Azərbaycanda mövcud olan vəziyyət haqqında bəzi fikirlərimi və təkliflərimi Ali Məclisə çatdırmaq istəyirəm.

Birinci: ölkə, sovet cəmiyyəti, dövlət üsuliidarəsi artıq bir neçə ildir ki, siyasi və iqtisadi böhran içindədir. Millətlərarası münasibətlər gərginləşib. Sovet İttifaqı dağılmaqdadır.

Bunların səbəbləri: şübhəsiz ki, əmələ gəlmiş vəziyyətə keçmişin ayrı-ayrı mərhələlərində buraxılmış səhvlərin təsirini inkar etmək olmaz. Fəqət əsas səbəblər "perestroyka" adlandırdığımız dövrdə həyatımızın bütün sahələrində buraxılmış ciddi, kobud və bağışlanmaz səhvlərdir.

Təəssüf ki, bunların üstü örtülüb basdırılır, rəsmi dairələr və kütləvi informasiya orqanları ancaq keçmişi atəşə tuturlar.

Tam qətiyyətlə demək olar ki, 1985ci ildə ölkəmizdə başlanmış dəyişikliklərin elmi, siyasi və iqtisadi əsaslarla işlənib hazırlanmış uzunmüddətli strategiyası olmamış və tələm-tələsik şəkildə həyata keçirilmiş, bəzən bir-birinə zidd olan tədbirlər, təbiidir ki, müsbət nəticələr verməmişdir.

Milli siyasət sahəsində buraxılmış böyük səhvlər ölkənin bir çox respublikaların da faciəli vəziyyət yaratmışdır. Almatıda, Tbilisidə, Fərqanədə, Bakıda, Novı Uzendə, Oşda, Baltikyanı respublikalarda baş vermiş hadisələr müttəfiq respublikaların hüquqlarının tapdalanmasının, Mərkəzin imperiya siyasətinin nəticəsidir.

Əvvəlki illərdə özünə müəyyən qədər yol açmış demokratiya, aşkarlıq, siyasi plüralizm artıq məhdudlaşdırılır, ölkədə diktatura üsuliidarəsi tətbiq olunur.

Bunların hamısı cəmiyyəti fəlakət həddinə gətirib çıxarmışdır.

Sovet dövlətinin xarici siyasəti də çox qüsurludur.

Yaranmış vəziyyətin günahkarı hakimiyyətdə olan Kommunist Partiyasının Mərkəzi Komitəsi, partiya və dövlət hakimiyyətini ələ keçirmiş Qorbaçovdur. Son beş ildə Qorbaçov xalqa çox vədlər verib. Lakin onların heç birini həyata keçirə bilməyib. Söz ilə əməl arasında boşluq, siyasi rəhbərliklə xalq arasında uçurum yaranıb. Xalqın rəhbərliyə inamsızlığı və gələcəyə ümidsizliyi artıb, Kommunist Partiyası nüfuzdan düşüb.

İkinci: ölkədə yaranmış vəziyyət eyni ilə Azərbaycanda da hökm sürür. Respublika rəhbərliyi həmişə olduğu kimi, Mərkəzin xəttini Azərbaycanda kor-koranə tətbiq edir və bütün göstərişlərini həyata keçirməyə cəhd göstərir. Nəticələr göz qabağındadır. Azərbaycanda vəziyyət daha da ağır və dözülməzdir. Bu isə erməni millətçiləri tərəfindən ortaya atılmış Dağlıq Qarabağ məsələsi ilə əlaqədardır. Üç ildən artıqdır ki, respublika-

mız, Azərbaycan xalqı Ermənistan tərəfindən ardı-arası kəsilməyən təcavüzlərə məruz qalır. Nəticədə Azərbaycanın ərazi bütövlüyü pozulub...

Əziz deputatlar, bilirsiniz ki, Azərbaycan xalqı 20-ci ildən indiyədək bu cür ağır, çətin və çıxılmaz vəziyyətdə olmayıb. Düzdür, Azərbaycan torpaqlarının bir hissəsi 20-ci ildən bəri vaxtaşırı əldən gedib. Mən bu barədə, mümkün olsa, öz sözlərimi deyərəm. Biz 22-ci ildən SSRİ-nin tərkibindəyik. SSRİ tərkibində olan heç bir müttəfiq respublikanın başına belə bəla gəlməyib. Heç bir müttəfiq respublika başqa müttəfiq respublikanın təcavüzünə məruz qalmayıb. Bu, xırda məsələ deyil. Bunu geniş müzakirə etmək lazımdır, danışmaq lazımdır, məsləhətləşmək lazımdır, dil tapmaq lazımdır, yol tapmaq lazımdır. Bu məsələyə tələm-tələsik baxmaq olmaz. Mən sizi həmin məsələyə bu cür mövqedən yanaşmağa dəvət edirəm. Buna görə də hesab edirəm ki, Dağlıq Qarabağda vəziyyətin normallaşdırılması məsələnin dar çərçivədə qoyulması deməkdir. Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması  məsələ belə qoyulmalıdır və biz bunun üçün çarə, çıxış yolu tapmalıyıq...

Üçüncü: Azərbaycan Sovet Respublikasının mövcud olduğu 70 ildə Ermənistan Mərkəzin havadarlığına söykənərək respublikamıza qarşı torpaq iddiaları edib, təxribat əməliyyatları aparıb, nəticədə xeyli torpaqlarımız zəbt olunub. Bir həqiqəti də qeyd etmək lazımdır ki, Ermənistan həmişə qəsbkarlıq fəaliyyəti göstərib, biz isə müdafiə olunmaq, bəzən isə təslim olmaq mövqeyində durmuşuq. İndi də belə mövqedəyik.

Biz bu məsələni Naxçıvan Muxtar Respublikasının Ali Məclisində müzakirə etdik. Məlum oldu ki, təkcə 1929-cu ildən sonra Naxçıvan respublikasının ərazisindən 625 kvadrat kilometr torpaq sahəsi, yəni 9 kənd Ermənistana verilib. Bu isə 62 min hektar kənd təsərrüfatına yararlı torpaq deməkdir.

Burada Zəngilan rayonundan, gərək ki, deputat Bədəlova çıxış elədi və Nüvədi kəndi haqqında danışdı. Sonra deputatlardan biri Zəngəzur, Göyçə mahalı haqqında danışdı. İndi qəti rəqəm demək istəmirəm. Ancaq mütəxəssislərdən bir neçəsi mənə dedi ki, 1918ci ildə Azərbaycan Respublikasının ərazisi 114 min kvadrat kilometr olub. İndi isə 86 min kvadrat kilometrdir. Gör əlimizdən nə qədər torpaqlar gedib.

Əsrlər boyu Vətən, torpaq anlayışı xalqımızın ləyaqətini, mənliyini, şərefini əks etdirib. Xalq öz torpağının müqəddəsliyini qorumaq üçün

onun uğrunda ölümdirim mübarizəsi aparıb. Ulu babalarımız Vətən torpağının hər bir qarışını namus simvolu kimi qoruyub, onun yolunda canlarını və övladlarını qurban verməkdən belə çəkinməyiblər.

Təəssüf ki, biz bu ənənələri unuduruq. Buna artıq dözmək olmaz. Ona görə də təklif edirəm ki, bir Dağlıq Qarabağ məsələsi yox, bütün 1920-ci ildən indiyədək Azərbaycan ərazisindən Ermənistana verilmiş torpaqların hamısının haqq-hesabı aparılsın. Hansı dövrdə, hansı sərhəd sahəsində, hansı torpaq sahələri verilib? Bu torpaqların hansı qərarlarla, kim tərəfindən verilməsi müəyyən olunsun. Biz Ermənistana qarşı artıq müdafiə mövqeyində yox, hücum mövqeyində duraq və burada deputatların dediyi kimi, o torpaqların geri qaytarılması üçün mübarizə aparaq. İndi biz mübarizəyə keçməliyik və mən də bu mübarizəyə hazıram. Əgər deputatlar razı olarsa, bizim sessiyamız Ermənistanı təcavüzkar dövlət adlandırmalıdır. Biz bu barədə xüsusi qərar çıxarmalı və onu bütün dünyaya bəyan etməliyik.

Burada soruşdular ki, o torpaqları kim verib? Mən təklif edirəm ki, aydınlaşdırılsın. Eyni zamanda, arayış verə bilərəm ki, 1969cu il 14 iyuldan (mən başa düşdüm o sualı mənə niyə verdilər), Azərbaycana rəhbərlik etdiyim dövrdən 1982-ci ilin dekabrına qədər Azərbaycan ərazisindən bir qarış da olsa Ermənistana torpaq verilməyib. Mən buna cavab verirəm və özümü çox xoşbəxt hesab edirəm ki, o dövrdə ermənilərin torpaq iddialarının qarşısını ala bildik. V.Polyaniçko dedi ki, 1977-ci ildə də Dağlıq Qarabağ məsələsi qalxmışdı. Bəli, qalxmışdı. Lakin biz o hərəkətlərin qarşısını dərhal aldıq".

SSRİ-də gedən dağıdıcı proseslər gündəngünə güclənirdi. Siyasi, iqtisadi və sosial böhran son həddə çatmışdı. Belə bir şəraitdə üzdəniraq yenidənqurma ideoloqları yeni prinsiplər əsasında İttifaq müqaviləsi bağlanmasının zəruriliyindən danışaraq SSRİ-nin qalıb-qalmaması məsələsini ümumxalq səsverməsinə çıxardılar. Bununla yanaşı, sovet təbliğat maşını hər bir insanı inandırmağa çalışırdı ki, heç bir müttəfiq respublika İttifaqsız yaşaya bilməz.

O dövrdə Naxçıvan Muxtar Respublikası İttifaqın qalıbqalmaması barədə səsvermədə iştirakdan imtina etmiş yeganə bir diyar oldu. Muxtar respublikanın sakinləri öz Ali Məclisinin Sədri Heydər Əliyevin bu prinsipial məsələ ilə əlaqədar mövqeyini tam dəstəkləyərək İttifaqa "yox" dedilər. Lakin Bakıda Mütəllibov hökuməti öz fəaliyyətini Moskvanın dik-

təsi ilə quraraq sübut etməyə çahşırdı ki, Azərbaycan İttifaqdan çıxsa, məhv olar. Ali Sovetin sessiyasında məhz belə fikirlərin səslənməsi üçün hər cür şərait yaradılmışdı və çoxları İttifaqı saxlamağın zəruriliyindən danışırdı. Heydər Əliyev həmin sessiyada öz qəti, sarsılmaz mövqeyini bildirərək, əslində, Azərbaycanın tam müstəqilliyinə nail olmağın zəruriliyini bəyan etdi. 1991ci il martın 7-də Azərbaycan Ali Sovetinin sessiyasında Heydər Əliyevin çıxışının bəzi məqamlarına müraciət edək:

"1922-ci ildən Azərbaycan Sovet İttifaqının tərkibindədir. Bu müddət ərzində xalqımız tarixi yol keçib, nailiyyətlər əldə edib. Eyni zamanda, çox itkilərə, çətinliklərə də məruz qalıb. Bunları inkar etmək olmaz.

Biz hamımız bu İttifaqın mövcud olduğu dövrdə dünyaya gəlmişik, təhsil-tərbiyə almışıq, formalaşmışıq. Biz hamımız, hər halda, tam əksəriyyətimiz bu İttifaqa həddindən artıq inanmışıq, sədaqətlə xidmət etmişik, xalqımızın səadətini, xoşbəxt gələcəyini İttifaq daxilində görmüşük. Mən və mənimlə birlikdə xeyli müddət respublikaya rəhbərlik edən həmkarlarını İttifaqın möhkəmlənməsi üçün daim çalışmış, Azərbaycan xalqında da bu İttifaqa sadiqlik və məhəbbət hissiyyatları yaratmağa cəhd etmişik...

Ölkənin rəhbərliyi 70 il mövcud olan İttifaqın yararsız olduğunu bəyan edərək respublikaları yeni İttifaq yaratmağa dəvət edir. Qorbaçov bir neçə çıxışında hətta belə demişdir ki, guya ölkədə indiyə qədər həqiqi ittifaq olmayıb, respublikalar heç də ittifaqda yaşamayıb, əsl ittifaq bundan sonra yaranacaqdır. Həqiqəti isə desək, yeni İttifaq müqaviləsinin layihəsi əvvəlkindən də yararsızdır... yetmiş il respublikamız sovet sosialist məzmununu daşıyıb. İndi biz respublikamızın adını bu sözlərdən azad etdik. Bəs indi biz hansı yeni siyasi quruluşu qəbul edirik? Məlum deyil.

Yetmiş il bizim respublikamız Oktyabr inqilabı bayrağı altında yaşayıb. Biz o bayraqdan imtina etdik. Yeni bayraq qəbul etdik. Fəqət, bu, heç də yeni bayraq deyil. O, 1918ci ildə yaranmış ilk Azərbaycan Xalq Cümhuriyyətinin milli dövlət bayrağıdır. Bu mühüm siyasi əhəmiyyət kəsb edən fakt nə üçün qeyd olunmadı?..

28 May Azərbaycan dövlət quruluşunun dirçəliş günü kimi istirahət günü elan edilib. Məlumdur ki, 28 May 1918ci ildə ilk Azərbaycan Xalq Cümhuriyyəti yaranmışdır. Belə olan halda bu hadisəyə və 28 aprel 1920-ci il hadisəsinə siyasi qiymət vermək lazımdır. Bu məsələlər gərək Ali Sovetin sessiyasında müzakirə olunsun.

İkitərəfli, daha açıq desək, ikiüzlü, qorbaçovsayağı siyasət xalqda inam doğura bilməz. Bu günlərdə Minsk şəhərində çıxış edərkən Qorbaçov kommunist olduğunu, Kommunist Partiyasına axıra qədər sadiq qalacağını təkidlə sübut etməyə çalışırdı. Fəqət öz andını Kommunist Partiyasına, Leninə, Oktyabr inqilabı ideyalarına tam zidd mövqe tutan Soljenitsmın sözləri ilə əsaslandırırdı. Sual olunur: biz hansı məzhəbə itaət etməyə dəvət olunuruq?

Bəziləri respublikamızın müstəqil, İttifaqdan ayrı yaşamağa imkanı olmadığını sübut etməyə çalışır. İttifaqda olan respublikalar birbiri ilə sıx iqtisadi, texniki əlaqələrlə bağlı olduğuna görə onların İttifaqdan ayrı yaşamasının mümkün olmadığı fikri də ölkədə geniş yayılmışdır...

Bu təbliğat əsassızdır. Əvvəla, Azərbaycan tam müstəqil dövlət kimi fəaliyyət göstərmək üçün bütün imkanlara malikdir. Bu barədə deputat Səmədzadənin çıxışındakı bir çox müddəalarla mən razı deyiləm. Əgər reqlamentdən əlavə vaxt verilsə, onların əsassız olduğunu sübut edərəm... Fikrimizcə, əgər Azərbaycan tam müstəqil dövlət olarsa (o, indi İttifaqda olan respublikaların hər biri ilə, hətta İttifaq qalarsa, onunla da qarşılıqlı, bərabərhüquqlu, iki tərəfə də faydalı iqtisadi əlaqələr yarada bilər), bu, müstəqil Azərbaycanın gələcək inkişafı üçün daha səmərəli olar. Azərbaycan xalqının başqa xalqlarla dostluq əlaqələri müstəqil xarakter daşıyar, daha səmimi, daha möhkəm olar.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycan xalqının başqa xalqlara nisbətən yeni İttifaq müqaviləsindən imtina etməsinə daha çox əsası var. Üç ildir ki, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi pozulub. Lakin İttifaq dövləti bu vəziyyətin aradan qaldırılması üçün səmərəli tədbirlər görməyib.

1990-cı il yanvarın 20də İttifaq dövləti tərəfindən Azərbaycan xalqına qarşı hərbi təcavüz edilmişdir. Heç bir əsas olmadan, xəbər vermədən, dövlət qanunlarını kobudcasına pozaraq Bakı şəhərinə sovet ordusunun müasir silahlı qoşun hissələri yeridilmiş, onlar vəhşilik, qəddarlıq etmiş, nəticədə nahaq qan tökülmüş, yüzlərlə adam həlak olmuş, xəsarət almış, itkin düşmüşdür.

Təəssüf ki, bu təcavüz indiyə qədər davam edir. Bir ildən artıqdır ki, Azərbaycanın paytaxtı fövqəladə vəziyyət şəraitində yaşayır. Bizim sessiyamız da bu şəraitdə keçirilir. Bir ildən artıqdır ki, Azərbaycan xalqı şə-

hidlərə matəm saxlayır. Respublikanın şəhərlərində, qəsəbələrində, kəndlərində şəhidlərin xatirəsinə abidələr ucaldılır. Fəqət qatillər indiyə qədər aşkar olunmayıb. Buna heç vəchlə bəraət qazandırmaq olmaz... Məlumdur ki, Sovet İtifaqı Kommunist Partiyasının bir hissəsi olan Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin platforması xalqı birləşdirə bilməz. O, xalq arasında nüfuzdan düşüb, bütün xalqın iradəsini təmsil etmir. Kommunist Partiyası hakimiyyətdən tamamilə imtina etməlidir. Eyni zamanda, yuxarıdan aşağıya qədər partiya komitələrinin katibləri sovet orqanların da rəhbər vəzifə tutmamalıdırlar. Demokratiyanın, siyasi plüralizmin, aşkarlığın inkişafı üçün şərait yaradılmalıdır. Bütün siyasi qüvvələr eyni hüquqda fəaliyyət göstərməlidir. Xalqa hər şey düzgün çatdırılmalıdır. Sosial ədalət bərqərar olmalıdır.

Azərbaycan xalqının birliyi yeni, heç kəsdən asılı olmayan dövlət qurulması yolu ilə təmin edilə bilər. Doğrudur, bu yolda çətinliklər də az olmayacaqdır. Fəqət nəyin bahasına olursa-olsun, biz buna nail olmalıyıq. Biz bu yola düşməsək, bunu gələcək nəsillər edəcək və onlar, tarix bizi bağışlamayacaqdır. İndi hər bir namuslu, qeyrətli azərbaycanlı gərək öz şəxsi mənafelərini, imtiyazlarını unutsun, xalqın aqibəti, bugünü və azad gələcəyi haqqında düşünsün. Xalqın müqəddəratı hər şeydən üstün olmalıdır.

Azərbaycan xalqı birləşməli, öz müqəddəs, doğına torpağını göz bəbəyi kimi qorumalıdır. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparınalıdır.

Xalq deputatlarını, bütün Azərbaycan xalqını bu yola dəvət edirəm və əmin edirəm ki, mən bu yoldan dönməyəcəyəm".

Bu, Heyder Əliyevin yeni mərhələdə siyasi platformasının, gələcək fəaliyyət proqramının əsas prinsiplərini özündə aydın əks etdirən bəyanat idi. Həmin sessiyada bütün Azərbaycan rəhbərliyi ayağa qalxaraq onu susdurmağa cəhd göstərdi. Bu cəhd baş tutmadı. Heydər Əliyev öz siyasi platformasının müddəalarını xalqa çatdırmağa, böhrandan çıxış yolları barədə fikirlərini ifadə etməyə müvəffəq oldu.

Artıq seçim edilmişdi, geriyə yol yox idi. Beləliklə, Dövlət Təhlükəsizlik Komitəsinin sabiq sədri, general-mayor, iyirmi yaşından Kommunist Partiyasına sədaqətlə xidmət etmiş, onun ali rəhbərliyində çalışmış olan Heydər Əliyev kommunist seçimindən şüurlu surətdə imtina etmişdi. Bu, uzun sürən gərgin düşüncələrin, axtarışların məntiqi nəticəsi idi. Azərbaycanın

bir nömrəli kommunisti nəinki partiya sıralarını tərk etdi, həm də bu yolun yanlış olduğunu bütün xalqa bəyan etmək üçün özündə qüvvə tapdı. Burada 1990-cı ilin Qanlı yanvar faciəsi günlərində partiya biletlərini atan, sonra isə yenidən onun sıralarına qayıtdığını bildirən bəzi üzdəniraq "əqidə sahibləri"ni yada salmaq yerinə düşər. Heydər Əliyevin 1991ci il iyulun 19da SSRİ Nazirlər Sovetinin partiya təşkilatına ünvanladığı ərizəsinin mətnini olduğu kimi oxucuların diqqətinə çatdırmaq da yerinə düşərdi:

"Məni bu addımı atmağa məcbur edən başlıca səbəblər aşağıdakılardır:

Birincisi, hələ 1990-cı ilin yanvarında, Mərkəzin və Azərbaycan KP-nin siyasi rəhbərliyi ilə Azərbaycan xalqına qarşı edilmiş hərbi təcavüzdən sonra məndə Sov.İKP sıralarından çıxmaq fikri yarandı. Yanvar hadisələrində yüzlərlə adam öldürüldü və şikəst edildi. Bu antihumanist, Konstitusiyaya və hüquqa zidd hərəkəti ittiham edərkən Sov.İKP və Azərbaycan KP MK-nın bu cinayətin üstünü açacağına və günahkarları üzə çıxaracağına ümid bağlayırdım.

Özümü ələ alıb səbirlə gözlədim. Bir müddət sonra çıxışlarına cavab əvəzinə "Pravda"da və partiyanın digər mətbu orqanların  da mənə qarşı hücumlar təşkil edildi. Mənə qarşı yönəldilmiş uydurma faktları əsaslandırılmış şəkildə həmin kütləvi informasiya vasitələrinin özündəcə təkzib etmək cəhdlərim boşa çıxdı. Yenidənqurmanın əsas nailiyyəti olan aşkarlıq özünü birtərəfli göstərdi.

Yanvar faciəsinin günahkarlarını üzə çıxarınaq və cəzalandırmaq haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, ayrı-ayrı vətəndaşların, görkəmli ziyalıların müraciətlərini Azərbaycanın kommunist rəhbərliyi qətiyyətlə rədd edirdi.

Artıq il yarım keçib. Bu dəhşətli cinayətlərin hamıya çoxdan məlum olan günahkarları nəinki üzə çıxarılmayıb, əksinə, bunları örtbasdır etmək üçün əllərindən gələn hər şeyi edirlər. Ümid edirlər ki, zaman keçdikcə bu faciə unudulacaqdır. Ancaq tarix dəfələrlə sübut etmişdir ki, doğına xalqa qarşı yönəldilmiş qanlı cinayətləri on illər keçsə də, unutmaq və bağışlamaq mümkün deyildir.

İkincisi, üç ildən artıqdır ki, Sov.İKP-nin havadarlıq etdiyi erməni millətçilərinin səyləri ilə DQMV-də yaranmış kəskin münaqişəli vəziyyət Mərkəzin ikiüzlü siyasəti nəticəsində qalmaqdadır. Vilayət Azərbaycan dövlətinin idarəçiliyindən, əslində, tamamilə çıxmışdır.

Azərbaycanın dövlət suverenliyi, ərazi bütövlüyü Konstitusiyaya zidd olaraq kobud şəkildə pozulmuşdur. Ermənistanla Azərbaycan arasında elan edilməmiş müharibə gedir. Hər gün iki tərəfdən adamlar həlak olur. Bütün bunlar "humanist ideologiyalı" sovet dövləti üçün adi faktdır.

Əminəm ki, partiya rəhbərliyi istəsəydi, üzdəniraq Qarabağ problemi ətrafında milli münaqişənin qarşısını hələ 1987ci ildə, təzəcə başladığı vaxtda ala bilərdi, istər Azərbaycan xalqı üçün, istərsə də erməni xalqı üçün dəhşətli fəlakət və müsibətlər gətirmiş bu faciəyə imkan verməzdi. Deməli, bu münaqişə siyasi Mərkəzə lazımdır.

Üçüncüsü, bütün cəmiyyətin demokratikləşməsinin, siyasi azadlıqların və plüralizmin bəyan edildiyi bir dövrdə ərazi bütövlüyünün müdafiəsi və cəmiyyətin demokratikləşməsi üçün Azərbaycanda başlanmış geniş demokratik hərəkat Sov.İKPnin rəhbərliyi altında Azərbaycan KP MK-nın səyləri ilə yatırılmışdır. Bu illərdə bir çox insanlar siyasi fəaliyyətinə görə repressiyalara məruz qalmışdır.

Artıq il yarınıdır ki, Azərbaycanın 2 milyonluq paytaxtı heç bir əsas olmadan fövqəladə vəziyyət rejimində yaşayır. Belə bir şəraitdə respublika Ali Sovetinə üzdəniraq demokratik seçkilər və nəticələri İttifaqın xeyrinə irəlicədən saxtalaşdırılmış referendum keçirilmişdir. Fövqəladə vəziyyət şəraitində hər hansı demokratikləşməyə və xalqın öz iradəsini sərbəst ifadə etməsinə ümid bəsləmək sadəlövhlük olardı. Demokratik təşkilatlar dəfələrlə məsələ qaldırmışdılar ki, seçicilərin əksəriyyəti referendumda iştirak etməmiş, referendumun nəticələri isə saxtalaşdırılmışdır. Lakin Azərbaycanın kommunist rəhbərliyi bu müraciətlərə hətta baxmağı belə lüzum bilməmişdir.

Mən Mərkəz tərəfindən zorla qəbul etdirilən yeni İttifaq müqaviləsinin əleyhinə çıxmışam və çıxıram. Hər hansı bir suveren dövlətin tərkibində bir neçə suveren dövlət, habelə bundan irəli gələn azadlıqlar, səlahiyyətlər və fünksiyalar ola bilməz. Əsl siyasi, iqtisadi azadlıqlar üçün, milli dövlətin dirçəldilməsi məqsədilə müstəqillik üçün bütün müttəfiq respublikalara imkan vermək lazımdır. Bu, respublikaların iqtisadi birliyinə və ənənəvi mədəni əlaqələrinə əsla mane olmaz, əksinə, onların təkmilləşməsinə, ikitərəfli və çoxtərəfli istiqamətlərdə inkişaf etməsinə təsir göstərər.

Naxçıvan Muxtar Respublikasının və Azərbaycanın xalq deputatı kimi mən öz çıxışlarımda bu məsələləri dəfələrlə qaldırmışam. Təklif edirdim

ki, xalq arasında nüfuzunu tamamilə itirən Azərbaycan KP təkhakimiyyətlikdən imtina etsin, bütün siyasi qüvvələrin azad və bərabərhüquqlu fəaliyyətini təmin etsin, demokratik cəmiyyətin yaranması üçün aşkarlıq və plüralizmə şərait yaratsın.

Lakin Azərbaycanın kommunist rəhbərliyi nəinki mənim çıxışlarına və təkliflərimə baxmır, əksinə, onlara mənə qarşı mütəşəkkil və hazırlanmış hücumlarla cavab verir. Azərbaycanda mənim çıxışlarımı dərc edən qəzet redaktorları, jurnalistlər işdən çıxarılır, təqiblərə məruz qalırlar.

Bütün yuxarıda ifadə etdiklərim məni bu axırıncı addımı atmağa və Sov.İKP sıralarından çıxdığımı bildirməyə məcbur etmişdir, hərçənd ki, bu qərara gəlmək mənim üçün son dərəcə çətin olmuşdur.

Mən kommunist ailəsində böyümüşəm və bütün şüurlu həyatım Kommunist Partiyası ilə bağlı olmuşdur. 1943-cü ildə 20 yaşında ikən öz taleyimi bolşeviklər partiyası ilə bağlamışam. Kommunist Partiyasının ideallarına bütün varlığımla inanmışam və onun planlarının həyata keçirilməsində fəal iştirak etmişəm.

İndi inamım məni tərk etmişdir. Yeniləşən partiya və respublikaların yeniləşən İttifaqı haqqında saysız-hesabsız bəyanatlar xalqı yenə də aldatmaqdır.

Xalqa açıq və düzünü demək lazımdır ki, ölkəmizdə kommunist eksperimenti, sosializm yolu özünü doğrultmadı, zorakılıqla yaradılmış və saxlanılan respublikalar İttifaqı dağılmaqdadır.

Bu bəyanatdan sonra qarşıma çıxa biləcək çətinlikləri təsəvvür edirəm, hər cür hücumları və mənəvi zərbələri qabaqcadan görürəm.

Partiyanın keçdiyi yolun açıq təhlili məni yuxarıda bəyan etdiyim mövqeyə gətirib çıxardı".

1990-cı ilin yanvarından başlayaraq Bakı və bütün Azərbaycan son dərəcə gərgin bir vəziyyətdə yaşayırdı. Fövqəladə vəziyyət şəraitində parlament və prezident seçkiləri keçirilmişdi. Sovet ordusunun tankları və əsgərləri Bakının küçələrində, strateji nöqtələrdə yerləşdirilmişdi. Bakının, bütün Azərbaycanın taleyini Moskva emissarları və hərbi bölmələr müəyyən edirdi. Dağlıq Qarabağda vəziyyət günbəgün gərginləşirdi.

1991-ci il avqustun 29-da biz deputat Heydər Əliyevi Ali Sovetin tribunasında yenidən gördük. Onun çıxışında acı həqiqətlə yanaşı, sərt prinsipial tələblər də səslənirdi. Bu tələblərin ən başlıcası 20 Yanvar hadisə

lərinə qiymət verilməsi barədə idi. Heydər Əliyevin 1991ci il avqustun 29-da Ali Sovetin sessiyasındakı çıxışından: "Hörmətli millət vəkilləri! Ölkədə, cəmiyyətdə siyasi və iqtisadi böhran, dövlət hakimiyyəti böhranı son dərəcə şiddətlənmişdir. Mürtəcə qüvvələrin demokratiya əleyhinə hücumu, cinayətkar qrupların həyata keçirdikləri dövlət çevrilişi boşa çıxıb. Biz artıq Sovet imperiyasının, Kommunist Partiyasının dağılmasının şahidiyik. Bu dövrdə bizim respublikamızın, Azərbaycan xalqının vəziyyəti daha çətin, daha ağırdır.

Bunun əsas səbəbi respublikada hökm sürən Azərbaycan Kommunist Partiyasının diktatura rejiminin mürtəcə siyasəti, buraxdığı kobud və bağışlanılmaz səhvlərdir (zaldan etiraz səsləri). Mən xahiş edirəm ki, sessiyada heç bir deputatı öz sözünü deməkdən məhrum etməyəsiniz. Belə siyasət nəticəsində respublikanın kommunist rəhbərliyi ölkədə olmuş 1922 avqust dövlət çevrilişini, Dövlət Fövqəladə Vəziyyət Komitəsinin fəaliyyətini faktiki olaraq bəyənmiş, beləliklə də Azərbaycan xalqını çox pis vəziyyətdə qoymuşdur. Erməni millətçiləri bu haldan dərhal çevikcəsinə istifadə etmiş, respublikamıza qarşı hərbi əməliyyatı, siyasi təbliğatı gücləndirmişlər.

İndi biz respublikanın həyatında ən çətin dövrdə çıxış yolu tapmalıyıq. Çıxış yolunun tapılmasına hamımız səy göstərməliyik. Ancaq biz aydın etməliyik: bu çıxış yolunu biz necə tapa bilərik? Son günlərdə, o cümlədən bu gün bu tribunadan xalqı birliyə, milli həmrəyliyə dəvət edən çağırışlar eşidilir. Təəssüf ki, bu çağırışlar artıq gecikib. Ancaq biz bu günlərdə nəyin bahasına olursa-olsun milli birlik yaratmağa çalışmalıyıq. Bunun üçün isə tam aydın olmalıdır: biz bu milli birliyə hansı platforma əsasında nail ola bilərik? Bu birliyi təmin etmək üçün bir neçə şərt təcili olaraq yerinə yetirilməlidir. Bu təklifləri mən seçkiqabağı çıxışlarınıda, Azərbaycan Respublikası Ali Sovetinin fevral və mart aylarında keçirilən sessiyaların da, bu il iyul aymm 19-da Kommunist Partiyasından çıxarkən verdiyim bəyanatda və nəhayət, bu il avqust ayının 24-də Azərbaycan Ali Sovetinin Rəyasət Heyətinə göndərdiyim məktubda göstərmişəm. Təkrar etmək istəmirəm. Ancaq bu təkliflər haqqında bir neçə əlavə fikrimi bildirmək istəyirəm.

Birinci: il yarımdır ki, Bakıda fövqəladə vəziyyət hökm sürür. Bu gün Ayaz Mütəllibov dedi ki, fövqəladə vəziyyət nəyə lazımdır? O götürülməlidir. Çox yaxşı, ancaq bəs bunu bir il yarını Bakıda saxlayan kimdir? Kimin qərarı ilə Azərbaycan Respublikası Ali Sovetinin 1990-cı il yanva-

rın 22də qəbul olunmuş qərarı ləğv olunub və indiyə qədər həyata keçirilməyibdir? Aydınlaşdırmaq lazımdır ki, bu il yarımda fövqəladə vəziyyəti Bakıda saxlamaq üçün respublika nə qədər vəsait xərcləyib və respublikaya nə qədər zərər dəyib.

İkinci: Azərbaycan Respublikası rəhbərliyinin dövlət çevrilişi haqqında mövqeyinə dair cürbəcür söhbətlər gəzir. Xarici və İttifaq informasiya orqanları bu barədə xəbərlər yayırlar və bu məsələ aydınlaşdırılmalıdır. Kim xaricdə nə deyib, o, bizə məlum deyil, ancaq məlumdur ki, avqust ayının 21-də Azərbaycan televiziyası ilə Ayaz Mütəllibovun xalqa müraçiəti rus və Azərbaycan dillərində oxunub və bu müraciətdə Fövqəladə Vəziyyət Komitəsinin fəaliyyəti bəyənilib və Dövlət Fövqəladə Vəziyyət Komitəsinin köməyi ilə Azərbaycan Respublikasının bir neçə məsələsinin həll olunmasına ümid bəslənib. O cümlədən Dağlıq Qarabağ məsələsinin və silahlı erməni quldur qruplarının tərksilah olunması məsələsinin həlli Fövqəladə Vəziyyət Komitəsinin fəaliyyəti ilə bağlanıbdır. Bunu aydın demək lazımdır. Əgər belə bir səhv buraxılıbsa, bunu açıq etiraf etmək lazımdır, xalq həqiqəti bilməlidir. Bu gün belə, sabah isə başqa cür demək olmaz, bu, heç bir xalqda inam yarada bilməz.

Üçüncü: xalqda birlik yaratmaq üçün Azərbaycan Kommunist Partiyası dərhal hakimiyyətdən getməlidir. O, Sovet İttifaqı Kommunist Partiyasının tərkib hissəsidir. Sovet İttifaqı Kommunist Partiyası dağılmışdır. Azərbaycan Kommunist Partiyasını saxlamaq, bunu qurultayda həll etmək fikri məsələni uzatmaq, Kommunist Partiyasının imkanlarından yenə istifadə etmək meylini göstərir. Bununla heç cür razılaşmaq olmaz. Azərbaycan Kommunist Partiyasının bütün mətbuat orqanlarının fəaliyyəti dayandırılmalıdır və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin hərbi xunta ilə əməkdaşlıq edib-etməməsi məsələsi aydınlaşdırılmalıdır. Parlament bunun üçün komissiya yaratmalıdır. Məlumdur ki, Fövqəladə Vəziyyət Komitəsinin hökm sürdüyü dövrdə Azərbaycan Respublikasının mətbuat orqanları, partiyanın mətbuat orqanları bu komitənin sənədlərini 3 gün ərzində rus və Azərbaycan dillərində dərc eləyib. Elə bunun özü əməkdaşlığın olmasını göstərir. Kommunist Partiyasının mövqeyindən fəaliyyət göstərən vəzifəli şəxslər öz vəzifələrindən imtina etməlidir.

Dördüncü: 20 Yanvar faciəsindən il yarımdan çox vaxt keçir. Bu gün burada, bu salonda da cürbəcür söhbətlər gedir. Bir qrup bir fikirdədir,

məndən qabaq çıxış edən Rəhimov başqa fikirdədir. Mən Ali Sovetin Sədri Elmira Qafarovaya, Azərbaycan Prezidenti Ayaz Mütəllibova sual verirəm: bu məsələyə indiyə qədər nə üçün siyasi qiymət verilməyib? Mən Tamerlan Qarayevin verdiyi arayışla razı ola bilmərəm. Çünki bu məsələnin həm siyasi, həm də hüquqi tərəfi var. Bu məsələyə dərhal siyasi qiymət vermək olardı. O ki qaldı məsələnin hüquqi cəhətinə, ayrı-ayrı adamların məsuliyyətə cəlb olunmasına, onu, şübhəsiz ki, istintaq yolu ilə aydınlaşdırmaq lazımdır. Məsələyə siyasi qiymət verilmədiyinə görə başqa tədbirləri də həyata keçirmək olmur.

Bu hərbi təcavüzün günahkarı kimdir? Bu gün deyirlər ki, Yazov, Kryuçkov, Bakatin, Girenko, Qorbaçov. Bu, doğrudur. Bəs Azərbaycan rəhbərliyindən kimdir günahkar? Bəli, bu şəxslər də məlumdur. Vəzirov, Qafarova, Mütəllibov və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin başqa üzvləri. Bəli, əgər başqa adamlar da günahkardırsa, aydınlaşdırmaq lazımdır. Başqa qüvvələr də günahkardırsa, demokratik qüvvələr, Xalq Cəbhəsi də günahkardırsa, onlara da siyasi qiymət vermək lazımdır. Bunları aydınlaşdırmayana qədər Azərbaycanda siyasi sabitlik əldə etmək olmaz. Əgər bu məsələyə siyasi qiymət verilibsə, Ayaz Mütəllibovdan xahiş edirəm desin, Qorbaçov 3 nazirin təyin olunması barədə 9 respublikanın rəhbərlərinin razılığını alarkən Ayaz Mütəllibov Bakatinin Dövlət Təhlükəsizlik Komitəsinə sədr təyin olunmasına nə üçün etiraz etməmişdir? Əgər edibsə, bəs niyə çıxışında demədi? Nə üçün 20 Yanvar faciəsinin günahkarlarından biri olan Vəzirov Azərbaycan Respublikasından xalq deputatları qurultayına Hazırlıq komissiyasına üzv seçilibdir? Onu ora kim təqdim edib? Əgər bunu Azərbaycan Respublikasının rəhbərləri ediblərsə, onlar Azərbaycan xalqının qarşısında günahkardırlar, mən bunu tam açıqlığı ilə demək istəyirəm.

Bütün bu məsələləri aydınlaşdırmadan şübhəsiz ki, mən də çıxış edən deputatların təklifləri ilə razıyam azərbaycanda prezident seçkiləri keçirmək olmaz. Sonra Azərbaycan Respublikası Ali Soveti deputatlarının əksəriyyəti, tam əksəriyyəti kommunist olduqlarına görə, Kommunist Partiyasının rəhbər orqanların da fəaliyyət göstərən adamlar parlamentə deputat seçildiklərinə görə və Azərbaycan Kommunist Partiyası çox şeylərdə günahkar olduğuna görə, mən hesab edirəm ki, Azərbaycan Respublikasının parlamenti buraxılmalıdır və yenidən seçkilər keçirilməlidir.

Mən belə kəskin çıxış edərkən düşünürəm ki, indi mənim çıxışımdan sonra xüsusi hazırlanmış adamlar çıxıb mənim əleyhimə sözlər deyəcəklər. Mən bu sözlərə öyrənmişəm. Ona görə də heç narahat olmayın. Mən bu gün öz vicdanım qarşısında cavabdeh olaraq bu çıxışı edirəm".

Beləliklə, bütün bu çıxışlardan göründüyü kimi, 1987-1991ci illərdə Heydər Əliyevi məhz milli dövlətçiliyimizin taleyi narahat edirdi. O, artıq öz siyasi seçimini etmiş və Azərbaycanın müstəqilliyi uğrunda gərgin siyasi mübarizəyə başlamışdı. Onun Naxçıvanda həyata keçirdiyi siyasət sayəsində Azərbaycanın bu qədim diyarın da Azərbaycan Xalq Cümhuriyyətinin dövlət atributları bərpa edilmiş, "sovet sosialist" sözləri muxtar respublikanın adından çıxarılmış, 20 Yanvar hadisələrinə siyasi qiymət verilmişdi. Heydər Əliyev Azərbaycanda milli dövlətçiliyin təşəkkülünün əsas ideyaları və yolları haqqında ən başlıca taleyüklü fikirlərini 1992-ci ildə yaratdığı Yeni Azərbaycan Partiyasının siyasi platformasında əks etdirdi. Heydər Əliyev Azərbaycan Respublikasının Ali Sovetindəki çıxışları ilə həmvətənlərini yaranmış vəziyyəti təhlil etməyə və Azərbaycanın yeni inkişaf yolu barədə öz seçimlərini etməyə çağırdı. Onun şəxsi siyasi kredosu müstəqil milli dövlət quruculuğu konsepsiyasında əksini tapdı.

O, hələ 1990-cı ilin baharın da deyirdi: "İstəyirəm xalqımızda birlik olsun, milli qürur hissi daha güclü olsun, tariximizi sevək, el üçün yanmış şəxsiyyətlərimizin qədrini bilək..." Bu zaman onun ən dəruni arzusu və ümidi də məhz xalqın birliyinə, bütün azərbaycanlıların həmrəyliyinə əsaslanan milli dövlət qurmaqla bağlı idi. Ancaq o, hətta Naxçıvanda da şəxsən özünə qarşı yönəldilmiş bir çox hücumlara və təqiblərə məruz qalırdı. Heydər Əliyev "el üçün yanmış şəxsiyyətlərin qədrini bilməkdən" danışdığı bir vaxtda Bakıda əyləşən bəzi nazirlər həyatlarının başlıca məqsədini Heydər Əliyevi cismən məhv etməkdə görürdülər.

Tarixin hökmü ilə baş verən hadisələr isə sanki Heydər Əliyevin 1991ci il ərzindəki çıxışlarında göstərdiyi ssenari üzrə cərəyan edirdi. 1991ci il sentyabrm 14də Azərbaycan Kommunist Partiyasının XXXIII fövqəladə qurultayı çağırıldı. Azərbaycan Kommunist Partiyası məhz bu qurultayda ləğv olundu. Nəhayət, kommunizmə rəsmi səviyyədə də "yox" deyildi. 1991ci il dekabrın 8də SSRİ adlı nəhəng bir dövlət dünyanın siyasi xəritəsindən silindi. "Azərbaycanın dövlət müstəqilliyi haqqında" 1991ci il oktyabrm 18-də qəbul olunmuş Konstitusiya Aktı, nəhayət ki,

dekabrın 29-da ümumxalq referendumuna çıxarıldı. Bu Konstitusiya Aktı qüvvəyə minərək Azərbaycanın müstəqillik, suverenlik yolunu seçməsi haqqında qəti qərarını hüquqi cəhətdən təsdiq etdi. Azərbaycanın müstəqilliyi qısa bir zamanda Birləşmiş Millətlər Təşkilatı tərəfindən və beynəlxalq hüquq normalarına uyğun olaraq dünyanın bütün ölkələri tərəfindən tanındı. Lakin Azərbaycanda müstəqil milli dövlət quruculuğu prosesi bir çox ciddi əngəllərlə üzləşirdi. 19901991ci illərdə Dağlıq Qarabağda hadisələr gündəngünə gərginləşirdi. Respublikada baş alıb gedən siyasi hərcmərclik, hakimiyyət uğrunda çəkişmələr dövlətçiliyə ağır zərbələr vururdu. 1992-ci ilin may-iyun aylarında Xalq CəbhəsiMüsavat cütlüyü hakimiyyətə gəldi. Həmin günlərdə nəinki dövlət quruculuğu prosesi ilə bağlı məsələler ön plana çəkilmirdi, hətta hər bir azərbaycanlının ləyaqətinə və qüruruna toxunan ağlasığınaz qərarlar qəbul edilirdi. Bu baxımdan Azərbaycan dilinin adının dəyişdirilməsi haqqında qərarı milli özünüdərk və milli dövlətçilik ideyasının dirçəldilməsinə vurulan ən ağır zərbələrdən biri hesab etmək olar.

Çox qısa bir müddətdə respublikada yaranan ictimai-siyasi hərcmərclik dövlətçilik böhranına və Azərbaycanın məhv olması təhlükəsinə gətirib çıxardı. 1993-cü ilin iyununda baş verən Gəncə qiyamı Xalq Cəbhəsinin daxilində gedən qarşıdurmanı siyasi, hərbi və ictimai böhran müstəvisinə keçirdi. "Olum, ya ölüm" dilemması qarşısında qalan Azərbaycan dövlətçiliyi və xalqı yeganə ümidini Heydər Əliyevin hakimiyyətə dəvət olunmasında gördü.

1993-cü ilin iyun ayında deputat Heydər Əliyev Azərbaycan parlamentinin başçısı seçildi. Onun ilk üç ay ərzindəki gərgin fəaliyyəti hər hansı bir nəzəriyyədən və ideyalardan tamamilə uzaq idi. Milli Məclisin televiziya ilə birbaşa yayımlanan iclasları zamanı aparılan kəskin siyasi diskussiyalar, ayrı-ayrı siyasi və ictimai xadimlərlə görüşlər, qəti qərarlar və konsturiktiv təkliflər Heydər Əliyevə bu üç ay erzində dərin siyasi və ictimai böhran prosesini dayandırmağa imkan verdi. Bu, möcüzəyə bənzər bir hadisə idi. Əslində, tabeliyində heç bir qurum olmayan, yalnız öz sözünə və zəkasına arxalanan siyasi xadim məhz öz zəngin rəhbərlik təcrübəsinə əsaslanaraq dövlətin dağılmasının qarşısını ala bildi. "Fəaliyyətini donduran" dövlət məmurlarının sabotajı, ancaq öz bölgə komandirlərinə tabe olan silahlı qurumlar, iqtisadiyyatı iflic vəziyyətinə düşmüş bir məmlə-

kət  bunların hamısı acı gerçəklik idi. Lakin o da gerçəklik idi ki, 1993-cü ilin oktyabrında Azərbaycan xalqı Heydər Əliyevi öz Prezidenti seçdi. Artıq sonrakı aylarda Azərbaycanda dövlət var idi, dövlət qurumları fəaliyyət göstərirdi. Respublikada həyat tədricən normal məcrasına qayıdırdı.

1993-cü ilin 10 oktyabr günü. Zəngin siyasi və dövlətçilik təcrübəsi sayəsində Azərbaycanı parçalanmaq və məhv olmaq təhlükəsindən xilas etmiş Heydər Əliyev əlini Konstitusiyaya və Qurana basaraq Azərbaycan xalqına sədaqətlə xidmət edəcəyinə, müstəqil dövlətimizin dünya birliyində layiqli yer tutmasına çalışacağına, Azərbaycan xalqının milli və mənəvi ənənələrinə daim sadiq olacağına və bu ənənələrin müstəqil dövlətimizdə bərqərar olmasını, yaşamasını və inkişafını təmin edəcəyine and içdi.

Ölkə müharibənin od-alovu içərisində idi. Buna baxmayaraq, Prezident andiçmə mərasimindən cəmi 20 gün sonra xalq şairi Məmməd Arazın yubiley gecəsində iştirak etdi. O bunu belə izah etdi ki, Məmməd Araz Azərbaycan xalqının milli özünüdərkinin təşəkkülündə müstəsna xidməti olan qələm sahiblərindən biridir.

Heydər Əliyev mədəniyyət və ədəbiyyat xadimlərimizin arasında üç söz ustasının  Bəxtiyar Vahabzadənin, Məmməd Arazm və mərhum Xəlil Rzanın adlarını çəkərək deyir: "Dövlətimiz müstəqil dövlətdir, formalaşır, onun özünün yüksək mükafatları var. Ən yüksək mükafat  "İstiqlal" ordeni təsis olunub. Bu orden birinci kimə çatmalıdır? Mən bir neçə aydır bu haqda düşünürəm. Çox götürqoy etmişəm və xeyli müddət bundan qabaq belə qərara gəlmişəm ki, bu orden bizim görkəmli şəxsiyyətlərimizə çatmalıdır.

Bu şərəfə, ilk növbədə görkəmli şəxsiyyətlərimiz layiq görülməlidir. Buna görə də mən dünən fərman verdim və hörmətli şairlərimiz Bəxtiyar Vahabzadə, Məmməd Araz və mərhum Xəlil Rza Azərbaycan xalqının milli azadlığı uğrunda mübarizəsində xüsusi xidmətlərinə görə bu ordenlə təltif olundular. Hesab edirəm ki, düzgün addım atmışam. Düşünürəm ki, xalqımız, ictimaiyyətimiz bunu bəyənəcəkdir". Heydər Əliyevin ideyalarının bayraqdarları siyasətçilər yox, şairlər olmuşdur. Bunu yadda saxlayaq. Bu, ədəbiyyatın dərsinin vətəndaşlıq dərsinə çevrildiyi haldır.

Yanvar hadisələrinin dördüncü ildönümü yaxınlaşırdı. Heydər Əliyev fərman imzalayır və burada sovet qoşunlarının 1990-cı ilin yanvarında Azərbaycana təcavüzünə ilk dəfə hüquqi və ictimai-siyasi qiymət verilir.

İfadələr son dərəcə dəqiqdir: totalitarizmin insanlığa və humanizmə qarşı tarixdə görünməmiş cinayəti. 20 Yanvar faciəsinə onun verdiyi siyasi qiymət məhz belədir.

Bir qədər əvvəl 1993-cü il sentyabrm 21də, Azərbaycan üçün hələ olduqca çətin və həyəcanlı günlərdə, erməni işğalının öz miqyasına və xarakterinə görə görünməmiş bir şəkil aldığı dövrdə prezident səlahiyyətlərini icra edən Ali Sovetin Sədri Heydər Əliyev Azərbaycan Elmlər Akademiyasında ziyalılarla görüşündə müharibədən və iqtisadi çətinliklərdən daha çox mədəniyyətə qayğıdan danışır və mütəfəkkir şair Məhəmməd Füzulinin qarşıdan gələn yubileyinin yüksək səviyyədə keçirilməsinin zəruriliyini vurğulayırdı: "Bizim mədəniyyətimiz, elmimiz çox zəngindir. Biz Nizamidən, Füzulidən danışarkən onları təkcə şair kimi deyil, həm də bəşəriyyət qarşısında böyük xidmətləri olan, dünya mədəniyyətinə qiymətli töhfələr vermiş böyük filosof və mütəfəkkirlər kimi tanıtmalıyıq. Gələn il Füzulinin 500 illiyi tamam olacaq. Biz bu yubileyə yaxşı hazırlaşmalıyıq. Biz Füzulini dünya miqyaslı filosof kimi, böyük alim kimi dünyaya tanıtmalıyıq".

Bu sözlər hərbi sahədəki uğursuzluqlarla və torpaqlarımızın bir hissəsinin işğalı ilə yanaşı, Azərbaycanda terror və sui-qəsd cəhdlərinin davam etdiyi, anarxiya meyillərinin güclü olduğu, ölkənin ziddiyyətlər məngənəsində boğulduğu bir zamanda deyilmişdi. Bunun səbəbi çox sadədir və Heydər Əliyevin siyasi mövqeyi ilə bilavasitə bağlıdır. O öz ölkəsinin xilasını yalnız silahda, hərbi gücdə deyil, həm də bu torpaqda yaradılmış qədim və bənzərsiz mədəniyyəti xalqa qaytarmaqla onun milli ruhunun dirçəldilməsində görürdü. Heydər Əliyev, eyni zamanda, bu milli-mənəvi dəyərlərin bütün dünyada tanıdılmasına da böyük əhəmiyyət verirdi. Füzulinin 500 illik yubileyi ilə əlaqədar yaradılmış dövlət komissiyasının iclasında Prezidentin dediyi aşağıdakı sözlər bu baxımdan olduqca səciyyəvidir: "Respublikamızın bu ağır dövründə böyük yubileylər keçirilməsi, şübhəsiz ki, müəyyən çətinliklərlə üzləşəcək. Ancaq bunlara baxmayaraq, həyatımızın mənəvi, mədəni sahəsi heç vaxt unudulmamalıdır. Çətinliklər nə qədər çox olsa da mədəniyyətə, mənəviyyata daim xüsusi diqqət yetirməli və bu sahələrin geri qalmasına yol verməməliyik".

Prezident 1994cü il martm 16-da Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi haqqında fərman imzalayır. Azərbaycan dövlətçiliyi və

fəlsəfi əsərləri təbliğ olunurdu. Heydər Əliyevin xidməti bundadır ki, onun sayəsində böyük şair Azərbaycan xalqı qarşısında ilk dəfə bütün əzəməti ilə, ideoloji qəliblərdən azad olunmuş şəkildə dayandı.

Heydər Əliyev dövrlər arasında bolşevizm tərəfindən qırılmış müqəddəs əlaqəni özünün bütün siyasəti ilə bərpa etdi. O, bu çox çətin məsələnin bir hissəsini hələ 19691982-ci illərdə həll etmişdi. Lakin onun Azərbaycan xalqının milli dirçəlişinə dair fəlsəfi konsepsiyası, əlbəttə ki, tam şəkildə yalnız müstəqil Azərbaycanda həyata keçirilə bilərdi. Burada onun fəlsəfi dünyagörüşünün əsasını ümumbəşəri ideallarin və milli dəyərlərin ahəngdar vəhdəti təşkil etdi. O, bütün tariximizi əsl böyük humanizm məktəbi, yüksək tolerantlıq, mədəniyyətlərin və sivilizasiyaların ibrətamiz dialoqu kimi gördü. Heydər Əliyev tərəfindən Azərbaycanın nadir coğrafisiyasi mövqeyi həm Böyük İpək yolunun dirçəldilməsi kimi genişmiqyaslı iqtisadi layihələrin reallaşdırılması üçün istifadə edildi, həm də o, Azərbaycan mədəniyyətinin əsl əhəmiyyətini bütün genişliyi və müxtəlifliyi ilə fəlsəfi baxımdan dərk etmək üçün bünövrə oldu. Azərbaycan Respublikasının təqvimində faşizm üzərində Qələbə gününün bərpası kimi sadə addımlardan başlayaraq elm, mədəniyyət və təhsil sahəsində dəyişikliklərə qədər Heydər Əliyevin son 10 ildə gördüyü bütün işlər onun milli dirçəliş fəlsəfəsinin gerçəkləşdirilməsinə, azərbaycançılıq ideologiyasının formalaşmasına xidmət etmişdir.

Dahi Azərbaycan şairi və mütəfəkkiri Füzulinin 500 illiyinin keçirilməsi haqqında fərman imzalanandan düz bir il sonra Azərbaycanın başının üstünü yenidən təhlükə aldı. Lakin Azərbaycan xalqı milli müstəqillik kimi müqəddəs sərvətini qoruyub saxlamaq üçün özündə güc tapdı. Bu təhlükəni aradan qaldıran xalq öz əziz bayramına qovuşdu. Nəhayət, 1996cı ilin yazında Bakıda keçirilən yubiley şənlikləri məhz Prezident Heydər Əliyevin istədiyi kimi, müstəqil dövlətimizin böyük ədəbiyyat və mədəniyyət bayramı oldu. Dahi Füzulinin şərəfine keçirilən bu bayram, həqiqətən, Azərbaycan dövlətçiliyinin təntənəsinə çevrildi. Hələ bir neçə il əvvəl böhran, hərcmərclik, anarxiya və vətəndaş müharibəsi təhlükəsi içərisində olan ölkə öz böyük mədəniyyətinin böyük bayramını misilsiz ruh yüksəkliyi ilə qeyd etdi.

1993-cü il oktyabrın 28də Heydər Əliyev Rusiyada yaşayan azərbaycanlıların nümayəndelərindən biri, məşhur neftçi Fərman Salmanovla gö-

rüşdü. Bu görüşü 2001ci il noyabr ayının 9-da keçirilən Dünya azərbaycanlılarının birinci qurultayından təxminən səkkiz illik bir vaxt ayırır. Məhz bu qurultayda Heydər Əliyev milli dövlətçiliyimizin ideya təməli barəsində danışarkən ona çox dəqiq və aforizmə bənzər bir tərif verdi: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır". Bu səkkiz ildə Azərbaycanın siyasi, ictimai və mədəni həyatında baş verən bir çox hadisələr, əslində, milli dövlətçiliyimizin prinsiplərinin ideya baxımından formalaşmasına xidmət etmişdir. Bu prosesləri diqqətlə izləyən, çox vaxt onların təşəbbüskarı və iştirakçısı olan Heydər Əliyev belə bir fikri vurğulayır ki, "Azərbaycan xalqının milli sərvəti və intellektual mülkiyyəti eyni zamanda Azərbaycanın ədəbiyyatıdır, mədəniyyətidir. Ona görə də biz müstəqil dövlətimizi boş yerdə qurmağa başlamamışdıq. Bizim iqtisadi potensialımız olduğu kimi, bir potensialımız da intellektual potensialımız da vardır. Bizim mənəvi potensialımız ədəbiyyatımız, mədəniyyətimiz intellektual potensialımızın əsasını təşkil edir. Bunu yaradanlar var. Bunu yaradanlar bizim dahi insanlardır. Onlar bəşər mədəniyyətini əsrlərdənəsrlərə zənginləşdirən əsərləri ilə Azərbaycanın böyük intellektual potensialını, mülkiyyətini yaradıblar". Azərbaycançılıq ideologiyasının formalaşdırılması sahəsində atılan ən böyük addımlardan biri misilsiz milli-mənəvi sərvətimiz olan "Kitabi-Dədə Qorqud" eposunun xalqımıza qaytarılması oldu. "Dədə Qorqud" eposu 1930-cu illərdən bəri qadağan olunmuş, ona pantürkizm damğası vurulmuşdu. Müstəqil Azərbaycan dövləti eposa öz rəsmi münasibətini bildirdi və bu, Prezident Heydər Əliyevin "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi haqqında 1997-ci il 20 aprel tarixli fərmanında öz əksini tapdı. Azərbaycan Prezidenti 1999-cu il fevralın 21də "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi üzrə dövlət komissiyasının tədbirlər planı haqqında sərəncam imzaladı. Yubiley təntənələrindəki çıxışların da o, türk xalqlarının ümumi tarixi köklərinin "Dədə Qorqud"la bağlı olduğunu bildirərək eposun bütün türk xalqlarına, lakin ilk növbədə Azərbaycan xalqına mənsub olduğunu vurğuladı və bu qəhrəmanlıq

eposunu milli sərvətimizin ən əzəmətli və parlaq abidəsi kimi səciyyələndirdi.

"Dədə Qorqud" xalq birliyi, dövlətçilik düşüncəsinin daşıyıcısıdır. Heydər Əliyev başlıca ideyası vətənpərvərlik olan "Kitabi-Dədə Qorqud" haqqında danışarkən demişdir: "Əsrlərin və minilliklərin qovuşduğu 2000-

ci ildə Azərbaycan Respublikası türkdilli dövlət başçılarının, dünya qorqudşünaslarının iştirakı ilə möhtəşəm "Kitabi-Dədə Qorqud" eposunun 1300 illiyini qeyd etdi. Təqiblərə məruz qalmış bu epos, nəhayət, müstəqil Azərbaycan Respublikasında öz layiqli qiymətini aldı.

"Kitabi-Dədə Qorqud" qəhrəmanlıq eposudur, özü də təkcə bir cəngavər, bir igid haqqında deyil, bütöv bir xalqın qəhrəmanlığı haqqında eposdur... Eposun əsas mahiyyətini qəhrəmanlıq ideyası təşkil edir. Xalqımızın həyatınm bugünkü mərhələsində, o cümlədən respublikanın suverenliyinin və müstəqilliyinin möhkəmləndirilməsi, onun ərazi bütövlüyünün qorunması baxımından müasir Azərbaycan Respublikası vətəndaşlarının bu qəhrəmanlıq ideologiyasından faydalanmasının nə qədər vacib olduğu gün kimi aydındır".

Hər bir xalqın, dövlətin milli ideallar sistemi var. Bu mənada epos azərbaycançılıq ideologiyasında mühüm yer tutur. "Bizim üçün bir tarixi amil, azərbaycançılıq var" söyləyən Heydər Əliyevin fikrincə, bu baxımdan milli dövlətçiliyimizin ideya təməlində "Kitabi-Dədə Qorqud"un yeri tamamilə aydın görünür. Buna görə də Azərbaycan Prezidenti iftixar hissi ilə bildirir ki, "Kitabi-Dədə Qorqud" bizim ana kitabımızdır. Dədə Qorqud bizim qədim əcdadımızdır. Biz fəxr edirik ki, "Kitabi-Dədə Qorqud" kimi tarixi abidəmiz var, fəxr edirik ki, Dədə Qorqud kimi əcdadımız var... Bir sözlə, "Kitabi-Dədə Qorqud" bu gün bizə çox gərəkdir".

Hamımızın ümumi ruhunun ifadəçisi olan "Dədə Qorqud" dastanının 1300 illik yubileyinin təntənə ilə keçirilməsi, həqiqətən, onu birdəfəlik Azərbaycan xalqının mənəvi sərvətinə çevirdi, gənclərimizin mənəvi dəyərlər sisteminə daxil etdi.

"Kitabi-Dədə Qorqud"un yubileyi sayəsində xalqın diqqəti bir daha milli ənənələrə, özünün zəngin millimənəvi xəzinəsi olan mədəniyyətinə yöneldi. "Kitabi-Dədə Qorqud" Ensiklopediyası yaradıldı və bu eposun nə qədər zəngin sərvət olduğu bütün dünyaya tanıdıldı. Heydər Əliyevin "Biz yeni əsrə, yeni minilliyə Qorqud irsinin bayrağı altında, Qorqudun övladları, Qorqud mənəviyyatmı

yaşadan insanlar kimi qədəm qoyuruq" sözləri bu baxımdan son dərəcə mənalıdır.

Heydər Əliyev dünya azərbaycanlılarının qurultayındakı dolğun nitqini bitirərkən demişdir: "Qoy çaylarımız qurumasın! Qoy ağaclarımız kəsilməsin! Qoy çırağımız sönməsin!" Heydər Əliyevin bu sözlərini mahiyyətcə canlı orqanizmi xatırladan, milli dövlətçiliyimizi formalaşdıran və inkişaf etdirən azərbaycançılıq ideologiyasına da şamil etmək olar.

Qoy bu azərbaycançılıq ideologiyasını daim qidalandıran tükənməz çaylar heç vaxt qurumasın! Qoy bu azərbaycançılıq ideologiyasını göylərə qaldıran Azərbaycan incəsənətinin zirvələrini heç vaxt qara buludlar almasın! Qoy Azərbaycanın bu həmişəyaşıl mənəvi sərvətlər ormanlığından bir ağac belə kəsilməsin! Qoy Azərbaycanın və onun dövlətçiliyinin başı üzərində daim günəş nur saçsın! Azərbaycan xalqı yaşadıqca, Azərbaycan mədəniyyəti çiçəkləndikcə, azərbaycançılıq ideologiyası inkişaf etdikcə Azərbaycan milli dövlətçiliyi də əbədi var olacaqdır.

Lakin unutmamalıyıq ki, bu gün Azərbaycanda xarici qüvvələrin dəstəklədiyi, vətəndaş qarşıdurmasını qızışdırmaq istəyən məsuliyyətsiz adamlar vardır. Heydər Əliyev gözəl başa düşdüyü və qiymətləndirdiyi belə mürəkkəb vəziyyəti yalnız öz zəkasının gücü ilə idarə edir.

Azərbaycanın böyük dövlətlərin arasında məngənəyə alındığı ağır bir vaxtda Heydər Əliyev öz xalqının xilaskarı kimi gəldi. O, tədricən, qətiyyətlə, amma təzyiqsiz məcbur edə bildi ki, onun özünə və respublikaya hörmət etsinlər. Bunu yaxın və uzaq dövlətlərlə münasibətlərdə etmək o qədər də çətin deyildi, çünki bu ölkələrin rəhbərləri başa düşürdülər ki, Heydər Əliyevi asılı vəziyyətə salmaq mümkün deyil və o, Azərbaycanın müstəqilliyindən və özgürlüyündən heç vaxt imtina etməyəcəkdir.

Heydər Əliyev bizim müasirimizdir. Elə bircə bu faktm özü hər bir azərbaycanlı üçün qürur və iftixar mənbəyidir. Heydər Əliyev, eyni zamanda, taleyin xalqımıza bəxş etdiyi dahi tarixi şəxsiyyətdir. Heydər Əliyev bütün varlığı ilə Azərbaycanın, onun bugününün və gözəl gələcəyinin təcəssümüdür. Hətta 2003-cü il aprelin 21də Respublika sarayında baş vermiş hadisə də xalqının dahi oğlu kimi onun nüflızuna xələl gətirməmişdir. O, yıxıldıqdan sonra iki dəfə tribunaya qayıtmaqla dövlətçilik iradəsi və məsuliyyəti nümayiş etdirərək sanki ölkənin bütün vətəndaşlarına bir daha bildirdi: "Narahat olmayın, mən sizinləyəm və biz birlikdə Azərbaycan dövlətini bütün çətinliklərdən keçirərək sivilizasiyalı inkişaf yoluna çıxaracağıq".

Fransanın "Kuryer İnternasional" jurnalının 2003-cü ilin may nömrəsində nəşrin Baş redaktoru Aleksandr Adler dövlətimizin başçısı Heydər Əliyevə həsr etdiyi məqaləsində yazır: "Nə sülh, nə də firavanlıq gətirən tufanların tüğyan etdiyi müasir dünyada Heydər Əliyev kimi dövlət xadimləri həmişəkindən daha çox gərəkdir. Tanrı bu şəxsiyyəti təkcə öz xalqına deyil, həm də başqa xalqlara son dərəcə mürəkkəb tarixi bir məqamda göndərmişdir. O, bir sıra ciddi böhranlar keçirmiş və onları dəf etmişdir. O, hamısına mətanətlə sinə gərmiş və onu mənən və cismən məhv etmək üçün göstərilmiş bütün cəhdlərə baxmayaraq, daha yüksəklərə qalxmışdır".

Yaşadığımız dövr tarixə Heydər Əliyev epoxası kimi daxil olacaqdır. Gələcək nəsillər taleyin bizə bəxş etdiyi bu tarixi dövrii böyük qibtə hissi ilə xatırlayacaq, öyrənəcək, təhlil edəcəklər. Bizim hər birimiz isə bir vətəndaş kimi taleyin bizə bəxş etdiyi bu nadir imkandan ölkənin tərəqqisi naminə istifadə etməyə hazır və qadir olmalıyıq.

Heydər Əliyevin Azərbaycan tarixinə təsiri çox böyükdür. O, müstəqil Azərbaycan dövlətinin arxitekturasını yaratmış, milli dövlətçiliyimizin ideya təməlini qoymuşdur. İllər keçəcək və çiçəklənən Azərbaycanın vətəndaşları bir gün deyəcəklər: "Heyder Əliyev ölkəni idarə edir, onun ideyaları zamanın sınağından çıxmışdır və bu gün də insanların şüurunda və qəlbində yaşayır. Ölkədə fəaliyyət göstərən siyasi və iqtisadi sistem əsl Vətəndaşın, böyük Şəxsiyyətin, qüdrətli Liderin əməyinin bəhrəsidir".

*7 iyun, 2003*

# RƏYLƏR

# VƏTƏNDAŞ, ŞƏXSİYYƏT VƏ LİDER HAQQINDA MÜKƏMMƏL ELMİ-FƏLSƏFİ ƏSƏR

Böyük vətəndaş, dahi şəxsiyyət və əvəzsiz lider olan Heydər Əliyev haqqında çoxlu məqalələr, kitablar, şerlər, mahnılar yazılmış, musiqi bəstələnmiş, dünyanın görkəmli dövlət və siyasi xadimləri, böyük sənət adamları müdrik fikirlər söyləmiş və söyləməkdədirlər. Bu, bir tərəfdən böyük insanın şəxsiyyətinə olan marağın nəticəsidirsə, digər tərəfdən də Azərbaycan üçün gördüyü böyük işlərdən və bugünkü dünya siyasətində ona verilən yüksək qiymətdən irəli gəlir. Bununla belə, qeyd etmək lazımdır ki, Heydər Əliyevin gördüyü işlərin Azərbaycan üçün, xalqımız üçün əsl məna və əhəmiyyəti hələ dərinliyi ilə dərk olunmamış və lazımınca tədqiq edilib öyrənilməmişdir.

Heydər Əliyev irsini sistemli şəkildə öyrənmək sahəsində fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin tədqiqatları böyük maraq doğurur və mühüm əhəmiyyet kəsb edir. Onun 23 may 2003-cü il tarixində "Bakinski raboçi" qəzetində dərc etdirdiyi "Əsl vətəndaş, böyük şəxsiyyət və qüdrətli lider haqqında bəzi düşüncələr" adlı dərin məzmunlu yeni əsəri bu yolda atılmış növbəti uğurlu addımdır. Heydər Əliyev fenomenini elmi-fəlsəfi təhlil süzgəcindən keçirən müəllif əsərdə haqlı olaraq yazır: "İllər keçdikcə Heydər Əliyev fenomeninə maraq nəinki azalır, əksinə, daha da artır. Bir çox ölkədaxili və xarici yazılarda, tədqiqatçıların əsərlərində biz Heydər Əliyevin həyat və fəaliyyətinin, siyasətinin, məharətli idarəetmə istedadının yeni-yeni tərəflərini kəşf edirik. Bir çox jurnalistlər Heydər Əliyevi hakimiyyət ustası adlandırmağı xoşlayırlar, onlar təsdiqləyirlər ki, bu şəxsin hakimiyyət hissiyyatı onun fəaliyyətinin bütün tərəfləri ilə üzvi şəkildə qovuşaraq təbiətin ayrılmaz hissəsini təşkil edir.

Bir çox tədqiqatçıların fikrincə, məhz bu hakimiyyət sirri (magiyası) ona nəinki üç onillikdən çox hakimiyyətin Olimpində (zirvəsində) olmaq, hətta kumir kimi qalmaq, milyonların idealı olmaq imkanını verir".

Müəllif çox haqlı olaraq qeyd edir ki, Heydər Əliyevin tarixi bir şəxsiyyət kimi öyrənilməsinə yanaşma müxtəlif aspektlərdə müxtəlif cür ola bilər. Çünki Heydər Əliyev zəmanəmizin nadir şəxsiyyəti kimi cəmiyyət həyatının müxtəlif sahələrində geniş fəaliyyət göstərərək mənsub olduğu xalq içərisində, öz ölkəsi daxilində və eləcə də dünya miqyasında görkəmli siyasətçi, böyük dövlət xadimi və eləcə də xalqınm əvəzsiz lideri kimi şöhrət qazanmışdır.

Dünyanın diqqətini daha çox çəkən və müəyyən mənada həm də heyran qoyan onun dövlətçilik bacarığı, yüksək idarəçilik səriştəsi və bunların da nəticəsində gördüyü işlər, uzun illərdən bəri xalqına gösterdiyi misilsiz xidmətlərdir. Odur ki, əsərin müəllifi çox düzgün olaraq onun dövlətçilik fealiyyətindəki müxtəlif mərhələləri ön plana çəkir və bu mərhələlərdə görülmüş işləri, sadəcə olaraq, qeyd etməklə kifayətlənməyərək onları fəlsəfi təfekkür süzgəcindən keçirib təhlil edir, hər bir mərhələdə görülmüş işlərin mahiyyətini, məna və əhəmiyyətini açıb göstərir.

Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı ərəfəsində Azərbaycanda olan daxili vəziyyet əsərdə ətraflı və əsaslı şəkildə şərh olunur. Son dərəcə gərgin və fəlakətli, müsibətli günlər, onların ağır nəticələri göstərilir. Bu barədə xeyli yazılsa və danışılsa da, Ramiz Mehdiyevin əsərində bu işin yüksək elminəzəri səviyyədə təhlil edilməsi xüsusi maraq doğurur və oxucunu düşündürür. Bu məsələlərin, keçmiş günlərin hazırda Azərbaycan cəmiyyətində gedən dərin siyasi proseslər fonunda, ölkənin prezident seçkilərinə getdiyi bir zamanda bir daha yada salmması son dərəcə zəruridir.

Həyat göstərir ki, illər keçdikcə bir çox məsələlər unudulur və bəziləri bundan istifadə etməyə çalışır. Biz bunu bəzi siyasi qüvvələrin cəhdlərində çox aydın şəkildə görürük. Odur ki, belə yazılar, o dövrün hadisələrinin elmi təhlili çox vacib və həm də əhəmiyyətlidir. Bu, hadisələri düzgün başa düşmək, görülmüş işlərin məna və əhəmiyyətini dərindən dərk etmək üçün vacibdir. Əsəri oxuyarkən bir daha aydın olur ki, cənab Heydər Əliyevin hakimiyyətə qayıdışı ərəfəsində ölkə daxilində vəziyyət hədsiz dərəcədə ağır və çıxılmaz idi. Müəllif konkret və aydın misallarla sübut edir ki, əgər hakimiyyətin başında bacarıqlı, işgüzar adam dayanarsa, hakimiyyət getdikcə möhkəmlənər və xalqın xeyrinə səmərə

li işlər üçün geniş imkan və şərait yaranar. Cənab Heydər Əliyevin timsalında bu məsələlərdən ətraflı söhbət açan müəllif xalq içərisində hakimiyyət ustası kimi tanınan nadir şəxsiyyətin daxili aləmini açır, onun idarəçilik məharətinin incəliklərini təsvir edir. Məhz bu idarəçilık qabiliyyətindən çəkinən hakim dairələr vəzifədən ayrıldığı tam beş il müddətində Heydər Əliyevə respublikada heç bir hökumət vəzifəsi təklif etmədilər. Heydər Əliyev onu təqib edən zamanın özündən daha böyük, daha qüdrətli idi və xalqın içində qabağı görməyən "rəhbərlərdən" çox-çox uzaqgörən bir lider kimi nüfuz qazanmışdır. Elə bu qısqanchğa görə də onu irəli buraxmadılar. Belə bir şəxsiyyet o zaman hakimiyyətdə olardısa, hadisələrin məcrasını lazımi səmtə dəyişər, Azərbaycanı çox-çox bəlalardan və fəlakətlərdən xilas edərdi. Rusiya tədqiqatçılarından S.Çemyavski haqlı olaraq qeyd edir ki, "görünür, o dövrdə Azərbaycan cəmiyyəti Heydər Əliyevin alternativi olmadığını dərk etmək üçün hələ yetişməmişdi".

Fəlsəfə elmləri doktoru Ramiz Mehdiyevin əsərini oxuyarkən tam qanunauyğun və obyektiv olaraq belə bir qənaətə gəlirsən ki, cənab Heydər Əliyev öz siyasi istedadı ilə zirvədə durur.

Müəllif ümummilli lider Heydər Əliyevin keçmiş İttifaq rəhbərliyində tutduğu posta nəzər salıb çox düzgün olaraq belə bir fikri əsaslandırır ki, bu yüksəkliyə qalaxmaqla o, yeni tipli rəhbər kimi özünü təsdiq etmiş oldu. Ötən əsrin 80ci illərində sovet dövlətində yüksək vəzifə tutan Heydər Əliyev böyük səlahiyyetlərə malik olmaqla bərabər, eyni zamanda böyük məsuliyyət də daşıyırdı.

Heydər Əliyev hakimiyyətə qayıdarkən o zamankı səriştəsiz, bacarıqsız rəhbərlərden ona, sözün əsl mənasında, dağılmış, talan edilmiş bir ölke miras qalmışdı. Elə bir ölkə ki, onun vətəndaşları sabahkı günə artıq öz ümidlərini itirmişdilər.

Heydər Əliyevin qayıdışı ilə xalqın gözündə bir ümid çırağının yanması, xalqın qəddini düzəldərək öz müdrik rəhbəri ətrafında necə birləşməsi, ölkəni bürümüş ictimai-siyasi və iqtisadi böhrandan, beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxış yolunu tapması əsərdə məntiqə söykənərək əsaslandırılıb, tariximizin bu çətin mərhələsində cənab Heydər Əliyevin böyük xilaskarlıq missiyasına oxucu inamını bir daha artırır.

Heydər Əliyevin rəhbərlik məharətini səciyyələndirən ən mühüm cəhətləri şərh edən müəllif onun öz fəaliyyətində daima xalqının iradəsinə, tükənməz enerjisinə, mənəvi ruhuna, intellektual potensialına arxalandığını, xalqının psixologiyası və mentalitetinin xüsusiyyətlərini gözəl bildiyini ön plana çəkir. Uzun illərdən bəri Heydər Əliyevin rəhbərlik istedadını, çoxcəhətli və zəngin iş üslubunu yaxından müşahidə edən müəllif belə bir düzgün nəticəyə gəlir ki, rəhbərin birinci növbədə məhz bu keyfiyyəti o zaman dünyanın siyasi xəritəsindən silinmək ərəfəsində olan ölkəni düşdüyü fəlakətli vəziyyətdən çıxarmağa, bugünkü inkişaf və tərəqqi yoluna salmağa imkan verdi.

Heydər Əliyevin taleyi elə gətirmişdir ki, o, 34 illik rəhbərlik fəaliyyətində iki dəfə ötən əsrin 70 və 90-cı illərində Azərbaycanı düşdüyü ağır böhranlı vəziyyətdən çıxarmalı olmuşdur. Hər dəfə də o, Azərbaycanı sürətli inkişaf yoluna çıxararaq daim irəliyə aparmışdır. Azərbaycan xalqının ən çətin anların da onun köməyinə çatan, vətənini, xalqını məhəbbətlə sevən böyük rəhbərə bugünkü inam, böyük məhəbbət də elə bundan irəli gəlir.

Xalq yaxşı başa düşür ki, hələ bu gün də vətənin Heydər Əliyevə ehtiyacı var. Məhz buna görə də qarşıdakı prezident seçkilərində hər yerdə onun namizədliyini irəli sürür. Hamı gözəl bilir ki, Heydər Əliyevə hakimiyyət lazım deyil, lakin Heydər Əliyevin hakimiyyətdə olması çox vacibdir. Heydər Əliyev xalqına, vətəninə çox gərəkdir. Çünki Heydər Əliyev xalqına məxsus olan həyatını ən çətin anlarda ondan əsirgəyə bilməzdi. Əsərin ən müsbət cəhəti ondadır ki, müəllif tərəfindən bu məsələnin mahiyyəti açılır, Heydər Əliyevin Azərbaycan üçün nə demək olduğu haqqındakı həqiqət oxucuya çatdırlır.

Əsərin ən dəyərli cəhətlərinden biri və Heydər Əliyev haqqında indiyə qəder yazılanlardan fərqlənməsi ondan ibarətdir ki, müəllif peşəkar filosof təfəkkürü ilə Heydər Əliyevin Azərbaycanın çoxəsrlik tarixində xüsusi yer tutmasının mahiyyətini, onun səbəblərini məharətlə açıb göstərir və bunu konkret faktlarla əsaslandırır. Tam bir epoxanı özündə təcəssüm etdirən nadir şəxsiyyətin siyasi portretini hərtərəfli açmaq üçün bu, çox vacib amildir. Əsərdə buna xüsusi diqqət yetirilmişdir. Müəllif Heydər Əliyevin şəxsi keyfiyyətində bizim heç də həmişə lazımınca diqqət

yetirmədiyimiz məqamlara toxunur. Belə məqamlardan biri Heydər Əliyevin çoxcəhətli fəaliyyətində mühüm yer tutan azərbaycançılıq ideologiyasında əks olunan milli ideyanın həyata keçirilməsi sahəsində onun göstərdiyi fəaliyyətdir. Heydər Əliyevin böyük bir dövlət xadimi, siyasət adamı, idarəçilik məharəti, yüksək təşkilatçılıq bacarığı, fenomenal yaddaşı, ətrafdakı adamların qabiliyyət və bacarığını düzgün qiymətləndirmək qabiliyyəti, adamlara qarşı həssas və qayğıkeş olması barədə istər ölkə daxilində, istərsə də xarici mətbuatda dərc olunan yazılarda xeyli dəyərli fikirlər söylənilmiş, ümumiləşmələr aparılmış və bu yazılarda başlıca olaraq onun praktiki fəaliyyətinin müxtəlif sahələrinin şərhinə daim üstünlük verilmişdir. Lakin etiraf etmək lazımdır ki, Heydər Əliyevin məhz bu praktiki fəaliyyətində əks olunan onun inkişafımıza dair fəlsəfi baxışları, yaratdığı felsəfi konsepsiyanın mahiyyəti, məna və əhəmiyyəti lazımınca tədqiq olunub öyrənilməmiş və ümumiləşdirilməmişdir.

Fundamental əsərləri ilə görkəmli filosofalim kimi tanıdığımız fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev dəyərli əsərində məhz bu məsələyə toxunaraq dərin elmi araşdırmalara əsaslanan çox qiymətli fikirlər söyləyir. Müəllif yazır: "Ancaq çox vaxt bütün bunlar Heydər Əliyevin konkret işlərinin kölgəsində qalır. Buna görə də Heydər Əliyev fenomenini başa düşmək cəhdləri diqqətimizi bu şəxsin dünyagörüşünün fəlsəfi tərkibinə cəlb edir. Hamıya məlumdur ki, Heydər Əliyev son dərəcə təhsilli və yüksək emdisiyalı bir insandır. Bu təhsilliliyi onun akademik, həyatdan ayrı düşmüş hər hansı fəlsəfi axın və konsepsiyaları dərk etmək xarakterini daşımır, orada bir çox Azərbaycan ziyalıları nəsillərinin yaratdığı ümumbəşəri dəyərlər ahəngdar formada milli ideallar sistemi ilə uyğunlaşır.

Məhz buna görə Heydər Əliyev dövlət quruculuğunun belə bir konsepsiyasını hasil etmişdir ki, orada sosiologiyanın və fəlsəfənin bir çox abstrakt problemləri ideyalar və elm sahəsindən konkret siyasət təcrübəsinə keçmişdir".

Heydər Əliyev özünün milli dirçəliş fəlsəfi konsepsiyasına əsaslanaraq müasir, yeni bir Azərbaycan yaratmışdır.

Müəllif haqlı olaraq yazır ki, Heydər Əliyev öz fəlsəfi konsepsiyasını, milli ideyaya söykənən qiymətli fikirlərini hər hansısa xüsusi, ayrıca əsərində yox, bütün bu onilliklər ərzində bizim gözlərimiz qarşısında söylədiyi

çoxsaylı məruzə, çıxış və nitqlərində irəli sürmüş, öz ictimai-siyasi, fəlsəfi-tarixi baxışlarını əsaslandırmışdır.

Ümummilli liderimizin "Yeni il, Yeni əsr, Yeni minillik münasibətilə Azərbaycan xalqına müraciəti"nə diqqət yetirək. Azərbaycan ictimai fikrinin çox böyük marağına səbəb olmuş bu müraciət bizim son illərdə oxuduğumuz elmi-siyasi sənədlər və fəlsəfi-tarixi əsərlər içərisində öz məzmun və əhəmiyyətinə görə xüsusi yer tutur. Ulu öndər orada əsrin böyük siyasət adamı, müdrik və təcrübəli dövlət başçısı kimi bəşəriyyətin, xüsusilə də Azərbaycan xalqının keçdiyi yol və gələcəkdə qarşılaşacağı problemlər haqqında öz fəlsəfi düşüncə və mülahizələrini söyləmişdir.

Müraciəti oxuyarkən Heydər Əliyev bizim qarşımızda nəinki böyük siyasətçi, müdrik dövlət başçısı, həm də mahir bir tedqiqatçı, böyük bir filosof-tarixçi kimi də durur.

Ümummilli lider müasir dünyanın başlıca inkişaf meyillərinin mədəni inteqrasiya və qloballaşma olduğunu göstərməklə yanaşı, böyük bir vətənpərvər kimi Azərbaycanı, onun gələcəyini düşünərək bizi qloballaşmanın yaradacağı problemlər üzərində düşünməyə də çağırır.

Cənab Prezident qədim tariximizdən bugünə qədər olan dövrü çox ətraflı təhlil etmiş, XX yüzillikdəki tariximizi ilk dəfə olaraq professional bir tarixçi kimi elmi əsasda dövrləşdirmişdir. Bütün bu məsələləri dərin elmi təhlil süzgəcindən keçirən müəllif qeyd edir ki, 1922-ci ildən 1991-ci ilədək və 1991-ci ildən sonranı əhatə edən dövrlər bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanı müstəqilliyə aparan yol öz başlanğıcını məhz 1969-cu ildən, Heydər Əliyevin hakimiyyətə gəlişindən götürür. Azərbaycan xalqı məhz bu tarixi gündən özünün əsl milli liderini tapmış oldu.

Qətiyyətlə demək olar ki, Azərbaycan məhz 1969-cu ildən inkişaf yoluna qədəm qoymuşdur. Həmin o ildən respublikada cəmiyyət həyatının bütün sahələrində dinamik inkişaf baş verdi. Bu dövr Azərbaycan üçün həyatın bütün sahələrində iqtisadiyyatda, elmdə, təhsildə və mədəniyyətdə coşqun yüksəliş illəri olmuşdur. Ona görə ki, bu illərdə Azərbaycanın sükanı arxasında böyük qurucu, yaradıcı, dünyada tanınmış siyasətçi kimi şöhrət qazanmış Heydər Əliyev dayanırdı.

Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan müasir sənaye, kənd təsərrüfatı istehsalı, yüksək elmi potensial, mədəniyyət və incəsənət zirvəsinə qalxdı. Heydər Əliyev gec-tez imperiyanın dağılacağını və Azərbaycanın müstəqil, suveren ölkə olacağını intuitiv olaraq hiss edir və əvvəlcədən duyurdu. Odur ki, Azərbaycanın müstəqil yaşaması üçün əvvəlcədən lazım olan şəraitin yaradılmasının bünövrəsini qoyurdu.

Dövlətin idarə olunmasında və yaşamasında yüksək ixtisaslı kadrların olması vacib şərtlərdən biridir. Uzaqgörən siyasətçi, vətənpərvər insan bunun üçün də əvvəlcədən fikirləşmiş, azərbaycanlı gənclərin Rusiyanın qabaqcıl ali təhsil ocaqlarına göndərilməsi işini ölçüb-biçmiş, planlaşdırmış və buna nail olmuşdur. Bu gün dövlətin idarə olunmasında çalışan minlərlə yüksək ixtisaslı mütəxəssis məhz o dövrün yetirmələridir. Hər bir tarixi mərhələdə dəyişən və dəyişilən dəyərlər sistemi olur. Millət, xalq o vaxta qədər mövcud olur ki, onun milli mədəniyyət ənənələri, dilini, mədəniyyətini nəsillərə ötürmək vasitələri, dəyərlər sistemi qorunub saxlanılır. Əsərdə bu dəyərlərin qorunub saxlanılması sahəsində Heydər Əliyevin apardığı ardıcıl mübarizə konkret faktlar və misallarla göstərilir.

Heydər Əliyevin hakimiyyətdə olduğu illəri dövrlərlə təhlil edən müəllif böyük vətənpərvər insanın hələ sovet dövrünün və ideologiyasının yaratdığı ciddi çətinliklər şəraitində dilimizin, ədəbiyyatımızın, incəsənət və musiqimizin inkişafı, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması və təbliği sahəsində, şəhərlərimizin, kəndlərimizin, abadlaşması sahəsində gördüyü əvəzsiz işləri, göstərdiyi misilsiz xidmətləri konkret faktlar və misallarla təsvir və təhlil edir. Heydər Əliyevin gördüyü işlər Azərbaycanın XX əsr tarixinə həmişəlik daxil olmuşdur. Bunları unutmaq və ya hər hansı bir cəhdlə tarixdən silmək, sadəcə, mümkün deyildir: nə qədər ki Azərbaycan var, Heydər Əliyev də olacaqdır!

Son dərəcə dərin məzmunlu, yüksək elmi səviyyədə yazılmış bu əsərdə bütün bunlar hərtərəfli şərh edilir.

Əsərdə Azərbaycanda müstəqillik ərəfəsi və müstəqillik illərində baş vermiş siyasi proseslər təsvir edilir, Heydər Əliyevin bu proseslərə təsiri, iştirakı və bunların siyasi nəticələri xronoloji ardıcıllıqla təhlil edilir, çox mühüm elmi ümumiləşmələr aparılır və bugünkü günümüz üçün faydalı olan fikirlər, nəticələr çıxarılır.

Bu illərdə Heydər Əliyevin apardığı məqsədyönlü daxili və xarici siyasət sayəsində Azərbaycana maraq artdı, böyük dövlətlər ölkəyə sənnayə yönəltdi, neft kontraktları bağlanıldı, iqtisadi əlaqələr genişləndi, Azəı baycan müstəqil bir dövlət kimi bütün dünyada tanmdı. Azərbaycan Avropa Şurasına tamhüquqlu bir dövlət kimi daxil oldu. Bu, milli dövlət lik siyasətimizin çox mühüm qələbəsi idi.

Ümummilli lider Heydər Əliyev yaratdığı dövlətin gələcəyini aydın görür. Fəlsəfə elmləri doktoru Ramiz Mehdiyev belə bir fikir irəli sürürki, bu gün Prezident Heydər Əliyevin hakimiyyətinə real təhlükə olacaq elə bir cərəyan mövcud deyildir. Çünki Azərbaycanın gələcəkdə başqa yolla inkişafına dair onun siyasi opponentlərinin elə bir prinsipial, real təklifləri yoxdur.

Bu illər ərzində nə qədər "rəhbərlər" gəlib getsə də, onlardan heç biri Heydər Əliyev kimi ölkəmizin gələcək yönümünü müəyyənləşdirə bilmədi. Tarix isə yaradanları öz yaddaşında saxlayır. Bu, həmişə belə olub.

Dərin elmi-nəzəri təhlilə və əhəmiyyətli elmi ümumiləşmələrə əsaslanan və çox maraqla oxunan bu elmi əsərdə irəli sürülən yeni fikirl çıxarılan qiymətli nəticələr ictimai-siyasi, eləcə də elmi-fəlsəfi fikrli inkişafı, eyni zamanda ölkəmizin bundan sonra da həyatda, təcrübədə haqdan çıxmış, Azərbaycanımıza və xalqımıza çox böyük fayda gətir Heydər Əliyev xətti, Heydər Əliyev siyasəti ilə getməsi üçün əhəmiyyətli olacaqdır.

Hesab edirəm ki, əsərdə qaldırılan məsələlər bu gün şəxsiyyətinə gün dünyada böyük maraq göstərilən Heydər Əliyevin idarəçilik məharətinin, dövlətçilik ideyalarının, bu ideyaların nəzəri və praktiki aspektnin dərindən tədqiq edilib öyrənilməsi işinin gələcəkdə daha geniş vüsat almasına da böyük kömək olacaqdır.

**Seyfəddin QƏNDİLOV,**
***tarix elmləri doktoru,***
***professor, əməkdar***
***elm xadimi***

*6 iyun, 2005*

# HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN TARİXİNDƏ VƏTƏNDAŞ, ŞƏXSİYYƏT VƏ LİDER KİMİ ROLU

## *Yaxud, sadə həqiqətin elmi-fəlsəfi şərhi*

Hər sadəlikdə bir daxili mürəkkəblik, mürəkkəb görünən hadisə və məsələlərdə isə sadə məqamlar olur. Və heç də insanların hamısı ibtidadan aliyə, sadədən mürəkkəbə doğru inkişaf edən hadisələri vaxtında və düzgün qavramır. Böyük həqiqətlər də belədir. Çox halda o, dərhal və "yaxından" "görünmür". Belə həqiqətlərin dərki və qavranılması müəyyən vaxt, zaman məsafəsi tələb edir. Yalnız xüsusi bilik və istedad, intellekt və bəsirət sahibi olan insanlar ətrafların da baş verənləri "isti-isti" anlaya, araşdıra, düzgün nəticə çıxara bilir və başqalarına da "çatmasında" "vasitəçilik" etmək qabiliyyətinə malik olurlar.

Bir məqamı da vurğulayaq. Sovet hakimiyyəti illərində cəmiyyətdə baş verən prosesləri xüsusi olaraq yaradılmış institutlar öyrənir və təhlil edirdilər. İndi isə respublikamızda nəinki ayrıca institutlar, hətta müəyyən qruplar belə bu işlə məşğul olmurlar. Yalnız ayrı-ayrı tədqiqatçı alimlər sırf könüllülük prinsipi əsasında bu mürəkkəb və çətin vəzifəyə həvəs göstərirlər. Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin "Əsl vətəndaş, böyük şəxsiyyət və qüdrətli lider haqqında bəzi düşüncələr" adlı yeni əsərini bu sahədə irəliyə doğru atılmış daha bir uğurlu addım saymaq olar. Düzgün metodoloji araşdırmaya, zəngin faktlara, dərin təhlilə, bacarıqlı ümumiləşdirməyə, dəmir məntiqə söykənən və güclü inandırıcılıq qabiliyyətinə malik olan bu əsər indiyədək Heydər Əliyev haqqında yazılan ən mükəmməl fəlsəfisiyasitarixi oçerk də hesab edilə bilər. Əlbəttə, adi bir məqalə çərçivəsində bu əsərin bütün məziyyət və cəhətləri barədə danışmaq mümkün deyil. Biz əsərdə toxunulan çoxsaylı məsələlərin bir qismi ilə bağlı düşüncələrimizi möhtərəm oxucularımızla bölüşmək istəyirik.

Zati-aliləri Heydər Əliyevin həyat və fəaliyyəti Azərbaycan tarixi və gerçəkliyi ilə o qədər qaynayıbqarışmışdır ki, bu böyük şəxsiyyət haqqında danışmaq, əslində, ölkə tarixindən bəhs etmək deməkdir. Bu həqiqəti

etiraf edən müəllif digər həqiqətlər hamının gördüyü, bildiyi, lakin bir çoxlarının küll halında dərk etmədiyi həqiqətlərdən də konkret faktlar əsasında, aydın və inandırıcı formada, eyni zamanda dərin elmi-təhlili şəkildə söhbət açır. Heydər Əliyev haqqında indiyədək saysız-hesabsız oçerk, məqalə və kitablar yazılmış və şübhəsiz, bundan sonra da yazılacaqdır. R.Mehdiyevin tədqiqatlarının üstünlüyü hadisələri başvermə anında, helə bitməmiş görüb, seçib qiymətləndirməsi, onun Azərbaycan tarixində yerini düzgün müəyyənləşdirməsi və insanların adi və sadə həqiqətləri anlamasında obyektiv yardımçı olmasıdır.

Əsl vətəndaş olmayan insan şəxsiyyət kimi yetişə bilməz. Şəxsiyyət səviyyəsinə yüksəlməyənlər isə heç zaman həqiqi liderə çevrilmirlər. Qeyrətli ölkə vətəndaşlığının və liderliyin xüsusiyyət və prinsipləri də mövcuddur. Əksər halda xalq bunları fəhmlə duyub qiymətləndirir. İddiada olanların say çoxluğuna baxmayaraq, bu gün Azərbaycanda xalqın həqiqi lideri yeganədir! Çünki "iddiaçılar" əsl vətəndaş və şəxsiyyət kimi formalaşmadıqlarından şəksiz lider kimi qəbul olunmur, "partiya başçısı" səviyyəsinden irəli getmirlər. R.Mehdiyev bu əsərində konkret nümunə əsasında vətəndaşın şəxsiyyətə, sonra isə liderə çevrilməsi prosesini də tədqiq etmiş, elmi cəhətdən əsaslandırmışdır.

Vətəndaş olmaq, şairin təbirincə desək, vətənin adi daşına çevrilmək vətənini sonsuz məhəbbətlə sevmək deməkdir. Lakin bu sevgi ritorik, ünvansız yox, konkret əməli və müəyyən görüntülərdə təzahür edən formada olur. Şübhəsiz ki, hər bir vətəndaşm öz gücü və imkanı, əhatə dairəsi olur. Məhz bu istedad, bacarıq və qabiliyyət daxilində vətəninin əsl övladı olan vətəndaş öz sevgi və köməyini hiss etdirə bilir. Zatialiləri Heydər Əliyev qeyri-adi bacarığa və gücə, intellektual qabiliyyetə malik insan olduğundan onun vətənə xidmətləri də başqaların dan qeyriadiliyi və miqyası, habelə digər parametrləri ilə fərqlənmişdir. Cənab Heydər Əliyevin doğına Azərbaycana temənnasız xidmətini əks etdirən sonsuz sayda faktların böyük bir qismi fəlsəfə elmləri doktoru Ramiz Mehdiyevin əsərində maraqlı formada əksini tapmışdır. Biz bu əsəri sətirbəsətir oxuduqca böyük hərflərlə yazılan Vətəndaş, Şəxsiyyət və Liderin böyük və parlaq, mübarizələrlə dolu ömrü yenidən gözlərimiz qarşısında canlanır. "KQB" sözü zaman-zaman insanlarda qorxu xofu yaradıb. Adamları daim kabus kimi izləyən bu təşkilat heç vaxt xeyirxahlıqla məşğul olma-

yıb. Lakin cənab Heydər Əliyevin bu təşkilatdakı fəaliyyəti sübut etdi ki, əsl vətəndaş və şəxsiyyət "ən təhlükəli idaredə" işlədikdə belə, əvvəla, yenə xalqına faydalı ola bilir, ikincisi, həmin təşkilatın mahiyyətinin təkmilləşərək ona müəyyən xeyirxahlıq elementlərinin əlavə edilməsinə səbəb olur. Kommunizm ideologiyası başqa fikri, özgə cür düşüncəni qəbul etmirdi. Hər şey çərçivə daxilinə salınmışdı. Bu çərçivədən kənara çıxanlar isə "KQB"nin hədəfinə çevrilirdi. SSRİ dövründə Azərbaycan yeganə respublika olub ki, orada dissident hərəkatı baş verməyib. Amma özgə cür düşünüb daşınanlar olub. Çox-çox sonralar məlum oldu ki, cənab Heydər Əliyev belələrini yanına dəvət edib, onlarla söhbət aparıb, səhv mübarizə yolundan çəkindirib, vətənə, xalqa necə fayda gətirməyi başa salıb. Beləliklə, neçə-neçə insanı cəzadan, həbsxana və sürgündən qurtarıb. Qapalı, gizli şəkildə də vətənini, vətən övladını sevdiyini əməli işi ilə göstərib. Əsərdə cənab Heydər Əliyevin hələ respublikaya birinci dəfə rəhbərlik etdiyi dövrdə Azərbaycanın inkişafı və tərəqqisi yolunda gördüyü işlər barədə saysız-hesabsız faktlar var.

Müasir Azərbaycan XX əsrin yetmişinci illərindən etibarən zati-aliləri Heydər Əliyev tərəfindən yazılan möhtəşəm əsərə bənzəyir. Onun inkişafının hər bir səhifəsində bu böyük insanın "xətti", izi aydın görünür. Bu gün Azərbaycanın elə bir guşəsi tapılmaz ki, orada möhtərəm Heydər Əliyev tərəfindən yaradılan abidəyə rast gelməyəsən. Bu abidələr yeni kəndlər və qəsəbələr, fabrik və zavodlar, emal müəssisələri, yollar və körpülər, ictimai-mədəni binalardır. Zati-aliləri Heydər Əliyev ölkə vətəndaşlarının daim yaxşı yaşamasına, güzəranının durmadan yüksəlməsinə çalışan və buna nail olan dövlət başçısı, əsl vətəndaşdır! Onun Azərbaycana rəhbərlik etdiyi birinci dövrdə xalqımızın təkcə iqtisadi durumunda deyil, bütövlükdə məişətində, mədəni səviyyəsində və düşüncə tərzində də böyük deyişikliklər baş verdi. Azərbaycan kəndinin siması büsbütün dəyişdi, kəndli çiy kərpic və palçıq komalardan ikimərtəbəli daş evlərə köçdü, məişətində elektrik cihazları televizor, soyuducu, elektrik ütüsü və tikiş maşını, kondisioner gördü. Fəhlə və kolxozçu balalarının ali məktəblərə qəbulunda yaradılan güzəştlər, "fəhlə fakültələri"nin təşkili respublikanın ən ucqar guşələrində belə kadr potensialı yaradılmasına, maarif və mədəniyyətin inkişafına kömək göstərdi. İctimai təsərrüfatdan yaxşı gəlir götürən kəndli nəinki güzəranının yaxşılaşdıraraq övladına ali təh-

sil verirdi, özünə minik maşını alır, əmanət kitabçasında pul toplayırdı. Respublikamızın paytaxtı Bakı şəhəri isə əsl intibah dövrünü yaşayırdı. Sürətlə yeni yaşayış evləri tikilir, dalbadal mikrorayonlar, park və xiyabanlar salmır, metro xətti çəkilir, zavod və fabriklər inşa edilir, görkəmli şair, yazıçı və dövlət xadimlərinə abidələr ucaldılır, şəhər günügündən böyüyüb gözəlləşirdi. Azərbaycan Azərbaycana artıq "sığışmırdı". Keçmiş SSRİ-nin ən geridə qalmış respublikaların dan olan Azərbaycan İttifaqda tanınaraq ön cərgəyə çıxır, respublika gəncləri müxtəlif ixtisaslar üzrə təhsil almaq üçün iri şəherlərə göndərilir, bir çox əhəmiyyətli tədbirlər ölkəmizdə keçirilirdi. Ən əsası, Azərbaycanın səsi daha ucadan və aydın eşidilirdi. Bu, bir tərəfdən cənab Heydər Əliyevin qeyriadi enerjisi və işgüzarlıq qabiliyyəti, xalqı səfərbər etmək bacarığı ilə bağlı idisə, digər tərəfdən onun uzaqgörənliyindən, bugünkü fəaliyyətini ölkənin inkişaf perspektivi ilə üzvi şəkildə əlaqəlendimıək məharətinden, ən nəhayət, gördüyü hər bir işdə xalqın mənafeyini daim nəzərə almaq istəyindən irəli gəlirdi. Əsərdə deyilir: "Şübhəsiz ki, Heydər Əliyev öz xalqınm psixologiyasının xüsusiyyətlərini, mentalitetini çox gözəl bilən xarizmatik liderdir. Onun həyatmda hadisələrin sanki öncədən müəyyənləşdirilmiş gedişini təkcə sözün gücü ilə dəyişdirə bildiyi hallar çox olmuşdur. Heydər Əliyevin şəxsi nümunəsi bizim hamımızı, onun həmvətənlərini ruhlandırır və qurubyaratmağa həvəsləndirir. O, Azərbaycana otuz ildən çox rəhbərlik edərək sözü və əməli ilə yeni gerçəklik yaradır, Azərbaycan üçün dünyaya yol açır, onu ən sivilizasiyalı və çiçəklənən ölkələrdən birinə çevirməye çalışır. Buna görə də xalq öz millətinə təmənnasız xidmət etməyin misilsiz nümunəsinə heyran olmaqla yanaşı, həm də başa düşür ki, indi Azərbaycana məhz belə bir lider lazımdır".

Çoxcəhətli və gərgin fəaliyyəti ilə Azərbaycanın tərəqqisinə nail olan cənab Heydər Əliyev doğına xalqı ilə birlikdə özü də ucalırdı. Fitri istedad və qabiliyyəti ölkəyə rəhbərlik etdiyi müddətdə topladığı zəngin təcrübə ilə birləşir, keçmiş SSRİ məkanmda kimseyə bənzəməyən yeni siyasətçi imici formalaşırdı və bu imicdə Heydər Əliyev şəxsiyyəti daha da qabarıq və parlaq şəkildə görünürdü. OndakL bu qeyriadilik diqqəti cəlb etməyə bilməzdi. Odur ki, SSRİni möhkəmləndiraıəkdə və inkişaf etdirməkdə maraqlı olanlar bu fenomenal insanm bilik və qabiliyyətindən istifade etmək üçün onu Kremlə SSRİ rəhbərliyinə apardılar. Türk oğlu

nun bu yüksəlişi çoxların  da həsəd və qısqanclıq da doğururdu. Bu paxıllığın kökündə isə Heydər Əliyev şəxsiyyəti fonunda özünün miskinliyinin və cılızlığmın dərki dururdu. Zatialiləri Heydər Əliyev isə Azərbaycandan getsə də, bütün varlığı ilə xalqına bağlı idi və daim onun tərəqqisi barədə düşünürdü. Moskva dövrü həm də cənab Heydər Əliyevin böyük bir şəxsiyyət, dünya miqyaslı siyasətçi kimi təsdiqi dövrü oldu.

Sovet İttifaqı ucubucağı görünməyən nəhəng bir ölkə idi. Çoxsahəlilik və nəhənglik şəraitində belə dövləti idarə etmək də çətin idi. Birdənbirə İttifaq miqyasında fəaliyyət göstərən 19 nazirliyə rəhbərlik etmək, onların işini istiqamətləndinnək əsl hünər tələb edirdi. Zati-aliləri Heydər Əliyev çox qısa bir zaman kəsiyində nəinki həmin nazirliklərin işini öyrənib istiqamətləndirməyə başladı, hətta onların fəaliyyətində ciddi dönüş və irəliləyişə nail oldu. O dövrdə cənab Heydər Əliyevin rəhbərliyi altında işləmiş bir çox insanlar sonralar həmin günləri yad edərkən bu böyük şəxsiyyət barədə xatirələrini böyük heyrət və məftunluqla danışır, vurğunluqlarını gizlətmirdilər. Uzun müddət müvafiq strukturlara başçılıq etmiş nazirlər Heydər Əliyevi yalnız özlərindən böyük vezifə sahibi kimi yox, ilk əvvəl işin mahir bilicisi və qeyriadi şəxsiyyət tək qəbul etmişdilər. Heydər Əliyevin İttifaq miqyasında keçirdiyi selektor müşavirələri, həmin müşavirələrin gedişi zamanı açıqaşkar nəzərə çarpan dərin biliyi və işə bələdliyi indi də dillər əzbəridir. Hər dəfə SSRİ rəhbərliyində təbii dəyişmələr baş verəndə, Sov. İKP MKnm Baş katibi kreslosunda yeni insan oturanda onun qüdrət və şəxsiyyətinin əzəməti daha aydın və qabarıq görünürdü. Bu isə şəxsiyyətcə cılız olanların həsəd və qibtəsinə, hətta vahiməsinə səbəb olurdu. Bütün cəhət və xüsusiyyətlərinə görə zatialiləri Heydər Əliyevdən qatqat geridə qalan M.Qorbaçovun Baş katib seçilməsi gözügötürməzlik hissini gücləndirdi. Üstəlik, mərd xarakterli şəxsiyyətlə xəyanətkar xislətli adamıı yola getməsi mümkün olan hal deyildi. Hətta cənab Heydər Əliyev tutduğu vəzifədən istefa verdikdən sonra da onu fiziki cəhətdən məhv etmək planı gündəmdə qalırdı.

1990-cı ilin 20 Yanvarın  da Azərbaycan xalqına qarşı görünməmiş qəddarlıqla cinayət törədildi. Vəhşiləşmiş imperiya əsgərləri Bakıya yeridildi, dinc və əliyalın əhali tankların tırtılları altma salmdı. Bu, çökməkdə olan qırmızı imperiya rəhbərliyinin müstəqillik yoluna çıxmağa can atan Azərbaycana verdiyi "qulaqburması" idi. Ən pisi dinc əhaliyə qarşı görünmə

miş vəhşiliyin törədilməsi, üstəlik, "ekstremist" adı altında qanlı olayın pərdələnməsində idi. Azərbaycan informasiya blokadasına alındığından dünya ictimaiyyəti əsl həqiqətdən xəbərsiz qalmışdı. Bu məqamda Heydər Əliyev İttifaq əhəmiyyətli fərdi təqaüdçü kimi Moskvada təqiblər şəraitində yaşayırdı. Vəzifəcə sıravi olsa da, xalqını və vətənini sonsuz məhəbbətlə sevən böyük vətəndaş, dünya miqyaslı şəxsiyyət idi. Həyatmı güdən təhlükəyə baxmayaraq, Moskvadakı Azərbaycan nümayəndəliyinə gələrək SSRİ rəhbərliyinin qanlı əməllərini ifşa edən kəskin siyasi bəyanat verdi, xalqına arxa çıxaraq etiraz səsini ucaltdı. Bu hadisədən sonra Heydər Əliyevin Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda bir şəxsiyyət kimi mübarizəsi başladı. Doğrudur, çox keçmədən xalq ona güclü dəstək verdi, yenidən Naxçıvana qayıdaraq ikinci dəfə siyasi hakimiyyətin birinci pilləsinə qədəm qoydu. Ancaq müəyyən dövrdə təkbaşına, qladiator kimi döyüşməli oldu. Hətta bu halda da Azərbaycanın keçmiş manqurt rəhbərliyi ondan yarasa günəşdən qorxan tək qorxub çəkinirdi. Moskvadan geriyə, respublikaya qayıtdıqda vəzifə hərisliyini xalqın və dövlətin mənafeyindən yüksək tutanlar Heyder Əliyevə öz əli ilə tikib-qurduğu Bakıda yaşamağa imkan vermədilər. Dar gündə xalqına arxa və dayaq durmağa gəldiyini bildirən Heydər Əliyev vəziyyətin çox ağır və gərgin olduğunu, ölkəmizi və müstəqilliyimizi böyük təhlükələr gözlədiyini bildirdi. O zamankı Ali Sovetin 5 fevral və 7 mart 1991ci il tarixdə keçirilmiş iclasların da çıxış etdi, qarşıdakı fəlakətlər və onlardan qurtulmaq yollarını göstərdi. Kreslosunu itirməkdən qorxan respublika başçıları və vəzifəyə gəlmək üçün dəridənqabıqdan çıxan "demokratlar" bu ağıllı və müdrik məsləhətləri dinləmək belə istəmədilər. Zatialiləri Heydər Əliyev ağır blokada şəraitində çətin günlərini yaşayan Naxçıvana gedərək dar məqamda bu qəhrəman insanlara arxa durdu, muxtar respublikaya nəfəs verdi. Şəxsi nüfüzundan istifadə edərək Naxçıvanm Türkiyə və İranla əlaqələrini möhkəmləndirdi, bu qədim diyara erməni basqınlarının və işğalının qarşısmı aldı. Cənab Heydər Əliyev Naxçıvanda yaşayanda belə xalqın qayğı və problemlərini unutmurdu. Respublikanm hər yerindən yüzlərlə insan Naxçıvana üz tutur, cənab Heydər Əliyevdən məsləhət və kömək istəyirdi. Bu, Heydər Əliyev şəxsiyyətinə olan hörmət, ehtiram və inamdan irəli gəlirdi. Gedənlərin heç biri naümid geri dönmürdü, əksinə, Azərbaycan xalqınm bu böyük şəxsiyyətə ehtiyac və etibarı get-gedə artırdı. Ağıldankəm, qətiyyətsiz, səriştəsiz

və təcrübəsiz respublika başçıları ölkəni vətəndaş müharibəsi həddinə, məhvolma ərəfəsinə çatdırdıqda aciz iqtidar da geriyə qayıtması üçün Heydər Əliyevə xahiş-minnət etdi, dəfələrlə Naxçıvana təyyarə göndərdi.

Bununla da onun şəxsiyyəti, dövlətçilik məharəti, siyasi qüdrəti və zəkası qarşısında öz acizliklərini etiraf etmiş oldular. R.Mehdiyevin "Əsl vətəndaş, böyük şəxsiyyət və qüdrətli lider haqqında bəzi düşüncələr" əsərində Heydər Əliyev şəxsiyyətinin fenomenal cəhətləri barədə maraqlı faktlar əsasında dərin məhəbbətlə söhbət açılmışdır.

"1993-cü ilin iyununda Azərbaycan xalqı müstəqilliyə qovuşmuş dövlətin idarə olunmasını Heydər Əliyevə etibar etdikdə, bu dövlətin taleyi Tanrının ümidinə qalmışdı. Ölkədə hakimiyyətsizlik, qarmaqarışıqlıq və hərcmərclik baş alıb gedirdi: manatın məzənnəsi sürətlə aşağı düşür, sənaye və kənd təsərrüfatı istehsalının səviyyəsi günbəgün azalır, çörək və digər ən zəruri ərzaq məhsulları üçün alçaldıcı növbələr düzülür, bir sıra bölgələrdə separatçılıq əhvali-ruhiyyəsi güclənir, cinayətkar ünsürlər meydan sulayır, insanlar etnik zəmində təqiblərə məruz qalır, şəhər və rayonlarda qətlqarətlər törədilir, ziyahlar baş götürüb ölkədən qaçır, hakimiyyət iddiasında olan qruplaşmalar arasında silahlı toqquşmalar baş verir, Ermənistan silahlı birləşmələri ilə bəsit özünümüdafiə səviyyəsində müharibə aparılırdı. Xalq Cəbhəsi hökumətinin və ayrı-ayrı şəxslerin yaratdığı silahlı dəstələr arasında cəbhə xəttində adicə hərbi nizamintizam və tabeçilik yox idi.

Bütün bunların nəticəsi olaraq Azərbaycanın yaşayış məntəqələri və rayon mərkəzləri birbirinin ardınca düşmənə təhvil verilir, Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağı və ona bitişik rayonları işğal edirdilər və sair. Adama elə gəlir ki, bu ümumi fəlakətdən, hakimiyyəti zor gücünə ələ keçirən, lakin bu yükün bütün ağırlığmı və məsuliyyətini dərk etməyən adamların cinayətkarcasına məsuliyyətsizliyi nəticəsində ölkənin düşdüyü çox ağır vəziyyətdən çıxış yolu yoxdur.

Heydər Əliyev heyrətamiz iradə və məqsədyönlülüklə ölkəni bu şəksiz fəlakətdən xilas etməyə girişdi. O, belə bir sadə və eyni zamanda böyük həqiqəti rəhbər tuturdu: nə qedərki insanlar özlərinin həyatları və yaşamaq hüquqları uğrunda, müstəqillik və milli dövlətçilik uğrunda mübarizə aparmağa qadirdirlər, onlar üçün nə ictimai əminamanlığın və barışığın bərqərar olmasında, nə də yaranmış siyasi, sosial, iqtisadi böhrandan çıxış yollarının tapılmasında dəfedilməz maneələr yoxdur və ola da bilməz.

Azərbaycan vətəndaşları bu taleyüklü dövrdə də Heydər Əliyevin sadiq müttəfiqləri oldular, ilk növbədə, özlərinə hörməti bərpa etmək üçün bütün iradələrini və həyat enerjilərini səfərbər edə bildilər. Məhz Heydər Əliyevin qayıdışı sayəsində Azərbaycan xalqında ruh yüksəkliyi yarandı, xalq sanki ümidsiz olan bir vəziyyətdə perspektivləri gördü, onda öz gələcəyinə inam oyandı. Ölkə dərin ictimai, siyasi və iqtisadi böhranı aradan qaldıra bildi. Azərbaycan təcrid vəziyyətindən çıxdı və dünya birliyinin üzvü oldu, mötəbər beynəlxalq təşkilatlara qəbul edildi".

Azərbaycan xalqının və dövlətinin ən ağır və çətin dövrünün yığcam mənzərəsini yaradan bu parça da fəlsəfə elmləri doktoru Ramiz Mehdiyevin əsərindən götürülmüşdür. Bəli, xalqının çağırışma biganə qala bilməyən zatialiləri Heydər Əliyev geriyə döndü və Azərbaycanı bir dövlət kimi məhv olaraq dünya xəritəsindən silinməkdən, xalqı miskin və ümidsiz vəziyyətdən, iqtisadiyyatı dərin böhrandan, ölkəni informasiya blokadasından, anarxiya və özbaşınalıq burulğanmdan, yeni ərazilərin işğalından xilas etdi. Bu, adi qurtuluş, sadəcə xilasetmə deyildi. Bu, Azərbaycanın müstəqilliyinin qorunması və əbədiliyə çevrilməsi, dönüş və yüksəlişin təməlinin qoyulması demək idi. Ölkədəki bütün siyasilərin başlarını itirdikləri bir vaxtda vəziyyəti düzəldərək müstəqil dövlətçiliyi qurmaq asan iş deyildi. Böyük dövlətçilik və quruculuq təcrübəsinə, siyasi iradə və qətiyyətə malik olan zatialiləri Heydər Əliyev bu missiyanı şərəflə yerinə yetirdi. Vətəndaş müharibəsinin alovları söndürüldü, qeyriqanuni silahlı dəstələr zərərsizləşdirildi, müharibədə atəşkəsə nail olundu, iki dəfə dövlət çevrilişi cəhdinin qarşısı alındı, siyasi, iqtisadi və hüquqi islahatlar aparıldı. Əvvəlki iqtidarların , xüsusilə də AXC-Müsavat cütlüyünün qısa hakimiyyəti dövründə təkcə ölkə daxilində bütün sahələri əhatə edən deformasiya prosesi getməmiş, eyni zamanda Azərbaycanın xarici siyasəti də iflasa uğramış, beynəlxalq aləmdə təklənmək təhlükəsi ilə üzbəüz qalmışdı.

Eyni vaxtda bir neçə istiqamətdə fəaliyyət göstərən cənab Heydər Əliyev ölkəmizin tezliklə dünya birliyinin bərabərhüquqlu üzvləri sırasına çıxması üçün xeyli iş gördü. Yeni neft strategiyasınm hazırlanması və uğurla həyata keçirilməsi, "Əsrin müqaviləsi" adlanan ilkin və daha sonra iyirmidən çox neft müqaviləsinin imzalanması, dünyanın aparıcı dövlətlərinin nəhəng neft şirkətləri ilə sazişlərin bağlanması, bütövlükdə Azərbaycanın dünya dövlətləri ilə iqtisadi əməkdaşlığının yaranması və

inkişafı digər sahələrdə də münasibətlərin yüksəlişinə səbəb oldu. TürkiyəAzərbaycan əlaqələrinin möhkəmlənməsinə xüsusi önəm verən möhtərəm Heydər Əliyev iki qardaş ölkə arasındakı dostluq və tərəfdaşlıq münasibətlərinin yeni, daha yüksək səviyyəyə qaldırılmasına və keyfiyyət dəyişikliyinə nail oldu. Səriştəsiz AXC-Müsavat iqtidarı səlahiyyətlilərinin boşboğazlığı xatırladan bəyanatları Azərbaycanın yaxın qonşuları ilə normal münasibətlərini korlamışdı. Rusiya və İranla dostluq əlaqələrinin nizamlanmasında xeyli əmek sərf edildi. Bu gün Azərbaycan dünya dövlətləri ilə beynəlxalq prinsip və normalara əsaslanan, qarşılıqh hörnıət və marağı təmin edən balanslaşdırılmış siyasət yürüdür. Müdrikliklə hazırlanaraq uzaqgörənliklə həyata keçirilən yeni neft strategiyası Azərbaycan iqtisadiyyatınm dünyaya inteqrasiyasını qatqat sürətləndirmişdir. Xəzər neftini yenidən dünya üçün kəşf edən zatialiləri Heydər Əliyev son illərdə gördüyü beynəlxalq miqyaslı işlərə görə haqlı olaraq türk dünyasının ümummilli lideri, Qafqazın öndər siyasi xadimi sayılır.

İndi Azərbaycan və Qafqaz geosiyasi mövqeyinə görə dünyanın aparıcı dövlətlərinin maraq dairəsinə daxil olmuşdur. Dünyanın bu bölgəsində sülh və əməkdaşlığın dayanıqlı olması çox vacibdir. Belə bir missiyanın uğurla həyata keçirilməsində isə Heydər Əliyevin müstəsna rolu var. Hazırda Qafqazla bağlı elə bir məsələ yoxdur ki, onun müzakirəsində Heydər Əliyev yaxından iştirak etməsin, qərarın qəbulunda rəyi həlledici amil kimi nəzərə alınmasın. R.Mehdiyevin esərində Azərbaycan rəhbərinin dünyanın lider siyasətçiləri sırasına çıxması barədə məhəbbətlə söz açılır: "Heydər Əliyev iki əsrin ayrıcmda öz ölkəsinin dövlət adlı gəmisini qlobal sarsmtılar dövrünün fırtmaların dan sağsalamat və uğurla keçirərək ölkenin milli dəyərlərinin, insanların mənəvi sağlamlığının, özlərinə inamının qorunub saxlanmasına müvəffəq olmuşdur. Siyasətin ön səhnəsində olduğu otuz dörd il ərzində o, XX və XXI əsrlərin görkəmli siyasətçilərindən biri kimi, müasir dövrün böyük siyasi lideri kimi bütün dünyada tanınmışdır. Görkəmli siyasi xadim, ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə sabiq köməkçisi Zbiqnev Bjezinski dövlətimizin başçısı haqqında bu fikirdədir: "Heydər Əliyev siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istədiyini tez çatdıran şəxsiyyət bir sözlə, şəksiz liderdir".

"Əsl vətəndaş, böyük şəxsiyyət və qüdrətli lider haqqında bəzi düşüncələr" əsəri elmi dərinliyi, faktoloji zənginliyi və inandırıcılıq gücü ilə şü-

urlara təsir edən, zatialiləri Heydər Əliyevin Azərbaycan dövləti və xalqı üçün göstərdiyi əvəzsiz xidmətlərin məna və mahiyyətini açan, onun fenomenal cəhət və xüsusiyyətləri barədə oxuculara zəngin məlumatlar verən kamil bir əsər kimi əliyevşünaslığa dəyərli töhfədir. Bu əsəri oxuyan hər bir ölkə vətəndaşında belə bir möhkəm inam da yaranır ki, nə qədər Heydər Əliyev var, Azərbaycan inkişaf və tərəqqi edəcəkdir. Nə qədər Azərbaycan var, Heyder Əliyev də olacaq, onun ideya və əməlləri yaşayacaq, bizi daim doğru yolla irəliyə aparacaqdır!

***Bəxtiyar SADIQOV,***
***"Azərbaycan"***

***13 iyul, 2003***

# HEYDƏR ƏLİYEVİN HƏYAT YOLU XALQIMIZIN MİLLİ-TARİXİ YADDAŞININ BÖYÜK BİR MƏRHƏLƏSİDİR

Həyat böyük sınaq meydanıdır. Bu fikrin doğruluğu heç kimdə şübhə yaratmır: istər ayrı-ayrı fərdlərin həyatı, ictimai-siyasi fəaliyyəti, istərsə də millətlərin, xalqların keçdiyi yol sınaqlardan ibarətdir. Müəyyən zaman kəsiyində tarixi inkişafın diktə etdiyi ictimai-siyasi şərait hər bir insanın, xalqın, dövlətin nəyə qadir olduğunu ortaya çıxarır, hərənin öz qiymətini verir.

Əsl vətəndaş, tarixi şəxsiyyət və ümummilli lider. Bu üç fenomen keyfiyyətin daşıyıcısı, qüdrətli və böyük insan möhtərəm Heydər Əliyevin Azərbaycan xalqının tarixi taleyində oynadığı rol misilsizdir. Yalnız bir yolla bütöv və tam həqiqətin yolu ilə gedən və ağlasığmaz uğurlar qazanan dahi şəxsiyyətin son 34 illik dövlətçilik fəaliyyəti, əslində, tarixi faktların etirafıdır. Çünki reallıq və həqiqət böyüklük və qüvvət əlamətidir. Öz təbiəti etibarilə cəmiyyəti həmişə irəli aparan, qabaqcıl və mütərəqqi qüvvələrə arxa, dayaq olan, sabahkı gün, insanların xoş gələcəyi, gözəl arzular və xəyallar haqqında düşünən, onları reallığa çevirən bir şəxsiyyətin həyat amalı ancaq həqiqət konsepsiyasına bağlıdır. Zaman ötdükcə, illər keçdikcə bir çox meyarlar, prinsiplər dəyişir, ancaq obyektiv tarixi meyillərın və həqiqətin meyarı isə dəyişməz qalır.

Son vaxtlar Azərbaycan dövlətinin yaxın tarixinin elmi-nəzəri və fəlsəfi metodologiya işığmda öyrənilməsi bir çox baxımlardan xüsusi əhəmiyyet və aktuallıq kesb edir. İndi həmin istiqamətdə axtarış və tədqiqatlar daha da artmışdır. Bunım ən dəyərli cehətlərindən biri belə araşdırmaların Azərbaycan dövlətçiliyinin inkişaf ideologiyasının sürətlə formalaşmasına səbəb olmasıdır. Fəlsəfə elmləri doktoru Ramiz Mehdiyevin "Əsl vətəndaş, böyük şəxsiyyət və qüdrətli lider haqqında bəzi düşüncələr" adlı əsəri məhz bu baxımdan diqqəti xüsusilə cəlb edir. Böyük rəhbərin həyat və fəaliyyətinə həsr edilmiş və eyni zamanda, Azərbaycanın son 34

illik tarixinin fəlsəfi aspektdən dəmir məntiqlə, çoxsaylı faktlarla araşdırılıb oxucuya təqdim olunması həm çətin, həm də məsuliyyətli bir işdir. Müəllif gərgin, ziddiyyətli və təzadlı məqamlarla dolu həmin illəri mərhələlərlə, xüsusi ardıcıllıqla elmi təhlil süzgəcindən keçirir, XX əsrin siyasi mübarizələri, müasir günümüz, görülən nəhəng işlər, aparılan axtarışlar və böyük şəxsiyyətlərin nəyə qadir olduqları haqqında fikirlərə yeni münasibət, aydınlıq və şəffaflıq gətirir. Əsərə uğur qazandıran və onun ictimai-siyasi əhəmiyyətini şərtləndirən başlıca amil məhz fenomen şəxsiyyətin dövlətçilik fəaliyyətinin miqyaslı şəkildə təqdimatıdır. "Xalqın gücü, əzəməti, qüdrəti, yenilməzliyi onun başında duran rəhbərlərdən, müdrik şəxsiyyətlərdən və onların öz xalqına bağlılığından asılıdır" fikri əsərin əsas qayəsini təşkil edir. Həqiqət odur ki, 1969-cu ildən bəri Azərbaycan tarixinin bütün dövrü Heydər Əliyevin adı ilə bağlıdır. Bu böyük şəxsiyyət Azərbaycanın bugünkü və sabahkı dövrünün möhkəm bünövrəsini yarada bilmişdir. "Azərbaycanın gələcək taleyi baxımından bu tarixi dövrün başlıca məzmunu isə milli dirçəliş fəlsəfəsinin gerçəkləşdirilməsindən ibarət olmuşdur. Onun fəlsəfəsi sırf ehkamlaşdırılmış əsərlərdə təsvir edilən hər hansı telim olmaqdan və ya buna çevrilməkdən uzaqdır. Əslində, bu fəlsəfə bizim hamımızın gözləri qarşısında yaradılmışdır və onun mahiyyəti Heydər Əliyevin əksər halda bədahətən söylədiyi bir çox nitq və çıxışların da son dərəcə aydın ifadə olunmuşdur". Heydər Əliyevə xalqın inamı, etibarı həqiqət üstündə yaranmışdır. Böyük şəxsiyyətin 34 illik rəhbərlik dövrünə nəzər salanda "insan nəyə qadirdir" sualının nikbin cavabları aydın şəkildə görünür: inkişafın gözlənilməz və vüsətli axarına, mədəni-intellektual dirçəlişə, xalqda milli mənlik hissinin formalaşdırılmasına, tərəqqiyə, inkişafa... Əsəri səciyyələndirən ən mühüm xüsusiyyət ümummilli liderin timsalında xalqın tarixi və taleyi ilə bağlı böyük problemlərin qaldırılması və onların fəal, ehtiraslı düşüncə hədəfinə çevrilməsidir. Bu böyük və iri həcmli yazını oxuyarkən bir daha dərk edirsən ki, tarix, şəxsiyyət və xalq bütün dövrlərdə bir olmuş, qırılmaz qaynaq təşkil etmişdir.

1969cu il iyulun 14də cənab Heydər Əliyev Azərbaycan rəhbərliyinə irəli çəkildi. Elə həmin dövrdən də Azərbaycanın tərəqqi və intibahı-

na geniş yol açıldı. Heydər Əliyev həm birinci, həm də ikinci dəfə Azərbaycanın ən ağır vaxtlarında "ictimai münasibətlərin kəskin şəkildə gərginləşdiyi, dövlət idarəçiliyinin fundamental əsaslarının dağıldığı, cəmiyyətin zehnində dolaşıqlıq və mənəvi dayaqların da hərcmərclik yarandığı" dövrlərdə rəhbərliyə gəlmiş və respublikanı nəinki düşdüyü vəziyyətdən çıxara bilmiş, habelə qısa vaxtda onun sürətli inkişafına nail olmuşdur. Bu, təkcə ağlın, zəkanın, təşkilatçılıq qabiliyyətinin deyil, həm də öz vətəninə hədsiz vurğunluq, ona təmənnasız xidmət göstərmək sayəsində mümkün olmuşdur. Müəllif böyük şəxsiyyətin xarakterini ifadə edən cəhətləri belə açıqlayır: "Onun şəxsiyyətinin və fəaliyyətinin mahiyyətinin dərk olunması on illərlə Azərbaycan ətrafında cərəyan etmiş hadisələrin təbiətinə, son dərəcə mürəkkəb ümummilli problemlərin həlli yollarına işıq salır. Dövlətçiliyimizin tarixində o, iki dəfə siyasətdə və dövlət idarəçiliyində səviyyəsizliyə, səriştəsizliyə və bəsitliyə qətiyyətlə son qoya bilmişdir. O, işdə sübuta yetirmişdir ki, dünyam təkcə böyük dövlətlər idarə etmir, kiçik xalqlar da var və onların rəyi ilə hesablaşmaq lazımdır. O, azərbaycanlıların necə güclü iradəyə və ruha malik olduqlarını, onun xalqının necə böyük enerji potensialına və intellektual potensiala sahib olduğunu öz timsalında bütün dünyaya nümayiş etdirmişdir". Ona görə də 1970-1980-ci illərdə Heydər Əliyevin apardığı irimiqyaslı yenidənqurma işləri postsovet məkanının digər respublikaları tərəfindən diqqətlə izlənir, atdığı hər bir addım geniş müzakirələrə səbəb olurdu. Həmin dövrdə azərbaycanlılar üçün çətinlik törədən amillərdən biri də Sovet Azerbaycanının partiya və inzibati orqanların da kök salmış erməni mafiyası idi. O zaman Bakıda yaşayan ermənilər siyasi-iqtisadi, hərbi və hüquq-mühafizə orqanlarında, bir sözlə, hakimiyyətin əksər pillələrində təmsil olunmuş və bütün qüvvələrini milli kadrların yerləşdirilməsinin qarşısını almağa yönəltmişdilər. Rəhbərliyə gəlməmişdən əvvəl DTK orqanların da durmadan yüksələn və yüksəldikcə də Azərbaycan milli elitası ilə güclü əlaqələr yaradan, xalqını, millətini sevən böyük vətənpərvərin qarşısıalınmaz qətiyyəti onları qorxuya salırdı. Heydər Əliyev uzaqgörən və məqsədli sıyasi xətt yeriderək birinci növbədə milli kadrların yüksəlişinə nail oldu və rəhbər vəzifələrdən erməniləri uzaqlaşdırdı. Böyük və dönməz iradəyə ma-

lik olan möhtərəm Heydər Əliyev hələ o zaman çox gözəl anlayırdı ki, ən qorxulu qüvvə onu hədəfə götürmüş erməni mafiyasıdır. Moskvadan himayə və məsləhət alan bu mənfur millətin nümayəndələri respublika rəhbərinə hər an göz qoyur, onım hər bir hərəkətini özləri üçün müəyyənləşdirməyə çalışırdılar. Ermənilərin fitnələri isə ustalıqla dəf edilirdi.

1969-cu ilin avqust plenumu tarixə Heydər Əliyev siyasətinin rəsmi dövlət siyasəti səviyyəsində ortaya çıxması demək idi. Bu siyasətin başlıca məramı güclü dövlət, güclü iqtisadiyyatla yanaşı, sağlam milli kadrlar yetişdirmək idi. Ona görə də ölkə rəhbəri milli təhsilin səviyyəsini və keyfiyyətini yüksəltmək üçün fəal təhsil və kadr konsepsiyasını irəli sürdü. Ali məktəblərə qəbul sahəsində neqativ hallara qarşı sərt mübarizə başlandı. Təhsildə islahatlar dönüş xarakteri aldı. Yeni ali məktəblər və onların fılialları yaradıldı. Keçmiş SSRİ-nin dünya səviyyəli təhsil ocaqlarına tələbələrin göndərilməsi böyük miqyas aldı. Əsərdə həmin dövrün təhlilini verən bir sıra siyasi məqamlar, milli kadr bazasının yaradılması üçün uzaqgörən məqsədli niyyətlər açıq şəkildə göstərilmişdir: "Heydər Əliyev Azərbaycanı dirçəltməklə və yeni Azərbaycan yaratmaqla yanaşı, həm də onun gələcəyini düşünürdü. O, gənclərə çox böyük diqqət yetirirdi. Kadr korpusunun istedadlı gənclər hesabına təzələnməsi əvvəllər görünməmiş sürətlə gedirdi. Gənclər respublikanın elmi-texniki və mədəni potensialının yüksəldilməsindən ötrü son dərəcə gərəkli ixtisaslara yiyələnmək üçün Sovet İttifaqının qabaqcıl ali məktəblərinə göndərilirdi. Azərbaycanın elmi və kadr potensialı möhkəmlənir, xalqımızın milli-mənəvi, əxlaqi dəyərlərinin təbliği üçün imkanlar genişlənirdi". Bütün bunlar onu göstərir ki, tarixin gedişinə böyük təsir edən Heydər Əliyev iradəsi bütün məqamlarda səmimidir və xalqa xidmət əxlaqı ilə aşılanmışdır. Faktiki olaraq qısa müddətdə Azərbaycanın yeni tipli milli kadr bazası yaradıldı, bir çox elmi məktəblərin əsası qoyuldu. 1969cu il avqust plenumunda iki əsas prinsip də irəli sürüldü: milliləşmə konsepsiyasına uyğunluq və yüksək professionalizm. Ötən əsrin 70ci illərinin ortaların da ağıllı kadr siyasəti nəticəsində bu mühüm vəzifələr yerinə yetirildi. Hər bir eraıəni kadrınm vəzifədən uzaqlaşdırılması o zaman ciddi qalmaqal doğursa da, görülən tədbirlər, aparılan əməli işlər ən yüksək səviyyədə

respublika rəhbəri Heyder Əliyev tərəfindən birmənalı şəkildə himayə olunurdu. Moskvaya qədər hamı bilirdi ki, Azərbaycanın birinci katibi aşağıların apardığı kadr siyasətini və dəyişiklikləri daim müdafiə edir. Çünki həmin kadr siyasəti elə rəhbərin özünün yeritdiyi siyasət idi.

Əsərdə Heydər Əliyevin ana dili siyasətinə də xüsusi diqqət yetirilir. Müəllif yazır: "Sovet dövrünün ehkamları respublika rəhbərinden bütün rəsmi tədbirlərdə yalnız rus dilində danışmağı tələb edirdi. Heydər Əliyev bu qaydanı formal olaraq pozmurdu, həqiqətən də bütün qurultaylarda, plenumlarda məhz rus dilində çıxış edirdi. Lakin rəsmiyyətçilikdən kənara çıxmaq üçün azacıq imkan düşən kimi o, Azərbaycan dilinə müraciət edirdi. Özü də, demək olar, heç vaxt əvvəlcədən hazırlanmış mətnlərdən istifadə etmir, sözlərini sinədən deyirdi". Bu fikrin aydınlığı onu göstərir ki, böyük rəhbər hələ ötən əsrdə Azərbaycana birinci katib seçiləndən bəri yeritdiyi dil siyasəti bir məqsədə xidmət etmişdir: ana dilini inkişaf etdimıək, onun dövlət statusunu reallaşdırmaq, dünya dilləri içərisində nüfuzunu artırmaq. Möhtərəm Heydər Əliyev Azərbaycan dilini yalnız adi ünsiyyət vasitəsi kimi deyil, qədim tarixi, zəngin mədəniyyəti, müasir dünyada ictimai mövqeyi ilə tanman bir xalqın milli sərvəti olduğunu dərindən dərk edirdi. O zamankı Azərbaycan ziyalılarının çoxu, təəssüf ki, bunu başa düşmür, övladlarını rusdilli məktəblərə verməklə, bir növ, milli dilə biganəlik göstərirdilər. 1970-ci ildə Azərbaycan Dövlət Universitetinin 50 illiyi münasibətilə keçirilən mərasimdə möhtərəm Heydər Əliyev ana dilində çıxış etdi. Bunda məqsəd Azərbaycan dilinin yüksək elmipedaqoji səviyyədə təbliği idi. Ölkə başçısı 1978-ci ildə Azərbaycan Konstitusiyasında dövlət dilinin Azərbaycan dili olması haqqında müddəanm müəllifi oldu. 1995-ci ildə Konstitusiya Komissiyasının sədri möhtərem Heydər Əliyev layihədə dövlət dilinin adı ilə bağlı geniş müzakirələr keçirdi. Bu gün Prezidentimiz ana dili problemlərini diqqət mərkəzində saxlamaqla kifayətlənmir, cəmiyyətin bütün imkanlarını bu işə səfərbər edir. 2001-ci il iyunun 18-də "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi tədbirləri haqqında" imzaladığı fərmanın uzunmüddətli proqram səciyyəsi daşıyan qərar hissəsində dünyanın heç bir yerində olmayan qurumuna zərbaycan Prezidenti yanında Dövlət Dil Komissiya

sının yaradılması göstərilmişdir. 2003-cü il yanvarın 2də isə ölkə başçısı Heydər Əliyevin fərmanı ilə "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minmişdir.

Əsərdə 1970-1980-ci illərdəki iqtisadi dirçəlişlə bağlı Heydər Əliyevin strateji proqramının mahiyyəti açıqlanır və bu barədə belə bir fikir xüsusi vurğulanır: "...Milli dirçəliş ideyalarının, azərbaycançılıq ideologiyasının əməli surətdə həyata keçirilməsini yalnız təsərrüfat və sənaye sahələrində qazanılmış uğurlar fonunda, onların əsasında inkişaf etdirmək olardı. Heydər Əliyevin strateji proqramında diqqəti çəkən cəhət məhz odur ki, burada mənəvi, bədii və estetik təkamül iqtisadiyyatda parlaq nailiyyətlərlə və insanların rifahının keyfiyyətcə yaxşılaşması ilə birləşərek vahid məcrada reallaşdırılmışdır". Hələ o zaman Heydər Əliyev belə hesab edirdi ki, Azərbaycan iqtisadiyyatını yüksək səviyyəyə qaldırmadan müstəqilliyə keçmək və müstəqil ölkə kimi yaşamaq qeyri-mümkündür. Buna nail olmaq üçün respublika rəhbəri bütün vasitələrlə Azərbaycan iqtisadiyyatını inkişaf etdirməyə, Sovetlər birliyinin mərkəzi dövlət və təsərrüfat orqanların da respublika üçün çox böyük vəsaitlər ayrılmasına çalışırdı. Bu işdə də ona L.Brejnevin ətrafı ilə yaxın münasibətləri, prinsipial və ardıcıl mövqeyi, irəli sürdüyü konsepsiyaları, inandırmaq bacarığı kömək edirdi. Qısa tarixi zamanda Heydər Əliyev dünyanın ən iri müəssisələrinin Bakıda tikintisinə nail oldu. Kənd təsərrüfatında, yerli emal sənayesində uğurlar qazanıldı. Bunlar praktik olaraq Azərbaycanın müstəqilliyə keçməsini təmin edəcək milli iqtisadi bazanın yaradılması demək idi. 1982-ci ilin dekabrında Azərbaycanın böyük oğlu daha yüksək vəzifəyə SSRİ Nazirlər Soveti Sədrinin müavini vəzifəsinə təyin olundu, Siyasi Büroya üzv seçildi. Heydər Əliyev beş il ərzində Azərbaycanda gedən bütün ictimai-siyasi və mədəni proseslərə nəzarət etdi, azərbaycanlıların daha yüksək ixtisaslara yiyələnməsinə, yeni elm və təhsil mərkəzlərinin açılmasına nail oldu. O, qısa müddətdə siyasi lider kimi təkcə sovetlər məkanında deyil, bütün dünyada tanındı. Çox böyük nüfuz və şöhrət qazandı. "Əsl vətəndaş, böyük şəxsiyyət və qüdrətli lider haqqında bəzi düşüncələr" əsərində Moskvanın 1987-ci ildə Azərbaycana qarşı yönəldilmiş riyakar siyasəti də geniş əksini tapmışdır. Burada böyük şəxsiyyətin

dövrün təfəkkür ətalətinə, yeniliyə qarşı həssaslığın zəifliyinə, saxtalıq, türkmüsəlman xalqlarına qarşı Qorbaçovun antipatik mənfi pafosuna münasibəti qabarıq şəkildə özünü büruzə verir. Təbii ki, o zaman SSRİ məkanında rəhbər vəzifədə çalışan Heydər Əliyev özünə və xalqına qarşı belə təzadlı gerçəklik qarşısında passiv seyrçi, laqeyd gözləmə mövqeyində dura bilməzdi. Heydər Əliyev həmin hadisələrlə bağlı Azərbaycan Dövlət İqtisad Universitetinin 70 illik yubiley mərasimindəki çıxışında deyir: "Mən 1987-ci ildə Moskvada Siyasi Bürodan və hökumət başçılığından uzaqlaşdırıldım. Bunun da səbəbi o idi ki, həmin vaxt Qorbaçovun və onım tərəfdarlarının Qarabağ məsələsinin ermənilərin xeyrinə həll olunmasının qarşısında böyük bir maneə kimi durmuşdum. Mənim Siyasi Büroda olmağım ermənilərdə böyük dəhşət yaratmışdı. Çünki rus imperatorluğunun və Sovet imperiyasının tarixində heç vaxt müsəlman-türk, azərbaycanlı Siyasi Büroda olmamışdı. Tale məni o yüksək vəzifəyə apardı və mən orada öz xalqının, təkcə Azərbaycan xalqının deyil, müsəlman dövlətlərinin də mənafeyini müdafiə etməyə çalışırdım".

Həmin dövrdə Heydər Əliyevə münasibətdə Qorbaçovun da öz məkrli məqsədləri var idi. Əvvəla, o, böyük şəxsiyyəti özünə qarşı bir nömrəli rəqib hesab edirdi. Ona görə də Qarabağ avantürasını işə salanda Qorbaçov birinci Heydər Əliyevdən başladı, sonra isə Azərbaycanı hədəfə aldı. Heydər Əliyev vəzifədən kənarlaşdırılandan düz 25 gün sonra Qarabağ problemi meydana atıldı. Həmin dövrdə respublikanın o zamankı rəhbərləri də Heydər Əliyevə münasibətdə mənfi mövqedən çıxış etməyə başladılar. O ağır, ziddiyyətli və mürəkkəb vaxtda bu böyük şəxsiyyət üç qrupa qarşı  Qorbaçov və onun tərəfdarları, erməni mafiyası və anonim məktublarla xalqını gözdən salan moskvapərəst, riyakar azərbaycanlıların hərəkətlərinə qarşı mübarizə aparırdı. Bu insanlar xalqın milli yaddaşının yarıdıcısı olmalıykən həmin yaddaşa da xəyanət edirdilər. Lakin bu dəfə də tarix siyasətçilərdən müdrik çıxdı. Heydər Əliyev öz həyatını, ömrünü yenə də xalqa xidmətə həsr edir. Cılız siyasətçilər isə xalqın yaddaşından birdəfəlik silindi. Əsərdə Azərbaycanın tarixində tənəzzül illəri kimi yadda qalmış 1990-1993-cü illərin xarakterik hadisələri də siyasi baxımdan geniş təhlil edilmişdir. Hər bir cəmiyyətdə olduğu kimi, bu illərdə də biz

də mənəvi axtarışlar milli taleyə və tərəqqiyə yol göstərməkdən çox insanların tarixi dəyişikliklərə hazırlığı xarakteri daşıyırdı. Əsl yolları isə yenə də tarix və onu yaradan böyük şəxsiyyətlər müəyyənləşdirirdi. 1993-cü ilin ortaların da Azərbaycandakı böhranın səbəblərindən biri də cəmiyyətdəki mənəvi və ideoloji pərakəndəlik idi, milli şüur faktiki olaraq parçalanmış vəziyyətdəydi. Vətəndaş müharibəsi, qardaş qanı axıdılması real tarixi fakta çevrilmişdi. Ölkədə başlanan siyasi proseslər nəticəsində digər sahələrlə yanaşı, habelə elmin, təhsilin problemlərinə də dövlət səviyyəsində laqeydlik və biganəlik baş alıb gedirdi. Belə neqativ proseslər xalqın əsas sərvəti olan kadr potensialına da mənfi təsir göstərirdi, ziyalılar real tənəzzül qarşısında idilər. 1988-ci ildə 14 minə yaxın beyin axını Azərbaycandan digər ölkələrə üz tutdu. Ölkədəki qeyri-sabitlik həqiqi elmin və təhsilin arxa plana keçməsini gücləndirdi. Bir sıra siyasət adamları güman edirdilər ki, tarixi hadisələri, xalqın taleyini qərarlar və qətnamələr əsasında qurmaq olar. Bu, səhv bir təsəvvür idi. Təcrübə göstərir ki, mücərrəd ideologiyalar millətin birliyini pozur, onun taleyinin istiqamətlərinin həyatda yox, kitab və nəzəriyyələrdə, subyektiv tendensiyalarda axtarılmasına gətirib çıxanr. 1993-cü il hakimiyyət dəyişikliyindən sonra həqiqi Azərbaycan siyasətinin, Azərbaycan milli ideyasının həyata keçirilməsi dövrü başlandı. Bu dövrün də nəzəriyyəçisi və dahi təməlçisi xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan möhtərəm Heydər Əliyev idi. Bu böyük şəxsiyyət həqiqətən yeni Azərbaycanın əsl memarı və mənəvi atası oldu.

Ölkə rəhbəri bütün regionlardan olan sağlam təfəkkürlü insanları öz ətrafına topladı, onları dövlət həyatının ən mühüm nöqtələrində yerləşdirdi. Bu, dağılmaqda olan Azərbaycan dövlətçiliyinin bərpası üçün ilk addım idi. Bütün sahələrdə olduğu kimi, elm və təhsil sahəsində də tənəzzülün, təhlükəli, dağıdıcı meyillərin qarşısı alındı. Milli təhsil sisteminin bərpası və yeni şəraitin tələblərinə uyğun olaraq inkişaf etdirilməsi üçün əlverişli siyasi-iqtisadi mühit yarandı.

O dövrdə tarix və həyat sanki Azərbaycan elmini də sınağa çəkirdi. Amma bu sınaqdan da elmi ictimaiyyəti Heydər Əliyev şəxsiyyəti xilas etdi. Böyük siyasi xadimin hakimiyyətə gəlişi akademik elmin narahatlıq

larına, tərəddüdlerinə son qoydu. Azərbaycanın elmi potensialının tamam dağılmasının qarşısı alındı. Elmlər Akademiyasının nüfuzunun bərpası üçün konkret əməli tədbirlər görüldü. Möhtərəm Heydər Əliyev tərəfindən belə bir konsepsiya, strateji xətt hazırlanıb həyata keçirilməyə başlandı ki, dövlətin, dövlətçiliyin təməl prinsipləri içərisində milli təhsil və bəşəri elm müstəsna yer tutmalıdır. Təhsilə, elmə belə bir münasibət Heydər Əliyev siyasətinin aparıcı istiqaməti, onun daxili ziyalılığının, maarifpərvərliyinin mühüm təzahürüdür.

Elmimizin və təhsilimizin hamisi Azərbaycanın sosializm dövründən qalmış iqtisadi və mədəni-mənəvi sərvətlərinin dağılması proseslərini dayandırdı və yeni quruculuq işləri varislik prinsipi əsasında, əvvəlki mərhələlərdə xalqımızın əldə etdiyi nailiyyətlərin davamı kimi həyata keçirilməyə başlandı. Tezliklə akademiyanın statusu və taleyi ilə bağlı açıq və pərdəarxası diskussiyalar birmənalı şəkildə həll edildi. Elm məbədinin nüfuzu yüksəldi. Fundamental tədqiqatların əhəmiyyəti və onların inkişafının təminatı sahəsində bir çox əməli işlər görüldü. 2001ci ilin mayında Prezidentin fərmanı ilə AMEA-nın dövlət statusu möhkəmləndirildi. Bununla da akademik elmin ölkənin inkişafının əsas təminatçısı olduğu bir daha təsdiqləndi. 2001ci ilin iyun ayında MEA-nın həqiqi və müxbir üzvlərinin seçkiləri keçirildi. Ölkə başçısının fərmanları ilə elm adamlarının əməkhaqları artırıldı, Naxçıvan bölməsi yaradıldı. Hazırda beyin axınına əks proseslər nəticəsində 6 minə yaxın yüksək ixtisaslı mütəxəssis xaricdən öz doğma vətəninə qayıtmış, elmin müxtəlif sahələri üzrə uğurlu tədqiqat işlərinə başlamışdır. Magistraturaya, aspiranturaya, dissertanturaya gələnlərin sayı çoxalmışdır. Tariximizin son 34 illik milli intibahı mahiyyət etibarilə xalqın təhsillənmə səviyyəsinin yüksəlişi, fundamental elmin yaranması, milli mədəniyyətin tərəqqisi ilə sıx bağlı olmuşdur. Təhsil sahəsində islahat proqramının həyata keçirilməsi, "Azərbaycan Respublikasının təhsil sisteminin təkmilləşdirilməsi haqqında" fərmanın imzalanması, bir sıra universitetlərə muxtariyyət hüququnun verilməsi, ölkədə müəllim hazırlığının keyfiyyətinin yüksəldilməsi milli təhsilimizin gələcək inkişafına yönəldilmiş əməli tədbirlərdir.

Fəlsəfə elmləri doktoru Ramiz Mehdiyevin "Əsl vətəndaş, böyük şəxsiyyət və qüdrətli lider haqqında bəzi düşüncələr" əsəri elmi dərinliyi, inandırıcılıq gücü, siyasi proseslərin geniş təhlili baxımından müstəsna əhəmiyyət kəsb edir. Böyük şəxsiyyət haqqında düşüncələr Azərbaycan Prezidenti cənab Heydər Əliyevin misilsiz xidmətlərinin məna və mahiyyətini göstərən, onun fenomenal xüsusiyyətləri barədə oxucuya geniş material verən kamil bir əsərdir. Məqalənin sanbalını artıran əsas cəhət isə Prezidentin liderlik üslubunun geniş və hərtərəfli təhlili və onun ümummilli dəyər kimi əsaslandırılmasıdır.

Bu gün Heydər Əliyev siyasətinin alternativi yoxdur. Çünki bu siyasət həm xalqın özünün, həm də onun mənafelərinə xidmət edən milli bir dövlətin siyasətidir. Ən başlıcası odur ki, xalqımız bu siyasətə və onun dönməz xarakter daşıdığına inanır. Belə siyasət Azərbaycanın bugününə və sabahına ünvanlanmışdır.

**İradə ƏLİYEVA,**
**"Azərbaycan"**

*24 iyul, 2003*

# XALQI İLƏ YÜKSƏLƏN, ZAMANIN FÖVQÜNDƏ DAYANAN İNSAN

Həyat o vaxt maraqlı olur ki, insan bütün qüvvəsini qarşısına qoyduğu məqsədin reallaşmasına yönəldir. İnsan o vaxt zirvəyə qalxır ki, xalqı yolunda qarşısına qoyduğu məqsədə çatır. Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyev belə mənalı həyat yaşayan, onun zirvəsinə qalxan nadir insanlardandır.

Heydər Əliyev həmişə bütün səyini qarşısına qoyduğu məqsədin həyata keçməsinə sərf edib, buna görə də hər istəyinə yetib. Bu qeyri-adi qüdrət sahibinin ali məqsədi isə ömrü boyu xalqına sədaqətlə xidmət etmək, xalqının imzasını dünya xalqlarının imzaları sırasında önə çıxarmaq olub. Heydər Əliyev beləcə özü ilə xalqını da zirvəyə qaldırıb, şərəfləndirib, Azərbaycanı da yüksəldib, şöhrətləndirib.

Yaddaş dəftərçəsində qeyd: "4 avqust 1980ci il. Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev Salyana gəlmişdi. Kənd-kənd tarlaları gəzdi, əkinçilərlə görüşdü, onların qayğıları ilə maraqlandı. Şorsulu kəndində də oldu, camaatla hal-əhval tutdu, məhsul yığımında hamıya uğur arzuladı:

Yaxşı işləyibsiniz, pambıq çoxdur, dedi. Muğan bu il səxavətini əsirgəməyib, biri üç edib. Çalışın zəhmətiniz yerdə qalmasın, qoy torpağınız həmişə bərəkətli olsun.

Kolxozun sədri, tarix elmləri namizədi Qəzənfər Hümbətov şorsulululların adından minnətdarlığını bildirdi:

Yoldaş Əliyev, Siz rayonumuza tarixi bir gündə təşrif buyurubsunuz.

Düz on bir il əvvəl, avqustun dördündə elan etdiyiniz və yerinə yetirmə yə başladığınız inkişaf proqramı Azərbaycanı elə bir zirvəyə qaldırıb ki, o biri respublikaların rəhbərləri boylanıb baxanda papaqları düşür. Hələ harasıdır, Sizin sayənizdə biz daha yüksək zirvələr fəth edəcək, nailiyyətlərimizlə bütün dünyanı heyran qoyacağıq".

Bundan iyirmi üç il1 sonra, anadan olmasının səksən illiyi günlərində isə məşhur alimlərimizdən biri yazacaq: "Bu gün Heydər Əliyev təkcə öz öm-

rünün, bir insan həyatının müdriklik zirvəsində deyil, bütöv bir xalqın tarixinin yüksək zirvəsindədir. Bu zirvədən yalnız bir ömrün yaşandığı illər deyil, bir xalqın dünəni, bugünü, sabahı görünür. Bu zirvə Heydər Əliyevin simasında bütün Azərbaycan xalqının yüksəldiyi zirvədir bu, dövlətçilik zirvəsidir, müstəqillik, demokratiya zirvəsidir, siyasi idrak zirvəsidir".

Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin "Əsl vətəndaş, böyük şəxsiyyət və qüdrətli lider haqqında bəzi düşüncələr" adlı əsərini oxuyanda da gözlərimiz qarşısında xalqından güc alan, xalqı ilə yüksələn, cahana sığmayan, zamanın fövqündə dayanan bir insan canlanır: "Heydər Əliyevin şəxsi nümunəsi bizim hamımızı, onun həmvətənlərini ruhlandırır və qurubyaratmağa həvəsləndirir. O, Azərbaycana otuz ildən çox rəhbərlik edərək sözü və əməli ilə yeni gerçəklik yaradır, Azərbaycan üçün dünyaya yol açır, onu ən sivilizasiyalı və çiçəklənən ölkələrdən birinə çevirməyə çalışır. Buna görə də xalq öz millətinə təmənnasız xidmət etməyin misilsiz nümunəsinə heyran olmaqla yanaşı, həm də başa düşür ki, indi Azərbaycana məhz belə lider lazımdır.

Heyder Əliyev iki əsrin ayrıcında öz ölkəsinin dövlət adlı gəmisini qlobal sarsıntılar dövrünün fırtınalarından sağ-salamat və uğurla keçirərək ölkənin milli dəyərlərinin, insanların mənəvi sağlamlığının, özlərinə inamının qorunub saxlanmasına müvəffəq olmuşdur. Siyasətin ön səhnəsində olduğu otuz dörd il ərzində o, XX və XXI əsrlərin görkəmli siyasətçilərindən biri kimi, müasir dövrün böyük siyasi lideri kimi bütün dünyada tanınmışdır... Dövlətimizin tarixində o, iki dəfə siyasətdə və dövlət idarəçiliyində səviyyəsizliyə, səriştəsizliyə və bəsitliyə qətiyyətlə son qoya bilmişdir. O, işdə sübuta yetirmişdir ki, dünyanı təkcə böyük dövlətlər idarə etmir, kiçik xalqlar da var və onların rəyi ilə hesablaşmaq lazımdır. O, azərbaycanlıların necə güclü iradəyə və ruha malik olduqlarını, onun xalqının necə böyük enerji potensialına və intellektual potensiala sahib olduğunu öz timsalında bütün dünyaya nümayiş etdirmişdir".

Müəllif həcmcə çox da böyük olmayan yeni əsərində Heydər Əliyevin ötən əsrin yetmişinci illərində Azərbaycanda həyata keçirdiyi böyük quruculuq işlərini, 1993-cü ildən sonra isə ölkəni düşdüyü ağır vəziyyətdən çıxarmaq, şəksiz fəlakətdən xilas etmək naminə apardığı mübarizəni bütün genişliyi və əzəməti ilə əhatə edə, respublikamızın son 34 illik tarixini də

rindən araşdırmaqla bu müddətdə keçilmiş yolun hər mərhələsinə elmi-fəlsəfi işıq sala bilib: "Heydər Əliyev həm özünün nadir siyasi istedadı sayəsində, həm də mükəmməl fəlsəfi konsepsiyasına əsaslanaraq müasir Azərbaycan adlandırdığımız bir məmləkəti, onun bugünkü həqiqətini, sabahkı gününün etibarlı bünövrəsini yarada bilmişdir. Formal səbəblərə görə deyil, ilk növbədə məhz buna görə Azərbaycan tarixinin 1969cu ildən bəri bütün dövrü Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan xalqı üçüncü minilliyə də məhz Heydər Əliyevin adı ile qədəm qoymuşdur. Azərbaycanın gələcək taleyi baxımından bu tarixi dövrün başlıca məzmunu isə milli dirçəliş fəlsəfəsinin gerçəkləşdirilməsindən ibarət olmuşdur".

Əsərdə göstərildiyi kimi, gerçəkliyin özünün obyektiv qanunlarını əks etdirən elmi metodologiyaya uyğun olaraq Heydər Əliyev XX əsr Azərbaycan tarixini özünəxas peşəkar tarixçi dəqiqliyi ilə dörd mərhələyə bölür. Birinci mərhələ ötən əsrin əvvəlindən Oktyabr inqilabınadək olan tariximizdir. İkinci tarixi mərhələ 1918-1920 və 1920-1922-ci illəri azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu və Azərbaycan Sovet Respublikası SSRİ-nin tərkibinə daxil olanadək dövrü əhatə edir. Üçüncü mərhələ 1922-ci ildən Azərbaycanın öz müstəqilliyini bərpa etdiyi 1991-ci ilədək olan, dördüncü mərhələ isə 1991-ci ildən bugünədək olan dövrdür. Son mərhələləri üçüncü və onun bilavasitə nəticəsi olaraq dördüncü mərhələləri Heydər Əliyevsiz təsəvvür etmək mümkün deyil. Həqiqətən də Azərbaycanı müstəqil dövlət qurmağa doğru aparan yol, əslində, 1969cu ildən məhz onun hakimiyyətə gəlişindən sonra başlanır.

1960-cı illərin axırların da Azərbaycanın inkişafında əsl böhran hökm sürürdü. İctimai münasibətlər getdikcə gərginləşir, dövlət idarəçiliyinin fündamental əsasları dağılır, cəmiyyətin zehnində dolaşıqlıq və mənəvi dayaqların da hərcmərclik yaranırdı. Belə bir ağır iqtisadi və sosial şəraitdə rəhbərliyə gələn Heydər Əliyev mövcud vəziyyəti düzgün qiymətləndirdi, diqqəti siyasətdə, iqtisadiyyatda, sosial və mənəvi sahələrdə əsaslı dəyişikliklərin həyata keçirilməsinə, iqtisadiyyatın təşkilində və inkişafında dönüş yaradılmasına yönəltdi. Bu, tezliklə öz bəhrəsini verdi. Son dərəcə gərgin iş, düzgün və səmərəli idarəetmə nəticəsində iqtisadiyyatda ənənəvi gerilik qısa müddətdə aradan qaldınldı, iqtisadiyyatın sabitləşdirilməsi və dinamik inkişafı təmin edildi, ümumiyyətlə, on üç il

(19691982-ci illər) ərzində güclü sənaye potensialmm əsası qoyuldu.

1970ci ilədək respublikada 233 iri və orta sənaye müəssisəsi olduğu hal da, sonrakı on iki ildə 300ə yaxın iri və orta sənaye müəssisəsi fəaliyyətə başladı, ictimai istehsalın rentabellik səviyyəsi 1970ci ilə nisbətən 1982-ci ildə 57 faiz artdı. Heydər Əliyev hələ o vaxt əsas sərvətimiz neft və qaz sənayesinin, bütövlükdə milli iqtisadiyyatımızın başlıca mənbələrinin inkişafına önəmli fikir verirdi. Məhz həmin illərdə qara və əlvan metallurgiya sənayesində yüksək iqtisadi göstəricilər əldə edildi, bütün sənaye sahəlerində geniş yenidənqurma işləri aparıldı.

1970-ci ilədək kend təsərrüfatmda vəziyyət olduqca acmacaqlı idi, respublikamız bitkiçiliyin və heyvandarlığın məhsuldarlığına görə keçmiş İttifaqda sonuncu yeri tuturdu. Sonra hər iki sahədə məhsuldarlıq ildən-ilə yüksəldildi və bunun hesabına taxıl istehsalı 1980ci ildə 893,3 min tona, pambıq istehsalı 883,7 min tona, tərəvəz istehsalı 824,2 min tona, üzüm istehsalı 1 milyon 331 min tona çatdırıldı. Həmin il təkcə Cəlilabadda 300 min tona yaxın üzüm toplanmışdı, bu, bütün Ermənistanda istehsal edilən üzümdən xeyli artıq idi.

Yaddaş dəftərçəmdə qeyd: "10 sentyabr 1981ci il. Cəlilabad şəhərində şəkil qalereyası açıldı. Bu sərgi salonu yeni dördmərtəbəli qəşəng binanın birinci mərtəbəsində yeriəşir. Azərbaycan Rəssamlar İttifaqı burada nümayiş etdirmək üçün rayona qırxa qədər eksponat bağışlamışdır. Görkəmli fırça ustalarından Elbəy Rzaquliyevin, Nadir Qasımovun, Nazim Babayevin, Salam Salamzadənin, Kamil Nəcəfzadənin, Nadir Zeynalovun və başqalarının işləri tamaşaçıların çox xoşuna gəlmişdir".

O illərdə Azərbaycanın hər yerində belə social-mədəni obyektlər tiki lirdi. Elə Bakını götürək: "Azərbaycan", "Abşeron", "Moskva" mehman xanalan, Respublika sarayı, İdmanKonsert Kompleksi, "Gülüstan" sarayı, "Moskva" univermağı... Bu, asan başa gəlmirdi, Moskva xəsislik edir, və sait ayırmırdı. Lakin Heydər Əliyev təkidlə istədiyinə nail olurdu. Bakı da, Gəncədə, Sumqayıtda təzə mikrorayonlar salınması, tarixi abidələrimizin bərpası, heykəllər ucaldılması, yaşıl zonalar salınması da Heydər Əliyevin xidmətidir.

Bütün bunlara görə əsərdə 1969cu ilin Azərbaycanın ən yeni tarixində dönüş ili olduğu qənaətinə gəlinir: "Həm iqtisadi, həm də mədəni tə-

nəzzülə doğru aparan mənfi hallarla fəal mübarizə məhz Heydər Əliyev hakimiyyətə gəldikdən sonra başlandı. 1969cu il Azərbaycanın ən yeni tarixində dönüş ili oldu. Respublikanm dinamik inkişafının təmin edilməsinə dair kompleks proqramlar işlənib hazırlandı. Bu, yorulmaz fəaliyyət sayəsində 1970-1985-ci illər baş vermiş dəyişikliklərin vüsəti, ictimai və iqtisadi sahədə aparılmış köklü islahatların xarakteri və xalqın maddi rifahının keyfiyyətcə yeni səviyyəyə yüksəlməsi baxımmdan, sözün tam mənasında, müstəqil Azərbaycanın yaranması salnaməsində ən parlaq səhifələrdir. Həmin illərdə Heydər Əliyevin təşəbbüsü ilə SSRİ hökuməti respublika iqtisadiyyatının hərtərəfli tərəqqisini və intensiv inkişafını nəzərdə tutan beş xüsusi qərar qəbul etmişdi. Sosial-iqtisadi inkişafın başlıca istiqamətlərini müəyyən edən həmin qərarların xalqımızın mənafeləri baxımından tarixi əhəmiyyəti vardı.

Tam inamla demək lazımdır ki, indiki mərhələdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, onun xarici iqtisadi elaqələrinin müntəzəm surətdə genişlənməsi və dünya iqtisadiyyatma daha dərin inteqrasiyası prosesi hələ 1970-ci illərdə 1980-ci illərin əvvəllərində təməli qoyulmuş potensiala əsaslanır...

Məhz o illərdə respublikada şəhərsalma və şəhərlerin, rayon mərkəzlərinin abadlaşdırılması sahəsində böyük işlər görülürdü. Bakıda bir sıra memarlıq ansamblları, inzibati mərkəzlər, saraylar, institutlar, nəşriyyatlar, tədris korpusları, komplekslər tikilib istifadəyə verilmişdir ki, bunlar da müasir Azərbaycan memarlığımn əsərləri xəzinəsinə daxil olmuşdur. Bir çox memarlıq abidələri məhz Heydər Əliyevin təşəbbüsü sayəsində bərpa edilmişdir. Onun sayəsində Bakmın ən gözəl guşələrində xalqımızın milli ruhunun ifadəçiləri olan görkəmli xadimlərə əzəmətli abidələr ucaldılmış, məşhur tarixi şəxsiyyətlərin evmuzeyləri yaradılmış və bunlar mədəniyyət mərkəzlərinə çevrilmişdir. Məhz o dövrdə Kirovabadda şəhərin təzə yaşayış massivlərindən birinə "Yeni Gəncə" adı verilmiş və bununla da dolayısı ilə bildirilmişdir ki, bu şəhərin tarixi və əsl adı Gəncədir".

Yaxşı igid yurd düzər, yaman igid yurd pozar, deyiblər. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1970-1982-ci illərdə yaradılanları sonra hərə bir tərəfdən dağıtmağa başladı. Sökhasök, aparhaapar, daşıhadaşı idi. Daş üstə daş qoymaq əvəzinə olanları uçurur, nə etdiklərini öz-

ləri də bilmirdilər. 1993-cü ildən başlayaraq hər şeyi yenidən qurmaq, yenidən tikmək, bərpa etmək lazım gəldi.

Yaddaş dəftərçəmdə qeyd: "3 iyun 1997ci il. Beş il Neftçaladan ayrı düşdüm. Bildir qayıdanda birinci axşam parka baş çəkdim. İyirmi ilin parkıdır. Hansı zəhmətlə salındığının şahidiyəm. Yaz-yay axşamlarında hamı onun yaşıl qoynunda istirahət edər, şənlənər, sərinlənərdi. Bunun üçün hər cür şəraiti vardı. İndi pis gündəydi. Ağaclar seyrəlmişdi, işıqlar yanmırdı, oturacaqlar sınıq-salxaqdı. Karusel və yelləncəklər sıradan çıxarılmışdı, fəvvarələr "susurdu". Hər şey parkın unudulduğunu, kimsənin onunla maraqlanmadığını göstərirdi.

Bu yay mövsümünü isə park təzə libasda qarşılayıb. Uçulub-dağılmış yerləri asfaltlanıb, yaşıllığı artıb, təmiz və səliqəlidir. Səkilər, keçidlər boyunca rahat oturacaqlar qoyulub. Elektrik lampaları parkı nura qərq edir. Mərkəzi fəvvarə bərpa olunub, digər fəvvarələr də ətrafa sərinlik yayır. Su borusu çəkilib. Milli omamentlərlə bəzədilmiş iki bulaq tikilib. Balacalar hovuzun ətrafında oynayırlar. İdman meydançaları da var. Şəhərdə iki hektara yaxın sahədə daha bir park salınır".

1991-1993-cü illəri hamımız xatırlayırıq: öz müstəqilliyini qazanmış respublikamız sosial-iqtisadi və siyasi böhrana düçar olmuşdu. İqtisadiyyatda idarəetmə və istehsal intizamı tamam pozulmuşdu, hərcmərclik baş alıb gedir, bir-birinə zidd qərarlar qəbul edilir, bütün bunlar xalqın sərvətinin dağıdılmasına və israfçılığa əlverişli şərait yaradırdı. Bazar münasibətlərinə keçilməsinin zəruriliyinə baxmayaraq, islahatlar aparılmırdı. Rəqəmlərin dili ilə desək, 1993-cü ildə ümumi daxili məhsulun real həcmi 1990-cı ilə nisbətən iki dəfə azalmış, sənaye istehsalı 63 faiz, kənd təsərrüfatı istehsalı 47 faiz, əhalinin həyat səviyyəsi 3,6 dəfə aşağı düşmüşdü.

1993-cü ilin səksəkəli yaymda Heydər Əliyev qətiyyətlə bəyan etdi: "Biz Azərbaycanı bu vəziyyətdən çıxarmalıyıq, çıxarmağa qadirik və çıxaracağıq". Bu sözləri ilə cənab Prezident vətənini sevən hər bir azərbaycanlımn ürəyində ümid çırağı yandırdı və qısa bir müddətdə ümidləri doğrultdu azərbaycan iqtisadi inkişaf mərhəjəsinə qədəm qoydu. İqtisadiyyatın yeni iqtisadi əsaslarla bərpasının, respublikada həyata keçirilən dərin, köklü islahatların, xüsusilə torpaq islahatlarının nəticələri göz qabağındadır: 2002-ci ildə ölkə tarixində ilk dəfə olaraq taxıl istehsah 2 mil-

yon 200 min tona çatdınlmış, 2001ci ilə nisbətən 14,6 faiz çox kartof, 6.2 faiz çox tərəvəz, 2,8 faiz çox meyvə və giləmeyvə, 1,1 faiz çox çay, 8.2 faiz çox üzüm istehsal edilmiş, qaramalın sayı 2,6 faiz, davarın sayı 4.2 faiz çoxalmışdır. 19982003-cü illərdə iqtisadiyyatm mühüm sahələri olan neft, qaz, energetika, kimya və neft kimyası, maşmqayırma və metallurgiya sənayeləri də dinamik inkişaf etməyə başlamışdır. Neft yataqlarının xarici şirkətlərlə birgə işlənilməsindən götürülən mənfəəti, neft satışından qazanılan valyutanı, digər gəlirləri toplamaq və səmərəli şəkildə idarə etmək, onları perspektiv sahələrin inkişafına və ən mühüm social iqtisadi layihələrin həyata keçirilməsinə yönəltmək məqsədilə yaradılmış Neft Fonduna üç il ərzində 782 milyon dollar vəsait daxil olmuşdur. Bu nun müəyyən qədəri Azərbaycan Respublikası Prezidentinin sərəncamları əsasında məcburi köçkünlər və qaçqınlar üçün qəsəbələr tikilməsinə, habelə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin çəkilməsinə ayrılmışdır.

Əsərdə Heydər Əliyevin iqtisadiyyatla bağlı məsələlərdə də mənəviyyat problemlərini diqqətdə saxladığı və bunun böyük qələbələrin rəhni olduğu konkret faktla əsaslandınlır.

"Əlbəttə, milli dirçəliş ideyalarının, azərbaycançılıq ideologiyasınm əməli surətdə həyata keçirilməsini yalnız təsərrüfat və sənaye sahələrində qazanılmış uğurlar fonunda, onların əsasında inkişaf etdirmək olardı. Heydər Əliyevin strateji proqramında diqqəti çəkən cəhət məhz odur ki, burada mənəvi, bedii və estetik təkamül iqtisadiyyatda parlaq nailiyyətlərlə və insanların rifahının keyfiyyətcə yaxşılaşması ilə birləşərək vahid məcrada reallaşdırılmışdır. Yeri gəlmişkən, Heydər Əliyev müstəqillik dövründə çıxışlarından birində "Dədə Qorqud" qazma qurğusunu nəzərdə tutaraq deyir: "...Adını da "Dədə Qorqud" qoyduq, əvvəl "Şelf2" adlanırdı. Amma biz ona "Dədə Qorqud" adı verdik, çünki bu, bizim babamızdır". Gördüyünüz kimi, Prezident Heydər Əliyev hətta iqtisadiyyatla bağh məsələlərdə də mənəviyyat problemlərini heç vaxt diqqətdən kənarda qoymur, çünki o öz ölkəsinin iqtisadi inkişafmı hər zaman mənəvi mədəniyyət problemləri ilə sıx bağlılıqda, vahid axarda görür.

70-ci illərdən başlayaraq Azərbaycan sürətli iqtisadi inkişafla və iqtisadi potensialm gücləndirilməsi ilə yanaşı, demək olar, daxilən, tədricən öz

təkamülünün növbəti mərhələsi kimi tarixən şərtləndirilmiş suverenliyə və müstəqilliyə hazırlaşırdı. 80-ci illərin axırları 90-cı illərin əvvəllərində ərazi bütövlüyü uğrunda xalq hərəkatının geniş vüsət alması Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə təmin edilmiş iqtisadi inkişaf, milli ruhun və milli özünüdərkin dirçəlməsi sayəsində mümkün olmuşdur".

Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin "Əsl vətəndaş, böyük şəxsiyyət və qüdrətli lider haqqında bəzi düşüncələr" əseri oxucularda sabaha inamı artırır, tam əminlik yaradır: hər səhərimiz uğurla başlayacaq, başımızm üzərində daim Günəş nur saçacaq, çaylarınıız axarından qalmayacaq, bulaqlarımız həmişə çağlayacaq, ağaclarınıız qolbudaq atacaq, torpaqlarımız azad nəfəs alacaq. Çünki Heydər Əliyev kimi Prezidentimiz, onun layiqli davamçısı İlham Əliyev kimi Baş nazirimiz var!

**Bariz ƏSƏDOV,**
**"Azərbaycan"**

*14 avqust, 2003*

# QURUCU İNSAN HAQQINDA LAYİQLİ SÖZ

***Bu, məsuliyyətli olduğu qədər də şərəflidir***

Kiminsə haqqında söz demək, fikir söyləmək, ona qiymət vermək çətindir. Xüsusən də o kəs Vətəndaş, Şəxsiyyət, Liderdirsə. Çünki onu bütöv cəmiyyət tanıyır, bütün ictimaiyyət qəbul edir və hamı sevir. Onun həyat və fəaliyyəti göz qabağındadır, diqqət mərkəzindədir. Hər bir addımı izlənilir, öyrənilir, təhlil və tədqiq olunur. O, adi şəxs deyil, Şəxsiyyətdir, sadəcə vətən övladı yox, Vətəndaşdır, sıravi növbəti rəhbər deyil, əsl xalq Lideridir. Ona görə də bu keyfiyyətləri özündə birləşdirən İnsan haqqında söz demək çətin olduğu qədər də, məsuliyyətlidir. Felsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev bu çətinliyin və məsuliyyətin öhdəsindən layiqincə gəlib.

Söhbət Ramiz Mehdiyevin zəmanəmizin tanınmış dövlət xadimi, müdrik siyasətçi, Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev haqqında yazdığı "Əsl vətəndaş, böyük şəxsiyyət və qüdrətli lider haqqında bəzi düşüncələr" elmi əsərindən gedir. Müəllif yazısmı, admdan göründüyü kimi, "düşüncələr" adlandırsa da, bu, əslində ardıcıl müşahidələrə, dəqiq faktlara, dərin təhlilə, fəlsəfi təlimlərə söykənən və nəhayət, tarixi reallıqlara obyektiv qiymət verən sanballı elmi əsərdir. Ramiz Mehdiyev əsəri üçün Heydər Əliyevin çıxışların da dönədönə təkrarladığı "Həyatımm sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm" ifadəsini epiqraf seçib. Əsəri oxuyandan sonra bəlli olur ki, müəllif bunu təsadüfən etməyib. Həqiqətən, əsərdə "Heydər Əliyev və müasir Azərbaycan" formulu tədqiq edilir, zəmanəmizin bu görkəmli şəxsiyyətinin XX əsrin 60-cı illərinin sonundan başlayaraq müasir dövrəcən ölkəmiz üçün gördüyü qlobal işlər qısa, amma dolğun fəlsəfi təhlil olunur.

Bəs bu işlər hansılardır? Müəllif yazır: "Heydər Əliyev birinci dəfə də, ikinci dəfə də eyni şəraitdə ictimai münasibətlərin kəskin şəkildə gərginləşdiyi, dövlət idarəçiliyinin fundamental əsaslarının dağıdıcı, cəmiy-

yətin zehnində dolaşıqlıq və mənəvi dayaqlarında hərcmərclik yarandığı dövrlərdə ölkəyə rəhbərlik etməyə başlamışdır.

...1969cu il Azərbaycanın ən yeni tarixində dönüş ili oldu. Respublikanın dinamik inkişafının təmin edilməsinə dair kompleks proqramlar işlənib hazırlandı. Bu, yorulmaz fəaliyyət sayəsində 1970-1985-ci illər baş vermiş dəyişikliklərin vüsəti, ictimai və iqtisadi sahədə aparılmış köklü islahatların xarakteri və xalqın maddi rifahınm keyfiyyətcə yeni səviyyəyə yüksəlməsi baxımından, sözün tam mənasında, müstəqil Azərbaycanın yaranması salnaməsində ən parlaq səhifələrdir".

Doğrudan da, keçmiş SSRİ dövründə Azərbaycanın sosial-iqtisadi inkişafmdan söhbət açarkən 1970-1985-ci illər arasındakı dövrü xüsusi qeyd etmək lazımdır. Məhz o illər respublikamızın iqtisadi inkişafmda daha uğurlu olmuşdur. Həmin dövrdə xalq təsərrüfatınm artım sürəti orta İttifaq səviyyəsini xeyli qabaqlamış, istehsal edilən milli gəlir 2,6, sənaye məhsulunun həcmi 2,7, kənd təsərrüfatı məhsullan istehsalı 2,3 dəfə artmışdır. O illərdə 211 yeni iri sənaye obyekti istifadəyə verilmiş, sənayedə əsas fondların 85 faizi təzələnmiş və onların həcmi 2,3 dəfə çoxalmışdır. 15 il ərzində öz miqyasına görə respublikamızda bütün keçmiş tarixi boyu yaradılmış potensialla müqayisə oluna bilən sənaye potensialı yaradılmışdır. Qısa vaxtda Azərbaycan keçmiş SSRİnin xalq təsərrüfatı kompleksində sanballı mövqe tutmuş, onun inkişafmda fəal rol oynamış və bir sıra sənaye məhsullarının istehsalına görə aparıcı yerə çıxmışdır. Məsələn, həmin dövrün statistik məlumatlarına görə, neftmədən avadanlığmın ümumilikdə İttifaq üzrə istehsalının 70, elektrik mühərriklərinin 12,2, elektrik qaynaq avadanlığmın 10,5, məişət kondisionerlərinin 100, soyuducuların 5,7, pambıq ipliyinin 9,6, ipək xammalımn 11,7 faizi və s. Azərbaycanın payına düşürdü. Eyni zamanda, respublikamızda bir sıra sənaye məhsulları istehsalının keçmiş SSRİ-də xüsusi çəkisi onun əhalisinin xüsusi çəkisindən xeyli yüksək idi.

Müəllifm göstərdiyi dövr ərzində Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanda güclü kənd təsərrüfatı kompleksi formalaşmışdır. Ötən əsrin 80ci illərinin ortalarında keçmiş İttifaqda istehsal olunan üzümün 27, pambıq mahlıcmm 9,2, tütünün 16, yaşıl çay yarpağının 5,1, baramanm 13, tərəvəzin 3 faizi Azərbaycan kəndinin məhsulu idi.

Bütün bunlar həmin illərdə bilavasitə Heydər Əliyevin təşəbbüsü və səyi ilə keçmiş SSRİ hökuməti tərəfindən respublikamızın iqtisadiyyatının hərtərəfli tərəqqisini və intensiv inkişafını nəzərdə tutan beş xüsusi qərarın qəbul edilməsi sayəsində mümkün olmuşdur. Sosial-iqtisadi inkişafın başlıca istiqamətlərini müəyyən edən həmin qərarların xalqımızın sosial-iqtisadi mənafeləri baxımından tarixi əhəmiyyəti, həqiqətən, böyük idi.

Bu tarixi gerçəkliyə nəzər salan müəllif çox haqlı olaraq belə bir qənaətə gəlir: "Tam inamla demək lazımdır ki, indiki mərhələdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, onun xarici iqtisadi əlaqələrinin müntəzəm surətdə genişlənməsi və dünya iqtisadiyyatına daha dərin inteqrasiyası prosesi hələ 1970-ci illərdə 1980-ci illərin əvvəllərində təməli qoyulmuş potensiala əsaslanır".

Müstəqilliyimizin ilk illərində Qarabağ dalğası üzərində hakimiyyətə yiyələnmiş naşı və təcrübəsizlər dəstəsi bu potensialdan bəhrələnib müstəqil dövlət quruculuğu ilə məşğul ola bilmədilər. Onlar bunun əvəzinə, müəllifin yazdığı kimi, ölkənin taleyini Tanrının ümidinə buraxdılar. "Ölkədə hakimiyyətsizlik, qarınaqanşıqlıq və hərcmərclik baş alıb gedirdi: manatın məzənnəsi sürətlə aşağı düşür, sənaye və kənd təsərrüfatı istehsalının səviyyəsi günbəgün azalır, çörək və digər ən zəruri ərzaq məhsulları üçün alçaldıcı növbələr düzülürdü..." Müstəqilliyini yenicə qazanmış dövlətin iqtisadiyyatının düşdüyü bu vəziyyət, sözsüz ki, səriştəsiz hakimiyyətin savadsız rəhbərliyinin nəticəsi idi. Həmin dövrün statistik rəqəmlərinə və şərhlərinə nəzər salaq: 1992-ci ildə təsərrüfatın bir çox sahələrində qiymətlər liberallaşdırılsa da, çörək və enerjidaşıyıcılarının qiymətləri yenə də.dövlət tərəfindən tənzimlənməkdə davam etdirildi. Nəticədə ölkədə çörək və yanacaq qıtlığı əmələ gəldi. Həmin dövrdə Milli Bank ölkənin valyuta ehtiyatlarına nəzarət edə bilmirdi. Bu ehtiyatlann böyük hissəsi guya hökumətin ehtiyaclarını ödəmək üçün səfərbər edilirdi. Özü də məcburən. Yəni müəssisələr məcburən öz valyuta ehtiyatlarının 30 faizini bazar kursundan aşağı məzənnə ilə dövlətə satmalı idilər. Sonra isə xüsusi valyuta büdcəsinə yığılan bu vəsait o vaxtkı hakimiyyətin ayrı-ayrı dələduz nümayəndələri tərəfindən tarınar edilirdi. Ölkəyə taxıl gətirmək adı ilə oğurlanmış vəsaitlə bağlı yaranan qalmaqal heç kimin yadından çıxmayıb. Həmin dövrdə ölkənin daxilində müxtəlif valyu-

ta kurslarının əmələ gəlməsi və bu kurslardan istifadə etməklə çoxsaylı maliyyə fırıldaqlarının geniş yayılması da məhz bununla bağlı idi.

AXC hakimiyyəti illərində özəlləşdirmə yalnız taksilərin və mənzil fondunun bir qismini əhatə etdi. 19911994cü illərdə istehsal müəssisələrinin böyük əksəriyyəti işləmirdi, yaxud öz gücünün 1520 faizi səviyyəsində fəaliyyət gösterirdi. Ümumi daxili məhsul istehsalının azalması ildə 2023, o cümlədən sənayedə illik geriləmə 2024, kənd təsərrüfatmda 1520, kapital qoyuluşunda 40 faizə çatırdı. Belə hal həm də vergi bazasının daralmasına və büdcəyə daxilolmaların azalmasına, son nəticədə isə büdcə kəsirinin artmasına gətirib çıxarırdı. Məsələn, 1993-cü ildə büdcə kəsirinin səviyyəsi ÜDMin 10 faizindən çox olmuşdur.

Həmin illərdə inflyasiya ölkəni boğurdu. İqtisadiyyatın sürətlə dollarlaşması prosesi gedirdi. Belə vəziyyət əhalinin sosial rifahına son dərəcə mənfi təsir göstərirdi ki, bu da digər amillərlə yanaşı, mövcud hakimiyyətin süqutunu yaxınlaşdırırdı.

Lakin bu, məsələnin bir tərəfi idi. Əsas məsələ isə AXC-Müsavat iqtidarın dan sonra ölkəyə kimin rəhbərlik etməsi idi. Bu məqamda xalq öz sözünü dedi. Çətin vəziyyətində xalq tanıdığı, smadığı, gücünə, qətiyyətinə, təcrübəsi və qabiliyyətinə bələd olduğu Heydər Əliyevi təkidlə hakimiyyətə dəvət etdi. Bu seçimin qarşısında hətta heç vəchlə iqtidardan getmək istəməyən AXC-Müsavat və onların tərəfdarları da aciz qaldı. Çünki sözügedən əsərdə yazıldığı kimi, Azərbaycan vətəndaşları bu taleyüklü dövrdə də Heydər Əliyevin sadiq müttəfiqi oldular, ilk növbədə, özlərinə hörməti bərpa etmək üçün bütün iradələrini və həyat enerjilərini səfərbər edə bildilər. "Məhz Heydər Əliyevin qayıdışı sayəsində Azərbaycan xalqında ruh yüksəkliyi yarandı, xalq sanki ümidsiz olan bir vəziyyətdə perspektivləri gördü, onda öz gələcəyinə inam oyandı. Ölkə dərin ictimai, siyasi və iqtisadi böhranı aradan qaldıra bildi".

Bəli, artıq 1994cü ilin sonu, 1995ci ilin əvvəlində ölkədə ictimai-siyasi sabitlik təmin edildi, müstəqil dövlət quruculuğu prosesinə və keçmiş iqtidardan miras qalmış çoxsaylı sosial-iqtisadi problemlərin həllinə başlanıldı. Məhz həmin dövrdən ölkədə demokratik dövlət quruculuğu və bazar iqtisadiyyatına keçid məqsədilə islahatlar kursu müəyyənləşdirildi. Ən əsası, 1995ci il noyabrın 12də referendum yolu ilə müstəqil Azərbaycanın Konstitusiyası qəbul edildi.

Hazırda bazar iqtisadiyyatına keçid istiqamətində cənab Heydər Əliyevin başçılığı ilə həyata keçirilən ardıcıl tədbirlər nəticəsində ölkəmizdə makro-iqtisadi sabitlik təmin olunub və nəinki ötən əsrin 90-cı illərinin əvvəllərindən başlamış geriliyin qarşısı alınıb, hətta Azərbaycan keçmiş sosialist düşərgəsində ən dinamik inkişaf edən dövlətə çevrilib. Yenə də statistikaya nəzər salaq: aparılmış iqtisadi islahatlar nəticəsində 1996-2002-ci illər ərzində ölkəmizdə ÜDM-in real artımı 70 faizə çatıb. Bu dövrdə onun orta illik real artım sürəti 8 faiz təşkil edib. Əsas iqtisadi göstərici sayılan ÜDM-in real həcmi 2002-ci ilin yekunlarına görə, 1990-cı ilin müvafiq göstəricisinin 71 faizi səviyyəsində olub. İqtisadi İnkişaf Nazirliyinin proqnozlaşdırdığı real artım templərinə əsasən ÜDM-in həcminin 1990-cı illə müqayisədə 2005-ci ildə 96,6, 2006cı ildə isə 115,9 faiz təşkil edəcəyi gözlənilir.

Ötən qısa müddətdə dövlət mülkiyyətinin özəlləşdirilməsi, sahibkarlığın inkişafı və digər sahələrdə islahatların həyata keçirilməsi özəl sektorun təşəkkül tapmasında və onun ölkə iqtisadiyyatında mühüm yer tutmasında həlledici rol oynayıb. Ötən ilin yekunlarına görə, ÜDM-də qeyri-dövlət bölməsinin xüsusi çəkisi 73 faizə qədər artıb.

Son 10 ildə ölkəmizin iqtisadiyyatma bütün maliyyə mənbələri hesabına təxminən 14 milyard dollar sərmayə qoyulub. İqtisadiyyatın müxtəlif sahələrinə yönəldilən bu sərmayələrin təxminən 10 milyard dollara yaxını xarici investisiyalardır ki, bunun da 31,8 faizi qeyrineft sektorunun payma düşür. Yeri gəlmişkən qeyd edək ki, xarici investorların Azərbaycanın qeyri-neft sektoruna marağı durmadan artır. Bunun nəticəsidir ki, indi ölkəmiz adambaşına düşən xarici sərmayənin həcminə görə MDB və Şərqi Avropada öndə gedən dövlətlərdən biridir.

1995ci ildən Azərbaycanın xarici ticarət dövriyyəsi 2,4 dəfə artıb. Həm də daxili istehsalın artımı nəticəsində əldə olunan bu nailiyyət Azərbaycanın dünya iqtisadiyyatma inteqrasiyasının dərinləşməsinə səbəb olub.

Cənab Heydər Əliyevin başçılığı ilə ölkəmizin iqtisadi sahədə qazandığı uğurlardan danışarkən 1994-cü ilin sentyabrmda imzalanmış "Əsrin müqaviləsi" ilə başlanan Azərbaycanın yeni neft strategiyası xüsusi qeyd edilməlidir. Hazırda Azərbaycan dövlətinin xarici şirkətlərlə bağladığı kontraktların sayı 20dən çoxdur və bu müqavilələr çərçivəsində ölkəmi-

zin neft sənayesinə 60 milyard dollardan çox vəsait qoyulacaq. Artıq həmin vəsaitin bir hissəsi qoyulub və 1997ci ilin noyabrmdan "Çıraq" platformasından hasil edilməyə başlanmış neft dünya bazarlarına çıxarılır. Eyni zamanda, şəxsən Heydər Əliyevin gərgin əməyi sayəsində təkcə ölkəmiz üçün deyil, bütün region üçün böyük iqtisadi və siyasi əhəmiyyəti olan, həmçinin Azərbaycanın yaxın və uzaq gələcəkdə milli maraqlarına cavab verən və təhlükəsizliyini təmin edən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin inşasına başlanılıb. İndi kəmərin keçəcəyi hər üç ölkənin ərazisində qızğın iş gedir. Smeta dəyəri 3 milyard dollara yaxın olan bu kəmərlə ildə 50 milyon ton neft axıdılacaq ki, bu da ölkəmizin iqtisadiyyatının yaxın illərdə yeni inkişaf mərhələsinə keçməsi deməkdir.

Göründüyü kimi, adı çəkilən əsərin müəllifmin dili ilə desək, "müasir Azərbaycanda dövlət quruculuğunun, iqtisadi dirçəlişin, ictimai-siyasi və sosial həyatda tərəqqinin otuz ildən artıq dövrünü əhatə edən bütöv bir epoxa Heydər Əliyevin adı ilə bağlıdır.

...Gələcək nəsillər taleyin bizə bəxş etdiyi bu tarixi dövrü qibtə hissi ilə xatırlayacaq, öyrənəcək, təhlil edəcəklər". Və sözsüz ki, bu zaman fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin haqqında söhbət açdığımız "Əsl vətəndaş, böyük şəxsiyyət və qüdrətli lider haqqında bəzi düşüncələr" əsəri onlar üçün dəyərli vəsait olacaq.

**Raqif MƏMMƏDOV,**
**"Azərbaycan"**

*21 avqust, 2003*

# MİLLİ DÖVLƏTİMİZİN QURUCUSU

Zəmanəmizin ən böyük siyasi xadimlərindən biri olan Heydər Əliyevin artıq milyonların idealına çevrilmiş bu əvəzsiz liderin və dahi şəxsiyyətin coşqun mübarizə meydanlarında keçmiş şərəfli ömür yolunu bütün incəliklərinə qədər qələmə almaq, onun, sözün əsl mənasında, ağıl və müdriklik, şərəf və ləyaqət universiteti olan mənəviyyat adlı iç dünyasının ən gözəgörünməz nöqtələrini belə tam aydınlığı ilə açmaq hər tədqiqatçıya nəsib olan səadət deyil. Çünki Heydər Əliyevin zəngin ömür yolu hələ tam öyrənilməmiş bir tarix, onun mənəvi dünyası hələ kəşf olunmamış bir qitədir. Onun beyni bütün çətinlikləri dəf edə biləcək ciddi tədbirlər kompleksi mərkəzi, ağıl və zəkası ən mürəkkəb problemlər qıfılına düşə biləcək sehirli bir açardır. Bunu planetimizin ən görkəmli siyasi xadimləri də təsdiq edir. Dünyanın Z.Bjezinski, Kissincer, Kaspar Vaynberqer, Kristofor kimi nəhəng siyasətçiləri Heydər Əliyevin dərin ağlı, müdrik zəkası, qeyriadi dərəcədə möhkəm, ilahi yaddaşı, həyatdakı hadisələrin görünməyən nöqtələrini öz fəhmi ilə görüb təhlil etmək istedadı barədə dönədönə söz açmışlar. Təsadüfi deyil ki, Vaşinqtonun Con Hopkins Universitetinin Beynəlxalq Tədqiqatlar İnstitutunun rəhbəri Pol Volfoviç Heydər Əliyevin həyatını "dərindən öyrənilməyə layiq zəngin bir tarix" adlandırmışdır.

Heydər Əliyev haqqında müxtəlif dillərdə yüzlərlə qiymətli kitab, minlərlə publisist məqalə yazılıb. Ancaq gəlin açıq etiraf edək ki, həmin əsərlərdə Heydər Əliyev dünyasının bütün cizgiləri tam aydınlığı ilə şərh edilməyib. Çünki bu, o qədər də asan məsələ deyil. Dəryadakı damlaları birbir saymaq imkan xaricində olduğu kimi, o böyük şəxsiyyətin şərəfli əmellər külliyyatmı da sözsöz, sətirsətir oxumaq üçün bir insan ömrünün azlıq edəcəyi şəksizdir. Əgər onun bir günlük əməllərini, hiss və duyğularını, fikir və düşüncələrini, hansı bir ağır probleminsə həlli üçün yüz ölçüb bir biçdikdən sonra atdığı addımları bir yerə toplayıb qələmə almaq mümkün olsaydı, qahn bir kitab yaranardı. Sözüm ondadır ki, Heydər Əliyev ömrünün hər günü bir əsərdir. 34 il ərzində həyatın bütün sa-

hələrində qazandığımız hər uğur, hər nailiyyət, hər zəfər bu müdrik insanın adı ilə bağlıdır. Heydər Əliyev ömrü, sözün əsl mənasında, Azərbaycanın tərəqqi və dirçəliş, azadlıq və müstəqillik tarixidir. Heydər Əliyev özü bir fəlsəfədir: milli dövlətçilik fəlsəfəsi, ağıl və müdriklik fəlsəfəsi, xalqla dövlətin qranit birlik fəlsəfəsi, əsl azərbaycançılıq fəlsəfəsi.

Uzun illər boyu Heydər Əliyevlə çiyinçiyinə addımlamış, dövlətçiliyimizin möhkəmlənməsi, müstəqilliyimizin bərqərar olması naminə ağır, keşməkeşli və şərəfli mübarizə yolların da o nadir şəxsiyyetin ən sadiq silahdaşların dan və ən müdrik əməldaşların dan biri olmuş və bu gün də Azərbaycan dövlətçiliyinə sədaqətlə xidmət edən fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin "Əsl vətəndaş, böyük şəxsiyyət və qüdrətli lider haqqında bəzi düşüncələr" əsəri inamla demək olar ki, öz işıqlı əməlləri ilə xalqın idealına çevrilən Heydər Əliyevin zəngin dövlətçilik məharətinə, onun xalqın milli dirçəlişi, milli şüurunun yüksəlməsi, ölkənin iqtisaditərəqqi strategiyasının sürətlə həyata keçirilməsi, Azərbaycanın dar çərçivədən sıyrılıb dünyəvi bir dövlətə çevrilməsi sahəsindəki misilsiz xidmətlərinə əsaslanan dərin fəlsəfi ideyalar konsepsiyasının nəzəri və təcrübi aspektlərinin tədqiqi və şərhi baxımından indiyədək yazılmış əsərlərin zirvəsində dayanacaq bir nümunədir. O, təkcə dövrümüzün vətəndaşları üçün yox, həm də ömrü sevimli Azərbaycanınm ömrü qədər olacaq Heydər Əliyevin dövlətçilik sahəsindəki zəngin təcrübəsini, onun işıqlı əməllər külliyyatını, əsl azərbaycanlıya xas olan büllur mənəviyyatmı öyrənmək arzusunda olacaq gələcək nəsillərimiz üçün də qiymətli, fundamental bir əsərdir. Görkəmli filosof-alim kimi xalqın dərin rəğbətini qazanmış professor Ramiz Mehdiyevin bu əsərində ən dəyərli cəhətlərdən biri odur ki, müəllif Heydər Əliyevin dövlətçilik fəaliyyətinin müxtəlif mərhələlərində olan ən mühüm cəhətləri ön plana çəkir. Bəzi əsərlərdə olduğu kimi, onları sadəcə sadalamır. Öz fəlsəfi təhlil süzgəcindən keçirir. Hər görülən işin kökünə enib onun doğuluş səbəblerini, məna çalarlarını, əhemiyyətini və gərəkliyini açıqlayır. Heydər Əliyevin Azərbaycan dövləti üçün, Azərbaycan xalqı üçün nə qədər qiymətli bir Tanrı payı olmasının mahiyyətini, onun siyasi portretinin bütün cizgilərini, mənəvi dünyasının ən gözəgörünməz nöqtələrini, xalqımızın tarixində əbədilik qazanmasının səbəblərini oxucuya çox dəqiq faktlarla çatdırır.

Həm də az savadlı vətəndaşdan müdrik alimə qədər hamımn, xalqın bütün təbəqələrinin anlayıb dərk edəcəyi sadə, aydın bir dildə. Görkəmli filosof öz əsərində bizim nəzərdiqqətimizi Heydər Əliyevin şəxsi keyfiyyətlərindəki ən vacib və indiyədək çoxlarının dərk edə bilmədiyi ən zərif və ən incə məqamlara yönəldir. Bu məqamlardan ən mühümü bu tarixi şəxsiyyətin varlığına hakim kəsilmiş azərbaycançıhq ideologiyasıdır. Heydər Əliyevin bütün əməllər toplumu məhz bu işıqlı ideyanın içindən pöhrələnib. Əsəri oxuduqca məlum olur ki, Heydər Əliyev bizim hər birimiz kimi sadəcə Azərbaycanın sinəsi ilə addımlayan adi bir vətəndaş deyil. O, küll halında Azərbaycanı bütün vətəndaşları ilə birgə öz iç dünyasında daşıyan bir varlıqdır. Daha dəqiq desək, o, Azərbaycan deyilən bu məmləkətin özüdür. Bunu onun gördüyü işlər də sübut edir. Hələ 19691982-ci illərdə, yəni onun 13 illik ilk hakimiyyəti dövründə bəlkə 13 əsrlik zəfər yolu keçdi Azərbaycanımız. O öz fədakar zəhmətiylə Bakınm sinəsində ikinci Bakı yaratdı. Bu gün milyonlarla yurddaşımızm məskunlaşdığı 10 mikrorayon, paytaxtımızm yeraltı dünyası boyu uzanan 17 metrostansiyası, respublikamızın müxtəlif bölgələrində yurd salmış, məhsulları uzun illər boyu dünyanın əksər ölkələrinə ixrac edilən 250dən artıq nəhəng sənaye müəssisəsi, paytaxtımızın zinəti olan Respublika, "Gülüstan", idman sarayları, Prezident Aparatının və Milli Məclisin əzəmətli binaları, öz gözəlliyi ilə şəhərimizə gələnləri məftun edən "Azərbaycan", "Bakı", "Abşeron", "Naxçıvan-Hyatt Regency" kimi yaraşıqlı mehmanxanalar, ədəbiyyat və incəsənət, elm və mədəniyyət xadimlərimizin əzəmətli heykəlləri, nəhəng memarlıq ansamblları, institut və nəşriyyatlar, inzibati mərkəzlər, tədris korpusları, bir sözlə, saymaqla qurtarınayacaq qədər böyük tikinti-quruculuq işləri Heydər Əliyevin titanik zəhmətinin, onun sözlə ifadə edilə bilməyəcək qədər misilsiz fədakarlığının, vətənə, xalqa tükənməz məhəbbətinin bariz nümunəsidir. Heydər Əliyev təkcə bugünü yox, öz bəsirət gözü ilə uzaq gələcəyi belə aydın görmək qüdrətinə malik bir şəxsiyyətdir. O öz fəhmi ilə SSRİ deyilən qondarma qurumun nə vaxtsa dağılacağını, xalqların imperiya zəncirlərini parçalayıb öz müstəqilliyinə qovuşacağını və bu müstəqilliyi qoramaq üçün güclü milli orduya böyük ehtiyac duyulacağını əvvəlcədən dərk edirdi. "Ordusuz ölkə silahsız əsğər kimidir. Onun çətinliklər önündə duruş gətirə bilməyə

cəyi şəksizdir", deyə hələ 33 il əvvəl öz beynində ilk Milli ordumuzun yaradılış konsepsiyasını hazırlayırdı. 1970-ci illərin əvvəllərində Cəmşid Naxçıvanski adına hərbi liseyin ilk bünövrə daşlarının qoyulması və ölkəmiz müstəqilliyə qovuşduqdan sonra Azərbaycan Milli ordusunun məhz həmin liseyin yetirmələri olan hərbi kadrlar hesabına yaradılması bu dahi şəxsiyyətin uzaqgörənliyinə əyani sübutdur. Ölkə rəhbərimiz hələ özünün ilk hakimiyyəti dövründə gələcəkdə müstəqil dövlətimizin idarə olunmasında təcrübəli milli kadrlara böyük ehtiyac duyulacağını da dərindən hiss edirdi. Çünki ölkənin polad dayağı yalnız öz peşələrinin mahir ustaları olan səriştəli kadrlardır. Elə buna görə də bu çətinliyi vaxt ikən aradan qaldırmaq üçün minlerlə azərbaycanlı gəncin SSRİ-nin müxtəlif ali məktəblərində təhsil almalarına geniş şərait yaratdı. Bu gün müstəqil Azərbaycanımızın dövlət strukturlarında, sənaye və kənd təsərrüfatı obyektlərində, elm və mədəniyyət müəssisələrində çalışanların əksəriyyəti məhz həmin dövrün yetirmələridir. Bütün bu dediklərimiz, həmçinin o böyük vətənpərvər şəxsiyyətin hələ sovet imperiyasının hökmranlıq etdiyi, çirkin kommunist ideologiyasının mənəviyyatımıza hakim kəsildiyi o məşəqqətli illərdə belə adətənənələrimizin, müqəddəs ana dilimizin, zəngin tariximizin, mədəniyyətimizin, bütün millimənəvi dəyərlərimizin göz bəbəyi kimi qorunub saxlanılması və geniş təbliği sahəsində həyata keçirdiyi tədbirlər kompleksi də professor Ramiz Mehdiyevin bu qiymətli əsərində konkret faktlar və misallarla təsvir və təhlil edilir. Fundamental əsərləri ilə elm aləmində özünə layiqli yer tutmuş, dövlət idarəçiliyi sahəsində zəngin təcrübəyə malik görkəmli filosofalim və ictimai-siyasi xadim Ramiz Mehdiyevin son dərəcə dərin məzmunlu əsərində Heydər Əliyevin 1982-ci ildə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi ali vəzifə kürsüsünə qalxdıqdan sonra öz zəngin idarəçilik və yüksək təşkilatçılıq bacarığına söykənərək SSRİ miqyasında gördüyü cahanşümul işlərdən, tükənməz enerjisinin, yalnız özünəməxsus yeni iş üslubunun, görkəmli dövlət xadiminə və mahir diplomata xas ali keyfiyyətlərin ona qısa dövrdə yeni tipli siyasi lider kimi təkcə İttifaq miqyasında deyil, həm də dünya miqyasında necə böyük nüfuz və şöhrət qazandırdığı barədə də iftixarla söz açır. Əgər Heydər Əliyev 1969-1982-ci illərdə yalnız bir respublikayaazərbaycana rəhbərlik edirdisə, 1982-1987ci illərdə 15 nə-

həng respublikanın son dərəcə genişmiqyaslı və çoxşaxəli sahələri təhsil, elm və mədəniyyətindən tutmuş tikinti-quruculuq işlərinə qədər onun ciddi nəzarəti altında idi. Ancaq iş şəraitinin son dərəcə gərgin olmasına baxmayaraq, öz doğına məmləkəti olan Azərbaycan bir an belə onun nəzərdiqqətindən yaymmırdı. Çünki Azərbaycan onun üçün sadəcə vətəndaşı olduğu ölkə deyil, damarların dan axan qanıdır, döyünən ürəyidir, vuran nəbzidir, düşünən beynidir, danışan dilidir. Görkəmli filosofun öz qiymətli əsərində qeyd etdiyi kimi, o vaxt təkcə Azərbaycanda deyil, küll halında SSRİ miqyasında görkəmli elm və mədəniyyət xadimlərimizin təntənəli yubiley mərasimlərinin keçirilməsi, onlardan bəzilərinin dövlət mükafatma, Sosialist Əməyi Qəhrəmanı, SSRİ xalq artisti kimi fəxri adlara layiq görülməsi, ölkənin ən ali orden və medalları ilə təltif olunması da milli mədəniyyətimizi dar bir çərçivədən dünya arenasına çıxarınaq ehtirası ilə qovrulan möhtərəm Prezidentimizin əsl azərbaycançılıq ideologiyasının ayrılmaz tərkib hissələridir.

Müdriklərdən birinin dediyi kimi, dövlət 4 sütun üstə bərqərardır: hökmdarın ədaləti, alimlərin ağlı, comərdlərin səxavəti, dindarların inamı üstə. Heydər Əliyev bütün bunların sintezidir. Əgər 1969-1982-ci illərdə həyatm bütün sahələrində qazandığımız böyük uğurlar olmasaydı, bəlkə də SSRİ deyilən o qondarına qurumun dağılış prosesi ərəfəsində ölkənin məşhur mütəxəssisləri "Sovet İttifaqı süquta uğrayacağı təqdirdə 15 respublika arasında yalnız ikisinin Rusiya və Azərbaycanın iqtisadi nöqteyinəzərdən müstəqil yaşamaq qüdrətinə malik olacağını" bəyan edə bilməzdilər. Və bu uğurlar, Ramiz Mehdiyevin öz əsərində qeyd etdiyi kimi, hər şeydən öncə 1969-cu ildə hakimiyyət kürsüsünə qalxmış o qüdrətli şəxsiyyətin Heydər Əliyevin titanik zəhmətinin, siyasi uzaqgörənliyinin, xalqı öz ətrafında vahid bir əqidə bayrağı altında birləşdirmək bacarığının nəticəsi idi.

Biz ötən əsrin ikinci onilliyinin əvvəlində itirdiyimiz müstəqilliyimizi əsrin sonuncu onilliyinin əvvəlində 1991-ci ildə yenidən tapdıq. Lakin bu müstəqilliyin ilk üç ili gərgin, təhlükəli dövr kimi tarixdə qaldı. Ramiz Mehdiyevin dəqiq faktlara söykənən bu fundamental əsərində qeyd olunduğu kimi, əgər Heydər Əliyev 1993-cü ildə xalqın arzusu və təkidli tələbi ilə yenidən hakimiyyət kürsüsünə qalxmasaydı, az qala tarix səh-

nəsindən silinmək təhlükəsi qarşısında qalmış Azərbaycanımızı ölüm adlı kabusun iti caynaqlarından qoparıb yenidən həyata qaytarınağın qeyri-mümkün olacağı şəksiz idi. Çünki ölkədə tam hakimiyyətsizlik hökm sürürdü. Özbaşınalıq, xaos, hərcmərclik ölkəni öz ağuşuna almışdı. Respublikanın sərvətləri talan edılir, vaxtilə Heydər Əliyevin ağır zəhmət bahasına yaratdığı və tam gücü ilə işləyən nəhəng sənaye müəssisələrinin qiymətli avadanlıqları sökülüb xarici bazarlarda hərraca qoyulur, yüz minlərlə təcrübəli mütəxəssis küçələrə tökülüb işsizlik əzabına düçar olur, bu haqsızlığa qarşı öz haqq səsini ucaldanlar ağır fıziki və mənəvi təzyiqlərə məruz qalır, ağıl kürsülərində ağılsızlar əyləşdirilir, aclıq, yoxsulluq bütün ölkə boyu meydan sulayır, şəxsi mənafelər dövlət mənafeyini üstələyirdi. Artıq səbir kasası coşubdaşan xalq ümidini yalnız bir nəfərə Heydər Əliyevə bağlamışdı. Əgər bu böyük şəxsiyyət 1987-ci ildə Moskvada vəzifədən uzaqlaşdırıldıqdan sonra dərhal Azərbaycan rəhbərliyinə dəvət olunsaydı, söz yox ki, nə 20 Yanvar qırğmları baş verərdi, nə də Xocalı faciəsi. Nə Azərbaycanımızın döyünən qəlbi sayılan Dağlıq Qarabağımız erməni faşizminin vəhşi hücumlarına tuş olardı, nə digər 7 rayonumuz, nə də paytaxtımızın sinəsində, Dağüstü parkda xalqımızm bugünkü və gələcək nəsillərinə əbədi göz dağı olacaq Şəhidlər xiyabam "pöhrələnərdi". Nəhayət ki, xalqımız gec də olsa özünüdərkə qayıtdı və o böyük şəxsiyyəti imdada çağırdı. Taleyə şükürlər olsun ki, cənab Heydər Əliyev də canından artıq sevdiyi xalqının xahişini yerə salmadı və öz polad qətiyyəti və sarsılmaz iradəsinə söykənib Azərbaycanımızı daxili və xarici iblislər sürüsünün iti caynaqlarından xilas etdi. Torpaqlanmızın 20 faizini işğala məruz qoymuş vəhşi erməni ordusunun qarşısına polad sədd çəkib onların ayaqlarını durduqları yerdə torpağa mismarlamaqla atəşkəsə nail oldu. Dövlət çevrilişi cəhdlərinin, terror aktlannın qarşısmı qətiyyətlə aldı. İctimai-siyasi sabitliyə nail oldu. Ölkədə möhkəm qanunverici baza və Azərbaycanımızın müstəqilliyi keşiyində möhkəm dayanan, gərək olsa, onun işğal altında olan torpaqlarını qısa müddətdə azad etmək qüdretinə malik güclü, sarsılmaz, nizami ordu yaratdı. Azərbaycanda siyasi, iqtisadi, hüquqi, demokratik islahatlar həyata keçirdi, onun təsisatlarını yaratdı və bu islahatlar həyatm bütün sahələrində ölkənin tərəqqisinə güclü təkan verdi. Dövlət başçısının həyata keçirdiyi "açıq qapı" siyasəti

planetimizin əksər ölkələri ilə Azərbaycan arasında azad ticarətin inkişafına, 19891993-cü illərdə əhalisi hətta bir doyumluq çörəyə möhtac qalan ac, çılpaq məmlekətimizin qısa bir zaman çərçivəsində mağazaları, küçə və meydanları dünyanın ən nadir məhsullarının bolluğunda üzən bir respublikaya çevrilməsinə güclü təkan verdi. O, 1994-cü ilin sentyabrında planetimizin ən nəhəng şirkətləri ilə "Əsrin müqaviləsi"ni imzalamaqla Azərbaycanı dünya neft strategiyasının əsas mərkəzlərindən birinə çevirdi. Çox keçmədi ki, daha 21 neft müqaviləsi imzalandı. Həmin müqavilələrdən sonra subkontraktların həyata keçirilməsinə 400-dən artıq xarici şirkət cəlb edildi. Bağlanmış müqavilələrə əsasən 30 il ərzində Azərbaycanın neft sənayesinə 60 milyard dollar sərmayə qoyulacağı planlaşdırıldı. Bakı-Supsa neft kəməri artıq 5 ilə yaxındır ki, Xəzərimizin qara qızılını dünya ölkələrinə ixrac etməkdədir. İndiyədək "Çıraq" yatağından 200 milyon barreldən artıq neft çıxanlıb. Bu gün Bakı-Tbilisi-Ceyhan ixrac neft boru kəmərinin də inşası sürətlə davam etməkdədir. 2010-cu ildə həmin kəmərlə dünya bazarlarına ildə 50 milyon ton neft ixrac ediləcək. Dörd yüz ildən bəri öz fəaliyyətini dayandırmış Böyük İpək yolunun yenidən dirçəlib dünya xalqlarının böyük ticarət mərkezinə çevrilməsi, AvropaQafqazAsiya nəqliyyat dəhlizinin tərəqqisi, Xəzər hövzəsindəki güclü karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılması layihələrinin səmərəli surətdə həyata keçirilməsi də Azərbaycan Prezidentinin misilsiz zəhmətinin və böyük fədakarlığının təntənəsidir. Tarix boyu birbirlərinin qürbətində yaşamış 33 ölkə xalqlan arasında sülh və əminamanlığın, dostluq və qardaşlığın daha da qranitleşməsində, həmin ölkələrin sosial-iqtisadi tərəqqisində mühüm rol oynayacaq Böyük İpək yolunun bərpası sahəsindəki mısilsiz xidmətləri Heydər Əliyevin təkcə rəhbəri olduğu bir ölkənin, bir xalqın rifahı üçün yox, küll halında 33 ölkə xalqlarının sabahkı səadet və xoşbəxtliyi, dinclik və əminamanlığı namınə çarpışan bəşəri əməllər carçısı, dünyəvi bir lider olduğuna əyani sübutdur. Dünya ölkələri arasında məsafəni 1000 kilometrlərlə qısaltmağa, aylarla vaxta, milyardlarla dollar vəsaitə qənaət etməyə imkan yaradacaq, Avropa ilə Asiyanm qovuşuğunda qərar tutmuş Azərbaycan üçün bitib tükənməz bir kapitala çevriləcək, ölkəmizin sosial dirçəlişi və xalqımızm firavan həyatı üçün polad bünövrə olacaq Böyük İpək yolunun bərpasını ida-

rəetmə mərkəzinin məhz Bakıda yerləşməsi də möhtərəm Prezidentimizin beynəlxalq aləm tərəfindən Yer kürəsində böyük nüfuz sahibi, Azərbaycanın isə dünya məmləkətləri arasında sabit və demokratik bir ölkə kimi tanınmasını təsdiqləyən amillərdir. Respublikamızda özəlləşdinnə proqramının uğurla həyata keçirilməsinin, sahibkarlığa geniş meydan verilməsinin, 71 il ərzində yalnız imperiyaya xidmət etmiş biçarə kəndlilərin öz halal torpaqlarının əsl sahibinə çevrilməsinin, kiçik, orta və iri müəssisələrin özəlləşdirilib səhmdar cəmiyyətə çevrilməsinin, qiymətlərin liberallaşdırılmasının, bank, maliyyə, vergi sistemlərinin yeniləşdirilməsinin, təhsil, nəqliyyat, səhiyyə və digər sahələrdə aparılan köklü dəyişikliklərin nəticəsidir ki, milli məhsul xeyli artıb, maliyyə sistemində inflyasiyanın qarşısı qətiyyətlə alınıb. 1994-cü ildə respublikamızda inflyasiya 16001800 faiz həddində olduğu halda, bu gün onun sıfıra enməsi, milli valyutanın, manatm dəyərinin artması, Azərbaycan iqtisadiyyatı ilə dünya iqtisadiyyatı arasında birliyin günbəgün möhkəmlənməsi, 1994-cü ildə bir dollarınıız belə olmadığı halda bu gün ölkənin valyuta ehtiyatınm bir milyard 300 milyon dolları keçməsi, 1999-cu ildən bəri xarici investisiyanın 40 faizinin neft sektoruna, 60 faizinin isə digər sahələrə sərf olunması sayəsində iqtisadiyyatımızın çoxşaxəli təreqqisi və Azərbaycanın həyatın bütün sahələrində öz inkişaf sürətinə görə bu gün də MDB ölkələri arasında liderliyi öz əlində saxlaması qəlbimizi qürur hissi ilə doldurmaqdadır.

Sovet hakimiyyəti illərində öz içinə qapanıb qalmış Azərbaycanımızın bu gün planetimizin əksər ölkələri ilə diplomatik əlaqələr qurması, məmləkətimizin BINT-nin, ATƏT-in, Avropa Şurasının, İslam Konfransı Təşkilatının, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının və digər nüfuzlu beynəlxalq və regional siyasiiqtisadi qurumların tamhüquqlu üzvünə çevrilməsi, hər şeydən öncə, öz ali müdrikliyi, polad qətiyyəti, möhkəm siyasi iradəsi, nadir dövlətçilik istedadı ilə tanınmış, dünya şöhrətli Prezidentimiz Heydər Əliyevin öz ölkəsini dünya ölkələri kəhkəşanının ən parlaq ulduzlanndan birinə çevirmək arzusu ilə yaşayan bu böyük ürəkli şəxsiyyətin hüdudsuz zəhmətinin nəticəsidir. Heydər Əliyevin 34 il ərzində Azərbaycan üçün gördüyü ən mühüm işlərin sadəcə adlarını xronoloji ardıcıllıqla yazsaq belə, 34 səhifəlik bir qəzetin azlıq edəcəyi şəksizdir.

Çünki o, adi şəxsiyyət deyil, dünya okeanları boyu səfərə çıxmış Azərbaycan adlı nəhəng gəminin mahir sükançısıdır. O, nəhəng bir akademiyadır: ağıl və müdriklik, qeyrət və mərdanəlik, hünər və cəsarət akademiyası. O, milli şüurumuzun, milli özünüdərkimizin dirçəliş yoludur. Onun gözləri hər doğulan sabahımızın dan yeridir. Onun əlləri planetimizin bütün qitələri boyu dalğalanan milli bayrağımızdır. Onun mətin iradəsi azadlıq və müstəqilliyimizin polad bünövrəsidir. Və nəhayət, o qüdrətli şəxsiyyət Azərbaycan deyilən bu ali məmləkətin özüdür.

Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin gərgin elmi araşdırmalarının, çox müdrik və peşəkar filosof təfəkkürünün bəhrəsi olan, dərin elminəzəri təhlilə və ümumiləşdirmələrə söykənən qiymətli əsəri oxuduqca bir daha əmin oluruq ki, müəllifin dediyi kimi: "Yaşadığımız dövr tarixə Heydər Əliyev epoxası kimi daxil olacaqdır. Gələcək nəsillər taleyin bizə bəxş etdiyi bu tarixi dövrü böyük qibtə hissi ilə xatırlayacaq, öyrənəcək, təhlil edəcəkdir. Bizim hər birimiz isə bir vətəndaş kimi taleyin bizə bəxş etdiyi bu nadir imkandan ölkənin tərəqqisi naminə istifadə etməyə hazır və qadir olmalıyıq. Heydər Əliyevin Azərbaycan tarixinə təsiri çox böyükdür. O, müstəqil Azərbaycan dövlətinin arxitekturasını yaratmış, milli dövlətçiliyimizin ideya təməlini qoymuşdur. İllər keçəcək və çiçəklənən Azərbaycanın vətəndaşları bir gün deyəcəklər: Heydər Əliyev ölkəni idarə edir, onun ideyaları zamanın smağından çıxmışdır və bu gün də insanların şüurunda və qəlbində yaşayır. Ölkədə fəaliyyət göstərən siyasi və iqtisadi sistem əsl vətəndaşın, böyük şəxsiyyətin, qüdrətli liderin əməyinin bəhrəsidir". Həqiqətən də Heydər Əliyevin dövlətçilik konsepsiyası bütün əsrlər, bütün zamanlar üçündür. O, Azərbaycanımızın əbədiyaşarlığının simvoludur. Ulu rəhbərimizin dünya azərbaycanlılarının qurultayındakı nitqində xalqımıza xitabən söylədiyi "Qoy çaylarımız qurumasın! Qoy ağaclarımız kəsilməsin! Qoy çırağımız sönməsin!" kəlamlarını möhtərəm filosofumuz öz əsərində çox haqlı olaraq milli dövlətçiliyimizi formalaşdıran və inkişaf etdirən azərbaycançılıq ideologiyasına da şamil etməyin zəruriliyindən söz açır. Və biz üzümüzü möhtərəm Prezidentimizə tutub qətiyyətlə deyirik: inan bizə, ulu rəhbər! İnan ki, azərbaycançılıq ideologiyasını qidalandıran tükənməz çaylar heç vaxt qurumayacaq! Azərbaycançılıq ideologiyasını göylərə qaldıran Azərbaycan elminin,

mədəniyyətinin, ədəbiyyat və incəsənətinin zirvələrini heç vaxt qara buludlar almayacaq! Azərbaycanm həmişəyaşıl sərvətlər ormanlığından bir ağac belə kəsilməyəcək! Azərbaycanın və onun dövlətçiliyinin başı üzərində daim Günəş nur saçacaq! Azərbaycan xalqı yaşadıqca, Azərbaycan mədəniyyəti çiçəkləndikcə, azərbaycançılıq ideologiyası inkişaf etdikcə Azərbaycan milli dövlətçiliyi də əbədi var olacaqdır!

**Zeynal VƏFA,**
**"Azərbaycan"**

*23 oktyabr, 2003*

# MİLLİMƏNƏVİ DƏYƏRLƏRƏ ÇAĞIRIŞ VƏ QAYIDIŞ

***Bizim hamımızın bir vətəni var bu, Azərbaycan dövlətidir. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ənənələrini, mənəvi dəyərlərini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır.***

**Heydər ƏLİYEV**

Həyatını xalqının səadət və firavanlığına bağlayan, bütün ömrü boyu bu nəcib xidmətdə müdrikcəsinə dayanan Heydər Əliyevin fəaliyyətinin geniş mənzərəsini dolğun və dəqiq ifadələrlə, faktlarla, bariz misallarla canlandırmaq hər müəllifə qismət olmur. Heydər Əliyevin mənalı ömrünün bütün məqamları haqqında o müəlliflər diqqətçəkən fikir söyləməyi bacanrlar ki, onlar bu və digər halda bu müdrik insanın sərəncamları ilə həyata keçirilən tədbirlərin, islahatlann ya iştirakçısı, ya da yaxından müşahidəçisi olublar. Bu tarixi və nadir şəxsiyyət həmişə diqqət mərkəzində dayanıb. İstər yerli, istərsə də xarici ölkələrdən olan müəlliflər cənab Heydər Əliyevin fəaliyyətini müxtəlif istiqamətdən təhlilə çəkiblər. Bu faktı təkrarlamaqdan qürur duyuruq ki, ümummilli liderimizin bənzərsizliyi, qeyriadiliyi, qüdrəti, iradəsi qələm sahiblərinin qəlbində daima xoş hisslər, təsirlər yaratmaqdadır. Bu mövzu böyük maraqla hamını özünə çəkir.

Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin "Əsl vətəndaş, böyük şəxsiyyət və qüdrətli lider haqqında bəzi düşüncələr" adlı əsərini oxuduqca yeni-yeni mövzular haqqında düşünməli olursan. Heydər Əliyev şəxsiyyətinin qeyri-adi parlaq cizgiləri, dövlət başçısı kimi bitkin obrazı gözümüz önündə dayanır. İstər-istəməz bu dahi insanla bağlı deyilmiş bir fikirlə mütləq razılaşmalı olursan ki, həqiqətən Heydər Əliyevin bütün fəaliyyəti bir həyat dərsidir. XX əsrin 60-cı illərindən xalqımızın azadlığı, xoşbəxtliyi, müstəqilliyi yolunda çalışan, mübarizə aparan, yaradan Heydər Əliyev Azərbaycan adlı bir məmləkətin bütün məsuliyyətini öz çiyinlərinə götürdü.

Heydər Əliyevin həmişə bir amalı olub: "Azərbaycan heç bir ölkənin təsiri altına düşməyəcəkdir. Azərbaycan öz müstəqilliyini qoruyacaqdır. Bu da bir Prezident kimi mənim siyasətimin əsas ana xəttidir. Bunun üçün də hamı bir yolla getməlidir. Burada başqa bir yol yoxdur. Burada başqa yolla gedən adam, demək, məqsəd daşıyır. O məqsədlərə bu gün Azərbaycanda yer yoxdur".

Ümummilli liderimiz haqqında söylənilən fikirlərdən biri çox önəmlidir: "Heydər Əliyev Azərbaycan üçün taleyin Tanrı payıdır". Etiraf edək ki, bu inamdan gələn həqiqətə üz tutsaq, bu sözlərin kəsb etdiyi mənalarla mütləq razılaşmalı olacağıq. Bu şərəf çox az insanın qisməti olub ki, sağlığında əfsanəyə çevrilsin. Həm xalqının məhəbbətini qazansın, həm də dünyanın diqqət mərkəzində dayanaraq minlərin, milyonların rəğbətinə səbəb olsun. Möhtərəm Heydər Əliyevlə təkcə fəxr etmirlər, həm də ona həsəd aparırlar, heyrət edirlər. "Həyatımın sonuıa qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm" söyləyən Heydər Əliyev el və dünya məhəbbətini, bax, bu fədakarlığına görə qazanıb.

Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev "Əsl vətəndaş, böyük şəxsiyyət və qüdrətli lider haqqında bəzi düşüncələr" adlı elmi əsərində Heydər Əliyev şəxsiyyətinin böyüklüyünü şərtləndirən mühüm cizgiləri inandırıcı və maraqlı faktlarla oxucuya çatdırır. Bu fikirlər mətbuatda müsbət əkssədaya səbəb olur. Müəllif öz düşüncələrində bizim hər birimiz üçün müəyyən tezislər verir. Bu əsərə hansı yöndən yanaşsan, müxtəlif mövzularla üzləşirsən. Hamı etiraf edir ki, Azərbaycan mədəniyyətinin Heydər Əliyev qədər ikinci bir qayğıkeşi, himayədarı olmayıb. Heydər Əliyev respublikaya rəhbərliyinin bütün dövrlərində mədəniyyət işçilərinə, sözsənət sahiblərinə, ədəbimədəni abidələrimizə, klassiklərimizə son dərəcə diqqətlə, həssaslıqla yanaşıb və bu ənənə indi də davam edir. Heydər Əliyevin ədəbiyyat, mədəniyyət, incəsənət, musiqi, heykəltəraşlıq, rəssamlıq haqqında yürütdüyü fikirlər, söylədiyi kəlamlar hətta bu sahənin dərin bilicilərini də heyrətə gətirir. Etiraf edək ki, Heydər Əliyev hər bir sənət əsərinə, mədəni hadisəyə elə mövqedən yanaşır, elə orijinal fikir söyləyir, mənalı izahını verir, dəyərləndirir ki, bunu heç bir nəzəriyyəçi bu dərəcədə dəqiq, ətraflı və mükəmməl təhlilə çəkə bilmir. Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin əsərini oxuduqca

mürəkkəb vəziyyətli həyatımızın tarixə dönmüş səhifələrı bir daha gözümüz önündə açılır. Müəllifin fikirləri bu böyük şəxsiyyətin, qüdrətli insanın əməllərindən bəhrələnməyin zərurətini parlaq şəkildə oxucuya çatdırır: "Heydər Əliyev Azərbaycana elə xidmət edir ki, bizlərdən hər biri də ölkəmizə onun kimi öz ağılzəkasının tam gücü ilə xalqın milli tarixinə və mənəvi dəyərlərinə qayğıkeş münasibətlə, Azərbaycanın milli sərvətlərini artırmaq və hər bir vətəndaşa layiqli yaşayış təmin etmək istəyi və əzmi ilə xidmət etməlidir. O, ümumxalq məhəbbəti və hörmətini ancaq belə qazana bilmişdir. Onun bütün həyatı milli tariximizin salnaməsinə düşməyə layiq olan seçmə nümunədir".

Milli dəyərlərimizlə bağlı cənab Heydər Əliyevin fikri məlumdur: "Biz öz milli-mənevi dəyərlərimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu sınaqlardan keçmiş bu mənəvi əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik". İnsanı yer üzünün əşrəfi edən, xalqları birbirindən fərqləndirən onun mənəvi aləmi və adətənənəsidir. Daxili aləmin zənginliyi, mənəviyyatm yad təsirlərdən qorunması insanı cəmiyyətin ən ləyaqətli üzvlərindən birinə çevirir. Belə adamlarla həmişə xalq fəxr edir, öyünür. Ramiz Mehdiyev adı çəkilən əsərdə xatırladır: "Şübhəsiz ki, Heydər Əliyev öz xalqının psixologiyasının xüsusiyyətlərini, mentalitetini çox gözəl bilən xarizmatik liderdir. Onun həyatında hadisələrin sanki öncədən müəyyənləşdirilmiş gedişini təkcə sözün gücü ilə dəyişdirə bildiyi hallar çox olmuşdur. Heydər Əliyevin şəxsi nümunəsi bizim hamımızı, onun həmvətənlərini ruhlandırır və qurub yaratmağa həvəsləndirir".

Müəllifin yazdığı kimi, 1993-cü ilin 10 oktyabrında "Heydər Əliyev əlini Konstitusiyaya və Qurana basaraq Azərbaycan xalqına sədaqətlə xidmət edəcəyinə, müstəqil dövlətimizin dünya birliyində layiqli yer tutmasına çahşacağına, Azərbaycan xalqının milli və mənəvi ənənələrinə daim sadiq olacağına və bu ənənələrin müstəqil dövlətimizdə bərqərar olmasını, yaşamasını və inkişafım təmin edəcəyinə and içdi". Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin xatırlatdığı bu məqamlar o günlərdə baş verirdi ki, Azərbaycanda xaos hökm sürürdü. Sanki mənəviyyatsızlıqla mənəviyyat döyüşü gedirdi. İşıqla qaranlığın, pisliklə yaxşılığın çarpışdığı məqamlarda bütün mənəvi dəyərlər uçurumun başında dayanmışdı. Onu xilas edən, yenidən xalqa qaytaran məhz Heydər Əliyev oldu.

Azərbaycanın düyünlənmiş bir çox probleminin həllini ancaq Heydər Əliyev müəyyənləşdirə bildi. Təsəvvürə gətirin ki, xaosun içində dayanmağın bir an mümkün olmadığı məqamlarda ölkə başçısı hər addımını min dəfə düşünüb bir dəfə qətiyyətlə atmağı bacardı. "Heydər Əliyev ölkənin bir çox problemlərinin siyasətin, iqtisadiyyatın və ictimai həyatın məğzini və mahiyyətini müəyyənləşdirən problemlərin həllinin açarını tapmışdır... O, azərbaycanlıların necə güclü iradəyə və ruha malik olduqlarını, onun xalqımn necə böyük enerji və intellektual potensiala sahib olduğunu öz timsalmda bütün dünyaya nümayiş etdirdi".

Bu, hər şeydən əvvəl, mənəvi qələbə idi. Ramiz Mehdiyev məhz bu qələbənin mahiyyətini şərh edir: "Heydər Əliyev həmvətənlərinə sabahkı günə olan inamsızlığı, vahiməni və ümidsizliyə qapılmaq hissini aradan qaldırmağa kömək etdi".

Azərbaycanda təkcə dövlət quruculuğunun, iqtisadi dirçəlişin, həyatın müxtəlif sahələrindəki tərəqqinin deyil, millimənəvi dəyərlərə qayıdış da, onun itirilməmesi də, qorunub saxlanması da Heydər Əliyevin fədakar əməyi, ağlı və idrakı ilə bağhdır.

Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev yaşadığımız keçmiş quruluşun ziddiyyətli günlərində baş verənləri zamanın güzgüsündə ümummilli liderimizin fəaliyyəti boyu ancaq və ancaq öz doğına xalqını düşündüyünü maraqlı faktlarla şərh edir: "Heydər Əliyevin respublikanın rəhbəri vəzifəsində fəaliyyətinin ilk günlərindən aydın oldu ki, onun simasında Azərbaycan xalqı öz milli liderini tapmışdır. Bir tərəfdən o, keçmiş SSRİ-də sovet və partiya həyatında hakim olan bütün nonnalara son dərəcə dəqiq və nəzakətlə əməl edirdi. O dövrdəki nitqleri ilə tanış olarkən başa düşürsən ki, onun özü də kommunizm amallarına ürəkdən inanırdı. Bununla yanaşı, o, sovet mədəniyyətinin ənənəvi formuluna formaca milli və məzmunca sosialist mədəniyyəti formuluna tamamilə yeni bir məna verə bilmişdir. Onun gördüyü bütün işlər formal surətdə marksizmleninizm ideologiyasınm tələblərinə uyğun gəlirdi. Buna baxmayaraq, o, əvvəlki standart stereotipləri qırır, hansısa yenilikləri daxil edə bilirdi ki, bunlan da o illərdə başa düşmək və dəqiq formalaşdırmaq çətin idi. Əslində isə bunlar olduqca aydın nəticələrə gətirib çıxarırdı. O, milli ruhun dirçəldilməsinə, öz zəmanəsinin Azərbaycan mədəniyyətinin inkişafına və çiçəklənməsinə nail olmaqla yanaşı, həm də bütün ziyalıla-

rın, bütün Azərbaycan xalqının diqqətini tarixi və mədəni qaynaqlara yönəltmişdir. O illərdə biz Azərbaycan dilini, Azərbaycan ədəbiyyatını, Azərbaycan tarixini, Azərbaycan musiqisini nadir milli mədəniyyətimizin qapılarını özümüz üçün sanki təzədən açır və yenidən qiymətləndirirdik".

Hamımız şahidik ki, respublikamızda görkəmli sənət adamlarının, mədəniyyət xadimlərinin yubileyləri, maddi-mənəvi abidələrimizin mühafizəsi ilə bağlı dövlət başçımız tərəfindən müxtəlif sərəncamlar imzalanır, tədbirlər həyata keçirilir. Mənəviyyatm zənginləşməsinə xidmət edən hər kiçik hadisə belə diqqətdən yayınmır. Dünya azərbaycanlılarının birliyi naminə keçirilən qurultay və digər mərasimləri xatırlayaq. Bunların hamısının bünövrəsini qoyan, bütün azərbaycanlıları mənəvi və milli birliyə çağıran məhz Heydər Əliyevdir. Müdrik rəhbərimiz nitqlərində dönədönə vurğulayıb ki, bütün qələbələrin yolu birinci növbədə mənəviyyatdan keçir. Xalqın milli dirçəlişi, milli qürur hissləri olmasa, başqa hər şey əhəmiyyətsizdir.

Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda keçirilən ilk yubiley 1969-cu il oktyabrın 10da görkəmli dramaturqumuz Cəfər Cabbarlının 70 illiyi olub. Cəmi on gün sonra bu yubiley Moskvada keçirilib. Bunun səbəbini və mahiyyətini çox sərrast şəkildə təhlilə çəkən Ramiz Mehdiyev xatırladır: "Lakin ona diqqət yetirək ki, bir tərəfdən Azərbaycan sovet dramaturgiyasının banisi Cəfər Cabbarlının yubileyi ənənəvi sovet qanunqaydalarına uyğun olaraq keçirildi, digər tərəfdən isə burada tamamilə "qeyri-ənənəvi cəhətlər" vardı. Sovet ədəbiyyatşünaslığının adətən fikir vermədiyi əsərlər ictimaiyyətin diqqət mərkəzinə çıxarılırdı. Yeni nəsil özü üçün tamamilə yeni bir Cabbarlını kəşf etdi, o Cabbarlmı ki, rəsmi ideologiya çərçivəsində bəzən Ezop dili ilə elə məsələlərə toxunurdu ki, bu, Azərbaycanın keçdiyi tarixi yolun nadirliyi barədə hammı düşünməyə vadar edirdi. Dərk edirdik ki, biz hamımız olduqca böyük tarixi sərvətləri, çox yüksək tolerantlıq, dini və etnik dözümlülük şəraitini qoruyub saxlamış və zəmanəmizə, bizə gətirib çatdırmış əcdadlarımızın yaratdıqları misilsiz mənəvi xəzinənin varisləriyik. Bu yubiley tədbirlərinin bütün iştirakçıları fikrən Azərbaycan tarixinin zərdüştilik və atəşpərəstlik dövrünə qayıdır, XX yüzilliyin başlanğıcındakı mürəkkəb sosial prosesləri gözlərinin qarşısına gətirir, milli teatrın, dünyəvi təhsil sisteminin təşəkkülünün təfərrüatına vaqif olurdular".

Milli-mənəvi dəyərlərə yönələn diqqət birinci növbədə ana dilinə olan münasibətdən çox asılıdır. Prezidentimizin sözləridir: "Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir". Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev əsərində maraqlı bir məqamı xatırladır ki, 1972-ci ildə rəsmi tədbirlərin birində Heydər Əliyevin Azərbaycan dilində danışığına heyran olan bir yazıçı ona "Yoldaş Əliyev, Siz azərbaycanca nə gözəl danışırsmız" deyəndə Heydər Əliyev gülümsəyərək belə cavab vermişdi: "Sən niyə mənim rusca gözəl danışmağıma deyil, azərbaycanca danışmağıma təəccüblənirsən? Bu, mənim ana dilimdir, mən bu dili bilməliyəm, eləcə də hamımız". Bilirsiniz bu qətiyyətli fikir nə vaxt söylənilirdi? Sovet imperiyasınm belə məsələlərə kəskin münasibət bəslədiyi vaxtlarda. Ramiz Mehdiyevin buna münasibəti düşündürücüdür: "Bunlar adi sözlər deyildi. Bu sözlərin Azərbaycan ziyalılarının milli tərbiyəsinə təsirinin gücü ana dilinə uzun müddətdən bəri davam edən çox soyuq münasibətə son qoya bildi". Cənab Heydər Əliyevin dilimizlə bağlı fikir və kəlamları çoxdur. Müəllif Heydər Əliyevin bu mövzudakı aforizmlərini qürurla xatırladır: "Millətin milliliyini saxlayan onun dilidir. Şübhəsiz ki, musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Əgər Azərbaycan dili olmasa, Azərbaycan dilində ədəbiyyat da olmaz. Azərbaycan dili olmasa, Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunların hamısı birbirinə bağlıdır. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, həm də azərbaycançılıq məsələsidir".

Xalqın təkidli tələbi ilə 1993-cü ildən yenidən respublikamıza başçılıq edən möhtərəm Heydər Əliyev "hətta iqtisadiyyatla bağlı məsələlərdə də mənəviyyat problemlərini heç vaxt diqqətdən kənarda qoymur, çünki o öz ölkəsinin iqtisadi inkişafmı hər zaman mənəvi mədəniyyət problemləri ilə sıx bağlılıqda, vahid axarda görür".

Xalqa öz kökünü, mənəvi dəyərlərini xatırlatmaq, gənc nəsli tarixini, milli adətənənələrini bilməyə vadar etmək həm iftixar hissi doğurur, həm də dünya mədəniyyətində Azərbaycanın hansı mənəvi sərvətlərin, incilərin sahibi olduğunu bir daha bəyan edir.

Bir azərbaycanlı kimi, biz öz milli-mənəvi dəyərlərimizi yalnız bilməklə kifayətlənməli deyilik. Bu, azdır. Biz onu həm də qorumalı və təbliğ etməliyik. "Heydər Əliyev Azərbaycanı azərbaycanlılara qaytardı" fikrinin bu yöndə məna yükü, şaxəsi çoxdur. On il əvvəl cəmiyyətdə baş verənləri bir daha xatırlasaq, görərik ki, dağılan təkcə iqtisadiyyat deyildi. Sanki mənəvi gücümüz də tükənmişdi. Millimənəvi dəyərlərimiz sıradan çıxmışdı. Ramiz Mehdiyevin fikir süzgəcindən keçən düşüncələri hər bir azərbaycanlınm qəlbindən xəbər verir: "Azərbaycanın böyük dövlətlərin arasında məngənəyə almdığı ağır bir vaxtda Heydər Əliyev öz xalqının xilaskarı kimi gəldi. O, tədricən, qətiyyetlə, amma təzyiqsiz məcbur edə bildi ki, onun özünə və respublikaya hörmət etsinlər. Bunu yaxın və uzaq dövlətlərlə münasibətlərdə etmək o qədər də çətin deyildi, çünki bu ölkələrin rəhbərləri başa düşürdülər ki, Heydər Əliyevi asılı vəziyyətə salmaq mümkün deyil və o, Azərbaycanın müstəqilliyindən və özgürlüyündən heç vaxt imtina etməyəcəkdir".

Heydər Əliyevin böyüklüyünü, qüdrətini, müdrikliyini yalnız Azərbaycanın ziyalıları, siyasət adamları, adi insanlar deyil, dünyanın apancı kütləvi informasiya vasitələri də çap etdikləri yazılarda dönə-dönə vurğulayırlar. Adı çəkilən əsərdə müəllifin Fransanın "Kuryer İnteraasional" jurnalının Baş redaktoru Aleksandr Adlerdən gətirdiyi sitat hər birimizi dərindən düşünməyə vadar edir: "Nə sülh, nə də firavanlıq gətirən tufanların tüğyan etdiyi müasir dünyada Heydər Əliyev kimi dövlət xadimləri həmişəkindən daha çox gərəkdir. Tanrı bu şəxsiyyəti təkcə öz xalqına deyil, həm də başqa xalqlara son dərəcə mürəkkəb tarixi bir məqamda göndərmişdir. O, bir sıra ciddi böhranlar keçirmiş və onları dəf etmişdir. O, hamısına mətanətlə sinə gərmiş və onu mənən və cismən məhv etmək üçün göstərilmiş bütün cəhdlərə baxmayaraq daha yüksəklərə qalxmışdır".

"Tanrı Heydər Əliyevi təkcə öz xalqı üçün göndərməyib". Bu həqiqəti təkcə biz yox, özgələri də görür və deyir. Məmləkətimizdən çox uzaqda yaşayan fransızlar... söyləyirlər. Kənardan hər şey olduğu kimi görünür. Cənab Heydər Əliyevə olan bu rəğbətin ıçindəki həsəd, qibtə də aydın duyulur. Bütün bunlar isə zamanın bir hökmünü təsdiqləyir ki, cənab Heydər Əliyev Azərbaycan xalqının tarixində elə bir mövqeyə sahib dur-

muşdur ki, nəinki illər, əsrlərdən sonra da belə bu torpaqda yaşayan vətəndaşlanmız Heydər Əliyevin gördüyü möhtəşəm işlərdən, böyük Şəxsiyyətindən, qeyriadi Vətəndaşlığından, qüdrətli Liderliyindən məhəbbətlə danışırlar və danışacaqlar.

**Flora XƏLİLZADƏ,**
**"Azərbaycan"**

*30 oktyabr, 2003*

# III FƏSİL

# DÜNYA FİKİR XƏZİNƏSİNƏ VERİLƏN QİYMƏTLİ İNCİ

## Ramiz MEHDİYEV:

## "HEYDƏR ƏLİYEV İRSİ DÜNYA SİYASİ ELMİNİN QİYMƏTLİ NAİLİYYƏTİNƏ ÇEVRİLƏCƏK"

***Müsahibimiz Prezidentin İcra Aparatının rəhbəri, fəlsəfə elmləri doktoru, professor Ramiz MEHDİYEVDİR***

- Ramiz müəllim, artıq başa çatmış 2003-cü ildövlətimizin və xalqımızın taleyində hansı məqamlarla yadda qalacaq? Keçən il Azərbaycanın inkişafı istiqamətində hansı proseslərlə əlamətdar oldu?

Qeyd etmək lazımdır ki, 2003-cü il bütünlüklə Azərbaycan dövlətinin bütün istiqamətlər üzrə möhkəmlənməsi, Azərbaycan rəhbərliyinin siyasətinin həm ölkə vətəndaşları tərəfindən, həm də dünyanın nüfuzlu gücləri, aparıcı dövlətləri tərəfindən qəbul edilməsi, dəstəklənməsi ilə əlamətdar olmuşdur. Keçən il təqvimə Heydər Əliyev siyasi xəttinin, strateji kursunun təntənəsi kimi daxil olmuşdur. İlin ən mühüm hadisələri sırasına isə, şübhəsiz, Azərbaycanda yeni Seçki Məcəlləsi əsasında prezident seçkiləri keçirilməsini, cənab Heydər Əliyevin 80 illik yubileyinin ümumxalq bayramı kimi qeyd olunmasını, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin çəkilişinin həlledici mərhələyə daxil olması və onun bir mənalı şəkildə reallaşmasını, iqtisadiyyatda və dövlət quruculuğunda islahatların daha da dərinləşməsini və bütün sahələri əhatə etməsini, Dövlət büdcəsindən maliyyələşən bütün kateqoriyadan olan işçilərin maaşlarının artırılmasını, Bakıda və rayonlarda quruculuq və abadlıq işlərinin aparılmasını, müəssisələrin açılmasını və s. aid etmək lazımdır.

Əlbəttə, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vaxtsız vəfatı dövlətimiz və xalqımız üçün, bütün vətəndaşlarınıız üçün ağır itkidir. Xalqımız bu bəd xəbəri sonsuz kədər və üzüntü ilə qarşıladı. Çox təəssüf ki, cənab Heydər Əliyevin gördüyü böyük işlər, dünya miqyaslı

layihələr tam reallaşmaqda olduğu, səmərəsini verməyə başladığı bir zamanda xalqımızın rəhbəri dünyasını dəyişdi.

2003-cü ilin ən mühüm siyasi hadisəsi kimi oktyabrın 15də keçırilən prezident seçkilərini qeyd etdiniz. Ümumiyyətld, seçkilərin hazırlığını, gedişini və nəticələrini necə qiymətləndirirsiniz?

2003-cü il prezident seçkiləri həm qanunvericilik təminatı, həm də təşkilati işlər və siyasi fəallıq baxımından yüksək səviyyədə keçmişdir.

Bütün seçkiləri əhatə edən vahid Seçki Məcəlləsi tərtib edilmiş, seçki qanunvericiliyi Avropa standartlarına uyğunlaşdırılmışdır. Həm Avropa Şurasının və ATƏT-in ekspertləri, həm də Azərbaycanda prezidentliyə namizədlər və partiya fıınksionerləri bildirmişlər ki, bu məcəllə ilə demokratik, ədalətli seçkilər keçirmək mümkündür. Seçkilərin normal hazırlanması və keçirilməsi, namizədlər üçün bərabər təbliğat imkanlarının yaradılması üçün zəruri tədbirlər görülmüşdür. Seçkilər həm prosesin özünün yüksək səviyyədə təşkili, səsvermə prosesinə yeniliklərin tətbiq olunması, həm də elektoratın yüksək fəallığı ilə çox əlamətdar olmuşdur. Mən deyərdim ki, aparılmış yüksək təşkilat və təbliğat işi nəticəsində seçkilər misli görünməmiş siyasi fəallıq, ruh yüksəkliyi şəraitində keçmişdir. Seçkidə iştirak edənlərin böyük əksəriyyəti Azərbaycanda sabitliyi və firavanlığı təmin etmiş Heydər Əliyev siyasi kursuna, bu kursun layiqli davamçısı İlham Əliyevə səs vermişlər.

Fikrinizcə, cənab İlham Əliyevin qələbəsini şərtləndirən amillər hansılardır?

Cənab İlham Əliyevin qələbəsi Azərbaycan vətəndaşları və müşahidəçilər tərəfindən təbii qarşılandı. Hələ avqust ayında cənab İlham Əliyevin Baş nazir təyin olunmasını vətəndaşlarınıız, Azərbaycanı sevən bütün insanlar böyük ruh yüksəkliyi ilə, razıhqla qarşıladılar. Azərbaycan vətəndaşları, müxtəlif əhali qrupları uzun illərin təcrübəsinin nəticəsi olaraq Heydər Əliyev siyasi kursunu yeganə düzgün, alteraativi olmayan siyasət kimi qəbul edirdi və özü üçün yalmz bu kursun təmsilçisinə səs verəcəyini qətiləşdirmişdi. Bunu Azərbaycanda siyasi qüvvələr nisbətini, real namizədlərin şanslarını müşahidə edən obyektiv xarici ekspertlər, sorğu mərkəzləri də təsdiq edirdilər. Seçkidən öncəki aylarda ABŞın nüfuzlu Beynəlxalq Respublikaçılar İnstitutunun keçirdiyi sorğuların nəticələri

də dediklərimizi bir daha təsdiq edir. Sorğular hakimiyyət namizədinin seçkidə ən azı 64 faiz səs alacağmı, Yeni Azərbaycan Partiyasının isə təxminən 70 faiz populyarlığa malik olduğunu göstərirdi. Lakin seçkiqabağı aylarda İlham Əliyev tərəfindən görülən quruculuq işləri, düzgün qurulmuş təbliğat işi onun nüfuzunu, xalqın aparılan siyasətə inamını daha da artırdı. İlham Əliyevin rəqibləri isə öz təbliğatmı əsasən hakimiyyətin siyasətini tənqid üzərində, müəyyən qədər də real olmayan vədlər üzərində qurdular. Həm də bu vədlər o qədər fantastik, tənqidə davamsız idi ki, hətta siyasətçi və mütəxəssis olmayanlar belə onların canlı həyatla və siyasətlə əlaqəsi olmadığmı görürdülər. Opponentlərin çıxışları, bir qayda olaraq, bütün sahələrdə əldə edilmiş uğurlardan imtinanı, iqtisadiyyatda, kadr məsələlərində kəskin dəyişikliyi, çox vaxt birbirinə zidd olan tezisləri ehtiva edirdi. Nəticədə xalq haqlı olaraq indiki radikal müxalifətin timsalmda dağıdıcı, destruktiv qüvvələri, xaos, anarxiya daşıyıcılarını görürdü. Digər tərəfdən, İlham Əliyevin opponentləri öz təbliğatında çirkin siyasi texnologiyalardan, xalqımızın mentalitetinin və düşüncəsinin qəbul etmədiyi, etikadan uzaq terminologiyadan istifadə edirdilər və bu da vətəndaşlar tərəfindən qəbul olunmur, onlarda ikrah və təəssüf hissi doğururdu. Cənab İlham Əliyev isə təbliğatda Heydər Əliyev siyasi kursuna sadiq olduğunu daim vurğulayaraq bu kursu davam etdirəcəyini bildirir, əldə edilmiş uğurlara, konkret elmi hesablamalara əsaslanmaqla xalqa real vədlər verirdi. Xalqımız isə çoxdandır ki, nağıllara, "inqilabiromantik" süjetlərə inanmır, eyni zamanda, faktlara və hadisələrə obyektiv qiymət verməyi öyrənib. Deyə bilərəm ki, bu gün azərbaycanlılarda reallıq hissi daha güclüdür. İlham Əliyev müxalifət başçılarının yolu ilə getməyərək öz rəqiblərini televiziya ekranlarından təhqir etmədi, onlann şəxsiyyətini alçaltmadı, etikadankənar ifadələrə yol vermədi, onlarla yalnız arqumentlərin və faktların köməyi ilə polemika apardı. Vətəndaşlar, seçicilər İlham Əliyevin ciddiliyini, səmimiliyini, siyasi mədəniyyətini, intellektini bir daha müşahidə etmək imkanı qazandılar. Nəticədə İlham Əliyev rəqibləri üzərində parlaq qələbə qazandı, müxalif namizədlərin yaxın gələcəkdə onunla rəqabət aparmaq şanslarını darmadağın etdi, Azərbaycanda siyasi qüvvələrin düzümündə və gələcək siyasi münasibətlərdə yeni tendensiyalara güclü təkan verdi.

Prezident İlham Əliyev seçkiqabağı görüşlərində ölkənin hələ də həllini gözləyən problemlərinin qarşıdakı beş il ərzində nizamlanacağı nı bəyan etmişdi. Bu vədin reallaşması üçün xüsusi tədbirlər planı hazırlanırmı?

Qeyd etdiyimiz kimi, cənab Prezident İlham Əliyev xalqa, seçicilərə real, yerinə yetirilməsi mümkün olan vədlər verdi. İnsanlar isə bu vədlərin real olduğuna, artıq həyatda öz təsdiqini tapmış uğurlara söykəndiyinə əmin oldular. Müxalifət namizədlərindən fərqli olaraq, İlham Əliyev kifayət qədər dövlət idarəçiliyi təcrübəsinə malikdir, ona etibar edilmiş sahələrdə etimadı doğrulda bilmişdir. İlham Əliyev yaxın beş il ərzində ölkənin qarşısında hansı əsas problemlərin, prioritet vəzifələrin durduğunuaydın təsəvvür edir və onların həlli üçün konkret planlara, proqramlara, icrası üçün mobil, peşəkar, yüksək iş qabiliyyətli komandaya malikdir.

Başlıcası isə, bu işləri həyata keçirmək üçün cənab İlham Əliyev siyasi iradəyə sahibdir. Cənab Prezidentin noyabrın 24də imzaladığı "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafm sürətləndirilməsi tədbirləri haqqında" fərman məhz belə bir siyasi iradənin təzahürüdür. Məlum olduğu kimi, fərmanda işsizliyin aradan qaldırılması, regionların dinamik inkişafının təmin edilməsi, maliyyə intizammm möhkəmləndirilməsi, sənayenin və aqrar bölmənin inkişafı, icra strukturları tərəfindən vətəndaşların zəruri ehtiyaclarına və qanuni tələblərinə diqqətlə yanaşılması və s. məsələlər barədə konkret tapşırıqlar müəyyənləşdirilmişdir. Bu cür proqram xarakterli sənədlər bundan sonra da zərurət olduqca qəbul ediləcək.

Başlıcası isə onların vaxtında və keyfiyyətlə icrasını təmin etməkdir.

Yeri gəlmişkən, cənab İlham Əliyevin seçkiqabağı platformasının ən mühüm bəndlərindən biri qarşıdakı beş ildə Azərbaycanda 600 min iş yerinin açılması haqqında öhdəlikdir. Sosial-iqtisadi sahədə işlərin ağırlığı əsasen bu sahəyə yönəldiləcək. Şərti olaraq götürsək, hər il 120 min iş yeri açmaq lazım gələcək. Düşünürük ki, bu, çətin, gərgin axtarışlar, düzgün və cəsarətli makroiqtisadi, vergimaliyyə siyasəti yürüdülməsini tələb edən, lakin real məsələlərdir. Biz hər bir Azərbaycan ailəsinə normal səviyyədə yaşamağa və özünü inamlı hiss etməyə imkan verən şərait yaratmaq istəyirik və buna nail olacağıq. Onu da deyim ki, artıq aqoniya dövrünü yaşayan ifrat radikal müxalifətin təbliğat orqanları bu məsələdə hə

mişə olduğu kimi, spekulyasiya ilə məşğuldurlar. Seçki ərəfəsində müxalifət namizədləri hər il 500 min iş yeri açmağı, əmək haqlannı və maaşları qısa müddətdə 35 dəfə artırmağı vəd edir və bu vədləri yorulmadan təkrar edirdilər. İndi isə Azərbaycan Prezidentinin beş ildə 600 min iş yeri açmaq vədinin real olmadığmı sübut etməyə çalışır, onun yerinə yetirilməsinin "mümkünsüzlüyü" barədə müxalif mövqeli "iqtisadçı ekspertlərin" rəylərini mətbuat səhifələrində yerləşdirirlər. Lakin belə rəylər bizim üçün və bütün sağlam düşüncəli vətəndaşlarınıız üçün əhəmiyyətsizdir.

ErmənistanAzərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli qarşıdakı illərdə xarici siyasi fəaliyyətin əsas istiqaməti olacaqdır. Cənab İlham Əliyev artıq bu istiqamətdə dövlət başçısı kimi ilk addımlar atmış, Minsk qrupu həmsədrlərini qəbul etmiş, Ermənistan prezidenti ilə birinci ikitərəfli görüş keçirmişdir. Əminik ki, Prezident İlham Əliyev problemin Azərbaycanın ümdə maraqları qoranmaqla beynəlxalq hüquq normaları çərçivəsində sülh yolu ilə həlli üçün bütün mümkün imkanlardan istifadə edəcək və mühüm nəticələrə nail olacaq.

Xarici dövlətlər, beynəlxalq təşkilatlar tərəfindən seçkilərin legitimliyinin və nəticələrinin tanındığını bildirirsiniz. Bu kontekstdə ATƏT DTİHBin rəyini necə qəbul etmək olar?

Bəli, seçkilərdən dərhal sonra əksər beynəlxalq təşkilatlar, dünyanın aparıcı dövlətlərinin başçıları Azərbaycanda seçkilərin qanun və ədalət əsasında keçirildiyini qəbul etdilər və bunu öz təbrik məktubların  da ifadə etdilər, cənab İlham Əliyevlə əməkdaşlıq etmək arzularını bildirdilər. Onlar İlham Əliyevin şəxsində Azərbaycanda sabitliyi, regional layihələrin təhlükəsizliyini təmin etməyə qadir olan, beynəlxalq alemlə sivil münasibətlər qurmağa çalışan etibarlı tərəfdaş görərək onun dövlət başçısı seçilməsini razılıqla qarşıladılar. ATƏTin müşahidəçilər missiyasınm rəyini isə çoxsaylı qiymətləndirmələrdən biri kimi, bir qedər fərqli baxış kimi qəbul etmək lazımdır. Həm də bu rəyi Qərbdə müəyyən dairələrin Azərbaycan hakimiyyətinə gələcəkdə təzyiq rıçaqlarını saxlamaq cəhdi kimi səciyyələndirmək olar. Çünki Qərbdə müəyyən dairələrə güclü hakimiyyəti olan Azərbaycan sərfəli deyil.. Bu dairələrə daha çox zəif hakimiyyəti olan, daha çox daxili siyasi məsələlərə başı qarışmış hakimiyyət maraqlıdır. Düşünürəm ki, elə buna görə də həmin qüvvələr indi iflic vəziy-

yətinə düşmüş, sosial bazasını, demək olar, tamam itirmiş ifrat radikal müxalifətin toparlanmasında, özünə gəlməsində maraqlıdırlar. Daxili siyasi proseslərə müəyyən təsiri olan, xarici dairələrin diktəsi ilə oturubduran, hakimiyyət naminə istənilən şərti yerinə yetirməyə hazır olan sistemdən kənar müxalifətin olması belə dairələr üçün son dərəcə vacibdir. Rəyin qeyriobyektivliyi, qərəzliliyi də bununla bağlıdır. Biz bu rəyi olduğu kimi qəbul etmirik və ona öz etirazımızı bildirmişik. Lakin o da qeyd edilməlidir ki, bizim üçün başlıcası daxili ictimai rəydir, Azərbaycan xalqının iradəsidir. Daxili rəy, xalqın inamı və etibarı isə birmənalı şəkildə Azərbaycan iqtidarına ünvanlanıb.

Radikal müxalifətin antimilli fəaliyydtinin bəzən xarici qüvvələr tərəfindən dəstəklənməsi barədə mülahizələv ictimaiyyətdə, eləcə də müxalifətin öz daxilində geniş müzakirə edilən mövzulardandır. Bu yönümlü fikirləri hakimiyyət də bölüşürmü?

Ümumiyyətlə, müxalifətdəki bir sıra qüvvələrin xaricdəki müəyyən dairələr tərəfindən istiqamətləndirilməsi və idarə olunması barədə məlumatlar Azərbaycan ictimaiyyəti üçün sirr deyil. Həm də qəribə və təəccüblü olanı budur ki, xalqa və dövlətə rəhbərlik etmək iddiasına düşmüş şəxslər qətiyyən utanıb çəkinmədən hansısa xarici qüvvələr, başqa dövlətlərin siyasi qrupları tərəfindən dəstəkləndiyi, "prezident kimi qəbul edildiyi" barədə məlumatları fəxrlə dövriyyəyə buraxır, bununla daxili ictimai rəyə təsir etməyə çalışırlar. Biz Azərbaycanda prezident seçkiləri ərəfəsində "filan dövlət filan siyasətçini prezident kimi qəbul etdi", "filan beynəlxalq təşkilat filan namizədin prezident olmasını istəyir", "filan institut müxalifətə birləşməyi tövsiyə edib" kimi ifadələrə və xəbər başlıqlarına tez-tez rast gəlirdik. Hətta xarici dövlətlərə və beynəlxalq təşkilatlara Azərbaycan müxalifət başçılarına daha cəsarətlə kömək etmək, ona maddi, texniki və mənəvi yardım göstərmək, Azərbaycanda daxili siyasi proseslərə birbaşa müdaxilə etmək, müxalifəti hakimiyyətə gətirmək çağırışları ən populyar mövzular idi. Əgər siyasətçi hakimiyyətə gəlmək üçün xaricdə dəstək axtarırsa, bu onun xalq arasında nüfuzunun olmadığından, müxtəlif manipulyasiyalar hesabına siyasi arenada qalmaq istəyindən xəbər verir. Bu, həmin siyasətçinin bir şəxsiyyət, bir fərd kimi tükənməsinin açıq göstəricisidir.

Daha acınacaqlısı budur ki, özünü müxalifətçi adlandıran şəxslər, onların mətbu orqanları, ideoloqları bir çox hallarda Ermənistan mətbuatı, kütləvi informasiya vasitələrinə müxtəlif spekulyasiyalar üçün mövzular verirlər. Azərbaycanda daxili siyasi vəziyyət, "insan hüquqlarının pozulması", siyasi fəaliyyət azadlığı üçün şərait olmaması haqqında, söz azadlığmın boğulması, korrupsiya və s. dezinformasiyalar yaymaqla Azərbaycan haqqında insan hüquqlarına hörmət etməyən ölkə imici formalaşdırmağa çalışırlar. Müqayisə üçün deyək ki, ölkə daxilində birbirinə çox sərt münasibətdə olan, rəqiblərinə qarşı silah işlədən Ermənistan siyasi partiyaları xaricdə ölkədaxili məsələləri heç zaman müzakirəyə çıxarmır. "Bu bizim daxili işimizdir", deyə qətiyyətli mövqe nümayiş etdirir. Görünür, bizim ölkə müxalifətinin yaxın qonşularımızdan öyrənməli olduğu çox şey var.

Cənab Heydər Əliyev prezidentlik müddətində ölkə müxalifətinin yeni, sivil dəyərlərə əsasən fəaliyyət göstərməsinin vacibliyini daim qabardıb. Bu təşəbbüsün nəzdri məqamları Sizin tərəfinizdən elmi-nəzəri məqalələrdə araşdırılıb və Azərbaycanda yeni müxalifətin formalaşması zərurəti faktların, proseslərin müqayisəsi ilə araşdırılıb. "Yeni müxalifət" dedikdə hansı qüvvələr qəbul olunmalıdır və bu qüvvələrin fəaliyyət istiqaməti hansı prinsipləri ehtiva etməlidir?

Cənab Heydər Əliyev bütün prezidentliyi dövründə ölkədəki siyasi qüvvələrə qarşı ədalətli, korrekt münasibət göstərmiş, onların ictimai-siyasi həyatda tamhüquqlu iştirakı üçün şərait yaratmışdır. Cənab Heydər Əliyev siyasi opponentlərinə münasibətdə həmişə səbir nümayiş etdirərək onları ölkə Konstitusiyası və qanunları əsasında fəaliyyət göstərməyə, xalqın və dövlətin problemləri ilə yaşamağa, konstruktivliyə dəvət etmişdir. O, müxalifətin bir çox qanunazidd hərəkətlərinə göz yummuş, humanizm nümayiş etdirmiş, millətin bir atası kimi onları tərbiyələndirməyə çalışmışdır. "Müxalifətçilik edin, ancaq konstruktiv, sivil müxalifətçilik edin, xalqa, dövlətə qarşı müxalifətdə olmayın" Heydər Əliyevin müxalifət başçılarına tövsiyəsi həmişə belə olub.

Ölkədə yaradılmış demokratik ab-hava, söz, fikir, siyasi fəaliyyət azadlığı nəticəsində bir sıra müxalifəi partiyaları strukturlaşmış, öz çoxsaylı mətbu orqanlarını, beynəlxalq donor təşkilatlardan və fondlardan alman qrantlar hesabına yaşayan və əslində, partiyaların müxtəlif strukturları

funksiyasını yerinə yetirən özlərinə yaxın qeyrihökumət təşkilatları şəbəkəsini yaratmış, təbliğat-təşviqat işini istədikləri (daha doğrusu, bacara bildikləri) səviyyədə qurmuşlar. Başqa məsələ ki, Azərbaycan müxalifəti konstruktivlikdən uzaqdır və ona görə də öz ideolojitəbliğat istiqamətlərini, taktika və strategiyasını düzgün qura bilməyib. Xalqın problemləri, insanların qayğıları ilə maraqlanmaq, onların həlli yollarını göstərmək, taleyüklü məsələlərdə xalqın və dövlətin ümdə mənafelərindən çıxış etmək əvəzinə, Azərbaycanın əksər müxalifət partiyaları, xüsusən onun radikal kəsimi maniakal bir tərzdə nəyin bahasına olursa-olsun hakimiyyətə gələcəyini bildirir, öz siyasi rəqiblərini hədələyir, ksenofobiya təbliğ edir, xaricdə Azərbaycana yad və düşmən qüvvələrlə əməkdaşlıq və sıx əlaqələr qurduqları halda Azərbaycan hakimiyyəti ilə hər hansı kontaktlardan, dialoqdan imtina edirlər. Konkret misallar göstərmək istəyirəm. Azərbaycanın bütün müxalifət partiyaları başçıları həmişə dövlət səviyyəsində təşkil edilən tədbirlərə dəvət olunublar, lakin bütün hallarda heç bir səbəb göstərmədən bu tədbirlərdə iştirakdan imtina ediblər. Dağlıq Qarabağ probleminə hakimiyyətin "laqeyd münasibətindən" danışmağı sevən, hakimiyyəti dünya azərbaycanlılarının qurultaymı keçirməməkdə ittiham edən barışmaz müxalifət başçıları və ideoloqları 2001-ci ilin fevralında Azərbaycanın Milli Məclisində Dağlıq Qarabağ probleminin müzakirəsində iştirakdan imtina etdilər, Dünya azərbaycanlılarının qurultayı kimi ümummilli tədbirə də gəlmədilər. Bunlar acı təəssüf doğuran faktlardır. Radikal müxalifətin bu cür destruktiv, sivil normalarla bir araya sığınayan fəaliyyəti, təbii ki, sadə vətəndaşlar, sağlam düşüncəli insanlar tərəfindən, hətta bu partiyaların normal düşüncəli üzvləri tərəfindən narazılıq və ikrah hissləri ilə qarşılanır. Yorulmadan hakimiyyətə gələcəyini bəyan edən və ayrı-ayrı insan qruplarını müxtəlif vədlərlə öz tərəfinə cəlb edən bu partiyalar bununla gələcək dağılma və iflasın da əsasını qoymuşdular. Seçkilərə qədərki dövrdə yazdığım bir sıra məqalələrdə mən müşahidələr və təhlillər əsasında belə nəticəyə gəlmişdim ki, hakimiyyətə iddia edən ifrat radikal müxalifət partiyaları seçkilərdə labüd məğlubiyyətdən sonra mütləq dağılacaq, dərnək tipli qurumlara çevriləcək. 15-16 oktyabr hadisələri və seçkilərdən sonra bu partiyalarda baş verən proseslər gəldiyimiz qənaətləri tamamilə təsdiq etdi. Cənab İlham Əliyevin Baş nazir təyinatı

ilə müxalifət partiyalarında başlanmış sarsıntı və çaşqınlıq son mərhələyə daxil oldu. Bu gün AMİPdə onun qurucularından və fəal üzvlərindən heç kəs qalmamışdır. Partiyanın siyasi şura üzvlərinin çoxu AMİPdə fəaliyyətin perspektivsizliyini görərək qurumu tərk etmişdir. Müsavat Partiyasında dağılma, parçalanma prosesləri dönməz xarakter almaqdadır. Bu partiyadan da onun rəhbər orqanlarının üzvləri, tanınmış simaları istefa verirlər. Tam əminliklə demək olar ki, bu partiya seçki ərəfəsində malik olduğu az-çox təsir və nüfuzu, elektoratı heç vaxt qazana bilməyəcək, ən yaxşı halda, seçki ərəfəsi gücünün 2025 faizini bərpa edə bilər. Çox güman ki, Müsavatın parçalanması nəticəsində bir neçə qrupun yaranmasını müşahidə edəcəyik. Eyni prosesi Demokrat Partiyası, Əli Kərimovun rəhbərlik etdiyi Azərbaycan Xalq Cəbhəsi Partiyası da yaşamalı olacaqdır.

Yuxarıda qeyd etdiyim kimi, indi ayrı-ayrı beynəlxalq təşkilatlar, media, hüquq müdafiə qurumları siyasi və mənəvi cəhətdən iflas etmiş, xalq arasında dayaqlarını tamamilə itirmiş ifrat müxalifət partiyalarını reabilitasiya etmək üçün cəhdlər göstərirlər. Lakin bununla onlar ən yaxşı halda tam mənada qrantlardan asılı olan korporativ, dəmək tipli qurumlar formalaşdıra bilərler. Xalqın etimadını və inammı isə xarici təşkilatların və qrantların hesabına bərpa etmək mümkün deyil. Azərbaycan siyasi jurnalistikasında yanlış bir ənənə formalaşıb. Ölkədə baş verən siyasi proseslərdən danışarkən hakimiyyətmüxalifət münasibətlərini həmişə siyasi həyatın ən vacib məsələsi kimi, ölkənin sabit və dinamik inkişafının mühüm şərti kimi qələmə verməyə çalışırlar. Əslində, ölkənin siyasi həyatı, inkişafı təmin edən proseslər tamamilə başqa müstəvidə, başqa miqyasda cərəyan edir. Ölkədəki ictimai-siyasi proseslərə bütövlükdə müxalifətin təsiri cüzidir. Əslində, ölkədəki siyasi prosesləri hakimiyyətmüxalifət münasibətlərinə müncər etmək kökündən yanlışdır. Bu xarakterli qəzet məqalələri onun nəticəsidir ki, bəzi jurnalistlər professionallıqdan uzaqdır və ölkədə gedən həmin prosesləri dərindən təhlil etməyə qadir deyillər.

Demək lazımdır ki, "yeni konstruktiv müxalifət" hakimiyyətin, yaxud digər siyasi qüvvələrin sifarişi, istəyi ilə formalaşmır. Buna cəmiyyətin sosial sifarişi olmalıdır. Belə bir sosial sifariş isə, inamla demək olar ki, cəmiyyətdə mövcuddur. Müasir demokratik cəmiyyəti müxalifətsiz təsəvvür etmək mümkün deyil. Normal, konstruktiv müxalifətin olması sivil cə-

miyyətlər üçün müsbət faktordur, cəmiyyətin möhkəmlənməsinə, güclənməsinə xidmət edən amildir. Bu baxımdan sistem daxilində, Konstitusiya, qanunlar çərçivəsində fəaliyyət göstərən, öz fəaliyyətində xalqın, vətəndaşların maraq və mənafelərini əsas götürən konstruktiv, sağlam, vətənpərvər müxalifətin olması ölkəyə, dövlətə də lazımdır.

Yeni, konstruktiv müxalifətin formalaşması mənbələri də müxtəlifdir. Bu, ictimaiyyət üçün yeni olan hansısa "üçüncü qüvvənin" meydana çıxması demək deyildir. Yeni müxalifət ümumi "müxalifət" termini ilə ifadə olunan çoxsaylı partiya və qurumların daxilindən formalaşa bilər. Artıq bu gün Azərbaycanda mövcud olan partiyaların xeyli hissəsi radikallığı, prinsipsiz "barışmazhğı", küçə-meydan mübarizə taktikasını qəbul etmir. Radikal müxalifət partiyalarından ayrılanlar isə, bir qayda olaraq, başqa partiyalarda, yaxud özlərinin yaradacağı qurumlarda siyasi fəaliyyətlərini davam etdirəcəklərini bildirirlər. Yeni Azərbaycan Partiyasından, hakimiyyəti müdafiə edən qüvvələrdən kimlərinsə müxalifətə keçməsi ehtimalı çox azdır. Beləliklə, müxalifət daxilində cərəyan edən proseslər, hadisələrin daxili məntiqi göstərir ki, "yeni müxalifət" "müxalifət" adı altında birləşən cəmiyyət kəsiminin daxilində formalaşacaq, "köhnələr" yeni simalarla əvəzlənəcək.

Siyasi partiyalann fəaliyyətindən danışarkən YAP-ın təcrübəsinə də nəzər saldınız. Hakim partiya yeni siyasi şəraitdə öz fəaliyyətini necə qurmalı və hansı siyasiideoloji hədəfləri müdyyənldşdirməlidir?

Yeni Azərbaycan Partiyasının bugünkü fəaliyyətindən danışarkən qeyd olunmalıdır ki, YAPm yeni şəraitdə işləməsi həm asandır, həm də çətin. Asandır ona görə ki, Azərbaycan ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi altında, xüsusən son on ildə çox uğurlu inkişaf yolu keçib, iqtisadi sahədə, neftqaz layihələrinin reallaşdırılmasında, sosial problemlərin həllində sanballı nailiyyətlər qazanılıb, Azərbaycan dünya birliyinə, qlobal təhlükəsizlik sisteminə möhkəm tellərlə inteqrasiya olunur.

Bütün istiqamətlərdə dövlət quruculuğu müasir sivil standartlara cavab verən səviyyədə aparılıb, demokratik, azad cəmiyyət yaradılması üçün mühüm işlər görülüb. Mərhum Heydər Əliyevin vəfatı ilə bağlı başsağlığı məktublarında, xarici mətbuatdakı analitik yazılarda Azərbaycanın qazandığı bu nailiyyətlər, onun geosiyasi əhəmiyyəti, xalqımızm parlaq və fi-

ravan gələcəyinə inam ifadə olunurdu. İndi vəzifə bu güclü, fundamental nəzəri-ideoloji və maddi-institusional baza üzərində qazanılmış uğurları daha da inkişaf etdirməkdən, onları öz məntiqi sonluğuna çatdırmaqdan ibarətdir. YAPm işini asanlaşdıran ən mühüm məqam ondan ibarətdir ki, partiya xalq içərisində böyük inam kreditinə sahibdir, vətəndaşların böyük əksəriyyəti tərəfindən dəstəklənir. İnsanlarımız cənab İlham Əliyevə elliklə səs verməklə Heydər Əliyev siyasətinin davam etdirilməsini istədi. Digər tərəfdən, irəliyə doğru gedən magistral yolun istiqaməti, konturları artıq məlumdur, sadəcə, bu yolu inamla, sürətlə keçmək üçün əzm və iradə nümayiş etdirmək, bu magistral xəttə yeni şəraitə uyğun korrektələr etməklə onu sona qədər getmək, fıravan, təhlükəsiz, azad Azərbaycan idealını tamamilə reallaşdırmaq gərəkdir.

Eyni zamanda, hakim partiya olan YAPm işini çətinləşdirən, onu daha məsuliyyətli olmağa, gərgin fəaliyyət göstərməyə, axtarışlar aparınağa vadar edən səbəblər də var. Bunların ən mühümü ondan ibarətdir ki, çox təəssüf, bu gün YAP-ın lideri ideoloqu, onun qurucusu cənab Heydər Əliyev artıq həyatda yoxdur. Ümummilli liderimiz daim partiyaya bilavasitə rəhbərlik edərək onun taktikası və strategiyasını, konkret dövr üçün proqramını, fəaliyyət metodlarını və istiqamətlərini müəyyən edirdi. Bu itkinin partiya üçün yerini doldurmaq çox çətindir, demək olar, qeyri-mümkündür. Bu baxımdan Yeni Azərbaycan Partiyası cənab Heydər Əliyevin bilavasitə rəhbərliyi olmadan fəaliyyət göstərməyə məcburdur. Lakin Heydər Əliyevin ideyaları, bitkin bir elminəzəri platforma olan əliyevçilik ideologiyası bir mayak kimi onun yolunu işıqlandıracaqdır. Xalq Yeni Azərbaycan Partiyasına, qeyd etdiyimiz kimi, böyük bir inam və etibar krediti veribdir, bu krediti doğrultmaq, möhkəmlətmək, daha da artırmaq lazımdır. YAP cənab İlham Əliyevin simasında özünün yeni liderini, ona uğurla rəhbərlik edən başçısını görür. İlham Əliyevin rəhbərliyi YAP üçün, onun daxili cəhətdən güclənməsi, birliyinin və monolitliyinin möhkəmlənməsi üçün çox vacib faktordur.

Bu gün bəzi nisbətən loyal siyasi dairələr dövlət idarəçiliyində müxalifətin də iştirakını arzulayır. Bu təklif iqtidar tərəfindən necə dəyərləndirilir?

Təəssüf ki, siyasi mədəniyyət səviyyəsinin kifayət qədər yüksək olmaması üzündən bir çox partiya fiinksionerləri hakimiyyətmüxalifət dialoqunu məhz hakimiyyətin bölüşdürülməsi, dövlətdə bir sıra mühüm postların opponentlərə verilməsi kimi təqdim etməyə çalışırlar. Müxalifət anlayışı altında hakimiyyətdə olan siyasi qüvvəyə opponentlik edən, onunla əsas məsələlərdə razılaşmayan qurumlar nəzərdə tutulur. Yəni müxaliflik özü hakimiyyət sistemindən kənarda olmaq deməkdir. Lakin əlbəttə, bu, cəmiyyətdən, dövlətdən kənarda olmaq, bir "antisistem" təşkil etmək kimi başa düşülməməlidir. Müxalifət sistem daxilində bir müxalif qüvvə olmalıdır. Bu baxımdan müxalif siyasi qüvvələrin dövlət idarəçiliyində iştirakı ilə təklifinin özü yersizdir.

Digər tərəfdən, indi Azərbaycanda hakimiyyətə gəlməyə iddia edən bir çox qüvvələrdən fərqli olaraq, Heydər Əliyev hakimiyyəti (indi demək olar ki, İlham Əliyev hakimiyyəti də) komanda prinsipi ilə təşkil olunub, burada vahid siyasi xətt mövcuddur. Lakin müxalifətdən kimsə hakim komandanın mövqeyini, siyasətini tamamilə qəbul edərsə, səmimiyyətlə işləməyə razı olarsa, bu məsələlərə fərdi qaydada baxıla bilər və biz bunu istisna etmirik.

***Hakimiyyət komandasının peşəkarlardan ibarət olduğunu bildirirsiniz. Bəs yeni kadr hazırlığı yönümündə görülən işləri necə, qənaətbəxş saymaq olarmı?***

Müasir tələblərə cavab verən, demokratik idarəçilik prinsiplərinə əsaslanan kadr hazırlığı dövlət quruculuğu sahəsindəki işimizin mühüm istiqamətlərinden biridir. Bugünün kadrları müasir idarəçilik metodlarına inadla yiyələnməli, geniş dünyagörüşünə malik olmalı, informasiya texnologiyalarını bilməlidirlər. Dövlətə sədaqət, vətənpərvərlik, mənəvi təmizlik, ciddilik və tələbkarlıq kimi keyfiyyətlər də mühüm əhəmiyyət kəsb edir. Son illərdə bu sahədə istər qanunvericilik bazasının yaradılması, istərsə də əməlitəşkilati tədbirlər səviyyəsində xeyli iş görülmüşdür. Dövlət idarəçiliyində islahatlar üzrə komissiyanm yaradılması, Prezident yanında Dövlət İdarəçilik Akademiyasınm təşkili, "Dövlət qulluğu haqqında" qanunun və xeyli sayda normative hüquqi aktların qəbulu, icra strukturlarının islahatı və yenidən qurulması, kadrların attestasiyasının keçirilməsi üzrə tədbirlər və s. bu tədbirlərə aydınlıq gətirən misallardır. Biz bu

istiqamətdə işlərimizi davam etdirərək xarici ölkələrin təcrübədə sınaqdan çıxmış iş metodların dan və formaların dan istifadə edəcəyik. İndi yalnız köhnə inzibati metodlarla idarə etmək mümkün deyildir. Həyat yeniləşir, inkişaf edir, idarəçiliyə yeni tələblər qoyur. Özünü dövlət idarəçiliyinə həsr etmək istəyən vətəndaşlar bu tələblərə uyğunlaşmalı, öz bilik və bacarıqlarını inkişaf etdirməlidirlər.

***Hakimiyyətdaxili münasibətlər, guya ki iqtidar komandasında hansısa ziddiyyətlərin olması müxalifət mətbuatının diqqətində olan mövzudur. İctimaiyyət üçün maraqlıdır: Heydər Əliyev komandasının üzvləri özlərini yeni Prezidentin komandasında necə hiss edirlər?***

Hakimiyyət komandasında ziddiyyətlər haqqında fikirlər radikal müxalifətə xidmət edən qəzetlərin və təəssüf ki, həm də özünü "müstəqil" adlandıran bir çox qəzetlərin "sevimli" mövzusudur. Daim hakimiyyətdə guya hansısa qruplaşmaların, maraq qruplarının mövcud olması haqqında "materiallar", "ekspert" rəyləri bu cür qəzetlərin səhifələrini doldurur. Əlbəttə, bu cür yazılarda məqsəd kimlərisə çaşdırmaq, kiminsə ürəyinə xalsalmaq, cəmiyyətdə hakimiyyət komandasında monolitliyin olmaması, ziddiyyətlərin baş alıb getməsi haqqında təsəvvürlər formalaşdırmaqdır.

Belə yazılar, digər tərefdən də bu qəzetlərin oxucularının sayını artırmaq onların maddi vəziyyətini yaxşılaşdırmaq məqsədini güdür. Əlbəttə, bu o qədər də nəcib məşğuliyyət deyil.

Sualımızın ikinci hissəsinə gəldikdə, deməliyəm ki, Prezident İlham Əliyev ümummilli liderimiz, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin komandası ilə işləyəcəyini bildirib. Cənab İlham Əliyev kadr siyasətində sabitliyin, varisliyin tərəfdarı olduğunu dəfələrlə bəyan edib. Prezident bildirib ki, onun komandası elə Heydər Əliyevin komandasıdır.

Eyni zamanda, Prezident İlham Əliyev səlahiyyətlərinin icrasına başladığı ilk günlərdən nazirlərə, yüksək vəzifəli məmurlara münasibətdə son dərəcə tələbkar, ciddi olduğunu nümayiş etdirdi. O bildirdi ki, kim vəzifəsinin öhdəsindən layiqincə gələcək, etimadı doğruldacaq, onunla işləyəcək. Lakin kimsə qoyulan tələblərə cavab verməsə, tapşırılan işin öhdəsindən gələ bilməsə, onunla vidalaşacaq. Cənab Prezident Nazirlər Kabinetinin birinci iclasında, "Sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbir-

ləri haqqında" 24 noyabr 2003-cü il tarixli fərmanında əmək və maliyyə intizamının möhkəmləndirilməsini, vətəndaşların qanuni arzu və tələblərinə məmurlar tərəfindən diqqəti münasibət göstərüməsini tələb edib. Bu, bütün səviyyəli məmurlar üçün çox ciddi xəbərdarlıqdır. "Məmurlar dövlət üçün, xalq üçün, vətəudaşlar üçün işləməlidir" - cənab Prezidentin hər bir dövlət qulluqçusundan tələbi budur.

- Son günlər ictimaiyyətin geniş təmsilçilən ümumtnilli liderimiz Heydər Əliyevin adımn əbddildşdirilməsi üçiin müxtəlif təşəbbüslər irəli sürürlər. Bütün təkliflərdə bu fikir özünü aparıcı xətt kimi büruzə verir: dovlət və xalq təhlııkəsizliyi, inkişafı üçün öz rəhbərinə borcunu qaytarmalıdır və liderinin adını tarixə həkk etdirməlidir! Bu təşəbbüslər Prezidentin icra Aparatı tərəfindən necə qiymətldrıdirilir?

- Mərhum Prezident Heydər Əliyevin dəfni və matəm tədbirləri bu böyük şəxsiyyətə ümumxalq məhəbbətinin parlaq təzahürü, onun Azərbaycanda və bütün dünyada nə qədər yüksək nüfuza malik olduğunun əyani göstəricisi oldu. Ümummilli liderimizin həyatdan getməsi milyonlarla insanın sonsuz kədərinə səbəb oldu, vətəndaşlar Əliyevsizliyin onlar üçün nə qədər ağır olduğunu hiss etdilər. İnsanlar dünya təcrübəsində çox az təsadüf olunan kütləviliklə, mütəşəkkilliklə, sevgi və istəklə öz daimi Prezjdenti ilə vidalaşmağa gəldilər. Fəxri xiyaban dahi rəhbərlə vidalaşmağa gələn insanların hamısını qəbul edə bilmir. Azarbaycanın hər yerində, xarici ölkələrdə mərhum Prczidentimizin bütün təəssübkeşləri, onu sevən, hörmət edən insanlar onun xatirəsini yad edirlər. Dünya siyasətçiləri, tanınmış politoloqlar Heydər Əliyev fenomeninə qiymət verilməsi istiqamətində fikirlər söyləyir, araşdırmalar aparırlar. Heydər Əliyevin böyüklüyünü, dünya mjqyaslı lider olduğunu onun siyasi rəqibləri də açıq etiraf edirlər. Düşünürəm ki, zaman keçdikcə, bizı bu böyük insandan ayıran vaxt intervalı artdiqca, onun Azərbaycan üçün, xalqımız üçün etdiyi xidmətlər, gördüyü tarixi işlər daha aydın dərk ediləcək, onun Qafqaz regionu, MDB məkanı üçün əhəmiyyəti layiqincə qiymətiəndiriləcək. Ümummilli liderimizin tarixi irsi, idarəçilik, dovlət quruculuğu təcrübəsi, konfliktləri həll etmək bacarığı, ölkədə və cəmiyyətdə sülhü və harmoniyanı təmin etmək tədbirləri və s. Azərbaycan və dünya siyasi elmi tərəfindən öyrəniləcək, tədqiq ediləcək, ümumiləşdiriləcək. Bu gün artıq cəsarətlə

demək olar ki, Heydər Əliyev irsi dünya siyasi elminin, politoloji fikrin qiymətli nailiyyətinə çevriləcək. O da birmənalıdır ki, Heydər Əliyev xalqımızın bütün tarixi boyu yetirdiyi ən qüdrətli tarixi şəxsiyyətdir.

Təbii, biz xalqımızın rəhbəri, onun mənəvi atası Heydər Əliyev qarşısında insanlıq və vətəndaşlıq borcunu qaytarınalıyıq. Bunun üçün, ilk növbədə, onun bizə qoyub getdiyi mirası inkişaf etdirməliyik, Heydər Əliyevin müəyyənləşdirdiyi magistral yolla irəliləyərək firavan, təhlükəsiz və qüdrətli Azərbaycan qurulması işini uğurla başa çatdırmalıyıq. Hər bir Azərbaycan vətəndaşmı, Azərbaycan ailəsini varlı, qayğısız və xoşbəxt görmək Heydər Əliyevin böyük arzusu idi. O, Azərbaycanın müstəqilliyinin, dönməzliyinin, torpaqlarımızın bütövlüyünün, suverenliyinin təmin edilməsi arzusu ilə yaşayırdı. Bu işlərin görülüb başa çatdınlması bizim hər birimizin mərhum Prezident Heydər Əliyevin ruhu qarşısında ən əsas xidmətimiz olacaq. Əlbəttə, biz ümummilli liderimizin artıq admm əbədiləşdirilməsi qayğısına qalmalıyıq. Deyim ki, bu istiqamətdə təkliflər olduqca çoxdur. Onların müəllifləri sadə vətəndaşlar, yaşayış məntəqələrinin sakinləri, elm, təhsil, istehsalat kollektivləri, dövlət orqanlarının işçiləri, bir sözlə, ən müxtəlif zümrələrə mənsub insanlardır. Heydər Əliyevin adının əbədiləşdirilməsi onun şəxsiyyətinə layiq səviyyədə olmalıdır. Bu mühüm işdə özfəaliyyətə, tələsik qərarlara yol vermək olmaz. Xüsusi dövlət komissiyası tərəfindən müvafiq təkliflər ümumiləşdiriləcək və lazımi qərarlar qəbul ediləcək.

**"AZƏRBAYCAN"**

*3 yanvar, 2004*

# RƏYLƏR

# HEYDƏR ƏLİYEV XALQIMIZIN YETİRDİYİ ƏN QÜDRƏTLİ TARİXİ ŞƏXSİYYƏTDİR

***Prezidentin icra Aparatının rəhbəri, fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin qənaətincə, 2003-cü il təqvimə Heydər Əliyev siyasi kursunun təntənəsi kimi daxil olub***

Yola saldığımız 2003-cü il müstəqil dövlətçiliyini ildənilə gücləndirərək sürətlə dünya birliyinə inteqrasiya olunan və demokratik inkişaf yolunda atdığı ardıcıl addımlarla böyük nüfuz sahibinə çevrilən gənc, müstəqil respublikamız üçün bir sıra əlamətdar, uğurlu hadisələrlə yadda qaldı. Azərbaycanın daha güclü, qüdrətli dövlətə çevrilməsi yolunda son dərəcə mühüm amil olan siyasi sabitlik qorunub saxlanıldı, habelə iqtisadi inkişafa, sosial tərəqqiyə xidmət edən mükəmməl konsepsiyanm həyata keçirüməsində yeni mərhələ başlandı.

Balanslaşdırılmış xarici siyasət kursunun davamlılığının təmin olunması nəticəsində ölkəmizin sivil dünyanın siyasi mənzərəsini müəyyən edən aparıcı dövlətlər və beynəlxalq təşkilatlarla münasibətləri də yeni müstəviyə qədəm qoydu.

Ən əsası, xalqımızın qəlbində özünə əbədi abidə ucaltmış ümummilli lider Heydər Əliyevin banisi olduğu siyasi kurs nəticəsində Azərbaycanın 2003-cü ildə qazandığı nailiyyətləri gündəlik həyatında hiss edən, möhkəm təməllərə söykənən sabitlik, əmin-amanlıq şəraitində yaşayan Azərbaycan vətəndaşının seçimi dəyişməz olaraq qaldı: Heydər Əliyev siyasi kursunun alternativsizliyi ötən ilin əlamətdar hadisələri fonunda bir daha təsdiqləndi. Respublikamız üçün həyati əhəmiyyət kəsb edən bütün sahələrdə qazandığımız həlledici uğurlar, ümumilikdə yola saldığımız ilin yekunları Prezidentin İcra Aparatının rəhbəri, fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin 3 yanvar 2004cü il tarixdə "Azərbaycan" qəzetində dərc olunmuş müsahibəsində geniş şərhini tapıb.

Ötən il Azərbaycanda və bütövlükdə Cənubi Qafqaz regionunda müşahidə edilən qlobal proseslər, hadisələr, faktlar həmin müsahibədə kifayət qədər dolğun, obyektiv və real şəkildə dəyərləndirilib.

## 2003-cü il böyük quruculuq və ağır itki ili

Ötən ilin yekunlarının siyasi-politoloji və praktik təhlilinə yer verən cənab Ramiz Mehdiyev düzgün olaraq bildirib ki, 2003-cü il respublikamızın bütün istiqamətlər üzrə möhkəmlənməsi, Azərbaycan rəhbərliyinin siyasətinin həm ölkə vətəndaşları, həm də dünyanın nüfuzlu gücləri, aparıcı dövlətləri tərəfindən dəstəklənməsi ilə əlamətdardır. Prezidentin İcra Aparatının rəhbəri qeyd edib ki, ötən il təqvimə Heydər Əliyev siyasi xəttinin, strateji kursunun təntənəsi kimi daxil olub. Cənab Ramiz Mehdiyev ilin yaddaqalan hadisələri sırasında Azərbaycanda yeni Seçki Məcəlləsi əsasında prezident seçkilərinin keçirilməsinə, ümummilli lider Heydər Əliyevin 80 illik yubileyinin ümumxalq bayramı kimi qeyd olunmasma, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin çəkilişinin həlledici mərhələyə daxil olmasına, iqtisadiyyatda, dövlət quruculuğunda islahatların daha da dərinləşməsinə və bütün sahələri əhatə etməsinə, dövlət büdcəsindən maliyyələşən bütün kriteriyalardan olan işçilərin maaşlarının artırılmasına, Bakıda və rayonlarda quruculuq, abadlıq işlərinin aparılmasına, müəssisələrin açılmasına və s. xüsusi yer ayırıb.

Prezidentin İcra Aparatının rəhbəri 2003-cü ildə xalqımızın üzləşdiyi ən böyük və sarsıdıcı itki kimi ümummilli lider Heydər Əliyevin əbədiyyətə qovuşmasını diqqətə çəkib: "Əlbəttə, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vaxtsız vəfatı dövlətimiz və xalqımız üçün, bütün vətəndaşlarımız üçün böyük itkidir. Xalqımız bu bəd xəbəri sonsuz kədər və üzüntü hissi ilə qarşıladı. Çox təəssüf ki, Heydər Əliyevin gördüyü böyük işlər, dünya miqyaslı layihələr tam reallaşmaqda olduğu, səmərəsini verməyə başladığı bir zamanda xalqımızın rəhbəri dünyasını dəyişdi".

## Heydər Əliyev siyasi kursuna növbəti etimad

Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev sözügedən müsahibədə 2003-cü il 15 oktyabr seçkilərinin təşkili üçün həyata keçirilmiş çoxsahəli tədbirlər planından geniş söhbət açıb, seçki qanunvericiliyinin Avropa standartlarına cavab verən demokratik ab-havada hazırlanması

üçün ölkə rəhbərliyinin müxtəlif beynəlxalq təşkilatlarla əməkdaşlığının uğurlu nəticələr verdiyini bildirib. Prezidentin İcra Aparatının rəhbəri son seçkilərin istər qanunvericilik təminatı, istərsə də təşkilati işlər və siyasi fəallıq baxımından yüksək səviyyədə keçdiyini vurğulayıb. "Bütün seçkiləri əhatə edən vahid Seçki Məcəlləsi tərtib edilmiş, seçki qanunvericiliyi Avropa standartlarına uyğunlaşdırılmışdır. Həm Avropa Şurasının və ATƏT-in ekspertləri, həm də Azərbaycanda prezidentliyə namizədlər və partiya funksionerləri bildirmişlər ki, bu məcəllə ilə demokratik, ədalətli seçkilər keçirmək mümkündür. Seçkilərin normal hazırlanması və keçirilmesi, namizədlər üçün bərabər təbliğat imkanları yaradılması üçün zəruri işlər görülmüşdür. Seçkilər həm prosesin özünün yüksək səviyyədə təşkili, səsvermə prosesində yeniliklərin tətbiq olunması, həm də elektoratm yüksək fəallığı ilə əlamətdar olmuşdur" deyən Prezidentin İcra Aparatının rəhbəri seçkilərdə cənab İlham Əliyevin həlledici səs çoxluğu ilə qələbə qazanmasını şərtləndirən bir sıra vacib məqamlara da diqqət çəkib.

Onun fikrincə, Azərbaycan vətəndaşlarının bu möhtəşəm qələbəni böyük ruh yüksəkliyi və sevinclə qarşılamasının başlıca səbəbi mütləq əksəriyyətin Heydər Əliyev siyasi kursunu yeganə və alternativi olmayan siyasət kimi qəbul etməsidir. Eyni zamanda, bu kursun təmsilçisinin birmənalı şəkildə qalib gələcəyini seçkiqabağı ərəfədə keçirilən rəy sorğuları da təsdiqləyirdi. Prezidentin İcra Aparatı rəhbərinin qənaətincə, seçkiqabağı ərəfədə İlham Əliyev tərəfindən görülən quruculuq işləri, düzgün qurulmuş təbliğat kampaniyası onun nüflızunu, eləcə də xalqın aparılan siyasətə inammı daha da artırıb. Eyni zamanda, fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev iqtidar və müxalifətin seçkiqabağı təbliğatının kifayət qədər uğurlu müqayisəsini aparıb. "İlham Əliyevin opponentləri öz təbliğatında çirkin siyasi texnologiyalardan, xalqımızın mentalitetinin və düşüncəsinin qəbul etmədiyi, etikadan uzaq terminologiyadan istifadə edirdilər və bu da vətəndaşlar tərəfindən qəbul olunmur, onlarda ikrah və təəssüf hissi doğururdu. Cənab İlham Əliyev isə təbliğatda Heydər Əliyev siyasi kursuna sadiq olduğunu daim vurğulayaraq bu kursu davam etdirəcəyini bildirir, əldə edilmiş uğurlara, konkret elmi hesablamalara əsaslanmaqla xalqa real vədlər verirdi. Xalqımız isə çoxdandır ki, nağıllara, "inqilabiromantik" süjetlərə inanmır, eyni zamanda, faktlara və hadisələrə obyektiv qiymət verməyi öyrənib. Deyə bilərəm ki, bu gün azərbaycanlı-

larda reallıq hissi daha güclüdür. İlham Əliyev müxalifət başçılarının yolu ilə getməyərək öz rəqiblərini televiziya ekranlarından təhqir etmədi, onların şəxsiyyətini alçaltmadı, etikadankənar ifadələrə yol vermədi, onlarla yalnız arqumentlərin və faktların köməyi ilə polemika apardı. Vətəndaşlar, seçiciler İlham Əliyevin ciddiliyini, səmimiliyini, siyasi mədəniyyətini, intellektini bir daha müşahidə etmək imkanı qazandılar. Nəticədə İlham Əliyev rəqibləri üzerində parlaq qələbə qazandı, müxalif namizədlərin yaxın gələcəkdə onunla rəqabət aparınaq imkanlarını darınadağın etdi" deyən fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev müxalifətin yeniləşməsinə və köhnə stereotiplərdən uzaqlaşmasına ehtiyac olduğunu vurğulayıb. Onun fikrincə, yeni müxalifət ümumi "müxalifət" termini ilə ifadə olunan çoxsaylı partiya və qurumların daxilindən formalaşa bilər.

Eyni zamanda, professor Ramiz Mehdiyev son prezident seçkilərinin legitimliyinin aparıcı dövlətlər, o cümlədən beynəlxalq təşkilatlar tərəfindən tanmmasını, bununla əlaqədar cənab İlham Əliyevə çoxsaylı təbrik məktublarının göndərilməsini də ötən ilin mühüm hadisələri sırasında qeyd edib.

ATƏTin Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun qərəz li mövqeyinə gəlincə, Prezidentin İcra Aparatınm rəhbəri haqlı olaraq bu nu Qərbdə müəyyən dairələrin Azərbaycan hakimiyyətinə gələcəkdə təzyiq rıçaqlarını saxlamaq cəhdi kimi qiymətləndirib: "Çünki Qərbdə müəyyən dairələrə güclü hakimiyyəti olan Azərbaycan lazım deyil. Bu dairələrə daha çox zəif hakimiyyəti olan, daha çox daxili siyasi məsələlərə başı qarışmış hakimiyyət maraqlıdır. Düşünürəm ki, elə buna görə də həmin qüvvələr indi iflic vəziyyətinə düşmüş, sosial bazasını, demək olarki, tamamilə itirmiş ifrat radikal müxalifətin toparlanmasında, özünə gəlməsində maraqlıdırlar".

## Dövlət başçısı İlham Əliyev peşəkar, yüksək iş qabiliyyətli komandaya malikdir

Prezidentin İcra Aparatınm rəhbəri ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda sosial, iqtisadi, siyasi, hüquqi və diger sahələrdə başlanmış fundamental islahatların cənab İlham Əliyevin prezidentliyi dövründə uğurla davam etdiriləcəyini, vətəndaşların maddi rifahı

nın daha da yaxşılaşacağını əminliklə vurğulayıb. Bildirib ki, Azərbaycan Prezidentinİn seçki ərəfəsində və seçkidən sonra xalqa verdiyi bütün vədlər əməli işə, praqmatik fəaliyyətə söykənir. Bundan əlavə, müxalifət namizədlərindən fərqli olaraq, cənab İlbam Əliyev kifayət qədər dövlət idarəçiliyi təcrübəsinə malikdir, ona ctibar edümiş sahələrdə etimadı doğrulda bilib: "İlham Əliyev yaxın beş ildə ölkənin qarşısında hansı əsas problemlərin, prioritet vəzifələrin durduğunu aydın təsəvvür edir və onların həlli üçün konkret planlara, proqramlara, mobil, peşəkar, yüksək iş qabiliyyətli komandaya malikdir. Başlıcası isə bu işləri həyata keçirraək üçtin cənab İlham Əliycv siyasi iradəyə malikdir. Cənab Prezİdentin noyabrın 24-də imzaladığı "Azərbaycan Rcspublikasında social-iqüsadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərman məhz belə bir siyasi iradənin təzahürüdür. Məlum olduğu kimi, fərmanda işsizliyin aradan qaldırılması, regionların dinamik inkişafının təmin edilməsi, maliyyə intizamının möhkəmləndirilməsi, sənayenin və aqrar bölmənin inkişafi, icra strukturları tərəfindən vətəndaşların zəruri ehtiyaclarına və qanunii tələblərinə diqqətlə yanaşılması və s. məsələlər barədə konkret tapşırıqlar müəyyənləşdirilmişdir. Bu cür proqram xarakterli sənədlər bundan sonra da zərurət olduqca qəbul ediləcək. Başlıcası isə onların vaxtında və keyfiyyətlə icrasını təmin etməkdir".

Eyni zamanda, cənab Ramiz Mehdiyev ölkə başçısınm növbəti beş ildə ölkədə 600 min yeni iş yerinin açılacağı barədə vədinin real olduğunu, bu istiqamətdə zəruri addımların atıldığını vurğulayıb. Onun sözlərinə görə, sosial-iqtisadi sabədə işlərin ağırlığı əsasən bu sahəyə yönəldiləcək. "Şərti olaraq götürsək, hər il 120 min iş yeri açmaq lazım gələcək. Düşünürük ki, bu, çətin, gergin axtarışlar, düzgün və cəsarətli makro-iqtisadi, vergi-maliyyə siyasətinin yürüdülməsini tələb edən, lakin real məsələlərdir. Biz hər bir Azərbaycan ailəsinə normal səviyyədə yaşamağa və özünü inamlı biss etməyə imkan verən şərait yaratmaq istəyirik və buna nail olacağıq" deyən Prezidentin icra Aparatının rəhbəri onu da əlavə edib ki, Ennənistan Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli indiyə qədər otduğu kimi, qarşıdakı illərdə də Azərbaycanın xarici siyasətinin əsas istiqaməti olacaqdır. O bildirib ki, cənab İlham Əliyev artıq bu istiqamətdə dovlət başçısı kimi ilk addımlarını atıb, Minsk qrupu həmsədrlərini qəbul edib, Ermənistan prezidenti ilə ikitərətli görüş keçirib.

Cənab Ramiz Mehdiyev əmin olduğımu vurğulayıb ki, Prezident İlham Əliyev problemin Azərbaycanın ümdə maraqları qorunmaqla beynəlxalq hüquq və normaları çərçivəsində sülh yolu ilə həlli üçün bütün mümkün imkanlardan istifadə edəcək və mühüm nəticələrə nail olacaq.

**Dünya siyasi elminə ən dəyərli töhfə**

Müsahibə zamanı bir sıra vacib və əhəmiyyətli məsələlərə aydınlıq gətirən fəlsəfə elmleri doktoru, professor Ramiz Mehdiyevin ümummilli lider Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi ilə bağlı çoxsaylı təkliflərə münasibəti də maraq doğurur. Prezidentin İcra Aparatının rəhbəri deyib ki, mərhum Heydər Əliyevin dəfni ilə bağlı matəm tədbirləri bu böyük şəxsiyyətə ümumxalq məhəbbətinin parlaq təzahürü, onun Azərbaycanda və bütün dünyada nə qədər yüksək nüfuza malik olduğunun əyani göstəricisidir. Azərbaycanın hər yerində, xarici ölkələrdə mərhum Prezidentimizin bütün təəssübkeşləri, onu sevən, hörmət edən insanlar xatirəsini ehtiramla yad edirlər: "Düşünürəm ki, zaman keçdikcə, bizi bu böyük insandan ayıran vaxt intervalı artdıqca, onun Azərbaycan üçün, xalqımız üçün etdiyi xidmətlər, gördüyü tarixi işlər daha aydın dərk ediləcək, onun Cənubi Qafqaz regionu, MDB məkanı üçün əhəmiyyəti layiqincə qiymətləndiriləcək. Ümummilli liderimizin tarixi irsi, idarəçilik, dövlət quruculuğu təcrübəsi, konfliktləri həll etmək bacarığı, ölkədə və cəmiyyətdə sülhü və harmoniyanı təmin etmək tədbirləri və s. Azərbaycan və dünya siyasi elmi tərəfindən öyrəniləcək, tədqiq ediləcək, ümumiləşdiriləcək. Bu gün artıq cəsarətlə demək olar ki, Heydər Əliyev irsi dünya siyasi elminin, politoloji fikrin qiymətli nailiyyətinə çevriləcək. O da birmənalıdır ki, Heydər Əliyev xalqımızın bütün tarixi boyu yetirdiyi ən qüdrətli tarixi şəxsiyyətdir".

**Samir ELMANOĞLU,**
**"Azərbaycan"**

*7 yanvar, 2003*

# PREZİDENT İLHAM ƏLİYEV BÜTÜN SAHƏLƏRDƏ MÜSBƏT NƏTİCƏLƏR ƏLDƏ OLUNMASI ÜÇÜN SİYASİ İRADƏ NÜMAYİŞ ETDİRİR

***Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev bu qənaətdədir***

***Artıq tarixə çevrilmiş 2003-cü il Azərbaycanın bütün sahələrdə inkişafı ilə əlamətdar olmuşdur. Ölkə həyatının ən müxtəlif istiqamətlərində yeni dövlət quruculuğunu şərtləndirən islahatların dərinləşdirilməsi prosesi davam etmiş, Avropa məkanına inteqrasiyanın başa çatmasını təmin edən bir sıra mühüm işlər görülmüşdür. Ötən ilin daha mühüm xarakterik cəhətlərindən biri budur ki, Azərbaycan xalqı Heydər Əliyev siyasi kursuna, ümummilli liderimizin əsasını qoyduğu dövlətçilik konsepsiyasına sadiq qalmışdır, öz iradəsi ilə sübut etmişdir ki, Azərbaycanın gələcək inkişafı, müstəqilliyimizin əbədi olması üçün Heydər Əliyev siyasətinə alternativ görmür.***

Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri, fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev "Azərbaycan" qəzetinə verdiyi müsahibədə ilin ən mühüm hadisələri sırasında ilk növbədə yeni Seçki Məcəlləsi əsasında prezident seçkilərinin keçirilməsini qeyd edir. Ötən ilin yekunların dan danışarkən bütün seçkiləri əhatə edən vahid seçki qanunvericiliyinin yaradılması, üstəlik, bu sənədin beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilməsi, seçki komissiyalarının təşkilində müxalifətə çox böyük güzəştlər edilməsi vacib məqamlar kimi deyərləndirilməlidir. 2003-cü ildə prezident seçkilərinin Seçki Məcəlləsinə uyğun keçirilməsi üçün yüksək təşkilati və təbliğati işlər aparıldı, və

təndaşların öz iradələrini azad ifadə etməsi üçün bütün imkanlar yaradıldı, yəni hakimiyyət göstərdi ki, ədalətli, şəffaf, qəbul etdiyi qanunlara və Avropa standartlarına uyğun seçki keçirmək onun əsas məqsədidir.

Seçkidə iştirak edənlərin böyük əksəriyyətinin Heydər Əliyev siyasi kursunun layiqli davamçısı İlham Əliyevə səs verməsi onunla əlaqədardır ki, xalq öz ölkəsinin inkişafı, öz müstəqilliyinin əbədi olması üçün hakimiyyətin varisliyi xəttini dəyişmək fikrində deyildir, əksinə, Heydər Əliyevin əsasını qoyduğu dövlətçilik ənənələrinin yaşamasında və zənginləşməsində maraqlıdır.

**Qələbəni şərtləndirən amillər**

sırasına digər məqamlar da daxildir. Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev Azərbaycan vətəndaşlarının Heydər Əliyev siyasi kursunu düzgün, alternativi olmayan siyasət kimi qəbul etdiyini və yalnız bu kursun təmsilçisinə səs verəcəyini əvvəlcədən qətiləşdirdiyini vurğulayaraq seçkiqabağı aylarda cənab İlham Əliyev tərəfindən görülən quruculuq və düzgün aparılan təbliğat işinin yüksək nəticələr verdiyini nəzərə çarpdırır. Bu sıraya cənab İlham Əliyevin 1993-cü ildən bəri Azərbaycan dövlətinin inkişafı və Avropa məkanına inteqrasiya istiqamətində mühüm xidmətlərini əlavə etməliyik. Cənab İlham Əliyev opponentlərindən fərqli olaraq daim Heydər Əliyev siyasi kursuna sadiq olduğunu, indiyədək aparılan quruculuq işlərinin davam edəcəyini, Azərbaycanın zəngin, qüdrətli dövlətə çevriləcəyini real aspektdə əsaslandırır, ənənəvi, şişirdilmiş seçkiqabağı vədlər vermir, ölkənin siyasi, iqtisadi, sosial həyatına aid proqramlarını açıqlayırdı. Digər tərəfdən, cənab İlham Əliyev müxalif partiyalardan irəli sürülmüş prezidentliyə namizədlərin yolu ilə getməyərək rəqiblərinin şəxsiyyətinə toxunan bir kəlmə belə işlətmir, etikadan, mənəviyyatdan kənar ifadələrə yol vermir, xalqla canlı, səmimi ünsiyyət qurur, Heydər Əliyev kimi gücünü yalnız bu böyükdayaqdan alacağını, bütün işlərində xalqa güvənəcəyini söyləyirdi. Prezident seçkisində onsuz da heç bir sosial dayağa malik olmayan müxalifətin ağır məğlubiyyətə düçar olmasınm səbəbini Prezidentin İcra Aparatının rəhbəri belə izah edir:

"İlham Əliyevin rəqibləri öz təbliğatını əsasən hakimiyyətin siyasətini tənqid üzərində, müəyyən qədər də real olmayan vədlər üzərində qurdular. Həm də bu vədlər o qədər fantastik, tənqidə davamsız idi ki, hətta siyasətçi və mütəxəssis olmayanlar belə onların canlı həyatla və siyasətlə əlaqəsi olmadığmı görürdülər. Opponentlərin çıxışları, bir qayda olaraq, bütün sahələrdə əldə edilmiş uğurlardan imtinanı, iqtisadiyyatda, kadr məsələlərində kəskin dəyişikliyi, çox vaxt birbirinə zidd olan tezisləri ehtiva edirdi. Nəticədə xalq haqlı olaraq indiki radikal müxalifətin timsalında dağıdıcı, destruktiv qüvvələri, xaos, anarxiya daşıyıcılarını görürdü".

Seçkidən dərhal sonra uduzduqlarını başa düşən, lakin bu iflasla barışmayaraq paytaxtda kütləvi iğtişaşlar, vandal hərəkətlər törədən müxalif partiyaların rəhbərləri özlərinin on-on beş ildən bəri dəyişməyən simalarını bir daha cəmiyyətə, dünyaya göstərdilər. Bu gün isə, əvvəlcədən proqnozlaşdırıldığı kimi, siyasi səhnədə qalıb-qalmamaq probleminin həlli ilə məşğuldular.

## Seçilmiş Prezident bütün sahələrdə nəticələr əldə olunması üçün siyasi iradə nümayiş etdirir

Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev bu fikirdədir. Xalq şahidi olur ki, seçki ərəfəsində təbliğat naminə deyilən fikirlərin, irəli sürülən tezislərin heç biri söz olaraq qalmır. Azərbaycan Respublikasının seçilmiş Prezidenti ötən il noyabnn 24də ölkənin sosial-iqtisadi inkişafında yeni mərhələ olacaq mühüm fərman imzaladı, müvafiq icra hakimiyyəti orqanlarına xalq, dövlət naminə işləmək və nəticələr əldə etmək üçün konkret tapşırıqlar verdi. "Cənab İlham Əliyev yaxın beş il ərzində ölkənin qarşısında hansı əsas problemlərin, prioritet vəzifələrin durduğunu aydın təsəvvür edir və onların həlli üçün konkret planlara, proqramlara, icrası üçün mobil, peşəkar, yüksək iş qabiliyyətli komandaya malikdir" Prezidentin İcra Aparatınm rəhbəri belə deyir. Cənab Prezident ölkə həyatının ən müxtəlif sahələrinə, əhalinin rifah halının yaxşılaşmasına, sosial müdafiə tədbirlərinin artırılmasına aid elan etdiyi proqramları yerinə yetirmək və formalaşmış, müstəqil dövlət quruculuğunda püxtələş-

miş komanda ilə işləmək əzmindədir. Müxtəlif sahələrdə olduğu kimi, kadr siyasətində də sabitlik, varislik qorunub saxlanılır. Bununla belə, yeni, müasir tələblərə cavab verən, demokratik idarəçilik prinsiplərinə əsaslanan kadr hazırlığı işi diqqət mərkəzindədir. Bu komanda həyatm inkişafından, dünyanın dəyişməsindən irəli gələn yeni tələblərə hazırdır, hətta bəzi hallarda bu tələbləri qabaqlaya bilir. Beləliklə, hakimiyyətin varisliyi siyasətinə sadiq olan Prezident öz komandasının Heydər Əliyev komandası olduğunu söyləyib. Eyni zamanda, fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev yeridilən vahid siyasi xəttin tələblərinə cavab verməyən məmurların bu komandadan uzaqlaşdırılacağını da istisna etməyib: "Prezident İlham Əliyev səlahiyyətlərinin icrasına başladığı ilk günlərdən nazirlərə, yüksək vəzifəli məmurlara münasibətdə son dərəcə tələbkar, ciddi olduğunu nümayiş etdirdi. O bildirdi ki, kim vəzifəsinin öhdəsindən layiqincə gələcək, etimadı doğruldacaq, onunla işləyəcəyik. Lakin kimsə qoyulan tələblərə cavab verməsə, tapşırılan işin öhdəsindən gələ bilməsə, onunla vidalaşacaq. Cənab Prezident Nazirlər Kabinetinin birinci iclasında "Sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərmanında əmək və maliyyə intizamının möhkəmləndirilməsini, vətəndaşların qanuni arzu və tələblərinə məmurlar tərəfindən diqqətli münasibət göstərilməsini tələb edib. Bu, bütün səviyyəli məmurlar üçün çox ciddi xəbərdarlıqdır. "Məmurlar dövlət üçün, xalq üçün, vətəndaşlar üçün işləməlidir" cənab Prezidentin hər bir dövlət qulluqçusundan tələbi budur".

## Yeni Azərbaycan Partiyasının fəaliyyəti siyasi qurumlara nümunə olmalıdır

Yeni Azərbaycan Partiyası Azərbaycanın siyasi həyatına 1992-ci ildə ölkə xaos, hərcmərclik girdabında çabaladığı, beynəlxalq aləmdən təcrid olunduğu dövrdə qədəm qoydu. Ondan əvvəl yaranmış siyasi partiyaların bəzisi hakimiyyətdə təmsil olunub, bəzisi isə təsis olunduğu vaxtdan müxalifətdədir. YAPdan başqa bu partiyalann hər biri qarşısına yalnız hakimiyyətə gəlməyi məqsəd qoyub, daha doğrusu, bu məqsədlə yaranıb. AXC-nin təcrübəsinə nəzər salsaq, 1989-93-cü illərdə onun çıxardığı qə-

rarların qeyri-qanuni olduğunu, hakimiyyəti zorakılıqla qəsb etməyə doğru yönəldiyini, daha sonra isə dövlət, xalq əleyhinə işlədiyini görərik. AMİP-in, Müsavatın təcrübəsində də xalq, dövlət, vətən üçün xidmətlərlə bağlı qürrələnməli fakt yoxdur, qaragüruhçuluğunun miqyasına görə isə ADP-dən danışmağa dəyməz. Bu partiyalann heç biri ötən müddət ərzində sivil, konstruktiv müxalifətçilik qaydalarını mənimsəməyib, ayrıayn hakimiyyət təmsilçiləri ilə müxalifətçiliyi xalqa, dövlətə qarşı müxalifətçiliklə dəyişik salıb. Onlar, heç olmasa, ölkənin daxili həyatma aid məlumatlan beynəlxalq təşkilatlara çatdınnamaqda düşmən ölkənin müxalif qurumlarının təcrübəsindən bəhrələnmirlər. Məhz bu səbəbdən yeni, sivil müxalifətin formalaşması məsələsi indi daha aktual görünür. Cənab Ramiz Mehdiyev bildirir ki, "bu, ictimaiyyət üçün yeni olan hansısa "üçüncü qüvvənin" meydana çıxması demək deyildir. Yeni müxalifət ümumi "müxalifət" termini ilə ifadə olunan çoxsaylı partiya və qurumların daxilində formalaşa bilər". Lakin fikrimizcə, bu o qədər də asan və tez uğur gətirən proses olmayacaq. Əvvəla ona görə ki, müxalif düşərgədə yeni, hansısa qurumu, həmçinin xalqı arxasınca apara biləcək sima yoxdur, həm də orada cəlbedici ideyalar, adamları inandıracaq altemativ fikirlər də yox dərəcəsindədir. Bu düşərgə hələ də imperiya dövrünün ideyaları ilə yaşayır.

Yeni şəraitdə YAP-ın işini asanlaşdıran ən mühüm məqamı fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev bu partiyanın xalq içərisində böyük inam kreditinə sahib olması ilə bağlayır. Ümummilli liderimiz, müstəqil Azərbaycan dövlətinin yaradıcısı Heydər Əliyevin dünyasını vaxtsız dəyişməsi hakim partiya olan YAP-ın işini çətinləşdirən səbəblərdəndir: "Ümummilli liderimiz daim partiyaya bilavasitə rəhbərlik edərək onun taktikası və strategiyasını, konkret dövr üçün proqrammı, fəaliyyət metodlarını və istiqamətlərini müəyyən edirdi. Bu itkinin partiya üçün yerini doldurmaq çox çətindir, demək olar, qeyri-mümkündür. Bu baxımdan YAP cənab Heydər Əliyevin bilavasitə rəhbərliyi olmadan fəaliyyət göstərməyə məcburdur. Lakin Heydər Əliyevin ideyalan, bitkin bir elminəzəri platforma olan əliyevçilik ideologiyası bir mayak kimi onun yolunu işıqlandıracaqdır. YAP cənab İlham Əliyevin simasında özünün yeni liderini, ona uğurla rəhbərlik edən başçısmı görür. İlham Əliyevin rəhbərliyi

YAP üçün, onun daxili cəhətdən güclənməsi və monolitliyinin möhkəmlənməsi üçün çox vacib faktordur".

Prezidentin İcra Aparatı rəhbərinin müsahibəsindən gəldiyimiz qənaət bundan ibarətdir: Azərbaycan xalqı, YAP Azərbaycan Prezidenti ətrafında sıx birləşərək Heydər Əliyevin ideyalarını, başladığı, nəticələrini aydın gördüyü bir sıra layihələri yerinə yetirəcək, ölkəmizi dünyanın ən qüdrətli, ən nüfuzlu dövlətlərindən birinə çevirəcəkdir.

**Validə İSMAYILOVA,**
**"Azərbaycan"**

*13 yanvar, 2003*

# AZƏRBAYCAN DÖVLƏTİNİN TƏMƏLİ SARSILMAZDIR

## *Heydər Əliyevin siyasi kursu strateji inkişafımızın parametrlərini özündə ehtiva edir*

Azərbaycanda ötən il keçirilən prezident seçkiləri ölkədə yeni bir siyasi situasiyanın əsasını qoymuş oldu. Hər şeydən əvvəl onu qeyd etmək lazımdır ki, prezident seçkilərinin ictimai-siyasi və tarixi əhəmiyyəti əvvəlkilərdən daha ciddi şəkildə fərqlənirdi və bu da təsadüfı deyildi. Azərbaycan xalqınm ümummilli lideri möhtərəm Heydər Əliyevin səhhəti ilə bağlı seçkilərdə iştirak edə bilməməsi cəmiyyətin münasibətini daha da ciddiləşdirmişdi. Çünki möhtərəm Heydər Əliyev xalqın ümumi maraqlarını ifadə edən və istənilən seçkini böyük üstünlüklə qazanmağa qadir bir siyasi xadim idi və vətəndaşlar onu ölkənin təhlükəsizliyinin və inkişafının alteenativsiz qarantı olaraq qəbul edirdilər.

Belə bir böyük şəxsiyyətin seçkilərə qatılmaması "ən layiqli namizəd kim ola bilər" sualını ortaya çıxarırdı. Amma bu sual hələ xeyli əvvəl cavabını tapmışdı: Prezident Heydər Əliyevin siyasi kursu dəyişilməzdir və Azərbaycan dövlətçiliyinin yaşaması yalnız bu siyasi kursun davam etdirilməsindən asılıdır. Məhz buna görə də cənab İlham Əliyevin namizədliyi cəmiyyətin bütün təbəqələri tərəfindən ümumxalq seçiminin təzahürü kimi qiymətləndirildi. Seçki prosesi kifayət qədər normal şəraitdə və demokratik şərtlər əsasında həyata keçirildi, bəzilərinin proqnozlaşdırdığı "kataklizmlər" baş vermədi, əksinə, insanlar böyük həvəslə Heydər Əliyev siyasi kursunun davamçısına dəstək verdilər.

Əlbəttə ki, baş verən hadisələrin mahiyyəti çox adi, eyni zamanda hamının görə bilmədiyi bir qanunauyğunluğa tabe olmuşdur. Bu qanunauyğunluğun real social-fəlsəfi məzmunu Prezidentin İcra Aparatmm rəhbəri, fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin "Azərbaycan" qəzetinin 3 yanvar 2004-cü il tarixli sayında dərc olunmuş müsahibəsində aydın şəkildə izah edilmişdir. "Azərbaycan vətəndaşları, müxtəlif əhali qrupları uzun illərin təcrübəsinin nəticəsi olaraq Heydər Əliyevin siyasi

kursunu yeganə düzgün, alteraativi olmayan siyasət kimi qəbul edirdi və özü üçün yalnız bu siyasi kursun təmsilçisinə səs verəcəyini qətiləşdirmişdi. Bunu Azərbaycanda siyasi qüvvələr nisbətini, real namizədlərin şanslarını müşahidə edən obyektiv xarici ekspertlər, sorğu mərkəzləri də təsdiq edirdi. Seçkidən öncəki aylarda ABŞ-ın nüflızlu Beynəlxalq Respublikaçılar İnstitutunun keçirdiyi sorğuların nəticələri də dediklərimizi bir daha təsdiq edir. Sorğular hakimiyyət namizədinin seçkidə ən azı 64 faiz səs alacağını, Yeni Azərbaycan Partiyasının isə təxminən 70 faiz populyarlığa malik olduğunu göstərirdi. Lakin seçkiqabağı aylarda İlham Əliyev tərəfindən görülən quruculuq işləri, düzgün qurulmuş təbliğat işi onun nüfuzunu, xalqın aparılan siyasətə inamını daha da artırdı", deyə Prezidentin İcra Aparatmm rəhbəri bildirib.

Göründüyü kimi, bu fikirlərin müəllifi Azərbaycanda seçkilər öncəsi real ictimai-siyasi durumu kifayət qədər dəqiq şəkildə xarakterizə edir və xalqın 2003-cü il prezident seçkilərinə münasibətinin olduqca praqmatik bir şəkildə formalaşdığmı, ictimai rəyin hansı namizədə daha çox üstünlük verdiyinin hətta xarici ekspertlərə də aydın olduğunu qeyd edir. Ümumiyyətlə, müsahibədə Azərbaycan cəmiyyətində son illər ərzində praqmatik düşüncə tərzinin daha üstün mövqelərə çıxmasının səbəbləri də elmi baxımdan əsaslandırılmış şəkildə şərh edilmişdir. Müxalifətin öz təbliğatında çirkin siyasi metodlara istinad etdiyini və heç bir real əsası olmayan vədlərə üstünlük verdiyini vurğulayan fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev bu cür metodların özünü doğrultmadığmı bildirməklə yanaşı, cənab İlham Əliyevin qələbəsini həm də onun təbliğatmda realist düşüncə tərzinə hesablanmış təbliğat üsullarının daha çox olması ilə izah edir: "Cənab İlham Əliyev isə təbliğatda Heydər Əliyev siyasi kursuna sadiq olduğunu daim vurğulayaraq bu kursu davam etdirəcəyini bildirir, əldə olunmuş uğurlara, konkret real hesablamalara əsaslanmaqla xalqa real vədlər verirdi. Xalqımız isə çoxdandır ki, nağıllara, "inqilabiromantik" süjetlərə inanmır, eyni zamanda faktlara və hadisələrə obyektiv qiymət verməyi öyrənib. Deyə bilərəm ki, bu gün azərbaycanlılarda realhq hissi daha güclüdür. İlham Əliyev müxalifət başçılarının yolu ilə getməyərək öz rəqiblərini televiziya ekranların dan təhqir etmədi, onların şəxsiyyətini alçaltmadı, etikadankənar ifadələrə yol vermədi, onlarla yalnız faktların və arqumentlərin köməyi ilə polemika apardı. Vətəndaşlar,

seçicilər İlham Əliyevin ciddiliyini, səmimiliyini, siyasi mədəniyyətini, intellektini bir daha müşahidə etmək imkanı qazandılar. Nəticədə İlham Əliyev rəqibləri üzərində parlaq qələbə qazandı, müxalif namizədlərin yaxın gələcəkdə onunla rəqabət aparınaq şanslarını darınadağın etdi, Azərbaycanda siyasi qüvvələrin düzümündə və gələcək siyasi münasibətlərdə yeni tendensiyalara güclü təkan verdi".

Cənab Ramiz Mehdiyevin müsahibəsində Prezident Heydər Əliyevin müəyyənləşdirdiyi strateji inkişaf yolunun bu gün bütün Azərbaycan vətəndaşları tərəfindən dövlətçiliyin qorunub saxlanılması üçün əvəzsiz model olduğu qeyd edilmişdir. "Ümummilli liderimizin tarixi irsi, idarəçilik, dövlət quruculuğu təcrübəsi, konfliktləri həll etmək bacarığı, ölkədə və cəmiyyətdə sülhü və harın oniyanı təmin etmək tədbirləri və s. Azərbaycan və dünya siyasi elmi tərəfindən öyrəniləcək, tədqiq ediləcək, ümumiləşdiriləcək. Bu gün artıq cəsarətlə demək olar ki, Heydər Əliyev irsi dünya siyasi elminin, politoloji fikrinin qiymətli nailiyyətinə çevriləcək". Əlbəttə ki, bu fikrin arxasında kifayət qədər real səciyyə daşıyan faktlar dayanmışdır. Möhtərəm Heydər Əliyev Azərbaycanın son 35 illik tarixində olduqca müstəsna rol oynamış, mürəkkəb və ziddiyyətli bir mərhələdə Azərbaycan dövlətçiliyinin sarsılmaz təməlini qurmağa müvəffəq olmuş, eyni zamanda bu dövləti beynəlxalq münasibətlər sistemində özünəməxsus təsir imkanlarına malik bir qüvvəyə çevirmiş tarixi şəxsiyyətdir. Onun həyata keçirdiyi siyasət və tətbiq etdiyi idarəetmə prinsiplərinin gerçək mahiyyətində xalqın milli maraqlarının gerçəkləşdirilməsi arzusu qəti bir imperativ kimi öz əksini tapmışdır. Cənab Heydər Əliyev nəinki Azərbaycanın, həm də bütün regionun, dünyanın siyasi düzəninin müəyyənləşdirilməsinə təsir göstərə bilirdi və elə buna görə də indi ən tanınmış dövlət və siyasət xadimləri onun tarixi missiyasına böyük hörmətlə yanaşırlar. Əlbəttə, burada müəyyən rola malik amillərin mövcudluğunu nəzərə almaq lazımdır və fikrimizcə, onları konseptual şəkildə araşdırıb ortaya çıxaran elmi təhlillərə hər zaman ehtiyac olacaqdır. Azərbaycanın bir dövlət olaraq mövcudluğunun səbəblərini və bu faktın doğurduğu şərtlərin mahiyyətini aydın şəkildə təsəvvürə gətirmək üçün, heç şübhəsiz ki, elmi baxışların bu istiqamətə yönəldilməsi lazımdır və bu, hökmən baş verəcəkdir. Lakin burada istənilən elmi tədqiqatm və tarixi .təhlilin diqqət mərkəzində dayanacağı şübhə doğurmayan, ilk baxışdan sadə gö-

rünən, amma olduqca mürəkkəb ictimai-siyasi hadisələr zəncirinə əsaslanan bir vacib fakt da varazərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi və onun davamlıhğının təmin edilməsi ictimai-siyasi sabitliyin qorunub saxlanılmasından əhəmiyyətli dərəcədə asılı idi. Sözügedən müsahibədə bu mühüm məqam Azərbaycanda gedən ictimai-siyasi proseslərin, eyni zamanda ölkənin perspektiv inkişaf istiqamətlərinin sosial məzmununu müəyyənləşdirən ciddi faktor kimi qiymətləndirilir.

Heydər Əliyevin siyasi kursunun davam etdirilməsi zərurəti bu gün hər bir Azərbaycan vətəndaşmm üzərinə böyük məsuliyyət qoymuşdur. Bu məsuliyyətin ağırlığmı dərk etmək üçün sadəcə olaraq 90-cı illərin əvvəlindəki Azərbaycanla Heydər Əliyevin qurduğu Azərbaycani müqayisə etmək kifayətdir. Məhz buna görə də fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev haqlı olaraq qeyd edir ki, "biz xalqımızın rəhbəri, onun mənəvi atası Heydər Əliyev qarşısında öz insanhq və vətəndaşlıq borcumuzu qaytarınalıyıq.

Bunun üçün ilk növbədə onun bizə qoyub getdiyi mirası inkişaf etdirməliyik, Heydər Əliyevin müəyyənləşdirdiyi magistral yolla irəliləyərək firavan, təhlükəsiz və qüdrətli Azərbaycan qurulması işini uğurla başa çatdırmalıyıq. Hər bir Azərbaycan vətəndaşmı, Azərbaycan ailəsini varlı, qayğısız və xoşbəxt görmək Heydər Əliyevin böyük arzusu idi. O, Azərbaycanın müstəqilliyinin dönməzliyinin, torpaqlarımızın bütövlüyünün, suverenliyinin təmin edilməsi arzusu ilə yaşayırdı. Bu işlərin görülüb başa çatdırılması bizim hər birimizin mərhum Prezident Heydər Əliyevin ruhu qarşısında ən əsas xidmətimiz olacaq".

Cənab Ramiz Mehdiyev müsahibəsində çox maraqlı bir məqama da toxunub. O, yeni Prezidentin kadr siyasətində hansı prinsiplərə üstünlük verdiyini açıqlayır və qeyd edir ki, artıq dövlət başçısı məhz Heydər Əliyevin komandası ilə işləmək niyyətində olduğunu bəyan etmişdir və cənab İlham Əliyev kadr siyasətində sabitliyin tərəfdarıdır. "Prezident bildirib ki, onun komandası elə Heydər Əliyevin komandasıdır. Eyni zamanda, Prezident İlham Əliyev səlahiyyətlərinin icrasına başladığı ilk günlərdən nazirlərə, yüksək vəzifəli məmurlara münasibətdə son dərəcə tələbkar, ciddi olduğunu nümayiş etdirdi. O bildirdi ki, kim vəzifəsinin öhdəsindən layiqincə gələcək, etimadı doğruldacaq, onunla işləyəcəyik", deyə Prezidentin İcra Aparatının rəhbəri vurğulayıb. O, Prezidentin, eyni zamanda,

vətəndaşların qanuni arzu və tələblərinə məmurlar tərəfindən diqqətlə yanaşılmasını tələb etdiyini də bildirir və qeyd edir ki, bu, bütün səviyyəli məmurlara ciddi xəbərdarlıqdır. "Məmurlar dövlət üçün, xalq üçün, vətəndaşlar üçün işləməlidir" cənab Prezidentin hər bir dövlət qulluqçusundan tələbi budur". Bununla da Prezidentin İcra Aparatmm rəhbəri Azərbaycanda Heydər Əliyev siyasi kursunun uğurla davam etdirilməsində kadr siyasətinin düzgün müəyyənləşdirilməsinin zəruriliyini bir daha vurğulayır və cənab İlham Əliyevin bu sahəyə xüsusi diqqət göstərəcəyini qeyd edir. Çünki hər bir dövlətin inkişafı və tərəqqisi kadr siyasətinin nə dərəcədə müvəffəqiyyətlə həyata keçirilməsindən çox asılıdır, Heydər Əliyev siyasi kursunun Azərbaycanın iqtisadi və siyasi inkişafmı nəzərdə tutan fundamental prinsiplərini təkmil formada həyata keçirmək üçün hər bir məmurdan əhalinin problemlərinə diqqətlə, öz vəzifəsinə isə daha artıq məsuliyyətlə yanaşması tələb olunur.

Şübhəsiz ki, Heydər Əliyev siyasi kursunun uğurla davam etdirilməsi ilk növbədə xalqımızın ümumi mənafelərini təmin etməyə imkan verə biləcəkdir. Çünki Heydər Əliyevin siyasi kursu ölkədə dövlətçilik anlayışının milli təfəkkür tərzinə çevrilməsində, yeni dövrün tələblərinə uyğun, heç bir qüvvənin təsirindən asılı olmayan idarəetmə sisteminin formalaşdırılmasında fövqəladə dərəcədə mühüm rol oynadı və bütün bunlar, əlbəttə ki, nəticə etibarilə Azərbaycanın ümumi strateji inkişafının parametrlərini özündə ehtiva edən mühüm tarixi nailiyyətlərin əsasını qoymuş oldu. Bugünə qədər cəmiyyət həyatmm müxtəlif sahələrində öz təcəssümünü tapmış uğurlar bizə qəti olaraq söyləməyə əsas verir ki, Heydər Əliyevin siyasi kursu sadəcə cəmiyyətin ümumi mənafelərinin təmin edilməsinə istiqamətlənmiş fəaliyyət strategiyası deyil, həm də Azərbaycan dövlətçiliyinin möhkəmlənməsinə imkan verən mükəmməl bir dövlətçilik konsepsiyasının ideoloji əsaslarını özündə ehtiva edir.

**Elşad MİRALƏM,**
**"Azərbaycan"**

*16 yanvar, 2003*

## IV FƏSİL

# UĞUR VƏ İNKİŞAF KONSEPSİYASI


RAMİZ MEHDİYEV
AZƏRBAYCAN:
TARİXİ İRS
VƏ
MÜSTƏQİLLİK
FƏLSƏFƏSİ

# "AZƏRBAYCAN: TARİXİ İRS VƏ MÜSTƏQİLLİK FƏLSƏFƏSİ"

***(Bakı, 2001-ci il, 276 səh.)***

***(XÜLASƏ)***

Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin "Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi" kitabında (Bakı, 2001ci il, 276 səh.) müəllifin 1964-2001-ci illərdə Ümumittifaq və respublika mətbuatı səhifələrində dərc olunmuş məqalə və müsahibələrinin, müxtəlif mötəbər məclislərdə etdiyi çıxış və məruzələrin bir qismi toplanmışdır. Həmin məqalə, müsahibə, çıxış və məruzələrdə söylənilmiş fikirlər bütün dövrlər üçün öz aktuallığmı saxladığmdan ictimai fikir, mədəniyyət, siyasət və millətlərarası münasibətlər tariximizin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan xalqı sorağı minilliklərdən gələn tarixi boyu olduqca mürəkkəb şəraitlərdə yaşamış, böyük mədəniyyət yaratmış, dövlətlər qurmuş, varlığmı sübuta yetirmiş və inkişaf edib formalaşmışdır. Ölkəmizin çox əlverişli təbiicoğrafi mövqeyi istər yaxın qonşu, istərsə də uzaq dövlətlərin diqqətini daim cəlb etmiş, bu maraqdan irəli gələn təcavüzkar niyyətlər həmin mürəkkəb şəraiti səciyyələndirmişdir. Tale Azərbaycanı heç vaxt əzizləməsə də, çox təqdirəlayiq haldır ki, xalqımız əsarətlə barışmamış, parçalansa, hissələrə bölünsə belə, diz çökməmiş, qürurunu itirməmiş, özünəməxsusluğunu və tarixi dəyərlərini qoruyub saxlamaq üçün hər dəfə özündə qüvvə tapmışdır. Dünyanın əksər dövlətləri işğal altında inlədikləri bir vaxtda biz azərbaycanlılar ölkəmizin həm şimalında, həm cənubunda öz milli dövlətlərimizi yaratmağa nail olmuşduq. Həm şimalda, həm də cənubda yaranan dövlətlərin ömürlərinin qısa olması isə yenə də təcavüzkar qüvvələrin ölkəmizə qarşı zorakılığı ilə əlaqədar idi. Lakin dövlətçilik ənənələrindən imtina etməyən xalqımız mübarizəni davam etdirərək yeni bir tarixi qələbə qazanmış və 1991-ci ilin oktyabrmda hazırda dünyanın bütün dövlətlərinin tanıyıb qəbul etdiyi, bir çox ölkələrlə siyasiiqtisadi əlaqələr yaratdığı Azərbaycan Respublikası öz müstəqilliyini elan etmişdir. İndi əsas vəzifə ondan ibarətdir ki, bu əlaqələr beynəlxalq normalar və prinsiplər əsasında daha da möhkəmləndirilsin, respub-

likanın müstəqilliyi əbədi xarakter alsın, iqtisadiyyat inkişaf etsin, xalqın rifahı daim yüksəlsin.

Geniş oxucu kütləsinə təqdim olunan məqalələr, müsahibələr, çıxışlardan ibarət bu kitabda da diqqət məhz həmin məsələlərə cəlb edilir. Müəllif uzun illər ərzində partiya və dövlət orqanların da məsul vəzifələrdə, elm sahəsində çalışan, hazırda Azərbaycan Respublikasının Prezidenti İcra Aparatının rəhbəri olan Ramiz Mehdiyev həm uzaq keçmişimizin, həm də müasir dövrümüzün, xüsusilə son 1015 il ərzində xalqımızın həyatının müxtəlif hadisələrini qələmə almış, məsələlərə professionallıqla yanaşaraq onları fəlsəfi baxımdan təhlil etmiş, keçmiş SSRİ miqyasında və konkret olaraq Azərbaycanda millətlərarası münaqişə zəminində hadisələrin səbəb və nəticə əlaqələrini açmışdır.

"Azərbaycan" qəzetinin 5 aprel 2001-ci il tarixli nömrəsində dərc olunan "ErmənistanAzərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ictimai rəy kontekstində" adlı məqaləsində Ramiz Mehdiyev qeyd edir ki, "***problemin mahiyyətini daha dərindən anlamaq, onun ədalətli və etibarlı həllini tapmaq üçün məsələnin tarixi köklərini, siyasi, dini, etnik səbəblərini qısa olaraq bir daha nəzərdən keçirmək lazımdır. ErmənistanAzərbaycan, Dağlıq Qarabağ münaqişəsi hər şeydən əvvəl XIX əsrin əvvəllərindən başlayaraq Azərbaycan xalqına qarşı həyata keçirilən soyqırımı və deportasiya siyasətinin məntiqi nəticəsi və növbəti mərhələsi kimi götürülməlidir".***

Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin məqalələrində Heydər Əliyev şəxsiyyəti, ulu öndərin liderlik keyfiyyətləri fəlsəfi baxımdan təhlil edilir. Heydər Əliyevi qeyr-iadi şəxsiyyət, lider keyfiyyətlərinə malik olan dövlət xadimi kimi xarakterizə edən professor Ramiz Mehdiyev yeni quruluşun siyasətçilərinin fəaliyyətinin yaşlı nəslin nümayəndələrinin müdrikliyi, təcrübəsi və uzaqgörənliyi ilə uyğunlaşdırılmasını təbii sayır. Müəllif mətbuatda da işıq üzü görmüş "Respublika: gələcəyə yol" adlı müsahibəsində deyir: "***Peşəkar siyasətçi diletantdan onunla fərqlənir ki, o, ekstremal vəziyyətlərdə nəinki nə etmək, həm də necə etmək lazım olduğunu bilir və bu zaman qəbul edilmiş qərarlara görə məsuliyyəti öz üzərinə götürür***". .

"Tarixdə şəxsiyyətin rolu məsələsinə dair" geniş məqaləsində isə Ramiz Mehdiyev Heydər Əliyev şəxsiyyətinin böyüklüyündən söz açaraq ya-

zır: "***Biz şəxsiyyətin böyüklüyünü səciyyələndirən bir çox keyfiyyətləri Azdrbaycan Prezidenti Heydər Əliyevin siyasi və dövlət fəaliyyətində görürük. Tarixi şəxsiyyət kimi Heydər Əliyev Azərbaycanın dövlət quruculuğunun, müstəqil inkişafının fundamental bazası olan əzəli və əbədi dəyərlərin daşıyıcısı və yaradıcısıdır. Heydər Əliyevin çoxillik fəaliyyətinin təhlili və dərk edilməsi onun zəkasının və istedadının nə qədər qüdrətli və geniş olduğunu, Azdrbaycan xalqının tarixini necə məqsədyönlü şəkildə və əsl ilhamla yaratdığını göstərir".***

Professor Ramiz Mehdiyevin "Türkçülük tarixin gözü ilə, yaxud milli ideya əsrlərin qovuşuğunda" məqaləsi də aktuallığı baxımından diqqəti cəlb edir. Müəllif yazır: "***Türkçülük ideyası hələ yaşayır və türk xalqlarının milli ruhuna öz təsirini itirməmişdir. Zənnimizcə, düzgün yanaşılsa, sağlam qavranılsa, həmin ideya hazırda öz müstəqil dövlətlərini yaratmış türklər, azərbaycanlılar, özbəklər, türkmənlər, qazaxlar, qırğızlar arasında iqtisadi və mədəni əməkdaştığın inkişafında müəyyən müsbət rol oynayar, onların birbirinə yaxınlaşmasına, dünya birliyinə qovuşmasına xidmət edər..."***

***"Milli ideya" xalqı və hakimiyyəti birləşdirən bir zətnindir və müstəqil yaşamaq hüququ əldə edən Azərbaycan öz tarixi ənənələrini yeni demokratik dövlət təsisatları ilə üzvi şəkildə əlaqələndirməyi bacarmalıdır. "Milli ideya"nın gücü dövlətdirsə, dövlətin də gücü "milli ideya"ya xidmət etməkdədir"*** burada professor Ramiz Mehdiyev müstəqil Azərbaycan dövlətinin idarə olunmasına diqqəti cəlb etməklə Azərbaycan xalqının xarakterində tarixən formalaşmış milli idarəçilik ənənələri ilə müasir demokratiya prinsiplərinin bacarıqla əlaqələndirilməsinin zəruriliyini olduqca vacib bir şərt kimi irəli sürür və göstərir ki, məhz bunun sayəsində ölkə sarsıntılardan qurtula bilər. Dünya dövlətlərinin idarəçilik təcrübəsinə aid mülahizələrində hər bir dövlətin başçısının eyni zamanda xalqın da əsl lideri kimi tanınmasına müəllif haqlı olaraq böyük əhəmiyyət verir və düzgün olaraq göstərir ki, bu mənada tarixi boyu başı bəlalar çəkmiş Azərbaycan xalqının müasir dövrdə bəxti gətirmiş, ona zəngin dövlətçilik təcrübəsinə malik, özünü və xalqını beynəlxalq aləmdə tanıtdırmış olan Heydər Əliyev kimi bir lider, elimizin və dilimizin xilaskarı olan bir dövlət başçısı qismət olmuşdur.

Bunlardan başqa, kitabda professor Ramiz Mehdiyevin müxtəlif məsələlərə dair Azərbaycan və rus dillərində digər məqalələri dərc olunub ki, burada da müəllifin apardığı fəlsəfi təhlillər, müxtəlif problemlərə dair baxışları yer alıb. "Hansı daha təhlükəlidir: Xristianslavyan birliyi, yoxsa İslam həmrəyliyi?", "Azərbaycanda müstəqil dövlət quruculuğu təcrübəsi: uğurlar, problemlər və perspektivlər" və sair məqalələrdə cəmiyyətin dərin marağına səbəb olan bir çox məsələlərə aydınlıq gətirilir.

# RƏYLƏR

# QLOBALLAŞAN DÜNYA SİVİL MÜBARİZƏNİ QƏBUL EDİR

Bu gün görkəmli filosof və siyasətçilərin diqqətini ən çox cəlb edən məsələlərdən biri dünyada gedən qloballaşma prosesidir. Elmi-texniki tərəqqi sürətlənir, demokratiya dərinləşir, bu yöndə birbiri ilə sıx əməkdaşlıq edən ölkələr öz sərhədlərinə "sığmır", "genişlənirlər". Tarixi təcrübə göstərir ki, dünyada gedən obyektiv prosesləri nəzərə alıb düzgün qiymətləndirən, öz fəaliyyətini daha uğurlu təşkil edən dövlətlər bu məqamda uduzmur, əksinə, böyük fayda götüriirlər. Bəşəri inkişafm sivil yoluna qədəm qoyan Azərbaycan belə proseslərə biganə deyil. Ümummilli liderimiz Heydər Əliyevin müdriklik və uzaqgörənliklə müəyyənləşdirdiyi daxili və xarici siyasətə sadiq qalan dövlətimiz inam və qətiyyətlə dünyaya inteqrasiya edir. Azərbaycan Prezidenti cənab İlham Əliyev 28 May Respublika Günü münasibətilə söylədiyi nitqində göstərmişdir: "Azərbaycan beynəlxalq aləmdə öz mövqelərini daha da gücləndirir. Etdiyim xarici səfərlər, keçirdiyim ikitərəfli görüşlər çərçivəsində Azərbaycanın nüflızu regionda, dünyada daha da möhkəmlənibdir. Xaricdə Azərbaycana olan rəğbət çox yüksək səviyyədədir. Azərbaycan, demək olar ki, dünyada böyük hörmətə malikdir. Regional məsələlərdə ölkəmiz liderliyi əldən vermir və bu liderlik gündəngünə möhkəmlənir. Azərbaycan bütün ölkələrlə faydalı, səmərəli, ikitərəfli əlaqələrin qurulmasına çalışır və demək olar ki, bütün ölkələrlə çox mehriban münasibətlər qura bilibdir".

Müasir dövrün mahir tədqiqatçısı, görkəmli filosof və ideoloq Ramiz Mehdiyev ölkəmizin ictimai-siyasi həyatında baş verən prosesləri tədqiq və izah edən, dünyadakı hadisələrlə əlaqəli şəkildə araşdıraraq qiymətləndirən bir sıra konseptual elmi-fəlsəfi əsərlərin müəllifidir. Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin "Azərbaycan qloballaşma dövründə: inkişaf strategiyası" adlı yeni əsəri bu sahədə uğurlu və gərəkli addımlardan biridir. Dünyanı düşündürən və qayğılandıran aktual məsələ ilə bağlı yazılmış bu əsərdə indiyədək ölkəmizdə görülən işlərdən, qarşıdakı vəzifələrdən söhbət açılmaqla yanaşı, belə bir məsuliyyətli məqamda və prosesdə inkişaf strategiyamızın necə olması sualına da dəqiq və aydın cavab verilmişdir. Əlbəttə, kiçik bir məqalədə adı çəkilən əsərin bü-

tün məziyyətlərindən danışmaq imkan xaricindədir. Biz yalmz müəyyən məqamlara toxunmaq niyyətindəyik.

## Demokratik inkişaf yolunu Azərbaycan özü seçib

Ötən əsrin əvvəllərində qazanılan dövlət müstəqilliyini itirdikdən sonra yetmiş il ərzində Azərbaycan sovet rejimində yaşadı. Sosializmin arxalandığı təlim, əsaslandığı və "inkişaf etdirdiyi" nəzəriyyə var idi. Həmin nəzəriyyəyə görə, bütün ictimaiiqtisadi formasiyalar kommunizmlə sonuclanmahydı. Başqa sözlə, sosializm təsadüf yox, tarixi inkişafın zəruri nəticəsi sayılırdı. Bu ictimaiiqtisadi formasiya özünün ən demokratik, iqtisadi cəhətdən güclü və sürətli inkişaf edən bir quruluş olduğunu iddia edirdi. Və dünyanın heç yerindəki demokratiyanı, dövlət quruluşunu bəyənmirdi. Özünü hər cür böhrandan azad göstərən sosializm XX əsrin səksəninci illərində elə bir böhrana düşdü ki, ondan yaxa qurtara bilmədi. Təkcə bir quruluş kimi yox, ideya kimi də ömrünü başa vurdu. Qırmızı imperiyanın parçalanma prosesi başlananda Azərbaycan xalqı tarixi arzusunu, müstəqilliyə qovuşmaq niyyətini ortaya qoydu. Əlbəttə, zəngin təbii sərvətlərlə yağlı tikəni xatırladan Azərbaycanı əldən buraxmaq istəməyənlər də vardı. Onlar qondarına "Dağlıq Qarabağ problemi" yaradıb meydana atmaqla ölkəmizi itaət zəncirində saxlamağa çalışdılar, bizi zorla ərazimizin iyirmi faizinin işğalı ilə nəticələnən uzun sürən dağıdıcı müharibəyə cəlb etdilər. Hətta 1993-cü ilin iyunımda niyyətlərinin bir addımlığına çatdılar. Lakin öz istəyində qətiyyətli olan xalq məqsədinə yetmək üçün düzgün və qətiyyətli addım atdı, sadiq və smanmış oğlunu, ümummilli liderimiz Heydər Əliyevi yenidən ölkə rəhbərliyinə qaytardı. Beləliklə, Azərbaycanın bir dövlət kimi məhvinin qarşısı alındı, müstəqilliyimiz qorunub saxlanıldı. Hakimiyyətə gəldiyi ilk gündən dövlət müstəqilliyini hər şeydən uca tutduğunu bəyan edən ümummilli liderimiz Heydər Əliyev ölkəmizin demokratiya və bazar iqtisadiyyatı yolu ilə dönmədən irəliləyəcəyini söylədi, bu prinsipləri bərqərar edəcək müdrik daxili və xarici siyasət xətti müəyyənləşdirərək onu uğurla həyata keçirməyə başladı. Gərgin mübarizə və maneələrdən uğurla keçən bu xətt ölkəmizin Avropa Şurasına qəbulu, dünyaya inteqrasiyası ilə nəticələndi. Ötən ilin

oktyabrında Azərbaycan xalqı bu siyasəti dəstəkləyərək onun ən layiqli davamçısı olan İlham Əliyevə səs verdi.

Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev "Azərbaycan qloballaşma dövründə: inkişaf strategiyası" əsərində bu məqama toxunaraq yazır: "Müasir epoxa Azərbaycanın siyasi səhnəsində dövləti keyfiyyətlə inkişaf etdirməyə, onu dünya birliyinə tam miqyasda inteqrasiya etməyə, əsası 1993-cü ildə Heydər Əliyev tərəfindən qoyulmuş səmərəli dövlətçilik xəttini inamla davam etdinnəyə qadir olan modernist qüvvələrə yol açmışdır". Ötən illər ərzində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər də göstərir ki, demokratiya yolunu Azərbaycan özü seçib, ondan geri dönmək və yarıda dayanmaq niyyətində deyil! Və demokratiyanın bütün prinsiplərini yerinə yetirərək durmadan inkişaf etdirir!

## Söz, mətbuat azadlığı, fikir plüralizmi

İnsan hər hansı addım atmazdan öncə düşünür, ölçübbiçir. Cəmiyyətdə də belədir. Hər bir hərəkat, əməli iş öncədən ideya, nəzəri şəkildə yaranır, mövcud olur. İdeya maraqlı, cəlbedici olduqda insanları ətrafına toplaya, tərəfdarlarının saymı artıra bilir. Fikir və ideyaların mübarizəsi də daim təsadüf olunan haldır. Təzə ideya özünə yer etməyə, əvvəlki isə üstünlüyünü qoruyub saxlamağa çalışır. Bu çarpışmada da son məqamda özünə çoxsaylı tərəfdar toplamağı bacaranlar qalib gəlirlər. Mübarizənin bərabərhüquqlu əsasda keçməsi, adamların onları cəlb edəcək ideyalarla sərbəst tanış olması üçün cəmiyyətdə mətbuat və söz azadlığınm, fikir plüralizminin mövcudluğu zəruridir. Bu, həm də demokratiyanm başlıca tələblərindəndir. Ona əməl olunması üçün ölkəmizdə lazımi şərait vardır. Fəlsəfə elmləri doktoru, professor R.Mehdiyev yazır: "Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğuna nail olmaq siyasi hakimiyyətin bütün sahələri üçün öncül istiqamət sayılan məqsəddir. Kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyət göstərməsi, üçüncü sektorun qeyrihökumət təşkilatlarının, birlik və assosiasiyalarının maneəsiz işləməsi, söz, öz iradəsini, fikrini sərbəst ifadə etmək, dini etiqad azadlığı müasir Azərbaycanın ictimai-siyasi inkişafının öncül istiqamətidir".

Sovet mətbuatı özünü "dünyanın ən demokratik mətbuatı", "xalqın tribunası" hesab edirdi. Lakin mətbuata ciddi partiya nəzarəti vardı və yal-

nız senzuranın icazəsindən sonra hər hansı bir fikir, yazı oxucusuna (tamaşaçısma) çatdırıla bilərdi. Aydındır ki, iki güclü nəzarətçi olan şəraitdə əsl azadlıqdan söhbət gedə bilməz! Azərbaycan dövlət müstəqilliyini elan etdikdən, demokratiya yolunu tutduqdan sonra mətbuat və söz azadlığına da nail olmalı idi. Əvvəlki iqtidarlar, xüsusən özünü "əsl demokrat" sayan AXC-Müsavat cütlüyü bu çətin vəzifənin öhdəsindən gələ bilmədi. Əksinə, onların dövründə qəzet redaksiyalarına basqınlar törədildi, jurnalistlər təhqir olunaraq döyüldü, onlara qəzet yedizdirildi, maşınların yük yerinə basıldı və s. Ümummilli liderimiz Heydər Əliyev bu sahədə də qətiyyətli addımlar atdı. Hər şeydən öncə, ölkədə mətbuat və söz azadlığını təmin edən möhkəm, həm də beynəlxalq tələblərə cavab verən qanunçuluq bazası yaradıldı. Dövlət başçısının sərəncamı ilə mətbuata senzura nəzarəti bir institut kimi ləğv edildi. Məhz Heydər Əliyevin təşəbbüsü ilə bir sıra qəzetlərə qarşı dövlət məmurları tərəfindən məhkəmə iddiaları geri götürüldü, onlara kəsilən cərimələr bağışlanıldı. Kütləvi informasiya vasitələrinin madditexniki bazasının möhkəmləndirilməsi üçün də dövlət tərəfindən bir sıra tədbirlər görüldü. Ümummilli liderimiz Heydər Əliyev ölkə jurnalistləri ilə görüşərək mətbuatın problemlərinin aradan qaldırılması məsələlərini müzakirə etdi. Bundan sonra qəzetlərin mətbəələrə olan borcları donduruldu, kütləvi informasiya vasitələri əlavə dəyər və mənfəət vergisindən azad edildi, bir sıra qəzetlərə kreditlər verildi.

Bu gün müstəqil mətbuatın inkişafı, iqtisadi cəhətcə güclənməsi, siyasi sifarişlərdən azad olunması, habelə peşəkarlıqla bağlı müəyyen problemlər mövcuddur. Onların həllində Mətbuat Şurası da səmərəli fəaliyyət göstərir. Bütövlükdə isə Azərbaycanda söz və mətbuat azadlığının təminatı, fikir plüralizminin qorunmasında heç bir maneə və əngəl yoxdur! Ölkə mətbuatı istədiyi mövzuda, istədiyi fakt və hadisə barədə yazır, fikir və mülahizələrini sərbəst şəkildə bildirir. Azərbaycanda fikir plüralizmi də təmin olunub. Altmışdan çox siyasi partiya mövcuddur, çoxsaylı qurumlar, yüzlərlə qeyrihökumət təşkilatı fəaliyyət göstərir. Onların çoxunun xüsusi mətbu orqanı var. Siyasi partiyalar öz ideyalarını maneəsiz surətdə təbliğ edir, kütləvi aksiyalar keçirir, hakimiyyət uğrunda mübarizə aparır, prezident seçkilərində öz namizədlərini irəli sürürlər. Bütün bunlara normal münasibət bəslənilir, onların qanun çərçivəsindəki fəaliyyətlərinə heç bir məhdudiyyət qoyulmur.

## Birinin hüququ digərinə əngəl ola bilməz

Demokratiyanın başlanğıcı var, sonu yox! Bu prinsipi dəfələrlə vurğulayan ümummilli liderimiz Heydər Əliyev demişdir: ***"Azərbaycan Respublikası öz dövlət quruculuğunda, sosial-iqtisadi problemlərin həllində tutduğu strateji yolla gedir. Bizim bu yolumuz Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət qurmaqdan, demokratik prinsipləri gündəngünə inkişaf etdirməkdən, dünyanın əldə etdiyi bütün demokratik nailiyyətləri Azərbaycanda yaymaqdan, onlardan bəhrələnməkdən ibarətdir".***

Demokratiya hüdudsuz azadlıq deyil. Yoxsa o, xaosa çevrilərdi. Və artıq xalqımız ötən əsrin doxsanıncı illərinin əvvəllərində belə "demokratiyanı" görmüş, onun ağrıacısmı yaşamış, "bəhrələrindən" dadınışdır. Və bir daha həmin dövrə qayıtmaq arzusunda deyil! Demokratiya öz hüquqlarını və qanunun aliliyini dərk və qəbul etməkdir. Demokratik cəmiyyətdə heç zaman birinin hüququnun reallaşması digərinin azadlığı üçün əngələ çevrilə, onun hüququnu məhdudlaşdıra bilməz! İnsanlar öz istəklərini qanun çərçivəsində həyata keçirməli, öz iradə və niyyətlərini zor və təzyiq vasitəsilə başqalarına qəbul etdirməməlidirlər.

Demokratik cəmiyyətdə müəyyən qrup insanların, siyasi partiyaların hakimiyyət uğrunda mübarizəsi, iqtidara gəlməkdən ötrü açıq və sərbəst şəkildə iş aparınası normal və qəbuledilləndir. Bunun üçün siyasi partiya və ya lider öz proqramını elan edir, hakimiyyətə gələcəyi təqdirdə dövləti necə inkişaf etdirəcəyi, xalqa nə verəcəyi barədə planlarını açıqlayır, kütləvi informasiya vasitələri, mitinq və yürüşlər vasitəsilə təbliğatını qurur, seçkilərdə qalib gəlmək məqsədilə tərəfdarlar toplayır. Son sözü isə, şübhəsiz, xalq deyir. Seçki günü səsvermə qutusuna yaxınlaşaraq prezidentliyə iddiaçılara öz münasibətini bildirən xalq! İqtidara başqa vasitələrlə mövcud qanun və normalara uyuşmayan formada kimsənin gəlməsi qəbul edilmir! Əslində xalqın iradəsi əleyhinə kiminsə ona rəhbərlik etməsini xalq özü də qəbul etmir və belə iqtidarın ömrü uzım sürmür. Xalqın etimadını qazanmayan, onun səsini "yığıb" hakimiyyətə gəlməyən və iradəsini ifadə etməyən heç bir qüvvə dövləti idarə edə bilməz!

Təəssüf ki, bunu unudanlar da olur. Özü də həmin insanlar nəinki iqtidara, hətta xalqın iradəsinə də zor göstərməyə çalışırlar. 15-16 oktyabr hadisələri buna misaldır. 2003-cü ilin prezident seçkilərində namizədlərin hamısına eyni şərait yaradılmışdı. Bütün siyasi partiyalar, iddiaçılar təbliğattəşviqat kampaniyalarını quraraq xalqın etimadını qazanmağa çalışırdılar. Seçki günü səsvermə məntəqələrində böyük fəallıq müşahidə olunurdu. Həm daxili ekspertlərin, həm də beynəlxalq, tərəfsiz qurumların müşahidəçilərinin apardıqları ilkin sorğular da kimin üstünlük qazanacağmı açıqaydın göstərirdi. Lakin bir dəfə dövləti idarə edə bilməyən, xalqın etimadını doğrultmayaraq hakimiyyəti qoyub qaçan Müsavat və onun ətrafına toplaşan bir neçə radikal müxalifət partiyası xalqın iradəsi və gerçəkliklə barışmaq istəməyərək köhnə əyyamda olduğu kimi, zorakılığa əl atdı. Seçkilərin nəticəsinin elan edilməsini gözləməyən təxribatçı və pozucu qüvvələr küçə və meydanlara çıxdılar. Hakimiyyəti zorla qəsb etməyə çalışan bu insanlar taxta və dəmir parçaları ilə silahlanaraq polisə müqavimət göstərdilər, hüquq-mühafızə orqanı işçilərinə çoxsaylı bədən xəsarətləri yetirdilər, nəqliyyat vasitələrinə, ayrı-ayrı vətəndaşların şəxsi əmlakına, dövlət idarələrinə külli miqdarda ziyan vurdular. Həmin günlərdə şər yuvasına çevrilmiş Müsavat Partiyasının qərargahında "Lider" televiziyasının vəzifə borcunu yerinə yetirən jurnalisti vəhşicəsinə döyülərək təhqir edildi, neçə mətbuat işçisi xəsarət aldı.

Azərbaycanın radikal müxalifətinin hakimiyyəti zorla ələ keçirməyə yönələn bu vandal əməlləri müxtəlif telekanallar vasitəsilə göstərildi. Həm ölkə daxilində, həm də xaricdə bu vandallığı və vəhşiliyi görənlər hakimiyyət uğrunda zorakı, qeyrisivil mübarizəni qınayaraq bəyənmədiklərini bildirdilər. Xalqın dəstək və məhəbbətinə arxalanan Azərbaycan iqtidarı isə iğtişaş cəhdinin qarşısını qətiyyətlə və qısa müddətdə aldı, sabitliyin pozulmasına imkan vermədi. Bununla da Azərbaycanda müstəqil dövlətçiliyin qurulduğunu, dövlətin bütün vəziyyətə nəzarət etdiyini də sübuta yetirdi. Eyni zamanda, hakimiyyətlə zor və təzyiq dilində danışmağın, keçmişi qaytarınaq cəhdlərinin də vaxtmm çoxdan keçdiyini göstərdi. Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev yazır: "...Azərbaycan öz inkişafının elə bir mərhələsinə qədəm qoymuşdur ki, müxalifətin hakimiyyətlə qarşılıqlı münasibətləri, hakimiyyət uğrunda mübarizə yalnız sivilizasiyalı forma və üsullarla, dialoq, real şüarlar və daha cəlbə

dici sosial-iqtisadi proqramlar irəli sürmək yolu ilə aparıla bilər. Dəyənəklər, dəmir çubuqlar, daşkəsək "proletariatm silahı" kimi tarixin arxivinə göndərilməlidir... Hakimiyyətin dinc yolla təhvil verilməsi bəşəriyyətin ən gözəl nailiyyətlərindən biridir".

Əlbəttə, yalnız sivil qüvvələr sivil formada mübarizə aparınağa qadirdir.

## Təfəkkürdə yeniləşmənin vacibliyi

Həqiqət müqayisə zamanı daha aydın görünür. Müqayisə həm də olubkeçənləri düzgün qiymətləndirməyin smanmış üsullarından biridir. Azərbaycanda demokratiyanm mövcud durumu da keçmişə nəzərən araşdırıldıqda obyektiv nəticə çıxarınağa imkan yaradır.

Azərbaycanın müstəqilliyə qədəm qoyması çox mürəkkəb bir dövrə təsadüf etmişdi. Minlərlə soydaşımızın Ermənistan ərazisindəki atababa torpaqların dan qovulması, ermənilərin Dağlıq Qarabağa iddialarının SSRİ rəhbərliyi tərəfindən müdafiə olunması və bu fonda baş verən hadisələr xalqın sonsuz hiddət və qəzəbinə səbəb olmuşdu. Küçə və meydanlara çıxan Azərbaycan xalqı öz etirazmı bildirməklə yanaşı, ölkənin o zamankı rəhbərlərindən haqsızlıqlara son qoyulması, ölkə vətəndaşlarının, habelə torpaqların qorunmasında qətiyyət göstərilməsini tələb edirdi. Lakin vəzifə hərisi olan ağıldankəm Ə.Vəzirov və maymaq A.Mütəllibov Moskvaya qul itaəti göstərir, xalqın müsibətinin qarşısmı almağa tələsmirdilər. Eveşiyindən didərgin düşənlər, eyni zamanda belə vəziyyətlə barışmaq istəməyənlər mitinq, piket, tətil və digər vasitələrlə ölkə rəhbərliyinə təsir göstərməyə cəhdlər edirdilər. Xalqın qəzəbindən qorxan Ə.Vəzirov qaçıb getdikdən sonra A.Mütəllibov da etiraz dalğalarına tab gətirə bilmirdi. Azadlıq meydanı isə kükrəyib daşırdı. Hakimiyyət xalqın haqlı tələbinə güzəştə getməyə məcbur olurdu. Həmin dövrdə "fərqlənən" meydan qəhrəmanları belə "güzəştlərdən" bəhrələndikcə iştahlan da artırdı. Onlar bu məqamdan istifadə edərək hakimiyyətə gəlməyin mümkünlüyünə əmin olduqdan sonra ciddi addımlar atdılar.

Torpaqların işğalına etiraz əlaməti olaraq meydana toplaşan xalqın qəzəb və hiddətini respublika başçılarına qarşı yönəldərək Mütəllibov iqtidarının qorxaqlığından və qətiyyətsizliyindən istifadə etməklə "tankın be-

lində" hakimiyyətə gəldilər. Bu asan qələbə AXC-Müsavat cütlüyü və sonradan onlardan törənən partiyalarda zor və təzyiq yolu ilə asanlıqla hakimiyyəti ələ almağın mümkünlüyü barədə yanlış qənaətə gəlmələri ilə sonuclandı. Sovet dönəmində meydanda "meydana gələn" müxalifətdə belə bir yanlış və sivil mübarizə dövrü üçün köhnəlmiş sayılan düşüncə tərzinin yaranması qeyriadi sayılmaz. Təəccüblüsü həmin müxalifətin köhnə təfəkkürdən və vaxtı keçmiş mübarizə metodlarından inadla əl çəkməməsindədir! Son on bir ildə Azərbaycan iqtidarı yeniləşib, eyni zamanda, öz fəaliyyətini daim təkmilləşdirdiyini, demokratik prinsipləri dərindən mənimsədiyini sübut edib! Müxalifətin radikal qanadı isə heç cür sivil qaydaları öyrənib istifadə etmək niyyətində deyil! Həyat isə bu prosesin getməsinin vacibliyini göstərir. Azərbaycanın müasir iqtidarına uyğun müxalifət yaranmalı, siyasi elitanm formalaşması başa çatmalıdır!

Fəlsəfə elmləri doktoru, professor R.Mehdiyev "Azərbaycan qloballaşma dövründə: inkişaf strategiyası" adlı əsərində yazır: "...Ölkəni tərəqqiyə və inkişafa aparınağa qadir olan yeni siyasi elitanı elə bir nəsil formalaşdıracaq ki, ondan ötrü milli "mən", milli eynilik, təkcə regional planda deyil, həm də qlobal miqyasda milli müstəqilliyin və dövlət suverenliyinin qorunub saxlanılması, ölkənin iqtisadi baxımdan güclənməsi mühüm amildir. Gənc nəsil lokal və respublika əhəmiyyətli seçkilərdə fəal iştirak edərək qarşıya qoyulmuş məqsədlərə uğurla nail olmağa kömək edə bilər. Bu məsələdə dövlət gənc azərbaycanlı liderlərin inkişafına və təşəkkülünə yönəlmiş dəqiq mövqe tutur. Bu, dövrün tələblərinə cavab verir və milli mənafe və təhlükəsizlik məsələsidir".

Azərbaycan iqtidarı açıq fəaliyyət göstərir. Bu şəffaflıq təkcə siyasətə yox, iqtisadiyyata da aiddir. Öz qapılarını dünyaya açan müstəqil dövlətimiz sivil dünyanın qəbul etdiyi prinsipləri əsas tutur. Həmin prinsiplər əsasında mübarizə aparan müxalifətin də yaranması vacib və qaçılmazdır.

Bunu tarixi zərurət tələb edir!

**Bəxtiyar SADIQOV,**
**"Azərbaycan"**

*11 iyun, 2004 346*

## AZƏRBAYCAN - QLOBALLAŞAN DÜNYANIN TƏSİR MƏKANI

***Bəşər sivilizasiyasının üzücü və insan itkiləri ilə müşayiət olunan müharibələrdən nəfəs dərdiyi qısa asudəlik vaxtlarında haqqında düşündüyü strateji məsələlərdən biri də firavanlıq, həmrəylik və əməkdaşlıq çərçivəsində qurulmuş vahid dünya evi problemi olmuşdur.***

***Məhz ötən yüzilliyin son sənələrində qurunun altıda bir hissəsini təşkil edən böyük bir siyasi-iqtisadi, sosiomədəni və etnik güzərgahda siyasi balansın dəyişməsi, müstəqil ölkələrin peyda olması bu prosesdəki hakim dinamikaya gərəkən stimullar yaratmışdır. Bu gün yüksələn ahənglə cərəyan edən inteqrasiya prosesləri qloballaşmanın ən müxtəlif dəstək və mexanizmlərinin buna hazır olduğunu görüntüldyir.***

***Bir vaxtlar cəmiyyətin diferensiallaşma enerjisinə çevrilmiş sosial-iqtisadi aktorlar, başqa cür desək, müharibə və ona qarşı mübarizə əznıi, ekologiya və demoqrafiya məsələləri, kosmos və dünya okeanının fəthi, mədəniiqtisadi əməkdaşlıq, strateji tərəfdaşlıq və s. bu gün qloballaşan dünyanın yeni nizamının əsas inteqratorları kimi çıxış edir. İnsan cəmiyyətinin üzləşdiyi fəlakətlərin təbiət mənşəli olmaqdan çıxıb "antropogen'ləşdiyi, sosial səciyyə daşıdığı bir dövrdə ümumi təhlükəyə qarşı mübarizədə Yer üzüniin bütün insanlarının həmrəylik sədaları başadüşüləndir.***

***Azərbaycan inadla Qərbə inteqrasiya xətti tutduğuna, erməni millətçi separatizminin doğurduğu humanitar məhrumiyyətləri yaşadığına görə qloballaşmaya dəstək verənlər cərgəsindədir.***

***Bu gün ictimai gündəmdə qloballaşma qədər müzakirə edilən ikinci mövzu tapmaq çətindir.***

Qloballaşma nədir? Nə zaman başlayıb? İctimai həyatdakı digər proseslərlə necə uzlaşır? Bu prosesin yaxın və perspektiv nəticələri necə ola bilər? Bu sualların birbirindən fərqli müxtəlif cavabları mövcuddur. Bununla belə, "qloballaşma" terminini hamı tərəfindən qəbul

olunmuş şəkildə ifadə edən baxışlar sistemi hələ formalaşmayıb. Qloballaşma təkcə ictimai şüurun dərk etməsi baxımından deyil, həm də elmi tədqiqatlar üçün çətin mövzulardan biri sayılır. Azərbaycanın inkişaf perspektivində qloballaşmanın yeri, cəmiyyətin bu prosesə adaptasiyası, lokal və regional problemlərin həllinə qloballaşma prosesinin müsbət və mənfi təsirləri tam şəkildə öyrənilməyib. Bu baxımdan fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin "Azərbaycan qloballaşma dövründə: inkişaf strategiyası" əsəri bu problemə həsr olunmuş uğurlu tədqiqat sayıla bilər. Adı çəkilən əsərdə müəllif qloballaşma problemini hərtərəfli şərh etməyi bacarınış və Azərbaycanın bu prosesdəki rolunu dəqiq şəkildə izah etməyə nail olmuşdur. Müəllifin problemə yanaşmasında orijinallıq özünü daha qabarıq göstərir: "Yeni minillikdə Azərbaycanın inkişafı ölkənin bir epoxadan digərinə keçidi ilə şərtlənir. Keçmiş Sovet İttifaqının sosialist respublikası olmuş Azərbaycan müstəqilliyə qovuşduqdan sonra postsovet məkanı kimi qaldığımız industrial eradan mərhələmərhələ digər epoxaya qloballaşan dünyanın tərkib hissəsini təşkil edən postindustrial epoxaya keçməyə başlamışdır. XXI əsrdə qloballaşma dünya inkişafınm strategiyasını xeyli dərəcədə müəyyənləşdirəcəkdir. Bu da qanunauyğundur, çünki biz tarixdə ilk dəfə olaraq bəşəriyyətin sağ qalması məsələsinin qarşıya çıxdığı dövrə qədəm qoymuşuq". R.Mehdiyev hesab edir ki, dövlətin inkişaf modeli müəyyən olunarkən dünyada gedən proseslərin nəzərə alınması son dərəcə vacibdir. Bu gün beynəlxalq aləmdə gedən hər bir sosial, siyasi, iqtisadi prosesin qloballaşma ilə birbaşa və dolayı bağlılığı olduğu danılmaz faktdır. Məhz buna görə də Azərbaycanın inkişaf strategiyası cəmiyyətin dünyanın qlobal meyillərinə adaptasiya olunmasından nəzərəçarpacaq dərəcədə asılıdır.

2000-ci ilin iyun ayında Tehranda İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının VI zirvə görüşündə çıxış edən ümummilli liderimiz Heydər Əliyev ən müxtəlif sahələrdə qloballaşmanın mühüm əhəmiyyətinə toxunaraq demişdir: "Bu gün bütün fəaliyyət sahələrinə qloballaşma prosesinin müdaxilə etdiyi bir vaxtda ayrı-ayrı ölkələrin qarşıhqlı əlaqələr qurmadan inkişafını təsəvvür etmək çətindir. Ona görə də, fikrimcə, qloballaşma və qarşılıqlı əlaqə şəraitində...

ölkələrimiz həm İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində qurulan münasibətlərin səmərəliliyinin artırılmasına, həm də müxtəlif beynəlxalq və regional təşkilatlarla əməkdaşlığın dərinləşməsinə çalışmalıdırlar".

## İnteqrasiya qloballaşma indeksi kimi

Azərbaycanın beynəlxalq münasibətlər sisteminə inteqrasiyasında qloballaşma prosesinin önəmli rolu var. Dünyanın ayrı-ayrı dövlətlərində demokratikləşmə prosesinin səviyyəsi başqa parametrləri ilə yanaşı, eyni zamanda həmin ölkədə qloballaşma indeksinin səviyyəsi ilə müəyyənləşir. ABŞda dərc olunan nüfuzlu "vvashington Profile" elmi-tədqiqat jurnalı hər il dünya ölkələrinin qloballaşma reytinqini tərtib edir. Jumalm son araşdırmasında Azərbaycanın adı qloballaşma göstəricisi yüksək olan dövlətlər siyahısına əsas namizədlər sırasında yer alıb. Qloballaşma reytinqi dörd parametrə əsasən müəyyənləşir. İqtisadi inteqrasiya beynəlxalq ticarətin və sərmayələrin həcmi, sərhədləri aşmaqla həyata keçirilən ödəmələrin səviyyəsi; fərdi əlaqələr beynəlxalq səfərlər və turizm, beynəlxalq telefon danışıqlarının, poçt göndərişlərinin, ödənişlərin həcmi; texnologiya internet beynəlxalq şəbəkəsindən istifadəçilərin sayı, intemet serverlərinin sayı; beynəlxalq siyasətə cəlbolunma səviyyəsi beynəlxalq təşkilatlara üzv olmaq, xarici ölkələrdəki diplomatik nümayəndəliklərin sayı və s. Bu parametrlərə əsasən, postsovet məkanmm ən qloballaşmış dövlətləri Ukrayna və Rusiya hesab olunur. Bu dövlətlər qloballaşma reytinqində müvafiq olaraq 42 və 44cü yerləri tuturlar. Ekspertlərin fikrincə, digər postsovet məkanı respublikaları arasında qloballaşma reytinqi dünya standartlarına daha uyğun olan, yaxın vaxtlarda "qloballaşma indeksi"nin müəyyənləşdiyi 62 dövlət sırasına daxil olmağa namizəd ölkələrdən biri də Azərbaycandır. Reytinq cədvəli dünya əhalisinin 88 faizinin və dünya iqtisadiyyatınm 91 faizinin cəmləşdiyi 62 dövlətin göstəricilərinə nəzərən hazırlanıb.

Adambaşına düşən xarici sərmayənin həcminə görə Azərbaycan postsovet məkanmda ilk yerlərdən birini tutur ki, bu da qloballaşma indeksinin müəyyənləşməsi zamanı əsas götürülən vacib parametrə iqtisadi inteqrasiya göstəricisinə uyğun gəlir. Ötən il dünya iqtisadiyyatmda böhranm güclənməsi qloballaşma prosesinin nisbətən zəifləməsi ilə nəticələnib.

Zəifləmə ilk növbədə beynəlxalq ticarət dövriyyəsi və sərmayə qoyuluşunun azalması ilə bağlıdır. Dünya iqtisadiyyatında nəzərə çarpan bu mənfi tendensiya Azərbaycana təsirini göstərməyib, əksinə, qloballaşan dünyanın bir parçası olan ölkəmiz xarici sərmayə qoyuluşu prosesində daha önəmli mövqelərdən birinə sahibdir. Bu prosesdə əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin davam etdirdiyi yeni neft strategiyasının önəmli payı var. Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin əsərində bu amil geniş şəkildə şərh olunmuş, ölkəmizin qloballaşan dünyanın tərkib hissəsinə çevrilməsində uğurlu neft strategiyasının və iqtisadi islahatların önəmi dəqiqliklə şərh edilmişdir: "Azərbaycan öz təbii ehtiyatların dan bəhrələnərək və onların dünya bazarlarına çıxarılması üsullarını müəyyənləşdirərək, regional mərkəzlər arasında kompleks qarşılıqlı iqtisadi əlaqələr yaradaraq dünya qloballaşma proseslərinə qoşulmuşdur. Enerjidaşıyıcıların dünya bazarlarına nəqli layihəsinin, o cümlədən "Əsrin müqaviləsi"nin həyata keçirilməsi və 2002-ci ilin sentyabrmda başlamış Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin tikintisi Azərbaycanın inteqrasiya layihələrində və qlobal iqtisadi layihələrdə fəal iştirakını sübut edən başlıca amillərdəndir. Bu proseslərdə səriştəlilik dövlətin və cəmiyyətin modernləşməsi səviyyəsini və mümkünlüyünü öncədən müəyyənləşdirir. Başqa sözlə, dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, "Azərbaycan üçün indi də, bir çox illər öncədən də iqtisadi və siyasi vəziyyət təbii ehtiyatların işlənməsi strategiyasından asılı olacaqdır. Bu, iqtisadi azadlıq və iqtisadi inkişafı əldə etmək yoludur". Qloballaşma prosesinin aparıcı qüvvələri sayılan transmilli şirkətlərin ölkəmizə sərmayə qoyuluşunda iştirakı ölkəmizin beynəlxalq iqtisadi və siyasi münasibətlər sisteminə inteqrasiya imkanlarının böyük olduğunu sübuta yetirir. Digər tərəfdən, "qloballaşma nəhəngləri"nin Azərbaycanda fəaliyyəti ölkəmizin qloballaşma indeksinin yüksəlməsinə də təsirini göstərmişdir.

Problemə Azərbaycanın iqtisadi inteqrasiya, fərdi əlaqələr, kommunikasiya və beynəlxalq siyasətə cəlb olunması parametrlərinə nəzərən deyil, antiqlobalistlərin mövqeyi ilə yanaşdıqda belə, ölkəmizin qloballaşma indeksinin nə qədər yüksək olduğunu söyləmək mümkündür. Dünyanın aparıcı transmilli korporasiyaları ölkə iqtisadiyyatının ayrı-ayrı sahələrinə nəinki böyük miqdarda sərmayə qoyur, hətta bütöv sahələrdə hegemon

mövqeyə malikdirlər. Xarici sərmayə qoyuluşu və bazarda malik olduğu üstünlüklər, antiqlobalistlərin iddia etdiyi kimi, milli iqtisadiyyatın sıxışdırılması, məhvi kimi proseslərlə müşayiət olunmur, əksinə, iqtisadi inkişafı stimullaşdırır. Başqa sözlə desək, Azərbaycan qloballaşma prosesinə müsbət reaksiya verir və beynəlxalq proseslərə ağrısız şəkildə adaptasiya olunur. İqtisadi inkişafı ləngidən obyektiv amillərin (müharibə vəziyyəti, hərbi xərclərin çoxluğu, bir milyona yaxın qaçqının sosial problemlərinin həllində əsas ağırlığın dövlətin üzərinə düşməsi və s.) çoxluq təşkil etdiyi bir dövlətdə qloballaşma prosesinə sürətli adaptasiya fenomenal amil kimi dəyərləndirilə bilər.

## Qloballaşma demokratikləşmənin lakmus kağızı

Qloballaşmanın kökü tarixin dərinliklərinə uzanır. Bununla belə, bu proses haqlı olaraq XX əsrin fenomeni hesab olunur. Cəmiyyətlərin qloballaşma prosesinə adaptasiyası həmin toplumların dəyərlər sistemi ilə sıx bağhdır. Yəni, qloballaşma prosesi demokratik dəyərləri sürətlə mənimsəmiş cəmiyyətlərin həyatmda müsbət rola malikdir, bu dəyərləri inkar edən cəmiyyətlər isə beynəlxalq birliyin qarşısında duran zəruri problemləri birgə həlletmə mexanizmi olan qloballaşmanı qəbul etmirlər. Qloballaşmanı inkar edənlərin əsas iddiası bu prosesin milli inkişaf modellərini, analoji olaraq da milli dəyərlər sistemini sıradan çıxarınasıdır. Bu iddiam təsdiqləyən və inkar edən arqumentlər kifayət qədərdir. Bununla belə, cəmiyyətin milli inkişaf modellərini qoruyub saxlaması və inkişafını birbaşa qloballaşmanm təsiri ilə əlaqələndirmək düzgün deyil. Siyasi-iqtisadi prosesləri yönləndirməyə qabil institutlaşmış modellərin ayrı-ayrı cəmiyyətlərdə müsbət və ya mənfi təzahürü həmin dövlətlərdə formalaşan dəyərlər sistemindən asılıdır. Yəni, demokratiya, yaxud qloballaşma totalitar cəmiyyətlərdə bir cür, demokratik cəmiyyətlərdə isə başqa formada təzahür edə bilər. Əslində, dünyanın nüfuzlu politoloqları qloballaşmaya adaptasiya prosesini cəmiyyəttərin demokratikləşmə göstəricisini müəyyənləşdirmək üçün lakmus rolunu oynadığmı söyləməkdə yanılmırlar. Azərbaycanın qloballaşma prosesinə adaptasiyasının səviyyəsini ölkədəki demokratikləşmə prosesinin dərinliyi və vüsəti ilə izah etmək olar. Digər tərəfdən, Azərbaycan qloballaşmanın milli inkişaf modellərini inkar etmədiyi,

əksinə, bu prosesi stimullaşdırdığı üçün ən böyük ömək sayıla bilər. Professor Ramiz Mehdiyevin "Azərbaycan qloballaşma dövründə: inkişaf strategiyası" əsərində xarici və daxili siyasət kursunu dünyanın qlobal meyilləri ilə uzlaşdırmaqla milli inkişaf modeli yaratınağın mümkünlüyünü əyani şəkildə sübuta yetirmişdir. Ölkənin regional inteqrasiya proseslərində fəai iştirakını Azərbaycanın hərtərəfli inkişafının əsas tərkib hissəsi sayan müəllif yazır: "Bu layihələrin mahiyyəti Azərbaycanın kommunikasiya əhəmiyyətini artırmaqdan ibarətdir. Bu, eyni zamanda ölkə və ümumən region üçün mühüm iqtisadi faydadır. Azərbaycan xarici sərmayəçilər və maliyyə qurumları ilə birlikdə iqtisadi layihələr irəli sürərək, əslində, bütün Cənubi Qafqaz məkanının inkişaf etməsini qarşısına məqsəd qoyur. Çünki regionun iqtisadi cəhətdən inkişafı burada uzun illərdən bəri mövcud olan etnik münaqişələrin həlli üçün əsas ola bilər". Ümumiyyətlə, Azərbaycanın ən yeni tarixinə nəzər saldıqda, ölkəmizin beynəlxalq iqtisadi məkana inteqrasiya prosesinin pərakəndə deyil, ardıcıl, düşünülmüş siyasətin nəticəsi olduğunu görmək olar. Ümummilli Hderimiz Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış GÖUAM birliyi Azərbaycanın qloballaşma prosesində təkcə tərəfdaş kinıi deyil, həm də təşəbbüskar kimi iştirak etdiyini təsdiqləyir. GÖUAM haqlı olaraq miniqloballaşma proqramı hesab olunur. Postsovet məkanında vahid iqtisadi bazarın yaradılmasına, iqtisadi birliyin siyasi üstqurumunun formalaşmasına, iqtisadi əlaqələrin səmərəlilik göstəricisinin artmasına hesablanan bu unikal layihə ölkəmizin İnteqrasiya proseslərinə nə qədər önəm verdiyini göstərir. GÖUAM layihəsi həm də Azərbaycanın beynəlxalq iqtisadi sistemə inteqrasiyasında tramplin vasitəsi kimi nəzərdə tutulub. Qərblə Şərq arasında iqtisadi və mədəni inteqrasiyanın əsas həlqəsi rolunu oynayacaq bu qurumda ölkəmizın həlledici movqelərdən birinə malik olınası danılmazdır.

## GÖUAM - miniqlobaliaşma modeli

Qloballaşma prosesinin dünyada bir çox makro və mini təzahür formaları mövcuddur. Bu modellərə ən böyük örnək kimi Avropa Birlyini göstərmək olar. Avropa Birliyi meqacəmiyyətlərin yaranması istiqamətində ən böyük uğurlardan biri sayılır. Qloballaşma prosesinin əsas sferalarından biri beynəlxalq iqtisadi sistem, yəni milli iqtisadiyyatlarda və dünya

bazarında qlobal istehsal, mübadilə, istehlak sahəsini təşkil edir. XX əsrin sonlarında beynəlxalq iqtisadi sistem qarışıq struktura çevrilıb. Bu struklurda 200-ə yaxın siyasi vahid, o cümlədən 186 dövlət təmsil olunur. Siyasi vahidlərin, demək olar ki, hamısı ümummilli məhsulun istehsalında və milli bazarların idarə olunmasında iştirak edir. Bir çox ölkələrdə istehsal və istehlak prosesi həmin dövlətlərin xammal və enerjidaşıyıcıları idxal etmək imkanından asılı olur. Təbii ehtiyatların dövlətlər arasında qeyri-bərabər bölgüsü milli iqtisadiyyatların fərqli inkişaf tempi ilə müşayiət olunur ki, bu da sonda dünya iqtisadiyyatının inkişafını ləngidir.

XXI əsrin başlanğıcında beynəlxalq birlik bir çox qlobal problemlərlə üz-üzə qalıb və həmin problemlər yalnız dövlətlər arasındakı əməkdaşlığı gücləndirməklə aradan qaldırıla bilər. Qloballaşma prosesinin önəmi də bu zəmində formalaşıb. Avropa Birliyi əvvəlcə vahid iqtisadi məkan, daha soııra isə vahid gömrük, vergi və valyuta bazisi üzərində siyasi üstqurum kimi formalaşmışdır. Düzdür, "Avropa Birliyi modeli özünü doğruldacaqmı" sualına tarix daba düzgün cavab verəcək. Bununla belə, qlobal problemlərin qarşısında ayrı-ayrı dövlətlərin iqtisadi və siyasi baxımdan birləşməsi obyektiv tələbatdan doğur.

GÖUAM birliyinin meydana çıxması da eyni tələbatın nəticəsidir. Birlikdə iştirak edən dövlətlər, o cümlədən Azərbaycan qloballaşma prosesinin əhəmiyyətini düzgün dəyərləndirir və lokal-regional problemlərin iqtisadi inteqrasiyadankənar həlli modelinin olmadığını yaxşı anlayır. GÖUAM Avropa Birliyinin mini formasına çevrilməklə postsovet nıəkanı respublikalarının iqtisadi inkişafına müsbət təsir görtərə bilər.

Azərbaycanın qlobal İqtisadi-siyasi layihəələrdə iştirakı təkcə bu tip qurumlarda iştirakla məhdudlaşmır. Dünyanın önəmli siyasi institutlarına inteqrasiya əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş və hazırda dövlət başçısı İlham Əliyevin uğurla həyata keçirdiyi xarici siyasət kursunun prioritet istiqamətini təşkil edir. Qloballaşma prosesi ilə əlaqədar Avropa Birliyi ilə münasibətləri genişləndirməyə çalışan Azərbaycan qitənin iki önəmli strukturunun - Avropa Şurası və ATƏT-in tamhüquqlu üzvüdür. Avratlantika məkanına inteqrasiya siyasəti, NATO ilə əməkdaşlıq da ölkəmizin qioballaşma meyillərinə müsbət reaksiyasının təzahürü hesab olunmalıdır. Bcynəlxalq birliyin Azərbaycanı qlobailaşma prosesinin mühüm bir həlqəsi besab etməsi ölkəmizin coğrafi baxımdan

mühüm strateji regionda yerləşməsinin nəticəsidir. Qərblə Şərqi, Şimalla Cənubu birləşdirən qlobal enerji və kommunikasiya layihələrinin gerçəkləşməsində ölkəmizin oynadığı rol beynəlxalq birlik tərəfindən həmişə müsbət dəyərləndirilib. Ölkənin siyasi və iqtisadi potensialını dünyada gedən proseslərlə məharətli şəkildə uzlaşdırmağı bacaran dövlət başçısı İlham Əliyev Azərbaycanın dünya dövlətləri sırasında özünəlayiq yerini tutacağını dəfələrlə vurğulayıb.

## Sosial meqacəmiyyətə doğru

Dünyada gedən proseslərə inteqrasiya təkcə vahid bazarların, vahid mədəniyyətin, vahid baxışlar sisteminin yaradılması kimi nəzərdən keçirilməməlidir. Qloballaşma bəşəriyyətin qarşısında duran problemlərin həllində qüvvələri səfərbər etməyi nəzərdə tutur. Bu baxımdan vahid məkanların yaradılması səbəb deyil, nəticə hesab olunur. Qlobal problemlərin kəmiyyətcə artması çatışmazlıqların təkbaşına, konkret dövlət səviyyəsində həllini qeyri-mümkün edir. Hətta dünyanın supergücləri bir müddət əvvəl dondurduqları problemləri indi beynəlxalq birliyin yardımı olmadan həll etməyin mümkünsüzlüyünü etiraf edirlər. Problemlərin aradan qaldırılması təkcə qarışıq struktura malik bazarların vahid səviyyəyə qaldırılması ilə həll oluna bilməz. Bunun üçün fərqli sosial institutlardan təşkil olunan cəmiyyətlərin elm, təhsil, səhiyyə, idman, idarəetmə kimi sahələrinin eyni səviyyədə inkişafı vacibdir. Qloballaşma prosesinin müsbət dividentlərindən biri cəmiyyətlər arasında sosial tarazlığın bərpa olunmasıdır. Sosial sahələrin inkişafmda tarazlığın yaranması cəmiyyətlərin bütövləşməsinə və monolitləşməsinə gətirib çıxaracaq. Bu baxımdan müstəqillik yolunda ilk addımlarını atan Azərbaycanın qloballaşma prosesində fəal iştirakı yalnız müsbət nəticələr verə bilər.

## Qloballaşma dövründə gənclər siyasəti

Professor Ramiz Mehdiyevin "Azərbaycan qloballaşma dövründə: inkişaf strategiyası" əsərində gənclərin idarəetmə prosesinə cəlb olunmasının dövlətin milli inkişaf modelinin ayrılmaz hissəsi olduğu dəqiq şəkildə ifadə edilmişdir. Ümummilli liderimiz Heydər Əliyevin gənclər siyasətinin

cəmiyyət həyatının müxtəlif sahələrində çalışacaq işgüzar vətəndaşların hazırlanması prinsipinə əsaslandığını vurğulayan müəllif kadrların seleksiyası işinin ölkənin inkişaf strategiyasının özəyini təşkil etdiyini ön plana çəkir: "2004-cü il bələdiyyə seçkiləri, 2005-ci il parlament seçkiləri savadlı, tərəqqipərvər vətəndaşların dövlət idarəçiliyinə fəal surətdə cəlb edilməsinə, onların lokal səviyyədə və respublika səviyyəsində təmsil olunmalarına göstərilən ciddcəhddir. Bələdiyyə orqanlarına və ölkə parlamentinə seçkilərdə həm də güclü və müstəqil dövlət, mükəmməl vətəndaş cəmiyyəti quruculuğımda iştirak etmək istəyən gənc, səriştəli, intellektual, vətənpərvər insanların iştirakı ölkənin yeni siyasi elitasının təşəkkülünə, siyasi rəqabətin demokratik əsaslarının möhkəmlənməsinə və kadrların keyfiyyətli rotasiyasına kömək edəcəkdir".

Cəmiyyətin inkişafına təsir göstərən siyasiideoloji baxışlar sisteminin mənimsənilməsi və həyata keçirilməsində əsas ağırlıq gənc nəslin üzərinə düşür. Dövlətin milli inkişaf strategiyası gənclər siyasətinin uğurla həyata keçirilməsindən nəzərəçarpacaq dərəcədə asılıdır. Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət kursunun əsas prioritetlərindən biri səmərəli dövlətçilik xəttini inamla davam etdirməyə qadir olan moderaist qüvvələrin ön plana çıxarılmasıdır. Gənclərin dövlət idarəçilik sisteminin ən müxtəlif sahələrinə önə çəkilməsi, idarəetmə sisteminin gəncləşdirilməsi artıq öz bəhrəsini verməyə başlamışdır. Azərbaycan gəncliyi ölkədə vətəndaş cəmiyyətinin formalaşmasında önəmli rol oynayır, üzərinə düşən sosial funksiyanı uğurla həyata keçirir. Cəmiyyətdə özünüidarə mexanizmlərinin təşəkkül tapmasında gənclərin rolu həddən artıq böyükdür. Buna görə də dövlət parlamentdə, vətəndaş cəmiyyətinin təzahür formaların dan biri olan bələdiyyə orqanların da gənc nəslin təmsil olunmasını stimullaşdırır. Gənclərin ön plana çıxarılması dövlət siyasətinin dünyada gedən qlobal meyillərlə uzlaşdırılmasınm başqa bir örnəyidir. Sosial dəyişikliklərə daha sürətlə adaptasiya olmağı bacaran gənclər qloballaşma prosesinin aparıcı qüvvəsinə çevrilirlər. Demokratik dəyərlərin bərqərar olduğu dövlətlərdə gənclər siyasəti insan hüquqları, sərbəst bazar iqtisadiyyatı, kommunikativləşmə kimi önəmli prinsiplərlə bir sırada yer alır. Bıı baxımdan dövlət başçısı İlham Əliyevin gəncləri daim önə çəkməsi gələcəyə uğurlu kapital qoyuluşu kimi dəyərləndirilməlidir. Qarşıdan gələn seçkilərdə gənc kadrlara veriləcək mənəvi dəs-

tək Azərbaycanın dünyada gedən qloballaşma prosesinə adaptasiyasının örnəyi olacaqdır.

"Azərbaycan qloballaşma dövründə: inkişaf strategiyası" əsəri ölkəmizdə bu problemə həsr olunmuş flındamental tədqiqat sayıla bilər. Qloballaşma probleminə ən müxtəlif baxışları sistemli şəkildə ifadə etməyi bacarınış müəllifın əsas uğuru Azərbaycanın bu prosesdəki rolunu ən kiçik detallannadək ifadə etməsindədir. Qeyd olunan tədqiqat qloballaşma prosesini təkcə ictimai şüur üçün asan həzm olunan baxışlar sisteminə çevirməsi baxımından əhəmiyyət kəsb etmir, əsər həm də bu sahədə yeni tədqiqatlar aparılmasını stimullaşdırır.

Bu gün kompleks yanaşma və dövlətlərarası vahid strategiyanın işlənib hazırlanmasını tələb edən qlobal problemlərin səmərəli həllindən bütövlükdə iqtisadi tərəqqinin taleyi asılıdır.

Bu gün beynəlxalq inkişafm qlobal xüsusiyyətlərini nəzərə almadan, dövlətlərin siyasi, iqtisadi və mədəni maraq və məqsədlərini vahid ümumməqbul məxrəc altma gətirmədən hər bir fərdin, dövlətin və beləliklə, bəşəriyyətin davranış və yaşamını tənzimləyən mənəviəxlaqi norma və prinsiplər, bütöv bir strategiya formalaşdırmaq qeyri-mümkündür. İnsanlar artıq daha çox fərdləşən və qloballaşan təhlükələrdən sığortalanmaq üçün şüurlu və fəal şəkildə vahid dünya tarixinin subyektinə çevrilməkdədirlər. Heç şübhəsiz, bu, uzun sürən, tədqiqat və zəhmət tələb edən bir prosesdir. Və Azərbaycan bu çətin, nahamar olduğu qədər də vacib bir yolun yolçuluğundadır. Mənzilə uzanan məsafəni qısaltmaq isə hər birimizin əlində və həmrəylik istəyindədir.

**Xalid NİYAZOV,**
**"Azərbaycan"**

*19 iyul, 2003 356*

# QLOBALLAŞMA DÖVRÜNDƏ AZƏRBAYCANLI "MƏN"İ GETDİKCƏ DAHA ÇOX NÜFUZ QAZANIR

***Tarix boyu bəşəriyyət Yer kürəsinin təbii ehtiyatlarından maneəsiz istifadə etməyə, öz milli xüsusiyyətlərini ya qoruyaraq, ya da itirərək ümumi sivil dəyərlər yaratmağa səy etmişdir. Xalqların, cəmiyyətlərin inkişaf mərhələlərində ayrı-ayrı milli hadisələr qlobal xarakter almış, müasir dövrdə bəşəriyyəti narahat edən problemlərin yalnız beynəlxalq ictimaiyyətin birgə səyi ilə aradan qaldırılmasının mümkünlüyü qəbul olunmuşdur. Qloballaşma və milli inkişaf, qərbləşmə və ənənə çoxəsrlik mübarizədən sonra indiki inteqrasiya səviyyəsinə çatmışdır  böyük göy məkanında kiçik planetimizin xalqların, millətlərin yaşayış və inkişaf uğrunda rəngarəng mübarizəsi ilə daha kövrək, qədrini bilməyən insanlara qarşı daha amansız olmasının səbəbini isə bəziləri anlamırlar.***

## Azərbaycan həmişə inteqrasiyalı cəmiyyət olmuşdur

Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev "Azərbaycan qloballaşma dövründə: inkişaf strategiyası" adlı yeni tədqiqat əsərində bəşəriyyətin vahid siyasi, iqtisadi, mədəni məkanına çevrilməkdə olan planetimizdə balaca nöqtə kimi görünən Azərbaycanın əhəmiyyətindən danışır. Özünün araşdırmalarında həmişə tarixə nəzər salan müəllifə görə, dünyanın bu və ya digər hissələrini inteqrasiya, müvafiq olaraq assimilyasiya etmək cəhdi ilə bağlı proseslər heç vaxt səngiməmişdir  bu istiqamətdə aparılan müharibələrə, münaqişələrə və dini ziddiyyətlərə baxmayaraq, insanlar daim ünsiyyətə, qarşılıqlı asılılığa can atmışlar. Dünyanı fəth edən sərkərdələr imperiya yaradarkən həm də qloballaşmaya öz xidmətlərini göstərmişlər: ticarət əlaqələrini, əmtəəpul münasibətlərini inkişaf etdinnək, daha yaxşı yaşayışa doğru can atmaq adamlarda yeni əqli görüşün formalaşmasına, mədəniyyətlərin tərəqqisinə, səmərəli idarəetmə mexanizmlərinin yaradılmasına səbəb olmuşdur. İmperialistlər müs-

təmləkə ölkələrinə yeni mədəniyyət, tərəqqi, sivil dəyərlər gətirmişlər, müstəmləkələrin inkişaf həddi isə bu prosesdən necə bəhrələnmələri ilə hesablanmışdır. Bir çox sabiq müstəmləkə ölkələrinin "öz" imperialistlərinə həddindən artıq bağlanması, onlar tərəfindən tərk edilərkən göz yaşı tökməsi, müstəqil yaşaya bilməyəcəyindən qorxu hissi keçirməsi barədə faktlar da mövcuddur.

Amma ənənələrinə həddindən artıq bağlanan, necə deyərlər, dövranın dəyişməsi ilə hesablaşmaq istəməyən xalqlar da olmuşdur. Cənab Ramiz Mehdiyev ellinizmi eramızdan əvvəlki ümumdünya inteqrasiyası hesab edərək yazır ki, heç də bütün ölkələr bu cür tabeçiliyə və müdaxiləyə razı deyildilər. Ellinizmlə qarşıdurma dövründə yəhudi tarixində iki siyasi qruplaşma meydana gəlmişdi. Fələstində yunanların, sonra isə romalılann hökmranlığına qarşı azadlıq müharibəsinin iştirakçıları olan zelotlar ellinizmə qarşı sərt müqaviməti üstün tuturdular: "Onlar öz mübarizələrində dinlərin paklığını qoruyub saxlamaq, bununla da İlahinin mərhəmətini qazanmaq ümidində idilər. Daha inkişaf etmiş və irəli getmiş sivilizasiya qarşısında tab gətirə bilməyəcəklərini anlayan zelotlar başını quma soxan dəvəquşuya və ya qınına çəkilmiş tısbağaya bənzəyirdilər. Zelotlar toplara və odlu silaha qarşı nizə və xəncərlərlə gedən döyüşçüləri xatırladırdılar. Onlar öz vəziyyətlərinin ümidsizliyini dərk etsələr də, heç nəyə baxmadan, ənənələrə, öz tarixlərinə sadiqliyini qoruyub saxlamağı davam etdirərək onu əziz tutur və o dünyada layiqli haqlarını alacaqlarına ümid bəsləyirdilər". Digər qrup isə irodçular adlanırdı ki, onlar düşmənin üstünlüyünü etiraf edir və inkişaf prosesində yəhudilərə faydalı ola biləcək hər şeyi düşməndən öyrənməyi zəruri hesab edirdilər. Ellinizm dövrünün nailiyyətləri yəhudilərin malik olduğundan xeyli üstün idi, zelotların satqmlıq və millətin mənafelərinə cavab verməyən üsullar adlandırdığı irodçuluq qüdrətli sivilizasiya ilə mübarizədə daha səmərəli vasitə idi. Müəllifə görə, müasir dünya nizamı inkişaf etməkdə olan və transformasiya dövrünü yaşayan cəmiyyətləri "zelotlaf'a və "irodçular"a bölmüşdür. Bir çox insanlar qloballaşmanı tərəqqi vasitəsi kimi deyil, milli dəyərlərin, etnik özgürlüyün, ənənələrin itirilməsi cəhdi kimi dəyərləndirir və təməlçilik, millətçilik formasında bəşəriyyətin inkişafına sədd olmağa çalışırlar. Millətlərin öz müqəddəratmı təyin etməsi kimi prinsipi əldə rəhbər tutan etnik separatizm də inteqrasiyaya, qloballaşmaya ciddi maneə kimi qiymətləndirilməlidir.

Yenicə müstəqillik əldə edən və keçid dövrünü yaşayan Azərbaycan elə nadir ölkələrdəndir ki, qloballaşmaya öz ənənələri ilə daxil olmuşdur, beynəlxalq strukturlara inteqrasiya siyasəti yürüdərkən nəinki öz dəyərlərindən imtina etmiş, Avropaya, dünyaya zəngin Azərbaycan tarixi, adəti, mədəniyyəti ilə töhfə verməyə hazır olduğunu bildirmişdir. Əslində, bu proses müstəqillik dövründən başlamır. Azərbaycan tarixən inteqrasiyalı cəmiyyət olmuşdur. Professor Ramiz Mehdiyev çox haqlı olaraq tədqiqat əsərinin bir hissəsini "Qloballaşma dövründə milli inkişaf' adlandırır və vurğulayır ki, "Azərbaycan öz təbii ehtiyatların dan bəhrələnərək və onların dünya bazarlarına çıxarılması üsullarını müəyyənləşdirərək, regional mərkəzlər arasında kompleks qarşılıqlı iqtisadi əlaqələr yaradaraq dünya qloballaşma proseslərinə qoşulmuşdur. Bu proseslərdə səriştəlilik dövlətin və cəmiyyətin modernləşdirilməsi səviyyəsini və mümkünlüyünü öncədən müəyyənləşdirir. Başqa sözlə, cənab İlham Əliyevin qeyd etdiyi kimi, "Azərbaycan üçün indi də, bir çox illər sonradan da iqtisadi və siyasi vəziyyət təbii ehtiyatların işlənilməsi strategiyasından asılı olacaqdır. Bu, iqtisadi azadlıq və iqtisadi inkişaf imkanı əldə etmək yoludur".

Azərbaycan inkişaf səviyyəsinə görə regionda liderdir. Dünyanı maraqlandıran enerji və tranzit layihələrinin təşəbbüskarı və icraçısı kimi çıxış edən ölkəmiz təbii sərvətlərini Avropa və dünya bazarlarına çatdırarkən təkcə özünün, regionun yox, bəşəriyyətin rifahına xidmət etməyi qarşısına məqsəd qoymuşdur. Eyni zamanda, Azərbaycanın əlverişli coğrafı mövqeyi Şimalla Cənubu, Şərqlə Qərbi birləşdirən beynəlxalq nəqliyyat dəhlizləri layihələrinin reallaşmasında əhəmiyyətini artırmışdır. Məhz Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə qədim İpək yolunun bərpasına həsr olunmuş beynəlxalq konfransın Bakıda keçirilməsi, GUÖAM təşkilatının yaradılması beynəlxalq əlaqələr sahəsində tarixi ənənələri dirçəltmək, keçmişdə unudulmuş kommunikasiya xətlərini bərpa etmək, iqtisadiyyatların , dünyagörüşlərinin, dinlərin yeni inteqrasiyasına nail olmaq baxımmdan aparıcı dövlətləri öz arxasınca aparınağa qadir ideyalar idi. Bu ideyalar cəlbedici idi, ona görə ki, gerçəkliyə çevrildi, daxildə sivil dəyərlərə əsaslanan dövlət quruldu, ictimai-siyasi sabitlik bərqərar oldu, hakimiyyət xalq tərəfindən dəstəkləndi və dövlətin fəaliyyəti vətəndaşlannın həyat səviyyəsini daha da yaxşılaşdırmağa

yönəldi. İnteqrasiya proseslərində son məqsəd insanların güzəranmı daha da yaxşılaşdırmaqdır. Cənab Prezident İlham Əliyev Bakı-Tbilisi-Ceyhan layihəsinin maliyyələşdirilməsi ilə əlaqədar sənədlərin imzalanması mərasimində bir daha həmin xəttin mahiyyəti barədə danışmışdır: "Bizim hamımızın məqsədi ondan ibarətdir ki, xalqlarınıız bu layihələrdən fayda götürsün. Mən əminəm ki, belə də olacaqdır. Artıq bu, baş veribdir. Minlərlə yeni iş yerləri açılıbdır. On minlərlə insanımız maddi fayda əldə etmişdir və bu proses davam edəcəkdir". Dövlətimizin başçısmın həmin çıxışına əsaslanan müəllif Azərbaycanı qlobal inteqrasiyanın fəal regional iştirakçısı, əhalisinin böyük əksəriyyətini müsəlmanlar təşkil edən respublikanı Avropa ölkəsi kimi nəzərə çarpdırır. Ölkə rəhbəri cənab İlham Əliyevin sözləri ilə desək, Azərbaycan dövləti özünün ümummilli lideri Heydər Əliyevin təməlini qoyduğu daxili və xarici siyasət xəttini davam etdirir: "Azərbaycan Avropa Şurasının üzvüdür və "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində NATO, eləcə də Avropa və Avratlantika strukturları ilə uğurlu əməkdaşlıq edir. Avropa Birliyi Azərbaycanı genişlənmiş Avropa və qonşuları siyasətinə daxil etmişdir. Bu gün dünyanın ən böyük enerji layihələri Azərbaycanda həyata keçirilir. Xəzər hövzəsi enerji daşıyıcılarının Qərbə nəqli, TRASEKA proqramı, Böyük İpək yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələri bunun parlaq nümunəsidir. Bu layihələrin həyata keçməsi ilə həm Azərbaycanın, həm də region dövlətlərinin inkişafmda və Avropaya inteqrasiyasında yeni mərhələ başlayacaqdır. Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istismarı AzərbaycanYunanıstan münasibətlərini daha da genişləndirəcəkdir". Nəzərə alsaq ki, Yunanıstan Azərbaycanın təbii qazının digər ölkələrə çatdırılmasında hansı yollarla, vasitələrlə iştirak etməsi barədə imkanlarını araşdırır, onda deyə bilərik ki, bu dəhliz Avropa ilə Asiya arasında yerləşən ölkəmizin mövqeyini daha da gücləndirəcək, bütün sahələrdə tərəqqisini sürətləndirəcəkdir.

## Milli inkişafı səciyyələndirən xüsusiyyətlər

Qloballaşmanm sürətlə inkişaf etdiyi, dövlətlərin ikitərəfli və çoxtərəfli əməkdaşlığı genişləndirməyə çalışdığı indiki şəraitdə keyfiyyətli və

yüksək intellektual səviyyəyə ehtiyac daha kəskin duyulur. Professor Ramiz Mehdiyev qloballaşma dövründə milli inkişafı səciyyələndirən xüsusiyyətlər barədə danışır. Müəllif təhsili her bir dövlətin və cəmiyyətin inkişafmın mühüm elementi sayaraq xatırladır ki, 1988-1993-cü illərdə Azərbaycanda özbaşınalıq hökm sürdüyündən, ölkə rəhbərliyinin gələcək üçün dəqiq konsepsiyası olmadığmdan gənclərin təhsilə marağı sönmüşdü. Təhsil sistemində yaranmış boşluq tələmtələsik digər dövlətlərin təhsil qurumları və sistemləri ilə doldurulmuşdu. Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdışından sonra ölkənin təhsil sistemində qismən institusional yenidənqurma həyata keçirmək mümkün oldu. Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevə görə, müasir dünya birbiri ilə qarşıhqlı surətdə bağlı və birbirindən qarşılıqlı surətdə asılı olan dövlətlərdən, cəmiyyətlərdən, ayrı-ayrı fərdlərdən ibarət sürətlə inkişaf edən vahid məkana çevrildiyindən keyfiyyətli təhsil qloballaşma proseslərinə mükəmməl inteqrasiyaya imkan yaradır: "Təkcə informasiya-kommunikasiya texnologiyalarının inkişafı hesabına hər il təxminən 45 milyard dollar mənfəət götürən müasir Hindistanı buna misal göstərmək olar. Ölkəmizin əldə edə biləcəyi belə imkanlar nəzərə almmaqla, qloballaşma gedən məkan kimi Azərbaycanda təhsil sistemi keyfiyyətcə yeni texnologiyaların tətbiqinə əsaslanmalı, milli mənafelərə cavab verməli, tədrisin yüksək səviyyəsini təmin etməli, vətənpərvər, intellektual və səriştəli gənclər yetişdirməli, "beyin axını"nın qarşısını almağa kömək etməlidir". Azərbaycan dövləti ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş prioritetlərə sadiq qalaraq vətəndaş cəmiyyəti quruculuğuna nail olmağa çalışır. Hakimiyyətin zorla qəsb edilməsi, silahlı təzyiqlər, dəmir çubuqlar, daşkəsəklər, mənəvi zorakılıqlar bolşeviklərin istifadə etdiyi mübarizə metodları kimi səmərəsiz və perspektivsizdir. Hər bir vətəndaş öz hüquqları ilə yanaşı, başqasının hüquqlarını da düşünməlidir və hakimiyyətə gəlməyin sivil qaydalarına ciddi riayet etməlidir. İndiyedək ölkədə keçirilən seçkilər, vətəndaşların passiv və aktiv seçki hüququnu reallaşdırmaq üçün Avropa standartlarına uyğun qanunvericilik bazasının yaradılması ölkədə demokratiyanm inkişafmı şərtləndirən amillərdəndir. Müəllif qarşıdakı bələdiyyə və parlament seçkilərində gənc, səriştəli, intellektual, vətənpərvər insanların iştirakına ciddi əhəmiyyət verərək qeyd edir ki, bu, "ölkənin yeni siyasi elitasınm təşəkkülünə, siyasi rə-

qabətin demokratik əsaslarının möhkəmlənməsinə və kadrların keyfiyyətli rotasiyasına kömək edəcəkdir. Gənc nəsil lokal və respublika əhəmiyyətli seçkilərdə fəal iştirak edərək qarşıda qoyulmuş məqsədlərə uğurla nail olmağa kömək edə bilər. Bu məsələdə dövlət gənc azərbaycanlı liderlərin inkişafına və təşəkkülünə yönəlmiş dəqiq mövqe tutur".

Azərbaycanlı simasının, azərbaycanlı mənəviyyatının qloballaşma məkanında itibbatmamasında ölkə əhalisinin mənsub olduğu dinin də mühüm rolu var. Azərbaycan vətəndaşlarının əksəriyyəti islam dininə etiqad edir, eyni zamanda, ölkəmiz demokratik Avropa dəyərlərinə sadiq dünyəvi dövlətdir. Nə modernləşdirmə, nə də qloballaşma bizi öz dini mənsubiyyətimizdən məhrum edə bilər. Azərbaycan dünyanın elə ecazkar ölkələrindəndir ki, tarixin heç bir mərhələsində burada sivilizasiyaların, dinlərin toqquşması baş verməmişdir. Yeniliklərin və ənənələrin qeyriadi sintezi bu ölkədə nadir dəyərlər yaratmışdır. Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Əsas Qanununda Konstitusiyada Azərbaycan xalqının vahidliyi, bütün dini etiqadların qanun qarşısında bərabərliyi, hər kəsin vicdan azadlığı təsbit olunubdur. Avropa Birliyinə üzv olan 25 ölkənin dövlət və hökumət başçılarının Avropa Konstitusiyası layihəsinin preambulasında xristian dəyərlərinin xatırlanmasından ümumiyyətlə imtina etmələri bu baxımdan təsadüfi sayılmamalıdır. Azərbaycan Avropaya və dünyaya Konstitusiyasında elan etdiyi, bəşəriyyətin can atdığı ülvi niyyətlərlə qədəm basıb.

## Təhlükəsizlik konsepsiyasının əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulub

Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev qloballaşma dövründə dövlətin inkişafının səmərəli milli təhlükəsizlik strategiyasına uyğunlaşdırılması zəruriliyinə də toxunur. 1993-cü ildən başlayaraq ölkədə həyata keçirilən daxili və xarici siyasət milli təhlükəsizlik strategiyasının öncül konturlarını müəyyən etmək üçün zəmin yaratmışdır. Müəllif həmin strategiyanı üç hissəyə bölür: "Bu, Avropanın problemlərinin həllində Azərbaycanın fəal iştirakınm vacibliyini və Avropanın təhlükəsizliyi arxitekturasının formalaşması prosesinin iştirakçısı kimi onun mövqeyini müəyyənləşdirən "avrosentrizmdir". Azərbaycan Avropanın bir hissəsidir,

odur ki, Avropada təhlükəsizlik Azərbaycanın sabitliyi və tərəqqisinin rəhni kimi qiymətləndirilir. Bizim ölkəmiz sülhməramlı əməliyyatlar çərçivəsində NATO ilə fəal əməkdaşlıq edir və öz gələcəyini bu təşkilatla sıx əməkdaşlıqda görür. Milli təhlükəsizlik strategiyasınm ikinci aspekti "atlantizm" dünyanın qüdrətli dövlətləri ilə, o cümlədən Birləşmiş Ştatlarla strateji yaxınlaşmaya səmtlənmişdir. Bu amil antiterror koalisiyasını dəstəkləməyə və onda iştirak etməyə, siyasi və iqtisadi xarakterli məsələlərdə ABŞla birgə qarşılıqlı fəaliyyətə istiqamətlənmişdir. Strategiyanın üçüncü komponenti "regional perimetr" Azərbaycanın regional siyasi və iqtisadi dominant kimi güclənməsini, Xəzər dənizinin enerji ehtiyatlarının dünyanın aparıcı dövlətləri ilə birgə işlənilməsini, ölkə ərazisindən ŞimalCənub və ŞərqQərb yollarının əsas nəqliyyat arteriyası kimi istifadə edilməsini, region ölkələri ilə strateji və tərəfdaşlıq münasibətlərinin saxlanmasını nəzərdə tutur".

Azərbaycanın fıındamental mənafelərinin son on bir il ərzində dəyişməz qalması uzun onilliklər xalqın təhlükəsizliyinin, tərəqqisinin təmin olunması üçün möhkəm, davamlı bazis yaratmış, Azərbaycanın nümunəsi hesabına region rəqabət yox, əməkdaşlıq meydanma çevrilmişdir. Azərbaycan inkişaf etmiş güclü dövlətlər və "hegemon dünya" dövründə kifayət qədər müstəqil siyasət yeritməyə və öz ənənələri uğrunda mübarizə aparınağa qadir dövlət olduğunu sübut etmişdir. İndi isə, müəllifın fikrincə, qazanılmış nailiyyətlərin dərk edilməsi, azərbaycançılıq konvergensiyasında və konfessiyalararası dialoqda ifadə olunmuş milli "mən"in qorunub saxlanması və varisliyinin təmin edilməsi güclü və müstəqil dövlət quruculuğunda birinci dərəcəli vəzifədir.

**Validə İSMAYILOVA,**
**"Azərbaycan"**

*25 iyun, 2004*

# V FƏSİL

# YENİ DÖVR, YENİ LİDER


RAMİZ
MEHDİYEV
AZƏRBAYCAN:
QLOBALLAŞMA DÖVRÜNÜN
TƏLƏBLƏRİ

# "AZƏRBAYCAN: QLOBALLAŞMA DÖVRÜNÜN TƏLƏBLƏRİ"

## *(XÜLASƏ)*

Prezident Administrasiyasının rəhbəri, fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin Azərbaycanın dahi oğlu, müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin əziz xatirəsinə ithaf etdiyi "Azərbaycan: qloballaşma dövrünün tələbləri" monoqrafiyası böyük maraqla qarşılanmışdır. Çoxşaxəli araşdırmaların nəticələri olan bu sanballı monoqrafiyada Azərbaycanın müasir sosial-iqtisadi və siyasi inkişafı dərindən təhlil olunur. Bu baxımdan əsəri qlobal transformasiyalar, yeni dünya nizamınm bərqərar olması və XX əsrin axırları XXI əsrin əvvəllərində gedən siyasi proseslərin tranzitar cəmiyyətə intensiv təsiri dövründə dövlətin və cəmiyyətin mümkün inkişaf yollarını aşkar etməyə yönəldilmiş futuroloji cəhd kimi qiymətləndirmək olar. Müəllif qloballaşan dünyanın yeni reallıqlarını nəzərdən keçirir, qərbləşmənin və moderaləşmənin Azərbaycan cəmiyyətinə təsirini təhlil edir. Eyni zamanda, postsovet məkanında demokratikləşmə prosesinin, Azərbaycanda gedən sosial-iqtisadi , siyasi islahatların və proseslərin ümumi istiqamətini göstərmək üçün Qərb konsepsiyaların dan istifadənin yolları və mümkünlüyünün araşdınlmasına geniş yer verilir.

"SSRİ-nin dağılması: yeni reallıqlar və yeni imkanlar" adlı ilk fəsildə dünya tarixindəki ən nəhəng imperiyalardan birinin süqutunun səbəbləri və bunun doğurduğu nəticələri Ramiz Mehdiyev özünəməxsus şəkildə araşdırır. Müəllif vurğulayır ki, Sovet İttifaqmın dağılmasından danışarkən təkcə siyasi, sosial və ideoloji səbəblərdən bəhs etməklə kifayətlənmək düzgün olmazdı. Bu süqutun labüdlüyünü dərk etmək üçün iqtisadi proseslərin təhlili daha vacibdir.

O xatırladır ki, ölkənin iqtisadi inkişaf yolunun müəyyən edilməsi baxımından bolşeviklərin əzəldən heç bir aydın mövqeyi olmamışdır. Məhsuldarlığın artırılması sosialist sisteminin əsas məqsədi elan olunmuşdu və

bu baxımdan da hər şey beşillik planların yerinə yetirilməsinə yönəldilirdi. Əhalinin həyat şəraitinin keyfiyyətcə yeni səviyyəsinə nail olmağa, dünya iqtisadiyyatında üstünlük təşkil edən proseslərə məhəl qoyulmurdu. "Soyuq müharibə" dövrü yeni problemlər doğurmağa başladı, ölkə sürətlə silahlanmaya tab gətirə bilmirdi. İnkişaf sürətinin aşağı olması, sovet mallarının dünya bazarında rəqabət apara bilməməsi ölkə iqtisadiyyatmı xarici amillərdən getgedə daha çox asılı edirdi. Qabaqcıl ölkələr qarşılaşdıqları böhrandan çıxmaq üçün siyasi və iqtisadi yollar arayıb tapır, sovet sisteminin isə buna, sadəcə, gücü yox idi. 1980-ci illərin "yenidənqurması" da artıq gecikmişdi və aydın konsepsiyası olmayan şüarçılıqdan başqa bir şey deyildi. Bir sözlə, sovet iqtisadiyyatı inkişaf etmiş ölkələrlə müqayisədə 2025 il geri qalırdı.

Bütün bunları geniş təhlil edən müəllif yazır ki, belə bir vəziyyət, ümumən sovet cəmiyyətinin inkişafdan qalması ciddi sosial səbəblər doğururdu.

"Hər şey insan üçün" şüarını elan etmiş cəmiyyətdə şəxsiyyətin müstəqilliyindən, əslində, əsərəlamət yox idi. Buna görə də postindustrial təsərrüfat tipinin ən mühüm ehtiyatlarından olan intellektual kapitalı yaratmaq və ondan istifadə etmək mümkün olmadı ki, bu da, müəllifin yazdığı kimi, sovet sisteminin süqutunun əsas səbəblərindən biri idi.

Ramiz Mehdiyev eyni zamanda 1970-ci illərdə Azərbaycanın iqtisadi və sosial həyatında baş vermiş böyük dəyişiklikləri təhlil edərək vurğulayır ki, Kommunist Partiyasının və sovet dövlətinin siyasətində heç də hər şey pis olmamışdır. Lakin bu uğurlar istisna xarakteri daşıyırdı və bütünlükdə cəmiyyəti onu gözləyən sarsıntılardan, parçalanmalardan qoruya bilmirdi.

Daha sonra müəllif SSRİnin süqutuna gətirib çıxaran əsas səbəbləri tədqiq edərək onların sırasında siyasi qeyritarazlıq və sovet rəhbərliyinin cəmiyyətlə dialoqa qadir olmaması, ölkənin daxilində baş verən münaqişələr, kadr siyasəti, xaricdən olan təzyiq kimi amilləri göstərir.

Monoqrafiyanın bu fəslində 1988-1993-cü illərdə Azərbaycanda gedən proseslərin, həmin dövrdə siyasi diletantların ümidinə qalmış ölkənin düşdüyü vəziyyətin təhlilinə geniş yer verilir.

"Azərbaycanın modernləşdirilməsi: inkişaf yolları" sərlövhəli sonrakı fəsildə ümumən modernləşdirmənin nəzəri cəhətlərindən bəhs olunduq-

dan sonra bilavasitə Azərbaycanla bağlı məsələlər araşdırılır. Bildirilir ki, Azərbaycanda bu prosesin ilk iki mərhələsi (1970-ci illər 1980-ci illərin əvvəli və 1980-ci illərin ikinci yarısı) sovet dövrünə təsadüf edir. Qanunauyğun dinamik xarakter daşıyan birinci mərhələdəki dəyişikliklər nəticəsində Azərbaycan ölkədə ən qabaqcıl respublikalar sırasına çıxmışdı. 197180ci illərdə SSRİ-nin milli gəlirində Azərbaycanın payı 46 faiz artmışdı. Bütün bunlar göstərirdi ki, respublika rəhbərliyi iqtisadiyyatı modernləşdirməyə və əhalinin rifahını yaxşılaşdırmağa çalışır. Lakin ikinci mərhələdə obyektiv və subyektiv amillər səbəbindən bütün SSRİ miqyasında, o cümlədən Azərbaycanda vəziyyət başqa şəkil aldı. İqtisadiyyat geriləди, üstəlik, SSRİ-nin müxtəlif respublikalarında güclü kütləvi etiraz dalğası qalxdı. Azərbaycanın hələ bu gün də davam edən münaqişəyə cəlb olunması da həmin vaxtdan başlayır.

Üçüncü mərhələ 1991ci ildə respublikamızın müstəqillik qazanması dövrünə təsadüf edir. Müəllif bu mərhələni siyasi qeyrisabitlik, iqtisadi tənəzzül və əhalinin kütləvi şəkildə yoxsullaşması dövrü kimi səciyyələndirir.

1993-cü ildə ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıtması ilə modernləşdirmənin müasir - dördüncü mərhələsinin başlanmasının təməli qoyuldu. Həmin mərhələ 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanmasından başlayır.

Monoqrafiyada göstərilir ki, ümumiləşdirilmiş şəkildə keçid dövrü cəmiyyətlərində modernləşdirmənin funksionallığını, birincisi, siyasi mədəniyyətin və inzibati idarəetmə şüurunun dəyişməsi və təkmilləşdirilməsi, ikincisi, kütləvi şüurun korreksiyası, yəni cəmiyyətin lider qrupunun modernləşdirmə potensialının reallaşdırılmasına mane olan ideya və davranış stereotiplərini tədricən sıxışdırıb aradan çıxarmaq məqsədilə liberaldemokratik dəyərləri kütləvi şüura yeritməsi, üçüncüsü, müəyyən ideoloji konstruksiyalara və ya milli ideyalara uyğun olaraq modernləşdirmə siyasətinin həyata keçirilməsi kimi səciyyələndirmək olar. Bunların sonuncusunun Qərbin klassik ideoloji konstruksiyalarının heç də həmişə reallaşdırılmasını nəzərdə tutmadığını vurğulayan müəllif yazır ki, Azərbaycan şəraiti üçün iki və ya bir neçə baxışın simbiozu, qarşılıqlı sintezi tamamilə məqbul sayıla bilər.

Müəllif daha sonra vurğulayır ki, müasir dünyanın inkişafının əsas vektoru olan modernləşdirmə dövlət, cəmiyyət və şəxsiyyət arasında qarşılıqlı münasibətləri kefiyyətcə yeni səviyyəyə qaldırır. Siyasətdə modernləşdirmə demokratik siyasi təsisatların (parlament, çoxpartiyalı sistem, ümumi alternativ seçkilər, hakimiyyət bölgüsü və sair) yaradılması və möhkəmləndirilməsini nəzərdə tutur. Bununla yanaşı, siyasi modernləşdirməyə başlayarkən eyni zamanda mədəni modernləşdirmə problemini də həll etmək lazımdır. Burada, ilk növbədə, ideyadəyər oriyentirlərinin və davranış alqoritmlərinin dəyişməsindən söhbət gedir.

Azərbaycan modernləşdirmənin dördüncü mərhələsinə daxil olarkən qarşılıqlı əlaqəyə, yeniliklərə açıq olan, konstruktiv funksiya yerinə yetirən inkişaf ideologiyası formalaşmağa başladı. Kitabın bu fəslində göstərilir ki, həmin ideologiyanı hansısa ideloji konstruksiyaya aid etməkdən söhbət gedərsə, onu daha çox neokonservatizm kimi səciyyələndirmək olar. Müəllifin fikrincə, liberalizm və mühafizəkarlığın sintezi olan neokonservatizm Azərbaycan üçün daha məqbul ideoloji konstruksiyadır. Ümummilli liderimiz Heydər Əliyevin dövlət idarəçiliyinin nadir xüsusiyyəti də elə bundadır ki, o, müstəqil, demokratik Azərbaycan dövlətinin qurulmasında həmin ideoloji simbiozdan məharətlə istifadə etmişdir.

Ötən illərin tarixi təcrübəsi göstərir ki, cəmiyyətdə dövlətin və millətin siyasi, iqtisadi və mənəvi inkişafının əsası olan canlı və aydın milli ideyalar, ideoloji oriyentirlər olmadıqda labüd surətdə yaranan boşluğu müxtəlif və çox vaxt da birbirinə zidd olan, ənənəvi sosiomədəni normalarla qovuşmayan nəzəriyyə və ideologiyalar doldurur. Bu isə hökmən dövlətçiliyin və millətin formalaşması prosesində özünü göstərir. Professor Ramiz Mehdiyev bildirir ki, bu səbəbdən də ideoloji sistemi cəmiyyəti mənəvi baxımdan dirçəltməyə, onun yaradıcılıq potensialını gücləndirməyə, ictimai şüuru uğurlu dövlət quruculuğunun əsas amilinə çevirməyə qadir olan struktur kimi qurmaq ulu öndər Heydər Əliyevin siyasətinin əsasını təşkil etmişdir. İnsanın cəmiyyətdövlət sistemində yeri və rolu haqqında biliklərin toplusu, milli ideyaları daxili və xarici siyasət sahəsində reallaşdırmağın çox mühüm mexanizmi kimi milli ideologiya yeni dövrün prioritetinə çevrilmişdir. Bu baxımdan indi artıq azərbaycançılıq milli ideologiyanın nümunəsi sayıla bilər. Əsərdə vurğulandığı kimi,

azərbaycançılıqda vahid polietnik xalqın Azərbaycan dövlətçiliyinin yaradılması, demokratiyanın, sərbəst iqtisadiyyatın inkişafı, "ümumi rifah" cəmiyyətinin bərqərar edilməsi uğrunda mübarizəyə olan ümumi maraqları öz əksini tapmışdir. O, bir ideologiya kimi, müstəqil Azərbaycanın fəlsəfi-sosioloji doktrinasının sosiomədəni və etnikgeosiyasi cəhətlərini əhatə edərək qarşılıqlı yardım, əməkdaşlıq və bərabərliyin çox mühüm əsasını təşkil edir. Ona görə də ideyanəzəri və siyasi baxımdan azərbaycançılıq və neokonservatizm birbirilə sıx bağlıdır. Coğrafı məkan baxımmdan azərbaycançılıq neokonservatizmin milli variantı, onun prinsip və ideyalarının Azərbaycanın konkret şəraitində inikasıdır. Bu iki ideoloji sistem daxilən vahid sistem təşkil edir.

Əsərin üçüncü fəsli qloballaşma dövründə dövlət və cəmiyyət məsələlərinə həsr olunmuşdur. Tarixi baxımdan qloballaşma yeni hadisə deyildir. Bəşəriyyət həmişə inteqrasiya, vahid siyasi, iqtisadi və ya sosiomədəni mühitin bir hissəsi olmağa can atmışdır.

Müasir dövrdə qloballaşmanı tam əsasla cəmiyyət həyatının müxtəlif tərəflərinin beynəlmiləlləşməsinin yeni mərhələsi kimi qiymətləndirmək olar. Qloballaşma bəşəriyyətə bir sıra mühüm töhfələr venniş, yeni inkişaf perspektivləri açmış və bütövlükdə dünya tarixinin gedişini sürətləndirmişdir. Tranzitar dövlətlərin qloballaşmanın töhfələrinə yiyələnməsi çox muhum məsələdir. Lakin onun müxtəlif mənfı cəhətləri də vardır. Monoqrafiyada deyildiyi kimi, bu, ilk növbədə, "zəngin" və "yoxsul" ölkələrin həyat səviyyəsindəki uyğunsuzluğun getgedə artmasında özünü göstərir. Qloballaşma suveren dövlətlər arasındakı sədləri aradan qaldırır, cəmiyyətin daxilindəki sosial münasibətləri yeni bir məcraya salır, milli özünəməxsusluğu xüsusi dünyagörüşü çərçivələrinə salaraq sərt şəkildə məhdudlaşdırır. Milli mədəniyyətin və ənənələrin prioritetlərini gizli şəkildə dağıdır, özünəməxsusluqdan uzaqlaşmanı gücləndirir, coğrafı və iqtisadi vəziyyətindən, siyasi quruluşundan, habelə milli mentalitetindən asılı olmayaraq cəmiyyəti qərbləşdirir. Üçüncü minilliyin əvvəlində qloballaşma dünya təfəkkürü və tərəqqisinin yeni, üstün istiqamətinə çevrilmişdir və hesab edilir ki, bütün XXI əsr bu əlamət altında keçəcəkdir. Şübhəsiz ki, keçid dövrünü yaşayan yeni müstəqil dövlət kimi Azərbaycan bu prosesdən kənarda qala bilməzdi və ümumdünya inteqrasiya prosesinin

gələcəyini dərk edərək dünya birliyinə inteqrasiyanın düşünülmüş strateji yolunu seçmişdir. Azərbaycan Prezidenti İlham Əliyev 2004cü ilin martında Bratislavada keçirilən beynəlxalq konfransdakı çıxışında ölkəmizin inteqrasiyasının perspektivlərini səciyyələndirərək demişdir ki, milyardlarla dollar dəyəri olan enerji layihələri bizim müstəqil ölkələrimizin həm birbirinə, həm də Avratlantik məkanına inteqrasiyası üçün şərait yaradacaqdır. Bu, bizim həqiqi arzumuz və strateji məqsədimizdir, Azərbaycan öz gələcəyini Avratlantik məkana daha geniş inteqrasiyada görür.

Monoqrafiyanm müstəqil Azərbaycanın siyasi və iqtisadi strategiyasına həsr olunmuş dördüncü fəsli bir neçə bölmədən ibarətdir. Burada bildirilir ki, postsovet dövrü yeni müstəqil dövlətlər qarşısında milli xarici siyasətin prioritetlərinin müəyyən edilməsi sahəsində bir neçə konseptual problem qoymuşdu və nəzərdə tutulan xarici siyasət xəttinin uğurlu olması həmin problemlərin dərk edilməsi və düzgün həllindən asılı idi. Əvvəla, ölkənin dünya birliyi çərçivəsində yeni vəziyyətinə və mövqelərinə düzgün qiymət vermək lazım idi. Azərbaycan bazar iqtisadiyyatma malik, vətəndaş cəmiyyəti qurmağa çalışan demokratik, hüquqi və dünyəvi dovlətə çevrilməli idi. Deməli, xarici siyasət cəmiyyətə gətirilən bütün bu yeni ünsürləri nəinki özündə əks etdirməli, həm də Azərbaycanın öz tarixi inkişafına yeni təkan verməsinə səy göstərdiyini dünya birliyinə nümayiş etdirməli idi.

İkincisi, qonşu nüfuzlu dövlətlərin, habelə digər daha güclü dövlətlərin coğrafısiyasi maraqlarının qovuşduğu məkanda yerləşən Azərbaycan həm Qərblə Şərqin ortaq maraqlarını, həm də, ilk növbədə, öz maraqlarını nəzərə almaqla xarici siyasətinə düzəlişlər etməli idi.

Nəhayət, üçüncüsü, milli xarici siyasət ümumdövlət siyasətinin davamı, milli təhlükəsizliyin təmin edilməsinin çox mühüm vasitəsi olmalı, eyni zamanda Azərbaycanın həm Şərqin, həm də Qərbin bütün ölkələri ilə qarşılıqlı surətdə faydalı əməkdaşlığa hazır olduğunu nümayiş etdirməli idi. Bütün bunlar 1993-cü ilin ortalarından başlayaraq ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi və həyata keçirdiyi daxili və xarici siyasətdə öz əksini tapmışdır. Həmin siyasət Azərbaycanın milli təhlükəsizlik strategiyasının prioritetlərinin müəyyən edilməsi üçün ilkin şərait yaratmışdır.

Müəllif vurğulayır ki, Azərbaycanın müasir iqtisadi siyasəti üç başlıca inkişaf prinsipinə əsaslanır: bazar rəqabəti, iqtisadiyyatm idarə olunmasınm bütün sahələrinin liberallaşdırılması və bütün mülkiyyət formalarının plüralizmi. Bu siyasətin həyata keçirilməsində sənayenin müxtəlif sahələrinə sərmayə qoyuluşunun təmin edilməsi, əhalinin alıcılıq qabiliyyətinin artırılması və ölkənin xarici borclarının tənzimlənməsi mühüm rol oynayır. İqtisadiyyatdakı bütün bu müsbət meyillər güclü və səmərəli dövlətçiliyin yaradılması işinə xidmət edir.

"İqtidar və müxalifət: inkişaf naminə rəqabət" sərlövhəli beşinci fəsildə vurğulanır ki, səmərəli dövlətçilik və demokratik quruluş sivilizasiyalı dövlətdə siyasi rəqabət dialoqunun iki subyektinin iqtidar və müxalifətin olmasını ehtiva edir. Azərbaycanda iqtidarla müxalifətin dialoqu üçün möhkəm baza yaranmaqdadır. Müxalifətin, xüsusilə onun dağıdıcıradikal hissəsinin liderləri anlamalıdırlar ki, Azərbaycan öz inkişafmın elə bir mərhələsinə daxil olmuşdur ki, indi müxalifətiqtidar münasibətləri, hakimiyyət uğrunda mübarizə yalnız sivilizasiyalı, demokratik forma və metodlarla aparıla bilər. Bu isə dialoq, real şüarların və daha cəlbedici sosial-iqtisadi proqramların irəli sürülməsi yoludur. Dövlətin uzunmüddətli inkişaf məqsədlərinə etinasızlıq göstərən məsuliyyətsiz, ifrat radikalizm və "inqilabi" ritorika yeniləşən ictimai prioritetlərə yaddır, onlarla uyuşmur. Azərbaycanın "köhnə" müxalifəti quruculuq məsələləri ilə bağlı baxışlarını müasir tələblərə uyğunlaşdıra, dünya təcrübəsi ilə zənginləşdirə bilməmişdir. Buna görə də onunla qarşısına dövləti, cəmiyyəti moderaləşdirmək, vətəndaş konsensusunu inkişaf etdirmək məqsədini qoymuş iqtidar arasında ixtilaf yaranmışdır. Ancaq radikal müxalifət dərk etmir, yaxud da dərk etmək istəmir ki, xalq, xüsusən yüksək təhsilli indiki nəsil küçə siyasətini, mitinq hayküyünü, köhnəlmiş şüarları qəbul etmir.

Kitabın "Demokratiya dövlətin və cəmiyyətin inkişafınm prioriteti kimi" sərlövhəli sonuncu fəslində üraumi nəzəri məsələlərlə yanaşı, Azərbaycanda demokratiyanm inkişafının bir neçə modelindən, vətəndaş cəmiyyəti nəzəriyyəsindən bəhs olunur.

Ümummilli liderimiz Heydər Əliyevin fəaliyyəti təsdiq edir ki, hakimiyyətin optimal modelini tapan, hətta barışmaz ziddiyyətləri aradan qaldıran, cəmiyyətdə vəziyyəti sabitləşdirən, millətin bütün imkanlarını sə-

fərbər edən, müxtəlif qüvvələrin və bütövlükdə cəmiyyətin siyasi tarazlığını yaradan hər kəs siyasi uğur qazana bilər. Müstəqil Azərbaycan dövlətçiliyinin yaradılması və inkişafının haqlı olaraq Heydər Əliyev epoxası adlandırıla bilən bu dövrü tarixi sərvət və olduqca qiymətli irsdir. Monoqrafiyanın sonuncu fəslinin bir bölməsi yeni dövrün siyasətçisi kimi prezident İlham Əliyevin fəaliyyətindən, onun daxili və xarici siyasətlə bağlı baxışlanndan, dövlət başçısı kimi qarşısında duran əsas vəzifələrdən bəhs edir. Ötən prezident seçkilərində öz seçimini etmiş xalqın əsla yanılmadığını vurğulayan müəllif inamla bildirir ki, ulu öndərimizin siyasətini davam etdirən Prezident İlham Əliyevin yolu yeniliklə ənənələri ahəngdar surətdə birləşdirir və bu yol Azərbaycanı hökmən tərəqqiyə və firavanlığa çatdıracaqdır.

Professor Ramiz Mehdiyev yazır ki, o, bu əsərində məsələlər qaldırarkən onların bir çoxuna cavab verməyə çalışmışdır, qalanlarına isə tarix cavab verəcəkdir. Bu təvazökarlıqla razılaşmaqla yanaşı, birmənalı şəkildə deyə bilərik ki, müəllif məqsədinə tam nail olmuşdur və bu sanballı monoqrafiya müasir elmimizdə dəyərli töhfə kimi qarşılanır.

# RƏYLƏR

# AZƏRBAYCAN QLOBALLAŞMA DÖVRÜNƏ SOSİAL-SİYASİ İNKİŞAF VƏ MİLLİMƏNƏVİ DƏYƏRLƏRƏ SƏDAQƏT HtSSt İLƏ QƏDƏM QOYUR

**Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin "Azarbaycan: qloballaşma dövrünün tdləbləri" monoqrafiyası tariximizi dəqiq təhlil etməklə yanaşı, gələcək dövrün uğurlarını da aydınlaşdırır**

Dünya yeni bir mürəkkəb tarixi mərhələnin qloballaşmanın astanasında, daha dəqiq desək, artıq içindədir. Bu prosesi hərə bir cür qiymətləndirir. Kimisi üçün qloballaşma yeni növ ekspansiya siyasəti, kimisi üçünsə elmi-texniki inqilabın sosial-iqtisadi dalğası və planetin yeni inkişaf yoludur. Bu prosesi xalqların milli-mənəvı dəyərlərini aşılayaraq millətləri manqurtlaşdıran ideologiya kimi səciyyələndirənlər də, onu müxtəlif etnosları biri-birinə yaxınlaşdıran, sivilizasiyaları qovuşduran təkmil vasıtə tək dəyərləndirənlər də mövcuddur. İndi kainatın bütün elm ocaqları, strateji araşdırma mərkəzləri qloballaşmanın təsir və nəticələrini öyrənir, proqnozlaşdırır, bu prosesin qitələrə, bölgələrə, ölkələrə keçidini təhlil edir, rəy verir, mənfi və müsbət fəsadlarını müzakirəyə çıxarır, dünyanı bu zəruri prosesə hazırlayırlar. Bir sözlə, qloballaşma bəşərin elmi təbəqəsinin əsas diskussiya mövzusuna çevrilərək hamını bu prosesin mahiyyətinə yaxından bələd olmağa çağırır.

## Elmə dəyərli töhfə

Qloballaşma barədə dünyanın bütün elm ocaqları tədqiqat aparıb, maarifləndirmə yönümlü çoxsaylı elmi araşdırmalar, kitablar nəşr etsələr də, Azərbaycan bu zəruri prosesdən bir qədər kənarda qalmışdı.

Etiraf etməliyik ki, ictimaiyyətimiz qloballaşma barədə hələ yetərincə məlumatlanmayıb və bu prosesin ölkəmiz üçün xarakterik olacaq sosial, iqtisadi, mədəni və mənəvi təsirlərini elminəzəri cəhətdən müəyyənləşdirməyib. Azərbaycanın bu mürəkkəb tarixi prosesin əhatəsindən kənarda yaşaya və inkişaf edə bilmədiyini nəzərə alsaq görərik ki, bu boşluğun bizim üçün həm də ciddi mənfi ideoloji nəticələri yarana bilər. Düzdür, maraqlananlar qlobal intemet rabitəsi vasitəsilə bu barədə istənilən qədər informasiya ala bilər. Lakin bu informasiyalar digər dövlətlərin spesifikasına uyğunlaşdığından Azərbaycan üçün səciyyəvi deyil, digər tərəfdən isə qloballaşma haqqında yaranan fərqli ictimai təsəvvürlər və ideoloji baxışlar mövcud məlumatsızlıq dönəmində hətta arzuolunmaz, səhv təəssüratlar da yarada bilər.

Unutmamalıyıq ki, Azərbaycanın inkişaf strategiyası məhz dünyanın qədəm qoyduğu və artıq daxil olduğu bir prosesin  qloballaşmanın prinsipləri əsasında həyata keçiriləcək. Dünyanı vahid bir iqtisadi məkan kimi görən, siyasi, mədəni, elmi-texniki bütövləşməni şərtləndirən bu tarixi faktor barəsində müfəssəl əsər ötən ilin sonunda, nəhayət ki, Azərbaycan ictimaiyyətinə təqdim edildi. Prezident Administrasiyasının rəhbəri, fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsinə ithaf etdiyi "Azərbaycan: qloballaşma dövrünün tələbləri" monoqrafiyası, sözün həqiqi mənasında, mükəmməl, sanballı elmi əsər, böyük əməyin və ciddi araşdırmaların nəticəsidir. Qloballaşan dünyanın yeni reallıqlarını araşdıran müəllif monoqrafiyada qərbləşmənin və modernləşmənin Azərbaycan cəmiyyətinə təsirini xarakterizə edir. Kitabı həm də Azərbaycanın uzaq və yaxın tarixi keçmişinin, keçdiyi inkişaf yolunun, aparılan sosial-iqtisadi  və siyasi islahatların dürüst təhlil edildiyi, gələcək dövrlə bağlı obyektiv proqnozların səsləndiyi əsər kimi də səciyyələndirmək doğru olardı.

Məhz bu kontekstdə də qeyd edilən kitabı professor Ramiz Mehdiyevin məlum silsilədə növbəti araşdırma məcmusu saymaq olar. İndiyədək çoxsaylı kitabları, tədqiqatları, məqalələri, müsahibələri ilə milli dövlətçilik, demokratik inkişaf və qloballaşan dünyada Azərbaycanın tutduğu yer barədə məsələlərə elmikonseptual baxışları ilə yanaşan filosof "Azərbay-

canın inkişaf dialektikası", "Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi", "XXI əsrdə milli dövlətçilik", "Fəlsəfə" kitabların da da mövzunu geniş təhlil etmiş və bu ənənəni "Azərbaycan: qloballaşma dövrünün tələbləri" monoqrafiyasında uğurla davam etdirmişdir. Müəllifin bu yeni fundamental kitabınm əlamətdar cəhəti isə odur ki, bu nəşrdə artıq Azərbaycanın perspektiv inkişaf yolları, ölkənin siyasi gələcəyinin istiqamətverici qüvvəsi, həmçinin yeni dünya nizammda ölkəmizin yerinin və rolunun müəyyənləşməsi, qloballaşma prosesində milli ideyaların mövcudluğu kimi mühüm məsələlərə xüsusi diqqət yetirilmişdir.

Kitab altı fəsildən ibarətdir. Dünya tarixindəki ən nəhəng imperiyalardan birinin süqutunun səbəbləri və bunun doğurduğu nəticələri "SSRİnin dağılması: yeni reallıqlar və yeni imkanlar" adlanan ilk fəsildə araşdıran müəllif düzgün olaraq qeyd edir ki, Sovet İttifaqının dağılması siyasi, sosial və ideoloji səbəblərlə yanaşı, həm də iqtisadi proseslərlə bağlı olmuşdur. Bu məsələni dərindən və müxtəlif müqayisələrlə yüksək elmi səviyyədə təhlil edən müəllif yazır ki, sovet cəmiyyətinin inkişafdan qalması ciddi sosial səbəblər doğurmuş, bu isə labüd süqutu tezləşdirmişdir. Sovet cəmiyyətinin zamanla uyğunlaşmayan yaşam tərzini təhlil edərkən müəllif istisna hallara da toxunur və 1970-ci illərdə Azərbaycanın iqtisadi, sosial, mənəvi həyatında baş vermiş misilsiz dəyişiklikləri konkret faktlarla xatırlatmaqla yanaşı, belə bir cəhəti də vurğulayır ki, bu uğurlar da hətta nəticə etibarilə siyasi sistemi sarsmtılardan, parçalanmalardan qoruya bilmədi. Bu fəsildə 19881993-cü illərdə Azərbaycanda gedən mürəkkəb proseslərin, siyasətdə təsadüfı olan şəxslərin uçuruma sürüklədikləri ölkənin düşdüyü xaos vəziyyətinin təhlilinə də müəllif tərəfindən geniş yer verilir.

"Azərbaycanın moderaləşdirilməsi: inkişaf yolları" adlanan fəsildə ölkənin inkişaf mərhələləri tarixi dövrlər 1970-ci illər 1980-ci illərin əvvəli, 1980-ci illərin ikinci yarısı və 1991-ci ildən sonrakı mərhələlər üzrə ayrılır və hər dövrün əvvəlki tarixi etapdan fərqləndiyi aydınlaşdırılır. Son 10 il ərzində əldə edilən nailiyyətlərin elminəzəri əsaslarını təhlil edən müəllif bu qənaətdədir ki, bütün uğurların şəriksiz müəllifı Heydər Əliyev və onun tarixin smağmdan üzüağ çıxan düzgün siyasətidir.

"Qloballaşma dövründə dövlət və cəmiyyət" adlanan sonrakı fəsildə müəllif qloballaşmanı tam əsasla cəmiyyət həyatının müxtəlif tərəflərinin beynəlmiləlləşməsinin yeni mərhələsi kimi qiymətləndirir və bildirir ki, qloballaşma bəşəriyyətə bir sıra mühüm töhfələr vermiş, yeni inkişaf perspektivləri açmış və bütövlükdə dünya tarixinin gedişini sürətləndirmişdir. Lakin bu prosesin müxtəlif mənfi cəhətlərini də xatırladan professor Ramiz Mehdiyev çox maraqla oxunan bu yeni tədqiqatında haqlı olaraq qeyd edir ki, qloballaşma suveren dövlətlər arasındakı sədləri aradan qaldırır, cəmiyyətin daxilindəki sosial münasibətləri yeni bir məcraya salır, milli özünəməxsusluğu xüsusi dünyagörüşü çərçivələrinə salaraq sərt şəkildə məhdudlaşdırır, milli mədəniyyətin və ənənələrin prioritetlərini gizli şəkildə dağıdır, özünəməxsusluqdan uzaqlaşmanı gücləndirir, coğrafı və iqtisadi vəziyyətindən, siyasi quruluşundan, milli mentalitetindən asılı olmayaraq cəmiyyəti qərbləşdirir. Üçüncü minilliyin əvvəlində qloballaşma dünya təfəkkürü və tərəqqisinin yeni, üstün istiqamətinə çevrilmişdir və hesab edilir ki, bütün XXI əsr bu əlamət altında keçəcəkdir. Bu baxımdan da ölkəmizin qloballaşma prosesində iştirakını tarixi zərurət kimi qiymətləndirən müəllif dərin elmi təhlilə əsaslanan belə bir mühüm nəticəni əsaslandıraraq qeyd edir ki, "keçid dövrü dövləti olan Azərbaycan ümumdünya inteqrasiyasının taleyüklü perspektivlərini başa düşərək dünya birliyinə inteqrasiyanm strateji yolunu seçmişdir. Tamamilə aydındır ki, qloballaşma münaqişəsiz və hamar proses deyildir. Buna baxmayaraq, müasir dünya nizamınm reallıqlarının nəzərə almmaması və bu prosesdən maksimum fayda götürməyə cəhd göstərilməməsi uzunmüddətli perspektivdə Azərbaycanın milli inkişaf strategiyasının məqsədlərinə cavab verməzdi".

Kitabın "Müstəqil Azərbaycanın siyasi və iqtisadi strategiyası" fəslində bazar iqtisadiyyatına malik, vətəndaş cəmiyyəti qurmağa çalışan, demokratik, hüquqi və dünyəvi dövlətə çevrilən ölkəmizin bu sahədə əldə etdiyi konkret uğurlardan bəhs edilir. Bütün bunları 1993-cü ilin ortalarından başlayaraq ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi və həyata keçirdiyi daxili və xarici siyasətlə əlaqələndirən müəllif vurğulayır ki, iqtisadiyyatdakı bütün müsbət meyillər güclü və səmərəli dövlət

çiliyin yaradılması işinə xidmət edir. "İqtidar və müxalifət: inkişaf naminə rəqabət" fəslində sivilizasiyalı dövlətdə siyasi rəqabət dialoqunun iki subyekti olan iqtidar və müxalifətin fəaliyyəti, qarşılıqlı münasibətləri araşdırılır, müxalifətin, xüsusilə onun dağıdıcıradikal hissəsinin son 10 il ərzindəki köhnə təfəkkürə əsaslanan əməlləri təhlil olunur. Müəllifın qəti qənaətincə, müxalifətin keyfiyyətcə yeniləşməsi həm bu partiyaların perspektiv mənafeləri, onların sosial bazalarının maraqlan, həm də dövlətin siyasi yönümlü uğurlarının artması baxımından vacibdir. Müəllifm səmərəli əməyinin bəhrəsi olan bu çox ciddi tədqiqat əsərinin "Demokratiya dövlətin və cəmiyyətin inkişafınm prioriteti kimi" adlandırılan sonuncu fəslində Heydər Əliyev epoxasının nəticəsi olan müstəqil Azərbaycan dövlətçiliyinin yaradılması və inkişafı prosesinin nəzəri məsələləri araşdırılır. Monoqrafiyada yeni dövrün kamil siyasətçisi kimi Prezident İlham Əliyevin fəaliyyətindən, onun daxili və xarici siyasətlə bağlı baxışlarından, dövlət başçısı kimi qarşısında duran əsas vəzifələrdən də geniş bəhs edilir.

## İnkişafın düzgün yolu

Bir məqamı da qeyd edək ki, fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev nəzəriyyə ilə təcrübəni, elmlə idarəçilik fəaliyyətini şəxsində və elmi yaradıcılığında birləşdirməyə müvəffəq olan görkəmli alim və peşəkar məmurdur. "Azərbaycan: qloballaşma dövrünün tələbləri" əsərində də müəllif əsas leytmotiv kimi ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu Azərbaycanın inkişaf proqramınm şərhini məhz nəzəri istiqamətin təcrübədə əsaslandırılmış xüsusunda verir. Bakı Dövlət Universitetinin müəllimi kimi hələ 1974-cü ildə Heydər Əliyev siyasi idarəçilik sisteminə dəvət olunan və 30 il müddətində Heydər Əliyev dühasının Azərbaycanın qüdrətlənməsinə, rifahına yönəlmiş fəaliyyətini yalmz komanda üzvü kimi yox, həm də bir alim kimi müşahidə edən Ramiz Mehdiyev tədqiqatlarını sanballı elmi araşdırmalarda əks etdirməyə nail olub. Azərbaycanın dövlətçilik ənənələrini, xalqın tarixi mental xüsusiyyətlərini öyrənən, araşdıran, müasir tariximizin siyasi aspektlərini düzgün

təhlil edib qələmə alan professor Ramiz Mehdiyev Heydər Əliyev siyasi xəttinin dövlətin inkişaf konsepsiyasına çevrilməsində fəal iştirak edib bu prosesin ideoloji əsaslarının müəyyənləşməsində mühüm xidmətlər göstərmişdir.

Müəllif "Azərbaycan: qloballaşma dövrünün tələbləri" əsərində də yaradıcı üslubuna sadiq qalmış, Heydər Əliyev siyasi kursunun 35 illik dövrünü sosial, iqtisadi, siyasi, mənəvi, ideoloji yönümləri ilə təhlil etmiş, bu kursun ənənələrini aydınlaşdırmış, qloballaşma dövründə Azərbaycanın maraqlarının və mənafelərinin qorunmasında bu siyasi xəttə alternativin olmadığmı real faktlar və dəlillərlə sübut etmişdir. Monoqrafiya ilə bağlı yuxarıda verdiyimiz qısa icmala sözardı olaraq bildirmək istərdik ki, bu əsəri həm də Azərbaycanın son 40 il ərzindəki iqtisadisiyasi salnaməsi kimi də qəbul etmək mümkündür. Lakin kitabda son 15 ilin sosialsiyasi durumunun təhlili və elminəzəri cəhətdən yüksək professionalhqla ümumiləşdirilməsi daha aktual əhəmiyyət kəsb edir.

Ötən 10 ildə Azərbaycan başqa postsovet və Şərqi Avropa dövlətlərinin nail ola bilmədiyi inkişafa, iqtisadi tərəqqiyə, ictimai-siyasi islahatların mükəmməl hüquqi qanunvericilik bazası ilə möhkəmlənməsinə və digər mühüm nailiyyətlərə imza atıb. Qısa müddət ərzində nəzəri cəhətdən mümkün olmayanı praktik baxımdan mümkün etməyi bacaran hakimiyyətin fəaliyyəti, apardığı islahatlar heç də həmişə rəvan getməyib, digər tərəfdən isə, indi ölkədə ictimai-siyasi sabitlik əldə edilsə də, milli dövlət quruculuğu prosesinin davamlı axarına hələ də ciddi maneələr mövcuddur. Bu baxımdan keçilən yolun sınaqlarını əsas götürərək sabahkı inkişafı şərtləndirəcək istiqaməti müəyyənləşdirmək, eləcə də dövlət quruculuğu prosesinin və milli intibahın, nəzərdə tutulduğu kimi, müvəffəqiyyətlə gedişinin konseptual nəzəriyyəsini hazırlamaq ölkənin elmi potensialının vacib vəzifəsidir.

Professor Ramiz Mehdiyev əsərində qeyd edir ki, əslində göstərilən istiqamət və konseptual nəzəriyyə artıq təşəkkül tapıb: ümummilli lider Heydər Əliyevin müəllifi olduğu azərbaycançıhq ideologiyası xalqın və dövlətin əsrlər boyu bərqərar olan ənənələrini, həmçinin ötən əsrin 70-80-ci illərində formalaşması tam başa çatan milli-mənəvi dəyərlərin həm

də iqtisadi-siyasi ahəngini tam ehtiva etməklə yanaşı, nail olduğumuz tərəqqinin perspektiv yönümünü də əks etdirir. Bir sözlə, Heydər Əliyevin azərbaycançılıq ideologiyası artıq milli inkişafm nəzəri modeli kimi qəbul olunaraq dövlətçilik konsepsiyasına çevrilmişdir.

Ramiz Mehdiyev "Azərbaycan: qloballaşma dövrünün tələbləri" kitabında azərbaycançılıq ideyasının geniş təsnifatmı vermiş və onun müxtəlif sahələr üzrə əhəmiyyətini yüksək elmi səviyyədə açıqlamışdır. Filosof bu ideologiyanın əsas məğzini ifadə edərək yazır ki, milli dövlət ideologiyası olan azərbaycançılıq bu gün bizim qarşımızda dəqiq ifadə edilmiş ideya kimi durur. Azərbaycançılıq xalqımızın çox əzab-əziyyətlə nail olduğu tarixi sərvətdir. O, real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün çox vacib bir vasitədir. O, Azərbaycan xalqının dövlətyaradıcı mənafelərinin ümumiliyi və demokratiyanın, sərbəst iqtisadiyyatm, sosial həyat şəraitinin inkişafı uğrunda mübarizənin məqsədidir. Müəllif öz əsərində bu ideyanı həm də müxtəlif xalqların, mədəniyyətlərin, ənənələrin, konfessiyaların vəhdəti kimi səciyyələndirir. Doğrudan da xalqın milli-mənəvi dəyərlərini həm müdafiə etməyi, həm də qoruyub saxlamağı bacaran dövlətlə insanların fərdi sosialmədəni meyillərini üzvü şəkildə birləşdirən azərbaycançılıq ideyası ölkədə vətəndaş birliyi, vahid sosium yaradır. Yeni dünya düzənində, qloballaşma prosesinin hakim olduğu dövrdə milli ənənələrlə yanaşı, fərqli sivilizasiyaların da önəminin artdığı bir məqamda bu ideologiyanm mahiyyətində əks olunan müddəalarda da müəllif tərəfindən müəyyən aydınlaşdırmalar və dəqiqləşdirmələr aparılır. Qərb və Şərq sivilizasiyasınm qovuşuğunda yerləşən Azərbaycanda dövlət ideologiyasınm əsasında sivil Avrasiya birliyinin bir hissəsi özünəxas milli dəyərə, ənənəyə, eyniyyətə və mentalitetə malik Azərbaycan haqqında təsəvvür və konsepsiya dayanır. Professor Ramiz Mehdiyevin yekun qənaəti belədir: millətin potensialını və ölkəni tərəqqiyə, firavanlığa doğru aparınağa qadir olan siyasi elitanm mövcudluğu onu göstərir ki, azərbaycançılıq milli ideyanm əsası kimi tam formalaşıb və Azərbaycan dövlətinin tarixi boyu da əsası olaraq qalacaq.

"Demokratik inkişaf köhnə təfəkkürlü müxalifətin yerini sağlam qüvvələrə verməsini zəruri edir" bu tezis professor Ramiz Mehdiyevin araşdırmalarında aparıcı mövzulardan biridir. XXI əsrin milli dövlətçiliyini milli mənafeyin, insan hüquqlarının və ümumbəşəri humanist dəyərlərin qarşılıqh təcəssümü hesab edən müəllif bunu həm də vahid məqsəd uğrunda dövləti möhkəmləndirmək, iqtisadiyyatı modernləşdirmək və gələcək nəsillər üçün daha mükəmməl şərait yaratmaq naminə millətin, cəmiyyətin birliyinin rəmzi kimi xarakterizə edir.

Bu gün Azərbaycanda milli dövlətçiliyin vacib atributlarının bərqərar olduğunu, siyasi, qanunverici, iqtisadi, sosial sahələrdə əldə edilən tərəqqinin dövlətin daha da möhkəmlənməsinə şərait yaratdığmı qeyd edən müəllif bildirir ki, bütün bunlar böyük nailiyyətdir və bu uğurların şəriksiz müəllifı məhz ümummilli lider Heydər Əliyevdir. Professor Ramiz Mehdiyev dövlət qunıculuğu, ümumiyyətlə, milli dövlətçiliyin möhkəmlənməsi prosesində xalqın etimad göstərdiyi hakimiyyətlə yanaşı, azlığın təmsilçisi olan müxalifətin də mühüm vəzifələrinin olduğu qənaətindədir. Çünki sivil dövlətlərdə və cəmiyyətlərdə müxalifət hakim elitadan fərqli ideyalar, proqramlar və layihələr irəli sürür, hakimiyyətin siyasətini sağlam mövqedən və əsaslandırılmış dəlillərlə tənqid edir, ölkə və dövlət qarşısında duran problemlərin həllinə kömək göstərir. Müxalifət həm də sistemin dayanıqlığı, konstitusiya quruluşunun mühafızəsi, siyasi proseslərin demokratik prinsiplərə uyğun şəkildə getməsi üçün hakimiyyətlə birlikdə məsuliyyət daşıyır.

Ancaq Azərbaycanın siyasi sisteminin bir hissəsinə çevrilmiş müxalifətin bugünkü durumu, fəaliyyəti, mübarizə prinsipləri, ideya istiqamətləri, elektoratla iş metodları, üzvləri və təəssübkeşləri arasında apardıqları siyasi maarifçilik işi nəinki sivil dövlətlərdəki müxalifətin eyni xüsusiyyətləri ilə uyğun gəlmir, hətta Azərbaycan müxalifətinin mübarizəsi bir çox hallarda antimilli, antidövlət fəaliyyət xarakteri alır. Ölkədə gedən demokratikləşmə və müasirləşmə prosesindən özünü kənar saxlayan müxalifətin malik olduğu köhnə, primitiv təfəkkür, eləcə də 1993-cü ildə Azərbaycanı uçurum qarşısında qoyan fəaliyyətinin bu gün də eyni ampluada davam etdirilməsi, şübhəsiz ki, məmləkətin siyasi palitrasında izsiz qal-

mır. Professor Ramiz Mehdiyev çox doğru olaraq qeyd edir ki, müasir cəmiyyətin əsas siyasi institutların dan olan müxalifətçiliyin mürəkkəb təzahür formaları, həqiqi kökləri və yaranma səbəbləri elmi ictimaiyyətin və politoloqların nəzərindən kənarda qalıb, halbuki burada ideoloji, siyasi, mənəvi, psixoloji, şəxsi və s. faktor və motivlər var. Məhz elə bu baxımdan da, yəni qeyd edilən sahədə elmisiyasi araşdırmaların olmadığı "boşluq" məqammda "Azərbaycan: qloballaşma dövrünün tələbləri" kitabı ölkə müxalifətinin mahiyyətini öyrənmək, onu tanımaq üçün gərəkli elmi vəsait, siyasi tədqiqat əsəri kimi də çox qiymətli və əhəmiyyətlidir.

Kitabı oxuyarkən bir daha aydın olur ki, Azərbaycanda müxalifət tərkibcə yekcins deyil, müxtəlifdir, siyasi spektrin bütün çalarları ilə təmsil olunmuşdur. Lakin ümumi müxalifətin tərkibindən bütün əlamətləri və xüsusiyyətləri ilə seçilən pozucu, dağıdıcı, destruktiv qüvvə ayrılaraq bütövlükdə müxalifətin adından danışmağa, onun flxnksiyasını təkbaşına mənimsəməyə çalışır. Müəllif çox haqlı olaraq destruktiv müxalifətin demokratiyanı öz bildiyi kimi, yəni məsuliyyətsizlik anlammda yozmasını və həyat təcrübəsini, səriştəliliyi, idarəetmə elmini, əhalinin mənafelərini, əhvaliruhiyyəsini qulaqardına vurmasını dövlət quruculuğu prinsiplərinə və dövlətçiliyin möhkəmləndirilməsinə kökündən zidd sayır.

Professor Ramiz Mehdiyev haqlı olaraq qeyd edir ki, bu vəziyyət artıq destruktiv müxalifət partiyalarının tam iflas olması ilə nəticələnə bilər. Bunun qarşısmı almaq, ölkədə normal və sağlam müxalifəti formalaşdırmaq üçün artıq müxalifətin öz daxilindən başlayan fəaliyyət cəhdlərini nəzərə alaraq müəllif qeyd edir ki, konstruktiv, sivil müxalifətin təşəkkülü heç də sadə proses deyil və bu proses illərlə və ziddiyyətli bir şəkildə davam edəcəkdir. Ancaq onu da nəzərə almaq lazımdır ki, bu prosesin baş verməsi və uğurla nəticələnməsi Azərbaycan dövləti, cəmiyyəti, onun demokratik inkişaf mənafeləri üçün zəruridir.

## Azərbaycanın daha uğurlu sabahına möhkəm təminat var

Destruktiv müxalifət partiyalarının, eləcə də antiazərbaycançı şəbəkənin yaratdıqları maneələrə, problemlərə baxmayaraq, dövlətimiz inkişaf

edir və müstəqilliyinl daim möhkəmləndirir. Artıq müstəqil dövlətin mövcudluğu üçün tələb edilən zəruri şərtlər ictimai, siyasi, qanunverici, iqtisadi, sosial sahələr üzrə tam bərqərar olub. Bir sözlə, son 10 il ərzində xaosdan qurtuluşa keçidi az ağrı ilə və səhvsiz apara bilən əbədi liderimiz Heydər Əliyevin qurduğu Yeni Azərbaycan millətimizin əsrlər boyu həsrətini çəkdiyi müstəqil dövlət arzusunu tam reallaşdırıb.

Fəlsəfə elmləri doktoru, profcssor Ramiz Mehdiyevin də qeyd etdiyi kimi, bugünkü Azərbaycan Heydər Əliycvin çoxillik gərgin və uzaqgörən fəaliyyətinin məhsuludur. Müəllif bu möhtəşəm siyasətçinin yaratdığı dövlətdə perspektiv inkişafa və müstəqilliyin təminatına zəmanət verəcək qüvvənin yalnız Heydər Əliyev siyasi xəttinə varislik edən iqtidarın olduğunu elmi və təcrübi dəlillər vasitəsilə əsaslandırır. Ramiz Mehdiyev iqtidarın malik olduğu kadr potensialının ölkədə analoqu olmadığını qeyd etməklə yanaşı, xatırladır ki, xalqın əsas intellektual, kadr, idarəetmə potensialı hakim komandada. Yeni Azərbaycan Partiyasında cəmləşmişdir. Məhz bu partiya Heydər Əliyev siyasi xəttinin nüvəsini təşkil edərək varislik prinsipinin təminatında mühüm ideoloji-praktik rol oynayır.

Müəllif "Azərbaycan: qloballaşma dövrünün tələbləri" monoqrafiyasında son bir il ərzində Azərbaycanda qazanılan nailiyyətləri, daha böyük uğurların əsasının qoyulmasını, ölkəmizin beynəlxalq birlikdə mövqeyinin möhkəmlənməsini ulu öndərimiz Heydər Əliyev siyasi xəttinin layiqincə davam etməsi, konkretləşdirsək, Prezident İlham Əliyevin fəaliyyətində məhz bu varislik prinsiplərinə sadiq olması ilə əsaslandırır. Dövlət başçısının qloballaşma dövründə Azərbaycanı bütün fəsadlardan qoruyaraq daha da irəli aparacağına əmin olan müəllif yazır: "2003-cü ilin dekabrında Heydər Əliyevin vəfat etməsi hakimiyyət boşluğuna və çaxnaşmaya səbəb olmadı. Bu itkini böyük milli faciə kimi qəbul edən insanlar sabitliyin, cəmiyyətdə sülhün, həmrəyliyin qorunması, onların sosial və iqtisadi problemlərinin həlli ilə bağlı ümidlərini İlham Əliyevə bağladılar. İlham Əliyevin prezidentlik dövrü təsdiq edir ki, insanlar öz ümidlərində yanılmayıblar... Birmənalı söyləmək olar ki, İlham Əliyev öz müəllimindən -uzaqgörən dövlət xadimi Heydər Əliyevdən vacib dərsləri layiqincə öyrənib. İlham Əliyev müasir dövrdə dövlət idarəçiliyini müdrikcəsinə mə-

nimsəyib. Onun fikrincə, qloballaşma dövlətin sonu demək deyil. Əvvəla, dövlət öz əhəmiyyətini saxlayır, çünki məhz o, hüquqi normaları müəyyənləşdirir, yaxud da cəmiyyət həyatında hüquqi əsaslar mühüm rol oynayır. Digər tərəfdən, dövlət millətin özünəməxsusluq hissinin formalaşmasına və inkişafına şərait yaradır".

Professor Ramiz Mehdiyev Azərbaycan Prezidentinin xarakterik məziyyətlərini belə şərh edir: "İlham Əliyevin siyasi, iqtisadi və mənəvi görüşlərinin formalaşmasında heç də təkcə ailə tərbiyəsi təsir göstənnəmişdir. Görünür, burada onun şəxsi keyfiyyətləri, intellekti, ümumi mədəniyyəti, təvazökarlığı, şüurlu həyatı boyu topladığı bütün qiymətli və müsbət nə varsa hamısmı faydalı şəkildə sintezləşdirmək bacarığı mühüm rol oynamışdır. Təsadüfı deyil ki, Prezident Heydər Əliyevdən savayı, başqa heç bir siyasətçinin qısa müddət ərzində İlham Əliyevin nail olduğu qədər belə geniş, kütləvi sosial bazası yoxdur. Onun sosial bazasının coğrafı və yaş həddi yoxdur, o, bütün yaşlardan və ölkənin bütün bölgələrindən olan nümayəndələri öz ətrafında birləşdirən nadir bir siyasətçidir... Fakt dəqiq şeydir və bu faktlar təsdiq edir ki, İlham Əliyev özünün də qeyd etdiyi kimi, hər bir azərbaycanlının Prezidenti olmağa, tariximizin hələ nə vaxt başa çatacağı məlum olmayan mürəkkəb dövründə ölkəyə rəhbərlik etməyə lazım olan bütün zəruri keyfiyyətlərə malik yeni dövrün siyasətçisidir". Prezident İlham Əliyevin son bir illik fəaliyyətini siyasi, sosial, iqtisadi, ideoloji, mənəvi aspektlərdən geniş təhlil edən müəllifın yekun qənaəti odur ki, Prezidentin irəlilədiyi yol yeniliklə ənənəçiliyi harın  onik birləşdirir və bu yol ölkəni birmənalı olaraq tərəqqiyə və rifaha aparır.

Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsinə ithaf etdiyi "Azərbaycan: qloballaşma dövrünün tələbləri" monoqrafiyası Azərbaycan Respublikasının Prezidenti yanmda Dövlət İdarəçilik Akademiyasının müəllim-tələbə və müdavim heyətində böyük marağa və geniş elmi müzakirələrə səbəb olmuş və rəğbətlə qarşılanmışdır. Bu əsəri Azərbaycan elminə böyük töhfə kimi qiymətləndirən akademiyamızm professor və müəllimləri hesab edirlər ki, monoqrafiya ali raəktəblərdə qloballaşma dövrünün xüsusiyyətlərinin və bu prosesdə Azərbaycanın iştirakının tədrisi prosesində əvəzsiz, mükəm-

məl dərs vəsaitidir. Elmi ictimaiyyotdə böyük rəğbətlo qarşılanan bu monoqrafiya, əminik ki, akademiyamızda dövlət idarəçiliyi sahəsində hazırlanan kadrların yeni dövriin qloballaşma dövriinün təlob və vozifolərini düzgün başa düşmələrinə, onlarda yeni dünyagörüşünün və yeni təfəkkürün formalaşması işinə kömək etməklo yanaşı, Azərbaycaıı tarixinin ən raübahisəli dovrlərinin dəqiq salnaməsi və qarşıdakı ülorin dürüst proqno zunu verən əsər kimi də digor zümrolərin marağına səbob olacaq.

**Seyfəddin QƏNDİLOV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**yanında Dövlət İdarəçilik Akademiyasının**
**rektoru, professor, əməkdar elm xadimi**

*18 yanvar, 2005*

# "BİZ ÖZ TALEYİMİZİ ÖZÜMÜZ MÜƏYYƏN EDİRİK"

***Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin "Azərbaycan: qloballaşma dövrünün tələbləri" kitabı haqqında qeydlər***

İctimai elmlərdə həqiqəti sübut etmək üçün xeyli cəsarət tələb olunur. Təbiət haqqında elmlərdə sərbəstlik daha çoxdur. Burada sosium tədqiqatçıları onları hətta bütün fantastik kəşfləri ilə birlikdə, Hegelin təbirincə desək, konkret empirik xarakterli xaotik zərurətlə uzun bir yedəkdə saxlayır və nəticə etibarilə öz kontekstinə öyrəşdirir və uyğunlaşdırır.

Cəmiyyətşünaslıqda isə vəziyyət başqadır. Burada həqiqət axtarışı, gerçəklik xeyli müqavimətlə üzləşir, ictimai təsəvvürlərin, yanlış fikirlərin və stereotiplərin çox böyük ətaləti ilə, siyasi konyunkturun və qrup mənafelərinin təzyiqi ilə qarşılaşır.

Üstəlik, çoxdan diqqət yetirilmişdir ki, bu bilik sahəsində hətta zahirən inqilabi və yenilik kimi görünən elmi üsulda dözülməz sosial konformizm gizlənə bilər. Sələflərin irəli sürdükləri dəyər meyarları, tarixin hadisələrinə və dəyişən gerçəkliyə yanaşma tərzi çox vaxt indiki insanların ağılzəkasına vahimə kimi hakim kəsilir. İndi bütün bunlara dünya inkişafının əvvəllər görünməmiş, adekvat sosial idraka və hipotetik gələcəyin imkanlarını öncədən görməyə çalışan çox təcrübəli təhlilçini də çıxılmaz vəziyyətə sala bilən çoxvektorluğu da əlavə olunmuşdur.

Bütün bu sadalananlar ayrıca bir dövlətin sosialsiyasi və iqtisadi transformasiyalarının materiyasıha nüfuz etmək cəsarətini öz üzərinə götürən tədqiqatçıya ikiqat təzyiq göstərir, xüsusən də bu tədqiqatçı həmin transformasiyaların sadəcə müasiri deyil, həm də dövlət idarəçiliyinin sükanı arxasında dayanaraq bilavasitə iştirakçısı olduqda.

Bu mənada professor Ramiz Mehdiyevin oxucunun mühakiməsinə verilən və XX əsrin axırları XXI əsrin əvvəllərində dünyada gedən struk-

tur dəyişiklikləri şəraitində Azərbaycan dövlətçiliyinin təşəkkülü problemlərinə həsr edilən kitabı, bir tərəfdən, heç də təkcə postsovet məkanında deyil, başqa məkanlarda da qanlıqadalı ziddiyyətlərə, münaqişələrə, terror və müharibələrə bürünən çağdaş dövrün dərin və hərtərəfli elmi tədqiqidir. Digər tərəfdən isə, bu kitab qloballaşma proseslərinin təsiri altında, milli dövlətlərin və sivilizasiyaların mövcudluğunun perspektivləri, siyasətdə prioritetlər və dəyərlər haqqında sərt polemikanın təsiri altında ənənəvi sosial orqanizmlərin aşmdığı bir şəraitdə öz vətəninin taleyi üçün məsul olan vətəndaşın vətənpərvərin diqqətəlayiq addımıdır.

Tanınmış politoloq Zbiqnev Bjezinski bu yaxınlarda çapdan çıxmış "Seçim. Dünya hökmranlığı və ya qlobal liderlik" əsərində yazır: "Milli dövlət formal olaraq dünya meydanmda əsas subyekt kimi qalsa da, beynəlmiləl (ənənəvi mənadakı kimi beynəlxalq yox) siyasi həyat getdikcə daha çox transsərhəd, nizamsız və tez-tez zorakılıqla bağlı olan qlobal proses formasını alır". Buna cavab olaraq başqa bir meyil də nəzərə çarpır: ənənəvi başlanğıclara, dünya nizamının qlobalistlər tərəfindən təklif edilən kosmopolit modellərinə meyil edən cəmiyyətlərin müxalifətliyinin müxtəlif formalan, separatizm və müasir dövlətlərdə mərkəzləşdirmənin ləğv olunması.

İndi az qala bütün qitələrdə aparılan bu polemikaya, təbii ki, Ramiz Mehdiyevin əsəri də qoşulur. Oxucunun diqqətini buna da xüsusi cəlb etmək istərdim ki, bu əsər heç də təkcə lokal və ya sırf elmi, tətbiqi xarakter daşımır. Azərbaycanın burada ümumiləşdirilmiş və araşdırılmış tarixi təcrübəsi və onun islahatlarının dərsləri, Azərbaycan xalqının özünü beynəlxalq aləmdə göstərmək, orijinal mədənitarixi simasını itirməmək, yeni postindustrial əsasda özünün siyasi və mədəni təsdiqini həyata keçirmək cəhdiazərbaycanın geosiyasi əhəmiyyəti de nəzərə alınmaqla, bütün bunlar ideologiyalar əsri və təbii sərvətlər uğrunda döyüşlər başa çatdıqdan sonra dünyanın birqütblü strukturunun fəal surətdə bərqərar olduğu, tənzimlənməyən sosial-iqtisadi proseslər yaradan transmilli korporasiyaların və qeyrihökumət təşkilatlarının təsirinin gücləndiyi, millətdövlətlərin zəiflədiyi, planetin yoxsul əksəriyyətinin və firavan yaşayan azlığının qütbləşməsinin xaos təhlükəsi yaratdığı, xalqların ənənələrə, əzəli dinə və tarixi qüdsiyyətlərə qayıdışa əsaslanan yeni eyniyyətə aşkar şəkildə meyil göstərdiyi bir şəraitdə bəşəriyyətin gələcəyi barədə universal axtarışlara müəllifin töhfəsidir.

Göstərilən amillər dünyanın adət etdiyimiz mənzərəsini köklü surətdə dəyişdirir və ayrı-ayrı ölkələri və ümumən dünya birliyini mütləq yeni vəziyyətə doğru aparır.

Məhz həmin amillər bu və ya digər konkret dövlətin və cəmiyyətin reallıqlarının indiki tədqiqatçısından həm onların tarixi inkişafının, sözün əsl mənasında, əhəmiyyətli meyilləri və ziddiyyətlərinin müzakirəsini, həm də günün aktual siyasi maneələrinin aradan qaldırılmasını, keçmişin xülyaların dan azad olmağı tələb edir. Bizə elə gəlir ki, getdikcə qarşılıqlı surətdə daha çox asılı olan, inteqrasiya edən dünyada belə yanaşma yeganə səmərəli yanaşmadır.

Ramiz Mehdiyev öz əsərində belə yanaşmanı tam dolğunluğu ilə reallaşdırmağa müvəffəq olmuşdur. Azərbaycanda islahatların təhlilində müəllif respublika tarixinin sovet dövrünün qiymətləndirilməsində hər şeyi ancaq qara rəngdə qələmə vermək kimi postsovet məkanmda (təkcə burada deyil) yayılmış səhv fıkrə, bəlkə də daha dəqiq desək, siyasi sifarişlərə uymamışdır. Ona görə də R.Mehdiyevin kitabında Heydər Əliyev şəxsiyyəti sükunət halmda deyil və bu görkəmli siyasi xadimin öz millətinin varlığmın çox mürəkkəb dövründə onım taleyində oynadığı rol bəlağətli sözlərlə deyil, əksinə, zamanın hərəkətində və Azərbaycan liderinin şəxsiyyətinin hərtərəfli foraıatında canlandırılır, onun idarəçilik istedadı, heyrətamiz siyasi uzaqgörənliyi və qeyriadi dövləti iradəsi qabarıq şəkildə nəzərə çarpdırılır.

Zənnimcə, professor R.Mehdiyevin tədqiqatının daha bir dəyərli cəhətini qeyd etmək vacibdir. Şübhəsiz, fundamental xarakter daşısa da, ruhuna və üslubuna görə bu tədqiqat istiqamətverici pafosdan və öz fikirlərinin yeganə həqiqət olduğunu iddia etməkdən, hakimiyyətdə olan siyasətçilərin belə əsərlərini, bir qayda olaraq, səciyyələndirən xüsusiyyətdən verilən qiymətlərin və çıxarılan nəticələrin inkaredilməzliyi iddialarından tamamilə uzaqdır. Müəllif Azərbaycanın müstəqilliyinin təşəkkülünün dolğun mənzərəsini canlandıraraq, məsuliyyətsiz "təsadüfı hökmdarlar"m təqsiri üzündən respublika xalqının başına nə kimi müsibətlər gəldiyini göstərərək, dünya birliyinə inteqrasiyaya aparan yolun və iqtisadi inkişaf modelinin seçimini əsaslandıraraq belə bir mühüm məqamı da vurğulayır ki, modernləşdirmə vesternləşmənin (qərbləşmənin) sinonimi deyildir. Müəllif elə ilk səhifələrdən oxucunu birgə düşünməyə, dialoqa dəvət

edir. Bu səyində tədqiqatçı və siyasətçi olaıı R.Mehdiyevin ən ciddi və nəcib vəzifələrindən birini - cəmiyyətdə, onun elm təbəqələrində, gənclər arasında fəal sosial fikrin və öz ölkosinin taleyinə görə vetendaş məsuliyyəti hissi oyatmaq vəzifəsini görürük. Belə hissin oyanışı isə milli özünü-eyniyyətlə yanaşı, beynəlxalq münasibətlərin nəsil subyekti kimi dövləti möhkəmlündirən etibarlı amilidir.

R.Mehdiyev Azərbaycanda dialoq üçün məkanın açıq olduğunu dəfələrlə nəzərə çarpdırır və eyni zamanda, haqlı olaraq belə bir fakta diqqət yetirir ki, respublikanın inkişafının aktual məsələləri barədə, iqtidarın bu və ya digər qərarları barədə istənilən ictimai polemika yalnız o halda səmərəli olar ki, opponentlik edən siyasi qüvvələr onu həm dünyagörüşü baxımından məntiqli, həm də həyata keçirilməsi üçün konstruktiv texnologiyaları olan öz sosial-iqtisadi layihəsi mövqelərindən ardıcıllıqla aparsınlar.

İstənilən digər halda demokratik cəmiyyətin təkmilləşməsinin labüd atributu olan siyasi mübarizə, sadəcə olaraq, nəzarət edilməyən emosiyaların və heç nə ilə əsaslandırılmayan bakimiyyət iddialarının kükrəməsinə, nəticə etibarilə isə ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanın yaşadığı və Maqsud İbrahimbəyovun sərt bənzətmə üə "çəyirlkə mövsümü" adlandırdığı dövrdə baş vermiş xaos fitnəsinə çevrilir. Lakin R.Mehdiyevin faktlara söykənən qənaətlərinə görə, bu gün də "barışmaz" müxalifət düşərgəsində elə həmin situativ qərarlar "kimyası" müşahidə edilir, ona görə ki, çox vaxt bu meydandakı, demək olar, bütün "oyun fiqurları" subyekt olmadıqlarına görə əks niyyətlər güdən bu vo ya digər beynəlxalq qüvvələrə bağlıdır.

R.Mehdiyev yaxın keçmişin hadisələrini və Azərbaycanın indiki gerçəküyini qlobal proseslər fonunda araşdırarkən diqqəti cəlb edəcək qədər çoxsaylı faktik materialdan və olduqca böyük həcmdə ən müasir politoloji ədəbiyyatdan istifadə edir, aparıcı futuroloqların, tarix, fəlsəfə, geosiyasət, iqtisadiyyat sahəsində mütəxəssislərin ən yeni konsepsiyalarını nəzərdən keçirir.

Kitabın məğzi bugünkü dünya siyasətinin belə bir ən ümdə məsələsini açıqlamaqdır: biz yaxın gələcəkdə hansı dünyada yaşayacağıq? Hələlik heç kim bu suala birmənalı cavab vermək iqtidarında deyildir.

Müəllif tədqiqatında toxunduğu mövzuların aktuallığını başa düşərək vurğulamağı özünə borc bilir ki, kitabda bir çox mühüm suallara cavab verməyə çalışmışdır, qalanlarına isə tarix cavab verəcəkdir. Lakin artıq özlüyündə aydındır ki, modernləşməyə doğru gedən ölkələr, o cümlədən Azərbaycan üçün inkişaf imkanları və perspcktivlərinin vicdanla axtarışı potensialı olduqca çox şey deməkdir.

Ramiz Mehdiyev insan zəkasının təşkilatlandırıcı qüvvəsinə inanır, respublikanın gələcəyi barədə mühakimələrində qloballaşma xülyalarına qapılmır, "bazarın gözəgörünməz əli"nə güvənmir (Rusiyada "gənc islahatçılar" məhz belə səhvə yol vermişdilər), "tarixin növbəti qanunları"na bel bağlamır. Ümumiyyətlə, postsovet məkanı tədqiqatçı (biz hələ real siyasətçiləri demirik) üçün öyrənilməmiş bir dünyadir, burada hətta nəcib niyyətlərlə də olsa, özgəsinin xəritələrinə və soraq kitablarına əsaslanmaq cəhdləri bir yana aparıb çıxarmayacaq, hərəkətin sınaqdan çıxarılmış və etibarlı görünən model və sxemləri də kara gəlməyəcəkdir. Özünün etnik, mədəni, dini, sosiopsixoloji tərkib hissələri ilə birlikdə rəngarəng və çoxtərkibli olan həmin məkan burada məskunlaşmış xalqlara öz tarixi taleyini yaratmaq üçiuı geniş imkan verir. Gənc suveren dövlətlərdən hər birində belə tarixi yaradıcılıq prosesində ən qiymətlisi onların özləri haqqında, oradakı mövcud sosial və iqtisadi meqaterndlər haqqında real biliyə malik olmaqdır, babelə hakim və idarəedici elitanın bunu - əqidə səviyyəsində - başa düşməsidir ki, o, ideal humanist ənənəni, humanist, mədəni və rəmzi kapitalı özündə daşımalı və onu gələcəyə ötürməlidir, bunsuz o, nə sosial, nə də tarixi baxımdan fəaliyyət qabiliyyətli deyildir. Qalan hər şey istənilən siyasi və ya sosial təşəbbüsü ya "maraqlar üzrə" boşboğazlığa, ya da dağıdıcılıq təhlükəsi törədən avantürist "projekt'lərə çevirir.

XX əsrin 80-ci illerinin axırlarından etibarən Azərbaycanda baş vermiş sosial və iqtisadi dəyişikliklərə dünyagörüşü mövqeyindən bu çox mühüm yanaşma R.Mebdiyevin kitabında "Xalq Cəbhəsi" müxalifətinin fəaliyyətindən və Azərbaycan xalqının Heydər Əliycvin xeyrinə etdiyi seçimin tarixi qanunauyğunluğundan yazanda daha parlaq şəkildə nəzərə çarpır. Müllifin qeyd etdiyi kimi, Heydər Əliyevin apardığı siyasət, ilk növbədə, cəmiyyəti mənəvi baxımdan dirçəltməyə, onun yaradıcılıq imkanlarını gücləndirməyə, ictimai şüuru uğurlu dövlət quruculuğunun həlledici ami-

linə çevirməyə qadir olan struktur kimi ideoloji sistem yaradılmasına yönəldilmişdi. Bu baxımdan azərbaycançılıq R.Mehdiyevin əsərinə şərhlərdə deyildiyi kimi, "bu gün artıq milli ideologiyanm ilk nümunəsi kimi qiymətləndirilə bilər" və Prezident İlham Əliyevin xəttinin varisliyi sayəsində milli mənafelər daxili və xarici siyasi meydanda həmin ideologiyaya istinadla həyata keçiriləcək və artıq həyata keçirilməkdədir. Elə bir xətt ki, burada Ramiz Mehdiyev tamamilə gələcək üçün işləyən səmərəli "ikili strategiya"nı nəzərə çarpdırır: dağıdıcı qüvvələrin və proseslərin qarşısının alınması və öz tarixi, mənəvi və əxlaqi potensialını qoruyub saxlayan və artıran yeni sosial subyektin yaradılması sahəsində fəal iş.

Sonda onu da demək lazımdır ki, Ramiz Mehdiyevin kitabında mən politoloqdan çox ədəbi tənqidçi gördüm. Kitab dərin şəxsi intonasiya ilə yazılmışdır ki, bu da əsəri təkcə alimlər, mütəxəssislər, siyasətçilər üçün deyil, hazırda dünyada və öz ölkəsində baş verən hadisələrlə maraqlanan oxucuların geniş dairəsi üçün cəlbedici edir. Müəllif indi nadir olan, lakin kütləvi şüurda xeyli qiymətdən düşən, buna baxmayaraq, hər yerdə elitaların imtiyazı kimi qalan məziyyətə malikdir  o, sözün əsl qədirqiymətini bilir. Haqqında resenziya yazdığımız bütün kitab boyu özünü büruzə verən bu bilik mətnin daha bir dəyərini göstərir və bu, xüsusən birbaşa praqmatik əhəmiyyəti olmayan ülvi məsələlərdən söhbət gedəndə özünü xüsusilə büruzə verir. Bu dəyəri tədqiqatçı təfəkkürünün transsendental vektorun  onun düşüncələrinə və qənaətlərinə fəlsəfi keyfiyyət verən vektorun ifadəsi adlandırmaq olar. Bu isə kitabdakı müraciəti oxuyanlara təkcə indi gedən qlobal prosesləri müəyyən dərəcədə anlamağa deyil, həm də informasiya, kənar təsir nəticəsində yaranan "ehtiraslar"dan uzaqlaşıb mahiyyətə biliyə və kontekstə doğru irəliləməyə imkan verəcəkdir.

**Lyudmila LAVROVA,**
**yazıçı, publisist**

*Moskva*

*3 fevral, 2005*

# MÜASİR DÜNYA İNKİŞAFININ REALLIQLARI VƏ "MİLLİ SUVERENLİK" PRİNSİPİ

***Bizim tutduğumuz yol doğru yoldur, ədalətli yoldur. Bizim ən böyük vəzifəmiz Azərbaycanın dövlət müstəqilliyini qorumaq, saxlamaq, möhkəmləndirmək, onu əbədi etməkdən ibarətdir. Həyata keçirdiyimiz daxili və xarici siyasət müstəqilliyimizin təminatıdır. Kim bu yolda bizə mane olarsa, o maneələri biz aradan götürməyə qadirik.***

**Heydər ƏLİYEV**

Dünyada baş verən qarşılıqlı inteqrasiya meyillərinə, "qloballaşma" anlayışı ilə ifadə edilən proseslərə dair həm elmi müstəvidə, həm kütləvi informasiya vasitələrində, həm də adi şüur səviyyəsində gedən müzakirə və mübahisələri səthi izləyən insanları ən çox düşündürən suallar yığcam şəkildə əsasən bir mövzu ilə bağlıdır: qloballaşma prosesində, "milli dövlət, milli suverenlik" kimi prinsiplər nə kimi məzmun və mahiyyət dəyişiklikləri kəsb edir? Bəşər həyatımn bütün sahələrinə nüfuz edən yeni inkişaf meyilləri "milli suverenlik" prinsipinə necə təsir göstərir?

Bəhs olunan mövzuya dair elmi ədəbiyyatda "milli dövlətçilik və suverenlik" anlayışlarını asanlıqla tarixin "arxivinə" vermək, milli dövlət fenomeninin böhran yaşadığını sübut etmək cəhdləri də, az qala, üstünlük təşkil edir. Bu çox həssas problemin bir yazı çərçivəsində əhatəli şərhi və izahı çox çətin olsa da, onun əsas müddəalarına dair öz münasibətimizi bildirməklə müəyyən təsəvvür yaradılacağına ümid edirik.

Şübhə yoxdur ki, qloballaşma prosesləri dövlətçilik, yəni milli dövlətçilik məsələlərinə ciddi sirayət edir və bu baxımdan prosesin mahiyyəti milli dövlət fenomeninə və milli suverenlik prinsipinə toxunulmadan düzgün anlaşıla bilməz. Müstəqilliyinin ikinci onilliyinə qədəm qoyduğumuz, milli dövlətçiliyimizin əsaslarının yaradıldığı bir dövrdə milli və bəşəri, lokal və qlobal amillərə, düzgün elmi əsaslara söykənən münasibətin formalaşdırılması çox mühüm məsələdir. XX əsrdə ən böyük tarixi nailiyyətimiz olan milli dövlətçiliyimiz və suverenliyimizin qədrini, dəyərini dərk

etdiyimiz bir dövrdə "milli dövlət" anlayışının böhran yaşaması, "milli suverenlik" prinsipinin "transformasiyası" kimi məsələlərin gündəmə gəlməsi, elmi ədəbiyyatda da tez-tez səslənməsi real təhlükədənmi xəbər verir? Bu baxışlarda həqiqət varMı? Hər tərəfdə milli qurumlara laqeydliklə müşayiət olunan qloballaşma, modernləşmə kimi səciyyələndirilən proseslərin getdiyi bir vaxtda, milli suverenliyin əvəzsiz, qeydşərtsiz dəyərə malik olması fikrinə köklənən xalqın ictimai şüurunda bu əks mahiyyətli məqamlar ziddiyyət və şaşqınlıq yarada bilərmi?

Dünyanın klassik modelinin dəyişdiyi və dünya sisteminin çoxtərəfli transformasiyaya uğradığı şəraitdə milli dövlətçilik ideyası, onun gələcək perspektivləri yeni baxış, yeni münasibət tələb edir. Qlobalizmlə regionalizm arasında qarşıdurma nəticə etibarilə milli dövlətçilik ideyasına öz təsirini göstərəcəkmi, demokratik rejimləri, milli suverenliyi qorumaq əzmində olan dövlətlərin varlığı təhlükəyə məruz qalacaqmı?

Dünyanın restrukturizasiyası heç bir regiondan yan keçmir, ölkələri, siyasi təşkilatları, ictimai hərəkatları əhatə edərək proseslərə öz təsirini göstərir. Əslində, bəşəriyyətin tarixi, müxtəlif mərhələlərdə siyasi, ideoloji, iqtisadi, hərbi maraqların təsiri və təzyiqi altında sərhədlərin pozulması müəyyən dövlətlərin məhv olması, yenilərinin yaranması tarixidir.

Bəlkə bugünkü proseslərə də "hər bir yeni çoxdan yaddan çıxardığımız köhnədir" prinsipi ilə yanaşmalıyıq. Sivilizasiyanın sürətli inkişafı ilə insanın gedən proseslərə adaptasiya imkanları arasındakı ziddiyyət bizdə bu şübhələri yaratmırmı? Suallar çox olsa da, bu bir həqiqətdir ki, dünyada gedən qloballaşma proseslərinin bütün regionlarda milli dövlətlərə göstərdiyi əsas təsirin nəticələri məlumdur: oxşar və fərqli cəhətlərə baxmayaraq, əsasən, milli dövlətlər öz səlahiyyət və funksiyalarının bir qismini "yuxarı" dövlətlərarası, beynəlxalq qurumlara, digər qisminin "aşağı" ərazi və bələdiyyə (munisipial) orqanlarına ötürür, dövlətin forma və prioritetləri dəyişir, demokratik meyillər artır. Bundan əlavə, iqtisadimaliyyə, informasiyakommunikasiya və s. tipli beynəlxalq qarşılıqh inteqrasiya sahələri milli suverenlik çərçivəsində baş verən hadisələrin ənənəvi sərhədlərini xeyli genişləndimıişdir. Qloballaşma milli dövlət suverenliyi müstəvisində prinsipial olaraq yeni bir məqam üzə çıxarır: tarixi olaraq yalnız dövlətin müstəqil qərar qəbul etdiyi dövlətdaxili məsələlərə ümumdünya, transnasional qurumların fəal nüfuzu, iri sərmayənin qlobal məkanda maneəsiz axını, hərbi-siyasi sahədə qərarların beynəlxalq hüquq-

normalarına əsaslanaraq qəbul edilməsi tələbi və s. suverenliyin ənənəvi başa düşülən mənasını və hüdudlarını "daraldır". Dünya iqtisadiyyatı və siyasətinin yeni, qeyridövlət subyektləri qismində çıxış edən qurumların ortaya çıxması ilə beynəlxalq maliyyə institutları və transnasional birliklərin getdikcə artan təsiri, dövlətlərarası sənədlərdən sərbəst axan informasiya amilini önə çəkən kütləvi informasiya vasitələrinin genişvüsətli inkişafı milli dövlətçiliyin fəaliyyət spektrində öz əkssədasını verir, onun çərçivəsinin daha aydın müəyyənləşdirilməsini şərtləndirir.

Milli dövlət qərarların qəbul edilməsi müstəvisində ortaya çıxan yeni beynəlxalq qarşıhqlı fəaliyyət subyektlərini nəzərə alaraq öz münasibətlərini bir neçə səviyyəyə yönəltməli və qaydaya salmalı olur. İlk növbədə də bu, "fövqəlmilli", dövlətlərarası struktur və qurumları ənənəvi hakimiyyət iyerarxiyasına ahəngdar şəkildə daxil etməklə yeni, özünəməxsus idarəetmə sisteminin formalaşması ilə müşayiət olunur.

Baş verən proseslər diqqətlə izlənilərsə, qloballaşmanın siyasi nəticələri sırasında milli dövlətin suverenliyinin nəinki məhdudlaşdırılması, əksinə, onun əməli, gerçək siyasi subyekt, həm də qlobal tamlığın təzahür etdiyi dünyada siyasi qərarların qəbul edilməsi sahəsinə ən mühüm, əvəzsiz həlqə kimi mühüm statusa malik olduğu aydınlaşır. Ənənəvi məlum olan hərbisiyasi flınksiyalar, siyasi, iqtisadi və ictimai fəaliyyətin hüquqi çərçivəsinin müəyyən edilməsi, qanunların icrasını diqqət mərkəzində saxlamaq və s. kimi geniş müstəviyə, qlobal cəmiyyət və dövlətin üzvü olmaqdan irəli gələn vəzifə, öhdəlik, məsuliyyət və tələblər də əlavə olunur. Qloballaşma milli dövlətin fəaliyyətinin tamamilə fərqli, yeni bir beynəlxalq mühitdə qurulmasını hər an diqqət mərkəzinə çəkir.

Bütün bunlar milli suverenlik prinsipinin "tənəzzülü", "aradan çıxması" kimi baxışlara təkan verir. Lakin bir məsələ var ki, burada söhbət suverenlik prinsipinin "köhnəlməsindən" deyil, dünya miqyasında baş verən köklü dəyişikliklərdən gedir. Yəni, milli suverenliyin (tarix boyu dəfələrlə olduğu kimi) başqa dö'vlətlər tərəfindən pozulması, ona qəsd edilməsi deyil, milli və bəşəri, qlobal və lokal tale və müstəvilərin birbirinə hədsiz yaxınlaşması və çulğaşması nəticəsində yerdəyişmə baş vermişdir: əgər əvvəllər dövlətin mənafeyi birinci, beynəlxalq birliyin tale və mənafeyi məsələsi ikinci (arxa planda) idisə, hazırda dünyanın ümumiqlobal taleyi və mənafeyi önə çıxmışdır. Başqa sözlə, bu iki aspektin birbirindən təcrid edilmiş şəkildə təhlili qeyri-realdır. Milli dövlətçiliyin maraq

və mənafeyi yalnız konkret mili dövlətlərin deyil, dünya birliyinin qəbul etdiyi beynəlxalq münasibət və hüquq normalarının nəzərə ahnması ilə gerçəkləşdirildiyi üçün yeni münasibətlərin bütün hallarda qlobal cəmiyyətin bilavasitə daxili problemi olduğu məlum olur.

Bu baxımdan qlobal cəmiyyət sistemində dövlətlərarası, beynəlxalq münasibətlərin əhəmiyyəti, aktuallığı getdikcə daha çox artır, lakin bunlar dövlətlərarası problem olmaqdan daha çox, qlobal cəmiyyətin ümumi daxili problemi kimi də qəbul edilir. Belə problemlərə beynəlxalq qurumların təsiri və marağı, onların həllində iştirakı, gedişatma "müdaxilə" etməsi, milli suverenlik prinsipinin yox olması, böhranı kimi deyil, ümumi tale və mənafeyin diktəsindən irəli gələn fəaliyyətin zəruriliyi kimi qəbul edilməlidir. Bu vəziyyet dünyadakı ümumbəşəri, qlobal problemlərin həllinə əhəmiyyətli təsir göstərə biləcek qlobal nüfüz mərkəzinin, vahid dünyanın qlobal siyasi sisteminin yaradılması prosesinin başlanğıc götürdüyünə dəlalət edir.

Məhz ona görə də bu "başlanğıc" prosesi, demək olar ki, "dünya lideri" olmaq, proseslərə təkbaşına müdaxilə etmək kimi cəhdlərlə müşayiət olunarsa, son nəticədə yeni "imperializm"in başqa təzahürü kimi vəziyyətin yaranmasına səbəb ola bilər. Bu da öz məntiqi sonluğunu yəni, bütün imperiyaların yaşadığı aqibətin yaşanılacağını zərurətə çevirir. Dünyanın yeni siyasi təşkilatlanma prosesinin getdiyi indiki dövrdə 78, yaxud 10-15 aparıcı ölkənin qərarlarının mühüm əhəmiyyətə malik olması, üstünlük təşkil etməsi heç də o demək deyil ki, bu ölkələr öz vəzifələrini "dünyanın iqtisadi, siyasi inkişafmın gedişini idarə və ona nəzarət edir, edəcək və etməlidir" kimi başa düşməlidirlər. 11 sentyabrda baş verən terror aktı göstərdi ki, nə bütövlükdə Qərb, nə də hər hansı bir ölkə "təklikdə" bu vəzifənin öhdəsindən gəlməyə qadirdir. Lakin eyni zamanda, dünyanın geniş vüsət alan inteqrasiya proseslərinin yönəldilməsinə bütövlükdə olmasa da, bir çox sahələrdə, bir çox məsələlərdə təsir göstərə bilən müəyyən qlobal qurum və təsisatların mövcudluğunu indiki reallıq zərurətə çevirir. Bəşəriyyətin ümumi taleyini gündəmə gətirən, onları məqsədəuyğun məcraya yönəldə biləcək müasir qlobal siyasi-iqtisadi təşkilatlanma sistemi formalaşma mərhələsində olduğu üçün dünya siyasəti mövcud imkanlarından çıxış edir. Bu sistemin məhz milli suverenlik prinsipinə, milli dövlətçiliyə nə dərəcədə həssas olması, onun, belə demək olarsa, taleyini, bir neçə on ildən sonra dünyanın gələcəyi üçün hansı müsbət nəticələri əldə edəcəyini bilavasitə müəyyən edir və edəcəkdir.

Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev qeyd edir ki, "müasir qloballaşma prosesləri inkişaf etməkdə olan cəmiyyətləri həyat tərzinin, davranış və hətta qəribə olsa da, təfəkkür formalarının qərbləşməsi dilemması qarşısında qoymuşdur. Qərbləşmə daxili siyasi determinantlara təsir göstərərək milli ənənələrin, adətlərin, bəzən də tarixin ağırlıq mərkəzini dəyişdirir... Qərbləşmə modernləşmə əlaməti altında baş verir. Onun açıq cəmiyyətlərə və avtarkiya cəmiyyətlərinə təsiri əhəmiyyətli dərəcədə fərqlənir. Əgər o, bəzi ölkələrdə siyasi və sosial-iqtisadi həyata yeniliklər gətirərək cəmiyyətin dayaqlarını təkmilləşdirirsə, digər ölkələrdə diffüziya baş verir, sonra da tarixən təşəkkül tapmış normalar və adətənənələr gizli şəkildə yox olub gedir

...Lakin qərbləşmə və onu müşayiət edən mədəni inqilab yeni dəyərlərin sahibləri üçün heç də həmişə uğurla nəticələnməmişdir. Bu zaman milli suverenliyin məhdudlaşması və sərhədlərin silinməsi tradisionalist və modernist qrupların mənafelərinin toqquşmasına gətirib çıxarır ki, bu toqquşma da qərbləşmə cərəyanlarının təsiri altma düşür. Bu halda müqavimət son dərəcə sərt olur və yeni səmərəli mədəni inqilabın mümkünlüyü heçə enir. İranda 1979-cu il inqilabına tradisionalistlərin və modernistlərin məhz bu cür toqquşması səbəb olmuşdur. Dövlətin və cəmiyyətin gələcəyi ənənə ilə qərbləşmə arasında qarşıdurmadan sonra dövlətin hansı yolu seçməsindən asılıdır".

Milli dövlətçilik dünyanın bütün dövlətlərinin təşkilatlanmasınm əsas prinsipi və modelidir. Milli dövlət dövlət suverenliyinin başlıca daşıyıcısı, qarantıdır. Milli suverenlik hər bir xalqın (millətin) öz ictimai-siyasi quruluşımu, ərazi bütövlüyünü, iqtisadi müstəqilliyini, mədəniyyətini və s. azad seçmək hüququ, yəni öz taleyini özünün həll etməsi hüququdur. Dövlət ali, son məqsəd ali dəyər olmalıdır, əkstəqdirdə o, suveren deyil, o öz tamlığının, müstəqilliyinin qarantı deyil, suveren hakimiyyətsiz milli dövlət yoxdur. Suverenlik vahid və bölünməzdir və xalqa məxsusdur. Hər bir dövlət suveren olmalı, suveren olmaq üçün isə özünü milli dövlət elan etməli, onun mövcudluğunu başqa ölkələr tanımalıdır, milli dövlətlərin sərhədləri toxunulmazdır və birtərəfli qaydada dəyişdirilə bilməz. İctimaisiyasi təşkilatlanmanm milli dövlətçilik modeli, bütün dövlətləri beynəlxalq münasibətlərin vahid bərabərhüquqlu üzvləri kimi müqayisə və qəbul etməyə imkan verir.

Qloballaşma dövründə qarşılıqlı təsir və inteqrasiya proseslərinin yüksək sürəti dövlətləri və onların birbirinə münasibətini sistemə çevirir.

Milli dövlətlərin hamısı yekdil olaraq bu sistemin dayanıqlı olması qayğısına qalmalıdır. Bu, heç də həmişə belə olmur. Qlobal dünya sisteminin mövcudluğuna təhlükə yaradan dövlətlərin fəaliyyəti kollektiv hərəkətlərlə pislənsə, onlar təcrid

olunsalar belə, millilik və millətçilik anlayışlarının məzmununun dəyişdirilməsi cəhdi, başa düşülməməsi, bilərəkdən və ya bilməyərəkdən dünya sisteminin tarazlığınm pozulması, sərhədlərin yenidən "biçilibtikilməsi" cəhdləri bu gün qloballaşan bəşəriyyətin taleyi üçün təhlükə yaradan amillər sırasında birincidir.

XX əsrin sonlarında dünyanın siyasi xəritəsində məlum hadisələrin baş verməsi nəticəsində müstəqil dövlətlərin saymın durmadan artmasına rəğmən, onların mövcud olduğu sərhədlərin toxunulmazhğı beynəlxalq münasibətlərin əsas prinsipi kimi bir daha möhkəmləndirildi, təsdiq edildi. Milli dövlətçiliyin və suverenlik prinsipinin müasir dünyanın ictimai-siyasi təşkilatlanmasının əsas modeli kimi məqbul sayılması "millilik" anlayışma unikal bir status vermişdir. Millilik hər hansı bir dövlətin legitimliyinin əsaslandırılması üçün birinci (və hələlik yeganə) şərt və vasitə kimi tanmmışdır. Lakin məhz bu unikallığın, özəl mahiyyətin təhrif olunması, başqa sözlə desək, anlayışın universallıq kimi aspektlə varislik və bağlılığının unudulması, yaxud bilərəkdən nəzərə almmaması bəzi üzdəniraq ideoloqların elmisiyasi cəhətdən qeyrireal, nəticələri baxımından təhlükəli sayılan xülya və niyyətlərinə rəvac vermişdir. XX əsrin sonlarına doğru dövlət suverenliyinin əldə olunması prosesini müşayiət edən sərhədlərin toxunulmazlığı prinsipinin kobud şəkildə pozulması, millilik və millətçi şovinizm anlayışlarının eyniləşdirilməsi nəticəsində ortaya çıxan silahlı separatizm və terror kimi hadisələr də paralel olaraq getmişdir. "Milli azadlıq hərəkatı" adlandırılaraq müstəqil dövlətimizin ərazi bütövlüyünü pozan, tarixdə dəfələrlə sərhədlərini genişləndirmək məqsədini güdən, millətdövlətlərin formalaşma prosesinin getdiyi XX əsrin əvvəllərində olduğu kimi, bu dəfə də baş qaldıran erməni millətçi şovinizmi yenidən məhz bu dalğada təşəkkül tapdı.. Əlbəttə, təəssüflə qeyd edə bilərik ki, ilk zamanlar öz siyasiideoloji doktrinalarını həyata keçirən Qərb dövlətləri, ümumiyyətlə, dünya ölkələri Dağlıq Qarabağ probleminə ilk vaxtdan adekvat mövqe və münasibət göstərmədi, müvafiq tədbirlər həyata keçirmədi, təcavüzkar ermənilərin tələbləri müdafiə olundu.

Dağlıq Qarabağ problemi ilə bağlı bu gün beynəlxalq təşkilatlarda qəbul olunan sənədlər, "soyuq siyasət buzu"nun əriməyə başlaması ulu ön-

dərimizin beynəlxalq siyasət meydanında atdığı uğurlu addımların nəticəsidir. Ötən illər ərzində ulu öndərimiz Heydər Əliyevin titanik əməyi və fəaliyyəti sayəsində dünyada Dağlıq Qarabağda baş verən proseslərin həqiqi mahiyyəti ilə tanış olmağa doğru böyük irəliləyiş getdi. Bu gün dünya ictimaiyyəti daha qətiyyətlə belə bir fikirdə yekdildir: separatçı rejimlər suverenlik və sərhədlərin toxunulmazlığı prinsipini pozmaqla qloballaşan dünya üçün ən böyük təhlükə mənbəyidir.

"Müstəqil" bəyan edilməsinə baxmayaraq, bugünə qədər dünyanın heç bir ölkəsi tərəfindən legitimliyinin tanınmaması, uydurma Dağlıq Qarabağ Respublikasının elə uydurma qurum olduğuna yaxşı dəlalət edir. Belə qurumlarla "strateji əməkdaşlıq" edən, onları silahla və s. ilə təmin edən, dəstəkləyən dövlətlər də öz gələcəklərini və təhlükəsizliklərini ciddi şübhə altma alırlar. Separatçı, terrorçu və diktat rejimlərin öz "azadlıqları" uğrunda mübarizə apardıqlarını söyləyərək qeyrireal siyasət yürüdən belə dövlətlərdə ictimai rəy və KİV bu cür siyasətin, dünya birliyi ailəsinin layiqli üzvü olmaq kimi mövqeyə ziyan gətirdiyinə dair geniş müzakirələrə təkan vermişdir. Silahlı separatizmə "ikili standartlar" münasibətindən yanaşmağın ziyanı da məhz qloballaşma prosesinin indiki mərhələsində özünü aşkar göstərməkdədir. Çünki qloballaşma "millilik" anlayışının "etnik millətçilik, etnokratiya, şovinistirqi" təfəkkür tərzi ilə qarışıq salındığmı qabarıq şəkildə üzə çıxarır. Millilik həm etnik, həm də bəşəri (universalqlobal) səviyyələri özündə ifadə etdirən bir fenomendir. Millilik etnik ekstremizm kimi başa düşüldükdə müxtəlif siyasiideoloji məqsədlərə xidmət edir, yaxud müxtəlif qüvvələr tərəfindən istifadə olunur. Bəşəriyyət millimədəni müxtəlifliyin vəhdətində təzahür edir və yalnız müxtəlifliyi deyil, vəhdəti də nəzərə alan millilik dünyanın gələcək inkişafmın pozitiv potensialı rolunu oynaya bilər.

Burada bir daha milli dövlət və milli suverenliyin "böhranı və yox olacağı"na dair elmi ədəbiyyatda söylənilən fikirlərə qayıdaq.

Millətin ictimai, siyasi, mədəni birlik kimi bəşəriyyətin mövcudluğu üçün ən dayanıqlı, optimal birlik olması fikrinin vaxtı keçdiyini irəli sürən baxışlar nəyə əsaslanır" Bu sualm cavabı ictimaiyyətə qismən məlumdur: qloballaşmanm unifikasiya kimi başa düşülməsi, informasiya telekommunikasiya texnologiyalarının "sərhədləri" anlayışının məzmununu dəyişməsi, qlobal ünsiyyət mexanizmlərinin səviyyəsinin artması bəzi alimlərin "millilik və millət" anlayışlarının "köhnəlməsi" qənaətinə gəl-

məsini şərtləndirmişdir. Lakin bu, bir daha qeyd edirik ki, səthi, dərinliyə varınayan təhlilin nəticəsidir.

Millilik dövlətçiliyin təməl prinsiplərindən biri kimi yalmz siyasi, ictimai deyil, həm də mənəvimədəni, ruhi çalarları özündə birləşdirən bir fenomendir. Milliliyin təməlində milli ruh və milli şüur qərar tutur və bu, ictimai, siyasi, iqtisadi, mənəvi, fəlsəfi, estetik, dini baxış və təsəvvürlərin məcmusunu əks etdirir. Dünyanın qlobal inteqrasiya səviyyəsinin artması, sıxlaşması gedişində "millilik" anlayışı necə yox ola bilər? Əksinə, gedən proseslər millətlərin mənəvi müqavimət qüvvəsini artırır. Hər bir insan üzvü, təmsilçisi olduğu mədəniyyətin daşıyıcısı kimi "millimədəni genotip"ə malik olduğu tək, hər bir dövlət, ölkə də həmin insanların birliyindən ibarətdir. Hər hansı bir mədənimilli yaddaşa malik olmayan insan olmadığı kimi, bu amillərin fövqündə duran ölkə və ya dövlətin də mövcudluğu qeyrireal fikirdir. Buna görə də qloballaşmanın bir yeganə qlobal düşüncə və deməli, bir "yeganə qlobal dövlət" yaradacağı fikri absurd bir fikirdir. Qlobal cəmiyyət, qlobal dövlət sistemi yalnız müxtəlif unikal dövlətlərin inteqral cəmindən formalaşa, onların vəhdətindən yarana bilər. Formasiya statusundan asılı olaraq ölkələrin iyerarxik quruluşunu formalaşdıran planetar federasiya perspektivsiz ideyadır, utopiya xarakterli proqnozdur. Dünya birliyi, ümumplanetar sivilizasiya abstrakt kateqoriyadır. Onun sərhədi, rəsmi institutları, müxtəlif resurslar üzərində nəzarət funksiyası yoxdur. Əslində, dünya birliyi dövlətlər və xalqların ümumi maraq, vahid məqsəd naminə müxtəlif münasibətlər qurmaq istəyidir. Lakin bu birliyə nə dərəcədə nail olunub? Teyyar de Şarden yazırdı: "Bəşəriyyətin bütövləşməsindən böyük qüvvə alınması gözlənilir. Lakin bu qüvvənin həmişə idarə edilə biləcəyi sual altındadır".

Bu da həqiqətdir ki, qloballaşma müxtəlif dövlətlərin könüllü, ya könülsüz dialoq və ünsiyyətinə, lokal çərçivələrdən çıxaraq yaxınlaşmasına şərait yaradır, bunu zərurətə çevirir. Məhz bu zərurətin birtərəfli şişirdilməsi, milli dövlətçilik və suverenliyin gələcəyinə dair birtərəfli mövqeləri ortaya çıxarmışdır.

Dünyada baş verən hadisələr milli dövlətçilik maraqlarını "ləğv etmir". Məsələnin mahiyyəti, əslində, başqa müstəvidədir. Tarixdən məlumdur ki, dünya inkişafının keçid, dəyişiklik adlandırılan məqamlannda dövlətçilik və onun maraqlarının zamanın tələblərinə uyğun qurulması problemi bütün ölkələr qarşısında durmuşdur. Hazırda dünya dövlətləri məhz belə bir transfor-

masiya çağını, keyfiyyət dəyişikliyini yaşayırlar. Belə dövrlərdə hər bir ölkə dəyişikliklərin labüdlüyü meyli ilə milli dövlətçilik maraqlannm bu dəyişikliklərə uyğun çevik mexanizmini yaratmaq zərurətini həll etməli olur. Əgər "milli dövlətçilik" deyilirsə, burada həm "millilik", həm də "dövlətçilik" mənafelərinin vəhdətdə iştirak etdiyini unutmaq olmaz. Məlumdur ki, müxtəlif siyasi şəraitdə müxtəlif qüvvələr millilik və dövlətçilik anlayışlannı birbirindən öz məqsədlərinə uyğun təcrid edir, ictimai şüurun bu mövzuya həssas münasibətini manipulyasiya edirlər. Dövlətçiliyin maraq və mənafelərini arxa plana keçirərək milli maraqlar adı ilə öz şəxsi niyyətlərini həyata keçirirlər. Bütün hallarda millilik və dövlətçiliyin həssas və kövrək ahəngi, bütövlüyü nəzərə almmadıqda nəticələr istənilən kimi olmur.

İlk baxışdan oxşar problemləri birdəfəlik həll etmiş kimi görünən ABŞda da bəhs edilən mövzu diqqət mərkəzindədir. ABŞın dövlət katibi Kondoliza Rays Amerikanm milli maraqlarını dəqiq müəyyənləşdirməyən, beynəlxalq qurumlara daha çox diqqət yetirən, milli maraqları "humanitar beynəlxalq maraqlarla" əvəz edən siyasətin dövlətçilik mənafeyinə zidd olduğunu söyləmişdir. Tarixdən bu da məlumdur ki, hər hansı bir dövlət məhz dəyişikliklərə çevik uyğunlaşma siyasətini yürütməklə, yeniliklərin bütün müsbət potensialmdan səmərəli istifadəni təmin edən struktur və mexanizmlər yaratmaqla millilik və dövlətçiliyin ideal balansını, strateji perspektivini də təmin edə bilmişlər.

Ümummilli liderimiz Heydər Əliyevin dövlətçilik siyasətinin bu baxımdan nəticələri günümüzün reallığı və ən böyük uğurlarınıızdır. Dövlət müstəqilliyinin bütün sahələrdə möhkəm təməllərinin qurulması ilə bərabər, Azərbaycanın dünyaya tanıdılması, siyasi sabitliyin təmin edilməsi, iqtisadiyyata aparıcı beynəlxalq təşkilatların maliyyə və sərmayə qoyuluşunun cəlb edilməsi kimi müdrik siyasət dünya inkişafının mövcud meyillərini nəzərə almaqla həyata keçirilmiş, Azərbaycanın suverenlik statusunun mövcud problemlərin həlli mexanizmində hər an qətiyyətlə vurğulanmışdır. Ulu öndərimiz dəyişən dünyanın indisi və gələcək perspektivlərinə adekvat cavab verən dövlətçilik siyasətinin əsas istiqamətlərinin strategiyasını Azərbaycana irs qoyub getmişdir.

Ölkəmizin geosiyasi mövqeyini, təbii ehtiyatlarını, insanların potensialını nəzərə alaraq onu müasir dünyada baş verən proseslərin, beynəlxalq fəaliyyətin əsas subyektlərindən biri kimi inkişaf etdirmək bu irsin tərkib hissələrindən biridir. Azərbaycan bu illərdə demokratik, hüquqi, dünyəvi

dövlət kimi dünyada özünütəsdiq dövrünü yaşamış və ona nail olmuşdur. Bu gün qlobal cəmiyyətin siyasi, iqtisadi, mədəni, ictimai və s. sahələrində inteqrasiyanın vacibliyi barədə Prezident İlham Əliyev qeyd edir: "Dünyada hər şey qarşılıqlı bağlılıq təşkil edir. Bunu bütün ölkələr nəzərə almahdır. Dünya cəmiyyətinə biganə qalmaq, ona sayğısızlıq göstərmək heç bir yaxşı nəticəyə gətirib çıxara bilməz. Bəli, bu reallıqları biz nəzərə almalıyıq. Lakin öz taleyimizi yalnız özümüz həll edirik".

Müstəqil, qüdrətli dövlətin formalaşması onun iqtisadi firavanlığının təmin edilməsi ilə bilavasitə əlaqədardır. Müstəqillik illərində reallaşdırılan, bu gün dönmədən davam etdirilən iqtisadiyyatın modernləşdirilməsi xətti ölkəmizin qlobal beynəlxalq əmək bölgüsündə öz yerini tutması üçün böyük perspektivlər açır.

Ənənəvi və modernləşmiş sivilizasiyaların qovuşuğında yerləşən ölkəmiz qlobal cəmiyyətə inteqrasiya və millimədəni özünəməxsusluq yolunu seçmişdir. Azərbaycan dinamik, müstəqil siyasət yeridərək, yeni dünya nizamınm yaranmasında fəal iştirak edərək qlobal dünyanın tərkib hissəsinə çevrilir. Başqa ölkənin ərazi bütövlüyünə qəsd edən bir qurumun milli suverenlik prinsipini pozduğuna, dünyanın sülh və təhlükəsizlik yolunda maneələr yaratdığına dünya dövlətlərini inandırmağa çox çətinliklə nail olur. Millətçi separatizmin müasir dünyanın qlobal reallığına deyil, vaxtı keçmiş sərsəm xülyalara xidmət etdiyi aydın olur. Tarixin heç bir dönəmində dünya birliyinə inteqrasiya və milli təhlükəsizliyin, suverenliyin təmin olunması kimi ilk baxışda paradoksal əks görünən iki proses bu qədər çulğaşmamışdır. Milli mənafe anlayışı həm dünyanın müasir inkişaf meyillərinə cavab verən, həm də baş verən proseslərə dinamik adekvat fəaliyyətlə qoşulmağı təmin edən siyasətin məzmun və mahiyyətini əks etdirir. Dünyanın getgedə aydın sezilən vəhdətinin formalaşması universalizm ideyalarının birtərəfli şərhinə səbəb olmuşdur. Bəşəriyyətin varlığınm onun çoxçalarlı müxtəlifliyindən kənarda təsəvvüredilməzliyi fikri hər dəfə unudulanda tarix özü bu baxışlara düzəliş edir, onlan sınağa çəkir. Milli özünəməxsusluğu arxa plana keçirərək bütün dünyanı modernləşdirməyin mümkünlüyünə dair mövqelər XX əsrdə özünü doğrultmadı. Məlum oldu ki, bütün dövrlərdə universallıq unikallıqla vəhdətdə götürüldükdə bəhrələrini verə bilir.

İnnovasiyalara çevik reaksiya verilməsi ilə dəyişikliklər gedişində varisliyi təmin edən sabit, dayanıqlı amillərin sintezi inkişafı daha uğurlu məcraya yönəldir. Bütün bu proseslər içərisində bulunan bəşəriyyət Ko-

pernik və Qalileyin elmdəki çevrilişlərindən az əhəmiyyətli olmayan dəyişikliklər ərəfəsindədir. Akademik Vemadski yazırdı: "Biz zəif ruhlu insanlann yaşadığı

böhranı deyil, minillikdə bir dəfə olan elmi fikirdəki dəyişikliklərin çətinliyini yaşayırıq".

Bəşəriyyət seçim qarşısındadır. Ona verilən seçim azadlığından düzgün istifadə etmək imkanı onun gələcək varlığmı təmin edən əsas şərtdir. E.Fromm yazırdı: "İlk dəfə tarixdə insan nəslinin fiziki varlığının xilası onun ürəyinin radikal dəyişməsindən asılı olacaq".

Müasir dünyanın sosial, iqtisadi, siyasi inkişafmın magistral meyillərinin təhlil edilməsi qloballaşma prosesləri ilə sıx əlaqədardır. Bütün planeti əhatə edən bu proseslərdə ölkəmizin yerini, rolunu, iştirak formalarını və imkanlarını bilmək üçün baş verən proseslərdə dünyanın inkişaf etmiş ölkələrinin beynəlxalq inteqrasiya xüsusiyyətlərinə, dəyişiklik və islahatlara necə nail olduqlarına bələd olmaq vacibdir. Bu gün informasiya texnologiyaları sahəsində inqilab həmişə mövcud olan qarşılıqlı yaxınlaşma proseslərinə görünməmiş vüsət, dinamizm vermişdir. Bəhs etdiyimiz mövzu kontekstində qarşıya çıxan suallar başqa cür də səslənir. Qarşısıalınmaz görünən bu prosesdə lokal regional müstəvidə gedən inteqrasiya, yoxsa qlobal müstəvidə gedən unifıkasiya meyilləri üstünlük edəcəkdir?

Şübhəsiz ki, lider ölkələr öz sosial, siyasi, iqtisadi, milli inkişaf modellərini yerdə qalan ölkələrə qəbul etdirməyə səy göstərmə bu, həmin ölkələrin siyasətinin həm müsbət, həm də mənfı, zəif tərəfini təşkil edir. Bu, bərabərhüquqlu tərəflərin könüllülük əsasında qarşılıqlı zənginləşmə istəyinin ifadəsi olmalıdır. Lakin o da məlumdur ki, heç də bütün ölkələr təklif edilən yeni, mütərəqqi (və ya başqa) model, standart, bilik və texnologiyaları asanlıqla mənimsəyə və ya gerçəkləşdirə bilmirlər, istənilən halda milli və bəşəri potensialın ahəngdar inkişaf nöqtələrinin müəyyənləşdirilməsi birmənalı deyil, mürəkkəb prosesdir.

Müstəqillik illərində ölkəmizin iqtisadiyyatma birbaşa sərmayə qoyuluşu, birgə beynəlxalq layihələrlə uzunmüddətli əməkdaşlığın təməlinin möhkəmləndirilməsi, təbiidir ki, öz növbəsində, davranış stereotiplərinin, işgüzarlıq mədəniyyətinin standartlarının dəyişməsini, insanlar və ölkələr arasında inam və etibann artmasını tələb edir. Məlumdur ki, qlobal əməkdaşlıq da, qlobal rəqabət və yanş da qeyrisəmərəliliyin, uğursuz fəaliyyətin istənilən nəticə və təzahürlərinə qarşı banşmaz münasibətdədir. Bu gün inkişafm liderləri ola bilən ölkələr məhz bu şərtlərə əməl etdiyi, qlobal me-

yilləri sezdiyi və ona qoşula bildiyi üçün həmin mövqeləri əldə etmişlər.

Dünya inkişafının müasir real meyillərinin "bizim üçün" də işləməsini həm Azərbaycanın ümumi iqtisadi potensialı, həm geosiyasi mövqeyi, həm ulu öndərimizin yaratdığı siyasi sabitlik vəziyyəti, həm də Prezidentimiz İlham Əliyevin yeritdiyi dinamik, fəal milli dövlətçilik siyasəti təmin edə bilər və edəcəkdir.

Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev hesab edir ki, "qloballaşma dövründə milli suverenliyin məhdudlaşmasından biz inteqrasiya prosesinin əlverişli meyillərinin milli məkanda assimilyasiyası üçün imkan kimi istifadə etməli, ardıcıl, ölçülübbiçilmiş və əlaqələndirilmiş siyasət yeritməliyik. Bu, xüsusilə sivilizasiyalı daxili siyasi məkanm formalaşması proseslərinə aiddir. Həmin məkanın əsasını ölkənin inkişafına, onun iqtisadiyyatının modernləşməsinə və müasir Azərbaycan cəmiyyətinin mənəviəxlaqi əsaslarının möhkəmlənməsinə kömək edə biləcək qüvvələr təşkil etməlidir... Qazanılmış nailiyyətlərin dərk edilməsi, azərbaycançılıq konvergensiyasında və konfessiyalararası dialoqda ifadə olunmuş milli "mən"in qorunub saxlanması və varisliyinin təmin edilməsi güclü və müstəqil dövlət quruculuğunda birinci dərəcəli vəzifədir. 1993-cü ildən sonra Azərbaycanda görülmüş işlər aydın şəkildə sübut edir ki, milli inkişaf strategiyası sabit və təhlükəsiz siyasi və iqtisadi inkişafa, milli suverenliyin və sosiomədəni məkanın dəyişməzliyinin təmin olunmasına yönəlmiş öncül vəzifələrin dərk edilməsinə əsaslanır".

Bu gün yenidən milli dövlətçilik, milli suverenlik kimi prinsiplərin məzmununu baş verən köklü dəyişikliklər kontekstində təhlil etmək əvəzinə onlann "vaxtının keçdiyini" söyləmək də (müasir politoloji ədəbiyyatda) milliliyin "irqi şovinizm" kimi başa düşülməsi təhrif olunmuş mövqedir. Bəşəriyyət milli ilə bəşəri, lokal və qlobal, unikal və universal qatların kövrək ahəngini təmin etməklə əbədiyaşar bir nizam modeli formalaşdıra bilər. Azərbaycan öz nadir, ortaq millimədəni sərvətləri və dövlətçilik təcrübəsi ilə belə nizam modeli üçün ömək rolunu oynaya biləcək bir məkandır.

**Rəbiyyət ASLANOVA,**
**Milli Məclisin deputatı,**
**fəlsəfə elmləri doktoru**

*15-16 fevral, 2005*

# QLOBALLAŞAN DÜNYADA AZƏRBAYCANIN YERİ

***Hər bir tarixi dövrün öz əsas problemi var və bu problem həmin zaman kəsiyinin başlıca ziddiyyətini əks etdirir. XX əsrin ikinci yarısı üçün belə bir problem iki dünya sisteminin qarşıdurması idi və az qala ümumbəşəri fəlakətlə nəticələnəcəkdi. XXI əsrin birinci yarısında sürətlənən qloballaşma prosesləri və böhranlardan keçərək postsovet məkanının təşəkkülü fonunda sivilizasiyaların qarşılıqlı əlaqəsi başlıca problem kimi ortaya çıxdı. Bəşəriyyətin taleyi bu problemin necə həll olunacağından asılıdır. Məhz buna görə yeni dünya nizamını, dinamik şəkildə dəyişən həyat tərzini tədqiq edən alimlər üçün effektiv dövlətçiliyin yeni modelinin axtarışı xüsusilə vacibdir.***

***Bu tədqiqatlar kontekstində tanınmış alim, siyasi xadim, fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin "Azərbaycan: qloballaşma dövrünün tələbləri" kitabı diqqəti cəlb edir.***

Müəllif milli tarixşünaslıqda ilk dəfə olaraq qloballaşmanın ziddiyyətli tendensiyalarının təşəkkülü dövründə Azərbaycan dövlətinin inkişaf yolunu araşdırmağa, SSRİnin dağılmasından sonra cəmiyyətin və dövlətin böhranlı vəziyyətini izah etməyə cəhd göstərmişdir.

Kitabın müqəddiməsində fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev vurğulayır ki, "Azərbaycan yeni zəmanənin tələblərinə etinasızlıq göstərə, hər bir dövlətin, millətin, etnosun və hətta şəxsiyyətin mənafelərinə toxunan proseslərdən kənarda qala bilməz" və bununla bərabər xatırladır ki, "qloballaşmanın müsbət məqamları ilə yanaşı, xeyli mənfi cəhətləri də var". Söhbət kütləvi qırğın silahları istehsal etmək üçün material və texnologiyaların nəzarətsiz şəkildə daşmmasından, dövlətlərin birbirinə qarşı ərazi iddialarının meydana çıxmasından, nəticədə münaqişələrin və müharibələrin alovlanmasından, dözümsüzlük və etnik təmizləmələr doğurmağa qadir millətçiliyin və dini ekstremizmin artmasından, texnogen və ekoloji fəlakətlər təhlükəsindən, narkobiznesdən, beynəlxalq terrorizmin güclənməsindən və s. gedir.

Beləliklə, yeni dünya nizamımn təşəkkülü perspektivini nəzərə almaqla müəllif belə bir fakt üzərində israr edir ki, "bu gün formalaşmaqda olan Azərbaycan cəmiyyətinin mahiyyəti, milli siyasətlə, milli təhlükəsizlik və milli inkişaf konsepsiyaları ilə müəyyənləşdirilir". Onun fikrincə (və bu fikirlə razılaşmamaq çətindir), yalnız iki başlanğıcın  bir tərəfden, inkişaf və yeninin yaradılması, yeniliklərə səy göstərilməsi, digər tərəfdən isə keçmişlə varisliyin qorunub saxlanması  qarşılıqlı əlaqəsi və sıx çuğlaşması olduqda sosial tarixdən və ictimai-tarixi prosesdən danışmaq olar.

Kitabın birinci fəslində fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev dağılma dövründə sovet cəmiyyətinin xarakterini tədqiq edərək göstərir ki, bu cəmiyyətin inkişafdan qalması təkcə iqtisadi yox, həm də ciddi sosial səbəblərlə şərtlənmişdi. Müəllifin haqlı olaraq qeyd etdiyi kimi, SSRİ-nin süqutu bir sıra ciddi problemlər, o cümlədən "Qərbin və 1994cü ilədək sovet dövlətinin əhatə etdiyi Avrasiya məkanınm birləşməsi nəticəsində tradisionalist sivilizasiya ilə texnogen sivilizasiyasının toqquşması problemini ortaya çıxarmışdır".

Yuxarıda göstərilən sivilizasiyaları müqayisə edərkən müəllif Yaponiya və CənubŞərqi Asiyanm bir sıra digər ölkələrinin istisna təşkil etdiyini nəzərə çarpdırır və bunu onunla əsaslandırır ki, sözügedən ölkələr diniideoloji dayaqlarının özünəməxsusluğu sayəsində tam tradisionalist əsasda uğurla modernləşə bilmişlər. Bu fikri tanınmış yapon siyasətçisi Y.Nakasonenin sözləri də təsdiqləyir: "...Məhz ən qədim zamanlardan bəri öz eyniyyətini qoruyub saxlayan yapon mədəniyyəti ilə Meydzinin islahatlarından sonra ölkəyə gətirilən Qərbi Avropa mədəniyyəti arasında ideoloji uyarlığa nail olunması xalqın inamının əsasını təşkil edir". Bu nəticələri təhlil edən müəllif qarşısına demokratik dövlətçiliyin formalaşması kontekstində müasir Azərbaycanın inkişafmın bəzi əsas problemlərini nəzərdən keçirmək kimi mürəkkəb vəzifə qoyur. Postsovet ölkələrinin hamısı üçün ümumi olan totalitar keçmişi ətraflı şəkildə nəzərdən keçirən professor Ramiz Mehdiyev suah yerində qoyur: qeyri-Qərb tradisionalist cəmiyyətlərində demokratiya mümkündürmü və əgər mümkündürsə, Azərbaycan üçün kimin təcrübəsi daha məqbuldur?

Bu suala cavab tapmaq üçün müəllif kitabında sovet cəmiyyəti həyatının bütün əsas sahələrini (siyasi, iqtisadi, sosial və s.) yenidən təhlil edir və belə bir qənaətə gəlir ki, iki böhran  sosial-iqtisadi  və mənəvi-əxla-

qi böhranlar bir cəmiyyət çərçivəsində üstüstə düşmüşdür və özünəməxsus şəkildə qarşılıqlı surətdə güclənərək vəziyyəti son dərəcə mürəkkəbləşdirmiş, ona dönməz proses xarakteri vermişdi. Dövlət idarəçiliyi mexanizminin pozulması, iqtisadi durğunluq, kütləvi şüur oriyentirlərinin dəyişməsi, demək olar, bütün sovet respublikaların da formasiya irəliləyişlərinə təkan vermişdi. Onların hər biri siyasi xətti öz bildiyi kimi transformasiya edir, iqtisadi qaydanı dəyişdirir, dövlət təsisatlarını və ictimai təsisatları modernləşdirirdi. Ona görə də 1990-cı illərin əvvəllərində baş vermiş və Azərbaycan cəmiyyət həyatınm dəyişməsinə səbəb olmuş siyasi prosesləri araşdıran müəllif belə bir nəticə çıxarır ki, həmin proseslər kortəbii və son dərəcədə qeyri-müəyyən xarakter daşıyırdı: "SSRİ ilə bağlı olan hər şeyin əleyhinə qeyzlə çıxış edən yeni dalğa liderləri neobolşevizmin qızğın məddahları təsirini bağışlayırdılar: eyni bolşevik dözümsüzlüyü, nə vardısa, hamısına eyni nifrət, özlərinin də dəqiq təsəvvürü olmayan nə isə təzə bir şey qurmaq üçün yenə də hər şeyi uçurub dağıtmaq arzusu". Müəllif bu dövrü xronoloji ardıcıllıqla təhlil edir və göstərir ki, cəmiyyətin alternativ sistemə kəskin ehtiyacı Azərbaycanda qeyriformallar hərəkatmm meydana çıxmasını və güclənməsini şərtləndirdi.

"Mərkəz"in Azərbaycana, ilk növbədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibətdə ədalətsiz mövqeyinə, həmçinin ölkədə mərkəzpərəst hakimiyyətin hərəkətlərinə xalqın təbii hiddəti xalq hərəkatmı boğurdu və müəllifın fikrincə, bu hərəkat əvvəlcə mitinq ehtirasları əsasında kortəbii şəkildə formalaşmış və sonralar dövlət əleyhinə çıxışlara çevrilmiş kütləvi şüurun təşəkkülündə müsbət rol oynamışdır. Özü də yeni siyasi liderlər xalq çıxışların dan hakimiyyət uğrunda mübarizədə məharətlə istifadə edirdilər.

Bütün bunlarla bərabər, müəllifin qeyd etdiyi kimi, yeni siyasi xadimlərin bir çoxu üçün bazar iqtisadiyyatı və demokratiya anlayışları daha çox hansısa yeni ideoloji abstraksiyadan başqa bir şey deyildi. Yalmz şəxsi və qrup maraqlarını güdərək siyasətdə hakim mövqe tutmaq niyyəti, yeni demokratik dövlət qurmaq və vətəndaş cəmiyyəti təsisatları formalaşdırmaq konsepsiyasının işlənib hazırlanması zərurətinə laqeydlik postsovet dövründə Azərbaycan dövlətçiliyinin inkişafı prosesinin ləngiməsinə gətirib çıxarınaqla yanaşı, ölkəni kəskin daxili qarşıdurmaya və vətəndaş müha-

ribəsinə sürüklədi. Müəllif ölkədə cərəyan edən ictimai-siyasi proseslərin nəticəsi kimi belə bir acmacaqlı faktı diqqətə çatdırır ki, 1990-cı illərin əvvəllərində Azərbaycan suverenlik əldə edib bundan xalqın rifahı naminə istifadə etməyi bacarmayan, digər ölkələrin simasında müttəfiqlik dəstəyi tapa bilməyən dövlət təsiri bağışlayırdı.

Professor Ramiz Mehdiyev hesab edir ki, həmin dövrdə Azərbaycanın fərdi seçimə və şəxsi məsuliyyətə əsaslanan davranış modellərinin və sosial tənzimləmə mexanizmlərinin fəaliyyət göstərdiyi, insanın, onun huqüq və azadlıqlarının isə ali dəyər olduğu modern cəmiyyətə keçidi sual altında idi. Hazır nümunələrin, başlıca olaraq Türkiyənin və Qərbin korkoranə təqlidi ölkənin inkişafmın onsuz da çətin olan keçid mərhələsini mürəkkəbləşdirirdi. Amma müəllifin nikbinliklə qeyd etdiyi kimi, bu əhvaliruhiyyələr səbatsızlığmı nümayiş etdirərək tarixə qovuşur. Bu gün cəmiyyətdə ciddi dəyişikliklər baş verir. Tədqiqatçılar Azərbaycanın dünya birliyinə inteqrasiyasınm əsas amillərini müəyyənləşdirməli, habelə Azərbaycan cəmiyyətinin texnogen sivilizasiyaya tədricən daxil olmasının perspektivlərini nəzərə almaqla kütləvi şüurda kommunist stereotiplərinin dəyişməsi probleminin həlli yollarını tapmalıdırlar. Lakin müəllifin vurğuladığı kimi, bütün bunlar ən yaxşı milli ənənələrin və milli mədəniyyətin Qərbi Avropa nailiyyətləri ilə sintezi əsasında həyata keçirilməlidir.

Müəllif qloballaşmanın tərəfdarları ilə əleyhdarları arasında ziddiyyətlərə də toxunur. Sonuncuların fikrincə, sivilizasiyaların qovuşması heç də o demək deyil ki, bütün ölkələr və sivilizasiyalar Qərbin həyat səviyyəsinə çatacaq. Planetimizin resursları buna kifayət etmir. Ancaq bu zaman belə bir təhlükə yaranır ki, kasıb ölkələr və sivilizasiyalar iqtisadi cəhətdən inkişaf etmiş ölkələr tərəfindən yeni müstəmləkəçiliyin obyektinə çevrilə bilər. Bu da, öz növbəsində, təbii olaraq birqütblü dünyanın təsdiqinə gətirib çıxarar. Sivilizasiyaların qovuşması prosesi dərinləşdikcə, qarşıdurma ifrat formalar alar.

Bütün bu təhlükəli nəticələrlə üzləşməmək üçün Azərbaycan elə bir modernləşmə yolu seçməlidir ki, onun mahiyyəti sosial sazişin təkmilləşdirilməsindən, milli iqtisadiyyatda islahatlar keçirilməsindən və biliklərə əsaslanan yeni təfəkkürün və yeni cemiyyətin yaradılması dövrəsinin başa çatmasından ibarət olsun. Kitabın "Azərbaycanın modernləşdirilməsi:

inkişaf yolları" adlanan ikinci fəslində fəlsəfə elmləri doktoru Ramiz Mehdiyev bu problemlərin müxtəlif dövlətlərin Türkiyə, Hindistan, bir sıra Asiya, Afrika, Latın Amerikası ölkələri və keçmiş Sovet İttifaqının inkişaf yollarını təhlil etməklə nəzərdən keçirir.

Azərbaycanın modernləşdirilməsi məsələsinə qayıdaraq müəllif yazır ki, müasir mərhələ 1994-cü ildən aparıcı beynəlxalq neft şirkətləri ilə "Əsrin müqaviləsi"nin imzalanmasından başlayır. Bu müqavilə milli iqtisadiyyatın inkişafına nəinki sadəcə olaraq güclü təkan verdi, həm də onun keyfiyyətcə yeni vəziyyətini müəyyən etdi. Lazımi hüquqi bazanın formalaşdırılması və Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisinin başlanması, Ramiz Mehdiyevin fikrincə, Azərbaycanın iqtisadi gələcəyinə nikbin baxmağa əsas verir.

Müəllifin belə bir mühüm arqumenti ilə razılaşmamaq olmur ki, neft bumunun hüdudlarını nəzərə almaqla Azərbaycanda milli iqtisadiyyatın inkişafı üçün yeni mənbələrin axtarışı zəruridir. Asiya və Latm Amerikası ölkələrinin səhvlərini təkrarlamamaq üçün təhsil, elm və texnoloji innovasiyalar sahələrinin güclü dəstəyi vacibdir.

Modernləşdirmənin yollarını nəzərdən keçirərkən digər amillər arasında müəllif Azərbaycanda məqbul ideoloji konstruksiyanın formalaşdırılmasına xüsusi diqqət yetirir. Müasir dövrdə Avropada meydana gəlmiş və bu gün yeni müstəqil dövlətlərdə milli siyasi məkanm formalaşdırılmasının ideya əsası kimi istifadə edilən əsas ideoloji cərəyanların mahiyyətinə ciddi ekskurs edən müəllif elə bir nəticəyə gəlir ki, neokonservatizm liberalizmin və konservatizmin sosializm və demokratiya ideologiyalarının elementləri ilə zənginləşmiş sintezi kimi bu gün Azərbaycan üçün ən məqbul ideoloji konstruksiya hesab edilə bilər. Müəllif nümunə kimi ümummilli liderimiz Heydər Əliyevin dövlət idarəçiliyini misal gətirir. Bu idarəçiliyin nadir xüsusiyyəti ondan ibarətdir ki, ümummilli lider "müstəqil, demokratik Azərbaycanın qurulması işində bu ideoloji simbiozdan (qarşıhqlı gücləndirmə və qismən də qarşılıqlı zərərsizləşdirmə) çox böyük məharətlə istifadə etmişdir".

Müəllif Yeni Azərbaycan Partiyasının 21 noyabr 2001-ci ildə keçirilmiş II qurultayında Azərbaycan Prezidentinin söylədiyi nitqə diqqət yetirir. Bu nitqdə XXI əsrdə ölkənin ideologiyasının forma və məzmunu dəqiq səciyyələndirilmişdir: "Elə nəsil yetişdirməliyik ki, təkcə bizim vax-

tımızda yox, bizdən sonra da onlar Azərbaycanın xatalara düşməsinə imkan verməsinlər. Onlar düz yolla, doğru yolla, milli hissiyyatlar yolu ilə... getməlidirlər". Kitab müəllifinin fikrincə, ölkə rəhbərliyi 1993-cü ilin ortalarından etibarən məhz belə bir yola həm Qərbin, həm də Şərqin tarixi nailiyyətləri ilə zənginləşmək əsasında cəmiyyətin rifah halının yüksəldilməsi, güclü və müstəqil Azərbaycan qurmağa qadir milli çoxluğun formalaşdırılması yoluna qədəm qoydu.

Müəllif azərbaycançılığın mahiyyətinin açılmasını çox vacib hesab edir. O bu anlayışı təhlil edərkən yazır ki, bu gün azərbaycançılıq bütün tərkib hissələri ilə birlikdə milli ideologiyanın proobrazı kimi nəzərdən keçirilə bilər. Bununla bərabər, yaddan çıxarmaq olmaz ki, ölkədə yaşayan bütün etnosların həmrəyliyi sabit, tarixi cəhətdən perspektivli cəmiyyətin başlıca şərtlərindən biridir.

Kitabın "Qloballaşdırma dövründə dövlət və cəmiyyət" adlanan üçüncü fəslində yeni minillikdə Azərbaycanın inkişafı ilə bağlı problemlər araşdırılır. Müəllif qloballaşmanın mənasına toxunaraq qeyd edir ki, hazırda bu proses üç yöndə beynəlxalq birliyin obyektiv inkişaf meyli, beynəlxalq idarəetmə layihəsi və nəzəri konsepsiya kimi təzahür edir.

Qərb və Rusiya tarixşünaslığının çoxsaylı mənbələrini təhlil edərək Ramiz Mehdiyev daha çox belə bir fıkrə tərəfdar çıxır ki, qloballaşma dövlətlərin genişmiqyaslı qarşılıqlı əlaqəsinə, onların qarşılıqlı asılılığının dərinləşməsinə doğru aparır. Məhz buna görə qloballaşma dövründə milli inkişaf vəzifələrini uğurla həll etmək üçün Azərbaycan Avropaya sıx inteqrasiyanı dövlət siyasətinin əsas prioritetlərindən biri kimi müəyyənləşdirir. Müəllif bu prioritetin təsdiqi kimi Azərbaycan Prezidenti İlham Əliyevin Avropa Şurası Parlament Assambleyasının sessiyasında (29 aprel 2004-cü il) çıxışına istinad edir. Həmin sessiyada dövlətimizin başçısı bir daha bəyan etmişdir ki, "bu gün bizim strateji seçimimiz Avropaya, Avropa ailəsinə, Avropa strukturlarına inteqrasiyadır".

Bununla bərabər, müəllif xatırladır ki, Äzərbaycan qlobal inteqrasiyanın passiv iştirakçısı deyil, əksinə, ölkəmiz fəal regional oyunçudur. Bunu Azərbaycanın Avropa Birliyi, Avropa Şurası, ATƏT, NATO ilə fəal əməkdaşlığı da sübut edir.

Professor Ramiz Mehdiyevin fikrincə, Azərbaycanın dünya informasiya-kommunikasiya texnologiyalarının işlənib hazırlanması işinə qoşulma-

sının mühüm cəhətlərindən biri hər hansı dövlətin və cəmiyyətin effektli inkişafının vacib elementi olan yüksək səviyyəli təhsildir. Bununla əlaqədar türk, keçmiş sovet, Amerika və digər təhsil proqramlarının üstüstə yığılması Azərbaycan üçün problem yaratmışdır. Proqramların müxtəlifliyi şəraitində tələbələr bu və ya digər təhsil müəssisəsində məcburi olmuş yeni ideoloji tərbiyənin girovuna çevrilmişlər. Bununla bağlı müəllif belə bir məqamı xüsusi vurğulayır ki, bütün qloballaşan məkanda olduğu kimi, Azərbaycanda da təhsil sistemi keyfiyyətcə yeni texnologiyaların tətbiqinə əsaslanmalı, tədrisin yüksək səviyyəsini tətbiq etməli, öz ölkəsinin əsl vətənpərvərlərini yetişdirməlidir.

Şübhəsiz, qloballaşmanın milli məkanlara ən ciddi təsiri dövlətin daxili siyasi səviyyəsində baş verir. Bununla bağlı Azərbaycandan danışarkən professor Ramiz Mehdiyevin qeyd etdiyi kimi, inamla təsdiqləmək olar ki, ölkəmizin kütləvi şüurunun totalitar formasının daha açıq, transparent formaya keçidi praktik olaraq baş tutmuşdur. Müəllif kitabında Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşdırılması məsələsini prioritet məqsəd kimi qoyur. Əvvəllər milli siyasifəlsəfi tədqiqatlarda vətəndaş cəmiyyətində dialoqun vacibliyi, cəmiyyət daxilində ziddiyyətlərin aradan qaldırılmasına yönəlmiş yeni tendensiyaların formalaşdırılması məsələləri qoyulmamışdır. Professor Ramiz Mehdiyev vurğulayır ki, iqtidarın və müxalifətin qarşılıqlı münasibətləri yalnız sivilizasiyalı forma və metodlara, dialoqa əsaslanmalıdır.

Bir çox demokratik ölkələrin təcrübəsi göstərir ki, kəskin sıçrayışlarla müşayiət olunan bütün islahatlar, təfəkkürün yenidən formalaşması praktik olaraq qeyri-effektivdir. Onlar daha çox keçid prosesinin ləngiməsinə səbəb olur, çünki həyat fəaliyyətinin yeni forma və strukturları mövcud forma və strukturlarla münaqişəyə girir və cəmiyyət buna qeyriadekvat reaksiya göstərir. Diqqətəlayiq haldır ki, professor Ramiz Mehdiyevin kitabında əksini tapmış bu müddəalar iqtidarla müxalifət arasında hazırkı dialoqun inkişafının müsbət tendensiyalarını qabaqlamışdır.

"İnsan sifətli sosializm"in, yenidənqurmanın, aşkarlığın ideoloqlarının irəli sürdüyü bir çox ssenarilər, müəllifin fikrincə, adi söz oyunundan başqa bir şey olmamış və sistemin iflasına gətirib çıxarınışdır.

Kitabın "Müstəqil Azərbaycanın siyasi və iqtisadi strategiyası" adlanan dördüncü fəslində bu problemləri araşdırarkən müəllif ölkənin xarici si-

yasət oriyentirlərini dəqiq təsvir edir, dünya neft bazarında Xəzər regionunun əhəmiyyətini müəyyənləşdirir.

Azərbaycanın iqtisadi siyasətinə gelincə, o, üç başlıca prinsipə bazar reqabətinə, iqtisadi idarəetmənin bütün sahələrinin liberallaşdırılmasına və bütün mülkiyyət formalarının plüralizminə əsaslanır. Müəllif əmindir ki, bütün bu tendensiyalar güclü və effektli dövlətçiliyin təşəkkülünə gətirib çıxaracaq.

Kitabın "Hakimiyyət və müxalifət: inkişaf naminə rəqabət" adlanan beşinci fəsli yenilik baxımından tədqiqatm ən mühüm komponentlərindəndir. Müəllif diqqəti müasir demokratik quruluşun reallıqlarına, siyasi dialoqun iki subyektinin iqtidar və müxalifətin mövcudluğuna yönəldir. Bununla yanaşı, Azərbaycanda siyasi təşkilatların yaranması tarixini müfəssəl təhlil edən müəllif təəssüflə qeyd edir ki, müxalifətin lazımi siyasi mədəniyyətinin, konstruktivliyinin olmaması, iqtidarla yaradıcı dialoqa girmək istəməməsi hakimiyyətlə qarşılıqlı münasibətlərdə dağıdıcı problemə çevrilmişdir. Professor Ramiz Mehdiyev hesab edir ki, yalnız bir halda partiyalar plüralizmin prinsiplərini, çoxluğun rəyini və məsuliyyətini rəhbər tutan təşkilatlar kimi inkişaf etməyə başlayanda cəmiyyət həyat qabiliyyətli olur. Gələcek demokratik Azərbaycanın inkişafının dəqiq layihələrini təklif edən praqmatik, realist siyasətçilərindir.

Kitabın beşinci fəsli ölkəmizdə demokratik dəyərlərin təşəkkülü və siyasi oriyentirlərin formalaşması prosesinə həsr olunmuşdur. Bu fəsil "Demokratiya dövlət və cəmiyyətin inkişafının prioriteti kimi" adlanır.

Latm Amerikası və Cənubi Avropa ölkələrində "uğurlu demokratiyalar"m bərqərar olması sxemini açan müəllif belə bir nəticəyə gəlir ki, həmin ölkələrin bir çoxunda islahatçı hökumətlər öz cəmiyyətlərinin iqtisadi problemlərini həll edə bilməmişlər. Bu isə sosiumun kütləvi mənfı reaksiyası və növbəti seçkilərdə əvvəlki hakim qüvvələrin nümayəndələrinin hakimiyyətə qayıdışı ilə nəticələnmişdir. Lakin sonuncular irtica yolunu tutmamışlar. Bütün mənfi proqnozların əksinə olaraq, onlar vəziyyəti sabitləşdirməyə və yeni siyasi sistemi tarazlaşdırmağa səy göstərmişlər. Müəllifin doğın olaraq göstərdiyi kimi, bu sxem bütün vəziyyətlər üçün universal deyil, Azərbaycan da daxil olmaqla, keçid dövrü yaşayan bütün ölkələrdə cərəyan edən analoji proseslərlə oxşar cəhətlərə malikdir.

Dünyada əvvəllər və indi mövcud olan demokratiya modellərini nəzərdən keçirən müəllif göstərir ki, onlar universal modellər kimi tətbiq oluna bilməz. Sovet dövründə 70 il demokratik prinsiplərdən ayrı düşmüş cəmiyyət bir andaca yenidən qurula bilməz. Keçid dövrü üçün güclü prezident hakimiyyəti, tənzimlənən iqtisadiyyat və s. səciyyəvidir. Əlbəttə, bu, yalnız cəmiyyətin inkişafınm müvəqqəti mərhələsi ola bilər. Çünki yalnız demokratik rejimin konsolidasiyası mərhələsində hakimiyyətin öz üç qolu (icraedici hakimiyyət, qanunverici hakimiyyət və məhkəmə hakimiyyəti) arasında optimal bölgüsü baş verə bilər.

Müəllifın belə bir mühakiməsi mübahisə doğurmur ki, Azərbaycan dövlətin və cəmiyyətin demokratikləşdirilməsini öz inkişafının prioriteti kimi müəyyənləşdirən, çətinliklərə və maneələrə baxmayaraq, bu məqsədə doğru mərhələmərhələ və tədricən gedən ölkələrdəndir.

Kitabda zəmanəmizin ən xarizmatik siyasi liderlərindən biri olan Heydər Əliyevin şəxsiyyətinin rolu "qırmızı xətt" kimi keçir. Müəllif Heydər Əliyevin qarşıya qoyub həyata keçirdiyi əsas məqsədi  güclü, müstəqil, demokratik və dünyəvi dövlət qurmaq məqsədini bir daha gənc nəslə izah etməyi özünə borc bilir. Bu məqsəd azərbaycanlıların bütün nəsilləri üçün prioritet olmalıdır. Heydər Əliyev kimi dahi siyasətçinin həyatdan getməsi Azərbaycan üçün böyük itkidir. Amma professor Ramiz Mehdiyevin haqlı olaraq qeyd etdiyi kimi, hakimiyyətə yeni formasiyalı siyasətçinin gəlişi və Prezident İlham Əliyevin milli maraqları dönmədən müdafiə etməsi Azərbaycanın düşmənlərinə ölkəni dəqiq müəyyənləşdirilmiş iqtisadi və siyasi tərəqqi yolundan döndərməyə imkan verməmişdir.

Professor Ramiz Mehdiyev buna sübut kimi Fransada çıxan "La Tribune" qəzetindən sitat gətirir: "Bir il ərzində öz ölkəsini Avropaya tamamilə yaxınlaşdırmaq səylərinə görə İlham Əliyevi alqışlamaq lazımdır. İlham Əliyevin Avropa Birliyi ilə əməkdaşlıq istiqamətində göstərdiyi səylər öz bəhrəsini vennişdir. Qafqazşünas politoloqların bir çoxu hesab edir ki, Qafqazm və Mərkəzi Asiyanın digər ölkələrinə nisbətən Azərbaycan AB-yə daha yaxındır".

Bu gün yeni Prezidentin dəyərlər sisteminin iki tərkib hissəsi güclü dövlət və onun modernləşdirilməsidir. Müəllif buraya yeni təfəkkürün formalaşdırılmasını da əlavə edir. Ölkə Prezidenti İlham Əliyevin üzərinə düşən vəzifələr bununla da bitmir. Dövlətimizin başçısı Qarabağ proble-

mi, Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi, milli iqtisadiyyatın gücləndirilməsi və onun, sözün həqiqi mənasında, bazar iqtisadiyyatma çevrilməsi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, milli siyasi məkanm təkmilləşdirilməsi, iqtidarla müxalifət arasında sivil münasibətlərin yaradılması və s. məsələləri həll etməyi qarşıya məqsəd qoymuşdur. Bunlar həlli heç də asan olmayan problemlərdir. Ancaq fəlsəfə elmləri doktoru Ramiz Mehdiyevin dəqiq qeyd etdiyi kimi, dövlət başçısı yeniliyi ənənələrlə hannonik şəkildə birləşdirərək Azərbaycanı inamla çiçəklənməyə və firavanlığa doğru aparır.

Tədqiqatın sonunda dünya nizamının gələcəyi və bu nizamda Azərbaycanın yeri barədə fikirlərini bölüşərək müəllif qeyd edir ki, Azərbaycan Avropanın Şərqdəki qapısı və eyni zamanda, iki mədəniyyətin, iki sivilizasiyanın tərkib hissəsi olmaqla, birlik harın  oniyası yaradır, həm Qərbin nailiyyətlərini və azadlıq ideallarını, həm də Şərqin tarixini və ənənələrini özündə ehtiva edir. Cənubi Qafqazm iqtisadi və siyasi cəhətdən ən sabit dövləti olan Azərbaycan Qərblə Şərqin qovuşuğunda yerləşməklə dünya məkanına böyük sivilizasiyaların birbirinə qarşılıqlı surətdə nüflızetmə mədəniyyətini bəxş edir. Eyni zamanda, dövlət kimi təşəkkülünün bütün çətinliklərinə baxmayaraq, Azərbaycan yeni dünya nizamında, qlobal transformasiyalar şəraitində öz milli varlığmı qoruyub saxlaya bilmişdir.

Hesab edirik ki, professor Ramiz Mehdiyevin bu kitabı elmi tədqiqatın dərinliyinə və praktik əhəmiyyətinə görə fimdamental akademik əsər kimi böyük dəyərə malikdir.

**Hicran HÜSEYNOVA,**
**BDU-nun professoru,**
**siyasi elmlər doktoru**

*24 may, 2005*

# QLOBALLAŞMA VƏ DÖVRÜN TƏLƏBLƏRİ

***Hər bir ölkə bir tərəfdən, öz daxili inkişaf qanunauyğunluqları, bölgə ilə bağlı spesifik cəhətlərlə səciyyələnirsə, digər tərəfdən, beynəlxalq miqyaslı hadisələrdə iştirak dərəcəsi ilə fərqlənir. Dünyada gedən qlobal və ümumbəşəri prosesləri vaxtında və düzgün dəyərləndirərək onlara elmi münasibət bəsləyə bilməkdən çox şey asılıdır.***

***Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin bu günlərdə Azərbaycan dilində işıq üzü görmüş "Azərbaycan: qloballaşma dövrünün tələbləri" adlı monumental kitabı ("XXI Yeni Nəşrlər Evi", 2005, 464 s.) ölkəmizin daxili və xarici siyasətinin qlobal proseslər kontekstində araşdırılmasına həsr olunmuşdur. Kitab keçmişin dərsləri, bugünün reallıqları və gələcəyin perspektivlərindən, ictimai-siyasi quruculuq sahəsində qarşıda duran vəzifələrdən bəhs edir.***

Əsərdə köhnə ideologiyadan imtina edərək yeni iqtisadi münasibətlərə və demokratik dəyərlər sisteminə keçən Azərbaycanın dövlət quruculuğu praktikası, sosial-iqtisadi və mədənimənəvi inkişaf yolu qloballaşma kontekstində nəzərdən keçirilir. Bununla əlaqədar olaraq qarşıya yalnız bir ölkə miqyasında deyil, bütün MDB məkanında aktual olan bir sıra problemlərin ümumi qanunauyğunluqlarını müəyyənləşdirmək və Azərbaycandakı konkret təzahürləri bu ümumi meyillərlə əlaqəli şəkildə araşdırmaq təşəbbüsü göstərilir.

Əsas vəzifə quruluşların və ideologiyaların əvəzlənməsi ilə sonuclanan keçid dövründə ortaya çıxan daxili və xarici amilləri vaxtında və düzgün nəzərə almaqdan ibarətdir. Əvvəllər belə keçidin praktik nümunəsi olmadığından onun elmifəlsəfi araşdırılması istiqamətində də heç bir iş görülməmişdir. Buna görə də hər bir ölkə quruculuq praktikası ilə yanaşı, nəzəri tədqiqatlara, yaranmış yeni ictimai-siyasi situasiyanın elmi əsaslarla dəyərləndirilməsinə böyük ehtiyac hiss edir.

Milli ideologiya və onun fəlsəfi əsasları işlənib hazırlanmasa, heç bir fəaliyyət sahəsində uğur qazanmaq mümkün deyil. Ona görə də təsadüfi

deyildir ki, Azərbaycanda müasir dövlət quruculuğuna rəhbərlik edən ümummilli liderimiz Heydər Əliyev, eyni zamanda bu quruculuğun ideya əsaslarını da formalaşdırmışdır. Bu da təsadüfi deyildir ki, professor Ramiz Mehdiyev öz kitabını bu böyük şəxsiyyətin nurlu xatirəsinə həsr etmişdir.

Keçid dövründə milli dövlət quruculuğu ictimai gerçəkliyin dərin elmi təhlili ilə yanaşı, planetar miqyasda özünü göstərməkdə olan bir sıra tendensiyaların da üzə çıxarılmasını tələb edir. Heç bir ölkədə ictimai-siyasi proseslər başqalarını eynilə təkrarlamır. Müxtəlif tarixi mərhələlərin də hərəsinin öz xüsusiyyəti var. Bununla belə, elmi idarəetmə və strateji planlaşdırma spesifik xüsusiyyətlərdən abstraksiya olunaraq ictimai inkişafın ümumi inkişaf meyillərinin üzə çıxarılmasını və onların nəzərə alınmasını tələb edir. Professor R.Mehdiyev bu məqsədlə qədim yunan fəlsəfəsindən başlayaraq çağdaş ideoloji təlimlərədək demokratiya və liberalizmin ideya qaynaqlarını sislemli şəkildə nəzərdən keçirir. Kitabda məhz bu elmi-fəlsəfi baza üzərində müasir dövrdə dünyada gedən proseslərin köklərini üzə çıxarmaq və Azərbaycanın gələcək inkişafını ümumi meyillərə, alt qatdakı axınlara qarşı qoymaq deyil, onlarla həmahəng surətdə qurmaq, təmin etmək məqsədi güdülür.

Kitabın "SSRİ-nin dağılması: yeni reallıqlar və yeni imkanJar" adlanan birinci fəslində müstəqillik əldə etmiş dovlətlərin sonrakı siyasi-iqtisadi inkişaf yolu lap təməldən öyrənilir, bu məqsədlə ilk növbədə SSRİ dövründə başlanmış "yeniləşmə" meyillərinin təbiəti, hərəkətverici qüvvələri araşdırılır. Belə ki, SSRİ-nin dağılması heç də sadəcə siyasi bir akt deyildi. Bu proses ideologiyaların və alternativ sosial-iqtisadi quruluşların mübarizəsi şəraitində gedirdi. Ona görə də kitabda böhranın sosial-iqtisadi kökləri ilə yanaşı, ideya siyasi və mənəvi aspektləri də tədqiq olunur. Müəllif göstərir ki, siyasi sahədə böhran özünü idarəetmə sükanınınləngərlərində, qrup mənafelərinin qarşıdurmasından doğan kəskin siyasi münaqişələrdə göslərirdi. İqtisadi sahədə - istehsal sferasının müasir texnoloji rəqabətə tab gətirə bilməməsi, ənənəvi kooperativ əlaqələrin qırılması, kütləvi işsizlik, habeiə maliyyə və struktur sahələrini əhatə edən kompleks böhran başlanmışdı ki, bunun da nəticəsində əhalinin böyük əksəriyyətinin həyat səviyyəsi kəskin surətdə aşağı düşmüşdü. Böhran sosial sahədən də yan keçməmiş, köhnə sosial qruplar və təsisatlar marginallaşmış, şəxsiyyət dəyərlər sistemindən ayrı düşmüşdü. "Nəticədə iki boh-

ran sosial-iqtisadi və mənəvi-əxlaqi, mədəni böhranlar bir cəmiyyət çərçivəsində üstüstə düşmüşdür və özünəməxsus şəkildə qarşılıqlı surətdə güclənərək vəziyyəti son dərəcə mürəkkəbləşdirmiş, ona dönməz proses xarakteri vermişdi" (səh. 46). Sovetlər İttifaqının böhranı və onun səbəbləri ona görə araşdırılır ki, müstəqillik əldə etmiş MDB ölkələri sovetlərdən miras qalan cəmiyyəti, sosial-iqtisadi sistemi necə müalicə etmək lazım olduğunu müəyyənləşdirə bilsinlər.

Kitabın ikinci fəslində müasir mərhələdə Azərbaycanın inkişaf yollarının nəzəri və praktik aspektləri işıqlandırılmış, ictimai həyatımızda baş verən siyasi-iqtisadi və mədənimənəvi proseslərin dərin elmi təhlili verilmişdir. Burada tədqiqat obyekti bir tərəfdən Azərbaycanın real ictimai gerçəkliyi olsa da, digər tərəfdən lokal hadisələri düzgün qiymətləndirə bilmək üçün dünya siyasətşünaslığının, əsas ideoloji sistemlərin və bu sahədə elmi-nəzəri təlimlərin geniş, müqayisəli təhlili aparılır. Bu fəsildə həmçinin modernləşmə yoluna qədəm qoyan ölkələrin nə kimi problemlərlə üzləşdiyi açılıb göstərilir. Yaponiya, Türkiyə, Hindistan, Malayziya və s. ölkələrin praktikası nəzərdən keçirilir. Azərbaycanda modernləşmə prosesinin sovet və postsovet dövrləri müqayisə olunur. Klassik ənənəvi cəmiyyətin, habelə qərarlaşmış ideoloji sistemin tədricən dağılması və yeni sosial-iqtisadi münasibətlər sisteminə keçidin qanunauyğunluqlarının öyrənilməsi müəllifin əsas məqsədlərindən biridir. Burada müəllif ümumi qanunauyğunluqların təhlilindən konkret bir ölkədəazərbaycanda onların təzahür xüsusiyyətlərinin öyrənilməsinə keçir. Heydər Əliyevin rəhbərliyi ilə həyata keçən müstəqil dövlət quruculuğunun ideoloji rakursu ön plana çəkilir. Xüsusi təzahürə ümumi tendensiya kontekstində baxılır və praktikada həyata keçirilənlərin hansı nəzəri modelə uyğun olduğu müəyyənləşdirilir: "Azərbaycanda inkişaf ideologiyası sintetik, yeniliklərə açıq, konstruktiv vəzifələri yerinə yetirən ideologiya formalaşmağa başladı. Bu ideologiyanı hansısa ideoloji konstruksiyaya, ideya siyasi sistemə aid etməkdən söhbət gedərsə, çox ehtimal ki, onu neokonservatizm kimi səciyyələndirmək olar" (səh. 86). Daha sonra müəllif müasir ideoloji sistemlərin müqayisəli təhlilini verərək hansısa bir modelin xalis şəkildə gerçəkləşməsinin qeyri-mümkün olduğunu göstərir. O, liberalizmin də sosialfəlsəfi köklərini açaraq iqtisadi münasibətlərdə onun rəhbər tutulmasını qanımauyğun hesab edir. Liberalizm şəxsiyyətin müstəqilliyini, cəmiy-

yətə və dövlətə münasibətdə onun ilkinliyi ideyasını ön plana çəkir ki, bu da Azərbaycanda dövlət quruculuğu praktikasında istifadə olunan məqamlardan biridir. Müəllif belə qənaətə gəlir ki, liberalizmlə konservatizmin sintezi olan, sosialist və demokratik ideyalarla tamamlanan neokonservatizm indi ölkəmiz üçün daha məqbul bir ideoloji konstruksiyadır. Heydər Əliyev ideyaları ilə zənginləşən, Azərbaycan gerçəkliyinin xüsusiyyətləri nəzərə alınmaqla konkretləşən bu təlim azərbaycançılıq konsepsiyası ortaya çıxmışdır. "İdeya-nəzəri və siyasi baxımdan azərbaycançılıq və neokonservatizm bir-birilə sıx bağlıdır. Zənnimizcə, azərbaycançılıq coğrafi məkan baxımından neokonservatizmin milli variantı, onun prinsip və ideyalarının Azərbaycanın konkret şəraitdə təcəssümüdür. Onları təşkil edən başlıca prinsiplərin təhlili əsasında yəqin edirik ki, bu ideoloji sistem daxilən vəhdətdədir" (səh. 115).

"Qloballaşma dövründə dövlət və cəmiyyət" adlı üçüncü fəsildə müəllif müasir Azərbaycanın çox mühüm bir məsələdə etməli olduğu seçim üçün nəzəri baza hazırlayır. Bu seçim ilk növbədə qloballaşma ilə milli müəyyənlik arasında seçimdir. Müəllif burada da öz ənənəsinə sadiq qalaraq hansısa bir qütbə üstünlük vermək deyil, dialektik vəhdət mövqeyindən çıxış edir.

Qloballaşma heç də bəzilərinin məhdud miqyasda təqdim etdikləri kimi, ancaq ekoloji problemlər, energetik və demoqrafik böhran konteksti ilə məhdudlaşdırılmayıb, həm də planetar təfəkkürün formalaşması və ictimai-siyasi proseslərin ümumbəşəri idealla uzlaşdırılması zərurəti kimi nəzərdən keçirilir. Qeyd edilir ki, müasir qloballaşma üç yöndə beynelxalq birliyin obyektiv inkişaf meyli, beynəlxalq idarəetmə layihəsi və nəzəri konsepsiya kimi daha aydın şəkildə təzahür edir.

İctimai-siyasi təşkilatlanmanın alternativ ideoloji aspektləri kimi konservatizm, liberalizm, sosializm, neokonservatizm və s.in ideya əsasları üzə çixarılmadan çağdaş Azərbaycanda hansı dəyərlər sisteminə üstünlük verilməsi məsələsini optimal şəkildə həll etmək mümkün deyil. Professor R.Mehdiyev bəşəriyyət qarşısında duran problemləri və milli dövlətlərin qarşısında duran vəzifələri araşdırmaqla yanaşı, hər bir ölkənin xüsusiyyətlərinin də nəzərə alınmasını zəruri hesab edir və Azərbaycan üçün belə bir optimal ictimai-siyasi inkişaf modelinin elmi konseptual şərhini verir.

Qloballaşmanın təsiri özünü bütün sahələrdə ticarət, siyasət, ətraf

mühit, hüquq, idman, dəb və s. büruzə verir. Sanki dünyanın bütün bölgələrinin taleyi daha çox dərəcədə birbirindən asılı vəziyyətə düşür. Belə bir şəraitdə müstəqil qalmaq imkanları da, təbii ki, məhdudlaşır: "Qloballaşma yeni qlobal siyasiiqtisadi ümumiliyin əsasını qoymaqla milli sərhədləri nəzərə çarpmadan dağıdır, dövlətin milli suverenliyinin dayaqlarını sarsıdır. Milli sərhədlər hansısa yarımşəffaf arakəsmələrə çevrilir" (səh. 151). Qloballaşma şəraitində milli dövlətlərin funksiyaları əhəmiyyətli dərəcədə dəyişir. Beynəlxalq hüquq normalarının milli dövlətin hüququ üzərində dominantlığı, dünya bankının standartlaşdırıcı tövsiyələri, transmilli şirkətlərin monopolist iqtisadi siyasəti nəticəsində ölkələr arasındakı fərqlər getdikcə daha çox dərəcədə qalxır, onların fəaliyyəti, elə bil ki, ortaq məxrəcə gətirilir. Kitabda qloballaşmanın yaratdığı bu vahid siyasi-iqtisadi fon kontekstində hər bir dövlətin, ilk növbədə keçid mərhələsində olan MDB ölkələrinin üzərinə düşən vəzifələrdən bəhs edilir. Konkret olaraq Azərbaycanın qloballaşma mərhələsində yeritdiyi siyasətin elmi təməlləri təhlil edilir.

Əsərdə qloballaşma adı altında sanki "vahid", "ümumbəşəri", əslində isə Qərb dəyərlərini və ənənəviəxlaqi prinsiplərini ifadə edən dəyişikliklərin timsalmda qərbləşmə ideologiyasının həyata keçirildiyi qeyd olunur (səh. 203). Qərbləşmə meylinə, bir növ, reaksiya kimi milli ıdeologiyada mədənimənəvi aspektlərin gücləndiyini göstərən müəllif milli özünüdərk proseslərinin modernləşmə ilə yanaşı inkişaf etdiyini vurğulayır və onları bir prosesin iki fərqli tərəfi kimi təqdim edir. "Modernləşmə" və "qərbləşmə"nin fərqləndirilməsi özlüyündə böyük əhəmiyyət kəsb edir. Hazırda Qərb bu iki anlayışm kütləvi şüurda eyniləşməsinə çalışır. Yəni inkişafın, yeniləşmənin əsas hərəkətverici qüvvəsi Qərbdir.

Kitabın dördüncü və beşinci fəsilləri müstəqil Azərbaycanın siyasi və iqtisadi strategiyasının hazırlanması və bu məsələlərdə hakimiyyətlə müxafılət arasında olan fikirayrılıqlarının təhlilinə həsr olunmuşdur. Daha doğrusu, müəllif hakimiyyətin həyata keçirdiyi kursun müxalifət üçün, görünür, qaranlıq qalan tərəflərini işıqlandırır və geniş şərh edir.

Əsərdə Azərbaycanın xarici siyasəti tarixi aspektdə deyil, fəlsəfi-politoloji aspektdə nəzərdən keçirilir. Daha doğrusu, bu siyasətin təməl prinsipləri, strateji məqamları ön plana çəkilir. Müxtəlif siyasi situasiyalarda həmişə milli mənafedən çıxış edə bilmək, Azərbaycanın maraqlarını üs-

tün tuta bilmək üçün vahid strateji xətt tələb olunur. Müəllif göstərir ki, milli xarici siyasət dövlətin ümumi siyasətinin davamı, milli təhlükəsizliyin mühüm vasitəsi olmalı, Azərbaycanın bütün dövlətlərlə hər iki tərəf üçün faydalı əməkdaşlığmı təmin etməlidir. Daha sonra müəllif Azərbaycan dövlətçiliyinin təşəkkülü və inkişaf xüsusiyyətlərini, daxili və xarici siyasət sahəsində aparılan islahatları nəzərə almaqla milli xarici siyasətin əsas mərhələlərini qeyd edir.

Uğurlu xarici siyasət səmərəli iqtisadi siyasətlə tamamlanır. Liberallaşma və bazar iqtisadiyyatına əsaslanan keçid prosesi müxtəlif ölkələr üçün müxtəlif formalarda həyata keçir. Azərbaycanda bu prosesə ləngidici təsir göstərən əsas amil Dağlıq Qarabağ münaqişəsidir. Məhz bu amilə görə Azərbaycan öz xarici siyasətində iqtisadi maraqlarla yanaşı, böyük dövlətlərin bölgədə maraqlarını da nəzərə almağa, beynəlxalaq proseslərə müstəqillik əldə etmiş digər dövlətlərə nisbətən daha böyük diqqət yetirməyə, iqtisadiyyatın siyasi aspektlərini ön plana çəkməyə məcburdur. Amma buna baxmayaraq, Azərbaycanın iqtisadi sahədəki uğurları da günbəgün artır. Professor Ramiz Mehdiyev Azərbaycanda iqtisadiyyatın inkişafının bu sahədə yeridilən düzgün siyasətlə əlaqədar olduğunu göstərir; bazar rəqabətini, iqtisadiyyatın ayrı-ayrı sahələrinin valyuta bazarı, ticarət əlaqələri, bankmaliyyə sistemi və s.in liberallaşdırılmasını, mülkiyyət prülarizmini iqtisadi inkişafı şərtləndirən əsas amillər hesab edir.

Hakimiyyət və müxafilətin münasibətləri məsələsində müəllif dialoq tərəfdarı kimi çıxış edir, bir şərtlə ki, müxalifət də konstruktiv mövqedə dayansın. Bu fəsildə həmçinin indiki müxalifətin hakimiyyətdə olduğu dövrdə göstərdiyi səriştəsiz və dağıdıcı fəaliyyət konkret faktlarla açılıb göstərilir. Müxalifətin, əslində, demokratik ənənələrdən çox uzaq olması, bir çox yüksək dəyərləriazadlıq və demokratiya ideallarını ancaq mitinqlərdə, çıxışlarda dilə gətirmələri, özlərinin isə hətta partiyadaxili münasibətlərdə də avtoritar mövqedə durduqları qeyd olunur. Konkret faktlardan çıxış etsə də, müəllif müxalifətin fəaliyyətini də elmi ümumiləşdirmələr əsasında şərh edir, onun uğursuzluqlarının köklərini açıb göstərir: "Müxalifətin milli siyasi məkanda mövqe tutmaq cəhdində məruz qaldığı uğursuzluqların köklərini nəinki keçmişdə, həm də yuxarıda sadalanan səbəblərə görə fəaliyyət qabiliyyəti olmamasında axtarınaq lazımdır. Ölkə iqtisadiyyatı inkişaf etdikcə, əhalinin həyat səviyyəsi və sosial

vəziyyəti yaxşılaşdıqca insanların müxalifət düşərgəsindən qanunauyğun axını baş verir, partiyaları onsuz da kasad olan intellektual və insan resursları tamamilə tükənir" (səh. 331). Kitabın son fəslində demokratiyanm dövlət və cəmiyyətin inkişafında prioritetliyi nəzəri planda əsaslandırıldıqdan sonra müəllif Azərbaycanda demokratikləşdirmə siyasətinin əsas aspektlərini şərh edir. Müəllif göstərir ki, demokratik dövlət quruculuğunun doğrudan da böyük üstünlükləri var, lakin o, korkoranə surətdə deyil, elmi-nəzəri səviyyədə dərk edilməklə tətbiq olunmalıdır. Bunun üçün ictimai şüurun da tədricən inkişaf etməsinə nail olmaq lazımdır. "Xalqın demokratik dəyərlərin ucuzlaşması və təhrif edilməsinin qarşısını almağa imkan verən yüksək mənəvi və mədəni səviyyəsi olmadan demokratiya mümkün deyildir" (səh. 378). Daha sonra müəllif Azərbaycanda demokratiyanın mümkün olan, məqbul sayılan və məqbul olmayan, gözlənilməyən modelləri barədə söhbət açır, Azərbaycan üçün ən optimal demokratiya modelinin elminəzəri şərhini verir. Bu fəsildə professor R.Mehdiyev "azadlıq", "demokratiya", "xalq idarəçiliyi", "özünüidarə", "vətəndaş cəmiyyəti" anlayışlarının da ideya mənbələrini araşdırır və Azərbaycanda vətəndaş cəmiyyətinə keçid prosesinin qanunauyğunluqlarını təhlil edir.

Əlbəttə, konkret bir ölkədə gedən çox mürəkkəb, spesifik prosesləri təhlil edərək ümumi meyilləri aşkara çıxarınaq və onu mövcud elminəzəri konsepsiyaların işığmda nəzərdən keçirərək elmi dəyərləndirmə aparınaq böyük məsuliyyət tələb edir. Bu missiyanın sıravi bir tədqiqatçı tərəfindən deyil, çağdaş Azərbaycanda dövlət quruculuğunun fəal iştirakçısı, böyük Heydər Əliyevin ən yaxın silahdaşların dan biri, digər tərəfdən də yüksək nəzəri hazırlığa, elmifəlsəfi bilik səviyyəsinə malik bir şəxs tərəfindən həyata keçirilməsi də əsla təsadüfi deyil. Görünür, məhz ona görə də professor R.Mehdiyevin tədqiqatları Azərbaycan fəlsəfi fikrində nəzəri və praktik biliyin vəhdət nümunəsi kimi dəyərləndirilə bilər.

Məlum olduğu kimi, ictimai gerçəkliyin elmi əsaslarının öyrənilməsi ancaq fəlsəfi, sosioloji və siyasi fikrin bu cür ümumiləşdirilməsi və inteqrasiyası sayəsində mümkündür. Bu kitabın ciddi elmitədqiqat əsəri olmaqla, sosial fəlsəfənin mühüm bir istiqamətini əks etdirməsi, həm də cəmiyyətimizin reallıqlarını təhlil etməklə dövlət quruculuğu praktikası üçün mühüm bir mənbə olması və buna görə də geniş oxucu kütləsi tərəfindən maraqla qarşılanacağı şübhə doğurmur. İctimaisiyasi proseslərin fəlsəfi

təhlili, anlayışların elmi şərhi, problemlərə konseptual münasibət bu kitabın fəlsəfi, sosial-iqtisadi və siyasi fənlərin tədrisində dərs vəsaiti kimi də böyük fayda verəcəyini, dövlət quruculuğu praktikasında nəzəri mənbə kimi istifadə olunacağını göstərir.

**Səlahəddin XƏLİLOV,**
**fəlsəfə elmləri doktoru, professor**

*3 iyul, 2005*

# TARİXİ KEÇMİŞİN LAYİQLİ SALNAMƏSİ, UĞURLU GƏLƏCƏYİN FUNDAMENTAL TƏDQİQATI

***Professor Ramiz Mehdiyevin "Azərbaycan: qloballaşma dövrünün tələbləri" kitabı bu iki vacib məqamı özündə mükəmməl əks etdirir***

***Müasir mərhələdə dünyada baş verən və sürətlə bütün ölkələrin, xalqların həyatına nüfuz edən qloballaşma prosesi Azərbaycan mühitində də özünü tam büruzə verir. Bu, tdbiidir. Sivil dövlət qurmaq yolunda inamla addımlayan Azərbaycan Respublikası dünyəvi inkişafdan geri qala bilməz. Qapalı, birtərəfli inkişaf, dünyəvi proseslərdən təcrid olunmuş hər hansı bir insan, yaxud cəmiyyət uzun müddət belə bir vəziyyətdə yaşamağa qadir deyil. Çünki qloballaşmanın qarşıya qoyduğu tələblər və inkişaf istiqamətləri hər bir xalqı, dövləti cəmiyyətdə bu sahədə düzgün mövqe tutmağı, ətrafda baş verən hadisələri və ictimai-siyasi prosesləri nəzərə almağı, onların təsir və əkstəsir parametrlərini aydın dərk etməyi, öz inkişaf xəttini düzgün müəyyənləşdirməyi, xüsusilə ölkə daxilində balanslaşdırılmış, həm də davamlı inkişaf siyasəti yeritməyi tələb edir.***

Bu gün Azərbaycan qloballaşma ilə qarşıqarşıya durub. Qloballaşmanın siyasi, sosial-iqtisadi və mənəv-iəxlaqi xüsusiyyətləri cəmiyyətimizə daxil olub, bu istiqamətdə həyata keçirilən siyasət bütün əvvəlki inkişaf qaydalarını təkzib edir, ortaya zamanın, xalqlar, dövlətlər arasında getdikcə genişlənməkdə olan inteqrasiyanın tələbləri çıxır. Ona fikir verməmək, qəbul etməmək və bütün fəaliyyət mexanizmini məhz bu tələblər ruhunda qurmamaq mümkün deyil.

Qloballaşmanın həyatımız, inkişafımız üçün müsbət və mənfi cəhətləri mövcuddur. Bu haqda fikir mübadiləsi aparınağa, elmi araşdırmalar əsasında onun müsbət və mənfi xüsusiyyətlərini aydınlaşdırmağa böyük eh-

tiyac duyulur. Çünki yuxarıda qeyd etdiyimiz kimi, dünya miqyasında, eləcə də müstəqillik yolu ilə irəliləyən respublikamızda, xalqımızın həyatında baş verən mühüm siyasi proseslər, sosial və mənəviəxlaqi dəyişikliklər qloballaşma dövrünün tələbləri, qanunauyğunluqları əsasında həyata keçirilir. Bu baxımdan qloballaşmanın Azərbaycanda qarşıya qoyduğu və artıq gündəlik həyatımızda özünə yer tapdığı mühüm tələbləri, ölkənin bu zəmində real inkişaf xüsusiyyətlərini, siyasi təsisatların , dövlət strukturlarının, hər bir vətəndaşın bu prosesdə mövqeyini təhlil etmək, gələcək fəaliyyətimiz üçün istiqamətverici siyasi, iqtisadi və mənəviəxlaqi normaları aşkara çıxarınaq çox vacibdir.

Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin "Azərbaycan: qloballaşma dövrünün tələbləri" kitabı da məhz qarşısına bu məqsədi qoyub XX əsrin axırların da və XXI əsrin əvvəllərində Azərbaycanda baş verən siyasi proseslərin geniş təhlil olunması, dünyanın ümumi inkişaf tendensiyaları ilə onların əlaqələndirilməsi və mühüm elmi nəticələrin əldə edilməsi diqqət mərkəzində saxlanılıb. Müəllif özünəməxsus fəlsəfisiyasi yanaşma, mühakimə metodu ilə qloballaşma dövrünün qarşıya qoyulmuş və həyata keçirilmiş yeni reallıqlarını fikir süzgəcindən keçirir, cəmiyyətdə müşahidə olunan qərbləşmə və modernləşmə meyillərini, onların təsir gücünü, Azərbaycan gerçəkliyi şəraitində bu tarixi siyasi, iqtisadi və mənəviəxlaqi prosesin xalqımız və dövlətimiz üçün əhəmiyyətini təhlil edir.

Professor R.Mehdiyevin elmi ictimaiyyətimiz tərəfindən böyük rəğbətlə qarşılanmış əvvəlki sanballı kitabları kimi, "Azərbaycan: qloballaşma dövrünün tələbləri" fundamental tədqiqat əsəri də həmçinin bugünkü cəmiyyətimiz, xalqımız və gələcək həyatımız üçün çox vacib bəşəri problemin araşdırılmasma, eyni zamanda, aydınlaşdırılmasına həsr olunub. Kitabda bu gün Azərbaycan fəlsəfi-siyasi fikri üçün çox maraqlı olan və mühüm əhəmiyyət kəsb edən taleyüklü problemlərə toxunulmuş, qloballaşmanın mahiyyətindən irəli gələn məsələlər təhlil olunmuş, ümumiləşdirmələr aparılmış, Azərbaycanın keçdiyi inkişaf yolu məhz bu prizmadan nəzərdən keçirilmiş, konkret tövsiyələr verilmiş, əsaslandırılmış elmi qənaətlər irəli sürülmüşdür.

"Azərbaycan: qloballaşma dövrünün tələbləri" kitabı altı fəsildən ibarətdir. Bu fəsillər məntiqi ardıcıllıqla bir-birini tamamlayır. Müəllif çox düzgün olaraq qloballaşmanın Azərbaycan həyatına daxil olması prosesini tədqiq etməzdən əvvəl bilavasitə Azərbaycan xalqı üçün də böyük maraq doğuran

SSRİ-nin dağılmasının siyasi, iqtisadi və mənəvi əsaslannı tədqiq etməyi qarşısına məqsəd qoymuş və bu dövrün yeni reallıqlarına və yaratdığı yeni imkanlara bir filosof-alim, nəzəriyyəçi kimi nəzər salmışdır. Birinci fəslin başlanğıcında "Dünyanın fövqəl-dövlətlərindən birinin süquta uğramasının fəlakətli nəticələri bir çox ölkələrin və xalqların siyasi, iqtisadi və mənəvi həyatında güc mərkəzlərinin əhəmiyyətli dərəcədə dəyişməsində təzahür etmişdir. Ona görə də biz belə bir suala dönədönə və yenidən qayıdınq ki, bu epoxal hadisə tarixən nə dərəcədə labüd idi, SSRİ-nin süqutu və 1991-ci ildə Belovejsk sazişləri imzalandıqdan sonra postsovet məkanında müstəqil dövlətlərin formalaşması üçün hansı amillər həlledici olmuşdur" (Ramiz Mehdiyev. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı, 2005, səh. 19) fikrini irəli sürən müəllif məhz SSRİ-nin süqutundan əvvəlki və sonrakı mərhələləri mövzunun tədqiqi mövqeyindən nəzərdən keçirir.

SSRİ-nin dağılması ərəfəsində və bu tarixi hadisə həyata keçirildikdən sonra meydana çıxan siyasətçilərin yeni nəslinin böyük əksəriyyəti yaranmış vəziyyətdən Azərbaycanın rahat inkişafını təmin edə bilmədi. Çünki kitabda göstərildiyi kimi, "yeni şəraitdə artıq əhəmiyyətsizliyini büruzə verən prinsiplərdən imtina etmək zəruriliyini ənənəvi Azərbaycan cəmiyyəti baxışlannın mahiyyətini təşkil edən nə varsa, hamısından xilas olmaq imkanı kimi, köhnə totalitarizm dünyasından üz döndərmək kimi yozurdular".

Məşhur alman filosofların dan birinin qeyd etdiyi kimi, bu yeni siyasətçilər "çirkli su ilə birlikdə uşağı da atdılar". Yəni, onların heç biri düşünmədi ki, totalitarizmdən birdənbirə yox, tədricən uzaqlaşmaq lazımdır. Köhnə ideologiyadan imtina olunursa, yeni ideologiya işlənib hazırlanmalı və insanların şüuruna daxil edilməlidir. Bu barədə müəllif haqlı olaraq göstərir ki, "ölkənin tarixi inkişafının istiqaməti əmələ gəlmiş boşluğu kimlərin doldurmasından və nə ilə doldurmasından asılıdır. Əgər bunlar antisistem, ekstremist, antidemokratik qüvvələr və ideyalar olsa, onda dövlətin taleyi bəri başdan məlumdur" (səh. 54).

Həqiqətən bu dövrdə Azərbaycanda meydana çıxan siyasətçilərin naşılığı, hadisələrə düzgün qiymət vermək bacarığına malik olmaması, cəmiyyətin intellektual qüvvələrinin mövcud proseslərdən uzaqlaşdırılması son nəticədə ölkənin və insanların həyatında az sonra özünü qabarıq büruzə verdi. Bu dövrdə Azərbaycanın düçar olduğu ictimai-siyasi prosesləri ardıcıl şəkildə təhlil edən tanınmış dövlət xadimi, filosof belə bir qə-

naətə gəlir ki, "naşı siyasətçilərin əlinə keçən dövlət insan hüquqlarını real surətdə təmin edən hüquqi və təşkilati təsisatlar yarada bilmədi. Vətəndaş dövlətin fövqündə durmadı. İnsanların mənafeləri və tələbatı ən arxa sıraya keçirildi. Vətəndaşların hüquq və azadlıqlarının təminatçısı olan dövlət isə öz dayaqlarını səylə zəiflədirdi. Qanuna və möhkəm mənəvi prinsiplərə müvafiq surətdə yaşayan və işləyən, ailəni dolandırmağa və təmin etməyə, deməli, modernləşmənin subyekti olmağa qadir müstəqil insan obrazını kütləvi şüura yeritmək cəhdləri o dövrün yuxarı siyasi dairələri tərəfindən tamamilə rədd edildi" (səh. 59).

Müəllif köhnə dövrün mühüm xarakterik nöqsanlarını təhlil edərək belə bir qenaətə gəlir ki, həmin dövrdə respublikanm yuxarı siyasi dairələri köhnəlmiş norma və dəyərləri saxlamağa can atdığına və özlərini demokratlar adlandıran yeni siyasətçilər cəmiyyətin ümumi inkişaf meyillərindən düzgün nəticə çıxara bilmədiklərinə görə müstəqil Azərbaycan Respublikası, eləcə də xalqımız həmin zaman dərin siyasi-iqtisadi böhranlarla qarşılaşmalı olmuşdur. R.Mehdiyevin fikrincə, həmin dövrdə onlar üç əsas vəzifənin həyata keçirilməsinə diqqət yetirməli idilər. Bunlar hansılardır? Müəllif bu haqda yazır: "İctimai əxlaqın pozulduğu, hakimiyyət və idarəetmə təsisatlarının dağıldığı bir şəraitdə cəmiyyətdə əhəmiyyətli və keyfiyyətli dəyişikliklərə nail olmaq üçün üç əsas işi görmək  yeni ictimai müqavilə bağlamaq, hakimiyyətdə islahat aparınaq və iqtisadiyyatı modernləşdirmək lazımdır. Təəssüf ki, kommunist sisteminin ölməzliyi barədə ehkamın sarsılmazlığına möhkəm inanan siyasətçilərin bir hissəsi buna şübhə edənlərə qarşı amansızcasına mübarizə aparırdı. Digərləri isə aparılan siyasətin mahiyyətinə varınayaraq və dövlət gəmisinin "dalğaların hökmü" ilə hərəkətinin mümkün ola biləcək faciəli nəticələrini dərk etməyərək totalitar keçmişdən bacardıqca tez uzaqlaşmağa çahşırdı. Kommunizmin totalitar mahiyyətini rədd edən, lakin demokratiya şəraitində həyat təcrübəsinə malik olmayan bu adamlar heç bir hazırlıq, əsaslandırılmış siyasi strategiya, hər hansı bünövrə olmadan növbəti "işıqlı gələcək" qurmağa can atırdılar" (səh. 60).

Lakin "işıqlı gələcək" qurmaq, yaratmaq əvəzinə siyasətdə dövlət quruculuğunda naşı olan bu adamlar Azərbaycanı və onun əhalisini elə bir uçuruma, bataqlığa saldılar ki, müstəqilliyimiz və dövlətçiliyimiz böyük təhlükəyə, parçalanmağa, hətta məhv olmağa məruz qaldı.

Kitabda bu məsələlərə geniş yer ayrılır və həmin dövrün hadisələrinə münasibət dövlətçilik mövqeyindən təhlil olunur, eyni zamanda, bugünümüz üçün də zəruri olan tövsiyələr irəli sürülür.

Müəllif kitabın birinci fəslində qaldırdığı modernləşmə problemini artıq ikinci fəsildə geniş şərh etməyə çalışır. "Azərbaycanın modernləşməsi: inkişaf yolları" adlanan ikinci fəsil geniş tarixi proseslərin ümumiləşdirmələri əsasında tədqiq olunur.

Modernləşmənin tarixi kökləri var. Onu yeni dövrün təzahürü kimi qəbul etmək düzgün deyil. Hər bir ölkənin həyatında böyük əhəmiyyət kəsb edən bu zəruri prosesin həyata keçirilməsi, ilk növbədə, həmin ölkənin konkret tarixi inkişaf meyillərindən irəli gəlir. Modernləşmə bütün həyat sahələrini əhatə edir. Kitabda qeyd olunduğu kimi, modernləşdirmə dünya birliyinə nüfuz edərək industrial sivilizasiyanı tədricən əvəzləyir.

Bu gün Azərbaycanda modernləşdirməni tətbiq etmədən ölkəni inkişaf etdirmək olmaz. Müəllif düzgün olaraq belə bir qənaətini bildirir ki, Azərbaycanın modernləşdirilməsi gələcək siyasi, intellektual və ictimai diskussiyaların ən aktual mövzularından birinə çevrilir. Lakin bu modernləşdirmə özözünə tətbiq olunmur. Onu tətbiq edən insanların şüurunda böyük dəyişikliklər yaratmaq lazımdır. Müəllif modernləşdirmənin mahiyyətini açmaq üçün keçmiş sovet dövrünə müraciət edir, həmin dövrdə də həmçinin sovet cəmiyyətində bu sahədə mühüm addımlar atıldığını göstərir. Tədqiqatçıfilosof bu haqda belə yazır: "Vahid sovet siyasi, iqtisadi və sosialmədəni sistemin ayrılmaz tərkib hissəsi olaraq Azərbaycan modernləşdirmə proseslərindən kənarda qalmırdı. Lakin digər müttəfiq respublikalar kimi, onun da öz iqtisadiyyatım müstəqil surətdə və tam miqyasda modernləşdinnək, eləcə də müstəqil siyasət aparınaq imkanları yox idi. Uzun müddət vahid dövlət mexanizmi çərçivəsində aparılan modernləşdirmə prinsipcə bütün vətəndaşların mənafelərinə cavab verə bilmirdi" (səh. 66).

Müəllif müstəqil Azərbaycanda moderaləşmənin tətbiq olunmasını zəngin elmi mühakimələri ilə əsaslandıraraq onun mahiyyətini, konseptual xüsusiyyətlərini, amillərini, təsiretmə metodlarını, cəmiyyət və fərd üçün məqbulluğunu müəyyənləşdirməyə çalışır. Onun fikrincə, modernləşdirmə heç də kosmetik dəyişikliklərin həyata keçirilməsindən ibarət deyil. Modernləşdirmə qloballaşdırma dövrünün siyasiiqtisadi və mənəvi-əxlaqi mahiyyəti nəzərə almmaqla bütün sahələrdə tətbiq olunmalı

dır. Tədqiqatçı-filosof burada belə mühüm cəhətə xüsusi diqqət yetirir ki, cəmiyyətin varlı və yoxsul təbəqələri arasında aralıq mövqe tutan orta sinfın yaradılması üçün dövlətin məqsədyönlü səyləri olmadan modernləşdirmə

mümkün deyildir. Əsərdə belə bir mühüm fikir təlqin olunur ki, müasir cəmiyyətdə bu sinif, yəni orta və kiçik sahibkarlar, ticarətçilər, sənətkarlar və başqaları ilə deyil, həm də iri müəssisələrin menecerləri, elmi-texniki və humanitar sahələrin nümayəndələri olan ziyalılarla təmsil edilmişdir (Bax: səh. 67).

Professor Ramiz Mehdiyev modernləşmənin Azərbaycanda tətbiqini və inkişafmı bir neçə mərhələyə ayırır. Onun fikrincə, modernləşmənin birinci mərhələsi XX əsrin 70-ci illərini və 80ci illərin əvvəllərini əhatə edir. Bu mərhələdə xalqın milli özünüdərkinin oyanışı, əhalinin rifahının artması və təhsil səviyyəsinin yüksəlməsi prosesi baş verir. Müəllif haqlı olaraq belə bir qənaətə gəlir ki, Azərbaycan millətinin gələcək müstəqil inkişafının bünövrəsi məhz bu mərhələdə qoyulmuşdur. Həqiqətən, kitabda göstərildiyi kimi, müstəqil Azərbaycanın gələcək hərbi potensialının real əsasları elə həmin zaman çərçivəsində yaradılmışdır. Belə ki, bu mərhələdə C.Naxçıvanski adına hərbi məktəb açılmış, hərbi məktəblər modernləşdirilmiş, Azərbaycan gənclərinin hərbi sahəyə axmı güclənmişdi. Həmin dövrdə kəndin ümumi siması əsaslı surətdə dəyişmiş, kənd təsərrüfatının istehsah intensivləşdirilmiş, İttifaq respublikaları ilə sıx inteqrasiya yaradılmış, xarici ölkələrlə iqtisadi əlaqələr genişlənmişdir. Bu dövrdə neft və kimya sənayesi modernləşdirilmiş, Bakı Kondisionerlər Zavodu və s. müəssisələr tikilərək işə salınmış, elmi potensial möhkəmlənmiş, gənc, ixtisaslı kadrların, o cümlədən istedadlı idarəetmə kadrlarının hazırlanması sistemi təkmilləşdirilmişdir. Eyni zamanda, cəmiyyətdə sosial ədalət nonnaları bərqərar olmuşdu.

Müəllifin fikrincə, modernləşdirmənin ikinci mərhələsi 1980-ci illərin ikinci yarısına, "yenidənqurma və aşkarlıq" dövrünə təsadüf edir.

Bu dövrün özü müəyyən inkişaf xüsusiyyətlərinə malikdir. Kitabda modernləşmənin ikinci mərhələsində SSRİ-də və Azərbaycanda baş verən hadisələr və ictimai-siyasi proseslər məntiqi ardıcıllıqla təhlil olunur, SSRİnin dağılmasının səbəbləri göstərilir, Azərbaycan xalqının başına açılmış faciələri doğuran səbəblərə alim, vətəndaş münasibəti bildirilir.

Azərbaycanda modernləşmənin üçüncü mərhələsini, müəllifm fikrincə, 1991ci ildə müstəqilliyə qovuşduqdan sonrakı illəri götürmək lazımdır. Bu mərhələdə milli tariximizdə anarxist meyillər güclənmiş, cənub bölgəsində separatçılıq əhvaliruhiyyəsi kəskinləşmiş, iqtisadiyyatın inkişaf səviyyəsi aşağı düşmüş, inflyasiya böyük sıçrayışlarla tüğyan etmiş, torpaqların işğalı baş vermiş, nəhayət, xalqımızın ümummilli lideri Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanın həyatmda bütün bu geriliklərə, bu problemlərin yaradılmasına son qoyulmuşdur.

Müəllif məhz Heydər Əliyevin hakimiyyətə gəlişini modernləşdirmənin dördüncü mərhələsi ilə əlaqələndirir. Məhz bu mərhələ Azərbaycanın sonrakı inkişaf tarixində böyük rol oynamışdır. Bu mərhələdə respublikamızda hüquqi dövlətin və vətəndaş cəmiyyətinin əsas prinsipləri və elementlərinin əsası qoyulmuş, tarazlı xarici siyasət aparılmış, yeni iqtisadi sistemə istiqamət götürülmüş, vətəndaş cəmiyyəti təsisatları formalaşmış, yeni siyasi birliklər yaradılmış, demokratiya, siyasi plüralizm inkişaf etdirilmiş, milli ideologiyanın baza elementləri tədricən, həm də çox mürəkkəb şəraitdə formalaşmışdır.

Kitabda bəzi ideoloji cərəyanların mahiyyəti və onlann inkişafı üzərində dayanaraq müəllif konservatizmin, liberalizmin və sosializmin Azərbaycan gerçəkliyi şəraitinə qətiyyən uyğun gəlmədiyini də əsaslandırmışdır. Onun fikrincə, modernləşdirmənin sonuncu mərhələsini 2003-cü ildən götürmək olar. O, bu mərhələni Azərbaycanın həyatında yeni dövr adlandırır. Bu dövrdə xalq ideoloji cərəyan kimi Heydər Əliyevin irəli sürdüyü və əsaslandırdığı azərbaycançılıq ideyası ətrafında sıx birləşməlidir. Çünki o, ölkədə yaşayan bütün etnik qrupları və millətləri ümumdövlət mənafeləri və dəyərləri əsasında real surətdə birləşdirmək ideyasımn verballaşdırılması kimi, 19921993-cü illərdə xüsusilə geniş yayılan şovinist və separatçılıq əhvaliruhiyyəsinə qarşı mübarizə ideyası kimi meydana gəlmişdir. Azərbaycançılıq bu gün dəvə gələcəkdə də Azərbaycan Respublikasında bu ideoloji missiyanı, yükü öz üzərində daşıyacaqdır. Çünki kitabda qeyd olunduğu kimi, "azərbaycançılıq ideologiyasında vahid polietnik millətin Azərbaycan dövlətçiliyinin yaradılmasına dair maraqlannın ümumiliyi, demokratiyanın, sərbəst iqtisadiyyatm, sosial həyat şəraitinin inkişafı uğrunda mübarizəsinin məqsədləri öz əksini tapmışdır. İdeologiya kimi azərbaycançılıq müstəqil Azərbaycanın fəlsəfi-sosial doktrinasının sosiomədəni və

etnikgeosiyasi cəhətlərini özündə birləşdirmişdir. O, qarşılıqlı dəstək, əməkdaşlıq və bərabərliyin mühüm əsasını təşkil edir" (səh. 115).

Müasir mərhələdə qloballaşmaya məruz qalmayan dövlət və cəmiyyət yoxdur. Lakin BINTnin 8 sentyabr 2000-ci il tarixli bəyannaməsində göstərildiyi kimi, bəşəriyyət qloballaşmanın tam, hərtərəfli və ədalətli xarakter almasına çalışmalıdır. Bəşəriyyətin inkişaf strategiyasını qloballaşmanın məhz ədalətli aparılması müəyyənləşdirəcəkdir.

Professor Ramiz Mehdiyev kitabın üçüncü fəslində "Qloballaşma dövründə dövlət və cəmiyyət" problemlərini tədqiq etməyi qarşısına məqsəd qoymuş və bu istiqamətdə dünya miqyasında apanlmış elminəzəri tədqiqatları, tanınmış filosof və siyasətçilərin baxışlarına öz münasibətini bildirmişdir. Bundan əlavə, kitabda qloballaşmanm məddahlan və əleyhdarlan, modemlik və postmodemlik barədə ətraflı məlumat verilir. Bütün bu məsələlər həm dünya dövlətlərinin praktikasına müraciət edilməklə, həm də Azərbaycan gerçəkliyi şəraitində qloballaşmanın dövlətin və cəmiyyətin inkişafında rolunu və əhəmiyyətini göstərməklə diqqət mərkəzində saxlanılır.

Müəllif qloballaşmanın təsir gücündən heç də kənarda qalmayan müstəqil Azərbaycanın siyasi və iqtisadi strategiyasının tədqiq olunmasına xüsusi diqqət yetirir.

Qeyd etməliyik ki, Azərbaycanda bu mühüm problemlərin tədqiqi çox vacib olsa da, təəssüf ki, onların araşdırılmasına kifayət qədər diqqət verilmir. Bu baxımdan ölkənin siyasi və iqtisadi strategiyasınm istiqaməti, komponentləri, bilavasitə həyata keçirilməsi yolları böyük öndərimiz Heydər Əliyev tərəfindən müəyyənləşdirilsə də, bu gün bu strategiyanın mahiyyətinin araşdırılaraq kütlələrə çatdırılmasının böyük əhəmiyyəti var. Çünki Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında indi həyata keçirilən siyasi və iqtisadi strategiya xalqımızın ümummilli lideri Heydər Əliyevin qarşıya qoyduğu mühüm proqram vəzifələri əsasında formalaşdırılıb və yeni dövrün, qloballaşmanın tələblərinə uyğun olaraq bu sahədə təkmilləşdirmə işləri aparılır.

Azərbaycan dövlətinin siyasi strategiyasında xarici siyasət xəttinin müəyyənləşdirilməsinin böyük əhəmiyyəti var. Kitabda bu məsələlərə geniş yer ayıran müəllif müstəqillik illərindən başlayaraq bugünə qədər siyasi strategiyamızın məhz bu istiqamətini geniş empirik materiallar əsasında təhlil edir. Azərbaycanın beynəlxalq təşkilatların üzvü olması, onların işində iştirakı,

bağlanmış müxtəlif müqavilə və sazişlər, bəzi bəyannamələri, sammit sənədlərini imzalaması, eləcə də dünyanın bir çox dövlətləri ilə saxladığı sıx əlaqələr, səfirliklərin açılması, diplomatik əlaqələrin getdikcə artması və s. xarici siyasətdə böyük əhəmiyyət kəsb edir. Kitabda xüsusi olaraq qeyd edilir ki, Azərbaycanın xarici siyasətində Avropa Şurasına qəbul olunmağımızın, Böyük İpək yolunun, Avropanm və postsovet məkanının yeni müstəqil dövlətlərinin elmi-texniki və iqtisadi əməkdaşlığına yönəldilmiş layihələrin, yəni TASİS, TEMPUS, TRASEKA kimi layihələrin həyata keçirilməsində fəal iştirakının əhəmiyyəti böyükdür. Tədqiqatda dünya neft bazannda Azərbaycanın roluna da müəyyən yer aynlmışdır. Bundan əlavə, Azərbaycanın iqtisadi strategiyasında mühüm yer tutan neft amili ilə əlaqədar ölkədə aparılan siyasət faktlar, beynəlxalq görüşlərin materialları əsasında təhlil olunur, yeni iqtisadi sistemə keçidin yollan, bu sahədə qazanılmış uğurlar diqqətə çatdınlır.

Müasir qloballaşma inkişaf naminə rəqabət aparılmasına güclü təsir göstərir. Bu rəqabət çox sahələrdə apanlır. Hakimiyyət və müxalifət arasında yaranan, davam edən və təkmilləşən rəqabət sağlam olduqda ümumi inkişafda mühüm uğurlar qazanmaq asan olur.

Kitabın beşinci fəsli məhz bu problemin tədqiqinə həsr olunub. Müəllif bu fəsildə respublikamızda fəaliyyət göstərən müxalifət partiyalarının inkişaf meyillərini, cəmiyyətimizdə onların mövqeyini, ayrı-ayrı partiya liderlərinin fəaliyyətinə münasibəti və s. mühüm məsələləri açıb göstərir, xüsusilə müxalifətin son illərdə radikal fəaliyyətinə geniş yer ayınr. O, bəzi müxalifət partiyalan liderlərinin fəaliyyətini nəzərdən keçirərək yazır: "Konstruktivliyin və refleksiyanm olmaması, ifrat radikalizm, başçı olmaq iddialan, sosial gərginliyi süni yolla gücləndirmək cəhdləriaXCP, AMİP, Müsavat və ADPnin fəaliyyətinin əsas xəttini, bax, bunlar təşkil edir. Bu isə həmin strukturlann liderlərinin nüfuzdan birdəfəlik düşməsinə doğru apanr və partiyalann sıravi üzvlərində siyasi biganəlik yaranmasına səbəb olur.

Müxalifətin liderləri heç çür anlaya bilmədilər ki, cəmiyyət sönmüş lava deyil, məhz dinamik, daim inkişaf edən, durğunluğa dözməyən və rasional dəyişikliklərə nail olmağa çalışan canlı orqanizmdir. O dəyişir və bununla yanaşı, siyasi mübarizənin forma və üsulları, texnologiyaları, təfəkkürün özü və sosial gerçəkliyi qavrama tərzi də dəyişir. Məsuliyyətsiz, ifrat radikalizm və dövlətin inkişafının uzunmüddətli məqsədlərini inkar edən qondarına inqilabi ritorika təzələnmiş ictimai prioritetlərə yaddır.

Yeni, savadlı nəsil real məzmunla dolğunlaşmayan mitinq çağırışları və ehtiraslarını qəbul etmir. Bütün bunlar bu illər ərzində öz ideya yükünü, Azərbaycan cəmiyyəti barədə baxışlarını modernləşdirə və dünya təcrübəsi ilə zənginləşdirə bilməyən "köhnə" "milli" müxalifətin perspektivsizliyini göstərir. Radikallar keçmiş tərəfindən həqiqətən məhkum olunmuşlar və keçmişin yükündən xilas olmaq iqtidarın da deyildirlər" (səh. 307).

Müxalifətin radikal mövqe tutması onu göstərir ki, o, ətrafda baş verən hadisələrdən və siyasi proseslərdən, mühüm dəyişikliklərdən düzgün nəticə çıxarınağı bacarınır. Radikal müxalifət Azərbaycanın bütün həyat sahələrində qazandığı uğurlan nəzərə almayaraq əvvəlki kimi öz fəaliyyətini, mövqeyini, dövlətə münasibətini dəyişməmişdir. Kitabda müxalifətin bu sahədə "fəaliyyəti" kəskin tənqid və ifşa olunur, cəmiyyətə zidd baxışlarına münasibət bildirilir: "Müxalifət isə ancaq hakimiyyətin devrilməsinə və xəttin dəyişdirilməsinə yönəldilən arxaik baxışlardan inadla əl çəkmir. Bununla bərabər, o, milli tarixin son dərəcə vacib və mürəkkəb bir dövründə dövlətin siyasi meydanından başılovlu qaçıb getdiyini unudur" (səh. 309).

Radikal müxalifətin 1993-cü ilin oktyabr ayında prezident seçkilərində məğlubiyyətlə barışmayaraq ölkədə iğtişaşlar yaratmaq cəhdləri baş tutmadı. Amma bu iğtişaşlar müxalifətin cəmiyyətin ümumi inkişafı ilə ayaqlaşa bilmədiyini, siyasi prosesləri düzgün dərk etmədiyini, şəxsi mənafelərindən ötrü hər cür addım atmaq qabiliyyətinə malik olduğunu aşkara çıxardı, nəhayət, ölkə əhalisinə, Azərbaycanın beynəlxalq aləmdə qazandığı müsbət nüfuza az da olsa, zərər vurdu. Müəllif müxalifətin uğursuzluqlarının köklərini üzə çıxarınaq məqsədilə onun tarixi və sosialsiyasi kontekstini araşdırmağı təklif edir və 1993-cü ildə respublikamızda yalançı demokratların yaratdığı siyasi mühitlə bugünümüzü müqayisə edərək müxalifətin keçən 1012 il ərzində heç də böyük dəyişikliyə uğramadığını, əvvəlki kimi radikal mövqe tutmaqla nəyin bahasına olursa-olsun hakimiyyətə gəlmək iddiası ilə yaşadığmı göstərir.

Kitabda belə bir mühüm məsələ xüsusi olaraq vurğulanır ki, bu gün müxalifətin iqtidarla münasibətlərdə qarşıdurma yolunu seçməsi Azərbaycanın normal demokratik ictimai inkişafına xeyir gətinnir. Əhalinin müəyyən təbəqəsi bundan narahat olur, onu da qeyd edək ki, hələ də siyasətdə bərkiməmiş, çox şeyi özü üçün aydınlaşdırmamış, qondarına, süni çıxışlara aludə olan şəxslər "siyasətçilər" müəyyən qismı insanları yerin

dən oynadır, onların səbatsızlığından istifadə edərək əhalinin bu təbəqəsini mitinqlərə, küçə yürüşlərinə çağırır. Qarşıdan parlament seçkiləri gəlir. Müxalifət qüvvələrinin bir qismi yenidən radikal mövqe tutmağa səy göstərir. Şübhəsiz ki, onların bu mövqeyi Azərbaycan dövlətçiliyinə qarşı bir xəyanət kimi qiymətləndiriləcəkdir. Ölkədə hakimiyyətin Konstitusiyaya zidd yolla ələ keçirilməsinə, seçkilər ərəfəsində qarma-qarışıqlıq və xaotik vəziyyətin yaradılmasına qətiyyən yol verməк olmaz.

"Azərbaycan: qloballaşma dövrünün tələbləri" kitabının beşinci fəsli "Demokratiya dövlət və cəmiyyətin inkişafının prioriteti kimi" adlanır. Adından məlum olduğu kimi, müəllif burada Azərbaycanda demokratiyanın qərarlaşması və inkişafı məsələlərindən danışır. Kitabda keçid dövrü ölkələrində demokratiyanm formalaşması prosesini tədqiq edən tədqiqatçı belə bir qənaətə gəlir. "Cəmiyyətin məqsədyönlü demokratikləşməsi üçün iki tərkib hissənin uzlaşması çox vacibdir. Birincisi, demokratik prosedurların və təsisatların olması, onların sabitliyi və səmərəliliyinin təmin edilməsi. İkincisi, cəmiyyətdə çoxşəkilli demokratik proseslərin həyat qabiliyyətini təmin edən siyasi dəyərlərin və oriyentirlərin olması. Bu kontekstdə mədəni dəyər ilkin şərtləri demokratik mühitin formalaşması üçün prioritet tərkib hissələr kimi çıxış edir" (səh. 367).

Kitabda "Demokratiya: eyforiya, yoxsa panaseya", "Azərbaycanda demokratiyanm modelləri: mümkün olanlar, məqbul sayılanlar və gözlənilməyənlər", "Vətəndaş cəmiyyəti nəzəriyyəsi", "Azərbaycan sosiumu və vətəndaş cəmiyyəti", "Yeni dövrün siyasətçisi" kimi paraqrafların verilməsi onu göstərir ki, filosof, alim tərəfindən demokratiyanm ölkəmizdə qərarlaşması və hüquqi dövlətin, eləcə də vətəndaş cəmiyyətinin yaradılması sahəsində onun üzərinə düşən mühüm vəzifələr geniş şəkildə tədqiq olunur. Müəllif yeri gəldikcə başqa ölkələrdə demokratiyanın inkişafı məsələlərini də nəzərdən keçirir, antik dövrdə və orta əsrlərdə Avropada bəzi mütəfəkkirlərin demokratiya anlayışma münasibətini aydınlaşdınr, eyni zamanda, demokratikləşmənin Azərbaycanda bir neçə modelini sərfnəzər edir. Belə ki, biz kitabda U.Rustonun, X.Linqsin, G.O'Donnelin və başqalarının demokratiya ilə bağlı baxışlarıyla qarşılaşdırıb bu baxışları bir-biri ilə müqayisə edirik.

Bu gün keçid dövrünü yaşayan ölkələr sırasında Azərbaycan Respublikasında vətəndaş cəmiyyətinin qurulması ilə bağlı çox iş görülür. Bu anlayış, məlum olduğu kimi, Aristotelə, C.Monteskyöyə, N.Makiavelliyə,

C.Lokka, T.Hobbsa, İ.Kanta, G.Hegelə, N.Berdyayevə məxsus olub müasir mərhələdə bəşəriyyətin can atdığı bir cəmiyyətdir. Lakin vətəndaş cəmiyyəti anlayışından düzgün istifadə etməyən qüvvələr var. Müəllif Azərbaycanda vətəndaş cəmiyyətini mümkün qədər qısa müddətdə həyata keçirilməli olan proses kimi qəbul edən müxalifət qüvvələrinin baxışlarını tənqid edir, vətəndaş cəmiyyətinin ölkəmizdə formalaşmasına təsir göstərən mühüm amilləri göstərir.

Azərbaycan müstəqillik qazandıqdan sonra ölkədə demokratiyanm inkişafında prezidentlərinidə özünəməxsus rolu olmuşdur. Məlum olduğu kimi, müstəqillik illərində ölkə beş prezident, iki parlament və iki bələdiyyə seçkiləri keçirmişdir. Müəllif haqlı olaraq qeyd edir ki, demokratiya yolu çətin yoldur, onu istər indiki, istərsə də gələcək nəsillər keçməlidir. Respublika prezidentlərindən iki nəfər Azərbaycanda demokratiyanın formalaşmasında və inkişafında böyük rol oynamışdır. Onlardan biri Heydər Əliyev, ikincisi isi Azərbaycan Respublikasının bugünkü Prezidenti, Heydər Əliyevin siyasi kursunu davam etdirən cənab İlham Əliyevdir. Kitabda bu məsələyə xüsusi yer ayıran müəllif son illərdə demokratiya sahəsində əldə etdiyimiz uğurlardan söhbət açır, demokratiyanın respublikamızda keçdiyi tarixi yolu, inkişaf xüsusiyyətlərini təhlil etməyə diqqət yetirir. Kitabın sonunda "Biblioqrafıya və qeydləf'in, "Terminlər lüğəti"nin verilməsi tədqiqatın, nəşrin əhəmiyyətini daha da artırır.

Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin Azərbaycanın böyük oğlu, müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin nurlu xatirəsinə həsr etdiyi bu dəyərli tədqiqat əsəri respublikamızda filosoflar, tarixçilər, politoloqlar, sosioloqlar, beynəlxalq həyat məsələləri ilə məşğul olan mütəxəssislər, iqtisadçılar, habelə müstəqil Azərbaycan Respublikasının keçdiyi zəngin inkişaf yolunu öyrənən hər bir vətəndaş oxucu üçün maraqlı, fimdamental bir kitabdır.

**Vəli HƏBİBOĞLU**,

**Azərbaycan Respublikasının**
**Prezidenti yanında Dövlət**
**İdarəçilik Akademiyasının**
**professoru, fəlsəfə elmləri doktoru**

*21 iyun, 2005*

# AZƏRBAYCAN QLOBALLAŞMA QOVŞAĞINDA

***Hər şey Azərbaycanı tərəqqiyə aparan yolla nə dərəcədə düzgün gedəcəyimizdən asılıdır. Bunu isə yalnız zaman göstərəcək və onda biz bugünümüzü düzgün, adekvat şəkildə qiymətləndirə biləcəyik.***

**Ramiz MEHDİYEV**

Üçüncü minilliyin başlanğıcından dünya yeni nizama doğru sürətli hərəkət götürmüşdür. Köhnə demokratik dəyərlər, milli və qlobal dövlətçilik ənənələri sökülüb dağılmağa, iqtisadi məkanlararası müxtəlif tipli münasibətlər pozulmağa, daha güclü, bəşəri iqtisadi əlaqələr sistemi yaranmağa başlamışdır. Dünya özünün əzəli təkamül modelinə qayıtmağa, bütün parçalanmalardan, bölünmə və ayrılmalardan əzəlki formasını bərpa etməyə başlamışdır. Əslində, ərz öz erkən formasına, coğrafi gözəlliyinə, azad, sərbəst insanların yaşadığı bir məkana üz tutur. Dünya filosofları ərzin ayrı-ayrı ölkələri, onların iqtisadi-siyasi, mədəni və milli tərəqqiləri, dövlətçilik ənənələri ilə bağlı müxtəlif nəzəriyyələr irəli sürmüşlər. Təbiətin və cəmiyyətin dialektik inkişafını qabaqcadan proqnozlaşdırmağa çalışmışlar. Müxtəlif ictimai-siyasi və iqtisadi formasiyalar, onların aparıcı və qabaqcıl ideyaları barədə fikirlər söyləmişlər. Utopik sosializmdən sosializmin ən yüksək fazasına qədər gəlib çıxmış, onun nəzəri əsaslarını hazırlamaqla praktiki yekununu da cəmiyyətə tətbiq edə bilmişlər. Böyük çevriliş və qanlar bahasına yaranmış, dünya miqyasında fövqəldövlət kimi tanınan bir dövlət kapitalist dünyası ilə üzüzə qalmış, özü öz süqutuna fərman imzalamışdı. Sosialist nəzəriyyəsindəki illüziyalar, boşluqlar, fanat eybəcərlikləri, zorakılıq və saxtakarlıqlar, insan hüquqlarının yalançı demokratiyası son nəticədə dünyanın iki qüdrətli superdövlətindən biri olan SSRİnin süqutuna gətirib çıxarmışdır. Bu fövqəldövlət özündən sonra postsovet məkanında yaşayan millətlər və xalqlar üçün böyük fəlakətlər və faciələr qoyub getdi. "Sosialist demokratiyası" adı altında yalançı bir demokratiya yaradan Sovetlər Birliyi dağılandan sonra postsovet məkanı ölkələrində demokratiya adı altında güclü hərc-

mərclik meydana çıxdı. Həmin dövrün ən ağrılı məqamını isə Azərbaycan yaşadı. Təzə-təzə demokratiya qaydalarına yiyələnməyə başlayan xalq ölkəyə kənardan göndərilən zorakı demokratiyanı həzm edə bilmədi. Çünki Azərbaycanda demokratik dəyərlərə yiyələnən ziyalı elitası hələ formalaşmamışdı. Demokratiya anlayışı şüarçılıq, keçmişdən miras qalan hər şeyi dağıtmaq və yenisi ilə əvəz etmək kimi başa düşülürdü. Bu isə ölkə üzrə cari və strateji proqnozların vaxtında hazırlanmaması, yaxud düzgün istiqamətləndirilməməsinin nəticəsi idi.

Artıq XXI əsr özünün yeni tələblərini qarşıya qoymuşdur. Vahid dünya iqtisadiyyatının yaranmasına doğru sürətli inkişaf özünü göstərməyə başlamış, maliyyə və transmilli iqtisadi strukturların dünya miqyasında genişlənmə prosesi formalaşmış, kapital, müxtəlif tipli məhsul, işçi qüvvələri arasındakı münasibətlər yeni formada üzə çıxmışdır. Professor Ramiz Mehdiyevin yazdığı kimi, "yeni yüzilliyin qısa başlanğıcı dövründə dünyada elə heyrətamiz dəyişikliklər baş vermişdir ki, onların geniş miqyası təkcə iqtisadi və siyasi sahələri deyil, həm də insanm təkrar istehsalının, təhsil və təfəkkür istehsalmın fundamental əsaslarını əhatə etmişdir".

Dünya miqyasında qloballaşmaya, yeni iqtisadi və milli istehsal sahələri yaranmağa, insanın ümumbəşəri dəyərlərə yiyələnməyə başladığı müasir məqamda Azərbaycanın da dünyanın bu yeni nizamına qoşulması, qabaqcıl dünyaya inteqrasiyası, şübhəsiz ki, vacibdir. Bu, bir neçə səbəblə bağlı günün qarşıya qoyduğu qaçılmaz həqiqətdir. Əvvəla, Cənubi Qafqaz keçmiş Sovetlər Birliyinin yeraltı və yerüstü sərvətlərlə zəngin bir region kimi daim diqqət mərkəzində saxladığı səmərəli iqtisadi regionlardan biri idi. Burada iqtisadi tutumun həcmində Azərbaycanın yeri xüsusi maraq çevrəsindəydi. Təkcə o faktı xatırlatsaq ki, alman faşizmi üzərində tarixi qələbənin əldə edilməsində Bakı neftinin hərbi nailiyyətlərin qazanılmasındakı xüsusi çəkisi əvəzedilməz idi, onda Cənubi Qafqaz regionunun dunya iqtisadi birliyindəki yerini aydın təsəvvür etmək mümkün olar. Bu səciyyəli faktların saymı artırdıqda Azərbaycanın qlobal dünyanın iqtisadiyyatına doğru necə sürətli irəliləyişlərlə getdiyini aydın görmək mümkündür. Bunun ən mühüm göstəricilərindən biri isə Bakı-Tbilisi-Ceyhan neft kəməridir.

Təəssüf ki, Azərbaycanın qlobal dünyaya çıxışının dünəni, bugünü, eləcə də sabahı ilə bağlı nəzəri tədqiqatlar yeni yaranır. Günümüz üçün

aktual olanı odur ki, Azərbaycan cəmiyyəti dünyanın yeni nizamında necə təmsil olunmalıdır ki, o öz iqtisadi və maliyyə strukturunu, milli təhsil, elm, təhlükəsizlik institutlarını yenidən qura bilsin. Həm də bu işdə hansı qabaqcıl təcrübəyə əsaslanmalı, özünün yeni qlobal dünya siyasətini necə qurmalıdır. Keçmiş postsovet məkanında yol verilmiş hansı formalar yeniləşdirilməli və milli mənafelərə tabe etdirilməlidir. Ümumilikdə isə, Azərbaycan qlobal dünyada öz yerini necə müəyyən etməlidir...

Bütün bu məsələlərə görkəmli nəzəriyyəçi alim, fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin "Azərbaycan: qloballaşma dövrünün tələbləri" (Bakı, XXI YNE, 2005, 462 s.) monoqrafiyasında ətraflı cavab tapmaq mümkündür. Müəllifin keçmişin dərsləri, bugünün reallıqları və gələcəyin perspektivlərini əhatə edən fikirləri zəngin nəzəri mülahizələrlə müşahidə edilir.

Xalqımızın böyük oğlu, müasir Azərbaycan dövlətçiliyinin banisi Heydər Əliyevin xatirəsinə həsr edilən monoqrafiyada qloballaşma qovşağında dayanan Azərbaycanın ictimai-siyasi, mədəni-sosioloji durumunun geniş elmi-nəzəri mənzərəsi əks olunur. Qlobal dünyaya qarşı addımlayan dövlətin və cəmiyyətin qarşısında duran vəzifələr, onların həyata keçirilmə yolları və vasitələri barədə çox mühüm müddəalar diqqətə çəkilir. "Oxucuya" müraciətlə başlayan monoqrafiyada müəllif qlobal dünyanın müasir vəziyyətini oxucusuna belə təqdim edir: "İndi bəşəriyyət qlobal transformasiyalar dövründə yaşayır. Formasiya paradiqmalarının əvəzlənməsi, "Tofflerin "üçüncü dalğasının" başlanması, elmi-texniki tərəqqinin yüksəlişi və nəhayət, milli dövlətin rolunun zəifləməsi və transmilli korporasiyaların əhəmiyyətinin güclənməsi  bütün bunların hamısı müasir insanın, cəmiyyətin və "dövlət", "dövlətçilik" kimi şərh etdiyimiz siyasi strukturun simasını digər parametrlərlə birlikdə köklü şəkildə dəyişdirir. Məncə, gələcək nəsillər bir vaxtlar, bizim olduğumuz kimi, ideologiyalaşdırılmış olmayacaqdır. Bununla yanaşı, o da aydındır ki, bir neçə onillikdən sonra dövlət də öz vətəndaşları üçün bizdə olduğu qədar müqəddəs anlayış olmayacaqdır" (səh. 7).

Müəllif qlobal dünyaya məxsus xüsusiyyətlərin öz axarı, adiliyi ilə cəmiyyət həyatma nüfuz edəcəyini göstərir. Sələfləri olan bir sıra dünya filosofları kimi, cəmiyyət həyatmda baş verənlərin ona təsirinin spesifıkasını müəyyənləşdirir və bütün bu prosesləri yüksək nəzəri arqumentlərlə əsaslandırır.

Azərbaycan artıq qloballaşma qovşağındadır. Qarşıda isə hələ mühüm məsələlər dayamr. İqtisadi, sosial, mənəvi və mədəni, milli və bəşəri problemlər. Bütün bunlar isə Azərbaycanı yeni yüksəlişə, tərəqqiyə aparan yollardır. Professor Ramiz Mehdiyev haqlı olaraq yazır ki, "hər şey Azərbaycanın tərəqqiyə aparan yolla nə dərəcədə düzgün gedəcəyindən asılıdır" (səh. 6).

Müəllif həmin yolları müəyyənləşdirən istiqamətlər üzərində geniş dayanır. Qloballaşmaya doğru inkişafda sıçrayışlara səbəb ola biləcək məsələlər qaldırır, onları əsaslandırır, Azərbaycanın dünənindən və bugününün təcrübəsindən çıxış edərək ölkənin sabahının cari və strateji inkişaf yollarını proqnozlaşdırır. Bunlar isə aşağıdakı mühüm inkişaf istiqamətlərini əhatə edir.

Müəllif monoqrafiyasında ilk öncə SSRİ-nin dağılması, yeni reallıqların açdığı imkanlardan istifadə məsələsi üzərində dayanır. SSRİ-nin dağılma səbəblərini göstərərkən ötən əsrin 80-ci illərinin əvvəllərindən başlayan sosial-iqtisadi problem və ziddiyyətlərə toxunur. Həmin dövrdə bu prosesə təsir edən amilləri açıqlayır. Burada müəllif keçmiş sovet idarəçiliyinin dağılmasına təsir edən səbəblərin yeni quruculuq yoluna çıxmış bir sıra yeni, müstəqil və demokratik dövlətlər üçün də mühüm əhəmiyyətə malik olduğunu söyləyir. Bunlar isə iqtisadi inkişaf səviyyəsi, cəmiyyətlə siyasi rəhbərliyin dialoqa girə bilməməsi, dövlətin ayrı-ayrı region strukturlarının dağılması, vətəndaş arxetiplərinin itirilməsi və düzgün olmayan kadr siyasətinin yeridilməsi və s. əhatə edir.

Qloballaşma qovşağında olan ölkələrdə dövlət və cəmiyyət həyatı üçün zəruri olan bir sıra çox mühüm məsələlərə nəzər yetirməyin gərəkliyi məsələsinə professor Ramiz Mehdiyev xüsusi diqqət yönəldir. Dünya birliyinə inteqrasiyaya cəmiyyətin hazırlanması üçün zəruri nəzəri və praktiki hazırlığın vacibliyini göstərir. Eyni zamanda, burada milli ideologiyanın işlənib hazırlanmasını iqtisadi yüksəlişə güclü şəkildə təsir göstərən amillərdən biri kimi dəyərləndirir. Dünya təcrübəsindən çıxış edən müəllif göstərir ki, ölkədə vahid milli ideologiyanın meydanda olmaması dövlət təşkilatlarının və ictimai qurumların böhranını sürətləndirir ki, bu da getdikcə sistemli xarakter alır, keçid dövrünün obyektiv çətinlikləri və mürəkkəbliklərini dərinləşdirir. Professor cəmiyyəti böhrandan çıxarınaq üçün qloballaşma prosesinə daxilolmanın bir çox vaciblikləri üzərində

yanır. Bu gün açıq etiraf etmək gərəkdir ki, Azərbaycanda milli dövlətçiliyin elə zəngin ənənələri yoxdur.

Bu gün cəmiyyət Heydər Əliyevin qoyub getdiyi ənənələri ləyaqətlə davam etdirir, onun yaradıb formalaşdırdığı dövləti qoruyub saxlayır və inkişaf etdirir. Dünyada yeni proseslər baş verir, iqtisadi əlaqələr genişlənir, yeni iqtisadi məkanlar yaranır, dünyanın yeni nizamı formalaşmağa başlayır. Təbii ki, Azərbaycan bütün bu əlaqələrdən kənarda qala bilməz. Qarabağ faciəsini yaşayan xalqımız Cənubi Qafqazın aparıcı bölgələrindən biri, Avropa və dünya iqtisadiyyatına bir çox mədəni, iqtisadi və siyasi xətlərdə qabaqcıl dünya siyasətinə qoşulmaqdadır. Ümummilli lider Heydər Əliyevin dövlətçilik siyasətinin bu gün müxtəlif cəhətlərdən dərindən öyrənilməsinə ehtiyac olduğu kimi, yaradıcı şəkildə davam və inkişaf etdirilməsinə də ehtiyac duyulmaqdadır. Ayrı-ayrı sosioloji institutların, politoloq və filosofların, strateji tədqiqat mərkəzlərinin görməli olduğu işi bu gün professor Ramiz Mehdiyev bütün ağırlığı ilə öz çiynində aparmaqdadır.

Hazırkı mərhələdə cəmiyyətin inkişaf istiqamətlərinin perspektivi müəyyən edilməlidir. Çox müxtəlif sahələrdə görülən işlərə demokratikləşmə və söz azadlığına, dövlətçilik və idarəçilik məsələlərinə, hamı üçün bir olan vətəndə kadr məsələlərinə, təhsil, mədəniyyət və səhiyyə sahəsində yaranmış böhran vəziyyətinin aradan qaldırılmasına qəti və aydın münasibət bildirilməlidir.

Yeni milli təhsil, səhiyyə konsepsiyaları hazırlanmalı, ölkədəki korrupsiya işlək qanunlar əsasında aradan qaldırılmalıdır. Bunun üçün isə kommunist idarəçiliyi, dövlətçiliyi təcrübəsindən tamamilə qopub milli və dünyəvi dəyərlərə söykənməliyik. Bütün bu kimi nəzəri və strateji məsələlər R.Mehdiyevin son tədqiqatlarında, o cümlədən haqqında bəhs etdiyimiz əsərdə geniş elminəzəri şərhini tapmışdır. Bununla belə, cəmiyyət və dövlət qarşısında hələ dünya birliyinə inteqrasiyaya qoşulmaq üçün bir çox vacib və mühüm məsələlərin həlli dayanmaqdadır. Bunlar isə ilk növbədə politoloq və iqtisadçılar, sosioloqlar tərəfindən öz həllini tapmalıdır. Professor Ramiz Mehdiyev bu barədə yazır: "Tədqiqatçılar Azərbaycanın dünya birliyinə inteqrasiyasınm əsas amillərini müəyyənləşdinnəli, habelə Azərbaycän cəmiyyətinin texnogen sivilizasiyaya tədricən daxil olmasının perspektivləri nəzərə alınmaqla kütləvi şüurda kommunist epoxası

stereotiplərinin dəyişməsi probleminin həlli yollarını tapmalıdırlar. Şübhəsiz ki, bütün bunlar ən yaxşı milli ənənələrin və mədəniyyətin Qərbi Avropa mədəniyyətləri ilə sintezi əsasında həyata keçirilməlidir" (səh. 61). Bu proses isə birdənbirə həyata keçirilə bilən hadisə deyildir. Müəllif bu mülahizəsində belə bir dəyərə söykənir ki, biz ilk öncə müstəqil bir xalq kimi özümüzün millimənəvi dəyərlərimizi, adətənənələrimizi öyrənməli, onları bərpa edib qabaqcıl düşüncə modelində dünyaya təqdim etməliyik. Sonrakı mərhələdə isə onların Avropa dəyərləri ilə sintezi prosesinin hərəkətə gəlməsi mümkün olan hadisələrdən hesab edilə bilər. Burada qlobal dünyaya qovuşmaya kortəbii, yaxud zamanın tələbindən doğan proses kimi yanaşılmasına münasibət aydın şəkildə özünü göstərir. Müəllif dünya nəzəri fikrindən çıxış edərək müasir mərhələdə milli dövlət kimi Azərbaycanın qlobal dünya qovşağında yerini möhkəmləndirməsi üçün hələ bir çox iqtisadi-siyasi, bankmaliyyə, mədənisosioloji və idarəçilik islahatlarının həyata keçirilməsinin zəruri olduğunu göstərir. Bu cəhətdən monoqrafiyanın ikinci fəslində Azərbaycanın modernləşdirilməsi və müasir mərhələdəki inkişaf yollarından bəhs edən məsələlər dövlətçiliyimizin müasir inkişaf mərhələsi üçün son dərəcə əhəmiyyətli və perspektivlidir. Dövlətçilik nəzəriyyəsinə yaxından bələd olan müəllif cəmiyyəti xəbərdar edir ki, dünya birliyinə nüflız edən modernləşdirmə industrial sivilizasiya adlanan "ikinci dalğa"nı əvəz etməyə başlamışdır. Artıq dünya sivilizasiyası "üçüncü dalğa" Toffler dalğası ilə üzüzə qaldığı indiki mərhələdə yeni müstəqillik əldə etmiş dövlətlərdə modernləşdirmə təbii proses kimi özünü göstərir. Müstəqillik əldə etmiş başqa dövlətlər kimi, Azərbaycanda da yeni təfəkkür, intellektin yeni yüksəlişi labüddür. Ölkə gələcəkdə necə idarə edilməlidir, mədəni inkişaf necə tənzimlənməlidir, kütləvi yoxsulluğa, dünyanı bürüyən dəhşətli xəstəliklərə son qoyulmalı, intellekti formalaşdıran, dağılmış və korrupsiyaya uğramış, təhsili fəlakət burulğanmdan xilas edib xalqın istifadəsinə vermək imkanları müəyyən edilməlidir. Müəllifin bu istiqamətdəki mülahizələri dünya təcrübəsindən çıxış edib Azərbaycanın özünəməxsus milli modernləşdirmə proqramına möhtac olduğu xüsusilə vurğulanır.

Monoqrafiyada qloballaşma dövründə dövlət və cəmiyyət problemlərinin önə çəkilməsi də yüksək dəyərləndirilməlidir. Dövlət yeni şəraitdə cəmiyyəti və iqtisadiyyatı idarəetmə yollarının nəzəri-praktiki əsaslarını

müəyyənləşdirməsə, ölkədə yüksək inkişaf tempinə nail olmaq mümkün deyildir. Burada müəllif haqlı olaraq göstərir ki, "...qloballaşma, ilk növbədə maliyyə bazarlarına və kapital axınına, istehsalın xarakterinə və informasiyanın ötürülməsinə, yükdaşımaların və kommunikasiyaların formalarına və sürətinə, habelə insanların həyat tərzinə təsir göstərir, eyni vaxtda onların həyatını unifikasiya edir və fərdiləşdirir" (səh. 134). Təbii ki, bütün bunları həyata keçirmək üçün dövlət yeni iqtisadi və maliyyə, eləcə də idarəçilik strukturları silsiləsini yaratmaqda fəaliyyətini istiqamətləndirməyə borclu olduğu kimi, cəmiyyət də həmin infrastrukturun idarəçilik modelinə yaxınlaşmalı, milli intellektin yüksəlişi təmin edilməlidir. Bu isə ölkədə təhsilin, mədəniyyətin yeni infrastrukturlarını, idarəçilik aparatmı yaratmağın həyata keçirilməsidir.

Geniş və çoxcəhətli dünya iqtisadi əməkdaşlıq sistemi kimi qəbul edilən qloballaşmada fəal mövqe əldə etmək üçün ölkə qarşısında duran çox mühüm iqtisadi və mədəni problemlərə, onların həllinə dair monoqrafiyada strateji proqram əhəmiyyətli müddəa və tövsiyələr az deyildir. Bunlar ölkəni sabaha aparan yolun başlıca nəzəri əsaslarıdır ki, onlara praktik təcrübədə diqqət yetirmədən, əsaslanmadan irəliləyişə nail olmaq, dünyanın yeni nizamında öz yerini müəyyənləşdirmək, əslində, mümkün deyildir. "Qloballaşmanın məddahları və əleyhdarları" bölməsində bu məsələlərə aydınlıq gətirilir. Bu sahədə fəaliyyətdə olan başlıca istiqamətlər dünya nəzəri fikri əsasında diqqətdən keçirilir. "Modernlik və postmodernlik" bölməsində ilk öncə qərbləşməyə meylə birmənalı olmayan münasibətlər sisteminə bir çox dövlətlərin təcrübəsi əsasında münasibət bildirilir. Müəllif bir çoxları üçün hələ də müəmmalı olan problemi belə açıqlayır: "Qərbləşmənin əsl mahiyyəti nədir? Nə üçün bəziləri onda yığılıb qalmış problemlərin həllini, başqaları isə təhlükə görür? Qərbləşməyə bir neçə müstəvidə baxmaq olar, lakin onun əsasında qlobal fikir yeniliyinin formalaşdırılması durur.

...Bu anlayışa, hər şeydən əvvəl, Qərb cəmiyyətləri strukturlarının, texnologiyalarının, həyat tərzinin qeyri-Qərb cəmiyyətlərinə köçürülməsi ideyası daxildir. Bundan əlavə, qərbləşmə qeyriQərb ölkələrinin xalqlarında Şimali Amerika, Qərbi Avropa ictimai sistemlərinin şəksiz üstünlüyünə inam formalaşdırmaq cəhdidir" (səh. 152). Daha sonra isə qərbləşmənin milli dövlətçiliklərə vurduğu mənəvi zərbə, "qızıl əsr"ə qayıtmaq,

milli dilləri, xarakter və ənənələri aradan qaldırmaqla sivilizasiyanın başlanğıcına qayıdışa aparırmı?" məsələsi gündəmə çıxarılır (səh. 155). Müəllif "qloballaşma", "modernləşmə" ilə "qərbləşmə" arasındakı anlayışları birbirindən fərqləndirmə lüzumundan bəhs etməklə milli mədəniyyətin avropalaşma meyillərinə münasibət formalaşdınnaqla onların hər birinə aydın münasibət ifadə edir. Müəllifm fikrincə, 1993-cü ildən ölkədə davam edən modernləşmə səmərəli olmuşdur. 1996-cı ildən başlayaraq onun yeni ikinci fazası ölkə əhalisinin daha geniş və fəal hissəsini əhatə edə bilmişdir. Bu isə, ümumilikdə, ölkənin demokratikləşməsinə, iki yüz ilə yaxın müddətdə xalqa tətbiq edilən "müstəmləkə şüuru"nun parçalanıb yaddaşdan pozulmasına əsaslı təsirini göstərməkdə davam etməkdədir. Milli ideologiyanm inkişafının üçüncü səviyyəsi cəmiyyətdə antidemokratizm ovqatını "söndürə", ənənəçilik təzahürlərinin qalıqlarını neytrallaşdıra bilən kənar amartizator rolu oynamalı idi. Təbii ki, bu, təhlükəli proses idi, milli dəyərlərin sıradan çıxmasına aparıb çıxara bilərdi. Ona görə də müəllif milli düşüncə üçün təhlükəli olan meylin qarşısmı almağın yolunu aydın şəkildə əks etdirir: "Bu zaman başlıca vəzifə Azərbaycanda sosial və texnoloji dəyişiklikləri həyata keçirmək, habelə milli mədəniyyətin özünəməxsusluğunun qorunub saxlanmasına təminat vermək, etibarlı sosial müdafiəni və əlbəttə, şəxsiyyət azadlığmı təmin etmək, beləliklə də iqtisadi səmərəliliyi sosial ədalətlə birləşdirmək idi" (səh. 207). Müəllif o mülahizəsində də tamamilə haqlıdır ki, cəmiyyət qloballaşmanın müxtəlif tipli problemləri ilə üz-üzə qaldıqda dövlət milli mentaliteti üstün tutmaqla, onu qoruyub saxlamaq üçün təcili tədbirlər həyata keçirməklə qlobal inkişaf tempi vasitəsilə cəmiyyətin təzad və ziddiyyətlərini tənzimləmək fıınksiyasını həyata keçirməlidir.

Dövlətçilik ənənəsindən məlumdur ki, hər bir dövlətin özünəməxsus siyasi və iqtisadi strategiyası olmalıdır. Müstəqillik əldə etmiş dövlətlər üçün bu strategiyanm sabitliyi, dinamikliyi isə son dərəcə vacibdir. Bu mənada professor Ramiz Mehdiyevin monoqrâfıyada haqqında geniş şəkildə bəhs etdiyi, zəngin nəzəri, elmipraktiki, iqtisadi və statistik məlumatlar əsasında yazdığı "Müstəqil Azərbaycanın siyasi və iqtisadi strategiyası" bölməsi həmin sahədəki boşluğu aradan qaldırmaqla uzunmüddətli proqram sənədi təsirini bağışlayır. Bu bölümün geniş şəkildə, ayrıca öyrənilməsinə ehtiyac duyulduğunu etiraf etmək gərəkdir. Ona görə ki, bu-

rada antik dövrdən başlayaraq yeni dövrə qədərki sivil cəmiyyətlərin böyük sıçrayışa aparıb çıxaran siyasi və iqtisadi strategiyaları müxtəsər şəkildə sərfnəzər edilir. Müəyyən tarixi kəsimlərdə əsrin müxtəlif guşələrində dövlət idarəçiliyinin özünəməxsus metodları, forma və xüsusiyyətlərindən söz açılır. Birinci və ikinci dünya müharibələrindən sonra dünya siyasi xəritəsində baş verən dəyişikliklər, Şərq-Qərb münasibətləri, qarşıdurma və tərəfdaşlığmın başlıca istiqamətləri müxtəsər şəkildə xülasə edilir. SSRİ tərkibində və ondan sonrakı mərhələdə müstəqil Azərbaycan dövlətinin siyasi dəstxətti, SSRİnin dağılma ərəfəsində müttəfiqlərin xəyanəti və Mixail Qorbaçovun Qarabağı ermənilərə "bağışlamaq" siyasəti nəticəsində Cənubi Qafqaz regionunda yaranmış vəziyyətdən Azərbaycanın müstəqilliyinə əngəl kimi istifadə cəhdləri və bu halda xalqımızın müstəqillik əzmi yüksək dəyərləndirilir. Bundan sonra isə Azərbaycanın xarici siyasət dəstxətti "Müstəqil Azərbaycanın xarici siyasi oryentirləri" bölməsində ətraflı xülasə edilir. 1990-1992-ci illərdə xarici siyasətdə özünü göstərən siyasi fəallıq, 1993-cü ildə isə Heydər Əliyev hakimiyyətə gəldikdən sonra xarici siyasətdəki qlobal dəyişikliklər geniş şərh olunur. Məhz ulu öndər Heydər Əliyevin uzaqgörən xarici siyasəti sayəsində Azərbaycanın dünya neft bazarında yeni mövqelər əldə etməsi, Amerika Birləşmiş Ştatları və aparıcı Avropa dövlətlərinin bu bazada Azərbaycanı dəstəkləməsi ölkə xarici siyasətinin ilk mühüm uğurları idi.

Monoqrafiyada 1995-ci ilin noyabrmda referendum yolu ilə qəbul edilmiş Konstitusiyada yeni iqtisadi sistemə keçidlə əlaqədar təsdiq edilmiş xəttin yüksək sürətli inkişafının spesifikası geniş təhlilini tapır. Eyni zamanda, 1992-1993-cü illər ərzində iqtisadi inkişafa təsir göstərən amillərin şərhinə də geniş diqqət yetirilir. Buradan müəllifin yeni dövr inkişaf mərhələsində müstəqil Azərbaycanın yeni siyasi və iqtisadi strategiyasının hazırlanmasında mütəxəssislərin vətəndaş mövqeyinə üstünlük verilməsi, ümumilikdə bu strateji proqramı milləti və xalqı yeni iqtisadi sıçrayışlara aparan sənəd kimi görmək istədiyi ifadə edilir.

Burada milli həmrəyliyə aparan çox mühüm bir məsələyə də geniş yer ayrılmışdır. Bu, hakimiyyət və müxalifət arasında inkişaf naminə rəqabəti formalaşdıran siyasi mübarizə xəttidir. Müəllif Azərbaycanda mövcud olan bu mübarizə xəttinin yeni siyasi mübarizə forması olmadığını göstərmək üçün dünya təcrübəsinə istinad edərək tarixə səyahət edir. Müxali-

fət-iqtidar münasibətləri tarixinin maraqlı səhifələrini xatırladır. Həmin bölmədə belə bir ümumi fikir vurğulanır ki, inkişaf naminə bəzən kəskinləşən, bəzən də öz axarına düşən bu münasibətlərin sivil mübarizə formalarına gəlib çıxmasına cəmiyyətin xüsusi ehtiyacı var. Cəmiyyətin və dövlətin qloballaşma qovşağmda yetəcəyi mühüm nailiyyətlərindən biri də demokratiyaya qovuşmaq, demokratik dəyərlərə bütün dövlət və cəmiyyət fövqündə nail olmaqdan ibarətdir. Çünki "XX əsrin axırları XXI əsrin dünya nizamı demokratiyanı dövlət və cəmiyyətin inkişafmın prioriteti kimi meydana çıxarınış və demokratik quruluşu sivilizasiyalararası və dövlətlərarası dialoqun əsas amili kimi müəyyənləşdirir" (səh. 365). Bütün bunlar isə qloballaşma qovşağı fövqünə yüksələn cəmiyyətimizin probemləridir. Professor Ramiz Mehdiyevin bu gün cəmiyyətin və dövlətin öz inkişaf yolunu müəyyənləşdirməli olduğu məsələlərə nəzəri və praktiki cəhətdən aydınlıq gətinnəsi təqdirəlayiq hadisədir. Ümumilikdə "Azərbaycan: qloballaşma dövrünün tələbləri" monoqrafiyası yeni siyasi və iqtisadi təfəkkürün məhsulu, milli dövlətçilik nəzəriyyəsi və təcrübəsi tariximizi araşdıran dolğun məzmunlu əsər kimi əhəmiyyətli və faydalıdır.

**Azad NƏBİYEV,**
**Bakı Dövlət Universitetinin**
**kafedra müdiri, professor,**
**AMEA-nın müxbir üzvü**

*13 iyul, 2005*

# TARİXİ KEÇMİŞİMİZİN VƏ GƏLƏCƏK TƏRƏQQİ SALNAMƏMİZİN FUNDAMENTAL TƏDQİQAT ƏSƏRİ

Azərbaycan tarixini obyektiv öyrənmək, keçmişimizi düzgün təhlil etmək müstəqil ölkəmizin tarixçiləri qarşısında duran əsas vəzifofordəndir. Ümummilli liderimiz Heydər Əliyev hələ ötən əsrin 70-ci illərində Azərbaycan tarixinin əsl mahiyyətinin açıqlanması məqsədilə həyata keçirdiyi uğurlıı tədbirləri 1993-cü ildən etibarən sistemli hala saldı. Bunun nəticəsində tariximizin indiyədək öyrənilməmiş, yaxud da yasaqlanmış mərhələldə, örtülü məqamları tədqiqat mövzusuna çevrildi, milli keçmişimizin reallıqları xalqa daha dəqiqliklə çatdırıldı. Ulu öndər Heydər Əliyev Azərbaycan tarixini öyrənməyi həm də o baxımdan zəruri sayırdı ki, keçmişimiz gələcək inkişaf istiqamətlərimizi də müəyyənləşdirməli, perspektiv tərəqqi modeli və ölkəmizin beynəlxalq məkana inteqrasiya siyasəti məhz tarixi dəyərlərimiz əsasında əksini tapmalıdır. Əbədiyaşar rəhbərimiz çox haqlı olaraq deyirdi ki, "keçmişi olmayan millətin gələcəyi də olmaz. Hər bir xalq ilk növbədə öz tarixini öyrənməlidir ki, gələcəyini düzgün hesablaya bilsin".

Bu gün bütün dünyanın qloballaşma deyilən siyasi iqtisadi ictimai mədəni mənəvi vəhdətləşmə, bütövləşmə və inteqrasiya olunma prosesinə qədəm qoyduğu bir zamanda hər bir xalqın keçmişi, milli-mənəvi dəyərləri daha məsuliyyətlə öyrənilir. Millətlərin və mədəniyyətlərin müxtəliflikləri bəşəriyyəti nə qədər zənginləşdirirsə, qloballaşmanın astanasında olan xalqlar da öz tarixi və mədəni mənsubluqlarını tədqiqata cəlb etmək və qorumaqla daha sıx inteqrasiyaya qloballaşmaya daxil olurlar. Bu zəruri prosesi hələ çox əvvəldən duyan ulu öndərimiz Heydər Əliyev Azərbaycanı siyasi və iqtisadi cəhətdən ən sivil dəyərlər əsasında inkişaf etdirməklə yanaşı, xalqı sivilizasiyaların sıx inteqrasiyasına da hazırlayır, ancaq bu prosesdə sadə azərbaycanlıların kosmopolit düşüncə tərzi ilə deyil, əksinə, millətinə və tarixi keçmişinə bağlı vətəndaşlar kimi iştirakına çalışırdı.

Ölkəmiz qloballaşma prosesində hansı uğurlar və natamamlıqlarla üzləşəcək? Qloballaşma nəticə etibarilə xalqımızın milli simasının itirilməsi ilə yekunlaşa bilərmi? Bütün bu kimi narahat suallar indi hər bir ölkə vətəndaşım, hətta bu proseslərdən daha çox xəbərdar olan ziyalıları, alimləri belə düşündürür. Düzdür, qloballaşmanın mahiyyətini açıqlayan, məziyyətlərini təhlil edən xeyli nəzəri tədqiqat əsəri, mükəmməl elmi araşdırmalar var. Ancaq onu da etiraf edək ki, bu prosesdə Azərbaycanın spesifikasını öyrənən, məhz Azərbaycan reallıqları baxımından qloballaşmanın müsbət və mənfi əlamətlərini müəyyənləşdirən elmi vəsaitlər yox idi. Bu sahədə böyük boşluq vardı. Ancaq ölkə ziyalılannı, elmi tədqiqatçıları narahat edən bu çatışmazlığa, nəhayət ki, son qoyuldu. Görkəmli dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor, milli və social-siyasi münasibətlərin, müasir Azərbaycan dövləti və cəmiyyətinin inkişafı problemlərinə həsr olunmuş ən yaxşı əsərlərin müəllifi Ramiz Mehdiyevin növbəti kitabı qeyd etdiyimiz sahədə böyük elmi axtarışların nəticəsi olaraq meydana çıxdı. "Azərbaycan: qloballaşma dövrünün tələbləri" adlı əsərdə professor Ramiz Mehdiyev Azərbaycanın müasir sosial-iqtisadi və siyasi inkişafmı dərindən təhlil edib. Müəllif qloballaşan dünyanın yeni reallıqlarını nəzərdən keçirir, qərbləşmənin və modernləşmənin Azərbaycan cəmiyyətinə təsirini təhlil edir. Eyni zamanda, postsovet məkanında demokratikləşmə prosesinin, Azərbaycanda gedən sosial-iqtisadi, siyasi islahatların və proseslərin ümumi istiqamətini göstərmək üçün Qərb konsepsiyalarından istifadənin yolları və mümkünlüyünün araşdırılmasına geniş yer verilir.

Kitab "SSRİ-nin dağılması: yeni realhqlar və yeni imkanlar", "Azərbaycanın modernləşdirilməsi: inkişaf yolları", "Qloballaşma dövründə dövlət və cəmiyyət", "Müstəqil Azərbaycanın siyasi və iqtisadi strategiyası", "Hakimiyyət və müxalifət: inkişaf naminə rəqabət" və "Demokratiya dövlətin və cəmiyyətin inkişafının prioriteti kimi" sərlövhəli fəsillərdən ibarətdir. Mövzulardan da göründüyü kimi, bu əsər çoxşaxəli elmi araşdırma və geniş tarixi tədqiqat məcmusudur.

Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev ilk olaraq dünya tarixindəki ən nəhəng imperiyalardan birinin SSRİ-nin süqutunun səbəbləri və bunun doğurduğu nəticələri təhlil edif və bildirir ki, İttifaqın dağılması yalnız siyasi, sosial və ideoloji səbəblərlə bağlı deyil, bu, həm də iqtisadi proseslərin nəticəsidir. Mövzunu ötən əsrin 20-ci illərindən etibarən bolşeviklərin həyata keçirdiyi iqtisadi proseslər kontekstindən başlayaraq

peşəkarhqla təhlil edən müəllif vurğulayır ki, artıq 70-ci illərdən sonra inkişaf sürətinin aşağı olması, sovet mallarının dünya bazarın da rəqabət apara bilməməsi ölkə iqtisadiyyatını xarici amillərdən getgedə daha çox asılı edirdi. Qabaqcıl ölkələr qarşılaşdıqları böhrandan çıxmaq üçün siyasi və iqtisadi yollar arayıb tapırdısa, sovet sisteminin buna, sadəcə, gücü yox idi. 1980ci illərin "yenidənqurması" da aydın konsepsiyası olmayan şüarçılıqdan başqa bir şey deyildi. Bir sözlə, sovet iqtisadiyyatı inkişaf etmiş ölkələrlə müqayisədə çox geri qalırdı. Bütün bunları geniş təhlil edən professor Ramiz Mehdiyev belə qənaətə gəlir ki, bu vəziyyət, ümumən sovet cəmiyyətinin inkişafdan qalması ciddi sosial səbəblər doğururdu.

Bütün bu problemlərin fonunda istisna halların da olduğunu qeyd edən fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev faktlara əsasən 1970-ci illərdə Azərbaycanın iqtisadi və sosial həyatında baş vermiş böyük dəyişiklikləri təhlil edir. SSRİ-nin süqutuna gətirib çıxaran əsas səbəbləri tədqiq edən müəllif 1988-1993-cü illərdə Azərbaycanda gedən proseslərin, həmin dövrdə siyasi naşıların ümidinə qalmış ölkənin düşdüyü vəziyyətin təhlilinə də geniş yer ayırır.

Modernləşdirmənin nəzəri cəhətlərindən bəhs edərkən professor Ramiz Mehdiyev haqlı olaraq bildirir ki, Azərbaycanda bu prosesin ilkin mərhələsi 1970-ci illər 1980-ci illərin əvvəlinə təsadüf edir. Məlum dəyişikliklər nəticəsində Azərbaycan İttifaqda ən aparıcı respublikalar sırasına çıxmışdı. 197180ci illərdə SSRİnin milli gəlirində Azərbaycanın payı 46 faiz artmışdı. Bütün bunlar göstərirdi ki, o dövrdə respublika rəhbərliyi iqtisadiyyatı modernləşdirməyə və əhalinin rifahını yaxşılaşdırmağa çalışırdı. 1993-cü ildə ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıtması ilə modernləşdirmənin müasir mərhələsinin başlandığını qeyd edən müəllif göstərir ki, bu tarixi dövr Azərbaycanın milli intibahı, social-siyasi inkişafı, bir dövlət olaraq öz haqqını beynəlxalq birlikdə təsbit etməsi ilə əlamətdar oldu.

Bu mərhələnin inkişaf ideologiyası barədə olduqca maraqlı və yeni mülahizələri gündəmə gətirən professor Ramiz Mehdiyev hesab edir ki, liberalizm və mühafizəkarlığın sintezi olan neokonservatizm Azərbaycan üçün daha məqbul ideoloji konstruksiyadır. Ümummilli liderimiz Heydər Əliyevin dövlət idarəçiliyinin nadir xüsusiyyəti də elə bundadır ki, müstəqil, demokratik Azərbaycan dövlətinin qurulmasında həmin ideoloji simbiozdan məharətlə istifadə etmişdir. Müəllif vurğulayır ki, insanın cəmiy-

yət-dövlət sistemində yeri və rolu haqqında biliklərin toplusu, milli ideyaları daxili və xarici siyasət sahəsində reallaşdırmağın çox mühüm mexanizmi kimi milli ideologiya yeni dövrün prioritetinə çevrilmişdir. Bu baxımdan azərbaycançıhq milli ideologiyanın nümunəsi sayıla bilər. Müəllif yazır: "Azərbaycançılıq ideyasının dərk olunmasının əsasında Azərbaycan millətinin tarixi, mənəviəxlaqi və mədəni ənənələri zəminində birlik ideyası durur və bu, nəinki indi, həm də uzaq gələcəkdə azərbaycanlıların təkcə bir yox, bir çox nəsillərinə xidmət edəcəkdir və müstəqillik və milli eyniyyət həmin nəsillər üçün layiqli həyatının və şəxsi azadlığının ayrılmaz atributlarına çevriləcəkdir".

Müstəqil Azərbaycanın siyasi və iqtisadi strategiyasına nəzər salan professor Ramiz Mehdiyev bildirir ki, ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi və həyata keçirdiyi daxili və xarici siyasətdə Azərbaycanın milli təhlükəsizlik strategiyasının prioritetlərinin müəyyən edilməsi üçün ilkin şərait yaradılmışdır. Müəllif vurğulayır ki, iqtisadiyyatdakı bütün müsbət meyillər güclü və səmərəli dövlətçiliyin yaradılması işinə xidmət edir. Son onillikdə əldə edilən siyasi və iqtisadi nailiyyətlərdən bəhs edən fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev qeyd edir ki, bu uğurlardan əvvəl 1993-cü ilədək cəmiyyətdə sərt siyasi, iqtisadi, sosial və humanitar tənəzzül, fərdin təcrid edilməsi prosesi cərəyan edirdi. Xalqının və dövlətinin taleyinə və gələcəyinə biganə qalmayan yeni Azərbaycan elitası məhz bütün bu köhnəliklərlə, sosial və siyasi ədalətsizliklərlə mübarizədə formalaşırdı. Professorun qənaətincə, müstəqil Azərbaycanın siyasi elitası məhz ümummilli liderimiz Heydər Əliyevin 1990-cı ilin 22 yanvarında Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəlməsindən sonra formalaşmağa başladı. Bu mürəkkəb keçid dövrü demokratik dəyərlər, sərbəst iqtisadiyyat, azadlıq və dövlət müstəqilliyi uğrunda mübarizə aparmağa qadir olan müasir milli siyasi elitanın mənəvi və siyasi amalının meydana çıxmasının başlanğıcı oldu. Azərbaycan Prezidenti cənab İlham Əliyevin həmin dövrlərdə Heydər Əliyevin ən yaxın yardımçılarından olduğunu faktların dili ilə oxucuya çatdıran müəllif haqlı olaraq bildirir ki, yeni siyasi elitanm ən parlaq nümayəndəsi olan hazırkı dövlət başçısı o zaman Azərbaycan xalqının apardığı mübarizənin şahidi və iştirakçısıdır.

Professor Ramiz Mehdiyev əsərində çox vacib suallara cavab axtarır: qloballaşma və qərbləşmə kontekstində Azərbaycanın modernləşməsi necə olmalıdır? Qərbləşməni rədd etmək və milli "mən"i qoruyub saxlaya

raq modernləşə bilərikmi? Bu suallar, yuxarıda qeyd etdiyimiz kimi, qloballaşmanın doğura biləcəyi fəsadlardan narahat olan hər bir vətəndaşı çox ciddi düşündürür. Müəllif keçmişlə gələcək, milli dəyərlərlə bəşəri prinsiplər arasında müqayisələr aparır, fərqli xalqların üzləşdikləri müxtəlif prosesləri təhlil edir və sonda qeyd edir ki, bu sualların cavabı həm sadə, həm də mürəkkəbdir: "Azərbaycanda 1993-cü ildən başlayan modernləşmə ideologiyası çoxcəhətliliyi sayəsində səmərəli olmuşdur. O, inkişafının ilk səviyyəsində ideologiyaya az bənzəyirdi, daha çox qloballaşma şəraitində ölkənin strateji inkişaf konsepsiyası funksiyasını yerinə yetirirdi. Modernləşmə ideologiyasının 1996-cı ildə formalaşan əsas səviyyəsi ölkə əhalisinin ən fəal hissəsini özünə cəlb edir".

Siyasi prosesləri şərh edən müəllif sivilizasiyalı dövlətdə mövcud olan iki siyasi qüvvənin  iqtidar və müxalifətin fəaliyyətini obyektiv təhlil edir. Müxalifətin dağıdıcıradikal hissəsinin apardığı köhnə mübarizə metodlannm onlann ən böyük uğursuzluğu olduğunu faktlann dili ilə göstərən professor Ramiz Mehdiyev qeyd edir ki, Azərbaycan öz inkişafmın elə bir mərhələsinə daxil olmuşdur ki, indi müxalifətiqtidar münasibətləri, hakimiyyət uğrunda mübarizə yalnız sivilizasiyalı, demokratik forma və metodlarla aparıla bilər. Bu isə dialoq, real şüarlann və daha cəlbedici sosial-iqtisadi  proqramların irəli sürülməsi yoludur. Azərbaycanın "köhnə" müxalifəti quruculuq məsələləri ilə bağlı baxışlannı müasir tələblərə uyğunlaşdıra, dünya təcrübəsi ilə zənginləşdirə bilməmişdir. Buna görə də onunla qarşısına dövləti, cəmiyyəti modernləşdirmək, vətəndaş konsensusunu inkişaf etdirmək məqsədini qoymuş iqtidar arasında ixtilaf yaranmışdır. Dövlətin və cəmiyyətin inkişafında demokratiya prioriteti barədə təhlillərində müəllif qeyd edir: ümummilli liderimiz Heydər Əliyevin fəaliyyəti təsdiq edir ki, hakimiyyətin optimal modelini tapan, hətta banşmaz ziddiyyətləri aradan qaldıran, cəmiyyətdə vəziyyəti sabitləşdirən, millətin bütün imkanlannı səfərbər edən, müxtəlif qüvvələrin və bütövlükdə cəmiyyətin siyasi tarazlığını yaradan hər kəs siyasi uğur qazana bilər.

"Yeni dövrün siyasətçisi" bölməsində ölkə Prezidenti İlham Əliyevin fəaliyyətindən, onun daxili va xarici siyasətlə bağlı baxışlarından bəhs edilir. Müəllif inamla bildirir ki, ulu öndərimizin siyasətini davam etdirən Prezident İlham Əliyevin yolu yeniliklə ənənələri ahəngdar surətdə birləşdirir və bu yol Azərbaycanı hökmən tərəqqiyə və fıravanlığa çatdıracaqdır. Dövlət başçısının idarəçilik metodlarından, vətəndaşla işləmək prinsiplərindən danışılarkən professor Ramiz Mehdiyev qeyd edir: "İlham Əliyev is-

tedadlı şagird olub və öz müəllimindən, uzaqgörən dövlət xadimi, xarakterində milli ideyalara və prinsiplərə möhkəm sadiqlik, bəsirət kimi keyfiyyətlərin nadir

şəkildə birləşdiyi Heydər Əliyevdən çox mühüm dərs almışdır. İlham Əliyev müasir şəraitdə dövləti idarə etməyin hikmətinə tamamilə yiyələnmişdir... Onun fəaliyyətinin güclü cəhəti məhz insanları sıx birləşdirməyi, bu enerjini müəyyən hərəkət formalarına yönəltməyi bacarmasıdır... İlham Əliyevin həyat yoluna nəzər salarkən demək lazımdır ki, onun siyasi, iqtisadi və mənəvi baxışlarının formalaşmasına təsir göstərən heç də təkcə ailə tərbiyəsi olmamışdır. Görünür, bunda onun şəxsi keyfiyyətləri, intellekti, ümumi mədəniyyəti, təvazökarlığı, şüurlu həyatı boyu topladığı bütün qiymətli və müsbət nə varsa, hamısmı faydalı şəkildə sintezləşdirmək bacarığı mühüm rol oynamışdır. Təsadüfi deyildir ki, Heydər Əliyevdən savayı, başqa heç bir siyasətçinin qısa müddət ərzində İlham Əliyevin nail olduğu qədər belə geniş, kütləvi sosial bazası yoxdur".

Müəllif cənab İlham Əliyevin fəaliyyətini təhlil edərək bu qənaətə gəlir ki, Azərbaycan Prezidentinin dəyərlər sistemində iki vacib tərkib hissə var: güclü dövlət və dövlətin modernləşməsi. Bu prinsiplərin siyasi və iqtisadi təsnifatını verən fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin yekun rəyi budur ki, ölkə rəhbərinin getdiyi yol yeniliyi ənənələrlə ahəngdar şəkildə uzlaşdırır və bu yol ölkəni hökmən tərəqqi və firavanlığa çatdıracaqdır.

Tarixi keçmişimizin və gələcək tərəqqi salnaməmizin fundamental tədqiqat əsəri olan bu kitab həm də son 35 ildəki siyasi proseslərin obyektiv şərhini verir. Dövlət idarəçiliyi sahəsində ümummilli liderimizin sadiq kadrlarından, böyük siyasi məktəbin yetirmələrindən olan professor Ramiz Mehdiyevin bu monoqrafiyası Heydər Əliyevin qarşıya qoyduğu məqsədlərə çatmaqda biz alimlərə həqiqətən misilsiz kömək göstərir. Təsadüfi deyildir ki, professor Ramiz Mehdiyev "Azərbaycan: qloballaşma dövrünün tələbləri" kitabını müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin nurlu xatirəsinə həsr edib. Bəli, bu əsər ulu öndərimizin əbədiyaşar irsinə sanballı töhfə və böyük ehtiramın nümunəsidir.

**İsmayıl MƏMMƏDOV,**
**Bakı Dövlət Universitetinin professoru,**
**tarix elmləri doktoru**

*11 avqust, 2005*

# HEYDƏR ƏLİYEV SİYASİ İRSİ TÜKƏNMƏZ XƏZİNƏDİR

## *Keçmişin tədqiqi: gələcəyin düzgün müəyyənləşdirilməsi*

Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin "Azərbaycan: qloballaşma dövrünün tələbləri" monoqrafiyası ilə tanışlıqdan sonra özlüyündə qətiləşdirirsən ki, ümummilli lider Heydər Əliyevin fəaliyyətinin elmi tədqiqatına çox mükəmməl əsaslarla başlanılıb. Müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin nurlu xatirəsinə həsr edilmiş bu əsər qloballaşma şəraitində Azərbaycan dövlətçiliyinin təşəkkülü məsələlərinə həsr edilib. Monoqrafiyada xüsusi araşdırılan son 40 il Azərbaycan tarixinə Heydər Əliyev epoxası kimi həkk olunduğundan (xatırladaq ki, bu mərhələlərdə qazanılan uğurların müəllifı Heydər Əliyev olduğu kimi, 1988-1993-cü illərdə problemlər də məhz ulu öndərimizin siyasi hakimiyyətdə olmaması səbəbindən meydana çıxmışdı) demək, ümummilli liderimizin fəaliyyətinin öyrənilməsi "Azərbaycan: qloballaşma dövrünün tələbləri" əsərinin təbii olaraq əsas leytmotivi olmalı idi.

Monoqrafiyada, ümumiyyətlə, Azərbaycanın müasir sosial-iqtisadi və siyasi inkişafı ilə yanaşı, qlobal transformasiyalar, yeni dünya nizamının bərqərar olması və XX əsrin axırları. XXI əsrin əvvəllərində gedən siyasi proseslərin tranzitar cəmiyyətə intensiv təsiri dövründə dövlətin və cəmiyyətin mümkün inkişaf yolları təhlil olunur. Müəllif qloballaşan dünyanın yeni reallıqlarını nəzərdən keçirir, qərbləşmənin və modernləşmənin Azərbaycan cəmiyyətinə təsirini müəyyənləşdirir. Eyni zamanda, postsovet məkanında demokratikləşmə prosesinin, Azərbaycanda gedən sosial-iqtisadi, siyasi islahatların və proseslərin ümumi istiqamətini göstərmək üçün Qərb konsepsiyaların dan istifadənin mümkünlüyünün araşdırılmasına geniş yer verir.

"SSRİ-nin dağılması: yeni reallıqlar və yeni imkanlar", "Azərbaycanın moderaləşdirilməsi: inkişaf yolları", "Qloballaşma dövründə dövlət və cəmiyyət", "Müstəqil Azərbaycanın siyasi və iqtisadi strategiyası", "Hakimiyyət və müxalifət: inkişaf naminə rəqabət", "Demokratiya dövlətin və cəmiyyətin inkişafının prioriteti kimi" fəsillərdə adlardan da göründüyü kimi, nəinki elm adamlarını, ziyalıları, eləcə də hər bir Azərbaycan və

təndaşını düşündürən, hətta narahat edən məsələlər müzakirəyə çıxarılır, konkret faktlar, elmi mülahizələr və dəyərli araşdırmalar nəticəsində onlar barəsində müfəssəl şərh verilir.

## Sosial gerilikdən iqtisadi rifaha

Uğursuzluq zolağında intibah işartısı olduğunu müəllif Azərbaycanın ötən əsrin 70-80-ci illərdəki inkişaf dinamikası ilə təsdiq edir. Bu dövrü tədqiq edərkən professor Ramiz Mehdiyev doğru olaraq vurğulayır ki, İttifaqdakı sosial geriləmə tendensiyasının fonunda kiçik bir müttəfiq respublikada iqtisadi rifahın təmin edilməsi hansısa mücərrəd bir prosesin nəticəsi deyil, yalnız konkret şəxsiyyətin uzaqgörən siyasətinin və xalqa, dövlətə bağlı fəaliyyətinin məntiqi yekunu olmuşdur. "Dövlətin totalitar xarakterinin konkret fərdin və ya adamlar qrupunun ictimai proseslərə təsirini, əslində, mümkünsüz etdiyindən danışarkən Heydər Əliyev kimi liderin təcrübəsinə müraciət etmək istərdik. Son dərəcə müstəqil insan olan Heydər Əliyev kənardan "mərkəz"dən, Kremldən gələn təzyiqi həmişə kəskin şəkildə hiss edirdi. Respublika rəhbərinin və onu dəstəkləyən insanların, "mərkəz"in fikrincə, sovet dövlətinin "milli siyasətinə" zidd olan layihələri və təşəbbüsləri necə çətinliklə həyata keçirdiklərini sovet dövründə yaşayıb işləmiş, indisə yaşlı nəslə aid edilən adamların çox az qismi təsəvvür edə bilər. Amma nə gizlədəsən, Heydər Əliyevin sovet dövründə ali məqsəd və məramı Azərbaycanı heç də təkcə müttəfiq respublika kimi möhkəmlətmək deyildi. O, sanki gələcəyi öncədən görərək və sonrakı hadisələrin gedişini modernləşdirərək Azərbaycan dövlətçiliyinin müstəqil mövcudluq şəraitində fəaliyyət göstərməsi üçün ilkin zəmin yaradırdı. Özü də respublika rəhbərliyinin fəaliyyətinin "mərkəz"in göstərişləri ilə ciddi şəkildə tənzimləndiyi bir şəraitdə".

Professor Ramiz Mehdiyev bildirir ki, 1970-ci illər Azərbaycanda iqtisadiyyat sahəsində və sosial həyatda tərəqqi, böyük nailiyyətlər dövrü idi. Sənayenin inkişafı, mənzil tikintisinin intensivləşdirilməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, təhsilin və səhiyyənin keyfiyyətinin yaxşılaşdırılması müsbət nəticələrlə əlamətdar olurdu. Respublika rəhbərliyi kadrların rotasiyası və ölkənin hüdudlarından kənarda ixtisaslarının artırılması üçün genişmiqyaslı prosesə rəvac verirdi. Azərbaycanda modernləşmə pro-

seslərini araşdıran müəllif qeyd edir ki, modernləşmənin XX əsrin 70-ci illərini 80-ci illərinin əvvəllərini əhatə etmiş birinci mərhələsi milli özünüdərkin oyanışı, əhalinin rifahının yaxşılaşması və onun təhsil səviyyəsinin yüksəlməsi ilə bağlı idi. Milli tarixin bu dövrünü milli eyniyyətin təşəkkülü, rasional islahatlara və dəyişikliklərə qadir cəmiyyətin əsaslarının möhkəmləndiyi epoxa kimi səciyyələndirən müəllif cəmiyyətin həmin dövrdəki inkişaf xüsusiyyətlərinin təhlilinə əsaslanaraq bildirir ki, Azərbaycan millətinin gələcək müstəqil inkişafının bünövrəsi məhz o vaxt qoyulmuşdur.

## Xalqın müdrik seçimi - QURTULUŞ

"Azərbaycan: qloballaşma dövrünün tələbləri" monoqrafiyasında qeyd olunur ki, 1988-1993-cü illərdə ölkədə birbirini əvəz edən iqtidar xalqın mənafeyini düşünmək, respublikanı təcavüzdən və böhrandan xilas etmək əvəzinə daxildə siyasi intriqalarla məşğul olur, dəstəyi öz vətəndaşlarından deyil, əksinə, xarici dövlətlərdən almağa çalışırdılar. Həmin dövrdəki müxalifət də xalqın etiraz səsini öz şəxsi məqsədlərinin ödənməsinə xərcləyir, hakimiyyətə gəlmək niyyətini gerçəkləşdirmək üçün milli maraqları hərraca çıxarınaqdan belə çəkinmirdi.

1988-ci ildən etibarən müxalifət missiyasını üzərinə götürən qüvvələrin obyektiv təsnifatını verən müəllif "demokratlar"m fəaliyyətini təhlil edərək belə qənaətə gəlir ki, bu qismə aid siyasətçiləri, əslində, intellektual səviyyələrinə, peşəkarlıqlarına, səmimi niyyətlərinə görə çox aşağı səviyyəli insanlar kimi qəbul etmək lazımdır. Bu hadisələri, həmin dövrdəki ziddiyyətli prosesləri müfəssəl araşdıran, ziddiyyətli situasiyanın nəzəri izahmı verən professor Ramiz Mehdiyev monoqrafiyada xatırlatdığı bir haşiyə ilə 19881993-cü illərin acı mənzərəsini dolğun şəkildə canlandırır: "Bununla əlaqədar 1989-cu il yada düşür. Respublika Elmlər Akademiyasının o vaxtkı prezidenti Eldar Salayevdən soruşdum ki, nə üçün Xalq Cəbhəsinin liderləri alimlərə, ziyalıların digər nümayəndələrinə təkəbbürlə yanaşır və onlarla əməkdaşlıqdan, əslində, qaçırlar? O dedi: "Mən elə bu sualı Əbülfəz Elçibəyə verdikdə o, cavab verdi ki, bizə ziyalı və təhsilli adamlar yox, yalnız bərkdən qışqırmağı bacaran adamlar lazımdır". Bu sözlər həmin dövrdə "demokrat siyasətçilər" arasında hökm

sürən anarxiya və dağıntılara meyli çox gözəl səciyyələndirir. İctimai razılığı bərpa etmək, vətəndaş konsensusuna nail olmaq əvəzinə siyasətçilərin əksəriyyəti öz eqoist mənafe və iddialarının təmin edilməsi uğrunda mübarizəyə girişmişdi ki, bu da son nəticədə mənəviyyatın pozulmasına, dövlətçiliyin dayaqlarının sarsıdılmasına doğru aparırdı".

Xalqımızın böyük və qanlı faciələrlə müşayiət olunan bu tarixi dövründə iqtidarların səriştəsizliyi, anarxiya meyillərinin güclənməsi, bir sıra bölgələrdə separatçılıq hərəkatlarının başlanması, Ermənistanın həyata keçirdiyi təcavüzkarlıq, Dağlıq Qarabağın işğalı, iqtisadi durğunluq və tənəzzül kimi problemlər bir düyündə birləşmişdilər. Bütün bunlar vəziyyəti o dərəcədə kəskinləşdirmişdi ki, həmin illərdə dövlətçiliyi inkişaf etdirməyin, cəmiyyəti modernləşdirməyin mümkünlüyü, əslində, istisna olunurdu.

İqtisadiyyatın ucdantutma geriləməsi, əhalinin alıcılıq qabiliyyətinin dəhşətli dərəcədə aşağı düşməsi və inflyasiyanın tüğyan etməsi kimi ağır sosial problemləri xatırladan müəllif bildirir ki, həmin illərdə respublikanın ümumi daxili məhsulu iki dəfə azalmış, makroiqtisadi uyğunsuzluq kəskin surətdə güclənmişdi. Vəsait çatışmazlığına görə o dövrdə ölkə büdcəsi Milli Bankın kreditləri hesabına formalaşırdı, həmçinin ixrac və idxal 50 faiz, sənaye istehsalı 63 faiz, kənd təsərrüfatı istehsalı 47 faiz azalmış, əhalinin həyat səviyyəsi 3,6 dəfə aşağı düşmüşdü. 1993-cü ildə büdcə kəsiri 23,3 milyon manat olmuşdu ki, bu da ümumi daxili məhsulun 14,4 faizinə bərabər idi.

Qeyd edilən bütün bu problemlərin səbəb və nəticələri barədə geniş izahat verən müəllif vurğulayır ki, xalq düşdüyü çətin vəziyyətdən qurtulmaq üçün müdrik seçimini etdi. 1993-cü ilin 15 iyununda Heydər Əliyevin ölkə rəhbərliyində təmsil olunması ilə Azərbaycanda xaosdan tərəqqiyə keçidin əsası qoyuldu, QURTULUŞ salnaməsinin qızıl səhifələri yazılmağa başlandı.

## Tariximizin ən şərəfli səhifəsi

"Təbii ki, ideallar zaman-zaman dəyişir, çünki cəmiyyətin inkişafı özlüyündə son dərəcə dinamik prosesdir. Lakin mən bir məsələni qəti yəqin etmişəm: ideallar nə qədər dəyişsə də, Azərbaycan dövlətinin müstəqilliyinin təmin edilməsi Azərbaycan xalqının həmişə ali idealı olaraq qalacaqdır. Dövlətçiliyimizin təşəkkülü isə yalnız Heydər Əliyevin dahi şəx-

siyyəti sayəsində mümkün olmuşdur. Onun liderlik təcrübəsi və intellektual potensialı nəinki çox mürəkkəb və keşməkeşli şəraitdə dövlətçiliyimizi yaratdı, həm də bizim hamımıza özümüzü dünya birliyinin bərabərhüquqlu üzvləri kimi hiss etməyə təkan verdi" professor Ramiz Mehdiyevin bu fikirləri yalnız tarixi proseslərin tədqiqatı kimi meydana çıxmayıb. Bu mülahizə həm də fəaliyyətinin 30 ili Heydər Əliyev idarəçilik komandası ilə sıx bağlı olan, ulu öndərimizin apardığı dövlət quruculuğu prosesində aparıcı icraçılardan biri kimi özünü təsdiq edən ictimai xadimin vətəndaş mövqeyi, ziyalı münasibətidir.

Monoqrafiyada Heydər Əliyevin banisi olduğu müstəqil Azərbaycan dövlətinin inkişafı prosesi, problemlərin həlli, uğurlu iqtisadi və siyasi islahatların aparılması, yeni neft strategiyasının bəhrələri barədə geniş araşdırma aparılıb. Müəllif müstəqilliyin ilk iki ilində ölkəmizin tam beynəlxalq təcrid şəraitində yaşadığını xatırladaraq qeyd edir ki, Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanın xarici siyasət strategiyası kökündən dəyişməyə başladı. Milli xarici siyasət ölkənin iqtisadi tənəzzüldən çıxmasının təmin olunmasına yönəlmişdir. Məsələn, Azərbaycan 1994-cü ilin sentyabr ayında bir sıra beynəlxalq neft şirkətləri ilə "Əsrin müqaviləsi"nin imzalanmasına nail oldu ki, bu da Sovet İttifaqının dağılmasından sonra respublikamıza xarici sərmayələrin cəlb olunması üçün göstərilən ilk cəhd idi. Azərbaycanın xarici siyasəti həm də tarixi varislik prinsipinə istiqamətlənməyə başladı. Digər tərəfdən, milli maraqlar artıq yeni dünya nizamı çərçivəsində qiymətləndirilirdi. Azərbaycanın üzvü olduğu, yaxud da əməkdaşlıq etdiyi beynəlxalq və regional təşkilatlarla BINT, Avropa Birliyi, Avropa Şurası, NATO, ATƏT, MDB, GUAM, həmçinin dünyanın fövqəl və nüfuzlu dövlətləri (ABŞ, Rusiya, Qərbi Avropa ölkələri, Asiyanın nəhəng dövlətləri, sərhəd qonşuları) ilə əməkdaşlığının yeni mərhələdə başlaması və günügündən genişlənməsi, bu tərəfdaşlığın Dağlıq Qarabağ münaqişəsinin həllinə yardım göstərdiyi monoqrafiyada nəzəri cəhətdən təhlil edilir.

"Azərbaycan: qloballaşma dövrünün tələbləri" əsərində araşdırma mövzularından biri də müasir Azərbaycan cəmiyyətində siyasi elitanın formalaşması prosesləridir. Elitanın mövcudluğu siyasətin zəruri atributlarındandır, çünki siyasi funksiyalar öz-özünə həyata keçə bilməz. Odur ki, bugünkü Azərbaycan siyasi elitasının mahiyyətinin öyrənilməsi aktual və-

zifədir. Müəllif qeyd edir ki, müasir Azərbaycan cəmiyyətində ağlı, biliyi, geniş təfəkkürü və həyat təcrübəsini öz hərəkətlərinə, qəbul etdiyi qərarlara görə məsuliyyətlə birləşdirməyə qadir siyasətçinin olması sivilizasiyalı dövlət quruculuğunun ən mühüm amilidir. Heydər Əliyevin bütün bu siyasətçi keyfiyyətlərini özündə birləşdirmək bacarığı Azərbaycanda ənənəvi "dövlətcəmiyyət" dualizminin dəqiq və səmərəli sxeminin formalaşması üçün əlverişli şəraiti təmin etdi.

Professor Ramiz Mehdiyevin bu fikirləri isə əbədiyaşar liderimiz Heydər Əliyevin cahanşümul fəaliyyətinə, xalqa və dövlətə həsr edilən fədakar xidmətinə verilən ən dəyərli qiymətlərdəndir: "Heydər Əliyevin fəaliyyəti sübut edir ki, siyasi müvəffəqiyyəti o liderlər qazanır ki, onlar hakimiyyətin hətta ən barışmaz ziddiyyətlərini aradan qaldıran, cəmiyyətdə vəziyyəti sabitləşdirən və millətin resurslarını səfərbər edən, elitaların və bütövlükdə cəmiyyətin siyasi tarazlığını təmin edən optimal modelini tapır. Müstəqil Azərbaycan dövlətçiliyinin yaradılması və inkişafının haqlı olaraq Heydər Əliyev epoxası adlandırıla bilən bu dövrü tarixi sərvət və misilsiz irsdir və Azərbaycan xalqı onu qoruyub saxlamalı, inkişaf etdirməli və nəsildənnəslə ötürməlidir".

## Layiqli varis  qətiyyətli rəhbər

Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev əsərində Heydər Əliyev siyasi irsinin davam etdirilməsinə, ulu öndərimizin əsasını qoyduğu kamil idarəçilik mexanizminin mövcud icra vəziyyətinə də geniş diqqət ayırır və bugünkü ictimai-siyasi, sosial durumu xarakterizə edir. Müəllif qeyd edir ki, Heydər Əliyevin 2003-cü ilin dekabrında həyatdan getməsi hakimiyyət boşluğuna və iğtişaşlara səbəb olmadı. Bu hadisəni böyük milli faciə kimi qəbul edən insanlar öz nəzərlərini İlham Əliyevə çevirərək cəmiyyətdə sabitliyin, sülhün və həmrəyliyin təmin edilməsinə, özlərinin sosial və iqtisadi problemlərinin həllinə ümidlərini onunla bağladılar. İlham Əliyevin Prezident olduğu ötəri vaxt göstərir ki, insanlar öz ümidlərində yanılmamışdılar.

Azərbaycan Prezidentinin fenomenal fərdi xarakterini konkret arqumentlərlə açan professor Ramiz Mehdiyev "Azərbaycan: qloballaşma dövrünün tələbləri" əsərində bildirir ki, İlham Əliyev istedadlı şagird olub və öz müəllimindən, uzaqgörən dövlət xadimi, xarakterində milli ideyalara və

prinsiplərə möhkəm sadiqlik, bəsirət kimi keyfiyyətlərin nadir şəkildə birləşdiyi Heydər Əliyevdən çox mühüm dərs almışdır. İlham Əliyev müasir şəraitdə dövləti idarə etməyin hikmətinə tamamilə yiyələnmişdir. Onun fəaliyyətinin güclü cəhəti məhz insanları sıx birləşdiraıəyi, bu enerjini müəyyən hərəkət formalarına yönəltməyi bacarmasıdır. O, nümayiş etdirdi ki, verdiyi vədlərin əməli işlərdə təcəssümünü tapmaq dərəcəsi olduqca yüksəkdir. Cənab İlham Əliyevin həyat yoluna nəzər salarkən demək lazımdır ki, onun siyasi, iqtisadi və mənəvi baxışlarının formalaşmasına təsir göstərən heç də təkcə ailə tərbiyəsi olmamışdır. Müəllif vurğulayır ki, bunda onun şəxsi keyfiyyətləri, intellekti, ümumi mədəniyyəti, təvazökarlığı, şüurlu həyatı boyu topladığı bütün qiymətli və müsbət nə varsa, hamısmı faydalı şəkildə sintezləşdirmək bacarığı mühüm rol oynamışdır. Təsadüfı deyildir ki, Heydər Əliyevdən savayı, başqa heç bir siyasətçinin qısa müddət ərzində İlham Əliyevin nail olduğu qədər belə geniş, kütləvi sosial bazası yoxdur. Onun sosial bazası hansısa coğrafı, milli və yaş sərhədi ilə məhdudlaşmır. O, bütün yaşlardan və ölkənin bütün bölgələrdən olan nümayəndələrini öz ətrafında birləşdirən nadir bir siyasətçidir.

Professor Ramiz Mehdiyev bütün bu təhlillərinin nəticəsi olaraq Prezident İlham Əliyevi yeni dövrün siyasətçisi, dünyanın müasir, sivil, mütərəqqi dəyərlərini tam mənimsəmiş rəhbər, xalqın inammı əməli işi ilə qazanmış lider kimi səciyyələndirir: "Faktlardan qaçmaq olmaz və onlar sübut edir ki, İlham Əliyev yeni dövrün siyasətçisidir və özünün dəfələrlə vurğuladığı kimi, hər bir azərbaycanlının Prezidenti olmaq, tarixin hələ tezliklə başa çatmayacaq mürəkkəb dövründə ölkəyə rəhbərlik etmək üçün bütün zəruri keyfiyyətə malikdir. İlham Əliyevin dövlət və onun inkişafı barədə baxışları məlumdur. Onun başlıca arzu və istəkləri Azərbaycan dövlətini modernləşdirmək və ölkəni dünya miqyaslı mühüm qərarlar qəbul edən sayseçmə ölkələr birliyinə daxil etməkdir. Onu fərqləndirən cəhət budur ki, o, fəaliyyət dairəsi məhdud olan məmur deyil, geniş baxışlara malik siyasətçidir. Azərbaycana məhz belə siyasətçiamerikalıların işgüzarlığını, britaniyalıların ehtiyatlılığını, almanların dəqiqliyini, habelə məsuliyyətini, azərbaycanlıların açıqlığımı, səmimiyyətini və tolerantlığını özündə birləşdirən siyasətçi lazımdır".

Azərbaycan Prezidentinin malik olduğu mənəvi dəyərləri, siyasi prinsipləri, onun dövlətçilik əxlaqım, vətəndaş mövqeyini, insani məziyyətlə-

rini, bir sözlə, İlham Əliyev fenomenini peşəkarlıqla açan müəllif sonda vurğulayır ki, ölkə rəhbərinin getdiyi yol yeniliyi ənənələrlə ahəngdar şəkildə uzlaşdırır və bu yol ölkəni hökmən tərəqqi və firavanlığa çatdıracaqdır. Bu qənaət isə indi Azərbaycan vətəndaşlarının ümumi mülahizəsinə, xalqın daha uğurlu gələcəyə inammm istinad nöqtəsinə çevrilmişdir. Əminliklə demək olar ki, bu əsər fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin geniş elmi yaradıcılığının növbəti uğuru olmaqla yanaşı, həm də Azərbaycan elminə, milli tariximizin tədqiqat prosesinə böyük töhfədir və müasir siyasi prosesləri mükəmməl araşdırma məcmusudur.

**Alış QASIMOV,**
**Bakı Dövlət Universitetinin Mülki proses,**
**əmək və ekologiya hüququ kafedrasının müdiri,**
**hüquq elmləri doktoru, professor**

*1 sentyabr, 2005*

# VI FƏSİL

# XALQIN NÖVBƏTİ MÜDRİK SEÇİMİ


Ramiz MEHDİYEV
2005-Cİ İL
PARLAMENT SEÇKİLƏRİ:
İLKİN TƏHLİL
(mülahizələr, nəticələr və proqnozlar)

# "2005Cİ İL PARLAMENT SEÇKİLƏRİ: İLKİN TƏHLİL (MÜLAHİZƏLƏR, NƏTİCƏLƏR VƏ PROQNOZLAR)"

## *(XÜLASƏ)*

***Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin "2005-ci il parlament seçkiləri: ilkin təhlil (mülahizəldr, nəticələr və proqnozlar)" (Bakı, 2006, 264 səh.) kitabı, adından da göründüyü kimi, ölkəmizin ictimai-siyasi həyatında çox mühüm bir hadisəyə həsr olunmuşdur.***

Keçmiş sovet respublikaları Ukrayna, Gürcüstan və Qırğızıstanda baş vermiş məlum hadisələrdən sonra 2005-ci il noyabrın 6-da Azərbaycan Milli Məclisinə keçirilən seçkilər bütün dünyada çox maraqla izlənildi. Bütövlükdə demokratik şəraitdə, açıq, şəffaf keçən seçkilər nəticə etibarilə Azərbaycan xalqının iradəsini əks etdirdi. Beynəlxalq ictimaiyyət Azərbaycandan şəffaf, demokratik seçkilər gözləyirdi. Bu seçkilər də həmin ümidləri tam doğrultdu. Həqiqətən bəzi xırda nöqsanlara, qanun pozuntularına baxmayaraq, parlament seçkiləri bütövlükdə demokratik və şəffaf keçdi. Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan xalqı seçkilərdə öz sözünü dedi, istədiyi namizədə açıq, ədalətli, azad şəkildə səs verdi, beləliklə, Azərbaycan öz demokratik inkişafında yeni mərhələyə qədəm qoydu.

Radikal müxalifət qüvvələrinin və onların xaricdəki havadarlarının arzusunda olduqları rəngli inqilab isə bu seçkidə baş tutmadı. Səbəbi də məlumdur: Azərbaycanda nə seçkilərdən əvvəl, nə də seçkilər ərəfəsində hər hansı inqilabın baş verməsi üçün hər hansı bir ilkin şərt var idi.

Müəllif birinci fəsildə parlament seçkilərinin ayrı-ayrı mərhələlərini təhlil edir. Bu təhlillər seçki kampaniyasının beş mərhələsi üzrə aparılmışdır. Seçki prosesini seçki qanunvericiliyinin təkmilləşdirilməsi, Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə seçki kampaniyasına start verilməsi, seçkiqabağı təşviqat, səsvermə günü seçki prosesinin gedişi və səsvermədən sonrakı mərhələlərə bölən professor Ramiz Mehdiyev diq-

qəti hər bir mərhələdə hakimiyyətin demokratik seçki istiqamətində gördüyü ardıcıl tədbirlərə yönəldir. Birinci mərhələdə seçki qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətindəki təşəbbüslər, Milli Məclisin Seçki Məcəlləsinə etdiyi konkret dəyişikliklər və Azərbaycan Prezidentinin 2005ci il 11 may tarixli "Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsinə dair" sərəncamından, ikinci mərhələdə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə 2005-ci il iyulun 4-də seçki kampaniyasına start verilməsi, namizədliyin qeydə almması üçün sənədlərin təqdim olunması və qeydiyyatın başa çatmasından, üçüncü mərhələdə sentyabrın 7-dən noyabrın 4-dək davam edən təşviqat prosesi və Prezidentin oktyabrın 25-də imzaladığı "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında" sərəncamından, dördüncü mərhələdə səsvermə günü prosesin gedişindən, sonuncu mərhələdə isə səsvermədən sonra Mərkəzi Seçki Komissiyasının elan etdiyi nəticələr və yol verilmiş nöqsanların aradan qaldırılması istiqamətində atılan addımlardan bəhs olunur.

İkinci fəsildə nüfuzlu beynəlxalq təşkilatlar olan ATƏT, MDB, həmçinin ABŞ, Türkiyə, Rusiya və İranın seçkiləri yaxından izləyən müşahidə qruplarının fəaliyyətindən söz açılır. Qeyd olunur ki, həm Qərbdən, həm də MDBdən olan müşahidəçilərin seçki barədə məzmunca yaxın bəyanatlarla çıxış etmələri parlament seçkilərinin ədalətli keçirildiyinə işarədir. Xarici müşahidəçilərin verdikləri rəylər bir daha göstərir ki, seçkilər demokratik, şəffaf, ATƏT və Avropa Şurası prinsiplərinə uyğun keçirilmişdir. Hərçənd ki, radikal müxalifət partiyaları və onların təsir dairələrində olan qəzetlər beynəlxalq qurumların seçkilərin nəticələrini tanımadığını və seçkilərin demokratik keçirilmədiyini bildirdiklərini iddia edirlər. Ancaq müxalifət bu iddianm əsaslı olduğunu konkret faktlarla təsdiq edə bilmir. Bunun səbəbi isə sadədir, çünki ortalıqda beynəlxalq qurumların seçkilərin nəticələrini tanımamaq barədə rəyi yoxdur. Fakt ondan ibarətdir ki, bütün beynəlxalq demokratik təsisatlar seçkilərdə mühüm irəliləyişlər oduğunu və onun, əsasən, azad və ədalətli keçdiyini bəyan edir.

Üçüncü fəsildə müəllif bu seçkilərdə inamlı qələbə qazanan Yeni Azərbaycan Partiyasının uğurlarının, eyni zamanda radikal müxalifətin növbəti məğlubiyyətinin səbəblərini araşdırır. YAP seçkilərə praqmatik, rasional proqramla getmiş, ictimaiyyətə gördüyü işlərlə bağlı müntəzəm

və real hesabat vermiş, gələcək planlarını açıqlamışdır. YAP-ın platformasında ölkə həyatının bütün sahələrində dinamik inkişafı nəzərdə tutan elmi şəkildə əsaslandırılmış konseptual təkliflər öz əksini tapmışdır. Parlament seçkilərində YAP-la radikal müxalifət ölkənin gələcəyi ilə bağlı tam fərqli iki xətt təbliğ etmişlər. YAP real bazisə əsaslanaraq Azərbaycanın sabit, dinamik inkişaf etdiriləcəyini, insanların rifah halımn yaxşılaşdırılması istiqamətində işləri sürətləndirəcəyini, demokratik inkişafa və Qərbə inteqrasiya siyasətinə sadiq olacağmı, sülh və əmin-amanlığın qorunub saxlanacağını vəd etmişdi. Radikal müxalifət isə təbliğatmı 13 ilə görülmüş işləri, qazanılmış uğurları bir kənara ataraq hər şeyi yenidən qurmaq, hədsiz radikalizm, cığallıq, təhqir, böhtan və qeyrileqal vədlərlə ziyanlı çılğmlıq üzərində qurmuşdu. Hər bir sağlam düşüncəli seçici radikal müxalifətin bu çağırışlarının arxasında 19921993-cü illərin ağır nəticələrə səbəb olmuş simptomlarını görürdü və bu səbəbdən də böyük əksəriyyətin seçimi YAP-ın tərəfində olmuşdur.

Müəllif 2005ci ilin parlament seçkilərini təhlil edərək sonda belə bir nəticəyə gəlir ki, Azərbaycanda sivil, demokratik, hüquqi dövlət quruculuğu prosesi artıq dönməz xarakter alıb və bu prosesi əngəlləməyə qadir olan qüvvə yoxdur. Bununla belə, 2005-ci ilin parlament seçkiləri Azərbaycanda radikal, dağıdıcı, ambisioz müxalifətin olduğunu bir daha açıq nümayiş etdirdi. Kitabda xüsusilə vurğulanır ki, parlament seçkilərindən sonra radikal müxalifət daha bir ağır zərbə aldı və artıq o, siyasi səhnədən getməlidir. Həyatın yeni dövrünə qədəm qoymuş Azərbaycan cəmiyyətində yeni, sivil müxalifətə tələbat var.

Kitab filosoflar, tarixçilər, politoloqlar, sosioloqlar, ali məktəblərin müvafiq fakültələrinin müəllim və tələbələri üçün maraq doğurur.

# RƏYLƏR

# UĞURLU SEÇKİ STRATEGİYASINA ELMİ-KONSEPTUAL BAXIŞ

**Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin "2005-ci il parlament seçkiləri: ilkin təhlil (mülahizələr, nəticələr və proqnozlar)" sərlövhəsi altında dərc olunmuş silsilə məqalələri son parlament seçkilərinin Azərbaycan üçün müstəsna əhəmiyyətini bir daha aşkara çıxarır**

Böyük mütəfəkkir və yazıçı Mark Tvenin fikridir "Amerikalılar ağıllı adamlardır, özgələrinin səhvlərindən öyrənirlər. Avropalılar təcrübəli adamlardır, öz səhvlərindən öyrənirlər. İtaliyalılar isə qəribə adamlardır, ümumiyyətlə, öyrənmirlər". İstisnasız olaraq Azərbaycanın radikal müxalifət partiyaları haqqında da sonuncu fikri söyləmək olar. Son 15 ilin reallıqları bu nihilist və destruktivpozucu qüvvələrin istər özgələrinin, istərsə də özlərinin səhvlərindən öyrənəcək qədər intellektual səviyyəyə malik olmadıqlarını, çağdaş dünyanın sivil mübarizə metodlarını əxz edə bilmədiklərini aşkar surətdə üzə çıxarır.

Prezidentin İcra Aparatının rəhbəri, fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin "2005ci il parlament seçkiləri: ilkin təhlil (mülahizələr, nəticələr və proqnozlar)" sərlövhəsi altında dərc olunan, kifayət qədər ciddi politoloji və elmikonseptual məzmun daşıyan silsilə əsərlərinin cəmiyyətdə böyük rezonans doğurması və maraqla qarşılanması, bu mənada, qətiyyən təsadüfi deyildir. Ciddi müşahidələrə, nəzəri-praktiki ümumiləşdirməyə, konkret faktlara söykənən dərin təhlilə, yeni mülahizələrə, proqnoz və nəticələrə əsaslanan bu əsərlərdə 2005-ci ildə Azərbaycanın ictimai-siyasi həyatında ən əlamətdar hadisələrdən biri kimi yadda qalmış parlament seçkiləri kampaniyasının ayrı-ayrı mərhələləri, o cümlədən bu kontekstdə respublikanın müasir inkişaf strategiyası ilə bağlı maraqlı fikirlər əksini tapmışdır. Radikal müxalifətin ağır və üzücü məğlubiyyətini do-

ğuran səbəblər, hakimiyyətin seçkiqabağı şəksiz psixolojisiyasi üstünlüyünü şərtləndirən amillər məhz bu kontekstdə nəzəripraktiki təhlil süzgəcindən keçirilmişdir. Əsərdə 2005-ci ilin parlament seçkilərinin Azərbaycanın demokratik inkişafındakı rolu, ölkənin siyasi sisteminin modernləşməsində bu amilin aktuallığı, seçkinin nəticələrinin siyasi, sosial-iqtisadi və mədəni intellektual sferada aparılan islahatlara yeni ruh və müasirlik gətirəcəyi barədə əminlik konkret arqumentlərlə önə çəkilmişdir. Bu təhlillərdə ölkənin demokratik və iqtisadi inkişaf prioritetləri son seçkilər kontekstindən hərtərəfli araşdırılmış, ölkəmizin regional və qlobal proseslərə inteqrasiyasından bəhs edilmişdir.

Müəllif qeyd edir ki, Azərbaycan demokratikləşməyə, siyasi plüralizmin və qanunun aliliyinin möhkəmləndirilməsinə tərəfdar olan, hüquqi dövlət quruculuğu ilə inamla irəliləyən nüfuzlu Avropa ölkəsidir. Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin fikrincə, ümummilli liderimiz Heydər Əliyevin qətiyyəti və prinsipiallığı ilə ölkədə təşəkkül tapmış demokratik siyasi sistem quruculuğu Prezident İlham Əliyevin orijinal idarəçilik üslubu, demokratik və liberal dəyərlərə üstünlük verməsi sayəsində Avropa standartlarına uyğun davam etdirilir. Əsərdə vətəndaş cəmiyyətində siyasi rəqabətə dözümlülüyün vacibliyi mühüm amil kimi önə çəkilməklə yanaşı, hakimiyyət uğrunda mübarizənin yalnız sivil və intellektual üsullara əsaslanması fikri aparıcı xətt təşkil edir: "Müxalifətin, xüsusilə də onun dağıdıcıradikal hissəsinin liderləri dərk etməlidirlər ki, Azərbaycan öz inkişafının elə mərhələsinə qədəm qoymuşdur ki, müxalifətin hakimiyyətlə qarşılıqlı münasibətləri, hakimiyyət uğrunda mübarizə yalnız sivilizasiyalı forma və üsullarla aparıla bilər".

Əsərdə əksini tapmış konseptual təhlillərə elminəzəri şərh kontekstindən yanaşdıqda, 6 noyabr 2005-ci il parlament seçkilərinin çağdaş tariximizdə çox mühüm bir proses, hadisə olduğuna, seçkilərin nəticələrinin Avrora strukturlarına inteqrasiya siyasətinin tərkib hissəsinə çevrildiyinə, parlament seçkilərinin azad, demokratik, beynəlxalq normalara uyğun keçirilməsi üçün bütün mexanizmlərin yaradıldığına, demokratik siyasi mübarizə üçün zəruri olan bütün faktorların sivil seçki qanunları və praktikası, sərbəst təbliğat-təşviqat mühiti və sairin təmin edildiyinə əminlik

daha da artır. Lakin əsas məsələ qanunverici orqana təmsilçilik uğrunda mübarizə aparan qüvvələrin ölkədə yaradılmış bu əlverişli imkanlardan necə və hansı səviyyədə istifadə etməsidir.

Məqalədə düzgün olaraq vurğulanır ki, seçkilər kimi mühüm məsələlərdə hər bir siyasi qüvvə mövcud reallığı dərindən təhlil etməli, əhatəli proqram hazırlamalı və seçkilərdə əsaslandırılmış planla getməlidir. "Bu planda strateji məqsədlərə çatmaq üçün istifadə olunacaq taktika dəqiq müəyyənləşdirilməli, prosesə mənfi təsir edən amillərin neytrallaşdırılması istiqamətində zərari tədbirlər həyata keçirilməli, əsas məqsədin reallaşdırılması üçün lazımi addımlar atılmalıdır" deyən fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin bu mülahizələri seçki prosesinin anatomiyasının açıqlanması, real vəziyyətin araşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Prezidentin İcra Aparatı rəhbərinin təhlillərində seçkilərin beynəlxalq standartlara uyğun olaraq keçirilməsi məqsədilə Prezident İlham Əliyevin 2005-ci il 11 may tarixli "Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsinə dair" və 2005ci il 25 oktyabr tarixli "Azərbaycan Respublikasının Milli Məçlisinə seçkilərin keçirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında" sərəncamları davamlı demokratik inkişafm təmin olunmasına yönələn siyasi iradə nümayişi kimi qiymətləndirilir. Müəllif öz təhlillərində sərbəst toplaşmaq, siyasi fikir plüralizmi, mətbuat orqanlarının sərbəstliyi, qanunun aliliyi prinsipinin təmin olunması kimi mühüm müddəaları özündə ehtiva edən bu sərəncamları yüksək qiymətləndirmişdir. Professor Ramiz Mehdiyevin əsaslı politoloji mülahizələri bir daha təsdiqləyir ki, demokratiya yolunda inamla irəliləyən Azərbaycan onun atributlarından biri və başlıcası sayılan seçkilərin qanunauyğun keçirilməsi istiqamətində dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsindən istifadə edərək böyük uğurlar qazanmışdır.

Müəllif 6 noyabr 2005-ci ilin parlament seçkilərində hakim Yeni Azərbaycan Partiyasının, ümumilikdə Heydər Əliyev siyasi konsepsiyasına əsaslanan platformanın qələbə qazanmasını şərtləndirən əsas amillərə xüsusi diqqət yetirmiş, xüsusilə Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi islahatların mahiyyətini açıqlamışdır. "Məlum olduğu kimi,

hakim partiyanın, ümumiyyətlə, hakimiyyətin reytinqinə müsbət təsir edən ən mühüm amillərdən biri ölkədə aparılan sosial-iqtisadi siyasətdir. Bu məsələ insanların, seçicilərin sosial durumuna, həyat səviyyəsinə birbaşa təsir etdiyi üçün hər bir seçici bu və ya digər siyasi qüvvə arasında seçim edəndə sosial-iqtisadi amili əsas şərtlərdən biri və bəlkə də birincisi kimi görür" deyən professor Ramiz Mehdiyev bu fikirdədir ki, ölkənin iqtisadi, intellektual, maliyyə, kadr və s. potensialım Azərbaycanın hərtərəfli inkişafı naminə səfərbər etmiş Prezident İlham Əliyev ötən müddət ərzində xalqa verdiyi bütün vədlərə sadiqlik nümayiş etdirmişdir. Prezident İlham Əliyevin son iki ildə imzaladığı mühüm dövlət proqramlan, fərman və sərəncamlar bir daha göstərir ki, onun fəaliyyətinin əsas qayəsi xalqa və dövlətə təmənnasız xidmət prinsipi üzərində qurulmuşdur. Bunun məntiqi nəticəsidir ki, Azərbaycanın ötən müddətdə qazandığı böyük nailiyyətləri gündəlik həyatında hiss edən, möhkəm təməllərə söykənən iqtisadisiyasi sabitlik, əmin-amanlıq və sülh şəraitində yaşayan orta statistik azərbaycanlının 6 noyabr 2005-ci il parlament seçkisində apanlan siyasətdə münasibətinin son dərəcə düzgün və dəyişməz olduğu təsdiqlənmişdir. Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev son parlament seçkilərinin hakimiyyətin şəksiz qələbəsi ilə başa çatmasının səbəblərini təhlil edərkən sosial-iqtisadi inkişaf amilinin həlledici rolunu parlaq nəzərə çarpdırmışdır: "Azərbaycan Prezidenti İlham Əliyevin ardıcıl şəkildə regionlara səfəri, ictimaiyyətlə görüşləri, müxtəlif təyinatlı müəssisələrin açılışında iştirakı, eyni zamanda bütün rayonlarda aparılan quruculuq və abadlıq işləri xüsusi qeyd edilməlidir. Çünki insanlar dövlətin, Prezidentin onlara qayğısmı bılavasitə hiss edir, qarşıda duran problemlərin həlli istiqamətində real addımlar atıldığını görürlər".

Prezident İlham Əliyevin hələ 31 dekabr 2003-cü ildə keçirilən andiçmə mərasimində çıxış edərkən ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda sosial, iqtisadi, siyasi, hüquqi, hərbi, mədəni, humanitar və digər sahələrdə başlanmış fundamental islahatları davam etdirəcəyini, ölkənin hər bir vətəndaşının Prezidenti olacağını bəyan etmişdi. Ötən dövrdə dövlət başçısının verdiyi bütün vədlərin sırf əməli fəaliyyətə və praqmatizmə söykəndiyi bir daha təsdiqləndi. İlk növbədə bəlli

oldu ki, cənab İlham Əliyev yaxın beş ildə ölkənin qarşısında hansı əsas problemlərin, prioritet vəzifələrin durduğunu aydın təsəvvür edir və onların həlli üçün konkret planlara, proqramlara, mobil, peşəkar, yüksək iş qabiliyyətli komandaya malikdir. Professor Ramiz Mehdiyev bu alternativsizliyi sosial-iqtisadi , mənəvisiyasi və digər baxış bucağından dəqiqliklə izah etmişdir. "Xüsusi vurğulanmalıdır ki, Azərbaycan seçicisinin gözü qarşısında yaxın tariximizin kəskin fərqli mənzərəsi mövcuddur. Ehtimal ki, seçicilər məntəqələrə getməzdən öncə hansı siyasi qüvvənin namizədinə səs verəcəklərini ölçübbiçərkən qeyri-ixtiyari AXC-Müsavat hakimiyyəti dövründə tüğyan edən xaos və dağmtılarla bugünün sabit inkişafını müqayisə etməli oldular" fikri ilə professor Ramiz Mehdiyev birmənalı olaraq təsdiqləyir ki, mövcud hakimiyyətin alternativsizliyinin hazırkı mərhələsi məhz Prezident İlham Əliyevin çoxşaxəli və səmərəli fəaliyyəti üzərində təşəkkül tapmışdır. Ramiz Mehdiyevin məsələyə bu aspektdən yanaşma tərzi həm də özündə xalqın istək və arzularını ifadə edir. Birmənalı olaraq etiraf edilməlidir ki, Prezident İlham Əliyev ötən dövr ərzində xalqın ona bəslədiyi bütün ümidləri tamamilə doğrultmuşdur. Prezident İlham Əliyev mövcud reallıqları operativ və obyektiv qiymətləndirərək cəmiyyətin sosial sifarişinə uyğun çevik qərarlar qəbul etmişdir. Xüsusilə ölkənin sosial-iqtisadi problemlərinə dövlət başçısının münasibəti daha həssas olmuşdur və biz bu gün də bunun şahidiyik.

Professor Ramiz Mehdiyev hesab edir ki, bütün bu amillər ümummilli liderimiz Heydər Əliyev siyasi kursunun 6 noyabr seçkilərində qələbəsini təmin edən əsas komponentlər kimi nəzərdən keçirilməlidir. Bu baxımdan parlament seçkisinin nəticələri cəmiyyətin sosial sifarişini, ictimai rəyin gözləntilərini ifadə etmişdir. Milli maraqların təmin olunmasına yönələn, ölkəyə uğurlar gətirən siyasət xalq və cəmiyyət tərəfindən bəyənilməli və dəstəklənməli idi. Bu reallıqlar fonunda isə seçkidən əvvəl və sonra radikal müxalifətin "rənglr inqilab" xülyasınm boşa çıxması tamamilə təbiidir. Əslində, inqilablar o yerlərdə baş verir ki, xalqla iqtidar arasında uçurum, inamsızlıq yaranır, iqtisadi, sosial vəziyyət pisləşir. Azərbaycanda isə seçkiqabağı vəziyyət tamamilə başqa idi. Müstəqil və xarici fondlar, hətta müxalifətə yaxınlığı ilə seçilən sosioloji mərkəzlər tərə-

findən aparılan sorğular təsdiqləyirdi ki, iqtidarla xalq arasında möhkəm birlik var, habelə Prezidentin reytinqi kifayət qədər yüksəkdir.

Prezidentin İcra Aparatının rəhbəri, professor Ramiz Mehdiyev silsilə əsərlərində haqlı olaraq radikal müxalifətin məğlubiyyətinin səbəblərini liderlərin birbirinə amansız rəqib kimi yanaşması, köhnə mübarizə metodların dan əl çəkə bilməməsi, "Azadlıq" və "Yeni siyasət" (YeS) bloklarının xarici dairələrin diktəsi ilə yaradılması, ən əsası, bu qüvvələrin xalq tərəfindən dəstəklənməməsi ilə izah edir. Cənab Ramiz Mehdiyevə görə, "Azadlıq" blokunda birləşən partiyaların hər biri özünü birinci görürdü, onların hər birinin özünü "ana müxalifət" kimi təqdim etməsi də qıcığa və ziddiyyətlərə səbəb olurdu. Professor Ramiz Mehdiyev radikal müxalifət partiyalarını 6 noyabr seçkilərində məğlubiyyətə gətirib çıxaran digər çoxsaylı amillərə də konseptual təhlillərində geniş yer ayırır. Müəllif bildirir ki, müxalifət seçki kampaniyası dövründə əhalinin diqqətini cəlb edəcək heç bir səmərəli texnologiya ortaya qoya bilməmişdir. Xüsusilə demokratik seçki qanunlarının yaratdığı efir imkanlarından suiistifadə edən həmin qüvvələr iqtidarın fəaliyyətinə kölgə salmaq, nüfuzuna xələl gətirmək üçün "qara piar" kampaniyasma, böhtana, hər cür iftiralara əl atsalar da, istəklərinə çatmamışlar. Seçki Məcəlləsinə, Konstitusiyaya zidd olaraq xalqı inqilaba, hakimiyyəti zorla devirməyə çağıranlar təşviqat mərhələsini biabırçı şəkildə uduzdular. Xalqa boşboş, populist vədlər verən, çıxışlarını yalnız və yalnız hakimiyyəti ittiham etmək üzərində quran, cəmiyyətə düşmənçilik ruhu aşılayan bu qüvvələr parlamentdə çoxluq qazanacaqları təqdirdə nəyi indiki iqtidardan daha yaxşı edəcəklərini konkret proqramlarla, konsepsiyalarla göstərə bilmədilər.

Professor Ramiz Mehdiyev təşviqat mərhələsində bu qüvvələrin sivil dünya düzəninin gerçəkliklərinə uyğunlaşa bilməməsi, köhnə stereotiplərin əsirinə çevrilməsi, şablon və primitiv seçki texnologiyaların dan əl çəkə bilməməsini də konkret faktlar əsasında şərh edir. "Radikal müxalifət öz gücünü düzgün qiymətləndirə bilmədi ki, bu da seçki strategiyasının müəyyənləşdirilməsində öz əksini tapdı" professor Ramiz Mehdiyevin bu fikri bir daha göstərir ki, əksər müxalif partiya sədrləri hələ də meydan eyforiyasının mənfi təsirindən qurtula bilməyiblər. Ölkə vətəndaşları öl-

kədə siyasi sabitlik, sülh və əminamanlıq, social-iqlisadi inkişaf arzusunda olduqları halda, aqressiv müxalifət partiyaları təşviqat morhələsində bu reallığı nəzorə almadılar. Onlar seçkilərə hazırlaşmaq, seçicüərlo normal iş aparınaq, p)aftormalannı açıqlamaq əvəzinə narıncı qalstuk vurub ifrat inkarçılıq, barışmazlıq mövqeyi tutdular, yalan vədlərlə aldatdıqları məhdud saylı tərəfdarlarını küçələrə çıxartdılar, polislə toqquşmalara təhrik etdilər. Professor Ramiz Mehdiyev radikal müxalifətin bu cəhdlərinin təsadüfü olmadığı qənaətindədir: "Müxalifət parlament seçkilərini ölkənin ali qanunverici orqanında təmsil olunmaq imkanı kimi deyil, hakimiyyətə gəlməyin yolu kimi qiymətləndirmişdi ki, bunun da əvvəlcədən reallıqdan uzaq, ağılsız bir plan olduğunu sonrakı proscslər sübut etdi. Müxalifətin seçki strategiyasını qura bilmoməsi sonrakı addımlarda ciddi səhvlərin və nöqsanların ortaya çıxmasını şərtləndirdi".

Professor Ramiz Mehdiyev həmçinin qeyd edir ki, 6 noyabr parlament seçkiləri ölkəmizin imicinə və gələcək inkişafına əhəmiyyətli dərəcədə təsir göstərəcəkdir. Lakin onu da nəzərə alaq ki, dünyanın heç bir ölkəsində ideal seçkilər keçirilmir. Son seçkilər namizədlərin sayına, seçkiqabağı təşviqatın və seçki prosesinin təşkilinə görə Azərbaycanda demokratik proseslərin inkişaf göstəricisi, iroliyə doğru ciddi bir addım olmuşdur. Artıq ali qanunvcricilik hakimiyyəti öz işinə başlamışdır indi başlıca məsələ hakimiyyətin qolları arasında koordinasiya olunmuş fəaliyyəti təşkil etmək, ölkənin dinamik inkişafını qoruyub saxlamaq və dalia da sürətlənməsini təmin etməkdir. Bu seçkilər Azərbaycandakı demokratik proseslərin Qərb standartlarına adaptasiyasının sürətləndirilməsi istiqamətində ortaya qoyulan ciddi siyasi iradə kimi qiymətləndirilə bilər. Bu seçkilər ölkəmizin demokratik inkişafı, Qərb standartlarına əsaslanan parlamentarizm ənənələrinin mənimsənilməsi baxımından da müstəsna əhəmiyyət kəsb edir.

Təkamül və mərhələli inkişaf yolunu tutan Azərbaycan Prezidenti cəmiyyəti bu istiqamətdə böyük peşəkarlıq və uğurla irəliyə doğru aparır. Digər tərəfdən, hamı tərəfindən dərk edilir ki, cəmiyyəti öz arxasınca aparmağa qadir olan liderlərin iradəsinə arxalanmalıdır. Danılmaz həqiqətdir ki, dövlət başçısı İlham Əliyev demokratik inkişafı özünün əsas stra-

teji vəzifələrindən biri hesab edir. Məhz cənab İlham Əliyevin demokratik və legitim yolla prezident seçilməsinin məntiqi nəticəsidir ki, onun liderliyi böyük quruculuq işləri, əhalinin maddi həyat səviyyəsinin yaxşılaşdırılması, siyasi sabitliyin qorunub saxlanılması, vətəndaş həmrəyliyinin gücləndirilməsi kimi amillərlə müşahidə olunmaqdadır.

**Məhəmməd İMANLI,**
**hüquq elmləri namizədi,**
**BDU-nun hüquq**
**fakültəsinin dosenti**

*10 fevral, 2006*

# XALQIN PREZİDENT İLHAM ƏLİYEVƏ OLAN İNAMI İQTİDARIN NÖVBƏTİ SEÇKİ MÜVƏFFƏQİYYƏTİNİ TƏMİN ETDİ

***Fəlsəfə elmləri doktonı, professor Ramiz Mehdiyevin "2005ci il parlament seçkiləri: ilkin təhlil (mülahizələr, nvticələr və proqnozlar)" silsilə məqalələrində bu mülahizə mükəmməl təhlil olunaraq konseptual şərh edilib***

***Demokratik inkişafyoluna yenicə qədəm qoymuş Azərbaycan kimi ölkələrdə keçirilən hər seçkinin cəmiyyətimiz və beynəlxalq ictimaiyyət tərəfindən xüsusi həssaslıqla izlənməsi tarixin məntiqindən irəli gəlir. Çünki son illər, ələlxüsus postsovet məkanına aid müstəqil dövlətlərdə keçirilən seçkilərin gedişi, nəticələri çağdaş dövrdə bu ölkələrin demokratik inkişaf göstəricilərini müəyyən edən ən başlıca amillərdən birinə çevrilmişdir, Bu yanaşmadan irəli gələrək 2005-ci il 6 noyabr parlament seçkiləri də bütün dünyanın diqqət markəzində olmuş, demokratik proseslərin inkişafı istiqamətində çoxsaylı irəliləyişlərlə yadda qalaraq Azərbaycanda və ölkə hüdudlarından kənarda böyük maraqla müşahidə edilmişdir.***

Müstəqil Azərbaycan dövlətinin ən yeni tarixinə ölkəmizdə demokratiyanın təntənəsi günü kimi yazılmış 6 noyabr parlament seçkilərinin nəticə etibarilə Azərbaycan xalqının siyasi iradəsini əks etdirməsi danılmaz həqiqətdir. Bu həqiqət istər parlament seçkiləri prosesini diqqətdə saxlayan beynəlxalq qurumlar, istərsə də ölkə daxilində prosesin bilavasitə iştirakçıları qismində çıxış etmiş ictimai-siyasi təsisatlar, siyasətçilər tərəfindən də etiraf edilir.

Azərbaycanın inkişaf tarixində qazanılmış ən mühüm nailiyyətlərdən biri kimi 6 noyabr parlament seçkilərinin müfəssəl elmi tədqiqi, prosrsin bütün cəhətlər üzrə obyektiv təhlili ölkəmizin demokratik inkişaf prosesinin ilkin mərhələsində əldə etmiş olduğu nəticələrin müəyyənləşməsi,

pozitiv məqamların inkişafi, çatışmazlıqların isə dərhal aradan qaldırılması hesabına ölkəmizin seçki təcrübəsinin daha da təkmilləşdirilməsi baxımından son dərəcə böyük aktuallıq kəsb edir.

Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri, fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin mətbuatda silsilə formada işıq üzü görən "2005-ci il parlament seçkiləri: ilkin təhlil (mülahizələr, nəticələr və proqnozlar)" mövzusunda tədqiqat əsəri bu cəhətdən böyük elmi-praktik əhəmiyyətə malikdir.

Elmi-tədqiqat əsərinin dəyərini artıran əsas məqamlardan biri bundan ibarətdir ki, professor Ramiz Mehdiyevin mülahizələrində 6 noyabr parlament seçkilərinin gedişinə, nəticələrinə verilən qiymət bütövlükdə parlament seçkilərinin ayrı-ayrı mərhələlərinin obyektiv və qərəzsiz təhlilinə əsaslanmış, müsbət tərəflərlə birgə mənfi məqamlara da diqqət yönəlmiş, irəli sürülən fikirlər məntiqi, əsaslandırılmış arqumentlər, dəqiq fakt və statistik göstəricilərlə müşayiət olunmuşdur. Professor R.Mehdiyevin əsərində seçki mərhələsi bir-biri ilə bağlı olan beş mərhələyə bölünür və hər bir mərhələ aynaynlıqda elmi tədqiqata cəlb edilir.

Prosesin birinci mərhələsi kimi müəllif seçki kampaniyasının rəsmən başlanmasına qədər olan dövrə diqqət yetirmiş, 2005-ci ilin əvvəllərindən etibarən Azərbaycanın mövcud seçki qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində ortaya qoyulan təşəbbüsləri, Milli Məclisin Seçki Məcəlləsinə etdiyi dəyişiklikləri nəzərdən keçirmişdir. Məlumdur ki, Azərbaycan hökuməti 6 noyabr parlament seçkiləri ərəfəsində ötən seçkilərdə qeydə alınan bir sıra qanun pozuntularını və texniki xətaları diqqətlə araşdıraraq onların parlament seçkilərinə qədər aradan qaldırılması üçün Seçki Məcəlləsində dəyişiklik edilməsi barədə irəli sürülən təşəbbüslərə hessaslıqla yanaşmış, 2005-ci ilin fevral və mart aylarında hakimiyyətin, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun, həmçinin Avropa Şurası Venesiya Komissiyasının ekspertləri ardıcıl şəkildə görüşərək bu istiqamətdə geniş müzakirələr açmışlar. Müzakirələrin nəticəsi olaraq 2005-ci ilin mayında Milli Məclisin Seçki Məcəlləsinin 43 maddəsində apardığı əlavə və dəyişikliklər 6 noyabr parlament seçkilərinin daha da demokratikliyi məqsədinə xidmət edirdi. Dəyişikliklərdən biri kimi müstəqil Azərbaycan dövlətinin seçki təcrübəsində ilk dəfə olaraq təkrar səsvermənin qarşisını almaq məqsədilə vətəndaşlara seçici vəsiqələrinin

paylanmasına qərar verilmiş, eyni zamanda, seçici siyahılarının MSK-nın internet saytında yerləşdirilməsi, namizədlərin qeydiyyat prosedurunun sadələşdirilməsi, deputatlığa namizədlərdən tələb olunan imzaların və depozitin bir neçə dəfə azaldılması və s. bu kimi mütərəqqi müddəalar Seçki Məcəlləsində öz əksini tapmışdır.

Azərbaycan Prezidenti İlham Əliyevin "Azərbaycan Pespublikasında seçki praktikasının təkmilləşdirilməsi haqqında" 11 may 2005-ci il tarixli sərəncamı bu mərhələyə dair diqqətə çatdırılan faktlar sırasında xüsusi yer tutur. Dövlət başçısının parlament seçkilərinə hazırlıq dövründə və seçkilər gedişində baş verə biləcək pozuntuların qarşısını almaq, parlament seçkilərini Azərbaycan qanunvericiliyinə uyğun keçirmək, bu prosesdə müvafiq icra hakimiyyəti orqanlarının üzərinə düşən vəzifələrin lazımınca yerinə yetirilməsini təmin etmək məramından irəli gələn bu sərəncam əsərdə ölkənin demokratik imicının daha da yüksəldilməsi istiqamətində mühüm addım kimi qiymətləndirilmiş, sənədin ilk gündən həm ölkə daxilində, həm də beynolxalq səviyyədə böyük rəğbətlə qarşılandığı vurğulanmışdır. 11 may tarixli sərəncam ATƏT-in fəaliyyətdə olan sədri, Sloveniyanın xarici işlər naziri Dimitri Rupel, ABŞ-ın dövlət kalibi Kondoliza Rays, Avropa Şurasının Sədri Rene van der Linden, Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heyki Talvitiye, Avropa Şurasının Baş katibi Terri Devis, qurumun Azərbaycan üzrə həm məruzəçiləri Andreas Qross və Andres Herkel, Azərbaycana səfər edən ABŞ konqresmenləri tərəfinden öz yüksək qiymətini almışdır ki, bu məqam da əsərdə nəzərdən yayınmayıb.

Cənab İlham Əliyevin 11 may sərəncamında azad və ədalətli seçkilərin keçirilməsinə mane olan amillərin aradan qaldırılması yolları konkret göstərilmiş, seçkiqabağı mühitin demokratikləşdirilməsi ilə bağlı bir sıra vəzifələr burada öz əksini tapmış, postsovet mentalitetindən imtinanın vacibliyi önə çəkilmişdir. Professor Ramiz Mehdiyev sərəncamın ən mühüm cəhətlərindən biri kimi Azərbaycanda keçiriləcək parlament seçkilərində ilk dəfə olaraq "exitpoll"un təşkili ilə əlaqədar müddəalara xüsusi diqqət yctirmiş, bunu hakimiyyətin demokratik seçkilərə marağının göstəricisi kimi qiymətləndimıişdir.

Todqiqat əsərinin parlament seçkiləri kampaniyasına start verilməsi dövründən qeydiyyat prosesinin başa çatması dövrünə qədərki müddəti əhatə edən ikinci mərhələsi maraqlı statistika ilə müşayiət edilir. Cəmi

beş il əvvəl 2000-ci ilin parlament seçkilərində qeydiyyatdan keçmiş deputatlığa namizədlərin sayının təxminən 400 nəfər olmasina rəğmən bu dəfə Milli Məclisdəki 125 yerə 2063 nəfərin öz namizədliyini irəli sürməsi faktını nümunə gətirən professor R.Mehdiyev hesab edir ki, elə bunun özü də bir tərəfdən seçkilərin demokratikliyinə ictimai inamla, digər tərəfdən isə qeydiyyat prosedurunun sadələşdirilməsi ilə əsaslandırılmalıdır. 6 noyabr parlament seçkilərində iştirak etmək üçün 48 siyasi partiya və seçki blokunun qeydiyyatdan keçməsini, xüsusilə 2005-ci il avqustun 15-də Ədliyyə Nazirliyi kollegiyasının qərarı ilə 8 siyasi partiyanın, 50-yə yaxın qeyri-hökumət təşkilatının dövlət qeydiyyatına alınmasını xatırladan müəllif hesab edir ki, belə yüksək rəqabət şəraiti seçkilərin daha da demokratik keçirilməsi baxımından faydalı olmuşdur.

Əsərin seçkiqabağı təşviqat kampaniyası ilə bağlı üçüncü mərhələsindən bəhs edən hissəsində isə Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı təxirəsalnımaz tədbirlər haqqında" 25 oktyabr 2005-ci il tarixli sərəncam müfəssəl şərh edilmiş, parlament seçkilərinin azad, ədalətli, şəffaf, demokratik kcçirilməsinə daha bir əsas yaradan bu sənədin əhəmiyyəti açıqlanmışdır. Professor Ramiz Mehdiyev əsərində Azərbaycan Prezidenti cənab İlham Əliyevin seçkiqabağı təşviqat kampaniyasının həlledici mərhələsində icra strukturlarının rəhbərləri ilə keçirdiyi 25 oktyabr tarixli müşavirənin, o vaxta qədər qeydə alınmış bəzi nöqsanların aradan qaldırılması üçün verdiyi konkret tapşırıqların, bu müşavirənin yekunu kimi ortaya çıxan həmin sərəncamın seçki mühitinin liberallaşdırılması, seçki qanunvericiliyinin daha da təkmilləşdirilməsi baxımından beynəlxalq təşkilatlar və aparıcı demokratik dövlətlər tərəfindən müsbət qarşılandığını vurğulayır. Professor Ramiz Mehdiyev Azərbaycan hakimiyyətinin bu istiqamətdə atdığı addımları belə qiymətləndirir: "İstər seçki qanunvericiliyinin demokratikləşdirilməsi və təkmilləşdirilməsi, istərsə də parlament seçkilərinin ədalətli, şəffaf keçirilməsi üçün hakimiyyətin ortaya qoyduğu iradə baxımından builki seçki tariximizdə analoqu olmayan hadisə kimi xarakterizə edilməlidir. Seçki Məcəlləsinə mühüm əlavə və dəyişikliklərin edilməsi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 11 may və 25 oktyabr tarixli serencamları beynəlxalq təşkilatların Azərbaycan hökumətinə seçki qanunvericiliyinin təkmilləşdirilməsiylə bağlı verdiyi

bir sıra tövsiyələrin nəzərə alınması ilə yanaşı, həm də hakimiyyətin seçkilərin demokratik keçirilməsində iradəsini və marağını ortaya qoymuşdur. Məhz bunun nəticəsidir ki, əvvəllər inzibati resurslardan istifadə edilməsi, sərbəst toplaşmaq və söz azadlığının məhdudlaşdırılması, müxalifət partiyalarının namizədlərinə süni maneələrin yaradılması ilə bağlı nüfuzlu beynəlxalq təşkilatların iradları budəfəki seçkilər ərəfəsində, demək olar, müşahidə edilmədi. Həm yerli, həm də xarici müşahidəçilər, həmçinin, müxalifət nümayəndələri namizədlərin irəli sürülməsi və təbliğat-təşviqat kampaniyası dövründə yaranmış demokratik ab-havanı xüsusi qeyd etdilər".

Müəllifin fikrincü, bu məsələnin prinsipial əhəmiyyəti ondan ibarətdir ki, hakim partiyanın qələbəsini və müxalifətin məğlubiyyətini şərtləndirən amillər sırasında hakimiyyətin qeyri-qanuni üsullardan, inzibati resurslardan istifadə etməsi, müxalifətə məhdudiyyət tətbiq olunması barədə əvvəlki seçkilərlə bağlı irəli sürülən əsassız iddialar xeyli dərəcədə öz əhəmiyyətini itirmişdir. Bununla da siyasi partiyaların, siyasi partiya bloklarının və müstəqil namizədlərin öz potensiallarını tam açmaq, proqram və platformalarını ictimaiyyətə təqdim etmək, seçicilərlə həm KİV vasitəsilə, həm də canlı ünsiyyət qurmaq, öz siyasi oppanentlərini tənqid etmək və qanunvcrieiliyin şərait yaratdığı digər təşviqat formalarından və mübarizə üsullarından istifadə etmək imkanları təmin olunmuşdur.

Azərbaycan Prezidentinin 25 oktyabr tarixli sərəncamında təkrar sesvermənin qarşısının alınması üçün seçicilərin barmaqlarının gözəgörünməyən mürəkkəblə işarələnməsi məsələsinin öz əksini tapmasını da müəllif iqtidarın tam şəffaf seçkilərin keçirilməsində maraqlı olmasının göstəricisi kimi əsaslandırır. Onun mülahizələrindən belə qənaət hasil olur ki, 25 oktyabr sərəncamının imzalanması parlament seçkilərinin demokratikliyinə xidmət edən uğurlu nəticələrlə yanaşı, təşviqat mərhələsində bəzi problemlərin müşahidə olunması, Seçki Məcəlləsinin bir sıra tələblərinin pozulması halları barədə daxil olan məlumatların doğurduğu narahatlıqlardan irəli gəlmişdir. Bu, Azərbaycan Prezidentinin vətəndaşların sərbəst toplaşmaq azadlığının təmin olunmasında, seçici vəsiqələrinin paylanmasında və seçici siyahılarının tərtib edilməsində yol verilən nöqsanlara, habelə bəzi icra hakimiyyəti orqanlarının seçki prosesinə qanunsuz müdaxiləsinə, inzibati resurslardan istifadə hallarına, ayrı ayrı namizədlər tərəfindən seçkiqabağı təşviqat zamanı qanunla qadağan olunmuş üsullara əl atılması və s. bu

kimi faktlara prinsipial reaksiyası idi: "Qeyd etməliyəm ki, Prezident İlham Əliyevin 2005-ci il 25 oktyabr tarixli sərəncamı seçki praktikasının təkmilləşdirilməsi sahəsində görülən tədbirlərin səmərəliliyinin artırılması, Seçki Məcəlləsinin müddəalarının seçkilərə hazırlıq dövründə və səsvermə günü tam və şərtsiz həyata keçirilməsi, vətəndaşların seçki hüquqlarının daha dolğun təmin edilməsi məqsədindən irəli gəlmişdir".

Tədqiqat əsərində təşviqat mərhələsini əks etdirən statistik göstəricilərə də yer verilmişdir. Təqdim olunan göstəricilərdən aydınlaşır ki, deputatlığa namizədlərin, siyasi partiyaların, siyasi partiya bloklarının seçicilərlə görüşü üçün təkcə Bakı şəhərində 5 böyük meydan, 200-dək digər yerlər ayrılmış, bu dövrdə bütün deputatlığa namizədlərin seçiciləri ilə 22704 görüşü olmuşdur. Onların 5566-nı müxalifət təmsilçiləri, 8223-nü hakim partiyanın nümayəndələri, 8815-ni müstəqil namizədlər keçirmişlər. Təşviqat məqsədilə çoxlu sayda mitinq, yığıncaq və yürüşlər keçirilmişdir.

6 noyabr günü səsvermənin gedişinə dair qeydlər elmi-tədqiqat əsərində parlament seçkiləri prosesinin 4-cü mərhələsini əhatə edir. Səsvermənin vətəndaşlarımızın yüksək fəallığı şəraitində baş tutması, seçki günü seçici siyahıları ilə bağlı qeyri-müəyyənliklərə çox az hallarda rast gəlinməsi və eyni zamanda bu halların operativ olaraq məhkəmə qaydasında dərhal aradan qaldırılması mütərəqqi məqam kimi təqdir olunmuşdur.

Azərbaycanda keçirilən parlament seçkilərini 45 ölkədən 1586 beynəlxalq müşahidəçi izləmiş, onlar səsvermə prosesinin gedişi, seçkilərin naticələri ilə bağlı müsbət rəylərdən çıxış etmiş, 6 noyabr parlament seçkilərinin uğurlu yekunlarını yenicə müstəqillik qazanan Azərbaycan Respublikasında demokratiyanın nailiyyəti kimi dəyərləndirmişlər.

Çağdaş dövrdə ayrı-ayrı ölkələrdə seçki prosesini izləmək üçün cəlb olunan xarici müşahidəçilərin missiyasının üç istiqamət üzrə nəzərdən keçirildiyini bildirən professor Ramiz Mehdiyev öz qənaətini konkret elmi-politoloji dəlillərlə sübut edir. O bildirir ki, son illər ərzində müşahidəçiərin yekun rəyinə geosiyasi amilin təsiri çox böyükdür. Bunu postsovet məkanına aid üç ölkədə Gürcüstan, Ukrayna və Qırğızıstanda baş verən hadisələr də sübuta yetirir. Müəllifin mövqeyinə görə, bu ölkələrdə keçirilmiş və davamlı kütləvi aksiyalar nəticəsində hakimiyyət dəyişiklikləri ilə tamamlanmış seçkilər və onların müşahidəsi əsl geosiyasi mübarizə predmeti idi. Bu ölkələrdə seçkilərin demokratik keçmədiyini bildirən

qərbli müşahidoçilorin mövqeyi prosesin şəffailıq və ədalət prinsiplərinə uyğun baş tutduğunu söyləyən MDB və Rusiya müşahidəçilərinin mövqeyindən kəskin şəkildə fərqlənirdi. 6 noyabr parlament seçkilərinin nəticələri isə göstərdi ki, Azərbaycan bu cəhətdən digər postsovct dövlətlorinə qətiyyən banzomir. Ölkəmizin ötən illər ərzində məqsədyönlü, balanslaşdırılmış xarici siyasət kursu hesabına geosiyasi qarşıdurmalar poliqonu olmaq təhlükəsindən uzaqlaşaraq əməkdaşlıq və maraqların uzlaşması məkanına çevrilməsi faktını hər iki qütbdən olan müşahidəçi qruplarının parlament seçkilərinin nəticələri ilə bağlı mövqeyinin üstüstə düşməsi də təsdiqlədi. Bu, "Azərbaycan rəqabət yox, qarşıdurma yox, əməkdaşlıq məkanına çevrilməlidir. İlk növbədə Azərbaycanın milli maraqları təmin olunmalıdır" prinsipinə daim sadiq qalan cənab İlham Əliyevin həyata keçirdiyi siyasətin təntənəsidir. Qərbdən və MDB-dən olan müşahidəçilərin seçki barədə məzmunca yaxın bəyanatlarla çıxış etmələri parlament seçkilərinin demükratikliyinə qətiyyən şübhə yeri qoymur.

Müəllif elmi-tədqiqat əsərində prosesin sonuncu beşinci mərhələsi kimi səsvermə günündən sonra MSK-nın elan etdiyi nəticələr və yol verilmiş nöqsanların aradan qaldırılması istiqamətində atılan addımlar barədə də söhbət açmış, konkret misallardan çıxış etmişdir.

Azad, ədalətli, demokratik şəraitdə, beynəlxalq təşkilatların, Qərb və ABŞ-ın demokratik seçkilər tələbinin sərtləşdiyi, beynəlxalq ictimaiyyətin diqqətinin Azərbaycana yönəldiyi zamanda keçirilmiş 6 noyabr parlament seçkiləri ölkənin ən qüdrətli siyasi təşkilatının Yeni Azərbaycan Partiyasının qələbəsi ilə başa çatdı. Hakim partiyanın növbəti seçki uğurunu şərtləndirən ən əsas amillər də əsərdə tədqiqat predmetinə çevrilmişdir. Ortaya daha prinsipial mövqeyin qoyulması, partiya üzvlərinin, elektoratın daha sıx birliyinin təminatı, müasir seçki texnologtyalarından istifadə, geniş təşviqat kampaniyasının qurulması, opponentlərin əks-təbliğatının tutarlı arqumentlərlə neytrallaşdırılması, bilavasitə yerlərdə seçicilərlə ciddi iş və s. məsələlər bu amillər sırasında təqdim olunur. Yeni Azərbaycan Partiyasının parlament seçkilərinə real iş və proqramla qatıldığım xüsusi vurğulayan professor Ramiz Mehdiyev haqlı olaraq hesab edir ki, hakim partiya seçkilərə praqmatik, rasional proqramla getmiş, ictimaiyyətə gördüyü işlərlə bağlı müntəzəm v real hesabat vermiş, gələcək planlarını açıqlamışdır. Seçici elektoratına təqdim olunmuş platforma

da ölkə həyatının bütün sahələrində dinamik inkişafı nəzərdə tutan elmi şəkildə əsaslandırılmış, konseptual təkliflərin öz əksini tapması, bu təkliflərin həyata keçirilməsi mexanizmlərinin açıqlanması da bu partiyanın uğurunu şərtləndirən amillərdən idi. Professor Ramiz Mehdiyevin fikrincə, hakim partiyanın bilavasitə yaxından iştirakı ilə həyata keçirilmiş və müxtəlif sahələrin inkişafına ciddi təkan vermiş böyük layihələrin, proqramların nəticələri göstərirdi ki, YAP-ın irəli sürdüyü təkliflər real əsaslara söykənməsi ilə müxalifətin utopik təkliflərindən çox fərqlənir.

Seçki strategiyası və taktikasının düzgün müəyyənlüşdirilməsini, öz potensialından istifadə edərək güclü namizədlər siyahısının formalaşdırılmasını, rəqiblərin imkanlarının nəzərə alınmasını, müasir təşviqat metodlarının köməyi ilə ictimaiyyətə mövqeyin düzgün çatdırılmasını, rasional, praqmatik, elmi şəkildə əsaslandırılmaş platformanın irəli sürülməsini seçki prosesinə qoşulan bütün siyasi qüvvələr üçün ən başlıca vəzifə sayan müəllifin fikrincə, seçki prosesinin nəticələri Yeni Azərbaycan Partiyası istisna olmaqla, heç bir siyasi qüvvənin bu vəzifənin öhdəsindən gələ bilmədiyini ortaya qoyub.

Müəllifin proqnozlarına görə, 6 noyabr parlament seçkilərinin demokratik uğurları ölkəmizdə ictimai-siyasi vəziyyətin sabitləşməsinə, vətəndaş cəmiyyətinin formalaşması prosesinə, əhalinin maddi rifah halının yaxşılaşmasına, Azərbaycan Respublikasının beynəlxalq strukturlara daha fəal inleqrasiya prosesinə böyük töhfə verəcəkdir. Bu fikrin nikbin ovqatı tam gerçəkliyə uyğundur. Çünki professor Ramiz Mehdiyevin də qeyd etdiyi kimi, ümummilli liderimiz Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycanı layiqincə, böyük fədakarlıqla irəliyə aparan Prezident İlham Əliycvin qətiyyətli fəaliyyəti, siyasi iradəsi ölkəmizi bütüıı sınaqlardan alnıaçıq, üzüağ çıxaracaq. Bu həqiqəti isə Azərbaycan vətəndaşları ilə yanaşı, artıq bütün beynəlxalq ictimaiyyət də qəbul edir!

**Seyfəddin QƏNDİLOV,**
**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının rektoru,**
**tarix elmləri doktoru, professor, əməkdar elm xadimi**

*14 fevral, 2006*

# AZƏRBAYCANDA PARLAMENT SEÇKİLƏRİ VƏ ÖLKƏNİN İNKİŞAF PERSPEKTİVLƏRİ

## "Azdrbaycan" qəzetində növbəti "Dəyirmi masa" bu mövzuda keçirildi

2005-ci il 6 noyahr parlament seçkiləri müstəqil Azərbaycan Respublikasının çağdaş tarixində yeni bir mərhələnin əsasını qoydu. Bu mərhələnin də müəyyən etdiyi vəzifələr kifayət qədar əhatəlidir. Qarşıda dayanan məqsədlərin reallaşması, Azərbaycanın davamlı yüksəlişinin təminatı hesabına daha böyük nailiyyətlərin əldə edilməsi İndiyə qədər gəldiyimiz yolun ətraflı öyrənilməsi ilə birgə, həm də perspektiv inkişaf barədə aydın təsəvvürlərin formalaşmasından asılıdır.

Pulitologiya elmi son illər bütün dünyada olduğu kimi, Azərbaycanda da böyük dirçəliş yolu keçsə də, ölkəmizdə cərəyan edən siyasi-ictimai proseslərin fundamental tədqiqi, bu istiqamətdə aparılan nəzəri araşdırmaların praktika ilə uzlaşdırılması, ən əsası isə keçmişimizin, bugünümüzün gerçəkliklərinə istinadən sabah harədə konseptual proqnozların irəli sürülməsi sahəsində müəyyən bir boşluq vardı. Etiraf edək ki, indiyə qədər ayrı-ayrı müəlliflər tərəfindən qələmə alınmış materiallar təhlildən daha çox publisisük səciyyə daşıyır, eyni zamanda ya nəzəri, ya da praktiki istiqamətin daha böyük üstünlük təşkil etdiyi bu yazılarda ən çox keçmişin hadisə və proseslərinin təsviri verilirdi. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri, fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin "2005-ci il parlament seçkiləri: İlkin təhlil (mülahizələr, nəticələr, proqnozlar)" əsəri isə bu sahədə mövcud olan boşluğu aradan qaldırmaqla bərabar, həm də müvafiq elmi-strateji araşdırma mərkəzləri, cəmiyyətimizin çağdaş siyasi həyatını öyrənən alimlərimiz üçün uğurlu ınetodologiya miiəyyənləşdirmişdir. "Azərbaycan" qəzetinin "Heydər Əliyev və mətbuat" muzeyində keçirdiyi "Dəyirmi masa" "Azərbaycanda parlament seçkiləri və ölkənin inkişaf perspektivləri" mövzusunu əhatə etməklə bərabər, respublikamızda baş verən və baş verəcəyi proqnozlaşdırı-

lan proseslərin məhz bu əsərin kontekstində nəzərdən keçirilməsi məqsədini də daşıyırdı.

"Dəyirmi masa"da Milli Məclisin deputatları parlamentin İnsan hüquqları daimi komissiyasının sədri, professor Rəbiyyət Aslanova, Elm və təhsil məsələləri daimi komissiyasının sədr muavini, professor Bəxtiyar Əliyev, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı, Sosial Rifah Partiyasının sədri Xanhüseyn Kazımlı, Böyük Quruluş Partiyasının sədri Fazil Qəzənfəroğlu və Azərbaycan Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dosenti Elman Nəsirov iştirak edirdilər.

"Dəyirmi masa"nı "Azərbaycan" qəzetinin Baş redaktoru, Mətbuat Şurasi İdarə Heyətinin üzvü Bəxtiyar Sadıqov açaraq qonaqları polemika mövzusu ilə tanış etdi. Ötən əsrin 8090-cı illərindən sonra Azərbaycanın qısa zaman kəsiyiidə əsrə bərabər yol qət etdiyini vurğulayan Bəxtiyar Sadıqov bu yolun öz başlanğıcını qırmızı imperiyanın parçalanması prosesindən götürdüyünü, fövqəladə vəziyyətlər, xaos və anarxiya, qanlı Qarabağ savaşı, habelə islahatlar və demokratikləşmənin ilkin pilləsi dövrlərindən keçib bugünkü tərəqqi və sabitlik mərhələsinə qovuşduğunu bildirdi:

Anarxiya və dağıntıların sabitlik və yüksəlişlə əvəzlənməsində ümummilli liderimiz Heydər Əliyevin qeyri-adi xidmətlərini xalqımız daim minnətdarlıq hissi ilə xatırlayır. Eyni zamanda, bu siyasətin möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi sevinc və məmnunluq doğurur. Müstəqilliyin şirinliyini doyunca dadmamışdan çətin, gərgin, mürəkkəb və kəşməkəşli günlər yaşayan ölkə vətəndaşları tarixən qısa zaman kəsiyində bir neçə nəslin görə biləcəyi qədər olaylar görmüş, hadisələrə şahid olmuş, yaşamışdır. Əlbəttə, belə bir mürəkkəb, ilk dəfə keçilən dövrü tədqiq və izah etmək, baş verənləri ümumiləşdirib yekun qənaətə gəlmək çətin və məsuliyyətli, eyni zamanda həm də hər kəsin elmi-fəlsəfi cəhətdən izahını bacarmayacağı bir işdir.

Xoşbəxtükdən Azərbaycanda dərin intellekti, gözəl tədqiqatçılıq bacarığı, zəngin bilik və təcrübəsi olan alim-tədqiqatçılarımız var. Bu insanlar bütöv bir elmi-tədqiqat institutunun az qala bir neçə aya görə biləcəyi işi qısa zaman ərzində yerinə yetirirlər. Fədakar alimlərimizin gərgin elmi

nəzəri tədqiqatının bəhrəsi kimi meydana çıxan bu əsərlər yaşadığımız dövrdə baş verən hadisələri genişliyi ilə qavramaqda, sabahımıza aydın nəzərlərlə baxmaqda yardımçımıza çevrilir.

Azərbaycanda sonuncu parlament seçkiləri dünyanın maraq və diqqət mərkəzində dayanan hadisələrdən idi. Beynəlxalq təşkilatlar, aparıcı dovlətlərin ictimai-siyasi, dövlət xadimləri seçkilərin gedişini, nəticələrini xüsusi həssaslıqla izlədiklərini özləri də gizlətmirdilər. İqtidar isə Milli Məclis seçkilərini sadəcə bir siyasi kampaniya kimi yox, ölkənin könüllü olaraq seçdiyi bazar iqtisadiyyatı və demokratiya yolunda yeni mərhələ, irəliyə doğru atılacaq addım kimi qiymətləndirirdi. Bütün bunlar barədə Prezidentin İcra Aparatının rəhbəri, fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin dövri mətbuatda dərc olunmuş "2005-ci il parlament seçkiləri: ilkin təhlil (mülahizələr, nəticələr və proqnozlar)" adlı silsilə məqalələrində müfəssəl söhbət açılmışdır. Əsərdə seçkilərə hazırlıq, onun müxtəlif mərhələləri, iqtidar və müxalifət cəbhəsində baş verən proseslər, seçkilərin nəticələrinin qiymətləndirilməsi və digər məsələlərə geniş yer ayrılmış, baş verən hadisələr, atılan addımlar konkret faktlar, gətirilən misallar əsasında qiymətləndirilmişdir. Əsər cəmiyyətin inkişafı ilə maraqlanan alimlər, ideoloji işçilər, media nümayəndələri və ümumilikdə geniş oxucu auditoriyası üçün, bir növ, siyasi kompas rolunu oynayır və bu da elmi-tədqiqat işinin ən böyük məziyyətidir.

Rəbiyyət Aslanova çıxışında professor Ramiz Mehdiyevin elmi-tədqiqat əsərinə bir neçə aspektdən nəzər saldı:

Bu əsərdə ölkə həyatında baş verən proseslərin canlı mənzərəsi yaradılmış, hər bir aspektdə dərin təhlil və ümumiləşdirmələr verilmiş, yaxın perspektivin proqnozları əksini tapmışdır. Məhz bu səbəbə görə burada hər hansı kontekstin ayrılaraq vurğulanması qeyri-mümkündür. Seçki prosesi məqsədəuyğun mərhələlərə bölünmüş, Azərbaycan Prezidenti cənab İlham Əliyevin parlament seçkilərinin demokratikliyini nəzərdə tutan qərar, göstəriş və sərəncamlarına diqqət yönəlmiş, rəhbərin siyasi iradəsi ilə xalqın iradəsinin bir-birinə söykənməsi faktına, xalqın dəstəyinə arxalanan siyasi qüvvənin parlament seçkilərində əldə etdiyi nəticələrə müna-

sibət bildirilmişdir, Bu təhlil bir daha gostərir ki, Azərbaycan dövləti öz inkişafinda kimlərinsə hələ də dərk edə bilmədiyi, yaxud da barışmağa cəsarət tapmadığı yeni siyasi, iqtisadi, mədəni-mənəvi gerçəkliyə qədəm qoymuşdur. Son parlament seçkiləri yalnız bütün parametrlərinə görə analoqu olmayan gedişatı ilə deyil, həm də dovlətçilik tariximizin yeni, şanlı səhifəsini açan beynəlxalq əhəmiyyətli hadisədir.

Azərbaycan cəmiyyəti üçün bu əsərin əhəmiyyətini müəyyən edən bir neçə məqamı xüsusi vurğulamaq istərdim. Milli dövlətçiliyimizin bugünkü inkişafı və mənafeyi, Azərbaycanın beynəlxalq aləmdə mövqelərinin daha da möhkəmlənməsi, ölkəmizin regionda liderə çevrilməsi, demokratik dəyərlərin cəmiyyətimiz tərəfindən daha fəal şəkildə mənimsənilməsi baxımından Azərbaycanda keçirilmiş 2005-ci il 6 noyabr parlament seçkilərinin son dərəcə əhəmiyyətli, həlledici bir addım olduğunu dərk etmək üçün bu nıəzmunda təhlilə ictimai tələbat yaranmışdı. Son on üç il ərzində dövlətçiliyimizin nail olduğu bütün uğurların ana xəttinin ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş siyasi kursa söykəndiyini, dəyişən dünya məkanında və ondan daha sürətlə dəyişən siyasi məkanda bu kursa başqa bir alternativin olmadığını hamının birmənalı dərk etməsi üçün belə bir təhlilə ehtiyacı vardı. Müstəqillik əldə edildikdən sonra ölkəmizdə hər seçkinin ardınca düşünülmüş şəkildə qaldırılan hay-küyün, şaşqınlıq və tənəzzülün köklərini, bu səylərin iflasını şərtləndirən səbəbləri olduğu kimi şərh etmək üçün belə bir təhlilin meydana çrxmasına böyük zərurət yaranmışdı.

Alternativi olmayan siyasi kursun ardıcıllığı hesabına Azərbaycanın gələcəkdə əldə edə biləcəyi nailiyyətləri bütün əzəməti ilə gozümüz önündə canlarıdıran proqnozların irəli sürülməsi, inkişaf oriyentirlərimizin aydın təsəvvürü baxımından cəmiyyətin hər bir vətəndaşının belə bir təhlilə ehtiyacı vardı. Professor Ramiz Mehdiyevin "2005-ci il parlament seçkiləri: ilkin təhlil (mülahizələr, nəticələr və proqnoziar)" əsəri Azərbaycan cəmiyyətinin bu mənəvi ehtiyacını aradan qaldırır. Miistəqillik əldə etdikdən sonra yaşadığımız dövrü indiyə qədər çox analiz etməyə çalışmışıq və nədənsə bütün analizlərimiz sabahdan daha çox dünənə ünvanlanıb. Bu əsərdə isə gələcək barədə aydın istiqamətlər müəyyənləşir.

Parlament seçkilərindən sonra Azərbaycan cəmiyyəti yeni bir mərhələyə qədəm qoydu. Bu mərhələnin müəyyən etdiyi vəzifələr, çətinliklər evvəlki mərhələlərdən heç də az deyil. Azərbaycanda gedən proseslərə kənar təsirlər get-gedə güclənir, ölkəmizdə demokratikləşmə, islahallar prosesi daha da sürətlənir. Azərbaycan artıq dünya məkanında özünütəsdiq mərhələsini başa vurmaqdadır. Ölkəmizin iqtisadi inkişaf tempi, demokratik dəyərlərin cəmiyyətimizdə özünə dayaqlar tapması bütün bunlar Azərbaycanın özünütəsdiqidir. 6 noyabr parlament seçkilərinin nəticələri də bu baxımdan böyük önəm daşıyır. Bu gün bütün bu prosesləri isliqamətləndirə, bu vəzifələri yerinə yetirə bilən siyasi elitanın formalaşması vacib cəhətdir. Müxalifət düşərgəsinin uğursuzluğunu labüd edən ən əsas cəhət budur ki, radikal düşərgədə professor Ramiz Mehdiyevin qeyd etdiyi kimi, bu proses, demak olar ki, getmir, yeni təfəkkürlü müxalifət nümayəndələri ortaya çıxmır. Hakimiyyət düşərgəsində isə bu prosesin artıq davamlı xarakter daşidığını, günün tələblərinə cavab verə bilməyən şəxslərin daha enerjili, çevik, qabilyyətli kadrlarla əvəz edildiyini, idarəetmə sistəmində yeni təfəkkür tərzinin formalaşdığını görürük.

***Bəxtiyar Əliyev professor Ramiz Mehdiyevin "2005-ci il parlament seçkiləri: ilkin təhlil (mülahizələr, nəticələr və proqnozlar)" əsərində müstəqiltik dövründə Azərbaycan cəmiyyətində gedən təkamül prosesinin geniş elmi-fəlsəfi təhlilinin verildiyini qeyd etdi:***

Əsərdə öz əksini tapmış mülahizəlor son dərəcə əhəmiyyətlidir. Ölkənin siyasi həyatında baş verən ən cüzi dəyişikliyin belə cəmiyyətin bütün sferalarına təsiri var. Cəmiyyətdə baş verən bir siyasi proses digərini müəyyən edir. Bu əsərdə 1991-ci ildən bugünkü günə qədər ölkəmizdə baş verən sosial-iqtisadi proseslərin yığcam təhlili aparılmış, proseslərə qiymət verilmişdir. Aparılan təhlil hesabına müəyyənləşir ki, iqtisadi sahədə görülən işlərin məntiqi yekunu kimi Azərbaycan cəmiyyətində baş vermiş kəmiyyət və keyfiyyət dəyişiklikləri hansı nəticələrə gətirib çıxarıb və bundan sonra hansı inkişaf prosesləri gedə bilər. Bu əsərdə çox ciddi qlobal məsələlərə diqqət yönəlib. Bütövlükdə müstoqil Azərbaycan dövlətinin inkişaf prioritetləri, Azərbaycan kimi mürəkkəb geosiyasi mə-

kanda ictimai-siyasi sabitliyin qorunub saxlanmasina şərait yaradan amülər öz ifadəsini tapıb. Ümummilli liderimiz Heydər Əliycv tərəfindən osası qoyulmuş milli dövlətçilik konsepsiyasını böyük uğurla həyata keçirən Azərbaycan Prczidenti cənab İlham Əliyevin hyata keçirdiyi siyasətin nailiyyətləri barədə söhbət açılıb.

Bu gün ölkəmiz tarixinin ən böyuk iqtisadi yükçoliş dövrünü yaşayır. Sosial-iqtisadi siyasətin düzgün qurulması nəticəsində Azərbaycanda ümumi daxili məhsulun artım tempinin rekord həddə çatması, bu yüksəlişin siyasi həyata necə təsir göstərməsi və eyni zamanda, Azərbaycan cəmiyyətinin özünün bu inkişaf prosesinə münasibəti aparılan təhlillərdə əksini tapıb. Bu gün cəmiyyətimizdə bir sıra əbəmiyyətli məsələlər ətrafında müzakirələrin, polemikaların aparılması, hər bir siyasi qurumun, partiyanın öz işinə, dünəninə, bugününə, gələcəyinə nəzər salması üçün bu əsərdə konseptual təqdimat var. Əgər müstəqil dövlətimizin güclü olmasını, professor Ramiz Mehdiyevin də qeyd etdiyi kimi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın dovlət və milli maraqları ətrafında birdəfəlik həllini, Azərbaycanın təkcə Cənubi Qafqazda deyil, bütün regionda həlledici dövlət statusunu qoruyub saxlamasını, bu statusun daha da möhkəmləndirilməsini istəyiriksə, bu zaman, təbii ki, bütün məsələlərə sağlam tənqidi münasibətlə yanaşılmalı, uğurlarla birgə çatışmayan məqamlar da nəzərdən yayınmamalı və onların aradan qaldırılması yolları göstərilməlidir.

Azərbaycanda fəaliyyət göstərən bütün siyasi partiyaların, qurumların bir-birinə konstruktiv opponentlik etməklə cəmiyyəti irəliyə doğru aparması sosial sifarişdir və biz heç bir siyasi mənsubiyyət daşımayan bitərəflər hesab edirik ki, iqtidarda olan Yeni Azərbaycan Partiyası öz fəaliyyətində məhz bu prinsipi əsas tutur. Ulu öndərimiz tərəfindən hazırlanmış konsepsiya, bu gün cənab İlham Əliyevin həyata keçirdiyi siyasət də məhz buna köklənib. Yalnız Azərbaycan daxilindəki bütün siyasi qüvvələrin ölkənin taleyüklü problemiərinə münasibətdə məhz bu prinsipə, bu siyasətə istinad etməsi ilə uğurlarımızın sayını artıra, müstəqilliyimizi möhkəmləndirə, xalqımızın maddi rifah halını daha da yaxşılaşdıra bilərik. Azərbaycanda gedən proseslər bu ölkənin vətəndaşlarının həyatı, dünənki, bugünkü, sabahkı taleyidir. Bu baxımdan 2005-ci il 6 noyabr par-

lament seçkilərinin nəticələri ilə bağlı müzarikə etdiyimiz ilkin təhlili mən fundamental, konseptual tədqiqat işi, vətəndaş həmrəyliyinə, cəmiyyətin konsolidasiyasına çağırış kimi qəbul edirəm.

Professor Ramiz Mehdiyevin elmi əsaslara söykənən "2005-ci il parlament seçkiləri: ilkin təhlil (mülahizələr, nəticələr və proqnozlar)" əsərində cəmiyyətin bütün siyasi qütblərinə nəzər salınıb. Bir məqama xüsusi toxunmaq istərdim. Demokratik həyat tərzinin özünəməxsus dialektik qanunauyğunluğu var: dünənki müxalifət bu gün iqtidardır, dünənki iqtidar bu gün müxalifətdir, Ulu öndərimiz Heyder Əliyev Azərbaycan üçün bu dialektikanın gözəl bir modelini müəyyənləşdirib: dünənki müxalifət bugünkü iqtidardır, bugünkü iqtidar sabahkı müxalifətdir. Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının başına müsibətlər gətiriləndə müxalifətdə idi. 1990-cı ilin 20 Yanvar faciəsi baş verərkən ilk dəfə məhz o, həmin qanlı faciəyə beynəlxalq miqyasda əsaslı münasibətini bildirməklə müxalifətin siyasi mədəniyyətini nümayiş etdirdi. Moskvadan Azərbaycana dönəndən sonra da bir müddət o dövrün iqtidarına qarşı müxalifətdə dayanan Heydər Əliyev bu siyasi mədəniyyəti qoruyub saxladı. Öz davranışları, dövlətə, dövlətçiliyə münasibətilə göstərdi ki, müxalifət bir siyasi qüvvə kimi necə fəaliyyət göstərməlidir, hansı işləri görməlidir və hakimiyyətə gəldikdən sonra iqtidarda necə olmalıdır. Bu modeli də Azərbaycan dövləlçiliyi üçün Heydər Əliyev müəyyənləşdirmiş oldu.

Bir çoxları deyəndə ki Avropaya inteqrasiya prosesinə hələ tələsməməliyik, Heydər Əliyev bunun əleyhinə çıxır, əksinə, Avropaya daha tez inteqrasiya təklifini irəli sürürdü. Nəticə göz qabağındadır. Azərbaycan bu gün Avropa ailəsinin doğma bir üzvünə çevrilib. Əlbəttə, ölkəmizə qarşı müəyyən təzyiqlər də ola bilər, üzərimizə bəzi öhdəliklər də qoyula bilər, amma buna getməliyik. Çünki bunu xalqın mənafeyi tələb edir. Burada fikirlər səsləndi ki, iqtidar partiyasının seçkilərdə davamlı olaraq qələbə qazanmasına səbəb nədir? Düşünürəm ki, xalqla birgə olub xalqın dərdi ilə yaşayan, xalqı daha yaxşı güzərana aparan partiya məhz iqtidar partiyasıdır. Bu partiya öz fəaliyyətini Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş siyasət əsasında qurur. Bu siyasət xalqın siyasətidir. İstər iqtidarda olsun, istər müxalifətdə  fərq etməz, fəaliyyətinin hər bir dövründə Heydər Əliyev

Siyasəti xalqın siyasəti olub. Ona görə də xalq bu siyasətə dəstək verir.

1995-ci ildə müsteqü Azərbaycan dövlətinin ilk Konstitusiyası qəbul olunduqdaıı sonra ölkəmizdə üç parlament seçkisi kcçirilib. Səviyyəcə, mahiyyətcə, keyfiyyətcə bu seçkilərin biri digərinə bənzəmir. Zaman-zaman Azərbaycandakı seçki proseslərində iştirak edən siyasi qüvvələrin kəmiyyəti və kcyfiyyəti dəyişib, parlamentin özünün say tərkibi dəyişməsə də, keyfiyyət dəyişikliyi, şübhəsiz ki, baş verib. Bu proses gedir və bu model ətrafında da cəmiyyət inkişaf edir. Professor Ramiz Mehdiyevin yeni əsərində bütün bu prosesləri təhlil predmetinə çevirməklə yanaşı, gələcək üçün aydın, müfəssəl perspektivlər müəyyənləşdirir.

***Fəzail Ağamalı professor Ramiz Mehdiyevin əsərinin cəmiyyətə yeni bir təqdimat olduğunu vurğuladı;***

Söhbət Azərbaycan xalqının tarixində yeni bir mərhələnin əsasını qoymuş 2005-ci il parlament seçkilərinin yekunlarından gedir. Əsərdə parlament seçkilərindən sonra ölkədə yaranmış yeni situasiya və bu yeni situasiyanın hər bir vətəndaşın, cəmiyyətin aparıcı insanları qarşısına qoymuş olduğu vəzifələr, bu vəzifələrdən irəli gələn məsuliyyət, eyni zamanda, sabah və daha sonrakı mərhələlər üçün proqnozlaşdırılan mümkün proseslər barədə söhbət açılmışdır. Professor Ramiz Mehdiyevin elmi araşdırmaların da belə bir sual çox aydın şəkildə öz cavabını tapıb: necə oldu ki, iqtidar 6 noyabr parlament seçkilərində bir daha qələbə qazandı və necə oldu ki, müxalifət növbəti məğlubiyyətə uğradı.

Müəllif iqlidarın qələbəsini şərtləndirən bir sıra fundamental səbəbləri göstərmişdir. Bunlardan birincisi əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş prinsiplərdir. Müxalifət bu illər ərzində həmin siyasi kursa alternativ xətt formalaşdıra bilmədi. İkincisi ölkəmizin sosial-iqtisadi inkişafının dinamik xarakter daşımasıdır. Bu həqiqəti hər bir Azərbaycan vətəndaşı dərk edir və qiymətləndirir. Üçüncüsü Azerbaycanda ictimai-siyasi sabitliyin qorunub saxlanmasıdır. Azərbaycan dövləti tərəfindən xüsusi həssaslıqla diqqətdə saxlanan bu amil hakimiyyətin qələbəsini təmin etmiş ən başlıca şərtlərdən biridir. Dördüncüsü, müxalifət düşərgəsindən fərqli olaraq, iqtidar komandasının monolitliyi amilidir. İqti-

dar komandası seçkilərə vahid platforma, valıİd prinsiplər əsasında qoşuldu vo seçkiləri uğurla başa çatdırdı. Beşincisi, müxalifətin dağıuqlığı, zəifliyi, müxalifətdaxİli ziddiyyətlərin kəskin xarakter daşıması va müxalifətin düzgün taktika qura bilməməsi məsələsidir. Müxalifət daxilində hansı namizəd düzgün taktika qura bildisə, düşərgədaxili intriqalardan kənarda dayanıb ancaq seçicilərin səsi uğrunda mübarizə apardısa, qalib gəldi. Hansı namizəd xüsusən "Azadlıq" blokundakı namizədlər. Özunün məhdud sosial bazasını qoruyub saxlamaq üçün ayrı-ayrı yerlərdə yürüşlər, mitinqlər keçirmək taktikasına üstünlük verdisə, təbii ki, o, labüd məğlubiyyətə uğradı.

Bu məqamları dərin elmi təcrübi tədqiqatın süzgəcindən keçirən professor Ramiz Mehdiyev lıaqlı olaraq qeyd edir ki, bu qüvvələr majoritar qaydada seçki mübarizəsinə qoşularaq seçiciləri ilə düzgün iş aparmaq, öz platformalarını vətəndaşlara çatdırmaq əvəzinə perspektivsiz rəngli inqilablarla hakimiyyətə gəlmək yolunu seçdilər. Əlbəttə, radikal müxalifəti buna şirnikləndirən, onların bu kimi addımlarını stimullaşdıran nıüəyyən qüvvələr də vardı: bir sıra beynəlxalq təşkilatlarda Azərbaycanı sevməyən insanlar, ölkə xaricindəki müəyyən maraqlı qüvvələr və iqtidar daxilində radikal müxalifətə gizli dəstək verən ayrı-ayrı satqın, xain məmurlar. Bütün bunlar radikal müxalifəti rəngli inqilablar yolu ilə hakimiyyətə gəlməyə şirnikləndirirdi və onlar, əslində, deputat mandatı uğrunda deyil, hakimiyyətə gəlmək uğrunda mübarizə aparırdılar. Parlament seçkilərində onların məğlubiyyətini şərtləndirən bütün bu amiilər Ramiz Mehdiyevin "2005ci il parlament seçkiləri: ilkin təhlil (mülahizələr, nəticələr, proqnozlar)" elmi-tədqiqat əsərində aydın ifadəsini tapmışdır.

İndi ölkədə yaranmış yeni siyasi situasiyanın əsas mənzərəsi bundan ibarətdir ki, iqtidar çox güclü görünür, müxalifət isə, əfsuslar olsun ki, yenə də çox dağınıqdır, daxilində ziddiyyətlər yenə də son həddə çatıb. Artıq radikal müxalifətin siyasi arenada öz fəaliyyətinə birdəfəlik "əlvida" deməsi, Azərbaycanda, nəhayət ki, normal, sivil, ölkəmizdə demokratiyanın inkişafına çalışan konstruktiv müxalifətin formalaşması üçün münbit şərait yetişib. Amma konstruktiv müxalifət bundan ötrü gərək diskussiyalar aparsın, partiyalar bir araya gəlsin, bu müzakirələrdə aqressiv müxali

fətə qarşı özünün kəskin radikal münasibətini ifadə etsin və düşünsun ki, konstruktiv müxalifətin başlıca rəqibi iqtidar deyil, əslində, radikal müxalifətdir. Aqressiv düşərgə bu gün konstruktiv müxalifətin əlqolunu bağlayan buxov rolunu oynayır. Amma konstruktiv mövqedə olan qüvvələrin toparlanması, onlara qarşı öz fəaliyyətini sağlam məcrada qurması arlıq cəmiyyətdən gələn sosial sifarişdir. Bu tezis də professor Ramiz Mehdiyevin əsərində aydın xətlə göstərilir.

Hər bir cəmiyyətdə iqtidarın məsuliyyəti olduğu kimi, müxalifətin də məsuliyyəti var. Əfsuslar olsun ki, bu gün ölkəmizdə müxalif mövqedə dayananların mütləq əksəriyyəti bu məsuliyyəti anlamır, başa düşmək istəmir. Elə etmək lazımdır ki, müxalifət Azərbaycan cəmiyyəti qarşısında öz məsuliyyətini dərk etsin, fəaliyyətini məhz bu istiqamətdə qura bilsin. Bu gün Azərbaycanda siyasi elitanın formalaşmasına ciddi ehtiyac var və bu prosesin uğurla həyata keçməsində həm siyasi partiyaların, həm də ölkə parlamentinin üzərinə böyük vəzifələr düşür. Parlament təmsilçiləri olaraq xalqın bizə bəsləmiş olduğu inamı, etimadı yüksək səviyyədə doğrultmağa çalışmalı, öz fəaliyyətimizi bir daha nəzərdən keçirməli, yeni tarixi dövrün qarşımızda qoyduğu vəzifələri müəyyənləşdirməli, fəaliyyətimizi bu istiqamətdə qurmalı, siyasi elitanın formalaşmasına töhfəmizi verməliyik. Bütün bu məqamların hamısı professor Ramiz Mehdiyevin əsərində özünün politoloji, elmi-nəzəri həllini tapmışdır. Mənə belə gəlir ki, bu əsərdə irəli sürülmüş mülahizələr ətrafında düşünməyə, fundamental xarakterli təhlilə söykənərək Azərbaycanın ötən parlament seçkiləri, bugünü və gələcəyi haqqında daha geniş auditoriyalarda ciddi təhlillər aparmağa böyük ehtiyac var.

***Fazil Qəzənfəroğlu isə hər bir seçki prosesinin sonunda qalib və məğlub tərəflərin olmasını seçkinin əsas məntiqi kimi qiymətləndirmək başqa bir problemi önə çəkdi***:

Azərbaycanda elə bir mühit yaratmalıyıq ki, problemimiz Avropaya daşınmasın. Azərbaycanın daxili problemlərini burada öz aramızda çözməliyik, problemlərin Avropaya çıxarılmasının qarşısının alınması yollarını arayıb tapmalıyıq. Bu tezisə professor Ramiz Mehdiyevin "2005-ci il parlament seçkiləri: ilkin təhlil (mülahizələr, nəticələr, proqnozlar)" silsilə məqalələrində də geniş yer ayrılıb.

Azərbaycanda əslində iqtidarın müxalifət düşmənçiliyi yoxdur, bu həqiqəti əsas götürməklə biz bütöv bir azərbaycanlı modelini tapmalıyıq. İqtidarlı-müxalifətli bütövlükdə cəmiyyətimizi düşüncə dəyişikliyinə gətirməliyik. Hamı anlamalıdır ki, kim daha ağıllı təşkilatlanırsa, daha ağıllı sistemə çevrilirsə, o, qalib gəlmək şansına daha çox malikdir. Bu gün iqtidar müxalifətdən daha yaxşı təşkilatlandığına görə hakimiyyəti davam edir. Seçkilərdən sonra yaranan bir vəziyyət diqqətdən yayınmamalıdır. Bu gün Azərbaycanda bir alternativsizlik sindromu yaranıb, fakt budur ki, iqtidara müxalif ola biləcək qüvvə yoxdur. Bu sindrom təkcə Azərbaycana xas deyil, eyni problem Rusiyada da, Türkiyədə də Putin, Ərdoğan hakimiyyətinə münasibətdə də özünü göstərir. Bu hal, ümumilikdə, planetimizin mənzərəsinin sabitlik modeli kimi nəzərdən keçirilir və bu sabitlik modeli daxilində Azərbaycanın özünə yer alması faydalı bir işdir. Yəni, biz təlatümlərlə dolu gələcəyə doğru getmirik, artıq belə təhlükə ortadan götürülmüşdür. Lakin indi alternativsizliyin yarada biləcəyi problemlər barədə düşünməli, eyni zamanda, Azərbaycan cəmiyyətinin problemlərini daxildə həll etməyin düzgün yollarını axtarıb tapmalıyıq.

Bəzən müxalifətlə bağlı terminoloji yanlışlıqlara yol verilir. Əslində, Azərbaycanda radikal müxalifət yox, inkar müxalifət var, radikal müxalifət bizik. Əgər yolumuz köhnə düşüncə tərzini dağıtmaqdan, reallığı qəbul etməkdən keçirsə, budur radikallıq. Kor tutduğunu buraxmayan kimi, on il ərzində üslubu dəyişmədən eyni yolu getmək istəyən qüvvəni radikal adlandırmaq düzgün deyil. Radikal termini cəmiyyətdə köklü doyişiklik, təfəkkür, dünyagörüşü dəyişikliyi etmək istəyən qüvvələrə şamil edilə bilər. Bu gün özünü aparıcı müxalifət adlandıranların düşüncəsində hər şey daha çox pay çoxluğu üzərində qurulub. "Mitinqə 30 min adam çıxarırıqsa, demək, biz güclüyük" anlayışı müxalifət partiyalarının əsas şüarıdır. Fikir müxalifətçiliyi anlayışı isə bu illər ərzində cəmiyyətimizdə özünü qəbul etdirə bilmədi ki, bunun da obyektiv səbəbləri var. Azərbaycan müxalifəti yaxın gələcəkdə də güclü ola bilməyəcək, çünki o, bütün sosial təbəqələri, onun maraqlarını əhatə etmir, sadəcə, öz fəaliyyətini narazı elektoratın dəyişən impulsları üzərində qurur. Müxalifət pay çoxluğu ilə, qərargahın qarşısına toplananların sayı ilə güclü görünməyə çalışır. Bu ənənəni dağıtmaq lazımdır. Artıq müxalifətin özündə də belə bir həqiqət dərk edilməlidir ki, ölkənin problemlərini anlaya bilən müxalifət lazımdır.

Biz siyasətə idealist təbəqədən gələn insanlarıq, Yeni Azərbaycan Partiyasının strukturunu isə praqmatik təbəqənin insanları təşkil edir. Onlar neftin mahiyyətini, bu təbii sərvətin beynəlxalq münasibətlər sistemində Azərbaycan üçün necə mühüm bir vasitə olacağını bizdən daha yaxşı başa düşdülər. Bizim Dağlıq Qarabağ münaqişəsinə yanaşma tərzimiz də idealist idi, düşünürdük ki, "ura" ilə düşməni məhv edə bilərik. Bugünkü iqtidar isə bu müharibənin, sadəcə, Ermənistanla Azərbaycan arasındakı nıünaqişə deyil, beynəlxalq problem olduğunu anladı. Bir çox məsələləri sadalamaq olar ki, onun həlli istiqamətində idealist yanaşma deyil, praqmatik yanaşma qalib gəldi.

Müstəqilliyimizin əldə edilməsi üçün meydan hərəkatı lazım idi. Artıq o dövr arxada qalıb, ikinci dövr bizim üçün müstəqilliyimizin möhkəmləndirilməsi dövrüdür ki, bu mərhələ də bitmək üzrədir. İndiki məqamda dövlətin fərdlərin azadlığı şəklində paylanması prosesi başlanır. Beynəlxalq ictimaiyyətin bizə əsas tövsiyəsi də elə budur. Ölkədə iqtisadi liberallaşdırma prosesi sürətləndirilməli, insanların populist siyasətdən elitaya girişi qapadılmalı, siyasətə daha çox mülkiyyətçilərin gəlişinə şərait yaradılmalıdır. Əgər bu, baş verərsə, siyasət maksimalist, irreal tələblərdən çıxıb cəmiyyətin maraqlarına daha uyğun olan bir vəziyyətə qədəm qoyacaq. Müxalifətin dəyişməsinə, yeniləşməsinə gəlincə isə, buna hakimiyyət özü maraqlı olmalı, müxalifət partiyalarının dövlət büdcəsindən maliyyələşməsi məsələsi, nəhayət ki, öz həllini tapmalıdır.

***Xanhüseyn Kazımlı da professor R.Mehdiyevin tədqiqat əsərinin cəmiyyətdə böyük rezonans doğurduğunu, bu əsərdə irəli sürülən mülahizələrin, fakt və təhlillərin bütün siyasi spektrlərdə böyük maraqla qarşılandığını dedi***. X.Kazımlının fikrincə, bunu həmin əsər silsilə formada mətbuatda işıq üzü görərkən müxalifət qəzetlərində araşdırmanın ayrı-ayrı epizodlarına verilən reaksiyalar da sübut edir:

Professor Ramiz Mehdiyevin irəli sürduyü müddəalar dərin təhlilə, konkret faktlara, dəqiq və ardıcıl müşahidələrə əsaslanıb. Ona görə də bu müddəalara qarşı hər hansı əksarqumentdən çıxış etmək mümkünsüzdür. Əsərdə geosiyasi proseslərin Azərbaycan iqtisadiyyatına təsiri məsələləri geniş tədqiq edilib və yekun mülahizələr ortaya qoyulub. Geosiyasi mə

kandakı dəyişikliklərin Azərbaycanın iqtisadi yüksəlişinə hər hansı formada təsir imkanlarının araşdırılaraq üzə çıxarılması ölkəmizin indiki iqtisadi yüksəliş dövründə son dərəcə vacib əhəmiyyət daşıyır. Hesab edirəm ki, professor Ramiz Mehdiyevin tədqiqat işi bu kimi məsələləri araşdıran digər alimlərə də düzgün istiqamət verəcəkdir.

Bu gün Azərbaycanın əldə etdiyi uğurlar böyükdür. Bu uğurları kimsə inkar edə bilməz. Amma nailiyyətlərimizin yarada biləcəyi problemlər barədə də düşünməliyik. Professor Ramiz Mehdiyevin əsərində öz əksini tapmış fikirlər bir daha təsdiqlədi ki, Azərbaycan hakimiyyəti bu kimi məsələləri bir an belə diqqətdon kənarda qoymur və iqtidar Azərbaycanda iqtisadi inkişaf, vətəndaş cəmiyyəti quruculuğu, liberal islahaüar, demokratikləşmə prosesinin davamlıhğınm təmin edilməsi üçün aydın, düşünülmüş, məqsədyönlü proqramlara malikdir.

Əfsuslar olsun ki, hakimiyyətə rəqiblik iddiası ilə çıxış edən ifrat radikal müxalifət öz fəaliyyətini tamam başqa istiqamətdə qurub. Bu düşərgənin fəaliyyətində yalnız seçkidən-seçkiyə canlanma hiss olunur. Ona gorə də ifrat radikallar ciddi bir uğur qazana bilmirlər.

***Elman Nəsirov Yeni Azərbaycan Partiyasının parlament seçkilərindəki qələbəsinin bir fakt kimi gündəmdə qaldığını və iqtidarın növbəti dəfə qələbə qazanması, müxalifətin isə məğlub olması səbəblərinin professor Ramiz Mehdiyevin əsərində elmi dəlillərlə əsaslandırldığını bildirdi:***

Əsər böyük elmikonseptual dəyərə malikdir. Burada məsələyə fundamental, empirik yanaşma tərzi, sintez, analiz diqqəti çəkir. İrəli sürülən bütün tezislər faktlarla, slatistik göstəricilərlə əsaslandırılmışdır. Bu elmi tədqiqat işinin dəyərini artıran ən əsas məqamlardan biri də odur ki, burada nəzəriyyə ilə praktika arasında tənasüb qorunmuş, proseslərin sonunda perspektivə baxış müəyyənləşmiş, elmi nəticə əldə olunmuşdur. Azərbaycanın bugünkü ictimai-siyasi reallığına qiymət baxımından bu, son dərəcə qiymətli bir əsərdir.

***Çıxışlara yekun vuran Bəxtiyar Sadıqov "Dəyirmi masa"da cəmiyyətin bütün siyasi spektrinin əhatə olunmasını, müzakirələrin fikir plüralizminə hörmət şəraitində keçməsini xüsusi təqdir etdi:***

Burada çıxış edənlərin hər biri Azərbaycanın taleyi ilə bağlı narahatlığını, arzu və ümidlərini dilə gətirdi. Bu, çox xoşdur. İrəli sürülən bütün fikirlər bir daha təsdiqlədi ki, fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin çox vaxtında yazdığı, müasir siyasi proseslərin əsaslandırılmış təhlilini verən, sabah üçün düzgün yol göstərən "2005-ci il parlament seçkiləri: ilkin təhlil (mülahizələr, nəticələr və proqnozlar)" adlı əsəri, əslində, müstəqil respublikamızın keçmişi, bugünü, gələcəyi ilə bağlı hər birimizin ürəyimizdən keçən fikirlərin məcmusudur. Təsadüfi deyil ki, bu əsər ətrafında danışarkən Azərbaycanın dünəni, bugünü, sabahı barədə söhbət açdıq. Müstəqil dövlətimizin daha da qüdrətlənməsi, inkişaf etməsi hər bir Azərbaycan ziyalısının arzusudur. Əminik ki, Azerbaycanın ictimai-siyasi qüvvələri, ölkəmizin düşüncə adamları bu yolda əllərindən gələni əsirgəməyəcəklər.

**"AZƏRBAYCAN"**

*16 fevral, 2006*

# MÜASİR TARİXİMİZİN FUNDAMENTAL TƏDQİQAT ƏSƏRİ

***Professor Ramiz Mehdiyevin "Azərbaycanda parlament seçkiləri: ilkin təhlil (mülahizdlər, nəticələr və proqnozlar)" əsəri ictimai-siyasi proseslərə dolğun qiymət verməklə yanaşı, ölkəmizin perspektiv inkişaf yolunu da konseptual təhlil edir***

Azarbaycanın susial-iqtisadi yüksəlişinə paralel olaraq ölkəmizdə demokratiyanın inkişafi, hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesinin getdikcə daha geniş vüsət alması hadisə və proseslərə münasibətdə yeni siyası mədəniyyət tərzinin formalaşması zərurətini də gündəmə görməkdədir. Politologiya elmindən bəllidir ki, siyasi mədəniyyət dedikdə, müxatifətin hakimiyyətə, hakimiyyətin müxalifətə münasibətinin, ümumən siyasi proseslərdə iştirakının başlıca üsul və metodlarının məcmusu nəzərdə tutulur. Bu manada siyasi mədəniyyət bütünlükdə siyasətin tərkib ünsürlərindən biri olmaqla, bu sistemli prosesə tərəf kimi qatılmış subyektlərin davranış səviyyəsi ilə şərtlənir. Ulu öndərimiz Heydər Əliyevin müəyyənləşdirdiyi strateji inkişaf kursunun uğurları sayəsində bu gün çağdaş tarixinin əsl intibah dövrünü yaşayan müstəqil Azərbaycan dövləti tutmuş olduğu demokratiya yoluna, bəyan etdiyi prinsiplərə sadiqdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məqsədyönlü fəaliyyəti siyasi məddəiyyətin ən sivil, ən mütərəqqi formalarını öz məzmununda əks etdirir.

## Siyasi təfəkkür fərqliliyi

Siyasi mədəniyyət problemi Azərbaycan cəmiyyətində hələ də öz aktuallığını itirməmişdir. Çünki hakimiyyətə qarşı müxalif mövqedə dayan-

mış radikal düşərgənin təfəkkürünə tamam başqa prinsiplər hakimdir. Ona görə də Azərbaycanda siyasi mənzərənin dəyişməsi, tərəflər arasındakı münasibətlərin konstruktiv müstəviyə keçməsi üçün irəli sürülən təşəbbüslər, aparılan diskussiyalar həiəlik bir səmərə vermir.

Əgər diqqət yetirsək, görərik ki, son dövrlər bu istiqamətdə gedən müzakirələrdə bir məqam çox tez-tez vurğulanmaqdadır: siyasətə populizm körpüsündən keçib gəldiklərindən əsassız, sistemsiz və məntiqsiz addımları ilə ardıcıl məğlubiyyətə uğrayan "meydaıı qəhrəmanları"nın kənara çəkilməsi, aqressiv müxalifət düşərgəsində köklü islahatların başlaması, müxalifət partiyaların da təfəkkür deyişikliyinin baş verməsi hesabına Azərbaycanda, nəhayət ki, fikir müxalifətinin formalaşması indi əksəriyyətin qənaətidir.

Bu mövqe, əlbəttə, radikalizmi özünə bayraq ctmiş bir neçə partiyanın, həmin partiyalardakı bir ovuc narazı kəsimə rəhbərlik edən kəslərin Azərbaycan dövlətçiliyinə, Azərbaycan hakimiyyətinə qarşı doğurduğu hər hansı təhlükədən irəli gəlmir. Əksinə, son illərin hadisələri göstərdi ki, xalq hakinıiyyət birliyi dövlətçilik əsaslarını sarsıtmağa yönəlmiş istənilən daxili, xarici təhdidi asanlıqla dəf etmək gücündədir. Bu sarsılmazlığa təminat verən amillər get-gedə daha da möhkəmlənir. Radikal müxalifət partiyalarının ənənəvi üsul və vasitələri xalqın öz hakimiyyətinə olan inamı qarşısında əhəmiyyətini çoxdan itirdiyindən radikallıq problemi Azərbaycanın dövlət təhlükəsizliyindən daha çox ölkəmizdə demokratiyanın inkişafı kontekstində nəzordən keçirilmolidir.

Vahid ideyasiyasi xəttə malik, məqsədyonlü, fəaliyyətində ardıcıl müxalifətin mövcudluğu bütün sivil cəmiyyətlərdə demokratiyanın ən vacib şərtlərindən sayılır. Prezidentin İcra Aparatının rəhbəri, fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdıyevin ölkəmizin ictimai-siyasi həyatında əsl hadisəyə çevrilmiş "Azərbaycanda parlament seçkiləri: ilkin təhlil (mülahizələr, nəticələr və proqnozlar)" əsərində bu məsələ ətrafında da dərin elmi müddəalar irəli sürülmüş, gətirilən arqumentlər konkret dəlillərlə əsaslandırılmışdır. Oxucu üçün müqayisə imkanı yaratmaq məqsədilə bu elmi-tədqiqat əsərində inkişaf etmiş ölkələrdəki müxalifət partiyalarına xas fəaliyyətin aydın mənzərəsi belə canlandırılır: "Onların fəaliyyətinə nəzər saldıqda aydın görünür ki, hər bir siyasi qüvvənin elmi şə-

kildə əsaslandırılmış prinsipial mövqeyi, sabit elektoratı, müxalifət qurumlarına rəhbərlik edən şəxslərin isə nəzəri baxışlan, ölkənin inkişafı və problemlərin həlli ilə bağlı konseptual proqram və platformaları mövcuddur. Bu partiyalar çəkisindən və vacibliyindən asılı olmayaraq bütün məsələlərin iqtidar nümayəndələri ilə bir masa arxasında səmərəli müzakirə edilməsi və çıxış yollarıın axtarılması vasitəsilə həllinə üstünlük verirlər. Televiziya və mətbuat vasitəsilə verilən açıqlamalarda iqtidara qarşı əsassız ittihamlar, qərəzli fikirlər səsləndirilmir, ictimaiyyətə mövcud problem barədə məlumat verilir, bu problemin həlli barədə siyasi qüvvələrin təklifləri çatdırılır, onların mövqeyi ictimai müzakirələrə təqdim olunur. Almaniya, Böyük Britaniya, Fransa, ABŞ, Türkiyə və digər ölkələrdə siyasi partiyaların fəaliyyəti ilə tanış olan hər kəsin bu reallığı müşahidə etmək imkanları var".

Azərbaycan müxalifətinə gəldikdə isə, professor Ramiz Mehdiyev hesab edir ki, burada vəziyyət tamamilə fərqlidir. Ölkəmizdəki radikal düşərgənin öz fəaliyyətini tamam başqa istiqamət üzrə qurması ondan xəbər verir ki, Azərbaycanda müxalifət, sözün əsl mənasında, partiya kimi formalaşmayıb və ölkəmizdə demokratik müxalifətin mövcudluğundan danışmaq mümkün deyil. Bu səbəbdən söhbət ancaq dağınıq halda fəaliyyət göstərən müxtəlif qruplardan, dəstələrdən gedə bilər.

Radikal müxalifətin seçki proseslərində ardıcıl məğlubiyyətini şərtləndirən amillər bu elmi-tədqiqat əsərində dəqiq göstərilib. Dünyanın çağdaş reallıqları, təbii ki, bütün sahələrdə olduğu kimi, siyasi partiyaların fəaliyyətində də yeni dünyagörüşünün, yeni fəlsəfi prinsiplərin tətbiqini labüd edir. Həmin yeni prinsiplərdən ən vacibi ziddiyyətlərin diskussiya məcrasına yönəldilməsi, qarşıdurma vərdişindən imtina, konstruktiv dialoq, siyasi polemika mədəniyyətinin əxz olunmasıdır. Azərbaycanın radikal müxalifəti isə özünü nəinki bu şərtlərə uyğunlaşdırır, əksinə, bütün məsələlərdə hakimiyyətlə qarşıdurmaya getmək, ölkənin beynəlxalq imicinə xələl gətirmək üçün bütün üsul və vasitələrdən istifadə vərdişini özünün əsas fəaliyyət prinsipi kimi hələ də əldə rəhbər tutur. Başqa ölkələrdə sınanmış metodların şəraiti nəzərə almadan kor-koranə şəkildə Azərbaycanda tətbiqinə cəhd, digər postsovet ölkələrində müxalifətin atmış olduğu addımların uğursuz təqlidi də aqressiv düşərgənin fəaliyyətinə xas nüanslardandır.

Bu məqam professor Ramiz Mehdiyevin araşdırmalarında diqqətdən kənarda qalmamışdır. 2004-2005-ci illərdə qəzetlərdə dərc edilmiş materialların təhlilinə əsaslanan müəllif müxalifətin radikal qanadının 6 noyabrda keçirilən parlament seçkilərinə əvvəlcədən çox ciddi hazırlıq işləri gordüyünü, "Azadlıq" blokuna daxil olan Müsavat, AXCP (i), ADP və bloka qoşulmuş Lalə Şövkətin seçkilərin yekunu kimi Milli Məclisdə ən azı 70-75 deputat yeri qazanmağı nəzərdə tutduqlarını xatırladır. Onun fikrincə, müxalifət liderləri belə bİr məqsədi müəyyənləşdirməklə hesab edirdilər ki, müxalifətin parlamentdə böyük üstünlük əldə etməsi Azərbaycanda da müxalifətin gürcüstansayağı hakimiyyətə gəlməsinə təkan verəcəkdir. Əvvəlcə parlamentdə, daha sonra isə Prezidentin İcra Aparatında hakimiyyəti ələ almağı planlaşdıran radikallar öz təxəyyüllərində cızdıqları "narıncı inqilab"ın icrası zamanı müxalifətin lokomotivi rolunu oynayacaq çoxsaylı gənclər təşkilatları da yaratmışdılar. Həmin təşkilatlara münasibət, öz sıralarında güya müstəqil, əslində isə radikal müxalifət liderlərinin pul kisəsindən asılı gəncləri birləşdirən bu saysız-hesabsız qurumların primitivliyi aqressiv düşərgədə gəncliyə yanaşmanın ümumi göstəricisi sayıla bilərdi. Gənclərə yalnız piketlərə, mitinqlərə yığışıb polislə qarşıdurma yaratmaq, kütləvi aksiyalara "təşrif gətirən" partiya sədrlərinin avtomobilini, özünü əhatəyə alıb süni lider mifi yaratmaq, aksiya iştirakçıları qarşısında nitq söyləyərkən onların mikrofonunu tutmaqdan ötrü sıra nəfərləri kimi yanaşan "Azadlıq" bloku rəhbərləri Gürcüstan və Ukraynada olduğu kimi, dinc inqilab zamanı gənclərin imkanlarından istifadə üçün bütün səyləri səfərbərliyə almışdılar. Həddən ziyadə maksimalist və idealist olduqlarından qarşıya qoyulmuş vəzifələri maksimum yerinə yetirməyə çalışan gənclərin potensialından lazımi qaydada yararlanmaq radikal müxalifətin öz siyasi planlarında mühüm vasitələrdən biri kimi əsas götürülür, ayrı-ayrı ali təhsil müəssisələrindəki tələbə gənclərin prosesə cəlb olunmasına xüsusi önəm verilirdi.

## Radikalların iflası xalqın sosial sifarişi idi

Professor Ramiz Mehdiyev radlikal müxalifət düşərgəsinin, bir qədər konkretləşdirsək, "Azadlıq" seçki blokunun "narıncı inqilab"a hazırlıq prosesində xarici amilin roluna da xüsusi diqqət yetirir. Professorun təhlilinə

əsasən, xarici qüvvələr hakimiyyətə gəlmək istəyən radikalların qarşısında üç şərt müəyyənləşdirmişdilər. Şərtlərdən birincisi "Azadlıq" blokunun timsalında müxalifətin siyasi birliyinin qorunub saxlanmasından ibarət idisə, digəri keçirilən yürüş-mitinqlərdə əhalinin kütləviliyinin təmin olunması, mitinqlərə mümkün qədər çox sayda insanların cəlb edilməsi ilə bağlı idi. Üçüncü bir şərt kimi isə müxalifətdən parlament seçkiləri zamanı yalnız dinc metodlardan istifadə tələb olunurdu. Müəllif əllərində qərənfillər tutmuş müxalifətçilərin seçkilər saxtalaşdırılacağı təqdirdə "Qələbə" kinoteatrının qarşısında fasiləsiz, dinc, oturaq mitinqlər keçirməsi planını buna nümunə göstərir.

Professorun qonaətinə görə, parlament seçkiləri ərəfəsində "Azadlıq" bloku və onlara qoşulmuş Lalə Şövkətin Milli Birlik Hərəkatının hadisələrin gələcək inkişaf perspektivlərinə baxışını əsasən üç variant üzrə nəzərdən keçirmək olar: "Birincisi Moldova variantıdır ki, bu halda ABŞ, Avropa Birliyi, Türkiyə və Rusiya Azərbaycanla bağlı razılaşmaya gəlirlər. Həmin variantda Azərbaycanda yarımdemokratik bir seçki keçirilir və bunun nəticəsində ölkəmizdə mərhələli inkişaf təmin olunur. İkinci variant isə belədir ki, iqtidar öz üzərinə götürdüyü öhdəliklərə, yəni, seçkilərin tam demokratik keçirilməsinə əməl etmir və bu halda müəyyən dekorativ addımlar atılır, lakin seçkinin nəticələrinin saxtalaşdırılması səbəbindən xalq küçələrə çıxır. Lakin beynəlxalq birliyin təsiri və təzyiqi ilə hakimiyyət küçələrə çıxmış xalqa qarşı zor tətbiq edə bilmir. Nəticədə hadisələr Gürcüstan və Ukraynada olduğu kimi cərəyan edir. Üçüncü variant isə hakimiyyətdaxili qruplaşmaların parlament seçkiləri ərəfəsində saray çevrilişi vasitəsilə ölkədə siyasi böhran yaratmasıdır. Müxalifət bu vəziyyətdən də istifadə edərək mitinq yolu ilə oliqarxlara (Əli İnsanov, Fərhad Əliyev və başqalarına) hakimiyyətə gəlməyə imkan verməməlidir".

Professor Ramiz Mehdiyev "Azərbaycanda parlament seçkiləri: ilkin təhlil (mülahizələr, nəticələr və proqnozlar)" əsərində belə bir mülahizə irəli sürür ki, müxalifət funksionerləri parlament seçkiləri zamanı hakimiyyətə qarşı mübarizə aktının bir deyil, bir neçə mərhələdən keçməsini mümkün sayırdılar. Elə buna görə də birinci mərhələdə qüvvələri bacardıqca qürumaq, mövcud potensialı mübarizənin növbəti mərhələsinə qə-

dər saxlamaq xotti əsas götiirülmüşdü. Eyni zamanda, kəmiyyətlə bərabər, mütəşəkkillik də diqqət yetirilən əsas məsələlərdən idi. Müəllif müxalifətin "narıncı inqilab" planlarında dinc metodlara üstünlük verdiyini qeyd etsə də, iqtidarın müxalifətə güzəştə getməyəcəyi təqdirdə radikal düşərgənin seçki dövründə və seçkidən sonrakı ilk mərhələdə digər variantlardan istifadəsinin artiq geridə qalmış mümkünlüyünü də istisna saymır: "Belə ki, iqtidarın müxalifətə güzəştə getməyəcəyi təqdirdə nəqliyyat vasitələrinin, telekommunikasiya xətlərinin, dövlət idarə, müəssisə və təşkilatlarının fəaliyyətini iflic vəziyyətə salmaq üçün zorakı metodlardan istifadə ediləcəyi də istisna olunmurdu. Hər şeyi həmin dövrdəki siyasi vəziyyət müəyyən etməli idi".

Azərbaycanın seçki təcrübəsində ilk dəfə olaraq səsvermənin paralel hesablanması üçüu nəzərdə tutulmuş "exitpoll"a da müxalifətin həlledici əhəmiyyət verdiyini xatırladan alim bildirir ki, radikal düşərgə "exitpoll"da seçkinin ilkin nəticələrinin MSK-dan əvvəl elan olunmasını özü üçün əlverişli hal sayırdı. Onların hesablamalarına görə, bu, hakimiyyəti guya fakt qarşısında qoyacaq və iqtidarın geri çəkilməsi siyasi təşəbbüsü müxalifətin əlinə keçirəcəkdi.

Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev "Azadlıq" blokunun parlament seçkiləri uğrunda siyasi mübarizə gedişində qeyri-hökumət təşkilatları ilə iş-birliyinə önəm verdiyini də nəzərə çatdırır. Onun mülahizələrinə əsasən, üçüncü sektora belə diqqət qeyri-hökumət təşkilatlarının cəmiyyətin siyasi baxışlarına təsir imkanlarından irəli gəlirdi. Radikal müxalifət düşərgəsinin təbliğat imkanlarının genişlendirilməsi üçün müstəqil televiziyanın yaradılması ideyası isə liələ seçkilərdən çox-çox əvvəl ortaya atılmışdı. Hesab edilirdi ki, müstəqil televiziyanın yaradılması müxalifətə seçki kampaniyasının gedişində təbliğat işini qurmağa böyük kömək göstərə bilər. Müxalifət təmsilçilərinin müstəqil televiziyanın yaradılmasının onların fəaliyyəti barədə cəmiyyətə informasiyaların ötürülməsi üçün əlverişli imkanlar yaradacağını düşündüklərini qeyd edən müəllif vurğulayır ki, bu məqsədlə hətta maliyyə mənbələrinin axtarışı da başlanmişdı.

Elmi-tədqiqat əsərində müxalifətin seçki məğlubiyyətinin əsas səbəbləri barədə irəli sürülmüş mülahizələr də kifayət qədər əsaslıdır və bu

mülazələr sistemli analizə, konkret faktlara, ardıcıl müşahidələrə əsaslanır. Professor Ramiz Mehdiyev bu mövzunun təhlilinə başlamazdan öncə radikal müxalifət düşərgəsində hökm sürən ab-havaya diqqət yönəltmiş, son 13 ildə Azərbaycan ictimaiyyətinin müxalifət düşərgəsində adət halını alan qarşıdurmalara, ziddiyyətlərə, partiya rəhbərləri və funksionerləri səviyyəsində qarşılıqlı ittiham və təhqirlərə, xaotik və prinsipsiz birləşmə-ayrılmalara, ideyasızlığa, vahid ideya siyasi xətdən məhrumluğa şahid olduğunu vurğulamışdır. Alimin mövqeyinə görə, yalan, populist vədlər, ictimai rəylə kobud manipulyasiya cəhdləri, davakarlıq, hərc-mərcliyə və qarşıdurmalara meyillilik, islənilən pozucu amildən hakimiyyətə qarşı yararlanmaq cəhdləri radikal müxalifətə rəhbərlik edən şəxslərin xarakterini, mövqeyini, baxışlarını və dünyagörüşünü səciyyələndirən əsas cəhətlər kimi bütövlükdə götürülmüş ictimai-siyasi həyatmıızın reallığıdır.

Destruktiv radikalizm prinsipini seçməklə quruculuğu deyil, dağıdıcılığı özünə məqsəd kimi müəyyənləşdirən radikal müxalifətin Azərbaycan dövlətinə qarşı dayanması acı olsa da, faktdır. Sistemsizlik, demokratik cəmiyyət və hüquqi dövlət strukturuna sığmayan fəaliyyət, pərakəndəlik, vahid siyasi müxalifət məkanında mövcud ola bilməyərək dağınıq fəaliyyətə yönəlmək, dəyişiklik və yeniliklərin dinamikasına uyğunlaşmağı, ictimai maraqların daşıyıcısına çevrilməyi bacarmamaq aqressiv düşərgəni səciyyələndirən əsas əlamətlər kimi sıralana bilər. Onların mübarizə arsenalında cəmlənmiş üsul və vasitələrin 15 il əvvəlin xalq hərəkatı dövründəki ilə təxminən eyni olduğunu müşahidə etmək üçün ətraflı araşdırmalara lüzum qalmır. Eyni şüar və bəyanatlar, xoş goləcək barədə eyni ümidlər, xaos, özbaşınalıq mühitinin yaradılmasına doğru eyni israrlı təşəbbüslər Azərbaycan müxalifətindəki eyni simaların ifasında kifayət qədər tanış görünür. Dəyişən yalnız budur ki, bu şüarlara diqqət kəsilən eleklorat yeni sifətlərlə təzələnmir, əksinə, köhnələr də get-gedə daha böyük intemivliklə qarşılarındakı simalardan, onların boyat bəyanatlarından üz döndərib daha düzgün istiqamətlərə doğru yönəlirlər. 6 noyabr parlament seçkilərinin məlum nəticələrindən sonra bu proses daha da sürətlənmişdir. Müəllifin rəyinə görə, elə sabit elektoratının olmaması faktının özü də Azərbaycan müxalifətinin özünəməxsusluğunu göstərən cəhətlər

dən biridir. Bu düşərgədə təmsil olunmuş qurumların sabit elektoratı yox, ümumilikdə müxalifətin elektoratı anlayışı var. Əgər paytaxtda Müsavat, AXCP (i), ADP, AMİP və bir sıra digor partiyalar müxtəlif aksiyalar zamanı müəyyən miqdarda adamları pulla cəlb edə bilirdisə, regionlarda, ümumiyyətlə, hər hansı partiyanın sabit elektoratı anlayışı mövcud deyil. Professor Ramiz Mehdiyev "Azərbaycanda parlament seçkiləri: ilkin təhlil (mülahizələr, nəticələr və proqnozlar)" əsərindəki elmi araşdırmalarında artıq cəmiyyətdə stereotipo çevrilmiş belə bir ənənəni çox düzgün olaraq müəyyənləşdirib diqqətə çatdırmışdır ki, çoxları müxalifətdə olan partiyanı adına, mövqeyinə, siyasi xəttinə görə deyil, ona rəhbərlik edən şəxsə görə tanıyırlar. Bu partiyalarda avtoritar idarə üsulu hökm sürür, demokratik partiya quruculuğu, fikir plüralizmi, söz azadlığı yoxdur, bütün proseslər partiya rəhbərinin iradəsinə və istəyinə uyğunlaşmalıdır. Bu səbəbdən müəllif belə bir nəticəyə gəlir ki, əslində özəl şirkət anlayışı bu partiyaların mahiyyətinə daha çox uyğundur. Fikıinin nə qədər əsaslı olduğunu sübuta yetirmək üçün müəllif konkret faktlara müraciət edir: "Məsələn, 2005-ci ilin parlament seçkiləri ərəfəsində AXCP (i)də Əliməmməd Nuriyev və Asim Mollazadənin fikir ayrılığı qəbul edilmədi, onlar partiya sıralarından xaric olundular. Eynilə seçkilər ərəfəsində Rasım Musabəyov, İbrahim İbrahimli kimi tanınmış Müsavat fımksionerlori partiyanm seçki marafonundan kənarda qaldılar. Bütün bunlar göstərdi ki, radikal müxalifət partiyalarında partiyanın xətti ona rəhbərlik edən şəxslərin ambisiyası, mövqeyi əsasında qurulur və bu xətdən azacıq yayınma ciddi cəza ilə nəticələnir".

## Dağlıq Qarabağ problemindən sui-istifadə cəhdi

Müxalifət partiyalarına rəhbərlik edən şəxslərin bir-birinə rəqib kimi baxması, bir-birini qəbul etməməsi də vacib bir məqam kimi diqqətə çatdırılır. Müəllif bildirir ki, hətta parlament seçkiləri ərəfəsində əsas müxalifət partiyalarının birliyi kimi qəbul edilən "Azadlıq" bloku daxilində də bu məqam özünü qabarıq şəkildə büruzə vermişdir. Seçkidən xeyli əvvəl

AXCP (i) sədri ƏH Kerimli ilə bağlı Türkiyə mətbuatmda yayılmış xoşagəlməz məlumatların Müsavat Partiyası tərəfindən sevinclə qarşılanması, Milli Demokrat Partiyasının sədri İsgəndər Həmidovun bu məsələyə münasibəti irəli sürülən fikirlərin əyani sübutu kimi misal göstərilir, oxşar vəziyyətin R.Quliyevin iflasa uğramış qayıdış şousu zamanı İsa Qəmbər və Əli Kərimlinin davranışlarında da müşahidə edildiyi bildirilir.

Professor Ramiz Mehdiyev vurğulayır ki, yaradılan görüntüyə rəğmən "Azadlıq" bloku daxilində birlik, əslində, zahiri xarakter daşıyırdı və bu, heç də təsadüf kimi qiymətləndirilməməlidir. Onun fikrincə, bəzi xarici qüvvələrin diktəsi ilə qurulmış "Azadlıq" blokunun təsisçiləri ilk gündən yaxşı bilirdilər ki, bu qurumda həqiqi birlik heç zaman baş tutmayacaqdır. Çünki bloka daxil olan qurumların rəhbərləri hər biri özünü birinci görür və bu təşkilat daxilində hər hansı vahid ideyadan söhbət getmirdi: "Müsavat, AXCP və ADP rəhbərləri bir həqiqəti dərk edə bilmirlər ki, demokratiya yolu ilə gedən cəmiyyətdə mahiyyətcə bu tipli birliklərin yaranması daha çox totalitar təfəkkürün məhsulu kimi qiymətləndirilir. Bu düşüncənin sahibləri olan üç partiyanın rəhbərlərinin bir-birini qəbul etməməsi faktını gizlətmək, pərdələmək heç vaxt mümkün olmamışdır. Həmçinin bu blokda təmsil olunan partiyaların hər birinin özünü "ana müxalifət" kimi təqdim etməsi də qıcığa və ziddiyyətlərə səbəb olan vacib məqamlardan biri kimi qəbul edilməlidir. Həmin partiyaların nəzarətində olan qəzetlərdə "müttəfiq" partiyaların rəhbərləri haqqında gedən materiallar da onlar arasında dərin ziddiyyətin mövcudluğunu göstərmişdir".

Azərbaycan hökumətinin korrupsiyaya qarşı mübarizəni gücləndirməsi fonunda radikal müxalifətin əksinə, korrupsiyaya qurşanmış ayrı-ayrı məmurlarla gizli işbirliyi və onların dövlət çcvrilişi planında birgə iştirakı faktının vaxtında ifşası da aqressiv düşərgənin parlament seçkilərindəki məğlubiyyətini şərtləndirən ən əsas amillərdəı biridir. Bu mənada professor Ramiz Mehdiyevin mülahizələrini tam haqlı saymaq olar ki, müxalifətin korrupsiyalaşmış məmurlarla işbirliyinin ifşasından sonra bir tərəfdən beynəlxalq təşkilatlar, eləcə də xarici dövlətlərin nümayəndələri, digər tərəfədən isə müxalifətə meyilli olan, lakin müxalifətin sabit elektoratı hesab edilməyən müəyyən qüvvələr radikal düşərgədən üz döndərdi:

"Qərb və ABŞ bir tərəfdən hakimiyyətin gücünü, xalqın böyük dəstəyinə malik olduğunu gördüsə və keçirilmiş sorğuların görüntü yox, reallıq olduğunu başa düşdüsə, digər tərəfdən də müxalifətin özünün son dərəcə cılızlığını və acizliyini müşahidə etməklə bu qüvvələrin özlərinin korrupsiyaya və cinayətkar ünsürlərlə əlaqəyə can atdığını açıq gördü. Bu amilin Qərbin, ABŞ-ın və ümumilikdə xalqın seçiminə təsiri şübhəsizdir".

Professor Ramiz Mehdiyevin elmi təhlilləri parlament seçkisinə qoşulan digər seçki bloklarını da əhatə etmişdir. Onun "Yeni siyasət" bloku barədə irəli sürdüyü fikir və rəylər xüsusilə maraq doğurur. Professor seçkilər ərəfəsində xarici dairələrin tapşırığı ilə yaranmış, partiyalardan daha çox fərdlərin birliyi təəsürratı bağışlayan YeS blokunda nə baş verdiyinin ümumiyyətlə anlaşılmaz qaldığını bildirərək vurğulayır ki, hətta siyasətə dəxli olmayan QHT-nin də böyük məmnuniyyətlə bu quruma daxil edilməsi onun bər hansı sosial bazaya malik olmamasından xəbər verirdi: "Yarandığı gündən qeyri-ciddi təəssürat bağışlayan "Yeni siyasət" bloku qum üzərində qurulmuş tikilini xatırladır. Böyük ümidlərlə yaranan blok ilk imtahandan belə çıxa bilmədi".

Radikal müxalifətin hakimiyyətə gəlmək üçün Dağlıq Qarabağ problemindən əsas və asan vasitə kimi faydalanmaları həqiqəti də elmi-tədqiqat əsərində xüsusi vurğulanan aspektlərdən biri kimi nəzərə çarpır. Vaxtilə AXC-nin Dağlıq Qarabağ amilindən məharətlə istifadə etdiyini yada salan alim radikal müxalifətin yenə də eyni taktikadan bəhrələnmək arzusunu üzə çıxarır. Professor Ramiz Mehdiyev bu fikri irəli sürərkən dəlil kimi "Azadlıq" blokunun platformasına əsaslanmış, "Azadlıq" blokunun platformasında Dağlıq Qarabağ probleminin həllinin guya Azərbaycanın demokratikləşməsindən asılı olması barədə irəli sürülən tezisi diqqətə çatdırmışdır. Bu tezisin əsassızlığını tutarlı arqumentlərlə sübuta yetirən müəllif hesab edir ki, Azərbaycanda demokratiya tam bərqərar olandan sonra da beynəlxalq ictimaiyyət Dağlıq Qarabağı Azərbaycana "qızıl nimçə"də təqdim edən deyil. Ən azı bütün dünyada demokratiyanın beşiyi kimi qəbul olunan Qorb ölkələrinin özündə də xalqların milli azadlığı uğrunda aparılan çoxillik mübarizələr bunun əyani sübutu kimi unudulmamalıdır.

Professor Ramiz Mehdiyev demokratik inkişaf və Qərbə doğru inteqrasiya xəttini əsas prioritetlərdən biri kimi müəyyənləşdirən müstəqil Azərbaycan dövlətinin münaqişənin ıiəlli istiqamətində uğurlu addımlar atdığını ölkəmizin Ermənistanın bütün dünyada işğalçı rejim və Dağlıq Qarabağın qeyri-qanuni qurum kimi tanınmasına nail olduğunu da vurğulamışdır. O, qeyd etmişdir ki, Azərbaycan iqtisadiyyatın və ordunun gücləndirilməsi isliqamətində də mühüm işlər görür. Ölkəmizin nüfuzu getdikcə daha da güclənir. Beynəlxalq aləmdə Azərbaycanın mövqeləri möhkəmlənir. Müstəqil dövlətimiz həm siyasi, həm iqtisadi layihələrin aparıcı iştirakçısı kimi regionda əsas söz sahibinə çevrilmişdir. Azərbaycanın dövlət rəhbərliyi yaranmış imkanlardan məqamında istifadə edərək Dağlıq Qarabağ probleminin həlli üçün bütün imkanlardan faydalanır.

Bu münaqişənin yalnız demokratikləşmə prosesindon asılı vəziyyətə salınması isə alimin rəyinə əsasən, yalnız siyasi daltonizm kimi səciyyələndirilə bilər. Müəllifin fikrincə, "Azadlıq" blokunun iddiaları bu qurumda təmsil olunmuş insanların Azərbaycanın problemlərinin həlli ilə bağlı aydın təsəvvürlərə malik olmadıqlarını, istənilən məsəlıyə öz maraqları prizmasından baxdıqlarını bir daha ortaya qoymuşdur.

Sirr deyil ki, radikal müxalifət düşərgəsinin 6 noyabr parlament seçkilərindəki iflası düşərgə daxilindəki ziddiyyətləri gücləndirmiş, yeni parlamentə və təkrar seçkilərə münasibətdə ortaya çıxan mövqe ayrılığı dünənə qədər müttəfiq kimi görünən düşərgə təmsilçilərini yenidən qatı düşmənlərə çevirmişdir. Əbədi məğlubiyyətin səbəblərini üzə çıxarmaq üçün müxalifət partiyaları daxilində hələ də davam edən müzakirələrdə isə maraqlı bir meyli sezməmək mümkün deyil. Bu məqam professor Ramiz Mehdiyevin araşdırmalarında da öz əksini tapmışdır. O, müşahidələrindən çixiş edərək belə bir nəticəyə gəlir ki, Azərbaycanda bütün sahələr üzrə islahatların sürətlənməsi, Qərbin Prezident İlham Əliyevlə əməkdaşlığı daha da genişləndirməsi və digər bu kimi müsbət tendensiyalar müqabilində İsa Qəmbərin, Əli Kərimovun, Sərdar Cəlaloğlunun, Lalə Şövkətin və digər radikal müxalifət təmsilçilərinin həqiqəti heç cür etiraf etməməsi, onların yenə də insanları müxtəlif vədlərlə aldatmaları düşərgənin liberal meyilli nümayəndələrində get-gedə daha ciddi narahatlıq doğurmaqdadır.

Çağdaş elmimizdə növbəti dəfə Azərbaycanın mövcud siyasi reallıqlarını fundamental şəkildə tədqiqata cəlb etməklə öz qənaətlərini geniş oxucu kütləsi ilə bölüşən fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin "Azərbaycanda parlament seçkiləri: ilkin təhlil (mülahizələr, nəticələr və proqnozlar)" əsəri, düşünürük ki, müxalifət üçün də bu düşərgədəki acınacaqlı durumun obyektiv qiymətləndirilməsi, buraxılmış səhvlərin götür-qoy edilməsi baxımından faydalı bir vəsait olacaqdır.

**Alış QASIMOV,**
**Bakı Dövlət Universitetinin Mülki prosEs,**
**əmək və ekologiya hüququ kafedrasının müdiri,**
**hüquq elmləri doktoru, professor**

*21 fevral, 2006*

# TƏKAMÜLƏ ƏSASLANAN DEMOKRATİK İNKİŞAF

***Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin "2005-ci ilin parlament seçkiləri: ilkin təhlil (mülahizələr, nəticələr və proqnozlar)" əsəri son parlament seçkilərinin Azərbaycan üçün müstəsna əhəmiyyətini bir daha aşkara çixarır***

***Müstəqil Azdrbaycanın ən yeni tarixinə əlamətdar hadisə kimi daxil olmuş 6 noyabr parlament seçkiləri nəticə etibarilə cəmiyyətin bütün təbəqələrinin mənafelərini özündə ehtiva edən, ölkəni dinamik inkişuf magistralına çıxaran Heydər Əliyev siyasi kursunun davamlılığını və altertnativsizliyini şərtləndirən amillərin sosial sifarişə əsaslandığını tarixi-politoloji prizmadan tam sübuta yetirmişdir. Xalqın dəstəyilə siyasi arenadakı lider statusunu qoruyub saxlayan hakim komandanın əldə etdiyi növbəti nailiyyət də bu kontekstdən mövcud siyasi strategiyanın varisliyinin təmin olunmasında yeni bir mərhələnin başlanğıcı kimi dəyərləndirilə bilər.***

Son parlament seçkiləri xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi kursuna dərin inam, sevgi və rəğbətini novbəti dəfə nümayiş etdirməklə yanaşi, Azərbaycan cəmiyyətinin seçiminin dəyişməz olduğunu sübuta yetirmişdir. Seçkinin nəticələri birmənalı olaraq göstərmişdir ki, Azərbaycan cəmiyyəti Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilən strateji siyasi kursa alternativ görmür. Bu da təsadüfi deyildir qeyri-adi şəxsiyyət olan ümummilli liderimiz Heydər Əliyev bütün zəngin və mənalı həyatı boyu daim xalqını, vətənini düşünmüş, Azərbaycanın ən çətin məqamlarında onu xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmiş, ölkəsini bəlalardan qurtarmağı bacarmış, təbiətin ona bəxş etdiyi bir çox fitri keyfiyyətlər sayəsində tarixi hadisələrin inkişaf məcrasını qabaqcadan müəyyən edə bilmişdir. Ulu öndərimiz milli ta-

rix üçün olduqca böyük əhəmiyyət daşıyan qərarlar qəbul edilən zaman əsl vətənpərvər movqeyi nümayiş etdirmiş, özünün siyasi bacarığı sayəsində ölkəni vətəndaş müharibəsi təhlükəsindən, ictimai-siyasi böhrandan xilas edə bilmiş, cəmiyyətin məqsədini, qayəsini öz varlığında, özünün güclü şəxsiyyətində bir daha təzahür etdirərək doğma xalqını yenidən vahid bir məfkurə ətrafında səfərbər etmiş, onun qəlbində sabaha inam hissi yaratmağı bacarmışdır. Hər bir fərdin maraqlarını özündə yüksək səviyyədə əks etdirən Heydər Əliyev siyasi kursunun davam etdirilməsi də, bu mənada, Azərbaycanda cəmiyyətin sosial sifarişinə çevrilmişdir.

Son parlament seçkiləri də Azərbaycanın bütün həyati əhəmiyyətli sahələrdə qazandığı böyük uğurları gündəlik həyatında hiss edən, möhkəm təməllərə söykənən iqtisad-isiyasi sabitlik, əmin-amanlıq və sülh şəraitində yaşayan orta statistik azərbaycanlının seçiminin alternativsiz və dəyişməz olduğu bir daha təsdiqlənmişdir. Ölkə vətəndaşları Heydər Əliyev siyasi kursunu yeganə nicat və istinadgah mənbəyi seçdiyi kimi, qarşıdakı beş ildə Azərbaycanın dinamik tərəqqisində müstəsna rol oynayacaq parlament çoxluğunu da ulu öndərimizin layiqli davamçısı azərbaycan Prczidenti cənab İlham Əliyevin komandasında görmək istəmişlər.

Prezidentin İcra Aparatının rəhbəri, fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin "2005-ci il parlament seçkiləri: ilkin təhlil (mülabizələr, nəticələr və proqnozlar)" sərləvhəsi altında dərc olunmuş silsilə məqalələri son parlament seçkilərinin Azərbaycan üçün müstəsna əhəmiyyətini bir daha aşkara çıxarır. Ciddi nəzəri-praktiki ümumiləşdirmələrə, fakt və obyektiv həqiqətlərə söykənən təhlilə, maraqlı müşahidələrə, proqnoz və nəticələrə əsaslanan bu əsər 2005-ci ildə Azərbaycanın ictimai-siyasi həyatında ən əlamətdar hadisələrdən biri kimi yadda qalmış parlament seçkiləri kampaniyasının ayrı-ayrı mərhələləri, o cümlədən bu kontekstdə respublikanın müasir inkişaf strategiyası ilə bağlı maraqlı fikirlər əksini tapmışdır. "2005-ci il parlament seçkilərinin təhlili göstərdi ki, Azərbaycanda sivil, demokratik, hüquqi dövlət quruculuğu prosesi artıq dönməz xarakter alıb və bu prosesi əngəlləməyə qadir olan qüvvə yoxdur. Eyni zamanda seçki prosesi göstərdi ki, Azərbaycanda xalqın iradəsinə arxalanan, siyasətini milli maraqlar üzərində quran, real gücə və nüfuza malik, sivil, dünyada cərəyan edən prosesləri diqqət mərkəzində saxlayan, müstəqil Azərbaycan dövləti quruculuğu prosesində böyük əməyi olan, ölkənin inkişafı

ilə bağlı real və fundamental konsepsiyaya malik iqtidar mövcuddur. Heydər Əliyev ideologiyasını rəhbər tutan hakimiyyət komandası Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanı yeni, möhtəşəm uğurlara aparmaq iqtidarındadır" deyən fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev hakim komandanın parlament seçkilərindəki möhtəşəm qələbəsini ümummilli liderimiz Heydər Əliyevin ölməz dühası ilə qurulan Azərbaycan dövlətinin yeni siyasi mərbələyə inamla qədəm qoyması kimi şərh edir. Parlament seçkilərinin demokratik, azad və ədalətli keçirilməsi nəticəsində Prezident İlham Əliyevin bütün geosiyasi sədləri aşaraq Azərbaycanı həm regionda, həm də dünya siyasətində öncül mövqelərə çıxarması müəllif tərəfindən çox inandırcı şəkildə sübuta yelirilir.

Müasir Azərbaycanda dövlət quruculuğunun, iqtisadi dirçəlişin, siyasi yetkinləşmə prosesinin otuz ildən artiq dövrünün dərin zəkaya, ensiklopedik biliyə, geniş dünyagörüşünə malik tarixi şəxsiyyət ümummilli liderimiz Heydər Əliyevin əməli fəaliyyəti ilə bilavasitə bağlılığını müəllif olduqca maraqlı mülahizə və müşahidələrlə bir daha təsdiqləyir. Ulu öndərimiz Heydər Əliyevin formalaşdırdığı və inkişaf etdirdiyi dövlətçilik fəlsəfəsi Azərbaycanın müasir dünyada xüsusi yerini müəyyən etmiş, milli dövlətçiliyimizin bünövrəsini təşkil edərək dünya azərbaycanlılarının həmrəyliyi üçün möhkəm zəmin yaratmışdır. Heydər Əliyev demokratik, hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasət yeridərək ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı təməl formalaşdırmışdır. Onun rəhbərliyi altında Azərbaycan dövlətinin xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara, habelə siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda rezonans doğuran addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bugünü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli olmuşdur. Heydər Əliyevin fəal diplomatiyası nəticəsində Azərbaycan dünyanın demokratik dövlətlərinin və aparıcı ictimai təşkilatlarının ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətinin əsaslı surətdə dəyişməsinə nail ola bilmişdir. Professor Ramiz Mehdiyevin parlament seçkilərinin simasında Azərbaycanda dövlət

quruculuğu prosesinin dönməz xarakter alması haqqındakı qənaəti ölkəmizdə mövcud reallıqları özündə ehtiva edir. Dövlət quruculuğu cəmiyyətin inkişafının kardinal struktur əsaslarını özündə birləşdirən son dərəcə çətin prosesdir. Dialektik struktur modeli baxmından yeniliklə köhnəliyin qarşılıqlı münasibətlərinin mürəkkəb dinamikasına söykənir. Müəllifın Azərbaycanda dövlət quruculuğu prosesini əngəlləməyə qadir olan qüvvənin olmaması haqqındaki qənaəti təkcə ölkədaxili situasiyanın təhlilindən doğan fikir yox, həm də gerçəkliyin qlobal münasibətlər sistemində fəlsəfi-məntiqi analizindən nəşət edən siyasi-fəlsəfi həqiqətidir. Azərbaycan dövlətçiliyi adlanan siyasi-milli həqiqət beynəlxalq siyasi gerçəkliyin inkarolunmaz faktına çevrilməklə onun reallığını doğuran şərtlərə əngəl ola biləcək amilləri artıq antidialektik ünsürlərə çevirmişdir.

Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin təhlillərində qloballaşmanın geniş vüsət aldığı hazırkı dövrdə Azərbaycanın ümummilli liderimiz Heydər Əliyevin zəngin biliyi və dövlətçilik təcrübəsi sayəsində böyük nüfuz qazanmasından da geniş bəhs edilir: "Qloballaşma hcç də təkcə iqtisadi fenomen, fərdin həyat şəraitini yaxşılaşdırmaq və informasiyadan istifadənin və onun ötürülməsinin yeni yollarını yaratmaq demək deyil. Qloballaşma comiyyət həyatının bütün sahələrini, o cümlədən social-siyasi aspektini əhatə edən çoxsəpkili prosesdir. O, milli sosial-iqtisadi qurumları vahid dünya iqtisadi və ictimai sistemi ilə qarşılıqlı surətdə bağlayan ümumdünya hadisəsidir. Qloballaşma bəşəriyyətin onilliklər ərzində qarşılaşdığı bir çox problemləri üzə çıxarınışdır. Lakin ümumınilli lider Heydər Əliyev Azərbaycan dövlətini bu problemlərdən uğurla sığortalaya bilmişdir".

Müəllif öz qənaətlərində diqqəti haqlı olaraq qloballaşmanın problematik tərəflərinə cəlb etmiş və ulu öndərimiz Heydər Əliyevin fenomenallığını bu kontekstdə işıqlandırmışdır. Qloballaşma dünya siyasi məkanının bütün subyektlərini hərəkətə gətirmişdir.

Siyasi, milli, iqtisadi və mədəni fəallığın bu planetar səviyyəsində həmin hərəkət axmından qıraqda qalmaq, sadəcə olaraq, mümkün deyildir, Bütöv dünyanı əhatə edən bu proses beynəlxalq münasibətlərin subyekti olan siyasi qurumları, istəristəməz, bu prosesə cəlb edir. Onu kənardan izləmək və qloballaşmanın təsirlərindən heç nə olmayıbnış kimi yayınmaq mümkün deyildir. Dünyanın aparıcı dövlətləri mövcud durumlaruı şərtləndirən uzunmüddətli zaman prosesinin nəticəsi olaraq qloballaşma prosesinə

aktiv şəkildə qoşulmuşlar. Azərbaycan keçmiş sovetlər məkanına daxil olan, eyni zamanda prosesə qoşulmaq üçün heç bir zəruri hazırlıq mərhələsi keçməyən dövlət kimi qloballaşma "qasırğasına" düşdü. Gcostrateji mövqeyi, zəngin karbohidrogen ehtiyatları onu dərhal "qasırğanın" episentrinə itələdi. Bunun da "töhfələri" kardinal problemlər oldu. Yalnız Heydər Əliyev fenomeni, onun şəxsiyyətinin yenilməz iradəsi, düşüncəsinin dinamizmi, dünyada gedən prosesləri anlamaq, təhlil edib modelləşdirmək və siyasi davranışın ən əlverişli sxemlərini reallaşdırmaq qabiliyyəti Azərbaycanı məhvdən xilas edib sabit inkişaf yoluna çıxardı. Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev Heydər Əliyev fenomenini məhz qloballaşmanın problemləri kontekstində göstərməklə ulu şəxsiyyətin mılli dövlətçilik yaddaşındakı yerinin əzəli və əbədiliyini ortaya qoymuşdur.

Professor Ramiz Mehdiyevin qənaətincə, Azərbaycanın Şərqlə Qərbi, habelə Şimalla Cənubu birləşdirən əsas nəqliyyat dəhlizlərinin kəsişdiyi geosiyasi məkanda yerləşməsi qloballaşma prosesləri baxımından onun təkcə regional deyil, həm də beynəlxalq layihələrdə əhəmiyyətini xeyli artırır. Fəqət qloballaşma proseslərinin geniş vüsət alması fonunda xalqın milli-mənəvi potensialının yad təzahürlərdən hifz olunması da aktual məsələ kimi ortaya çıxır. Ulu öndərimiz Heydər Əliyevin hələ 1993-cü ildən başlayaraq türkdilli dövlətlər arasında iqtisadi, siyasi, ədəbi-mədəni əlaqələrin genişləndirilməsi və möhkəmləndirilməsi sahəsindəki gərgin fəaliyyəti qloballaşmanın geniş vüsət aldığı bir dövrdə xalqın milli kimliyinin qorunub saxlanılması baxımından müstəsna əhəmiyyət daşımışdır. Tarixin amansız və sərt sınaqları dövründə dünyanın ayrı-ayrı ölkələrinə səpələnmək məcburiyyətində qalmış dünya azərbaycanlılarının birlik və həmrəyliyinin əldə edilməsi sahəsində də Heydər Əliyevin müstəsna xidmətləri vardır. Ulu öndərimiz dünya azərbaycanlılarının təşkilatlanması və onların ümumi Vətən müstəqil Azərbaycan ətrafında sıx birləşməsi üçün daim əzmlə çalışmış, bu istiqamətdə son dərəcə əhəmiyyətli qərarlar qəbul etmişdir. Heydər Əliyevin siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində həyata keçirdiyi planlar müasir Azərbaycanın gerçəkliyinə çevrilmişdir. Ulu öndərimizin fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz bir hissəsini təşkil edir. Heydər Əliyev ölkə həyatının bütün strateji sahələri ilə yanaşı, mədəniyyət və incəsənətimizin, milli-mənəvi dəyərlərimizin, folklorumuzun inkişafına da böyük diqqət yetirmiş, mədəni irsimizə hörmət

və məhəbbətlə yanaşmışdır. Ümummilli liderimiz Azərbaycan xəzinəsinin milli-mənəvi sərvətlərimizin ən böyük himayədarına, müdafiəçisinə çevrilmişdir. Son illərdə mədəniyyət və incəsənət sahəsində əldə olunan uğurlara diqqət yetirsək, Heydər Əliyevin mənəvi dəyərlərimizin təbliği yolunda gördüyü cahanşümul işlərin şahidinə çevrilərik.

Siyasi təlimlər nəzəriyyəsinə görə, liberalizm fərdi hüquq və azadlıqların müstəsna prioritetinə əsaslandığı üçün dövlətçilik kursu ilə heç də həmişə və asanlıqla uzlaşmır. Dövlətçiliyin əlverişli geosiyasi və hətta hərbisiyasi şərtlər çərçivəsində qurulması müstəqilük qazanımş bütün xalqların ən əsas arzularındandır. Heydər Əliyev hakimiyyətə gəlişinin ilk illərində liberal dəyərləri üstün tutan nüfuzlu beynəlxalq siyasi dairələrin "daha çox demokratiya, daha az dövlət " çağrışlarına cavab olaraq Azərbaycanın yerləşdiyi coğrafisiyasi regionda, həmçinin ictimai inkişafın mövcud pilləsində dövlətçilik prinsipinin dominant üstünlük qazanması zərurətini əsaslandırmalı oimuşdur. Aydın məsələdir ki, dövlət olmadan vətəndaşların demokratik hüquq və azadlıqlarını həyata keçirmək də mümkün deyit. Lakin o biri tərəfdən, insanların hüquq və azadlıqlarını qoruya bilmodikləri dövlət son nəticədə cəmiyyətin inkişafı üçün təkanverici rolunu yox, buxov və əngəl rolunu oynamağa məhkumdur. Ümummilli liderimiz Heydər Əliyev bu iki siyasi ideyanın hər ikisinin eyni dərəcədə düzgün olduğunu qəbul etdiyi üçün onlar arasında elə ritmik bir ahəng yaratdı ki, nə dövlət vətəndaşların, nə də vətəndaşların hüquq və azadlıqları dövlətçilik təmayülünün labüd inkişafına xələl gətirsin. Çox maraqlı haldır ki, Azərbaycan xalqı müstəqilliyinə qovuşduqdan sonrakı dövrdə liberal dəyərlərdən nəyi qazanıbsa (çoxpartiyalı siyasi sistem, senzurasız, həqiqi söz və mətbuat azadlığı, Avropa standartlarına uyğun konstitusion qanunvericilik bazası, azad fikir və biznes rəqabəti və s.), məhz dövlətçilik prinsiplərinin aliliyinə əsaslanan ümummilli liderimiz Heydər Əlyevin hakimiyyəti dövründə qazanıb.

6 noyabr parlament seçkisinin nəticələri məhz bu iki amilin  demokratiya və dövlətçiliyin xalq tərəfindən eyni anlamda müstəsna əhəmiyyət kəsb etdiyini, cəmiyyətin bunlardan birini digərindən fərqləndirmədiyi reallığını növbəti dəfə ortaya qoymuşdur. Sübut olundu ki, xalqın demokratiya arzuları ulu öndər Heydər Əliyevin banisi olduğu müasir dövlətçilik prinsipləri üzərində köklənmişdir. Cəmiyyət yüksək demokratik inkişafa

hər hansı dağıdıcı inqilabla deyil, məhz təkamül yolu ilə nail olmağın zəruriliyini parlament seçkisinin rəsmi nəticələrində bir daha təzahür etdirmişdir. Professor Ramiz Mehdiyev bu məqamları önə çəkərək 2005-ci ilin parlament seçkilərinin Azərbaycanın demokratik inkişafındakı rolunu, ölkənin siyasi sisteminin modernləşməsində bu amilin aktuallığını, seçkinin nəticələrinin siyasi, sosial-iqtisadi və mədəni-intellektual sferada aparılan islahatlara yeni ruh və müasirlik gətirəcəyi barədə əminliyini konkret arqumentlərlə önə çəkmişdir.

Yüsək inkişaf etmiş ölkələrdə vahid ideya-siyasi xəttə malik, məqsədyönlü fəaliyyətində ardıcıl müxalifətin mövcudluğu demokratiyanın ən vacib şərtlərindən sayılır. Onların fəaliyyətinə nəzər saldıqda aydın görünür ki, hər bir siyasi qüvvənin elmi şəkildə əsaslandırılmış prinsipial mövqeyi, sabit elektoratı, müxalifət qurumlarına rəhbərlik edən şəxslərin isə nəzəri baxışları, ölkənin inkişafı və problemlərin həlli ilə bağlı konseptual proqram və platformaları mövcuddur. Bu partiyalar çəkisindən və vacibliyindən asılı olmayaraq bütün məsələlərin iqtidar nümayəndələri ilə bir masa arxasında səmərəli müzakirə edilməsi və çıxış yollarının axtarılnası vasitəsilə həllinə üstünlük verirlər. Almaniya, Böyük Britaniya, Fransa, ABŞ, Türkiyə və digər ölkələrdə siyasi partiyaların fəaliyyəti ilə tanış olan hər kəsin bu reallığı müşahidə etmək imkanları var. Bu məqamlar üzərində xüsusi dayanan fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev hesab edir ki, Azərbaycanda vəziyyət tamamilə fərqlidir. Müəllifin fikrincə, ölkəmizdəki radikal düşərgənin öz fəaliyyətini tamam başqa istiqamət üzrə qurmasi ondan xəbər verir ki, Azərbaycanda müxalifət, sözün əsl mənasında, partiya kimi formalaşmamışdır və ölkəmizdə demokratik müxalifətin mövcudluğundan danışmaq mümkün deyil. Bu səbəbdən söhbət ancaq dağınıq halda fəaliyyət göstərən müxtəlif qruplardan, dəstələrdən gedə bilər. Şübhəsiz, bu proses müəyyən təkamül dövrünü yaşadıqdan sonra professor Ramiz Mehdiyevin bəhs etdiyi Qərb təcrübəsi üzərində köklənəcəkdir.

Avropa siyasətçilərinin həyata keçirmək istədiyi bir layihə dalana dirənəndə Uinston Çörçildən soruşublar ki, bəs indi neyləməliyik? Siyasət nəhəngi heç nə olmayıbınış kimi təmkinini pozmayaraq deyir: "Siyasətdə gedişlər tükənmir". Yəni, yaranmış vəziyyətdən istənilən halda çıxış yolu tapmaq mümkündür. 15 illik mövcudluğu boyu bütün seçkilərdə uduz

muş, imdad dilədiyi bütün ünvanlardan əli üzülmüş ifrat radikal müxalifət öz fəaliyyətini məhz bu tezis üzərində qurmuşdur. Lakin mənasız radikalizmə, qeyrisivil, zorakı mübarizə metodlarına, meydan epopeyasına Azərbaycan cəmiyyətində yer olmadığı son illərin reallıqları fonunda təsdiqini tapmışdır. Ardıcıl olaraq bütün siyasi gedişlərini radikalizm üzərində toparlayan ifrat radikal müxalifətin məğlubiyyəti də bu baxımdan labüd prosesə çevrilmişdir. 6 noyabr 2005-ci il parlament seçkilərinin nəticələri bu reallığı tam çılpaqlığı ilə rəsmiləşdimıişdir.

Professor Ramiz Mehdiyev hesab edir ki, hakimiyyətin alternativsizliyinin obyektiv xarakter daşıması cənab İlham Əliyevin uğurlu fəaliyyətindən irəli gəlir. O, hakim komandanın 6 noyabr parlament seçkilərindəki qələbəsini şərtləndirən amillər üzərində də xüsusi dayanmışdır. Prezident İlham Əliyevin milli birliyin möhkəmləndirilməsi, azərbaycançılıq ideologiyasının milli həmrəyliyin aparıcı faktoruna çevrilməsi istiqamətində gördüyü işlər, orijinal mahiyyət kəsb edən sosial-iqtisadi islahatlar, yeni iş yerlərinin açılması, müxtəlif investisiya proqramlarının həyata keçirilməsi, kadr islahatları, siyasi sabitliyin qorunubsaxlanılması, xarici siyasətdə əldə olunan uğurlar hakimiyyətin 6 noyabr qələbəsini təmin edən ən mühüm elementlərdir. Parlament seçkisinin nəticələri tam çılpaqlığı ilə belə bir reallığı da ifadə etdi kİ, Prezident İlham Əliyevin ölkənin demokratik inkişafının yüksəldilməsi istiqamətindəki addımları uğurla davam edir və dövlət başçısının cəmiyyətin demokratik inkişaf səviyyəsinin yüksəldilməsi istiqamətində fəaliyyəti ardıcıl xarakter daşıyır. Prezident keçid dövrünün stereotipləri ilə aktiv mübarizə aparır. İlk növbədə çalışır ki, cəmiyyətdəki bütün siyasi qüvvələr demokratik inkişafın alternativsizliyini qəbul etsinlər. Noyabrın 6-da keçirilmiş parlament seçkilərinin nəticələri məhz bu baxımdan əlamətdar hesab edilə bilər.

Müəllif 6 noyabr 2005-ci ilin parlament seçkilərində hakim Yeni Azərbaycan Partiyasının, ümumilikdə Heydər Əliyev siyasi konsepsiyasına əsaslanan platformanın qələbə qazanmasını şərtləndirən əsas amillərə xüsusi diqqət yetirmiş, xüsusilə Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi islahatların mahiyyətini açıqlamışdır. "Məlum olduğu kirni, hakim partiyanın, ümumiyyətlə, hakimiyyətin reytinqinə müsbət təsir edən ən mühüm amillərdən biri ölkədə aparılan sosial-iqtisadi siyasətdir. Bu məsələ insanların, seçicilərin sosial durumuna, həyat səviyyəsinə bir

başa təsir etdiyi üçün hər bir seçici bu və ya digər siyasi qüvvə arasında seçim edəndə sosial-iqtisadi amili əsas şərtlərdən biri və bəlkə də birincisi kimi görür" deyən professor Ramiz Mehdiyev bu fikirdədir ki, ölkənin iqtisadi, intellektual, maliyyə, kadr və s. potensialını Azərbaycanın hərtərəfli inkişafı naminə səfərbər etmiş Prezident İlham Əliyev ötən müddət ərzində xalqa verdiyi bütün vədlərə sadiqlik nümayiş etdirmişdir.

Müəllifin bu fikrində bir-biri ilə sıx şəkildə bağlı üç mühüm və zəruri dövlətçilik amili qabardılmışdır:

Birincisi, dövlətçiliyin Heydər Əliyev modeli və onun siyasi-təcrübi nəticələrində reallaşmış kurs;

İkincisi, dövlətçiliyin İlham Əliyev təcrübəsində reallaşdırılan milli-siyasi irsi və onun evəlyusiyon inkişaf modeli;

Üçüncüsü, hər bir dövlətçilik, o cümlədən Azərbaycan dövlətçiliyi üçün həyati əhəmiyyət kəsb edən sosial-iqtisadi amil.

Professor Ramiz Mehdiyev bir filosof və siyasi xadim kimi sosial-iqtisadi amilin mövcud iqtidarın milli siyasətinin əsas amillərindən biri olduğunu yazmaqla Heydər Əliyev İham Əliyev siyasi varisliyində reallaşan Azərbaycan dövlətçiliyinin dialektik əsaslar üzərində inkişaf etdiyini və uğurlarının bu dilaektikaya bağlandığını vurğulamışdır. Doğrudan da gənc liderimiz milli-siyasi kursu həm davam, həm də inkişaf etdirir. Onun yeniliklərə can atması, əslində, Heydər Əliyev dövlətçilik ənənəsinin mahiyyətindən doğur. Cənab İlham Əliyev ölkənin sosial-iqtisadi reallıqlarına söykənməklə yeni reallıqları artıq uğurla formalaşdırmaqda və dövlət çilik təcrübəsində təsdiq etdirməkdədir.

Professor Ramiz Mehdiyev həmçinin bildirir ki, Azərbaycanda hüquqi və demokratik dövlət üçün bütün lazımi təsisatlar formalaşdırılmış, söz və mətbuat azadlığı üçün yüksək şərait yaradılmış, demokratik seçki prosesi təmin olunmuşdur. Lakıı hakimiyyətlərini itirdikləri andan ötən 14 il müddətdə radikal müxalifət partiyalarının liderləri Azərbaycanın və beynəlxalq aləmin inkişaf meyillərinə uyğun düşünərək hərəkət etməyi öyrənməmiş, öz aralarındakı hakimiyyət ambisiyalarını boğaraq ortaq məxrəcə gələ bilməmişlər. Lakin onlar çox gözəl dərk edirlər ki, cənab İlham Əliyev bütün siyasi parametrlərinə fenomenal keyfiyyətlərinə, siyasi hakimiyyəti idarə etmək potensialına görə ən real fiqurdur və onların hər birinin hakimiyyət yolunda çox ciddi maneədir. Digər tərəfdən, idarəetmə

dən fərqli olaraq, tənqid etmək, publika qarşısında populist çıxışlar etmək elə də ciddi məsuliyyət tələb etmir. İdarəetməyə gəlincə, bu, ciddi bir işdir, bundan nəinki xalqın, dövlətin, eyni zamanda təmsil etdiyin hakimiyyətin taleyi asılıdır.

Azərbaycan müxalifətinin əksər nümayəndələrinin aid olduğu dağıdıcı tip liderlərin yaradacağı dövlət idarəçiliyi sisteminin gələcəyini təsəvvür etmək o qədər də çətin deyil. Bu insanların mentaliteti, təhsili, intellektual və peşəkar keyfiyyətləri yalnız publika qarşısında, qeyri-formal vəziyyətlərdə hansısa effekt verə bilər. Beləsləri nə böhran, nə də ki, sabit şəraitdə dövlət idarəçilik sisteminin istismar və inkişafını təmin edə bilər. Həmin insanlar yalnız onu dağıtmağa qadirdilər ki, bunun həm xalq, həm də Azərbaycanla olaqə qurmuş xarici aləm üçün yalnız mənfi nəlicələri ola bilər. Seçki öncəsi radikal müxalifətin "narıncı inqilab" eyforiyasına mübtəla olnıası faktı da bu reallığı birmənalı olaraq sübut etdi. Təbii ki, Azərbaycanda siyasi situasiya həm seçkidən əvvəl, həm də sonra bir çox parametrlərinə görə Ukrayna və Gürcüstandakından fərqlənirdi. Əvvəla, o respublikalardan fərqli olaraq, bizdə müxalifət yekcins deyil. "Narıncı inqilab"ı istəyən də müxalifətin hamısı yox, yalnız hakimiyyətlə gərgin münasibətlərdə olan radikal qanaddır. Müxalifətdəki bu pərakəndəliyin, fikir aynlığının müqabilində, hakimiyyət komandası müxalifətə qarşı vahid güc kimi çıxış edir. Digər tərəfdən, Ukrayna və Gürcüstandan fərqli olaraq, Qərb, konkret desək, ABŞ Azərbaycanda vəziyyətin inqilabi situasiya həddinə çatmasında qətiyyən maraqlı deyildi. Çünki Azərbaycan həm müharibə vəziyyətində olan ölkədir, həm də iki böyük antiABŞ movqeli düvlətlə Rusiya və İranla həmsərhoddir. Regionda münasibətlərin son dərəcə gərginləşdiyi indiki ərəfədə bu ölkələrin bəzi siyasi dairələri fürsət axtarırlar ki, Azərbaycanda Qərbin mənafelərinə zərbə vurub öz mövqelərini gücləndirsinlər. Bu baxımdan, seçki ərəfəsində Qərb proseslərin gərginliyə, xaosa aparan istiqamətinə yox, kompromis, razılaşma variantına daha çox üstünlük verdi. Professor Ramiz Mehdiyev seçkiöncəsi durumu bu kontekstdən təhlil edərkən bildirir ki, ölkədə "narıncı inqilab" üçün heç bir real əsas yox idi: "Xalq və hakimiyyətin birliyi buna əyani sübutdur. Həqiqətən də inqilab üçün tələbat və bu dəyişiklikləri həyata keçirən qüvvə olmalıdır. Bunların heç biri Azərbaycanda mövcud deyildir".

Futuroloqların proqnozlarına görə, dövlətçilik əsaslarının formalaşdığı və sabit inkişaf edən ölkələrdə yaxın illərdə "kommon brain" adlanan (hər

fi tərcüməsi ümumi beyin, ümumi zəka) yeni siyasi elita formalaşacaq. Proqnozlaşdırılır ki, bu, hər cür radikallıqdan, emosionallıqdan və təsadüfilikdən uzaq olan yüksək intellektual və praqmatik funksionerlərin vahid, sərt qaydada strukturlaşdırılmış, iyerarxiya cəhətdən nizamlanmış komandası olmalıdır. Lakin 2005-ci ilin parlament seçkiləri Azərbaycanda radikal, dağıdıcı, ambisioz müxalifətin bu şansdan tamamilə məhrum olduğunu açıq şəkildə nümayiş etdirdi. ictimai rəyə hakim kəsilmiş və beynəlxalq birliyin də şərik çıxdığı rəy bir daha öz təsdiqini tapdı: Azərbaycanda radikal müxalifət adına iddialı olan qüvvələr xalqın dayaqlarından məhrumdur. Müxalifətin radikal qanadının əsas məqsədi Azərbaycanı inkişaf etdirmək, problemlərinin həllinə nail olmaq deyil, müstəqilliyinin 15-ci ilini yaşayan ölkəmizi yeni siyasi təlatümlərə, qarşıdurmalara, iğtişaşlara sürükləməkdir. Açıq görünür ki, radikal müxalifət Azərbaycanın inkişaf etdirilməsi yolları barədə aydın təsəvvürə malik deyil. Bu günədək hər hansı taleyüklü problemlə bağlı konseptual fikir ortaya qoymayan qüvvələr yalnız hakimiyyət hərisliyi ilə yaşayır. İnsanlar haqlı olaraq düşünürlər ki, siyasi addımlarında həmişə müxtəlif xarici təşkilatların rəyini əsas götürən, əcnəbilərin göstərişi ilə oturubduran, hətta Dağlıq Qarabağ məsələsində də öz müstəqil mövqeyini nümayiş etdirə bilməyən qüvvələr Azərbaycanın maraqlarını layiqincə qoruya bilməzlər. Professor Ramiz Mehdiyev hesab edir ki, bu, xalqdan ayrı düşmüş, sistemdən kənar müxalifətdir: "Beləliklə, xalqa, millətə, dövlətə xidmət edən, öz gücünü daxildən alan müxalifətin formalaşması məsələsi müzakirə mövzularından olaraq qalır".

Radikal müxalifətə son seçkilərdə güclü siyasi zərbə vuran əsas amillərdən biri də Azərbaycan vətəndaşlarının ulu öndər Heydər Əliyevin siyasi kursunu dəstəkləməsini seçki vasitəsilə sübut etməsi oldu. Beləliklə, müxalifət liderləri seçki məğlubiyyətlərini həm də xalqın iradəsinin yekunu kimi qiymətləndirmək zərurəti ilə üz-üzə qaldılar, Prezident İlham Əliyevin müxalifətçilərin qərəzli davranışlarına, siyasi manipulyasiyalarına, yalan və böhtanlarına reaksiya verməməsi radikal, qərəzli, qeyri-konstruktiv müxalifət partiyalarını Azərbaycan cəmiyyətində tamamilə iflas vəziyyətinə gətirdi. Bütün bunlar 2005-ci ilin noyabrında keçirilən parlament seçkilərində radikal düşərgənin mövcud durumunu ifadə etdi. Bu reallığı deyişmək isə onların imkanları xaricindədir. Prezident İlham Əliyevin ölkənin və millətin gələcək inkişafı, əhalinin sosial durumunun yax-

şılaşdırılması, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, ölkənin iqtisadi yüksəlişi ilə məşğul olmasının, sahibkarlığın inkişafı üçün real tədbirlər həyata keçirməsinin, elmə, təhsilə xüsusi qayğı göstərməsinin müqabilində aqressiv müxalifət pozucu, qərəzli və cılız davranışları ilə tamamilə perspektivsiz, çarəsiz və dağınıq görünür.

2005-ci ilin sosial-iqtisadi yekunlarına həsr edilmiş müşavirədə Prezident İlham Əliyevin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tapacağı barədə sərt bəyanatı onun dövlətçiliyə və milli mənafelərə hədsiz bağlılığını növbəti dəfə nümayiş etdirdi: "Bir daha bəyan edirəm, nə 5 ildən sonra, nə 10 ildən sonra, nə 15 ildən sonra, nə də 100 ildən sonra Dağlıq Qarabağ Azərbaycandan ayrılmayacaqdır".

Ölkə rəhbərinin bu bəyanatı, əslində, Azərbaycanın milli iradəsinin manifestasiyasıdır. Müxalifətin hansı təzahür formalarında spekulyasiya etməsindən asılı olmayaraq, Azərbaycanın ərazi bütövlüyü milli iqtidarın dövlətçilik fəlsəfəsinin kardinal tezisi olaraq qalmaqdadır. Azərbaycanda uzun illər ərzində davam etmiş dövlətçilik təcrübəsi göstərdi ki, mövcud iqtidar öz siyasətinin bütün struktur göstəriciləri səviyyəsində bütövdür və bütövlük bu iqtidarın davranışlarının universal həqiqəti olaraq qalmaqdadır. Ulu öndər Heydər Əliyev üçün Azərbaycanın bütövlüyü özünün şəxsiyyət bütövlüyü demək idi. Öz mənəvi və fiziki varlığını mövcud Azərbaycanda təcəlli etdirmiş bu şəxsiyyət Azərbaycanın Qarabağ faciəsini hər bir millət övladının əqlicismani bütövlüyünə vurulmuş zərbə sayırdı. Ona görə də İlham Əliyevin Azərbaycanın bütövlüyü, Dağlıq Qarabağın ölkəmizdən heç vaxt ayrılmayacağı haqqındakı bəyanatı bu gün bizim xalqırnızın dünya birliyi qarşısına çıxardığı yenilməz milli həqiqətdir. Cənab İlham Əliyev xalqın iradəsini təcəssüm etdirən öndər kimi, öz bəyanatında bu milli vəhdətə söykəndiyi, həmin vəhdəti öz milli düşüncəsinin əsaslarında təcəssüm etdirə bildiyi üçün belə kəskin, inamlı və sarsılmaz görünür.

Radikal müxalifət isə bu reallıqlar qarşısında aciz və miskin durumdadır. Parlament seçkilərinin nəticələri də göstərdi ki, artıq müxalifət köhnə mübarizə metodlarından əl çəkməli, fəaliyyətini qaçılmaz həyati reallıqlar və praqmatik baxışlar üzərində qurmalıdır. Professor Ramiz Mehdiyev də bu məqama xüsusi diqqət ayırır: "Müxalifətin, xüsusilə də onun dağıdıcı-radikal hissəsinin liderləri dərk etməlidirlər ki, Azərbaycan öz inkişafının elə

mərhələsinə qədəm qoymuşdur ki, müxalifətin hakimiyyətlə qarşılıqlı münasibətləri, hakimiyyət uğrunda mübarizə yalnız sivilizasiyalı forma və üsullarla aparıla bilər". Lakin istər-istəməz məntiqi sual yaramır: müxalifət buna ən azı psixoloji cəhətdən hazırdırmı? Son 13 il ərzində yalnız monoton mübarizə üsulları ilə mübarizə aparmış qüvvələr sivil və intellektual mübarizə metodlarını mənimsəyə biləcəkmi? Təəssüf ki, ötən dövrün reallıqları fonunda bu sualların nikbin cavabı ətrafında düşünmək olduqca çətindir.

Hələlik radikal müxalifət postseçki dövrünün stixiyasını yaşamağa məhkumdur. Psixoloji affekt vəziyyətindən çıxmaq üçün müxtəlif variantlar müzakirə edilsə də, radikal müxalifət hələ uzun müddət ekstremal şəraitdə yaşamağa və işləməyə məcbur olacaq. Bu düşərgə seçki öncəsi buraxdığı bir sıra kobud səhvlərin girovuna çevrilib. Ən qəribəsi də odur ki, hakimiyyətin opponentləri bu səhvləri ictimai müzakirəyə çıxarmaq istəmirlər. Bu haqda danışmaq cəsarətində bulunan şəxslər isə "toptüfənglə" qarşılanır. Radikal müxalifət nümayəndələrinin parlamentdə təmsil olunmasına, müxalifət qəzetlərinin maneəsiz və heç bir senzura qoyulmadan böyük tirajlarla çıxmasına, rnüxalif partiyalann azad fəaliyyot göstərməsinə, müxalifətin sərbost surətdə kütləvi aksiyalar keçirməsinə, ümumiyyətlə, mövcud iqtidarın müxalifətin fəaliyyəti üçün bütün zəruri şəraiti yaratmasına baxmayaraq, bu qüvvələr siyasi mübarizədə legitim üsullardan istifadə etmək barədə düşünmürlər. Bunun əsas səbəbi ondan ibarətdir ki, radikal müxalifət partiyalarının kifayət qədər sosial bazası yoxdur. Parlament seçkilərindən sonra radikal müxalif siyasi qrupların dövlət orqanlarına qarşı düşmənçilik hərəkətlərinə çağırışların səslənməsi, onların nəzarəti altında olan kütləvi informasiya vasitələrində aparılan böhtan və təxribat kampaniyası xalqın onlara inamsızlığının təzahürüdür. Eyni zamanda, bütün bu hərəkətlər radikal və pozucu müxalifətin açıq düşmənçilik mövqeyinə keçdiyini və hədsiz həyasızlaşdığını nümayiş etdirir.

Azərbaycanın siyasi həyatına yeni oyun qaydaları daxil olur praqmatiklik, liberal iqtisadi münasibətlər, açıq vətəndaş cəmiyyəti, sivil siyasi mübarizə, siyasi qüvvələrə bacarıq və qabiliyyətinə görə qiymətvermə ənənələrinin yaranması prosesi sürətlənir. Bu da, öz növbəsində, ənənəvi müxalifətçilik, populizm, radikallıq, dağıdıcılıq, qaragüruhçuluq, inqilabçılıq, destruktivlik tendensiyalarının aktuallığını itirməsi deməkdir. Artıq indidən müxalif düşərgədə bu kriteriyalarla partiya iyerarxiyasında yüksəlmiş lider-

lərin çıxdaşı, alternativ dünyagörüşlü siyasətçilərin axtarışı gedir. Əlbəttə, bu yolun qısa bir zamanda aşılacağını proqnozlaşdırmaq müşkül məsələdir. Göründüyü kimi, Azərbaycan üçün yeni dövr  fərqli reallıq, yeni imkanlar zamanı başlanmışdır. Bu mərhələni maksimum itkisiz və qazancla keçmək üçün müvafiq dünyagörüşünə, yeni ictimai şüur sisteminə ehtiyac var. Bu sistem quruculuğu yuxarıdanaşağıya prinsipi ilə həyata keçirilməlidir. Bütün bu reallıqlar isə Azərbaycan cəmiyyətində radikal müxalifətçiliyə meydan olmadığını, xalqın ümummilli lider Heydər Əliyev siyasi kursunu və Prezident İlham Əliyevi dəstəkləməkdə haqlı olduğunu konkret arqumentlərlə təsdiqləyir.

**Hüseyn İSMAYILOV,**
**AMEA Folklor İnstitutunun direktoru,**
**filologiya elmləri doktoru, professor**

*12 mart, 2006*

# SOSİALİQTİSADİ İSLAHATLAR KURSUNUN TƏNTƏNƏSİ

***Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev "2005-ci il parlament seçkiləri: ilkin təhlil (mülahizələr, naticələr və proqnozlar)" sərlövhəli əsərində son parlament seçkilərinə nəzərən ölkənin müasir iqtisadi inkişaf strategiyasını da təhlil etmişdir***

***Seçki prosesi hər bir siyasi qüvvənin fəaliyyətinə verilən ictimai qiymət olmaqla, ciddi elmi-politoloji əsaslara söykənir. Hər bir fərdin maraq və mənafelərini özündə ehtiva edən rasional siyasət yeritməyən və yaxud platformasının səmərəlilik əmsalını inandırıcı sosial-iqtisadi, siyasi dəlillər zəminində sübuta yetirə bilməyən qüvvənin ictimai etimad qazanmasının qeyri-mümkünlüyünü isə xüsusi əsaslandırmağa ehtiyac yoxdur. Son 10 ildə Azərbaycan cəmiyyətinin siyasi nöqteyi-nəzərdən kifayət qədər yetkinləşməsi vətəndaşların düşüncə tərzində də kardinal dəyişikliklərə səbəb olnıuş, seçki mübarizəsində populizm elementlərinin, irreal vədlərə hansısa yer saxlamamışdır.***

Azərbaycan xalqı 6 noyabr 2005-ci il tarixli seçimi ilə təkamülə əsaslanan demokratik inkişafin tərəfdarı olduğunu, ölkənin taleyini yalnız konkret proqramlara malik, çevik, işlək və monolit komandaya etibar etdiyini bir daha təsdiqləmişdir. Son parlament seçkiləri ölkədə həyata keçirilən strateji kursun şəksiz qələbəsinin və alternativsizliyinin əyani təcəssümü kimi yadda qalmış, yeni siyasi münasibətlər sisteminin bünövrəsini qoymuşdur. Müxtəlif sahələrdə səmərəli islahatların təməlini qoymaqla Azərbaycanın dinamik sosial-iqtisadi yüksəlişini təmin etmiş Heydər Əliyev siyasi kursunun davam etdirilməsi son seçkilərdə cəmiyyətin həlledici çoxluğunun iradəsi kimi önə çıxmışdır.

Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri, fəlsəfə elmləri doktorui, professor Ramiz Mehdiyevin "2005-ci il parlament seçki

ləri: ilkin təhlil (mülahizələr, nəticələr və proqnozlar)" əsəri də parlament seçkiləri kampaniyasının ayrı-ayrı mərhələlərinin nəzəri-praktik təhlilinə yönəldiyindən ictimaiyyət tərəfindən maraqla qarşılanmış, siyasi dairələrdə müzakirələrə səbəb olmuşdur. Dərin politoloji araşdırmaların, təhlil və müşahidələrin nəticəsi olan bu sanballı əsərdə çağdaş siyasi tariximizin bir çox məqamlarına aydınlıq gətirilmiş, onların elmi izahı verilmişdir. Müəllif parlament seçkiləri kontekstində qloballaşan dünyada Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi potensialını dərin təhlil süzgəcindən keçirir, qərbləşmə, modernləşmə və demokratikləşmənin cəmiyyətə təsirini hərtərəfli şərh edir. Əsərdə postsovet məkanında demokratikləşmə prosesinin, o cümlədən Azərbaycanda aparılan sosial-iqtisadi, siyasi islahatların ümumi istiqamətini göstərmək üçün Qərb konsepsiyalarından istifadənin nəzəripraktiki yollarının araşdırılmasına geniş yer verilir. Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin əsərdə irəli sürdüyü elmi mülahizələrin ümumiləşdirilmiş mahiyyəti isə məhz budur ki, yalnız xalqın dəsləyinə arxalanan qüvvələr seçki kimi mühüm prioritetlərin müəyyənləşdiyi ümumxalq kampaniyasında uğur qazana bilər.

Azərbaycanda mütləq əksəriyyətin etimadını qazanan, sürətli sosial-iqtisadi inkişafı təmin edən, ictimai-siyasi sabitliyi qoruyub saxlayan, qlobal enerji layihələrinin gerçək təminatçısına çevrilən, ölkənin beynəlxalq arenada nüfuz və mövqelərini möhkəmləndirən mövcud iqtidarın parlament seçkilərindəki qələbəsi müəllif tərəfindən haqlı olaraq cəmiyyətin sosial sifarişi, zəruri istəyi kimi dəyərləndirilir. Müəllif 6 noyabr 2005-ci il parlament seçkilərində ümummilli liderimiz Heydər Əliyevin siyasi konsepsiyasına əsaslanan mövcud kursun və bu kursun daşıyıcısı olan iqtidar komandasının qələbəsini şərtləndirən amillərə xüsusi diqqət ayırmışdir. Əsərdə xüsusən də cənab İlham Əliyevin son iki ildə həyata keçirdiyi sosial-iqtisadi islahatların elmi mahiyyəti açıqlanmış, ölkədə aparılan çoxşaxəli islahatlar hakimiyyətin seçkidəki qələbəsini şərtləndirən başlıca amillərdən biri kimi qiymətləndirilmişdir. Felsəfə elmlori doktoru, professor Ramiz Mehdiyev qeyd edir ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev respublikada sürətli sosial-iqtisadi inkişaf və tərəqqiyə, sabitliyə, vətəndaş sülhünə ciddi təminat yaratmış siyasi kursu 2005-ci ildə də uğurla davam etdirərək hər bir azərbaycanlının Prezidenti olduğunu sübuta yetirmiş, verdiyi bütün vədlərə sadiqlik nümayiş etdirmişdir. 2005-ci ili fəal sosi-

al siyasət ili elan etmiş dövlət başçısımn bütün qərarları, imzaladığı sərəncamlar onun daim xalqın maraq və mənafeyindən çıxış etdiyini bir daha təsdiqləmişdir. Son birillik fəaliyyəti dövründə ölkə rəhbərinin qərarları reallığa tamamilə adekvat olduğunu, praqmatizmə söykəndiyini sübuta yetirmişdir. Azərbaycan Prezidenti ölkənin qarşısında hansı əsas problemlərin, prioritet vəzifələrin dayandığını aydın təsəvvür edir və onlann həlli üçün konkret planlara, proqramlara, yüksək iş qabiliyyəlli komandaya malikdir.

Ulu öndərimiz Heydər Əliyevin müəllifi olduğu yeni neft strategiyasının xalqın mənafeyinə uyğun davam etdirilməsi, qlobal enerji və kommunikasiya layihələrinin ardıcıl surətdə həyata keçirilməsi, yerli və xarici investisiyalann regionların inkişafına yönəldilməsi, yeni istehsal sahələrinin açılması, qeyri-neft sektorunun yüksəlişi, işsizliyin aradan qaldırılması əsərdə hakimiyyətin seçkiqabağı üstünlüyünü şərtləndirən mühüm iqtisadi amillər kimi önə çəkilir. Bölgələrdə yaşayan vətəndaşların zəruri arzu və istəkləri, eləcə də onları illərdən bəri narahat edən, qayğılandıran ən həssas məqamlar belə dövlət proqramının əhatə dairəsindən kənarda qalmamışdır. Dövlət proqramının əhəmiyyətini artıran başlıca cəhət də məhz burada insan amilinin bütün məqsədlərin fövqündə dayanmasıdır. Ölkədə işsizlik probleminin həlli, yeni sosial infrastruktur obyektlərinin təhsil, mədəniyyət, səhiyyə, rabitə müəssisələrinin qısa müddət ərzində tikilərək istifadəyə verilməsi, yeni yolların, su, qaz, elektrik, rabitə xətlərinin çəkilişi son nəticədə Azərbaycan insanının mədəni-intellektual səviyyəsinin yüksəlməsinə, mənəviəxlaqi dəyərlərin cəmiyyətimizdə əsas meyara çevrilməsinə xidmət edir. Bütün bunlar təbii olaraq vətəndaşların siyasi seçiminə də ciddi təsir göstərir.

Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev hesab edir ki, Azərbaycanın sosial-iqtisadi sahədə qazandığı böyük uğur və naüliyyetleri gündəlik həyatında hiss edən, maddi rifah halı getdikcə yüksələn və bütün bunların fonunda gələcəyə böyük ümidlə yanaşan ölkə vətəndaşları son seçkilərdə məhz iqtidarda olan partiyanın namizədlərinə səs vermişlər: "Məlum olduğu kimi, hakim partiyanın, ümumiyyətlə, hakimiyyətin reytinqinə müsbət təsir edən ən mühüm amillərdən biri Ölkədə aparılan sosial-iqtisadi siyasətdir. Bu məsələ insanların, seçicilərin sosial durumuna, həyat səviyyəsinə birbaşa təsir etdiyi üçün hər bir seçici bu və ya di-

gər siyasi qüvvə arasında seçim edəndə sosial-iqtisadi amili əsas şərtlərdən biri və bəlkə də birincisi kimi görür".

Prezident İlham Əliyevin son iki ildə imzaladığı mühüm dövlət proqramlarına, fərman və sərəncamlara diqqəti çəkən müəllif ölkə başçısının fəaliyyətinin əsas qayəsinin xalqa və dovlətə təmənnasız xidmət prinsipi üzərində qurulduğunu qeyd edir. Əsərdə xüsusi vurğulanır ki, Heydər Əliyevin zəngin dövlətçilik fəlsəfəsindən bəhrələnən cənab İlham Əliyev ulu öndərimizin möhkəm təməllər üzərində formalaşdırdığı idarəçilik ənənələrini davam etdirmək üçün zəruri liderlik keyfiyyətlərinə malikdir. Siyasi iradə və qətiyyətlilik, praqmatizm, məqsədyönlülük, öz siyasətini reallaşdırarkən hər bir fərdin maraqlarını yüksək peşəkarliqla nəzərə almaq qabiliyyəti kimi mühüm keyfiyyətlər Prezident İlham Əliyevin fenomenal siyasi lider obrazını şərtfəndirən elementler sırasında xüsusi vurğulanmalıdır. Dövlət başçısı ölkəyə rəhbərlik etdiyi qısa dövr ərzində imzaladığı məqsədyönlü fərman və sərəncamlarla, qəbul etdiyi praqmatik qərarlarla, habelə obyektiv reallığa adekvat addımları ilə ölkəmizin dinamik yüksəlişini təmin etmiş, yeni dövrün tələbi kimi qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş, həyata keçirdiyi islahatlarla inkişaf mexanizminin daha da çevikliyinə, iştəkliyinə nail olmuşdur. Bu gün Azərbaycan Prezidentinin rəhbərliyi ilə görülon işlər, əldə olunan uğurlu nəticələr hələ ötən əsrin 90-cı illərinin ortalarından ulu öndərimiz Heydər Əliyev tərəfindən başlanmış çoxşaxəli islahatlar kursunun məntiqi davamıdır.

Azərbaycan Prezidenti seçildikdən sonra hokumət üzvləri ilə keçirdiyi ilk toplantıda xalqa xidməti hökumət üzvləri qarşısında əsas tələb, vəzifə kimi müəyyənləşdirən dövlət başçısının irəli sürdüyü bu prinsip indi də öz qüvvəsindədir. "Biz xalqın xidmətçiləriyik" deyən cənab İlham Əliyev komandasının hər bir üzvünün tutduğu vəzifəyə nə dərəcədə layiqliyini onun xalqa göstərdiyi xidmətlə müəyyənləşdirir. Regionların tərəqqisi, əyalətlərdə yeni iş yerlərinin açılması, urbanizasiya prosesinin səviyyəsinin azaldılması, sosial infrastrukturun yeniləşməsi, yeriərdəki problemlərin aradan qaldırılması məqsədilə imzaladığı sənədlərin icrası vəziyyəti ilə tanış olmaq, sıravi insanlarla ünsiyyət quraraq mövcud çətinliklər barədə informasiyaları ilkin mənbədən almaq üçün vaxtaşırı Azərbaycanın müxtəlif rayonlarına səfırləri cənab İlham Əliyevin fəaliyyətinin üstün istiqamətlərindən biri kimi diqqəti çəkir. Vətəndaşlarla birbaşa təmaslara

üstünlük verən, özünəməxsus təmkin və həssaslıqla onların problemlərini dinləyən, bu problemlərin həlli üçün qəti tapşırıqlar verən cənab İlham Əliyevin bu addimları ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir, xalqın öz Prezidentinə olaıı inamını, etimadını daha da artırır. Xalqı seçkidənseçkiyə yada salan bəzi siyasi qüvvələrdən fərqli olaraq, Azərbaycan Prezidentinin bölgələrə səfərləri kampaniyaçılıqdan tamamilə uzaq olub onun təkmil idarəçilik üslubunun mahiyyətindən irəli gəlir.

Azərbaycan Prezidentinin özünəməxsus dinamizmlə reallaşdırdığı siyasət hesabina ölkə həyatında müşahidə olunan davamlı yüksəliş respublikanın pozitiv inkişafını müəyyənləşdirən fakt və statistik göstəricilərdə də qabarıq təsdiqini tapır. 2005-ci ilin yekunlarına həsr olunmuş müşavirədə Azərbaycan hökuməti üzvlərinin cənab Prezidentə verdikləri hesabat, həmin müşavirədə diqqətə çatdırılan faktlar bunun əyani göstəricisidir. 2005-ci ilin yekunlarına görə, ötən il ümumi daxili məhsulun 27 faizlik artım tempi ilə dünyada liderliyi ələ alan Azərbaycanda sənaye potensialı 33 faizdən çox, əhalinin pul golirləri 27 faiz, əməkhaqqı 22 faiz artmış, regionların inkişafı, işsizliyin səviyyəsinin azaldılması sahəsində ciddi nəticələr əldə edilmişdir. İki il ərzində ölkəmizdə 340 mindən çox iş yerinin açılması, ölkədə yoxsulluq həddinin bir il ərzində 40 faizdən 29 faizə düşməsi, qeyrineft sektorunun inkişafı Azərbaycanın çağdaş tarixində əldə cdilmiş ən böyük nailiyyətiər kimi nəzərdən keçirilməlidir. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin 2006-cı ildə tam istismara verilməsi Azərbaycanı daha böyük iqtisadi nailiyyətlərə qovuşduracaq, xalqın maddi rifali halının yüksəlməsinə səbəb olacaqdır. Xalqın son parlament seçkilərindəki seçiminə əsaslı təsir göstərən bu kimi vacib məqamlara yer ayıran fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev yazır: "Azərbaycan Prezidenti cənab İlham Əliyevin ardıcıl şəkildə regionlara səfəri, ictimaiyyətlə görüşləri, müxtəlif təyinatlı müəssisələrin açılişında iştirakı, eyni zamanda, bütün rayonlarda aparılan quruculuq və abadlıq işləri xüsusi qeyd edilməlidir. Çünki insanlar dövlətin, Prezidentin onlara qayğısını bilavasitə hiss edir, qarşıda duran problemlərin həlli istiqamətində real addımlar atıldığını görür".

Azərbaycan Prezidenti cənab İlham Əliyev müasir idarəçilik prinsiplərindən və Qərb iqtisadi sisteminin nailiyyətlərindən maksimum yararlanaraq Azərbaycanın regionda güclü və qüdrətli dövlətə çevrilməsini təmin

etmişdir. Ölkədə demokratik, hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasətin yeridilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsinin təşkili, dövlətçilik ənənələrinin zənginləşdirilməsi, müstəqilliyinin möhkəmləndirilməsi, ölkəmizin dinamik iqtisadi inkişaf magistralına çıxması, onun beynəlxalq nüfuzunun sürətlə artması məhz cənab İlham Əliyevin şəxsi liderlik keyfiyyətləri sayəsində mümkün olmuşdur. Prezident İlham Əliyevin müəyyən etdiyi strateji istiqamətlər hələ uzun illər Azərbaycanın möhkəmləndirilməsi və gücləndirilməsinə, iqtisadi qiidrətinin artırılmasına, xalqın layiq olduğu xoşbəxtliyə qovuşmasına xidmət edəcəkdir. Bütün bunlarla yanaşı, fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin sözügedən əsərində xüsusi olaraq vurğulanır ki, qloballaşmaqda olan çağdaş dünyamızın önə çıxardığı yeni şərtlər çərçivəsində gənc və müstəqil dövlətimizin ardıcıl tərəqqi yoluna qədəm qoymasi, inanılmaz uğurlara imza atması beynəlxalq ictimaiyyətdə də xüsusi maraq doğurur. Respublikamız ÜDM-in artım tempinə görə 2005-ci ildə də MDB və Şərqi Avropa ölkələri arasında lider mövqeyini qoruyaraq 2006-ci ilə daha böyük göstəricilərlə daxil olmuşdur. Dövlət başçısı kimi cəmi iki il 6 ay fəaliyyət göstərməsinə baxmayaraq, belə böyük uğurlara imza atmış cənab İlham Əliyevin yüksək liderlik keyfiyyətləri də xüsusi qeyd olunur. Maraqlıdır ki, təkcə yerli analitik və siyasi şərhçilər deyil, əcnəbi müşahidəçi və ekspertlər də Azərbaycanda nəzərə çarpan sürətli iqtisadi inkişaf tempinin son hədd olmadığını, ölkəmizin bir neçə ilin içərisində indiki dövlət başçısının rəhbərliyi üə daha böyük iqtisadi uğurlara imza atacağını söyləyirlər. Məsələn, bu ilin yanvarında Rusiyanın Qlobal.ru internet saytında yrrləşdirilmiş və MDB ölkələrindəki iqtisadi vəziyyətin təhlilinə həsr olunmuş analitik məqalədə deyilir: "Azərbaycanda 2005-ci ildə ÜDMin artımı 26,4 faiz olub, 2006cı ildə bu, 29,7 faiz, 2007-ci ildə 30,1 faiz, 2008-ci ildə 30,3 faizə çatacaq".

Mövcud hakimiyyətin alternativsizliyi məsələsinə toxunarkən professor Ramiz Mehdiyev bunu şərtləndirən sosial-iqtisadi, ictimai-siyasi, mənəvi, tarixi və elmipolitoloji aspektləri dəqiqliklə izah etmişdir. Müəllif göstərir ki, Azərbaycan cəmiyyətini uzun illər narahat edən məsələlərdən biri də hakimiyyət sükanının yenidən təsadüfi şəxslərin, meydan eyforiyasından ayıla bilməyən diletantların əlinə düşməsi təhlükəsi olmuşdur. Bu narahatlıq xalqın mövcud siyasi kursun davamlılığının təmin edilməsi

naminə ortaya möhkəm siyasi iradə qoymasını da zərurətə çcvirmişdir. Bunun nəticəsi kimi 2005-ci il 6 noyabr parlament seçkilərində xalqımızın nəzər nöqtəsi birmənalı olaraq cənab İlham Əliyevin komandası üzərində dayanmışdır. "Xüsusilə vurğulanmalıdır ki, Azərbaycan seçicisinin gozü qarşısında yaxın tariximizin kəskin fərqli mənzərəsi mövcuddur. Ehtimal ki, seçicilər məntəqələrə getməzdən öncə hansı siyasi qüvvənin namizədinə səs verəcəklərini ölçüb-biçərkən qeyriixtiyari AXC-Müsavat hakimiyyəti dövründə tüğyan edən xaos və dağıntılarla bugünün sabit inkişafını müqayisə etməli oldular" fikri ilə fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev birmənalı olaraq təsdiqləyir ki, mövcud hakimiyyətin alternativsizliyi məhz Prezident İlham Əliyevin çoxşaxəli və səmərəli fəaliyyəti, həmçinin xalqımızın ümummilli lideri Heydər Əliyev kursuna dərin inamı və rəğbəti üzərində bərqərar olmuşdur.

Əsərdə seçkilərin azad, şəffaf və demokratik keçirilməsi baxımından Prezident İlham Əliyevin 2005-ci il 11 may tarixli "Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsinə dair" və 2005-ci il 25 oktyabr tarixli "Azərbaycan Rcspublikasının Milli Məçlisinə seçkilərin keçirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında" sərəncamları davamlı demokratik inkişafın təmin olunmasına yönələn siyasi iradə nümayişi kimi dəyərləndirilir. Müəllif öz təhlillərində sərbəst toplaşmaq, siyasi fikir plüralizmi, mətbuat orqanlarının sərbəstliyi, qanunun aliliyi prinsipinin təmin olunması kimi mühüm müddəaları özündə ehtiva edən bu sərəncamları yüksək qiymətləndirmişdir. Professor Ramiz Mehdiyevin politoloji mülahizələri bir daha təsdiqləyir ki, demokratiya yolunda inamla irəliləyən Azərbaycan onun atributlarından biri və başlıcası sayılan seçkilərin qanunauyğun keçirilməsi istiqamətində dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsindən istifadə edərək böyük uğurlar qazanmışdır.

Müasir dünyanın siyasi, iqtisadi, mədəni və geopolitik şərtləri ilə ayaqlaşaraq Qərbə inteqrasiya siyasətinə üstünlük verən müstəqil respublikamızda cənab İlham Əliyevin hakimiyyət dövrünü yeni tarixi mərhələ hesab edən fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev mövqeyini konkret arqumentlər və elminəzəri dəlillərlə əsaslandırr. Əsərdə haqlı olaraq vurğulanır ki, Azərbaycan xalqı milli mentalitet baxımından nisbətən mühafizəkar olsa da, islahatlara son dərəcə həssasdır. Cənab İlham Əliyevin idarəçilik üslubunda nəzərə çarpan ən əhəmiyyətli məqamlardan

biri də məhz bundan ibarətdir ki, Azərbaycanda yeni mülkiyyət formalarının yaranması, sahibkarlığın sürətli inkişafı üçün yaradılan münbit şərait əhalinin sosial baxımdan nisbətən zəif təbəqəsinin maraqlarını inkar etmir. Bu təbəqənin maraqları mütləq nəzərə alınır və ölkomizdə özəl sektorun daha da mkişafı üçün atılan hər bir addımın bu təbəqənin maraqlarına vura biləcəyi cüzi ziyan belə təxirəsalınmaz sosial müdafiə tədbirləri hesabına kompensasiya edilir. Son iki ildə ölkəmizdə təkcə minimum əməkhaqqının 4 dəfə, təhsil, səhiyyə, mədəniyyət işçilərinin, elm sahəsində çalışanların, polis əməkdaşlarının, hərbçilərin əmək haqlarının, tələbə, magistr və aspirantların təqaüdlərinin, əhalinin aztəminatlı təbəqəsinə verilən müavinətlərin bir neçə dəfə artırlıması və digər bu kimi tədbirlər buna sübutdur. Uzun illərdən bəri əhalini narahat edən məsələlərdən biri kimi sovet dövründən banklarda qalan əmanətlərin indeksasiyası prosesinə start verilməsi, həmçinin genc ailələrin mənzil probleminin həlli üçün vətəndaşlara ipoteka kreditlərinin ayrılması prosesinin başlanması da Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasətin uğurlarıdır.

Bu və digər mühüm iqtisadi amillərin siyasi proseslərə təsirindən söz açan fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev bildirir ki, son parlament seçkisinin nəticələri Azərbaycan ictimai rəyinin gözləntilərini ifadə etmiş, mailli maraqların təmin olunmasına yönəlmiş, ölkəyə böyük dividendlər gətirmiş siyasi strateji cəmiyyətin həlledici çoxluğu tərəfindən dəstəklənmişdir. Bu reallıqlar fonunda isə seçkidən əvvəl və sonra radikal müxalifətin "rəngli inqilab" illüziyasının abstrakt mahiyyəti tam çılpaqlığı ilə ortaya çıxmışdır. Müəllif düzgün olaraq qeyd edir ki, inqilablar xalqla iqtidar arasında uçurumun, inamsızlığın yarandığı, sosial-iqtisadi vəziyyətin pisləşdiyi dovlətlərdə baş verə bilər. Azərbaycandakı seçkiqabağı siyasi vəziyyətin tamamilə başqa olduğunu isə müstəqil və xarici fondların, hətta müxalifətə yaxınlığı ilə seçilən analitik sorğu mərkəzlərinin rəyləri də təsdiqləmişdir.

Son parlament seçkilərinin nəticələrini professor Ramiz Mehdiyev həm də xalqın Prezident İlham Əliyevin fəaliyyətinə verdiyi yüksək qiymətin təzahürü kimi səciyyələndirir. Seçki prosesinin yekunu 2003-cü il 15 oktyabr prezident seçkilərində qalib gəlmiş cənab İlham Əliyevin həyata keçirdiyi iqtisadi dirçəliş və regionların sosial-iqtisadi inkişafı kimi nəhəng proqramların cəmiyyətdə ciddi dəstək aldığını təsdiqləmişdir. Azər-

aycan cəmiyyəti hansısa populist çıxışların, şirnikləndirici vədlərin ardınca getmir. Dövr başqadır indi siyasi qüvvələrə konkret əməlinə, fəaliyyətinə görə etimad göstərilir. Ortada isə cəmiyyətdə böyük rəğbətlə qarşılanan çoxlu sayda real nəticələr var: ölkə iqtisadiyyatının dinamik inkişafı, habelə əhalinin sosial problemlərinin həlli istiqamətində atılan məqsodyönlü addımlar iqtidarla xalq arasında sarsılmaz birlik və etimad yaratmışdır. Azərbaycanın iqtisadi inkişafının keyfiyyətcə yeni mərhələsi kimi səciyyələndirilən bu dövrdə ölkənin üzləşdiyi problemlər səhihliklə müəyyənləşdirilərək aradan qaldırılır.

Azərbaycan bu gün demokratikləşməyə, siyasi plüralizmin və qanunun aliliyinin möhkəmləndirilməsinə tərəfdar olan, hüquqi dövlət quruculuğu ilə inamla irəliləyən nüfuzlu Avropa ölkəsidir. Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin fikrincə, ümummilli liderimiz Heydər Əliyevin qətiyyəti və prinsipiallığı ilə ölkədə təşəkkül tapmış demokratik sistem quruculuğu Prezident İlham Əliyevin orijinal idarəçilik üslubu, demokratik və liberal dəyərlərə üstünlük verməsi sayəsində Avropa standartlarına uyğun davam etdirilir. Əsərdə vətəndaş cəmiyyətində siyasi rəqabətə dözümlülüyün vacibliyi mühüm amil kimi önə çəkilməklə yanaşı, hakimiyyət uğrunda mübarizənin yalnız sivil və intellektual üsullara əsaslanması fikri aparıcı xətt təşkil edir: "Müxalifətin, xüsusilə də onun dağıdıcıradikal hissəsinin liderləri dərk etməlidirlər ki, Azərbaycan öz inkişafının elə mərhələsinə qədəm qoymuşdur ki, müxalifətin hakimiyyətlə qarşılıqlı münasibətləri, hakimiyyət uğrunda mübarizə yalnız sivilizasiyalı forma və üsullarla aparıla bilər".

Professor Ramiz Mehdiyev seçkiqabağı təşviqat mərhələsində siyasi qüvvələrin davranışları ilə bağlı müqayisələr apararaq bildirir ki, xalqa populist vədlər verən, çıxışlarını yalnız mövcud iqtidarı ittiham etmək üzərində quran, cəmiyyətə düşmənçilik, qisasçılıq ruhu aşılayan aqressiv müxalifət partiyaları Milli Məclisdə çoxluq qazanacaqları təqdirdə nəyi indiki iqtidardan daha yaxşı edəcəklərini konkret proqramlar, konsepsiyalarla göstərə bilməmişlər. Təşviqat mərhələsində bu qüvvələrin sivil mübarizəyə hazır olmadıqları, şablon və primitiv seçki texnologiyalarından əl çəkə bilməmələri özünü neqativ tendensiya kimi göstərmişdir. Son seçkilər fonunda sadə vətəndaşlar əksər müxalif partiya sədrlərinin hələ də meydan eyforiyasının mənfi təsirindən qurtula bilmədiyinin əyani şahidi

olmuşlar. Xalqımız siyasi sabitlik, sülh və əmin-amanlıq, sosial-iqtisadi inkişaf arzusunda olduğu halda, aqressiv müxalifət partiyaları təşviqat prosesində bu reallığı nəzərə almamış, cəmiyyətə süni surətdə inqilabi əhvaliruhiyyə "ixrac etməyə" çalışmışlar. Bu qüvvələr seçkilərə hazırlaşmaq, seçicilərlə normal iş aparmaq, plaftormalarını açıqlamaq əvəzinə narıncı qalstuk vurub ifrat inkarçılıq, barışmazlıq mövqeyi tutmuş, yalan vədlərlə aldatdıqları məhdud saylı tərəfdarlarını küçələrə çıxararaq polislə toqquşmaya təhrik etmişlər. Radikal müxalifəti təmsil edən bir sıra namizədlərin irəli sürdükləri plalformaların qeyri-müəyyənliyi, sosial-iqtisadi məsələlər barədə real təkliflərin olmaması, xarici siyasət barədə illüzior mahiyyət kəsb edən fikirlər əsərdə radikal düşərgənin məğlubiyyətini şərtləndirən başlıca amillər kimi göstərilir. "Radikal müxalifət öz gücünü düzgun qiymətləndirə bilmədi ki, bu da seçki stralegiyasının müəyyənləşdirilməsində öz əksini tapdı" deyən professor Ramiz Mehdiyev radikal müxalifət partiyalarının siyasi mübarizə taktikasının uğursuzluğunu konkret fakt və arqumentlər əsasında vurğulamışdır.

Politoloji aspektdə idarəetmənin əsasını qanunlar, qanunların icrasını isə peşəkar mütəxəssislər təşkil edir. Bu fikir yaşadığımız cəmiyyətdə təsdiqini tapmış, sabit cəmiyyət və dinamik inkişaf, demokratik dəyərlərə hörmət, vətəndaşların təhlükəsizliyinin təminatı, sosial ədalət meyarının qorunması günümüzün prioritetlərinə çevrilmişdir. Bu məqamların aktuallaşmasına təsir edən əsas amil isə son zamanlar Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən kadr islahatları olmuşdur. Bu islahatlar həm ölkə daxilində, həm də xaricində maraqla izlənir. Bu addımlar göstərir ki, Prezident İlham Əliyev xalqın maraqlarından çıxış edərək idarəetmənin yeniləşdirilməsini vacib sayır. Xüsusi vurğulamaq lazımdır ki, son parlament seçkiləri ərəfəsindo dövlət çevrilişi yolu tutmuş bəzi məmurların ifşa edilərək qanun çərçivəsində məsuliyyətə cəlb olunması da cəmiyyətdə razılıqla qarşılanmış, hakimiyyətin nüfuzunu möhkəmləndirmişdir.

Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev son parlament seçkisinin nəticələrinə əsaslanaraq onu da göstərir ki, artıq radikal müxalifət köhnə mübarizə metodlarından əl çəkməli, fəaliyyətini qaçılmaz həyati reallıqlar və praqmatik baxışlar üzərində qurmalıdır. Son 13 ilin reallıqları da göstərir ki, yeknəsəq mübarizə üsullarından əl çəkə bilməyən radi-

kal müxalifətin yeniləşməkdən savayı yolu da yoxdur. Parlament seçkilərinin təhlili onu söyləməyə əsas verir ki, Azərbaycanda sivil, demokratik, hüquqi dövlət quruculuğu prosesi dönməz xarakter almışdır və prosesi əngəlləməyə qadir hansısa qüvvə yoxdur. Hakimiyyət cəmiyyətin liberallaşması, demokratik dəyərlərin bərqərar olması, vətəndaş cəmiyyətinin qurulması, Azərbaycanın Qərbə, Avratlantik məkana inteqrasiyası vasitəsilə sivil dünyanın bir hissəsinə çevrilməsi istiqamətində məqsədyönlü siyasət həyata keçirir. Azərbaycan hakimiyyəti beynəlxalq standartlara uyğun, eyni zamanda, ölkənin hazırkı inkişaf mərhələsini və özünəməxsus xüsusiyyətlərini nəzərə alan seçki keçirmək iqtidarındadır. Ötkədə xalqın iradəsinə arxalanan, siyasətini milli maraqlar üzərində quran, real güc və nüfuza malik olan, sivil dünyanın gerçəkliklərindən çıxış edən, ölkənin inkişafı ilə bağlı fundamental konsepsiyaya əsaslanan iqtidar mövcuddur. Ümummilli liderimiz Heydər Əliyev ideyalarını rəhbər tutan hakimiyyət komandası Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanı yeni, möhtəşəm uğurlara aparmaq iqtidarındadır.

Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin də qeyd etdiyi kimi, bütün bunların fonunda ictimai rəyə hakim kəsilmiş və beynəlxalq birliyin də şərik çıxdığı daha bir qənaət təsdiqini tapmışdır: Azərbaycanda radikal müxalifət adına iddialı qüvvələr cəmiyyətdə möhkəm dayaqlardan məhrumdur. Bu qüvvələrin əsas məqsədi Azərbaycanı inkişaf etdirmək, problemlərinin həllinə nail olmaq deyil, müstəqilliyinin 35-ci ilini yaşayan ölkəmizi yeni siyasi təlatümlərə, qarşıdurmalara, iğtişaşlara sürükləməkdir. Aşkar görünür ki, radikal müxalifət Azərbaycanın inkişaf etdirilməsi yolları barədə aydın təsəvvürə malik deyil. Bugünədək hər liansı taleyüklü problemlə bağlı konseptual fikir ortaya qoymayan qüvvələr yalnız hakimiyyət hərisliyi ilə yaşayır. İnsanlar haqlı olaraq düşünürlər ki, siyasi addımlarında həmişə müxtəlif xarici təşkilatların rəyini əsas götürən, əcnəbilərin göstərişi ilə oturubduran, hətta Dağlıq Qarabağ məsələsində də öz müstəqil mövqcyini nümayiş etdirə bilməyən qüvvələr Azərbaycanın maraqlarını layiqincə qoruya bilməzlər. Bu gün ictimaiyyət hər hansı yeniliyə yalnız təkamül və inkişaf yolu ilə nail olmağı alteraativsiz həqiqət kimi qəbul edir. Ölkənin sürətli iqtisadi jnkişafı fonunda isə cəmiyyətdəki nihilist və anarxist meyillər tədricən aradan qalxır.

Son parlament seçkiləri yüksək demokratikliyi ilə ölkəmizin imicinə və gələcək inkişafına əhəmiyyətli təsir göstərmişdir. Əlbəttə, dünyanın heç bir ölkəsində ideal seçki keçirilmir. Son seçkilər isə namizədlərin sayına, seçkiqabağı təşviqatın və seçki prosesinin təşkilinə görə Azərbaycanda demokratik proseslərin inkişaf göstəricisi, irəliyə doğru ciddi bir addım olmuşdur. Artıq ali qanunvericilik hakimiyyəti öz işinə başlamışdır indi başlıca məsələ hakimiyyətin qolları arasında koordinasiya olunmuş fəaliyyəti təşkil etmək, ölkənin dinamik inkişafını qoruyub saxlamaq və daha da sürətlənməsini təmin etməkdir.

**Müşfiq ATAKİŞİYEV,**
**iqtisad elmləri doktoru, professor**

*16 mart, 2006*

# DEMOKRATİYAYA AÇILAN QAPILAR

***Seçki hər bir ölkənin ictimai-siyasl həyatında mühüm hadisədir. Xalqın iradəsinin ifadəsinə çevrilən seçkilərin demokratik, şəffaf, azad keçirilməsi isə ölkədəki ictimai-siyasi sabitlikdən, demokratik təsisatlara üstünlük verilməsindən, seçki sisteminin təkmilləşdirilmdsindən, ilk növbədə normal seçki keçirilməsinə əsaslı şərait yaradılmasından asılıdır. Demokratik seçkilərin keçirilməsi xalqın öz seçiminə inamının, seçdiyi şəxsə etimadının ifadəsi olmaqla, həm da vətən, xalq qarşısında məsuliyyətinin göstərictsidir. Öz rəhbərinə inanmayan, etibar etməyən, ümid bəsləməyən xalqın, eləcə də öz xalqının, vətəninin xoşbəxtliyinə çalışmayan, həyatini bu amala həsr etməyən rəhbərin ölkədə azadə demokratik seçkilər keçirmək imkanı sıfıra bərabərdir***.

1993-cü ildən bəri Azərbaycanda keçirilən prezident və parlament seçkiləri bu həqiqətləri sübut etmiş, xalq öz seçimində yanılmadığını təsdiqləmişdir. Ümummilli liderimiz Heydər Əliyevin Prezident seçilməsi ölkəmizdə xalqın öz rəhbərinə sonsuz məhəbbətinin ifadəsi olmaqla bərabər, seçki sisteminin ildənilə təkmilləşdirilməsinin, ölkədə demokratiyanın inkişaf etdirilməsinin, vətəndaş cəmiyyəti quruculuğunun əsasını qoymuşdur. 2003-cü ildə keçirilmiş prezident seçkiləri isə Azərbaycanın ictimai-siyasi həyatında dönüş mərhələsi olmaqla, ulu öndər Heydər Əliyevin siyasi xəttinin dönməzliyini, mütərəqqiliyini bir daha sübuta yetirmişdir. Hakimiyyət siyasətdə varislik prinsipini qoruyaraq yeni dünya nizamının tələblərini mənimsəmiş, sivil və demokratik dövlət quruculuğu yolunda qətiyyətli addımlar atmağa müvəffəq olmuşdur.

Azərbaycan Rcspublikası Prezidentinin İcra Aparatının rəhbəri, fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin "2005-ci il parlament seçkiləri: ilkin təhlil (mülahizələr, nəticələr və proqnozlar)" kitabı yuxarıda söylənilən fikirləri özündə əks etdirməklə bərabər, həm də 2005-ci ilin 6 noyabr seçkiləri ərəfəsində Azərbaycanda yaranmış ictimai-siyasi vəziyyəti təhlil etmək, qiymətləndirmək, seçkilərin demokratik keçirilməsi sahəsində görülmüş çox mühüm tədbirləri bir daha nəzərə çatdırmaq, radi-

kal müxalifət qüvvələrinin və onların xaricdəki havadarlarının məkrli niyyətlərinin mahiyyətini açmaq, göstərmək, beynəlxalq müşahidəçilərin, diplomatların, siyasətçilərin parlament seçkilərinə münasibətini öyrənmək baxımından çox qiymətlidir.

Kitabın birinci bölməsində seçki prosesinin ayrı-ayrı mərhələləri çox aydın, ətraflı, əsaslı təhlil edilir. Müəllif seçki prosesinin mərhələlərinə nəzər salarkən seçki qanunvericiliyinin təkmilləşdirilməsi mərhələsini ön plana çəkir, 1993-cü ildən bəri Azərbaycan hakimiyyətinin bu sahədə görülmüş tədbirlərlə kifayətlənmədiyini, ölkədə seçki təcrübəsinin demokratik standartlara uyğunlaşdırılması yönündə səyləri artırdığını, beynəlxalq təşkilatlarla əməkdaşlıq münasibətlərinin gücləndirildiyini qeyd edir.

2003-cü ilin mayında qəbul edilmiş Azərbaycan Respublikasının Seçki Məcəlləsini beynəlxalq standartlara cavab verən seçki qanunvericiliyi kimi dəyərləndirən müəllif məcəllənin beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirildiyini, Avropa Şurası Venesiya Komissiyasının və ATƏT DTİHB-in sənədlə bağlı müsbət rəylərini xatırladır. Bununla yanaşı, Seçki Məcəlləsinin təkmilləşdirilməsi məqsədilə hakimiyyət beynəlxalq təşkilatların bir çox təkliflərini nəzərdən keçirmiş, bu istiqamətdə geniş müzakirələrdən sonra 2005-ci ilin may ayında Seçki Məcəlləsi Milli Məclisin müzakirəsinə çıxarılaraq sənədin 43 maddəsinə əlavə və dəyişikliklər edilmişdir.

Vətəndaşlara seçki vəsiqələrinin verilməsini, seçici siyahılarının Mərkəzi Seçki Komissiyasının internet saytında yerləşdirilməsini, namizədlərin qeydiyyat prosedurunun sadələşdirilməsini, namizədin depozitə qeydə alınmasını, seçki komissiyalarının işinin təkmilləşdirilməsini, komissiya üzvlərinin statusunun dəqiqləşdirilməsini və s. dəyişiklikləri müəllif müsbət addım kimi qiymətləndirir. Professor Ramiz Mehdiyev ölkə Prezidenti cənab İlham Əliyevin 11 may və 25 oktyabr 2005-ci il tarixli sərəncamlarını seçki praktikasının təkmilləşdirilməsi və seçkilərin demokratik, şəffaf, heç bir təsirə məruz qalmadan keçirilməsi sahəsində çox mühüm addım kimi xarakterizə edir.

125 deputat yerinə qarşı 2063 nəfərin namizədliyinin qeydə alınmasını, 48 siyasi partiya və seçki blokunun qeydiyyatdan keçməsini, siyasi mənsubiyyət fərqi qoymadan bütün namizədlər üçün bərabər rəqabət mühitinin yaradılmasını, 60-dan artıq deputatlığa namizədləri qeydə alınmış

siyasi partiya və bloklara dövlət hesabına pulsuz efir vaxtının ayrılmasını, deputatlığa namizədlər üçün teleradio şirkətlərində və dövri nəşrlərdə ödənişli əsaslarla təşviqat aparılmasını, onların öz seçiciləri ilə sərbəst görüşmələrinə geniş imkan yaradılmasını, seçkilərin 45 ölkədən olan 1586 beynəlxalq müşahidəçi, 17014 yerli müşahidəçi tərəfindən izlənməsini, səsvermə zamanı qanun pozuntularına yol verənlər haqqında ciddi tədbirlərin görülməsini, vəzifəli şəxslərin məsuliyyətə cəlb edilməsini müəllif demokratiyanın bariz nümunəsi və ölkə rəhbərinin demokratikləşmə prosesinə verdiyi önəmin nəticəsi kimi səciyyələndirir.

Kitabın "Beynəlxalq müşahidəçilər" adlandırılan ikinci bölməsində müəllif qeyd edir ki, "seçkilərin demokratik, şəffaf, ədalətli, bir çox beynəlxalq səviyyəyə, ATƏT və Avropa Şurası prinsiplərinə uyğun keçirildiyini xarici müşahidəçilərin verdikləri rəylər bir daha göstərir".

ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun, Seçkiləri Beynəlxalq Müşahidə Missiyasının, MDB-nin müşahidə missiyasının, ABŞ Dövlət Departamentinin, Türkiyənin, Rusiyanın, eləcə də dünyanın bir çox tanınmış siyasi xadimlərinin, politoloqlarının, beynəlxalq təşkilatların, müşahidəçilərin Azərbaycanda keçirilən parlament seçkilərini müsbət qiymətləndirmələri müəllifə ölkədə demokratiyanın qalib gəldiyini, radikal müxalifətin səylərinin, hay-küylərinin yalan və böhtan olduğunu deməyə imkan verir.

Seçkilərin demokratikliyi nəinki Azərbaycan iqtidarının demokratiyaya, insan hüquq və azadlıqlarının qorunmasına, beynəlxalq öhdəliklərə sadiq olduğunu nümayiş etdirdi, həm də beynəlxalq ictimaiyyət tərəfindən dəstək qazanaraq aqressiv müxalifətin və onların havadarlarının "rəngli inqilablar" arzularını gözlərində qoydu. Azərbaycanda sözü ilə əməli, amalı ilə yolu, vətəndaşlığı ilə vətənə münasibəti bir olmayan müxalifətin sosial bazasızlığını, antidemokratikliyini, riyakarlığını, intizamsızlığını, qeyrimütəşəkkilliyini, ideyasızlığını, ölkənin, xalqın maraqlarına deyil, şəxsi maraqlara xidmət etdiyini sübuta yetirdi. Müəllif bu qənaətində haqlıdır və demokratik seçkilərin ölkənin ictimai-siyasi həyatında gələcəkdə böyük rol oynayacağını diqqətə çatdıraraq yazır: "Bcynəlxalq aləmdə Azərbaycanın dcmokratik prinsiplərə sadiqliyinin qəbul edilməsi dövlətimizin həm daxili sabitliyinin, həm də milli təhlükəsizliyinin təminatverici amillərindən birinə çevrilir". Çox düzgün və əsaslandırılmış proqnozdur.

Müəyyən nöqsanların və çatışmazlıqların olmasına baxmayaraq, Azərbaycanda keçirilən parlament seçkiləri həqiqətən də demokratiyanın nümayişi idi. MDB-nin müşahidə missiyasının rəhbəri Vladimir Ruşaylo hesab edir ki, "belə mütəşəkkil seçki, bəlkə də, MDB dövlətləri arasında birincidir".

ABŞ Dövlət Deparlamentinin mətbuat katibinin müavini Adam Eseli bəyan etmişdir ki, seçki prosesindəki irəliləyişlər göz qabağındadır: "Seçkilərdə iştiraka olduqca çox namizəd buraxılmışdır, mətbuat seçkiləri geniş işıqlandırmaq imkanına malik idi, əcnəbi müşahidəçilərin səsvermə prosesini izləmək imkanı vardı".

Avropa Parlamentinin müşahidə missiyasının rəhbəri Marian İsler Bequin seçkilər haqqında ümumiyyətlə müsbət təəssürata malik olduğunu, beynəlxalq müşahidəçi missiyasının məntəqələrin 87 faizində seçki prosesindən razı qaldığını vurğulamışdır.

Gətirilən və qeyd olunan bu kimi müsbət rəylərə, mülahizələrə əsaslanaraq professor Ramiz Mehdiyev 2005-ci ilin parlament seçkilərini demokratik seçki nümunəsi kimi qiymətləndirir və kitabın üçüncü bölməsini də belə adlandırmışdır. Müəllif bu bölmədə seçkilərin azad, demokratik, beynəlxalq normalara uyğun keçirilməsi üçün hakimiyyət tərəfindən gorülən zəruri tədbirləri bir daha vurğulayır, Azərbaycanda fəaliyyət göstərən siyasi partiyaların, partiya bloklarının, müstəqil namizədlərin potensialını xarakterizə edir və hamıya seçkilərdə eyni şərait yaradıldığını göstərir. Şübhəsiz ki, bu araşdırmalarında ölkədə ən güclü və nüfuzlu siyasi qüvvə olan Yeni Azərbaycan Partiyasının potensialını, fəaliyyətini ön plana çəkir. Müəllif YAP-ı müstəqil Azərbaycanın əsas siyasi qüvvəsi adlandırmaqla göstərir ki, "əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş Yeni Azərbaycan Partiyasının müstəqil Azərbaycan dövlətinin formalaşmasında, dövlətçilik ənənələrinin möhkəmləndirilməsində və Azərbaycanın bugünkü inkişaf səviyyəsinə gəlib çıxmasında özünəməxsus mühüm rolu və xidmətləri olmuşdur".

Öz sıralarında 400 minə yaxın insanı birləşdirən YAP-ı ölkənin ən nüfuzlu və böyük partiyası kimi qiymətləndirən müəllif eyni zamanda göstərir ki, YAP xalqın bütün təbəqələrini təmsil edir, intellektual səviyyəsinə, idarəçilik təcrübəsinə, siyasi potensialına və cəmiyyətdəki nüfuzuna görə onun alternativi yoxdur. Professor Ramiz Mehdiyev Yeni Azərbay-

can Partiyasının seçkilərdə inamlı qələbə qazanmasını təsadüfi hesab etmir və bildirir ki, cəmiyyətin avanqardı rolunda çıxış edən Yeni Azərbaycan Partiyası ölkənin davamlı dinamik inkişafını təmin etmək, düzgün istiqamətdə aparmaq, xalqımızın qarşısında duran bütün taleyüklü problemlərin həllinə nail olmaq, sivil vətəndaş cəmiyyəti qurmaq iqtidarındadır.

Bıı, xalqın fikir və düşüncələrini ifadə edən, insanların ürəyindon olan bir qiymətdir. YAP-ın seçkilərə real iş və proqramla getdiyini, qalib çıxdığını vurğulayan müəllif inamını qüvvətləndirərək iqtisadiyyatımızın inkişafı, xalqın rifah halının yaxşılaşdırılması isliqamətində görülən işlərin gələcəkdə ölkəmizə daha böyük qələbələr gətirəcəyi qənaətindədir. Müəllif son 13 ilin sosial-iqtisadi mənzərəsini göz önündə canlandırmaqla bərabər, Azərbaycan Prezidenti cənab İlham Əliyevin sosial-iqtisadi  inkişafın təmin edilməsi istiqamətində apardığı siyasəti yüksək qiymətləndirir. Regionların sosial-iqtisadi  inkişafina dair Dövlət Proqramının, Yoxsulluğun azaldılması ilə bağlı Dovlət Proqramının həyata keçirilməsini, cənab İllıam Əliyevin regionlara müntəzəm səfərlərini, ictimaiyyətlə görüşlərini, müxtəlif təyinatlı müəssisələrin açılışında iştirakını, kadrlara qarşı tələbkarlığını və həssaslığını ölkənin nüfuz və qüdrətinin artırılması yolunda atılan ən uğurlu addımlar kimi dəyərləndirir, bu xəttin daim davam etdiriləcəyini bildirir.

Müəllif yazır ki, həyata keçirilən sosial-iqtisadi  islahatlar, reallaşdırılan dovlət proqramları 2005-ci ilin nəticələrində özünü olduqca aydın şəkildə göstərmişdir. Belə ki, 1996-cı illə müqayisədə bütün maliyyə mənbələri hesabına iqtisadiyyata investisiya qoyuluşu 7,4 dəfə, orta aylıq əməkhaqqı 10,4 dəfə, Dövlət büdcəsinin gəlirləri 8,5 dəfə artmış, adambaşına düşən büdcə xərcləri 473 ABŞ dollarına yüksəlmişdir. Dövlət Neft Fondunun və Milli Bankın valyuta ehtiyatlarının həcmi 2,2 milyard ABŞ dollarını ötmüşdür.

Kitabda 2006-cı ilin proqramların da əks olunan rəqəmlər Azərbaycanın uğurlu perspektivlərindən xəbər verir. Xarici siyasət və Dağlıq Qarabağ probleminin həllinə yönəlmiş fəaliyyət, ordu quruculuğu, korrupsiyaya qarşı mübarizənin təşkili sahəsində həyata keçirilən tədbirlər, ölkənin siyasi, iqtisadi, sosial həyatında baş verən müsbət dəyişikliklərlə oxucunu tanış edir və onda gələcəyimizə böyük ümidlər oyadır.

Radikal müxalifətin fəaliyyəti, mövqeyi, parlament seçkiləri ərəfəsində tutduğu yol, səsləndirdiyi proqramlar, irəli sürdüyü ideyalar, qalib gəlmək uğrunda göstərdiyi cəhdlər, ideoloji mübarizə üsulları, seçki strategiyası, "narıncı inqilab" eyforiyası, xaricdən dəstək almaq cəhdi, mitinq taktikası, eləcə də məğlubiyyətinin səbəbləri kitabda real faktlarla əks etdirilməklə yanaşı, həm də müəllif tərəfindən bir filosof, siyasətçi uzaqgörənliyi ilə təhlil edilir, öz düzgün qiymətini alır.

Professor Ramiz Mehdiyev öz fikirlərini əsaslandıraraq bildirir ki, radikal müxalifət parlament seçkilərini ölkənin ali qanunverici orqanında təmsil olunmaq imkanı kimi deyil, hakimiyyətə gəlməyin yolu kimi qiymətləndirmişdi, bunun da əvvəlcədən reallıqdan uzaq, ağılsız bir plan olduğunu sonrakı proseslər sübut etdi.

Müxalifətin seçkilərdə məğlubiyyətə uğramasının səbəblərini izah edərkən müəllif "narıncı inqilab" ideyasını ön plana çəkir ki, bu da səbəbsiz deyil. Çünki keçmiş sovet respublikaları Ukrayna, Gürcüstan, Qırğızıstanda baş vermiş "rəngli inqilabları" Azərbaycan müxalifəti daim diqqətlə izləmiş və radikal müxalifətçilər öz fəaliyyətlərini bu istiqamətdə kökləmişdilər. Rəngli inqilabçıların idyealarını mənimsəmiş, təbliğatlarını bu ideyaların genişləndirilməsinə yönəltmişdilər. 2003-cü ilin prezident seçkilərindən sonra atılan radikal addımlar bunun sübutu idi. Çox təəssüflər olsun ki, "rəngli inqilablar" ideyası ilə yaşayan miixalifətçilər reallığı görməmiş, 2003-cü ilin acı təcrübəsindən lazımi nəticə çıxarmamışdılar.

Professor Ramiz Mehdiyevin yazdığı kimi, Azərbaycanda parlament seçkiləri ərəfəsindəki vəziyyətin təhlili göstərir ki, ölkədə "narıncı inqilab" üçün heç bir real əsas yox idi. Xalq və hakimiyyət birliyi buna əyani sübutdur.

İnqilabın baş verməsi üçün müəyyən obyektiv və subyektiv amillər mövcud olmalı, ölkədə kəskin ziddiyyətlər yaranmalı, xalq arasında narazılıqlar baş verməli, iqtisadiyyatda, sosial həyatda böhran müşahidə olunmalı, insanların hüquq və azadliqları üçün təhlükəli" hallar meydana gəlməlidir. Bunların heç birinin Azərbaycanda olmaması, təbii ki, inqilab ehtimalını heçə endirirdi. İstər seçkilərdən əvvəl, istərsə də sonra hakimiyyət çevrilişinin baş tutması müxalifət üçün ancaq xülya ola bilərdi və belə də oldu.

Müəllif bu reallıqları diqqətə çatdırmaqla radikal müxalifətin təşviqat kampaniyası zamanı populist vədlərini, əsassız ittihamlarını, antimilli, da-

ğıdıcı çıxışlarını ciddi tənqid edir, bu çıxışların mahiyyətini açıb göstərir. Mitinq taktikasının iflasını da təbii hesab edir, xalqın artıq bu mitinqlərdən heç nə gözləmədiyini, bezdiyini, müxalifətə inanmadığını bildirir.

Demokratik ölkələrin Azərbaycandakı müxalifətə münasibəti də xalqın münasibətilə üstüstə düşür. ABŞ Milli Təhlükəsizlik Şurasının Avrasiya üzrə direktoru Metyu Brayzanın "ABŞ Azərbaycanda inqilab üçün əsas görmür və Vaşinqton Azərbaycanda nəinki İnqilab baş verməsinə, hətta inqilab cəhdlərinə belə imkan verməyəcəkdir" fikrinə əsaslanan müəllif həqiqətən də ölkədə heç bir inqilabın olmayacağına insanları inandırır, rəsmi Vaşinqtonun radikal müxalifəti dəstəkləyəcəyi barədəki fikirləri yalan və ictimaiyyəti çaşdırmaq cəhdindən başqa bir şey hesab etmir.

Müəllif real faktlara əsaslanaraq radikal müxalifətin bütün cəhdlərini əhəmiyyətsiz adlandırır. Demokratiya pərdosi altında gizlənənlərin əsl simasını açıb göstərir. Beynəlxalq aləmin onlara dəstək vermədiklərini xatırlatmaqla radikalların iflasa uğradıqlarını nəzərə çatdırır. Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev yazır: "Radikal müxalifətçilik bir ideya və bir cərəyan kimi artıq arxivə təhvil verilir, onun sosial bazası ərimiş və daralmaqdadır. Bütün hadısələr və faktlar onu göstarir ki, 2003-cü ilin prezident seçkilərindən sonra Azərbaycan cəmiyyəti həyatının yeni dövrünə qodəm qoymuşdur. Yeni dövrdə isə yeni, sivil müxalifətə sosial tələbat var və onun yaranması artıq zaman məsələsidir".

Bir qəzet məqaləsində professor Ramiz Mehdiyevin yeni kitabı haqqında ətraflı fikir söyləmək, hərtərəfli təhlillər aparmaq çox çətindir. Çünki bu kitabın hər bir bölməsi ciddi araşdırmalar, fakt və hadisələrə mütəxəssis münasibəti tələb edir.

Kitab 2005-ci ilin parlament seçkilərinə və onun ilkin təhlilinə həsr edilsə də, müəllif yalnız seçkiləri təhlil etməklə kifayətlənməmişdir. Ölkəmizdə baş verən hadisələrə, dəyişikliklərə, seçki praktikasının təkmilləşdirilməsinə, iqtidarın müxalifət münasibətlərinə, dövlət quruculuğu prosesinə, beynəlxalq problemlərə, xalqın sosial həyatına, ölkənin iqtisadiyyatına bir filosof, ictimai xadim, ilk növbədə, əsl vətəndaş kimi yanaşmış, toxunduğu məsələləri çox bacarıqla təhlil etmişdir.

Kitab fakt və hadisələrə real qiymət vermək, müstəqil respublikamızın demokratik inkişaf yolunda atdığı addımları, qazandığı uğurları əks etdirmək, rəy və mülahizələri dolğun çatdırmaq baxımından qiymətlidir. Mü-

əllif Azərbaycanda keçirilən seçkilərin demokratikliyini, eləcə də ölkədə qazanılan çox mühüm sosial-iqtisadi nailiyyətləri, xarici siyasətdə əldə edilən uğurları Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasi xəttinə sədaqətinin, Prezident İlham Əliyevin bu xətti cəsarətlə, özünəməxsus uzaqgörənliklə davam etdirməsinin, xalqla rəhbərin sarsılmaz birliyinin nəticəsi kimi dəyərləndirir və bu amili inkişafın əsas şərti hesab edir. Digər tərəfdən, Yeni Azərbaycan Partiyasını ölkədə ən güclü və nüruzlu bir siyasi qüvvə kimi dəyərləndirir, cənab İlham Əliyevin sədri olduğu YAP-ın ölkənin gələcək inkişafında müstəsna rol oynayacağına əminlik yaradır.

Ölkəmizin siyasi, sosial-iqtisadi həyatında baş verən sürətli inkişafı respublikamızda həyata keçirilən islahatların, səmərəli əməli tədbirlərin bəhrəsi kimi qiymətləndirən müəllif həm də bu inkişafın demokratik təsisatlardan, demokratik ruhlu insanların fikir və düşüncələrindən qaynaqlandığını, zor yox, təkamül yolu ilə sürətləndirildiyini göstərir.

Kitabın belə bir ali məqamı da var. Azərbaycanda demokratiyanın qapıları hər bir vətəndaşın üzünə açıqdır və oradan hamının keçmək səlahiyyəti var. Ancaq bu qapıdan ağılla, təmkinlə, vətənə, xalqa sədaqətlə keçmək lazımdır ki, insanları sözünə inandırıb əməllərinə rəğbət oyandıra biləsən, əks təqdirdə qapılar üzünə bağlanacaq və əyri yol tutan hər bir kəs, hər hansı bir siyasi qüvvə nüfuzdan düşərək vaxtından əvvəl mənalı və fəal həyatdan təcrid olunaraq tarixin arxivinə veriləcəkdir.

Professor Ramiz Mehdiyevin yeni kitabı çox geniş oxucu kütləsi ümumiyyətlə, filosoflar, tarixçilər, politoloqlar, sosioloqlar, ali məktəblərin müvafiq fakültələrinin müəllim və tələbələri, hər bir ziyalı üçün nəzərdə tutulmuşdur və böyük maraq doğuran bir vəsaitdir.

Yenicə çap olunmuş bu kitabı fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin yaradıcılıq uğurlarından biri kimi qiymətləndinnək olar və kitabla tanış olan hər bir kəs bu qənaətə gələcəkdir.

**Tahir RZAYEV,**
**Milli Məclisin deputatı**

*30 mart, 2006*

# DÜZGÜN MƏNƏVİ SEÇİMƏ KÖMƏK EDƏ BİLƏN KİTAB

***Azərbaycan Prezdentinin İcra Aparatının rəhbəri, fəlsəfə elmləri doktotu, professor Ramiz Mehdiyevin bu yaxınlarda çapdan çıxan və mətbuatda bir sıra məqalələrdən oxucuları artıq tanış olan "2005-ci il parlament seçkiləri: ilkin təhlil (mülahizələr, nəticələr və proqnozlar)" kitabının anotasiyasında deyilir: "Kitab filosoflar, tarixçilər, politoloqlar, sosioloqlar, ali məktəblərin müvafiq fakültələrinin müəllim və tələbələri üçün maraq doğurur".***

Bəli, bu, şübhəsiz, belədir. Lakin bu kitab təkcə onlar üçünmü maraqlıdır? Əminəm ki, yox. Ölkəmizin ictimai-siyasi həyatında parlament seçkiləri kimi belə mühüm hadisəyə həsr edilən və seçki kampaniyasının hər bir mərhələsinin peşəkarliqla dəqiq təhlili verilən, düşünmək üçün əsas yaradan mülahizələr söylənilən əsərə kimsə biganə qala bilməz. Bunu heç olmasa ona görə deyirəm ki, çoxlannm, özü də annotasiyada sadalanan mütəxəssislərə aidiyyəti olmayanların kitab barədə fikirlərini bilirəm. Bilirəm ki, onlar kitabla taniş olmuşlar və sanki hamıya bəlli olan, adi gozlə görünən faktları və hadisələri ümumiləşdirməyin, məsələnin mahiyyətinə vararaq bunları insanlara çatdırmağın, oxucunu bunları başa düşməyə istiqamətləndirməyi bacarmağın heç də asan olmadığını çox yaxşı dərk edirlər.

Mən nə filosofam, nə də politoloq... Odur ki, hörmətli professorun əsərinin dərin elmi təhlilini vermək iddiasında deyiləm. Lakin peşə fəaliyyətimlə əlaqədar belə mövzularda materiallarla başqalarına nisbətən daha tez-tez rastlaşan, bugünkü rəngarəng mətbuatımızı oxuyan bir adam kimi bu ciddi, faydalı elmi əsərə öz münasibətimi, öz baxışımı bildirmək istərdim.

Yeni nəşrlər barədə rəylər, adətən, onun poliqrafik keyfiyyəti barədə fikirlə tamamlanır. Haqqında söhbət gedən kitab (mən onun rus dilində nəşrini nəzərdə tuturam, hərçənd, bu, müəyyən fərqlə Azərbaycan dilində nəşrinə də aıddir) nəfis şəkildə yüksək zövqlə tərtib edilmişdir, hər

şey ətraflı düşünülmüşdür. Üz qabığında seçki məntəqəsində səsvermə bülletenləri alan müxtəlif təbəqələrə mənsub seçicilərin təsvir olunduğu foto, sərhədlərimizin toxunulmazlığının rəmzi kimi ölkəmizin xəritəsinin cizgiləri verilmişdir.

Müəllif oxuculara müraciətində kitab üzərində işləyərkən qarşısına qoyduğu məqsədi izah edərək vıırğulayır ki, ən başlıcası odur ki, beynəlxalq ictimaiyyət Azərbaycanda şəffaf, demokratik seçkilər gözləyirdi. Bu seçkilər də həmin ümidləri, demək olar ki, doğrultdu...

Biz hamımız baş tutmuş qələbənin şahidləriyik. Yadımızdadır, Prezident İlham Əliyev seçkilərdən sonra demişdi: Azərbaycan xalqı seçkilərdə öz sözünü dedi, istədiyi namizədə açıq, ədalətli, azad şəkildə səs verdi.

Həqiqətən, bu, ölkəni demokratikləşdirmək sahəsində ulu öndər Heydər Əliyevin başladığı və onun varisi, dövlətimizin indiki başçısının davam etdirdiyi siyasətin təntənəsi idi. Bu, təkcə bizim, Azərbaycan vətəndaşlarının deyil, həm də bir çox beynəlxalq siyasi xadimlərin gözlədikləri nəticə idi. Ərazisi və əhalisinin sayı baxımından kiçik ölkə olmasına baxmayaraq, müasir dünyanın aparıcı dövlətlərinin güclü maraq dairəsinə daxil olan və strateji əhəmiyyət kəsb edən regionda yerləşən ölkəmizdə seçkilərə belə diqqətin olması təbii idi. Seçkilərdən az sonra onun yekunlarının müzakirə edildiyi Vaşinqtondakı Nikson Mərkəzində tanınmış xarici politoloqlar görün nə kimi nəticə çıxarmışlar; Azərbaycanın siyasi səhnəsində irəliyə baxan Prezident və keçmişə baxan müxalifət vardır. 1993-cü ildən bəri hcç bir yeni siyasi proqram irəli sürməyən müxalifət liderləri istefaya getməli və öz yerlərini yeni, əsl müxalifətə verməlidirlər.

Zənnimcə, ölkəmizdə indiki vəziyyəti bundan yaxşı və dəqiq xarakterizə etmək çətindir. Hər halda, bu, böyük iftixar və məmnunluq hissi doğuran qiymətdir.

Kitabın müəllifi professor Ramiz Mehdiyevin belə bir fikri ilə razılaşmamaq çətindir ki, 2003-cü ildə keçirilən prezident seçkiləri Azərbaycanın ictimai-siyasi həyatında dönüş noqtəsi olmuşdur. Belə görünür ki, müxalifətin parlament seçkilərinədək öz taktika və strategiyasını müəyyən etmək üçün kifayət qədər vaxtı vardı. Lakin belə olmadı. Kitabın müəllifi özünə xas olan qərəzsizlik və diqqətlə təhlil apararaq müxalifətin məğlubiyyətini və hakim Yeni Azərbaycan Partiyasının qələbəsini şərtləndirən mühüm ictimai və subyektiv səbəblərdən ətraflı söhbət açmışdır.

Çox böyük əminliklə yazılan kilabda əksini tapmış ayrı-ayrı məqamlara müraciət edərək onları mətnə yaxın şəkildə nəzərə çarpdırıram. Məqsədim kitabla artıq tanış olan adamların diqqətini bu və ya digər məsələyə, fakta, yaxud hadisəyə yönəltmək, ən əsası isə, siyasi baxışları hələ çox da sabitləşməyən, siyasətdə varislik prinsipini qoruyub saxlayaraq yeni dünya nizamını mənimsəyən, Qərbə inteqrasiya edərək və Avropa dəyərlərindən bəhrələnərək sivilizasiyalı və demokratik dövlət quruculuğu yolu tutan hakimiyyəti zor gücünə, iğtişaşlar vasitəsilə ələ keçirməyin mümkünsüzlüyünü dəqiq təsəvvür edə bilməyən, sadəcə, başa düşməyən gənclordə bu kitabla tanış olmaq həvəsi oyatmaqdır.

Zənnimcə, professor R.Mehdiyevin şərh etdiyi yekunlar və nəticələr bəzən düşünübdaşınmadan radikal müxalifəti dəstəkləyən, onun yedəyində gedənlərə özlərinin bir çox baxış və əməllərinin səhv olduğunu anlamağa kömək edərdi.

Deyərdim ki, "2005-ci il parlament seçkiləri: ilkin təhlil" kitabı ümumi dəyərə malikdir. Nə üçün? Müəllif parlament seçkiləri kampaniyasından söhbət açaraq oxucuya zəngin məlumat verir, yaddaqalan və demokratikləşdirmə prosesini sürətləndirən, xalqın iradəsini əks etdirən bir çox müsbət yeniliklərdən danışır. Azərbaycan Prezidentinin ötən ilin may və oktyabr tarixli iki sərəncamı ilə "Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsi haqqında" və "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında" sərəncamları ilə, təəssüflər olsun, heç də hamı kifayət qədər tanış deyildir. Bu, Seçki Məcəlləsinə edilmiş düzəlişlərə, ölkəmizdə parlament seçkilərində ilk dəfə təşkil olunmuş "exitpoll"a və bir çox başqa yeniliklərə də aiddir.

Kitabda müxalifətin seçkiqabağı dövrdə fəaliyyətindən də danışılır. Onun geniş təşviqat aparmaq, mitinqlər, yürüşlər təşkil etmək, Azərbaycanın müxtəlif bölgələrində seçicilərlə azad şəraitdə görüşlər keçirmək hüququ olmasına baxmayaraq, "Azadlıq" blokunun liderləri, açığını deyək, ictimai asayişi pozmağa cəhd göstərir, əsassız, uydurma bəyanatlarla çıxiş edərək ölkə Konstitusiyasının verdiyi sərbəst toplaşmaq hüququnun guya kobud şəkildə pozulduğunu bildirirdilər. Lakin kitabın müəllifi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi plenumunun müvafiq qərarına istinad edərək bu məsələyə də aydınlıq gətirir.

Lakin namizədlərin irəli sürülməsi və təbliğat-təşviqat kampaniyası dövründə müxalifətin nümayəndələri üçün demokratik şərait yaradıldığını bəzən onların özləri də qeyd edirdilər.

Kitabın "Beynəlxalq müşahidəçilər" bölməsindəki mühakimələr də çox maraqlıdır. Burada gətirilən dəlillər beynəlxalq qurumların seçkilərin nəticələrini guya tanımadıqları və seçkilərin ədalətsiz olduğu barədə radikal müxalifət partiyalarının və onların təsir dairələrində olan qəzetlərin iddialarını alt-üst edir. Təbii ki, bütün bu iddialar konkret faktlara əsaslanmırdı.

Müəllif isə beynəlxalq müşahidəçilərin rəylərinə istinad edir. Onlar təsdiqləmişlər ki, seçkilər demokratik, şəffaf, ədalətli şəraitdə, beynəlxalq standartlara, ATƏT-in və Avropa Şurasının prinsiplərinə uyğun keçirilmişdir. Müəllif çox gözəl deyir: "...Azərbaycan da olduqca nadir ölkədir. Lakin onun ərazisi geosiyasi qaşıdurma deyil, əməkdaşlıq və maraqların uzlaşması məkanına çevrilmişdir".

Həm Qərbdən, həm də MDB-dən olan müşahidəçılərin seçkilər barədə məzmunca yaxın bəyanatlarla çıxış etmələri də parlamentə seçkilərin ədalətli keçdiyini göstərir. Professor R.Mehdiyev bu mühüm amili vurğulayaraq geosiyasi amilin müşahidəçilərin rəyinə təsirini və bunu Gürcüstan, Ukrayna və Qırğızıstanda keçirilən seçkilərin sübut etdiyini bildirir və xatırladır ki, bu ölkələrdə seçkilər kütləvi iğtişaşlara və hakimiyyət dəyişikliklərinə gətirib çıxarmışdır.

Kitab müəllifinin çox haqlı dediyi kimi, Azərbaycan, həqiqətən, nadir ölkədir və biz bununla fəxr edirik!

Müəllif bütün seçki prosesi dövrünü, haqlı olaraq, qələbə kampaniyası kimi nəzərdən keçirir və sonuncu bölmə də beləcə adlanır. Bu cür yanaşmanın düzgünlüyünü təsdiqləyən material kitabın, demək olar, yarısını təxminən 160 səhifəsini təşkil edir.

Burada qüvvələrin nisbətini, Azərbaycanda siyasi partiyaların fəaliyyətinin prinsip və istiqamətlərini, ayrı-ayrı partiyaların, blokların, müstəqil namizədlərin qələbə və məğlubiyyətinin səbəblərini müəyyənləşdirmək üçün, ətraflı inandırıcı material verilir. Gətirilən faktlar, rəqəmlər, xaricdə və ölkəmizdə keçirilmiş sorğuların nəticələri Yeni Azərbaycan Partiyasının liderliyi barədə, ictimai-siyasi vəziyyətin sabitləşməsinə nail olan, öz iqlisadiyyatını uğurla inkişaf etdirən, möhtəşəm beynəlxalq layihələri

Gerçəkləşdirən, bütün bunları xalqın rifahının yaxşılaşmasına yönəldən ölkəmizin həyatında bu partiyanın aparıcı rol oynadığı barədə fikirləri təsdiqləyir.

Bunların hamısının fonunda müxalifətin bütün fəaliyyəti, müəyyənləşdirdiyi xətt, proqramlar, "narıncı inqilab"ın mümkünlüyü barədə keçirdiyi eyforiya, mitinq taktikası müəllif bunlara düzgün və sərt qiymət verir əlbəttə, çox acınacaqlı və cılız görünür.

Professor R.Mehdiyevin əsərində Azərbaycanın xarici siyasətinə və Dağlıq Qarabağ münaqişəsinin həllinə yönəldilən fəaliyyətə xüsusi yer ayrılmışdır. Müəllif Azərbaycanın mənafelərini dünya miqyasında qorumağa qadir olan, ilk növbədə, onun dövlət müstəqilliyinin təmin edilməsinə yönəldilən hərtərəfli düşünülmüş, ardıcıl xarici siyasət aparılmasının zəruriliyi və vacibliyi barədə ümummilli lider Heydər Əliyevin sözlərini xatırladır. Prezident İlham Əliyevin bəyan etdiyi kimi, bu siyasət dəyişməz olaraq qalır. R.Mehdiyevin kitabında da deyildiyi kimi, bu istiqamətdə böyük işlər görülür.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində müxalifətin mövqeyi isə çox bəsit təsir bağışlayır. Müxalifət, o cümlədən "Azadlıq" bloku bizim bu ən ağrılı problemimizin həllini Azərbaycanın demokratikləşdirilməsində görür. Burada kitab müəllifinin ironiyası ilə razılaşmamaq çətindir olmaya müxalifət ümid edir ki, Azərbaycanda demokratiya tam bərqərar olandan sonra beynəlxalq birlik Dağlıq Qarabağı bizə "qızıl nimçə"də təqdim edəcəkdir? Professor R.Mehdiyev belə yanaşmanı, haqlı olaraq, uşaq sadəlövhlüyü, yaxud siyasi daltonizm adlandırır.

Zənnimcə, kitabın məziyyəti həm də ondadır ki, müəllif öz tezislərini bu və ya digər məsələ barəsində baxışları, onlara yanaşmaları müqayisə etmək üzərində qurur. Məsələn, o, korrupsiya onunla mübarizə iqtidarın fəaliyyətinin mühüm istiqamətlərindən biridir məsələsi üzərində dayanaraq iqtisadi islahatların dərinləşdirilməsinə, liberal iqtisadi sistemin tam formalaşmasına nail olmağın korrupsiyaya qarşı mübarizədə Azərbaycan Prezidentinin əsas silahı olduğunu vurğulayır, bu belanj totalitar rejimlərə xas nəzarət mexanizmləri ilə aradan qaldırmağı təklif edən radikal müxalifəti ifşa edir.

Müəllif üzdəniraq liderlərin birincilik uğrunda mübarizəsi ilə içəridən didilib-dağılan müxalifətin planlarını və hərəkətlərini tənqid atəşinə tuta-

raq onun məğlubiyyətinin səbəblərini araşdırır. O, məsələnin mahiyyətinə dərindən varır müxalifətin elmi surətdə əsaslandırılmış və prinsipial mövqeyi, sabit elektoratı yoxdur, eləcə də müxalifət partiyalarının rəhbərləri nəzəri baxışlara, ölkənin inkişafı, problemləri ilə bağlı konsepsiyaya malik deyildirlər, məsələləri iqtidar nümayəndələri ilə danışıqlar masası arxasında müzakirələrlə həll etməyin mümkünlüyünü inkar edirlər. Müəllifin fikrincə, onların parlamentdə çoxluğa nail olmaq niyyəti, olsa-olsa, hakimiyyət uğrunda mübarizədən ibarətdir.

Bundan, təbii olaraq, belə nəticə çıxır: təəssüf ki, bizdə demokratik müxalifət yoxdur. Mövcud müxalifət isə zamanın ona qarşı irəli sürdüyü vəzifələrin keçmişlə üzülüşmək, dövrlə ayaqlaşmaq, gələcəyə doğru yolu davam etdirmək vəzifələrinin öhdəsindən, yəqin ki, heç vaxt gəlməyəcəkdir. Axi, kitabda deyildiyi kimi, bunun üçün müxalifət ardıcıl və ölkənin seçdiyi modernləşdirmə və demokratikləşdirmə xəttinə sadiq, nıüstəqil dövləti möhkəmləndirmək prinsiplərinə sədaqətli olmalıdır.

Mən nədənsə inanıram ki, fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin "2005-ci il parlament seçkiləri: İlkin təhlil (mülahizələr, nəticələr və proqnozlar)" kitabını oxuyanlar, yaxud artıq onunla tanış olanlar müəllifin qaldırdığı məsələləri öyrənəcək, müxalifətdəki radikallara rəğmən başa düşə biləcəklər ki, həyatımızda ən başlıcası cəmiyyətin sabitliyi və möhkəmliyidir. Və bundan sonra düzgün mənəvi seçim edəcəklər.

**Elmira ƏLİYEVA**

*18 iyul, 2006*

# DEMOKRATİYA SINAĞI

***Professor R.Mehdiyevin "2005-ci il parlament seçkiləri: ilkin təhlil (mülahizələr, nəticələr və proqnozlar)" kitabı haqqında jurnalistin qeydləri***

***2005-ci ilin parlament seçkiləri müstəqil Azərbaycanın yeni tarixinin artıq növbəti səhifəsinə çevrilmişdir. Lakin bir çox mütəxəssislər, o cümlədən də onların əcnəbi həmkarları seçkilərin yekunlarına hələ dəfələrlə müraciət edərək bu kampaniyanın təşkili və keçirilməsinin ibrətamiz təcrübəsini və dərslərini təhlil edəcəklər. Ən müxtəlif, Çox vaxt da mənfi proqnozların əksinə olaraq, Milli Məclisə səsvermənin yekunları tamamilə gözlənildiyi kimi oldu, kəskin ziddiyyətlər həvəskarları isə baş tutmamış sensasiyaları gözləyə-gözləyə qaldılar.***

Məsələn, söhbət ondan gedir ki, seçkilərin demokratikliyinin və şəffaflığının yüksək səviyyəsi Azərbaycanda "rəngli inqilab" xülyasında olanların arzularını büsbütün boşa çıxardı, hakimiyyət dəyişikliyinin xaricdən süni şəkildə ixrac edilən modelinin perspektivsizliyi subuta yetirildi. Növbəti avantüranın iflası o dərəcədə sarsıdıcı idi ki, bu onun xarici ilhamverici və təşkilatçılarının və yerli üzüdönüklərinin bütün bəhanələrini kəsdi, əllərini hər şeydən üzdü. Bununla da postsovet məkanında bu "inqilab"ın yürüşünə son qoyuldu, növbəti möhkəmlik və dəyanət sınağından layiqincə çıxan Azərbaycanın beynəlxalq imici, nüfuzu isə yeni, əlavə potensial qazandı.

Üçüncü çağırış Milli Məclisə seçkilər əyani surətdə nümayiş etdirdi ki, Azərbaycanda sivil, demokratik, hüquqi dövlət quruculuğu prosesi artıq dönməz xarakter almışdır və bu prosesi dayandırmağa qadir olan qüvvə yoxdur. Bu, Azərbaycan Prezidentinin İcra Aparatının rəhbəri, fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyevin "2005-ci il parlament seçkiləri: ilkin təhlil (mülahizələr, nəticələr və proqnozlar)" adlı yeni kitabında qənaətə gəldiyi obyektiv və tamamilə qanunauyğun nəticələrdən biri

dir. Kitab lap bu yaxınlarda nəşr edilmiş və derhal da respublikanın ictimai-siyasi həyatında əlamətdar hadisə olmuşdur.

Ümumiyyətlə, müəllif ötən kampaniyaya qiymət verərkən xüsusi vurğulayır ki, seçki prosesi bir daha təsdiqlədi ki, Azərbaycanda xalqın dəstəyinə arxalanan və öz siyasətini milli mənafelər əsasında quran hakimiyyət var. Real qüvvəyə və nüfuza malik bu hakimiyyət dünyada baş verən prosesləri diqqətlə izləyir, yeni demokratik cəmiyyət quruculuğu problemlərini həll edir, ölkənin inkişafı ilə bağlı olan fundamental konsepsiyanı həyata keçirir. Təxminən son üç il göstərdi ki, unudulmaz Heydər Əliyevin xəttinə sadiq olan Prezident İlham Əliyevin komandası Azərbaycanı yeni, daha böyük nailiyyətlərə doğru aparmağa qadirdir. Siyasətdə varislik prinsipini qoruyub saxlayan iqtidar yeni dünya nizamının tələblərini mənimsəmişdir, sivilizasiyalı demokratik dövlət quruculuğu yolunda qətiyyətli addimlar atır.

Görkəmli alimin yeni əsəri seçkiqabağı kampaniyanın bütün mərhələlərini, bu kampaniyanın təşkili və keçirilməsində dövlət qurumlarının və ictimai qurumların fəaliyyətini, xarici təşkilatların rolunu, olkənin ali qanunverici orqanında yer tutmaq iddiasında olmuş siyasi qüvvələrin strategiya və taktikasını təfərrüatı ilə və dərindən izləyir. Əsərin cəlbediciliyi bir də ondadır ki, müəllif ən müxtəlif mənbələrdon, o cümlədən hər cür yonümlü və baxışlı KİV-in yazılarından çox böyük həcmdə materialı, tanınmış siyasətçilərin və dovlət xadimlərinin, əcnəbi müşahidəçilərin və digərlərinin rəylərini kifayət qədər qısa müddətdə toplamağa, sistemləşdirməyə və ümumiləşdirməyə müvəffəq olmuşdur. Müəllif seçki kampaniyasının uğurla keçməsinə yönəldilmiş qərarların dövlət səviyyəsində qəbul olunmasının metod və mexanizmləri ilə tanış edir, seçkiqabağı mübarizənin siyasi intriqalarını açıb göstərir, bu mübarizənin bir çox personajlarının dəqiq, bəzən də xoşagəlməz xarakteristikasını verir.

Bir sözlə, sanballı elmitəhlili əsərlər sırasında layiqli yer tutacaq bu kitab maraqlıdır və faktlarla, qeyri-standart şərhlərlə zəngindir. Zənnimcə, onu ötən seçkilərin bir növ ensiklopediyası adlandırmaq olar. Elə bir ensiklopediya ki, burada həm mütəxəssispolittexnoloq, həm də müstəqil Azərbaycanin siyasi həyatının keşməkeşləri ilə maraqlanan sıravi oxucu istənilən suala cavab, yaxud hər hansı kolliziyanın izahatını tapa bilər.

Müasir dünyada bir sıra prinsipial müddəaları, prinsipləri buraya cəmiyyətdə azad və şəffaf seçkilər keçirilməsi də daxildir özündə təcəssüm etdirən demokratiyanın müəyyən ümumiləşdirilmiş obrazı yaranmışdır. Bizim radikal müxalifətin və onun təhriki ilə bir sıra Avropa qurumlarının bu posluiatdan istifadə edərək Azərbaycanın demokratik cəhətdən zəifliyi, iqlidarın ölkədə həqiqətən azad və şəffaf seçkilər keçirməyə qadir olmaması barədə seçki kampaniyası zamanı yenidən qondarına diskussiya qaldırmağa çalışdıqlarını hamımız yaxşı xatırlayırıq. Halbuki birmənalı şəkildə aydın idi ki, özlərinin qarşıdakı şəksiz iflasını bu dəfə də öncədən duyan radikallar yenə də, necə deyərlər, bulanıq suda balıq tutmaq sövdasına düşərək ictimai rəylə manipulyasiya etmək və öz təbliğatını "seçkilərin saxtalaşdırılacağı" barədə tezis əsasında quraraq deputat mandatları uğrunda mübarizədə davakar və pozucu əməllərə əl atmaq niyyətində idi.

Ona gorə də iqtidarın və parlament seçkiləri təşkilatçılarının fəaliyyətini yüksək qiymətləndirmək lazımdır. Onlar bütün istiqamətlərdən olan misli görünməmiş təzyiqə təmkinlə və ləyaqətlə tab gətirdilər, düşünülmüş surətdə hərəkət etdilər, bir çox ədalətsiz iddiaların ısassızlığını bütün incəliyi ilə, səbirlə izah etdilər və üstəlik, seçki praktikasının təkmilləşdirilməsi barədə konstruktiv təkliflərlə həvəslə razılaşdılar.

Ümumi etirafa görə, Azərbaycanda 1993-cü ildən bəri keçirilən hər bir növbəti seçkilər seçki prosesini beynəlxalq standartlara uyğunlaşdırmaq yolunda irəliyə doğru addım olmuşdur. Lakin demokratikləşdirmə prosesini sürətləndirən və xalqın iradəsini əks etdirən müsbət yeniliklərın sayı baxımından üçüncü çağırış Milli Məclisə seçkilərin analoqu olmamışdır. Əlamətdar haldır ki, bu məqamı həm seçkilərdə bilavasitə iştirak etmiş maraqlı tərəflər, həm də seçki kampaniyasının təşkilini və səsvermənin gedişini lap əvvəldən çox diqqətlə izləmiş müşahidəçilərin çoxsaylı qrupları açıqca təsdiqləyirlər.

İlk növbədə qeyd edək ki, seçkilər kifayət qədər diqqətlə yeniləşdirilmiş, müxalifətin təkidi ilə bir çox prosedurların sadələşdirildiyi Seçki Məcəlləsinə uyğun keçirilmişdir. Yeri gəlmişkən deyək ki, müvafiq Avropa qurumlarında qərəzli ckspertizadan sonra bu sənəd onların tərəfindən yüksək qiymətləndirilmişdir. Bundan başqa, mümkün böhrana yol verilməmosi üçün iqtidar radikallara və onların əcnəbi məsləhətçi sponsorlarına ən

müxtəlif məsələlərdə kifayət qədər ciddi güzəştlərə gedərək ölkədə seçkiqabağı vəziyyəti demokratikləşdirmək üçün bir sıra tədbirlər görmüşdür. Xatirimizdədir ki, elektorat onların heç də hamısını birmənalı qarşılamadı. Məsələn, götürək elə səsverənlərin barmaqlarının rəngsiz mürəkkəblə işarələnməsini. Bu üsuldan əhalisi ucdantutma savadsız olan geridə qalmış ölkələrdə istifadə edilir. Müxalifətçilərin təkidli tələblərindən sonra Azərbaycan tarixində ilk dəfə olaraq "exitpoll" da keçirildi. Onlar bu sorğunun nəticələrindən "saxtalaşdırılmış" seçkilərin yekunlarına etirazlarını bildirmək üçün istifadə etmək niyyətində idilər. Hökumət bu addımı da ataraq, bəzi ekspertlorın fikrincə, siyasi cəsarət göstərdi, ABŞ-ın və Estoniyanın iki məşhur şirkətindən ölkəyə gələn resenzentlərin işi üçün hər cür şərait yaratdı. Səciyyəvi haldır ki, seçki dairələrinin əksəriyyətində "exitpoll"un nəticələri rəsmi yekunlarla 8587 faiz üstüstə düşdü. Bir sözlə, "exitpolP'a ümid bəsləyənlərin arzusu gözündə qaldı. Avropanm aparıcı Ölkələrindən olan deputatlar Azərbaycan vətəndaşlarına seçici vəsiqəsi verilməsini  demək lazımdır ki, bu iş xeyli vəsait və səy tələb edirdi  çox mütərəqqi addım adlandırdılar. Məlum oldu ki, bu qayda Avropanın hətta bir çox inkişaf etmiş demokratik dövlətlərində də tətbiqini tapmamışdır.

Bununla belə, cürbəcür hüquq müdafiəçilərinin və onların xaricdəki məsləhətçilərinin  "bizim radikal müxalifət onların carçıları idi"  israr etdikləri bəzi yeniliklərin bütün şübhəliliyinə baxmayaraq, iqtidar onların hər nazı ilə razılaşır və əslində, az qala bütün tələblərini yerinə yetirirdi. Lakin bu, cəmiyyətdə heç də iqtidarın zəifliyinin əlaməti kimi qarşılanmırdı. Əksinə, ölkəmizdə yaradılan plüralist vətəndaş cəmiyyətində seçkilərin açıq və şəffaf, azad və demokratik şəraitdə keçməsinə həqiqətən maraq göstərilməsinin sübutu kimi başa düşülürdü.

Mütləq kateqoriyalardan istifadə edərək Milli Məclisə seçkilərin suveren Azərbaycanın əvvəlki seçki praktikasında nümunəsini tapmayan icmalçılar da bu seçkilərin yekunlarına əsasən mülahizələr yürütmək üçün böyük imkan əldə etdilər. Həqiqətən, indiyədok heç vaxt ölkədə belə genişmiqyaslı, taməhatəli və azad təşviqat kampaniyası aparılmamışdı. "İnkişafın çətinlikləri" ilə bağlı müəyyən qüsur və çatışmazlıqlara baxmayaraq, bu kampaniya ümumən müsbət məcrada getdi. Qeydiyyatdan keçən deputatlığa namizədlərin sayı rekord səviyyəyə çatdı  2063 nəfər (beş il

əvvəl onların sayı beş dəfə az idi). Monitorinqdə 20 minədək beynəlxalq və yerli müşahidəçi, jurnalist iştirak edirdi, onlara tam fəaliyyət sərbəstliyi verilmişdi.

Bir sözlə, 2005-ci il parlament seçkiləri göstərdi ki, demokratiyamız getdikcə daha suveren olur, gələcək seçkilərdə istifadə etmək üçün böyük təcrübə qazanıldı, iqtidarın gördüyü işlər sayəsində, əslində, ölkıdə demokratik seçki praktikasında yeni mırhələnin bünövrəsi qoyuldu, ycni seçki ənənələri mcydana gəldi. Eyni zamanda, qüvvələrin nisbətini, siyasi partiya və blokların fəaliyyətinin prinsip və istiqamətlərini, hakimiyyət uğrunda mübarizədə qələbənin və məğlubiyyətin səbəblərini müəyyənləşdirmək üçün zəngin material əldə edildi. Professor R.Mehdiyev siyasi qüvvələrin ictimai rəyə təsirinin sahələrini, əmsalını və digər aspektlərini bu kontekstdə araşdıraraq Yeni Azərbaycan Partiyasına seçkilərdə yeni sanballı qələbə qazanmağa imkan verən amilləri inandırıcı şəkildə izah edir. Bu bölmə beləcə də adlanır: "Qələbə kampaniyası".

Ümummilli liderimiz Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyası seçkilərə real işlərlə və səmərəli proqramla getdi, onun platformasında elmi surətdə əsaslandırılmış, ölkənin bütün sahələrdə dinamik inkişafını nəzərdə tutan konseptual təkliflər öz əksini tapmışdı. Sabit surətdə yüksək reytinqi olan və real bazisə əsaslanan YAP insanların rifahının yüksəlməsi naminə Azərbaycanı bundan sonra da davamlı və dinamik şəkildə inkişaf etdirəcəyinə söz verdi, demokratik inkişaf və dünya birliyinə inteqrasiya, sülhün və əminamanlığın qorunub saxlanması siyasətinə sadiqliyini nümayiş etdirdi.

Müxalifətə gəldikdə isə, o, ölkədə son 13 ildə görülən bütün işlərin və qazanılmış nailiyyətlərin, əslində, üstündən xətt çəkərək hər şeyə təzədən başlamağa çağırrdı, öz təbliğatını hədsiz radikalizm və avantürizm, təhqirlər və qatı böhtan, boş vədlər və reallıqdan uzaq xülyalar üzərində qurmuşdu. Hər bir sağlam düşüncəli seçici özü əmin oldu ki, ölkədə və dünyada baş verən yeniliklər radikal müxalifətin dağıdıcı mahiyyətini dəyişdirməmişdir. Onun siyasətinin ötən əsrin 90-cı illərində Azərbaycanı nə kimi müsibətlərə düçar etdiyi çoxlarının hələ də yadındadır. Ona görə də əhalinin böyük əksəriyyətinin YAP-ı dəstəkləməsi əsla təsadüfi deyildi. O, çoxları üçün Xoş Ümid Partiyasıdır.

Professor R.Mehdiyev radikal müxalifətin ağır məğlubiyyətə uğramasının səbəblərini, onun antimilli, pozucu mahiyyətini müfəssəl təhlil edir və haqlı olaraq vurğulayır ki, hakimiyyət iddialarını Azərbaycanın milli mənafelərindən üstün tutan müxalifət heç vaxt xalqın dəstəyini qazana bilməyəcəkdir.

Milli Məclisə seçkilər bu aksiomu bir daha inandırıcı şəkildə sübut etdi. İctimai rəydə kök salmış və beynəlxalq birliyin də şərik çıxdığı bu mülahizə bir daha öz təsdiqini tapdı: Azərbaycanda radikal müxalifət iddiasında olan qüvvələr xalqın dəstəyindən məhrumdur, ölkədə demokratik müxalifət isə hələlik formalaşmayıbdır. Bu baxımdan Amerikanın tanınmış siyasətçilərindən birinin söylədiyi kifayət qədər maraqlı və səciyyəvi bir mülahizəni misal gətirmək istərdim: "Qeyri-müəyyən və inanılmamış qüvvələrj hakimiyyətə gətirmək ABŞ-ın yaxın planlarına daxil deyildir. Üstəlik, Azərbaycan müxalifətinin qüvvəsini, xalq arasinda nüfuzunu və demokratik islahatlara hazırlıq səviyyəsini yetərli hesab etmir".

Tariximizin əlamətdar dövrünə çevrilən 2005-ci il parlament seçkiləri bu tarixin yeni mərhələsini "həyatın prinsipcə daha yaxşı keyfiyyətinə keçmək üçün şərait üzərində işləmək dövrünü açdı. Bu, asan vəzifə deyildir" o, həm siyasi iradə, həm də iqtidarla cəmiyyətin açıq dialoqunu, bütün xalqın daim birgə səy göstərməsini tələb edəcəkdir.

**Vladimir MOROZKOV**

*20 iyul, 2006*

# VII FƏSİL

# NƏZƏRİ TƏDQİQATLAR

# MÜASİR AZƏRBAYCAN FƏLSƏFİ FİKRİNİN AKTUAL PROBLEMLƏRİ

Müasir Azərbaycanda milli-siyasi özünüdərk ümumbəşəri dəyərlərlə yanaşı, ilk növbədə milli fəlsəfi fıkrə əsaslanmalıdır. Bu baxımdan Azərbaycanda fəlsəfi fikir tarixinin öyrənilməsinə ehtiyac getdikcə artmaqdadır. Xüsusilə sovet dövründə böyük mütəfəkkirlərimizin dünyagörüşü və fəlsəfi əsərləri öyrənilərkən məqsədyönlü surətdə pozuntulara yol verildiyini, onların fikirlərini necə olursa-olsun materialist mövqedən işıqlandırmağa cəhd göstərildiyini nəzərə alsaq, fəlsəfə tarixinə yenidən nəzər salınmasına böyük ehtiyac yarandığı aydın müşahidə olunar. Düzdür, sovet dövründə milli fəlsəfə tarixinin öyrənilməsi sahəsində müəyyən uğurlar da əldə edilmişdir.

Azərbaycan filosoflarının orta əsrlərdə ərəb və fars dillərində yazdığı bir sıra fəlsəfi əsərlər, habelə mütəfəkkir şairlərimizin fəlsəfi yönümlü bədii yaradıcılığı azərbaycan və ya rus dillərinə tərcümə olunaraq tədqiqatçıların istifadəsinə verilmişdir. Azərbaycanın fəlsəfi və ictimai-siyasi fikrinin öyrənilməsi, sistemləşdirilməsi və dünya fəlsəfi fikri ilə müqayisəli təhlili sahəsində sovet dövrünün böyük filosofu Heydər Hüseynovun xüsusi xidmətləri olmuşdur. Heydər Hüseynov təkcə özu bu sahədə tədqiqatlar aparmaqla kifayətlənməmiş, Azərbaycanda fəlsəfə tarixçiləri məktəbi yaratmış və bu sahənin inkişafina geniş yol açmışdır. Bəhmənyarın, Nizaminin, Ş.Sührəverdinin, Nəiminin, Nəsiminin, Şəbüstərinin, Füzulinin fəlsəfi dünyagörüşünə dair xüsusi tədqiqatlar aparılmış, dissertasiya işləri yazılmış, monoqrafiyalar çap olunmuşdur. Xüsusilə yaxın keçmişin böyük mütəfəkkirləri olan M.F.Axundovun, A.Bakıxanovun, H.Zərdabinin fəlsəfi-bədii irsi hərtərəfli tədqiq olunmuş və onların Azərbaycanda milli şüurun inkişafındakı rolu geniş işıqlandırılmışdır. Lakin o dövrdə bütün bu tədqiqatlar kommunist ideologiyasının qoyduğu məhdudiyyəllər çərçivəsində aparıldığından bir sıra təhriflərə də yol verilmişdir. Əsasən idealist fəlsəfi zəmindən çıxış edən böyük filosoflarımız və şairlərimiz yeni nəslə az qala ateist kimi təqdim olunmuşlar. Əlbıttə, bu, həmin dövrün tələbi idi. Lakin indi zaman dəyişmiş, böyük mütəfəkkirlərimizin əsərlırini olduğu kimi çap etmək və onlara obyektiv şərh vı təhlil vermək imkanı yaranmışdır. Bunsuz həqiqi milli özünüdərk mümkün deyil.

Digər tərəfdən, sovet dövründə dünya fəlsəfəsinə, əsasən marksizm mövqeyindən və ən yaxşı halda rus fəlsəfi fikri pəncərəsindən baxmağa məcbur olan tədqiqatçılarımız indi ümumbəşəri fəlsəfi dəyərləri bilavasitə mənimsəmək, dünya fəlsəfə klassiklərinin əsərlərini Azərbaycan dilinə tərcümə etmək və öz fəlsəfi axtarışlarını dünya fəlsəfi fikri kontekstində aparmaq imkanı əldə etmişlər. Əlbəttə, Gertsenin, Çernışevskinin, Dobrolyubovun, Belinskinin əsərləri təkcə inqilabi-demokratik ideyaların təbliği ilə məhdudlaşmırdı, onlar həm də dünya fəlsəfi fikrinin daşıyıcıları olmaqla bizim üçün dünyaya pəncərə idilər. L.Tolstoy və Dostoyevski yaradıcılığındakı ümumbəşəri fəlsəfi ideallar bu gün də dünya fəlsəfi fikrində özünəməxsus yer tutur. Lakin rus fəlsəfəsi dünya fəlsəfi fikrinin bütöv spektrini özündə əks etdirə bilmir. Azərbaycan peripatetikləri öz yaradıcılığında antik fəlsəfənin şərhini verdikləri və bu sahədə ciddi addımlar atdıqları bir vaxtda Rusiyada peşəkar fəlsəfi fikir hələ heç formalaşmamışdı. Bu baxımdan Azərbaycanın fəlsəfi fikir tarixi dünya fəlsəfəsinin ayrılmaz tərkib hissəsi olduğu üçün müasir dövrdə də Azərbaycan filosoflarının beynəlxalq fəlsəfi proseslərə daha fəal qatılması üçün böyük əsas vardır.

Fəlsəfə tarixi qarşısında duran vəzifələrdən biri də XX əsrin əvvəllərində və sovet dövründə fəaliyyət göstərmiş mütəfəkkir ədiblərin yaradıcılığına yeni metodoloji zəmində qiymət verilməsidir. Belə ki, Mirzə Cəlilin, Məhəmməd Hadinin, Hüseyn Cavidin, Cəfər Cabbarlının və başqalarının ədəbi-bədii əsərlərindəki fəlsəfi ideyaların daha kommunist ideologiyası mövqeyindən deyil, artıq ümumbəşəri və milli fəlsəfi dəyərlər mövqeyindən dəyərləndirilməsinə böyük ehtiyac yaranmışdır. Bu baxımdan bütövlükdə ədəbi tənqidin metodoloji əsaslarında və meyarlar sistemində ciddi dəyişikliklər aparılması zərurəti yaranmışdır ki, bu iş yalnız ədəbiyyatçıların və filosofların əməkdaşlığı şəraitində həyata keçirilə bilər.

Fəlsəfi elmlər sahəsində tədqiqatiara ehtiyac müasir dövrdə nəinki azalmamış, hətta bir sıra aspektlərdə xüsusi aktuallıq kəsb etmişdir. Bəşəriyyət qarşısında duran və həmişə insanları düşündürən, neçə əsrlər ərzində öz aktuallığını itirməyən ümumbəşəri fəlsəfi problemlərlə yanaşı, konkret ictimai-siyasi mühitin xüsusiyyətlərindən, dövrün social-siyasi ab-havasından, milli özünüdərkin konkret səviyyəsindən doğan yüzlərlə aktual problem ortaya çıxır ki, onların elmi-fəlsəfi təhlili qaçılmaz olur.

Fəlsəfədə hər hansı problmin həmişə insandünya münasibətləri kontekstində nəzərdən keçirilir. İnsandünya münasibətlərinin bütün dövrlərdə insanların hamısı üçün ümumi olan aspektləri ilə yanaşı, konkret zaman və məkan daxilində xüsusi aspektləri də var.

Müasir dövrdə Azerbaycanda yaşayan insanların ümumbəşəri fəlsəfi problemlərə münasibəti bir neçə mühüm amillərin təsiri ilə xüsusi səciyyə kəsb edərək yeni problemlərin üzə çıxmasına zəmin yaradır.

Azərbaycanın hüquqisiyasi müstəvidə öz dövlət müstəqilliyini bərpa etməsi hər bir Azərbaycan vətəndaşı üçün yeni bir dövrün başlanğıcıdır. Dövlət quruluşu dəyişir, iqtisadi münasibətlər sistemi, cəmiyyətin strukturu, ideologiya dəyişir və köhnə ideologiyaya əsaslanmış fəlsəfi fikrin də dəyişilməsi zərurətə çevrilir.

İctimai şüurda gedən proseslərin kortəbii yox, elmi əsaslarla həyata keçməsi naminə əvvəlcə cəmiyyətdə gedən real dəyişikliklərin elmi təhlili verilməlidir. Yəni biz ictimai şüurun hansı istiqamətdə dəyişiləcəyini proqnozlaşdıra bilmək üçün əvvəicə ictimai reallıqdakı dəyişikliklərin hansı isliqamətdə getdiyini dərk etməliyik.

Düzdür, ictimai varlığın, sosial-iqtisadi proseslərin dəyişilməsi də ideyalarsız həyata keçmir. Lakin cəmiyyəti dəyişdirən ideyalar və maraqlar sistemi dəyişdirilmiş cəmiyyətdən doğan yeni şüur sistemi ilə adekvat olmaya da bilər. Keçid dövrünü səciyyələndirən cəhətlərdən biri də məhz ictimai şüurla ictimai varlıq arasındakı uyğunsuzluqlardır.

Marksizmleninizm fəlsəfəsindən və bütövlükdə kommunist ideologiyasından imtina etmiş Azərbaycan onun əvəzinə yeni bir ideologiya və yeni bir fəlsəfi sistem düşünüb hazırlamağa macal tapmadan keçid dövrünün ziddiyyətləri ilə üzüzə dayanmalı oldu. Müstəqil dövlət quruculuğu prosesi milli özünüdərk axtarışlarını sürətləndirsə də, müstəqilliyin ilk illərində yeni ideologiyanın, milli fəlsəfi fikrin formalaşmaması və ictimai şüurun inertliyi artıq hərəkətə gəlmiş böyük ictimai-siyasi proseslərin elmi əsaslarla idarə olunmasına imkan vermədi. Düzdür, 1993-cü ildən sonra Azərbaycan dövlətinə rəhbərlik edən Heydər Əliyevin boyük siyasi və idarəçilik təcrübəsi Azərbaycanın böhrandan çıxmasına, dövlət quruculuğu işinin uğurla həyata keçirilməsinə, müstəqilliyin möhkəmləndirilməsi"nə imkan verdi. Azərbaycan dövlətçiliyinin milli identifikasiyasının başlıca ehkamlarının, Azərbaycançılıq ideologiyasının başlıca ünsürlərinin təd-

ricən formalaşması prosesi də elə həmin dövrdən başlandı. Bununla yanaşı, ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi sahələrdəki keçid prosesləri, hüquqi dövlət və vətəndaş cəmiyyətinin qurulması ilə əlaqədar dəyişikliklərin elmi izahı xüsusi fəlsəfi tədqiqatlar tələb edir. Azərbaycanın bir tərəfdən coğrafi-siyasi vəziyyətinə görə, digər tərəfdən zəngin təbii sərvətlərə malik bir ölkə kimi böyük dövlət lərin siyasi və iqtisadi maraqlarının mərkəzində olması onun özünü dünya siyasətinin fəal iştirakçılarından birinə çevirib və ona görə də siyasətşünaslığın aktual prüblemlərinin tədqiqinə böyük ehtiyac yaranır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hələ də həll olunmaması son vaxtlar nisbi müstəqil tədqiqat istiqamətinə çcvrilmiş konfliktologiyanın da elmi-nəzəri əsaslarının öyrənilməsini və artıq regional konfliktlərin təhlilinin xeyli dərəcədə qərarlaşmış nəzəriyyələr kontekstində aparılmasını zəruri edir.

Keçid dövrünün yeni mərhələsi yeni iqtisadi münasibətlərin əsasında dayanmalı olan ycni düşüncə tərzinin fəlsəfi özünüdərk səviyyəsində formalaşmasını tələb edir. Daha doğrusu, burada fəlsəfi fikirlə düşüncə tərzi arasında müəyyən bir əks əlaqəyə ehtiyac yaranır.

Beləliklə, fəlsəfi fikir bir tərəfdən müstəqillik əldə etmiş bir xalqın milli özünüdərk prosesini ehtiva etməli, digər tərəfdən də bir ictimai-iqtisadi quruluşun yenisi ilə əvəzlənməsindən irəli gələn ictimai şüurun elmi-nəzəri səviyyədə əsaslandırılmasına xidmət etməlidir. Bütün bunlar isə fəlsəfənin ənənəvi problematikasından kənara çıxmadan, movcud elmi-fəlsəfi fikrə istinad etməklə həyata keçirilməlidir.

Müstəqillik əldə etmiş xalqın öz siyasi və iqtisadi azadlığını təmin etmək istiqamətindəki fəaliyyəti müstəqil dövlət və təsərrüfat quruculuğu ilə yanaşı, ilk növbədə, milli tarixin, ədəbiyyatın, mədəni-mənəvi dəyərlərin yenidən nəzərdən keçirilməsi, kommunist ideologiyasının təsirlərindən azad edilməsi ilə müşayiət olunur. Ateizm buxovlarından azad olmuş dini şüur yeni inkişaf müstəvisinə keçir və nəticədə dinlə ideologiyanın, dinlə fəlsəfənin də ənənəvi münasibətləri bərpa olunur. İctimai şüurda gedən bütün bu yeni proseslərin elmi-fəlsəfi təhlilinə ehtiyac yaranır.

İdeologiyanın dəyişilməsi, milli şüurun inkişafı, ictimai şüurla yeni ictimai-iqtisadi münasibətlər arasındakı ziddiyyətlər və onların həllinə olan ehtiyac elmi-fəlsəfi tədqiqatların tematikasında da öz əksini tapmalı olduğu halda, təəssüf ki, Azərbaycanda fəlsəfə çaşqınlıq və durğunluq vəziy-

yətindən hələ çıxa bilmər aişdir. Bu sahədə görülən işlər ya sovet dövründə aparılan tədqiqatların davamı kimi, ya müəyyən beynəlxalq forumların verdiyi qrantların tələblərinə uyğun olaraq, ya da indi Rusiyada dəbdə olan mövzuların, bir növ, təqlidi kimi ortaya çıxır. Əslində, tədqiqatdan daha çox icmal yazılır və ya elmipublisistik yazılar dərc olunur. Bu vəziyyət digər tərəfdən elmi jurnalın olmamasından irəli gəlir. Keçid dövrünün simptomlarından biri olan publisist və psevdosiyasi təfəkkürün elmi təfəkkürü üstələnməsi, söz və mətbuat azadlığının ifrat formalarda anlaşılması, düşünmədən danışmaq, tədqiqat aparmadan yazmaq praktikasının genişlənməsi, kitab çapında əvvəllər öz müsbət nəticələrini vermiş meyarların itməsi və ümumiyyətlə, mətbuat və nəşriyyat işinin bazar iqtisadiyyatının təsirinə məruz qalması ictimai-siyasi fikrin mövcud vəziyyətinə mənfı təsir göstərməyə bilməzdi. Bu vəziyyət cəmiyyətşünaslıq sahəsində həqiqi elmi tədqiqatların üzə çıxmasına, publisistika ilə elmin fərqləndirilməsina mane olur. Elmi nəşrlərsiz elmi fikrin inkişafı isə, təbü ki, mümkün deyil. Keçmiş sosialist ölkələrində kommunist ideologiyasından uzaqlaşdıqdan sonra fəlsəfə sahəsindəki tədqiqatların böyük əksəriyyəti kommunist ideologiyasının, totalitar rejimin tənqidinə, fəlsəfə tarixinə və müasir Qərb fəlsəfəsinin işıqlandırılmasina həsr olunur. İdeoloji qarşıdurma dövründə müasir Qərb fəlsəfəsinin hətta ən klassik nümunələri belə tərcümə olunmadığından və ya "xüsusi istifadə üçün", "elmi kitabxanalar üçün" çox az tirajla çap edildiyindən geniş fəlsəfə ictimaiyyətinin müasir Qərb fəlsəfəsindəki tədqiqatlarla tanışlıq dərəcəsi aşağı səviyyədə idi. Təsadüfən hansı isə bir kitab tərcümə olunurdusa, onun tənqidinə onlarca dissertasiya işi, məqalə və kitab həsr edilirdi. İndi qadağalar aradan qalxdığından ABŞ və Qərbi Avropa filosofları, sosioloqları və politoloqlarının əsərləri rus dilinə tərcümə olunur və digər MDB ölkələrində, o cümlədən Azərbaycanda da yayılır. İndi rus filosoflarının özləri də daha çox müasir mövzularda yazırlar və ənənəvi fəlsəfi mövzuları, klassik fəlsəfəni çox vaxt praqmatik və tətbiqi səciyyəli problemlər əvəz edir. Bu mənada "müasirlik" anlayışı özünü həm pozitiv, həm də neqativ çalarlarda göstərir. Ən çox qrantlar ayrılan və insan hüquqları kontekstində həyata keçirilən psevdososioloji tədqiqatlar köklü fəlsəfi məsələləri arxa planda qoyur. Qloballaşma fəlsəfi və ictimai-siyasi elmlərin predmetinə də ciddi təsir göstərir və ümumbəşəri fəlsəfi problemlərin öyrənilməsi dünyanın siyasi güc mərkəzlərində üstün-

lük təşkil edən hazır dəyərlər sisteminin transformasiyası ilə əvəz olunur. Digər tərəfdən, Qərb dünyasında elm və texnologiyaların aparıcı rolu fəlsəfəni də daha çox dərəcədə elmin əlavəsinə çevirir ki, nəticədə neopozitivizm, tənqidi rasionalizm, germenevtika, linqivistik fəlsəfə və s. bu kimi cərəyanlar da klassik fəlsəfi problemləri ana plana sıxışdırır.

Azərbaycanda Şərq fəlsəfi fikir ənənələrinin bərpa edilməsi və müasir Qərb fəlsəfəsi ilə inteqrasiya fəlsəfi fikrin inkişafı üçün yeni impuls verə bilər. Milli ideologiyamızın Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş əsas prinsiplerindən biri olan millilik və ümumbəşəriliyin vəhdəti prinsipi Azərbaycanda fəlsəfənin inkişaf yolunun müəyyənləşdirilməsi üçün də əsas götürülməlidir.

Azərbaycanda fəlsəfə dərslikləri yazılarkon Qərbin və Şərqin fəlsəfi dəyərlər sistemi arasında sadəcə paritet yaratmaq yox, onların üzvi vəhdətindən çıxış etmək prinsipi rəhbər tutulmalıdır. Azərbaycan qədim İpək yolunun bərpası işində aparıcı rol oynamaq, öz coğrafi-siyasi mövqeyinə gorə Şərqlə Qərb arasında körpü kimi çıxış etmək missiyaları ilə yanaşı, dünya fəlsəfi fikrinin inkişafında da inteqrativ rol oynaya bilər. Bu cəhət Azərbaycan filosoflarının tədqiqat əsərlərində, dissertasiya işlərinin mövzularının seçilməsində, dərsliklərin və dərs vəsaitlərinin strukturunda da nəzərə alınmalıdır.

Fəlsəfə gününün bütün dünyada, o cümlədən Azərbaycan ictimaiyyəti tərəfindən qeyd edilməsi, əlbəttə, yaxşı haldır. Lakin Azərbaycan fəlsəfi fikri qarşısında duran vəzifələr o qədər çoxdur və elmi-fəlsəfi ictimaiyyətin üzərinə o qədər böyük məsuliyyət düşür ki, fəlsəfə tək bir gün ərzində deyil, il boyu həmişə diqqət mərkəzində saxlanılmalıdır. Bütün digər ictimai-siyasi elmlərin, hətta tarix və ədəbiyyatın inkişafı da istər-istəməz fəlsəfi fikrin real vəziyyəti, ictimai şüurda fəlsəfənin yeri və bütün cəmiyyətin fəlsəfiyə münasibətilə bağlıdır. Bu vəzifə təkcə MEA-nın Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun, universitetlərin fəlsəfə kafedralarının deyil, bütovlükdə Təhsil Nazirliyinin, ali məktəb rəhbərlərinin, habelə müvafiq ictimai təşkilatların və kütləvi informasiya vasitələrinin birgə səyi ilə yerinə yetirilə bilər.

**Ramiz MEHDİYEV,**
**fəlsəfə elmləri doktoru, professor**

*20 noyabr, 2003*

# HEYDƏR ƏLİYEVİN SİYASİ PORTRETİNİN CİZGİLƏRİ

Heydər Əliyevin siyasi və mənəvi irsinə hər dəfə müraciət edəndə bu irsdə Azərbaycan xalqının mənəvi-əxlaqi həyatının necə dərin problemlərinin öz əksini tapdığının şahidi olursan. Bu məqalədə həmin çoxsaylı problemlərdən yalnız biri - azərbaycan dili ilə bağlı problem üzərində dayanmaq istərdik. Hamıya məlumdur ki, xalqın ümummilli mənəvi birliyinin Heydər Əliyev tərəfindən yaradılmış konsepsiyasında Azərbaycan dili çox mühüm yer tutur. Heydər Əliyev özü bu dilin parlaq bilicilərindən olmuşdur. Onun nitqləri, çıxışları, müsahibələri yeni siyasi üslubu formalaşdırmış və Azərbaycan dilini o qədər əhəmiyyətli dərəcədə zənginləşdirmişdir ki, tədqiqatçıların hələ neçə-neçə nəsli natiqlik sənətinin bu nümunələrinə müraciət edəcəkdir.

Ümumfəlsəfi problem olaraq dil fenomenini bir çox dahi mütəfəkkirlər açmağa çalışmışlar. Dünyada dilin ən müxtəlif tərifləri mövcuddur. Fəlsəfə əsərlərində ona çoxlu müxtəlif təriflər verilir. Onların hamısı belə bir faktı bu və ya digər dərəcədə əks etdirir ki, dilin funksiyaları olduqca çoxdur. Bu gün biz süni, formalizə edilmiş dillər, metadillər barədə nə qədər muhakimə yürütsək də, bir məsələ şəksizdir: insanın bütün mənəvi həyatı, hər halda, öz əksini sözdə tapır. İnsan ruhunun dildən kənarda hər hansı təzahürləri  musiqi, rəssamlıq, heykəltəraşlıq dildə özünüifadənin zəruriliyi ilə bu və ya digər şəkildə qarşılaşır. Filosoflar, sosioloqlar, psixoloqlar hələ uzun illər diskussiyalar aparacaq və mübahisə edəcək, yeni nəzəriyyələr yaradacaq və artıq təşəkkül tapmış konsepsiyalardan imtina edərok dilin bütün bəşəriyyət üçün və aynlıqda hər bir xalq üçün nə demək olduğunu anlamağa çalışacaqlar. Lakin bu, indi bəhs etdiyimiz məsələnin mövzusu olmasa da, bir fikri  xalqın milli ruhu ilə onun doğma dili arasında qırılmaz əlaqə olmasını məhz bu kontekstdə nəzərə çarpdırmaq və qabartmaq istərdik. "Xalqın dili onun ruhudur, xalqın ruhu isə onun dilidir" kəlamı kimi hikmətli ifadələr dilin mövcudluğunun və inkişafının sirlərinə nüfuz etmək üçün göstərilən məhz bu cür cəhdlər nəticəsində yaranmışdır. Mənəviyyatla dilin əlaqəsi barədə sadə bir həqiqət bu aforizmdə son dərəcə dəqiq ifadə edilmişdir.

Heydər Əliyev epoxası bütünlüklə yüksəliş epoxasıdır. İqtisadiyyatdan tutmuş mədəniyyətədək müxtəlif sahələrdə yüksəliş epoxasıdır. Əlbəttə ki, dil mənəviyyatın məhz bu yüksəlişini özündə əks etdirməyə bilməzdi. Həm də unudulmamalıdır ki, Azərbaycan dili inkişaf üçün kifayət qədər əlverişsiz şəraitdə olduğu bir vaxtda bu problemə ilk dəfə Heydər Əliyev müraciət etmişdir. Hamıya məlumdur ki, dil ona qarşı zorakılığa dözmür, bu və ya digor dilin işlədilmə sahəsini məhdudlaşdırmaq istəyindən irəli gələn hər hansı siyasi kataklizmlərə son dərəcə həssaslıqla reaksiya verir.

Azərbaycan xalqı bir çox geosiyasi səbəblərə görə mürəkkəb tarixi proseslərin qovuşuğunda qalaraq müxtəlif etnosların, mədəniyyətlərin və konfessiyaların qarşılıqlı təsiri və qarşılıqlı zənginləşməsi şəraitində özünün bütün çoxəsrlik tarixi ərzində dilə son dərəcə qayğıkeş münasibət əxz etmişdir. Bir çox hallarda o, nisbi bilinqvizm ikidillilik şəraitində movcud olmuşdur, buna baxmayaraq, xalq ən ağır və qarmaqarışıq zamanlarda Azərbaycan dilinin yaşaya və inkişaf edə bilməsinə həmişə xüsusi məsuliyyət hissi ifə yanaşmışdır. Heydər Əliyev əsrlərin və minilliklərin qovuşuğunda baş vermiş bu tarixi proseslərə qiymət verərək, ilk növbədə, tarixi kataklizmlər dövrlərində Azərbaycan dilinin yox olmamasına, əksinə, inkişaf etməsinə və zənginləşməsinə görə əvvəlki nəsillərə hamımızın bəslədiyi minnətdarlıq və iftixar hissindən danışırdı. Bu zaman o, həm adlarını bilmədiyimiz və dilə müqəddəs varlıq kimi, milli sərvət kimi yanaşmış miniərlə Azərbaycanlını, həm də bu dili öz yaradıcılığı ilə zənginləşdirən ədəbiyyat və mədəniyyət xadimlərini nəzərdə tuturdu.

Sovet ideologiyası çərçivəsində bu ideologiyanın qızğın məddahları milli dillərə yeni tarixi birliyin vahid rusdilli sovet xalqının formalaşması və təşəkkülü yolunda ancaq əngəl kimi baxırdılar.

Biz Heydər Əliyevin Azərbaycan dilinin inkişafi və zənginləşməsi ilə bağlı fədakarcayına fəaliyyətinə məhz belə mürəkkəb tarixi şərait prizmasından yanaşmalıyıq.

Mübaliğəsiz demək olar ki, XX əsrin son qərinəsi ərzində Azərbaycan dilinin hərtərəfli inkişafı və zənginləşməsi, dövlət dilinə, rəsmi sənədlər dilinə çevrilməsi, gündəlik həyatda, praktikada işlənilməsi, beynəlxalq münasibətlər, dünya diplomatiyası səviyyəsinə çıxması və özünə hörmət

qazanması bütün bunlar Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yorulmaz və çoxşaxəli fəaliyyətinin, daimi diqqət və qayğısının nəticəsidir. O, Azərbaycan dilinin inkişafı üçün, bu dilin insanların mənəvi-əxlaqi və siyasi dünyagörüşünün əsasi olması, cəmiyyətimizdə layiqli yer tutması üçün nə etmək lazım gəldiylni gözəl bilir və duyurdu.

Etiraf etməliyik ki, dilimizin bugünkü səviyyəsi Heydər Əliyevin apardığı son dərəcə dəqiq, uzaqgörən dil siyasətinin azərbaycan xalqı və Azərbaycan dövləti üçün taleyüklü siyasətin nəticəsidir.

1960-cı illərin axırlarından respublikaya rəhbərliyə başlayan Heydər Əliyev özünün zəngin siyasi təcrübəsi, yüksək intellektual qabiliyyəti, milli mədəniyyətimizə, mənəvi meyarlarımıza dərindən bələdliyi sayəsində uzunmüddətli siyasət milli dilin inkişafına və tətbiqinə təkan vermiş siyasət hazırlamış və bülün əngəllərə baxmayaraq, onu dönmədən həyata keçirmişdir.

Ötən əsrin 20-ci illərindən başlayaraq Azərbaycan Xalq Cümhuriyyətinin qısamüddətli mövcudluğu dövrü də daxil olmaqla, milli dövlətçiliyimizin tarixində ana dili ilə bağlı məsələlərə Heydər Əliyev qədər dərindən maraq göstərən, bu məsələləri daim diqqət mərkəzində saxlayan ikinci bir dövlət başçısı olmayıbdır. Onun görkəmli dövlət xadimi Nəriman Nərimanovun fəaliyyətinə verdiyi qiymət də məhz Azərbaycan dilinə münasibət prizmasından formalaşmışdır. Sovet ideologiyası üçün son dərəcə sirli şəxsiyyət olmuş Nəriman Nərimanova millətçi damğası vurulduğu dövrdə Heydər Əliyev onun fəaliyyətinə müraciət etmiş və Azərbaycan dilindən respublikada daha geniş istifadə edilməsi üçün Nərimanovun atdığı addımların mahiyyətini başa düşməyə çalışmışdır. Lakin tarixi reallıqlar elə idi ki, Nərimanov dil siyasəti sahəsində az-çox nəzərəçarpacaq uğurlara nail ola bilməmişdir. Sonralar Heydər Əliyevin dəfələrlə qeyd etdiyi kimi, Nərimanovun qarşılaşdığı çətinliklər o dərəcədə qlobal idi ki, onlan aradan qaldırmaq mümkün deyildi. O, Nərimanovun uğursuzluğunun səbəblərini sadalayaraq göstərirdi ki, əvvəla, xalqın milli özünüdərki kifayət qədər yüksək deyildi, ikincisi isə, Moskva rus dilini bütün sovet respublikaların da dövlət dilinə çevirmək xətti yeridərək SSRİ-nin tərkibinə daxil olan milli qurumlarla zorakılıq və məcburiyyət dilində danışırdı.

Əslində, bu, tariximizin sovet dövründə İttifaq tərkibindəki respublika kimi, Azərbaycanın malik olduğu məhdud səlahiyyətlər çərçivəsində Azərbaycan dilinə yeni status vermək üçün göstərilmiş ilk cəhd idi. Bir tərəfdən qeyd etmək lazımdır ki, Bakıda türkoloji qurultayın keçirilməsi, Azərbaycanın türkdilli ölkələr arasında birinci olaraq latın qrafıkasına tarixi keçidi dil siyasəti sahəsində çox böyük irəliləyiş olmuşdur. Lakin bundan dərhal sonra həmin xətdən fəlakətli surətdə uzaqlaşma baş verdi və sonrakı onüliklərdə Azərbaycan dili, xüsusən əlifbamız bir sıra dağıdıcı eksperimentlər obyektinə çevrildi. Azərbaycan dilini ünsiyyət və dövlət idarəçiliyi sahəsindən sıxışdırıb çıxarmaq üçün sovet dövlətinin yüksək dairələrində və respublika daxilində xeyli əməli tədbirlər görülürdü.

1950-ci illərin ortalarında İosif Stalinin vəfatı və Nikita Xruşşovun elan etdiyi "siyasi mülayimləşmə" ilə əlaqədar Azərbaycan dilinin hüquqlarını özünə qaytarmaq üçün bir sıra cəhdlər göstərildi. Ancaq tələskənlik və problemə səthi yanaşma üzündən bu cəhdlər nəinki siyasi nəticəlor vermədi, əksinə, dilimizin statusunun bəlli məsələsində əlavə əngəllər yaratdı.

Beləliklə, Azərbaycan cəmiyyətində onillərlə yığılıb qalmış iqtisadi, siyasi və sosial problemlərlə yanaşı, Azərbaycan dilinin dövlət dili statusu alması məsələsi də yalnız ötən əsrin 60-cı illərinin sonlarında Heydər Əliyevin ölkəyı rəhbərliyə gılməsindən sonra tam kəskinliyi və aktuallığı ilə gündəliyə çıxarıldı.

1906-cı ilin dekabrında "Molla Nəsrəddin" jurnalında ciddi düşüncələr doğuran son dərəcə ibrətamiz karikatura dərc edilmişdi: Azərbaycanımı yerə yıxaraq və "Ay qardaşlar, mən ki dilsiz xalq olmamışam, bu dilləri ağzıma soxursunuz", deyə nalə çəkməsinə məhəl qoymayaraq onun ağzına bir tərəfdən ərəb, digər tərəfdən fars, üçüncü tərəfdən isə rus dilini təpirlər.

Nə qədər kədərli də olsa, real vəziyyət belə idi. 1994-cü ildə böyük Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin yubileyi qeyd olunarkən Heydər Əliyev onun "Anamın kitabi" əsərinə müraciət etdi. O, acı təəssüf hissi ilə deyirdi ki, Cəlil Məmmədquluzadənin XX əsrin əvvəlində qaldırdığı problemlor bizi bütün yüzillik ərzində izləmiş və əsrin sonunda da öz aktuallığını itirməmişdir. Ananın üç oğlu var: onların biri Rusiyada, digəri Türkiyədə, üçüncüsü isə İranda təhsil almışdır. Onların hər

biri anaya yad olan mədəni dil mühitinin yetirməsidir. Lakin onlar təkcə anaya deyil, bir-birinə də yaddırlar. Üç doğma qardaş öz aralarında, sözün əsl mənasında, ümumi dil tapa bilmir, odur ki, ana dilinin və doğma dilin xəzinəsi onlar üçün bağlı və gərəksiz olmuşdur.

Heydər Əliyev xüsusi olaraq vurğulayırdı ki, bu ananın hisslərini hər bir azərbaycanlı yaxşı başa düşür. Oz oğullarının doğma dilə belə münasibətini görən ananın keçirdiyi ürək ağrıları Heydər Əliyevə də yaxşı tanış idi. Heydər Əliyev özünün bu çıxışını son dərəcə nikbin ruhda bitirdi, lakin bu nikbinliyə zəmin yaratmaq üçün o, uzun illər ərzində titanik fəaliyyət göstərməli olmuşdu. Kədərli do olsa, bu, real gerçəklik idi.

Bəzi istisnalar olmaqla, ancaq rus dilinin əsas ünsiyyət vasitəsi olduğu dövrün irəli sürdüyü təshihlərlə birlikdə bu məyusedici mənzərə XX yüzilliyin 70-ci illərinədək davam eldi. Yaşlı nəslin yaxşı yadındadır ki, keçmiş sovet respublikalarında olduğu kimi, Azərbaycanda da onillər ərzindı bilinqvizm ikidilliiik məcburi surətdə tətbiq edilirdi. Dövlət idarələrində isə rus dilindən geniş istifadə edilməsi hər vasitə ilə təşviq olunurdu ki, bu da milli dilin dövlət dili kimi inkişafi yolunda ciddi əngəllər törədirdi. "Belə olmuşdur, ancaq həmişə belə olmamalıdır". Keçmiş sovet respublikalarının rəhbərləri arasında birinci olaraq Heydər Əliyev milli məsələdə bu cür qətiyyətli mövqe tutdu. O, Mərkəzdən asılı olan, qapalı sistemdə yaşayan və üstəlik, müsəlman-türk respublikası olan Azərbaycanda milli dil siyasətini çox ölçülüb-biçilmiş və hərtərəfli düşünülmüş surətdə həyata keçirirdi. Heydər Əliyev heç vaxt ötəri imic yaradan tələm-tələsik addımlar atmırdı. Bu keyfiyyət hər bir vətəndaşın, ilk növbədə, yaradıcı ziyalıların nümayəndələrinin həddindən artıq həssaslıq göstərdiyi milli dilə onun münasibətində özünü xüsusilə aydın şəkildə təcəssüm etdirirdi. O, hər bir kəsin diqqətini bu problemə cəlb etməklə onu gündəliyə çıxarır və təkcə rəhbərlik səviyyəsində deyil, hənı də zəngin tarixə və mədəniyyətə malik olan bütün xalq səviyyəsində həll edirdi.

Ötən əsrin 70-ci illəri dövlətimizin tarixinə iqtisadiyyatın, sənayenin, tikintinin, rabitənin, nəqliyyatın, sosial və mənəvi həyatın, bütün mədəniyyətin sürətli inkişaf illəri kimi daxil olmuşdur. Bu dövr həm də onunla səciyyəvidir ki, ölkədə qanuniləşdirilmiş ikidillilik şəraitində Azərbay-

can dili tədricən rus dilinin kölgəsindən çıxmağa başlayaraq ictimai şüurda və milli dövlətçilik quruculuğunda öz yerini tuturdu. Bu proses təkamül yolu ilə gedirdi və onu dayandırmaq, yaxud geri döndərmək mümkün deyildi. O vaxtadək yalnız nominal olaraq Azərbaycan Respublikasının dövlət dili hcsab edilən Azərbaycan dili artıq kağız üzərində deyil, real həyatda özünə layiq yer tutmağa başlamışdı.

Şübhəsiz ki, bu, ilk növbədə milli mənlik şüurunun sürətlə inkişafına kömək edir, milli özünüdərk prosesini tezləşdirirdi.

Ana dilinə münasibətin son dərəcə siyasiləşdirildiyi və bir çox hallarda əsassız siyasi ittihamlar üçün zəmin olduğu illərdə Heydər Əliyev Azərbaycan dilinin məişət dili və ədəbi dil səviyyəsindən dövlət dili səviyyəsinə qaldırılmasına yönəldilmiş fəaliyyəti ilə kifayətlənmir, həm də özünün şəxsi nümunəsiylə dilimizin nüfuzunu artırır, onun elmi şəkildə öyrənilməsi və geniş yayılması üçün stimullar yaradırdı. Məhz Heydər Əliyevin rəhbərliyi və iştirakı ilə 1970-ci illərin əvvəllərindən etibarən Azərbaycan dilindən dövlət əhəmiyyətli tədbirlərdə istifadə edilməyə başlandı. Heydər Əliyev yaradıcılıq təşkilatlarının, xüsusən Yazıçılar İttifaqının qurultaylarında, genişmiqyaslı yubiley tədbirlərində çıxış edərək Azərbaycan dilində səlis və gözəl danışmaq məharəti nümayiş etdirir, bununla da ziyalılarımızın diqqətini ana dilinin inkişafına yönəldirdi.

Azərbaycan Milli Elmlər Akademiyasının tərkibində ayrıca Dilçilik İnstitutu olan təktük sovet respublikasından biri idi. Heydər Əliyev dilçilik elminə, Azərbaycan dilinin problemlərinin öyrənilməsinə, onun mükəmməl qrammatikasının yaradılmasına, milli terminologiyanın inkişafına xüsusi qayğı göstərirdi. Onun yaxından iştirakı və dəstəyi sayəsində Azərbaycan dilçilərinin bir sıra əsərləri, o cümlədən dördcildlik "Müasir Azərbaycan dili" kitabı respublika Dövlət mükafatına layiq görüldü. Türk dillərinin müqayisəli şəkildə öyrənilməsi üçün məhz Heydər Əliyevin fəal dəstəyi ilə 1970-ci ildə Bakıda mötəbər "Sovetskaya tyurkologiya" Ümumittifaq jurnalı təsis olundu.

Jurnalı Azərbaycan Elmlər Akademiyası SSRİ Elmlər Akademiyası ilə birlikdə nəşr edirdi. Sovet respublikaları arasında ilk dəfə olaraq Azərbaycan Dövlət Universitetində Türkologiya kafedrası yaradıldı,

Heydər Əliyevin təşəbbüsü və səyləri sayəsində Azərbaycan Yazıçılar İttifaqının qurultayında (1981ci il) Cənubi Azərbaycan ədəbiyyatı haqqında xüsusi məruzə dinlənildi, Yazıçılar İttifaqının Cənubi Azərbaycan ədəbiyyatı üzrə katibi ştatı yaradıldı, Elmlər Akademiyasında müvafiq şöbə açıldı, ədəbiyyat və mədəniyyətimizin bu ayrılmaz hissəsiniıı tədqiqi, öyrənilnıəsi və sistemli şəkildə nəşri sahəsində iş başlandı.

Əlbəttə, respublikalarda milli özünüdərk və inkişaf prosesinin sovet rəhbərliyinin müqaviməti ilə qarşılaşdiği, milli mənlik şüurunun yüksəlişinə kömək edən yeni meyillərin və təşəbbüslərin qarşısının sərt şəkildə alındığı bir şəraitdə bütün bu sadaladıqlarımızın həyata keçirilməsi Heydər Əliyevdən böyük cəsarət, qətiyyət, prinsipiallıq və yenilməzlik tələb edirdi. Lakin Azərbaycanda Heydər Əliyevin ölkəyə rəhbərliyə gəlməsindən sonra başlanmış milli-mədəni dirçəliş heç də həmişə müsbət qiymətləndirilmirdi və müəyyən dairələr tərəfindən, xüsusən İttifaq rəhbərliyini Azərbaycanın əleyhinə qaldırmaq, türk azərbaycanlılara qarşı etimadsızlıq və şəkk yaratmaq üçün dəridənqabıqdan çıxan ermənilər tərəfindən əsassız siyasi İttihamlarla, yalan və böhtan kampaniyaları ilə müşayiət olunurdu.

Ana dili məsələsində məhz Heydər Əliyevin tutduğu prinsipial, qətiyyətli mövqe sayəsində və qızğın fəaliyyəti nəticəsində Azərbaycan Respublikasının 1977-ci ildə qəbul edilmiş Konstitusiyasına azərbaycan dilinin Azərbaycan Respublikasının dövlət dili olduğu barədə məşhur 73-cü maddənin daxil edilməsinə nail oldu. Həmin dövrdə Azərbaycan milli dilə Konstitusiya qanunu səviyyəsində dövlət statusu vermiş üç keçmiş sovet respublikasından biri və yeganə türkmüsəlman respublikası idi.

Şübhəsiz ki, bu uzaqgörən tarixi addım Heydər Əliyevin ana dilinə dövləti münasibətinin və siyasi əzmkarlığının parlaq təzahürü idi. Heydər Əliyev özü o vaxtı belə xatırlayırdı: "Bu maddə Moskvada çox böyük etiraza səbəb oldu. Belə izah edirdilər ki, başqa respublikalarda bu yoxdur, buna ehtiyac yoxdur...

Ancaq o vaxt mən Sovetlər İltifaqının rəhbərliyi ilə, Kommunist Partiyasının rəhbərliyi ilə çox gərgin danışıqlar apardım. Sübut etməyə çalışırdım ki, biz dövlət dilinin Azərbaycan dili olduğunu öz Konstitusiyamı-

za yazmalıyıq və yazacağıq" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 4cü cild, səh. 427).

İndi inamla təsdiq etmək olar ki, Heydər Əliyevin 1970-80-ci illərdə milli dil sahəsində apardığı fəal siyasət Azərbaycanda milli dirçəliş, milli mənlik şüurunun inkişafı prosesini sürətləndirdi və əslində, Azərbaycan xalqını milli müstəqillik və milli dövlətçilik əldə etməyə hazırladı.

Müstəqil Azərbaycan dövlətinə rəhbərliyinin ilk günlərindən Prezident Heydər Əliyevin, yeni tarixi şəraitin ruhuna və tələblərinə uyğun olaraq azərbaycan dilinə göstərdiyi qayğı və diqqət həm siyasi, həm də əməli baxımdan fərqlənir. Əvvəla, azərbaycan dilinin şərtsiz və şəriksiz dövlət dili olması faktı göz qabağındadır. Müstəqillik illəri ölkə Prezidentinin öz ana dilini necə mükəmməl bildiyini və istər çıxışlarında, istərsə də əhali ilə görüşlərində bu dilin imkanlarından necə məharətlə istifadə etdiyini göstərdi. Digər tərəfdən, Prezident Heydər Əliyevin yorulmaz fəaliyyəti sayəsində Azərbaycan dili dövlətlərarası münasibətlər dili, siyasi dialoqlar və diplomatik danışıqlar dili oldu, onlarca ölkədə səslənərək hər yerdə dövlət başçısının öz doğma dilinə məhəbbətini əks etdirdi. Nəhayət, müstəqil dövlət quruculuğunun bütün çətinliklərinə və mürəkkəbliyinə baxmayaraq, Heydər Əliyev ana dilinə diqqət və qayğını bir an belə unutmurdu.

1992-ci ildə Azərbaycanda bir çox Konstitusiya və hüquq normaları pozularaq Azərbaycan dilinin adının dəyişdirilməsi haqqında qərar qəbul edirdi. Bununla əlaqədar səsini çıxarmağa və qəti etirazını bildirməyə cürət etmiş Azərbaycan alimlərinin kiçik bir qrupu, sadəcə, həbs olundu və xuliqanlıq edən ünsürlər kimi polis şöbəsinə aparıldı. Əslində, Azərbaycan dilinə qarşı mənəvi vandalizm aktı törədildi. Məktəb dərsliklərinin adları tələm-tələsik dəyişdirilməyə başlandı ki, bu da böyüməkdə olan nəslin şüurunda çox böyük dolaşıqlıq və çaşqınlıq "yaradırdı. O vaxt Heydər Əliyev Naxçıvanda öz yaxın silahdaşlarının məhdud dairəsində həmin qərarın qeyri-elmiliyini və siyasi nadanlığını məyusluqla və təəssüflə izah edirdi. Lakin o vaxt həmin düşünülməmiş qərarı qəbul edən şəxslərə hər hansı bir təsir göstərmək imkanı yox idi.

On-on beş adam məsələni bütün Azərbaycan xalqı adından həll etmək ixtiyarını öz əllərinə keçirmişdi. Ancaq xalq öz seçimi ilə Heydər Əliyevə Azərbaycan dovlətində ən yüksək hüquqlar verdikdə do, o, səhvlərin düzəldilməsi üçün birbaşa inzibatçılıq yolu ilə getmədi. Elmi-tədqiqat müəssisələrində, ali məktəblərdə, Elmlər Akademiyasında çoxlu müzakirə aparıldı.

Bu müzakirələrin gedişində sırf elmi dəlillər öncül əhəmiyyət kəsb edirdi. Həmin tədbirlərdə az-çox maraq doğuran hər bir fakt barəsində dövlət başçısının məlumatının olınası, alimlərin hər bir fikrinə hətta onun öz mövqeyinə uyğun gəlməsə də diqqət və qayğı ilə yanaşması adamı heyran edir. O, bir neçə müzakirədə şəxsən iştirak etmişdi. Lakin son sözü deməyi xalqın ixtiyarına buraxdı. Dilin adı yeni Konstitusiyanın layihəsində öz əksini tapdı və referenduma çıxarıldı. Beləliklə, dünyada geniş yayılmış "azərbaycan dili" anlayışının qanuni haqqı özünə qaytarıldı. Dövlətimizin başçısı haqlı olaraq vurğulamışdı ki, bu qərarın qəbul edilməsi "həm keçmişimizə hörmət, həm də gələcək nəsillər üçün böyük bir sərvətdir. Mən hesab edirəm ki, biz çox düzgün və əsaslı qərar qəbul etmişik" (Yenə orada, səh. 476).

Qeyd etmək lazımdır ki, Azərbaycan cəmiyyətində son dorəcə geniş və müsbət əks-səda doğurmuş bu qərarı Prezident avtoritar, inzibati-bürokratik yolla deyil, bilavasitə elmi və inandırıcı dəlil-sübutlarla reallaşdırmışdır. Konstitusiya komissiyasının iclaslarında, Azərbaycan Elmlər Akademiyasında və Prczident sarayında keçirilən müşavirələrdə Heydər Əliyevin azərbaycan dilinin mənşəyi və qaynaqları, tarixi inkişaf yolları, türk dilləri ailəsində yeri, sovet hakimiyyəti illərində dilimizə qarşı törədilmiş zorakılıqlar və dilimizin müasir inkişaf yolları haqqında söylədiyi və yüksək peşəkarlığı, dərin elmi məzmunu ilə seçilən mülahizələri onun dövlət dilinə məhəbbətinin və qayğısının daha bir təzahürü idi.

Beləliklə, Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasında millətin özünütəsdiqi üçün çox vacib olan siyasət, onun hələ ötən əsrin 70-ci illərində başladığı siyasət uğurla həyata keçirildi dilimizə tam dövlət dili statusu verilməsi və dövlət idarəçiliyinin bütün sahələrində fəal istifadə edilməsinin təmin olunması vəzifəsi gerçəkləşdirildi. Azərbay-

can dili cəmiyyətdə öz həqiqi yerini tutdu. Bu isə yalnız və yalnız çoxillik ardıcıl, ən başlıcası isə, ölçülüb-biçilmiş və dərindən düşünülmüş dövlət tədbirlərinin görünməsi nəticəsində mümkün olmuşdu.

Biz son illərdə dünyada Heydər Əliyev şəxsiyyətinə böyük marağın olduğunun şahidiyik. Azərbaycanın sabiq prezidentinin şəxsiyyəti, həyat yolu, dövləti və siyasi fəaliyyəti haqqında müxtəlif ölkələrdə ayrı-ayrı dillərdə kitablar nəşr edilmişdir və edilir, məqalələr dərc olunur. Bunların bir çoxunda əsas diqqət onun tam siyasi portretinin yaradılmasına verilir. Heydər Əliyev dərin zəkalı, ensiklopedik biliyə, son dərəcə geniş dünyagörüşünə malik şəxsiyyət kimi səciyyələndirilir. Tamamilə haqlı olaraq vurğulanır ki, onun genişm-qyaslı fəaliyyətini təkcə siyasi mübarizə ilə məhdudlaşdırmaq olmaz. Onun başlıca keyfiyyəti quruculuq fəaliyyətidir. Heydər Əliyevin heyranedici uzaqgörənliyi, titanik fəaliyyəti sayəsində müasir müstəqil Azərbaycan dövləti yaradılmışdır. O, ölkənin dövlət müstəqilliyinin sarsılmazlığını və dönməzliyini, Azərbaycanın siyasi, iqtisadi və mədəni inkişafını təmin etmişdir. Heydər Əliyev Azərbaycanın bu gün də irəlilədiyi yolu açmışdır.

Zəmanəmizin bu dahi ictimai-siyasi xadirni və mütəfəkkirinin zəngin irsi, şübhəsiz, hələ gələcək tədqiqatçdarını gözləyir.

Bu şəxsiyyəti son 30 ildən çox bir zaman ərzində Azərbaycanda və ümumiyyətlə, bütün postsovet məkanında baş vermiş hadisələrdən kənarda təsəvvür etmək mümkün deyildir. Onun Azərbaycanın inkişafındakı müstəsna rolu, dəyərli fikir və mühakimələri gələcəkdə "Heydər Əliyev və Azərbaycan elm və təhsili", "Heyder Əliyev və Azərbaycan ədəbiyyatı və mədəniyyəti", "Heydər Əliyev və Azərbaycanda ictimai-siyasi fikrin inkişaf mərhələləri", "Heyder Əliyev və azərbaycanlıların milli dirçəlişi" və digər mövzularda dərin tədqiqat əsərlərinin yaranacağına şübhə doğurmur.

Bu baxımdan, zənnimizcə, "Heydər Əliyev və azərbaycan dili məsələləri" mövzusu daha geniş və çoxsəpkilidir.

Mənə uzun illər ərzində Heydər Əliyevlə birlikdə, onun rəhbərliyi altında işləmək kimi çox böyük şərəf nəsib olmuşdur. Şəxsi müşahidələrimə və gəldiyim nəticələrə, şahidi olduğum faktlara və hadisələrə əsasla-

naraq deyə bilərəm ki, Azərbaycan xalqının bu dahi oğlu ilə bağlı tədqiqatlar aparmaq dərin bilik, yaradıcılıq axtarışları və əsl vətənpərvərlik tələb edir.

Heydər Əliyevin natiqlik istedadı, Azərbaycan dilinin imkanlarından özünə xas olan məharətlə istifadə etməsi, onun şifahi nitqinin kamilliyi və üslub xüsusiyyətləri hətta mütəxəssisləri də heyran edir. Dövlət quruculuğu, ölkənin ictimai-siyasi və sosial-iqtisadi həyatına rəhbərlik sahəsində gərgin və misilsiz fəaliyyəti, beynəlxalq həyatda aktiv iştirakı ilə ümumxalq hörməti və məhəbbəti qazanmış Prezident Heydər Əliyev həm də əvvəlcədən hazırlanmış mətn olmadan ən mürəkkəb, çətin mövzular barədə parlaq çıxışları və nitqləri ilə məşhurdur. Onun natiqlik məharəti, dərin zəkası və möhkəm məntiqi şəkkakların müqavimətini qırır, onları bu və ya digər qərarın düzgünlüyünə inandırırdı.

Bəzi siyasi qruplaşmalar və onların liderləri silah gücünə, xarici qüvvələrin dəstəyilə hakimiyyətə gələndən sonra hətta həmin qüvvələrin köməyilə də hakimiyyətdə qala bilmədikləri halda, Heydər Əliyev öz sözüylə milyonları səfərbər edir, dəmir məntiqi ilə düşmənləri susmağa vadar edir, natiqlik istedadı, özünün haqlı olduğuna sarsılmaz inamıyla xalqı Azərbaycanın tərəqqisi naminə sıx birləşdirirdi. Bu baxımdan ikicə misal çəkəcəyəm.

**1993-cü ilin iyunu.** Respublika dağılır, hakimiyyət tam iflic vəziyyətində idi. Siyasi fəlakət və yalnız formal surətdə hakimiyyətdə olan insanların tam fərsizliyi göz qabağında idi. Belə bir şəraitdə Heydər Əliyev parlamentin sədri seçildi. Onun siyasi düşmənləri və bədxahları ciddcəhdlə belə bir şayiə yayırdilar ki, onların vəziyyəti sabitləşdirmək üçün əl atmağa məcbur olduqları bu son tədbir də, görünür, uğurla nəticələnməyəcək, çünki sərəncamında bürokratik maşını, idarəetmə mexanizmləri olmayan Heydər Əliyev ölkəni böhrandan çıxara bilməyəcəkdir. Onlar faktları təsbit etməkdə, bəlkə də, haqlı idilər. Heydər Əliyevin şəxsiyyətinin və onun imkanlarının qiymətləndirilməsinə gəldikdə isə, büsbütün yanılırdılar.

Heydər Əliyev qaynar fəaliyyəti ilə yanaşı, təmiz Azərbaycan dilində söylədiyi dərin məzmunlu nitqləri ilə 1993-cü ilin ortaların da, sanki həll

Edilməz məsələni həll etdi. Bu, ən yüksək parlamentarizm dərsləri, nadir natiqlik məharəti, bənzərsiz siyasi müdriklik dərsləri idi. Azərbaycan xalqi bir neçə ay ərzində Heydər Əliyevin və onun opponentlərinin parlament iclaslarından televiziya ilə yayımlanan çıxışlarını izlədi. Heydər Əliyevin çıxışları elə bir təsir gücünə malik idi ki, sözə bu gücü onun düzgünlüyündən savayı heç nə verə bilməz.

İkinci misal  1994cü ilin oktyabrında onun televiziya ilə xalqa müraciəti. Dövlət çevrilişi cəhdi haqqında xəbəri eşidən on minlərlə insan həmin müraciətdən sonra Prezident sarayının qarşısına toplaşdı, Heydər Əliyevi fəal surətdə dəstəklədi.

Müasir dövrdə siyasi mübarizədə, dövlətin idarə olunmasında dil amilindən Heydər Əliyev qədər məharətlə istifadə edə bilən ikinci bir dövlet başçısının, siyasi xadimin adını çəkmək çətindir. Bu, ilk növbədə, onun ana dilinə, öz xalqını arzu və istəklərinə dərindən bələd olması ilə bağlıdır. O, çıxışlarının birində demişdir: "Mən hər bir dilə öz hörmət və ehtiramımı bildirirəm. Amma hesab edirəm ki, öz dilimizlə, Azərbaycan dili ilə hər birimiz fəxr edə bilərik. Çünki bu, zəngin dildir, artıq dünyada tanınmış dildir. Xalqımızın adı da tanınıb, respublikamızın adı da tanınıb, dilimizin adi da tanınıb. Bu, reallıqdır" (Yenə orada, səh. 462).

Tam əminliklə deyə bilərik ki, o özünün çoxillik yorulmaz, titanik fəaliyyəti ilə təkcə Azərbaycan dövlətinin deyil, həm də Azərbaycan xalqının nüfuzunu yüksəltmişdir.

Heydər Əliyev öz şəxsi nümunəsi ilə Azərbaycan dilini sevməyi, qoruyub saxlamağı öyrədirdi. Neçə il Azərbaycandan kənarda, rusdilli mühitdə yaşaması və işləməsinə baxmayaraq, o öz xalqına, dilinə diqqət və qayğısını bir an belə unutmamışdır. Yuxarıda dediyimiz kimi, dil öz varlığına görə xalqa borcludur, lakin ədəbiyyat və mədəniyyətin inkişafı xeyli dərəcədə dövlət başçısı tərəfindən formalaşdırılan münasibətlər sistemindən və mühitdən asılıdır. Bu mənada, Heydər Əliyev hətta ən çətin vəziyyətlərdə də dilin varlığı və inkişafı üçün ən əlverişli şərait yaradılmasına çalışırdı. Müstəqil dövlət şəraitində isə bu fəaliyyət nəinki onun şəxsi nəzarətində idi, həm də büquqi xarakter və daha geniş miqyas almışdır.

İndi biz Azərbaycan vətəndaşlarının mənəvi birliyinin əsası kimi "azərbaycançılıq" ideologiyasını, cəmiyyətin həyatında, ölkə əhalisinin vətənpərvərlik və Azərbaycana məhəbbət ruhunda tərbiyəsində onun birləşdirici rolunu təbliğ edir, haqqında elmi məqalələr yazırıq. Lakin unutmamalıyıq ki, bu ideologiyanın ideya ilhamçısı və yaradıcısı Heydər Əliyev olmuşdur. 1992-1993-cü illərdə ölkəyə rəhbərlik edənlərdən fərqli olaraq, Heydər Əliyev obyektiv surətdə cəmiyyətin sosial problemlərə və münaqişələrə qiymət verən, cəmiyyətin və dövlətin proqram məqədlərini əhatə edən ideyalar sisteminə ehtiyacı olduğuna bir an belə şübhə etmirdi. Nə qədər paradoksal olsa da, faktdır ki, SSRİ adlandırılan sovet dövlətinin liderlərindən biri olan Heydər Əliyev daim öz vətəninin gələcək taleyini düşünmüş, Sovet İttifaqı rəhbərliyinin azərbaycanlılara heç də birmənalı münasibət bəsləmədiyi şəraitdə öz xalqının həyatda qalmasının yollarını və formalarını axtarmışdır. Cənubi Qafqazın tarixinə gözəl bələd olan Heydər Əliyev Azərbaycan xalqının keçmişdə necə ağır sınaqlara məruz qaldlğını, xalqının tarixi torpaqlarından çıxarılması üçün nə kimi tədbirlərə və cəhdlərə əl atıldığını yaxşı bilirdi. Heydər Əliyev ötən əsrin 70-ci illərindən etibarən həyatım bütünlüklə öz vətəninin tam sahibi kimi Azərbaycan xalqının dirçəlişinə həsr etmişdir. Ona görə də əminliklə demək olar ki, bu gün biz bünövrəsi hələ ötən əsrin ikinci yarısında qoyulmuş işlərin bəhrosini görürük.

Heydər Əliyev "azərbaycançılığı" bir ideologiya olaraq irəli sürməklə ölkənin dağılması, ərazisinin etnik əlamətlərə görə parçalanması təhlükəsinin qarşısını almaq vəzifəsini həll etdi. Bu onun çox böyük vətəndaş hünəri idi və şübhəsiz, aktual milli vəzifələrin həlli üçün bütün dünya azərbaycanlılarının öz vətənləri azərbaycan ətrafında birləşməsinə töhfəsini verəcəkdir.

Türk yazılı abidələrinin birində millətin, dövlətin mövcudluğunu təmin edən üç əsas şərtdən bəhs olunur. Dilin qorunub saxlanması, xalqın qorunub saxlanması və ənənələrin qorunub saxlanması. Heydər Əliyev bu şərtlərə dönmədən sadiq qalmışdır. Onun müdrik siyasəti sayəsində Azərbaycan dili dünyanın siyasi xəritəsində öz layiqli yerini tutan dövlətimizin rəsmi dili olmuş, ölkəmizin müstəqilliyi dönməz xarakter almışdır,

xalqımız isə mənəvi irsini göz bəbəyi kimi qoruyur və inkişaf etdirir. Mübaliğəsiz demək olar ki, Heydər Əliyevin zəngin irsi XXI əsrin müstəqil dövləti kimi Azərbaycanın gələcək inkişaf və tərəqqi yolunu müəyyən edən etibarlı səmt göstəricisidir və daim belə olacaqdır.

**Ramiz MEHDİYEV,**
**fəlsəfə elmləri doktoru, professor**

*24 aprel, 2004*








ВАГИФ








AZƏRBAYCAN
RESPUBLİKASI




























Assemblée
parlementaire
Council of Europe
Conseil de l'Europ


HEYDƏ
ƏLİYE














Möhtaram Prezident!








ŞAGİRD YERLİK ORTA MƏKTƏBİN









# MÜNDƏRİCAT

Ön söz (Rəbiyyət ASLANOVA)……………………………………………7

## I FƏSİL

## CANLI HƏYATDAN NƏZƏRİYYƏYƏ

XXI əsrdə milli dovlətçilik: demokratik inkişaf və müxalifət
(Ramiz MEHDİYEV, fəlsəfi elmləri doktoru)…………………………….19

## RƏYLƏR

1. Demokratik dövlət quruculuğu və siyasi plüraüzm
(Səlahəddin XƏLİLOV)……………………………………………………...93
2. XXI əsrdə milli dövlətçilik və dcmokratik inkişaf
("'Azərbctycan" qəzetində keçirilmiş "Dəyirmi masa"nın stenoqranu)…..101
3. Azərbaycan müxalifətinin keyfiyyətcə yeniləşməsinə
böyük ehtiyac var (Vəli HƏBİBOĞLU)…………………………………..123
4. Milli intibahın konseptual istiqaməti
(İxtiyar HÜSEYNLİ)……………………………………………………..133
5. Siyasi lider: hakimiyyət və idarəçilik potensialı (Nazim İSAYEV)…143
6. Çətin və uğurlu quruculuq illəri (Səttar SƏFƏROV)………………..155
7. Müstəqil dövlət quruculuğu prosesini tarixin yaddaşına olduğu
kimi yazaq (Bəxtiyar SADIQOV)………………………………………..167

## II FƏSİL

## İKİ ƏSRİN DAHİSİ

Əsl vətəndaş, böyük şəxsiyyət və qüdrətli lider haqqında
bəzi düşüncələr (Ramiz MEHDİYEV)…………………………………181

## *RƏYLƏR*

1. Vətəndaş, şəxsiyyət və lider haqqında mükəmməl
elmifəlsəfi əsər (Seyfəddin QƏNDİLOV)………………………………..233
2. Heydər Əliyevin Azərbaycan tarixində vətəndaş, şəxsiyyət və

lider kimi rolu (Bzxtiyar SADIQOV)……………………………………241
3. Heydər Əliyevin həyat yolu xalqımızın millitarixi yaddaşının böyük bir mərhələsidir (İradə ƏLİYEVA)………………………………251
4. Xalqı ilə yüksələn, zamanın fövqündə dayanan insan (Bariz ƏSƏDOV)…………………………………………………261
5. Qurucu insan haqqında layiqli söz (Raqif MƏMMƏDOV) ……………………………………………269
6. Milli dövlətimizin qurucusu (Zeynal VƏFA)………………………..275
7. Millimənəvi dəyərlərə çağırış və qayıdış (Flora XƏLİLZADƏ)……………………………………………………285

**III FƏSİL**

**DÜNYA FİKİR XƏZİNƏSİNƏ VERİLƏN QİYMƏTLİ İNCİ**

"Heydər Əliyev irsi dünya siyasi elminin qiymətli nailiyyətinə çevriləcək" (Professor Ramiz Mehdiyevlə müsahibə)………295

**RƏYLƏR**

1. Heydər Əliyev xalqımızın yetirdiyi ən qüdrətli tarixi şəxsiyyətdir (Samir ELMANOGLU)……………………………313
2. Prezident İlham Əliyev bütün sahələrdə müsbət nəticələr əldə olunması üçün siyasi iradə nümayiş etdirir (Validə İSMAYILOVA)…………………………………………..319
3. Azərbaycan dövlətinin təməli sarsılmazdir (Elşad MİRALƏM)……………………………………………………..325

**IV FƏSİL**

**UĞUR VƏ İNKİŞAF KONSEPSİYASI**

"Azərbaycan: tarixi irs və müstƏqillik fəlsəfəsi" (Xülasə) 333

***RƏYLƏR***

1. Qloballaşan dünya sivil mübarizəni qəbul edir

(Bəxtiyar SADIQOV)……………………………………………………339
2. Azərbaycan qloballaşan dünyanın təsir məkanı
(Xalid NİYAZOV)………………………………………………………….347
3. Qloballaşma dövründƏ azərbaycanlı "mən"i getdİkcə
daha çox nüfUz qazanır (Validə İSMAYILOVA)……………………….357

## V FƏSİL

## YENİ DÖVR, YENİ LİDER

"Azərbaycan: qloballaşma dövrünün tələbləri" (Xülasə) ………………...367

## *RƏYLƏR*

1. Azərbaycan qloballaşma dövrünə sosialsiyasi inkişaf və
Millı-mənəvi dəyərlərə sədaqət hissi ilə qədəm qoyur
(Seyfəddin QƏNDİLOV) ………………………………………………..377
2. "Biz öz taleyimizi özümüz müəyyən edirik"
(Lyudmila LAVROVA)…………………………………………………..389
3. Müasir dünya inkişafının reallıqları və "milli suverenlik" prinsipi
(Rəbiyyət ASLANOVA)…………………………………………………395
4. Qloballaşan dünyada Azərbaycanın yeri (Nicran HÜSEYNOVA)…407
5. Qloballaşma və dövrün tələbləri (Səlahəddin XƏLİLOV)…………417
6. Tarixi keçmişin layiqli salnaməsi, uğurlu gələcəyin
fundamental tədqiqatı (Vəli HƏBİBOĞLU)……………………………..425
7. Azərbaycan qloballaşma qovşağında (Azad NƏBİYEV)……………437
8. Tarixi keçmişimizin və gələcək tərəqqi salnaməmizin
fundamental tədqiqat əsəri
(İsmayıl MƏMMƏDOV) ………………………………………………...447
9. Heydər Əliyev siyasi irsi tükənməz xəzinədir
(Alış QASIMOV)…………………………………………………………453

## VI FƏSİL

## XALQIN NÖVBƏTİ MÜDRİK SEÇİMİ

"2005ci il parlament seçkiləri: ilkin təhlil
(mülahizələr, nəticələr və proqnozlar)" (Xülasə) ……………………...463

## *RƏYLƏR*

1. Uğurlu seçki strategiyasına elmi-konseptual baxış
(Məhəmməd İMANLI).....................................................469
2. Xalqın Prezident İlham Əliyevə olan inamı iqtidarın növbəti
seçki müvəffəqiyyətini təmin etdi (Seyfəddin QƏNDİLOV)...............477
3. Azərbaycanda parlament seçkiləri və ölkənin inkişaf perspektivləri
("Azərbaycan" qəzetində keçirilmiş "Dəyirmi masa"nın stenoqramı).......485
4. Müasir tariximizin fundamental tədqiqat əsəri
(Alış QASIMOV).....................................................499
5. Təkamülə əsaslanan demokratik inkişaf
(Hüseyn İSMAYILOV)..................................................511
6. Sosial-iqtisadi islahatlar kursunun təntənəsi
(Müşfiq ATAKİŞİYEV).................................................525
7. Demokratiyaya açılan qapılar
(Tahir RZAYEV)......................................................537
8. Düzgün mənəvi seçimə kömək edə bilən kitab
(Elmira ƏLİYEVA)....................................................545
9. Demokratiya sınağı (Vladimir MOROZKOV).............................551

## VII FƏSİL

## NƏZƏRİ TƏDQİQATLAR

Müasir Azərbaycan fəlsəfi fikrinin aktual problemləri
(Ramiz MEHDİYEV)....................................................559
Heydər Əliyevin siyasi portretinin cizgiləri
(Ramiz MEHDİYEV)....................................................565

Yığılmağa verilib: 01.09.2006. Çapa imzalanıb: 02.10.2006.
Formatı: 70x100 $^{1}/_{16.}$ Həcmi: 36,5.
Sifariş 138. Tiraj: 1000.